# شَرْحُ

# رياض الصالحين

## مِن كَلَامِ سَيِّدِ الْمُرْسَلِين

لفضيلة الشيخ العلامة

محمد بن صالح العثيمين

المجلد الخامس

قَالَ رَسُولُ اللَّهِ ﷺ :

﴿ أَلا إِنِّي أُوتِيتُ الْقُرْآنَ وَمِثْلَهُ مَعَهُ ﴾

**Peyğəmbər ﷺ buyurmuşdur: "Bilin ki, mənə Quran və onun bənzəri verilmişdir".**

Şərh

# Riyadus-Salihin

İmam ən-Nəvəvi

Şərh edən:

Muhəmməd ibn Saleh əl-Useymin

Beşinci cild

**Redaksiya heyəti**

Ə. Z. Musayev
M. N. Qarayev
A. X. Salehli
Əbu Muhəmməd
E. Q. Rüstəmov

**Kompüter tərtibatı**

M. N. Qarayev

# Yüz səksən beşinci fəsil

## Dəstəmazın fəziləti

**Mövzu ilə əlaqəli ayə:**

Uca Allah buyurur:

﴿ يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓا۟ إِذَا قُمْتُمْ إِلَى ٱلصَّلَوٰةِ فَٱغْسِلُوا۟ وُجُوهَكُمْ وَأَيْدِيَكُمْ إِلَى ٱلْمَرَافِقِ
وَٱمْسَحُوا۟ بِرُءُوسِكُمْ وَأَرْجُلَكُمْ إِلَى ٱلْكَعْبَيْنِ ۚ وَإِن كُنتُمْ جُنُبًا فَٱطَّهَّرُوا۟ ۚ وَإِن كُنتُم مَّرْضَىٰٓ أَوْ عَلَىٰ سَفَرٍ
أَوْ جَآءَ أَحَدٌ مِّنكُم مِّنَ ٱلْغَآئِطِ أَوْ لَـٰمَسْتُمُ ٱلنِّسَآءَ فَلَمْ تَجِدُوا۟ مَآءً فَتَيَمَّمُوا۟ صَعِيدًا طَيِّبًا فَٱمْسَحُوا۟
بِوُجُوهِكُمْ وَأَيْدِيكُم مِّنْهُ ۚ مَا يُرِيدُ ٱللَّهُ لِيَجْعَلَ عَلَيْكُم مِّنْ حَرَجٍ وَلَـٰكِن يُرِيدُ لِيُطَهِّرَكُمْ
وَلِيُتِمَّ نِعْمَتَهُۥ عَلَيْكُمْ لَعَلَّكُمْ تَشْكُرُونَ ﴾

**“Ey iman gətirənlər! Namaza qalxdığınız zaman üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun, başınıza məsh çəkin və topuqlara qədər ayaqlarınızı *yuyun*. Əgər cunub olmusunuzsa, qüsl edin. Əgər xəstə və ya səfərdə olsanız, yaxud sizlərdən biri ayaqyolundan gəlibsə və ya qadınlarla yaxınlıq etmisinizsə, su tapmasanız təmiz torpaqla təyəmmüm edin və ondan üzünüzə və əllərinizə sürtün. Allah sizi çətinliyə salmaq istəməz, fəqət O sizi pak etmək və sizə olan nemətini tamamlamaq istər ki, bəlkə şükür edəsiniz”.**[1]

**Şərh:**

Müəllif ﷺ “Salehlər bağçası” adlı kitabındakı bu fəslə **“Dəstəmazın fəziləti”** adını vermişdir.

Dəstəmaz, ərəb dilindəki *“vudu”* (gözəllik və təmizlik) sözündən götürülmüşdür. Şəriətdə isə dörd əzanı xüsusi şəkildə təmizləməyə deyilir. Həmin dörd əza bunlardır: üz, əllər, baş və ayaqlar. Dəstəmaz uca Allahın bu ümmətə bəxş etdiyi nemətlərdən biridir. Belə ki, Allah bu ümmətə dəstəmaz almağı əmr etmiş və onlara bu fəsildə, inşəAllah, qeyd olunacaq savabları tərtib etmişdir.

---

[1] “əl-Maidə” surəsi, 6.

Uca Allah buyurur: **“Ey iman gətirənlər! Namaza qalxdığınız zaman üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun, başınıza məsh çəkin və topuqlara qədər ayaqlarınızı** ***yuyun*****”.**

**“Ey iman gətirənlər!”** Əgər eşitsən ki, Allah: **“Ey iman gətirənlər!”** deyir, diqqət yetir və eşit. Ya xeyirli bir işə əmr olunacaqsan, ya şər bir əməldən çəkindiriləcəksən, ya da ki, faydalanacağın bir xəbər sənə veriləcəkdir. Bunlar üç qisimdir: əmr olunacaq xeyir, qadağan olunacaq şər, faydalanacağın doğru xəbər. Burada uca Allah belə buyurur: **“Ey iman gətirənlər! Namaza qalxdığınız zaman”,** yəni fərz və ya nafilə namazını qılmaq istədikdə: **“üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun...”**

**“Üzünüzü yuyun”.** Uca Allah üzdən əvvəl əllərin yuyulmasını buyurmur. Çünki əllərin üzdən öncə yuyulması vacib deyil, sünnədir. Üz deyildikdə isə eninə – bir qulaqdan digər qulağa qədər olan hissə və uzununa – alının yuxarısından çənənin altına qədər olan hissə nəzərdə tutulur. Ağızın və burunun yuyulması da buna aiddir. Ərəbcə ağızı yumağa “mədmədə”, burunu yumağa isə “istinşaq” deyilir.

**“və dirsəklərə qədər əllərinizi yuyun”,** yəni əllərinizi dirsəklərinizə qədər yuyun. Dirsək bazu ilə saidin birləşdiyi oynağa deyilir. Dirsəyin özü də yuyulmalıdır, çünki Peyğəmbər ﷺ qollarını yuduqda dirsəklərini də yuyardı.

**“başınıza məsh çəkin”.** Başa məsh çəkilir və yuyulması vacib deyil. Bu da izzət və cəlal sahibi Allahın öz bəndələrinə olan mərhəmətindəndir. Çünki başda saç vardır. Əgər onun yuyulması əmr olunsaydı, bu, insanlar üçün olduqca məşəqqətli olardı. Üstəlik başdan axan su da paltarı isladardı. Qış vaxtı isə bu, insanları çətinliyə salardı. Lakin Allahın rəhmətindəndir ki, baş yuyulmur və ona məsh çəkilir. Qulaqlar da başa aiddir. Onlara da məsh çəkilir. Belə ki, Peyğəmbər ﷺ qulaqlarına məsh çəkərdi.

**“topuqlara qədər ayaqlarınızı”.** Yəni topuqlara qədər ayaqlarınızı yuyun. Topuq ayağın aşağı hissəsində çıxıntılı sümüklərə deyilir. Onlar da yuyulmalıdır. Bu dörd əza dəstəmaz əzalarıdır.

Sonra uca Allah buyurur: **“Əgər cunub olmusunuzsa, qüsl edin”.** Yəni, insan cənabət halında olarsa bütün bədənini – başından ayağının altına qədər hər yerini təmizləməlidir. Ağızı və burunu yumaq da buna aiddir. Dəstəmaz və ya qüsl alarkən ağızla burunu yumaq vacibdir.

“**Əgər cunub olmusunuzsa, qüsl edin”.** Cunub, cənabət halına düşmüş kəsə deyilir. Cənabət isə məninin şəhvətlə cinsi əlaqə zamanı çıxmasına deyilir. Məni çıxmasa belə, adam cənabət halına düşmüş sayılır. Kişi öz qadını ilə cinsi əlaqədə olarsa, məninin çıxıb-çıxmamasından asılı olmayaraq, qüsl almaq ona vacib olur. Habelə, məni çıxdıqda da cinsi əlaqədə olub-olmamasından asılı olmayaraq, qüsl vacib olur. Hətta insan düşünərək məni çıxarmış olarsa, qüsl vacib olur.

**“Əgər xəstə və ya səfərdə olsanız, yaxud sizlərdən biri ayaqyolundan gəlibsə və ya qadınlarla yaxınlıq etmisinizsə, su tapmasanız təmiz torpaqla təyəmmüm edin”.** Yəni, qüsl və ya dəstəmaz almalı olan kəs su tapmazsa, yaxud xəstə olarsa, sudan istifadə edəcəyi təqdirdə sağlamlığına zərər toxunacaqsa təyəmmüm etməlidir – əllərini yerə vurub üzünə və əllərinə sürtür: **“ondan üzünüzə və əllərinizə sürtün”.**

**“Allah sizi çətinliyə salmaq istəməz”.** Yəni, bizə fərz buyurduğu məsələlərdə O, bizi çətinliyə salmaq istəmir. O, bizə münasibətdə özümüzdən də, övladlarımızdan da, analarımızdan da rəhmlidir. Onun bizə özümüzdən daha rəhmli olmasına dəlil uca Allahın bu ayəsidir: **“Özünüzü öldürməyin”.**[1] Sənə özünü öldürməməyi əmr edən Allah sənə özündən daha rəhmlidir. Bu fərz əməldə də O, bizi məşəqqətə, çətinliyə salmaq istəmir.

“**Fəqət, O sizi pak etmək istər”.** Uca Allah bizim zahirimizi su ilə – qüsl və dəstəmazla, batinimizi isə tövhidlə təmizləmək istər. Buna görə də dəstəmaz qurtardıqdan sonra sünnədir ki, bu sözləri deyəsən: “Şahidlik edirəm ki, Allahdan başqa ibadət haqqına malik məbud yoxdur. O, Təkdir, Onun şəriki də yoxdur. Həmçinin şahidlik edirəm ki, Muhəmməd ﷺ Onun qulu və elçisidir. Allahım, məni çox-çox tövbə edənlərdən və paklananlardan et!”

**“Sizə olan nemətini tamamlamaq istər”.** Dəstəmaz almaqla insanın günahları bağışlanır və dərəcələri qalxır. Kim kamil şəkildə dəstəmaz aldıqdan sonra: “Şahidlik edirəm ki, Allahdan başqa ibadət haqqına malik məbud yoxdur. O, Təkdir, Onun şəriki də yoxdur. Həmçinin şahidlik edirəm ki, Muhəmməd ﷺ Onun qulu və elçisidir. Allahım, məni çox-çox

[1] “ən-Nisa” surəsi, 29.

tövbə edənlərdən və paklananlardan et!" deyərsə, Cənnətin səkkiz qapısının hamısı onun üzünə açılar və ona deyilər ki, hansı qapıdan istəyirsə, içəri daxil olsun.[1]

**"Bəlkə şükür edəsiniz".** Yəni, uca Allaha, Onun nemətlərinə görə şükür edəsiniz deyə. İnsan Allahın ona bəxş etdiyi nemətlərə görə Ona şükür etməlidir. Çünki Allahın nemətlərini, ələlxüsus da dini nemətləri saymaqla bitməz. Belə ki, dini nemətlərlə həm dünya, həm də Axirət səadətinə nail olunur. Şükür, Allahın əmrlərinə itaət etməyə, qadağalarından da çəkinməyə deyilir. Yəni, dil, bədən üzvləri və qəlblə şükür etmək.

Allahdan diləyirik ki, bizə Öz nemətlərinə şükür etməyi, gözəl tərzdə ibadət etməyi nəsib etsin. Həqiqətən də O, hər şeyə Qadirdir.

**Mövzu ilə əlaqəli hədislər:**

١٠٢٤ – وعَنْ أَبي هُرَيْرَةَ ﵁ قال: سمِعْت رَسُولَ اللَّهِ ﷺ يقُول: « إِنَّ أُمَّتي يُدْعَوْنَ يَوْمَ القِيامَةِ غُرّاً محَجَّلِين مِنْ آثَارِ الوضوءِ فَمنِ اسْتَطَاعَ مِنْكُمْ أَنْ يُطِيل غُرَّتَه، فَليفعلْ » متفقٌ عليه.

**1024.** Rəvayət edilir ki, Əbu Hureyra ﵁ demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: **"Mənim ümmətim Qiyamət günü çağırıldıqda dəstəmaz əzaları parlaq olacaq. Kim parlaqlığını artıra bilirsə, qoy bunu etsin"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٠٢٥ – وعنه ﵁ قَالَ: سَمِعْت خَلِيلي ﷺ يقُول: « تَبْلُغُ الحِلية مِنَ المؤمِن حَيْث يبْلُغُ الوضوءُ » رواه مسلم.

**1025.** Yenə Əbu Hureyradan ﵁ rəvayət edilir ki, o demişdir: «Mən sevimli dostumun ﷺ belə dediyini eşitmişəm: **"Möminin zinəti dəstəmazın alındığı yerlərə qədər yetişəcək"».**

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

---

[1] "Səhih Muslim", 234; "Sunən Əbu Davud", 169; "Sunən ət-Tirmizi", 55.
[2] "Səhih əl-Buxari", 136; "Səhih Muslim", 246.
[3] "Səhih Muslim", 250.

١٠٢٦ – وعن عثمانَ بن عفانَ ﷺ قال: قال رسولُ اللَّهِ ﷺ: « مَنْ تَوَضَّأَ فَأَحْسَنَ الوضوءَ، خَرَجَت خَطَايَاهُ مِنْ جسَدِهِ حتَّى تَخْرُجَ مِنْ تحتِ أَظفارِهِ » رواه مسلم.

**1026.** Osman ibn Affan ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Kim gözəl şəkildə dəstəmaz alarsa, xətaları onun bədənindən, hətta dırnaqlarının altından belə çıxar".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

İmam Nəvəvi ﷺ bu hədisləri "Salehlər bağçası" adlı kitabının **"Dəstəmazın fəziləti"** fəslində zikr etmişdir.

Əbu Hureyra ﷺ rəvayət edir ki, «Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: **"Mənim ümmətim Qiyamət günü çağırıldıqda dəstəmaz əzaları parlaq olacaq. Kim parlaqlığını artıra bilirsə, qoy bunu etsin"».** Yəni bu ümmət – Muhəmmədin ﷺ ümməti Qiyamət günü çağırıldıqda dəstəmaz əzaları parlaq olacaq.

Ərəbcə "əl-ğurra" sözünün mənası üzdəki ağlıqdır, "ət-təhcil" isə əllərin və ayaqların ağlığına deyilir.

Yəni, bu ümmətin fərdlərinin əzaları Qiyamət günü parlayacaq və nur saçacaqdır. Allaha həmd olsun ki, bu bizlərə xas olan özəllikdir. Peyğəmbər ﷺ demişdir: **"Bu yalnız sizə aiddir".**[2] Yəni o əzəmətli gündə Muhəmmədin ﷺ ümməti bu əlamətlə seçiləcəkdir. Bu da dəstəmaz almağın fəzilətinə dəlildir. Qiyamət günü bu ümmət dəstəmaz əzaları nur saçan vəziyyətdə gələcəklər.

Sonra dedi: **"Kim parlaqlığını artıra bilirsə, qoy bunu etsin".** Bu ifadə Peyğəmbərin ﷺ sözü deyil, Əbu Hureyranın ﷺ sözüdür. Bu, şəri hökm baxımından da doğru deyil. Çünki zahirən belə anlaşılır ki, insan öz parlaqlığını (parlayacaq əzasını) artıra bilər. Yəni, məsələn, üzünü artıra bilər. Bu isə mümkün deyil, çünki üz qulaqdan qulağa, alından da çənəyədək olan hissədir. Bu hissənin artırılması mümkün deyil. Bu da dəlildir ki, həmin cümlə Əbu Hureyraya ﷺ məxsusdur. O ictihad edərək belə bir

---

[1] "Səhih Muslim", 245.

[2] "Səhih Muslim", 247.

fikir irəli sürmüşdür. İbn əl-Qeyyim də öz "Nuniyyə"sində buna işarə etmişdir:

*Əbu Hureyra ictihadla demişdir,*
*Başqa elm əhli bunu deməmişdir.*
*Parlaq yerin artırılması mümkün deyil,*
*Bu da açıq-aydın məsələdir.*

Hər bir halda uca Allah bizə əmr etmişdir ki, üzümüzü və dirsəklərə qədər əllərimizi yuyaq, başımıza məsh edək və topuqlara qədər ayaqlarımızı yuyaq. Bununla da dəstəmaz bitmiş olur. Qiyamət günü insanların arasına çıxarkən bu əzaların parlayaraq nur saçmasının fəxri kifayətdir. Bu hədis dəstəmazın fəzilətinə və öldükdən sonra dirilmənin haqq olmasına dəlildir. Qiyamət günü hər bir ümmət öz kitabına doğru çağırılacaq və onlardan öz kitablarına əməl edib-etmədikləri soruşulacaqdır.

**İkinci hədis:** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Möminin zinəti dəstəmazın alındığı yerlərə qədər yetişəcək".**

Bəzək, Qiyamət günü həm kişilər, həm də qadınlarda olacaq. Kişilərə və qadınlara qızıl, gümüş və mirvaridən zinət əşyaları taxılacaq: **"Onların *qoluna* gümüş bilərziklər taxılacaq".[1];**

**"Onlar orada qızıl bilərziklərlə və incilərlə bəzədiləcəklər".**[2]

Beləcə onlar, yəni qadınlar və kişilər Cənnətdə qızıl, gümüş və mirvari kimi üç növ zinət əşyaları ilə bəzənəcəklər. Bunlar da olduqca gözəl görünmələri üçün onlara əlavə bəzək verəcəkdir. Çünki şəkk yoxdur ki, bu növlərdən hər biri ilə bəzənən kəs daha da gözəlləşmiş olacaq. Bu minvalla Qiyamət günü onların gözəllikləri artacaq.

**"Möminin zinəti dəstəmazın alındığı yerlərə qədər yetişəcək".** Yəni, qol bütünlüklə bəzəkli olacaq – qızıl, gümüş və mirvari ilə bəzədiləcək. Bu da dəstəmazın fəzilətinə dəlildir. Belə ki, dəstəmazın sahibi Qiyamət günü Cənnətdə bəzədilmiş olacaq. Allah sizləri və bizləri Cənnət əhlindən etsin.

---

[1] "əl-İnsan" surəsi, 21.
[2] "əl-Həcc" surəsi, 23.

**Üçüncü hədis:** Osman ibn Affan ﷛ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Kim gözəl şəkildə dəstəmaz alarsa, xətaları onun bədənindən, hətta dırnaqlarının altından belə çıxar".**

Dəstəmaz alan qulun xətaları dırnaqlarının altından çıxar. Buna əsasən aydın olur ki, dəstəmaz almaq günahların kəffarəsinə səbəbdir. Daha dəqiq desək, qulun günahları dırnaqlarının altından çıxmış olar.

Bu və buna bənzər başqa hədislər dəlildir ki, dəstəmaz almaq ən fəzilətli ibadətlərdəndir. İbadət olduğu üçün də insan dəstəmaz alarkən izzət və cəlal sahibi Allaha yaxınlaşmağa niyyət etməlidir. Yəni dəstəmaz alarkən düşünməlidir ki, o, öz Rəbbinə yaxınlaşır. İnsan həmçinin namaz qıldıqda da düşünməlidir ki, o, öz Rəbbinə yaxınlaşır. Habelə dəstəmaz alarkən düşünməlidir ki, uca Allahın: "**Namaza qalxdığınız zaman üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun..."** əmrini yerinə yetirir. Həmçinin düşünməlidir ki, o, dəstəmaz alarkən Rəsulullaha ﷺ tabe olur. Həmçinin savab əldə etmək istədiyini düşünməlidir. Bu işi görməklə o, savab qazanmış olur. Bununla da o, dəstəmazı daha dəqiq şəkildə almış olacaq. Müvəffəq edən Allahdır.

١٠٢٧ – وعنهُ قال: رَأَيْتُ رسُولَ اللَّهِ ﷺ تَوَضَّأُ مثلَ وُضوئي هذا ثُمَّ قال: « مَنْ تَوَضَّأَ هكذا غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنبِهِ، وَكَانَتْ صَلاتُهُ وَمَشْيُهُ إِلى المَسْجِدِ نَافِلَةً» رواه مسلم.

**1027.** Yenə *Osman ibn Affandan* ﷛ rəvayət olunur ki, o demişdir: "Mən Rəsulullahı ﷺ gördüm – o, mənim kimi dəstəmaz aldı, sonra da belə dedi: **"Kim bu cür dəstəmaz alsa, onun keçmiş günahları bağışlanar. Üstəlik namaz qılmağı və məscidə getməyi *onun savabını* artırar".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٠٢٨ – وعن أبي هريرة ﷛ أَنَّ رسولَ اللَّهِ ﷺ قال: « إِذا تَوَضَّأَ العبدُ المُسلِم أَوِ المؤْمِنُ فَغسل وجهَهُ خَرجَ مِنْ وَجهِهِ كلُّ خطِيئَة نَظَرَ إِلَيْهَا بِعيْنَيْهِ مع الماءِ أَوْ مع آخرِ قَطْرِ الماءِ، فَإِذا غَسل يديهِ، خَرج مِنْ يديهِ كُلُّ خَطيئَةٍ كانَ بطَشَتْهَا يداهُ مَعَ المَاءِ أَوْ مع آخِر قَطْرِ

[1] "Səhih Muslim", 229.

الماءِ، فَإِذا غَسلَ رِجلَيْهِ، خَرَجَتْ كُلُّ خَطِيئَةٍ مَشَتها رِجلاه مع الماءِ أَوْ مَع آخرِ قَطرِ الماءِ، حتى يخرُجَ نَقِيًّا مِن الذُّنُوبِ »رواه مسلم.

**1028.** Əbu Hureyra ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Müsəlman, yaxud mömin bir bəndə dəstəmaz aldığı zaman üzünü yuduqda, gözləri ilə baxdığı bütün xətalar su ilə, yaxud suyun son damlasıyla bərabər üzündən çıxar. Əllərini yuduqda, əlləri ilə tutduğu bütün xətalar su ilə, yaxud suyun son damlasıyla bərabər əllərindən çıxar. Ayaqlarını yuduqda, ayaqları ilə getdiyi bütün xətalar su ilə, yaxud suyun son damlasıyla bərabər ayaqlarından çıxar. Beləcə o, günahlardan təmizlənmiş halda çıxar".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllifin ﷺ qeyd etdiyi bu iki hədis də "Dəstəmazın fəziləti" fəslinə aiddir. Onlardan biri Osmandan ﷺ nəql olunan hədisdir.

Həmin hədisdə deyilir ki, o, dəstəmaz alaraq əllərini üç dəfə yudu, sonra ağzını və burnunu üç dəfə yudu. Sonra üzünü üç dəfə yudu. Sonra əllərini dirsəklərinə qədər üç dəfə yudu. Sonra əlləri ilə başına məsh çəkdi – əllərini başının ön tərəfindən arxa tərəfinə doğru apardı, sonra da geri qaytardı. Sonra qulaqlarına məsh çəkdi. Sonra da ayaqlarını topuqlarınadək yudu.

Peyğəmbər ﷺ demişdir: **"Hər kim mənim dəstəmaz aldığım kimi dəstəmaz alar, sonra qalxıb iki rükət namaz qılar və namaz əsnasında heç bir şey haqda düşünməzsə, onun keçmiş günahları bağışlanar."**[2]

Allaha həmd olsun ki, bu çox bəsit bir şeydir və insan bunu edərsə, onun keçmiş günahları bağışlanar. Alimlər bu hədisə əsasən bildirmişlər ki, insanın tam şəkildə dəstəmaz aldıqdan sonra iki rükət namaz qılması müstəhəbdir. Buna dəstəmazın sünnəti deyilir. Bunu səhər və ya axşam, gecə və ya gündüz, sübhdən sonra və ya axşamçağı qıla bilər. Çünki bu, səbəbi olan namazdır. Adam Peyğəmbərin ﷺ dəstəmazı kimi dəstəmaz aldıqdan sonra iki rükət namaz qılarsa, keçmiş günahları bağışlanar.

---

[1] "Səhih Muslim", 244.

[2] "Səhih əl-Buxari", 160; "Səhih Muslim", 226.

Bu hədisdə Peyğəmbər ﷺ həm də belə demişdir: **"Üstəlik namaz qılmağı və məscidə getməyi *onun savabını* artırar".** Yəni, günahların bağışlanması ilə yanaşı, *bu əməllər də* əlavə olaraq *onun savabını* artırar.

Hədisin ərəbcəsində keçən "nafilə" sözünün mənası "əlavə namaz", yəni nafilə namazı demək deyil. Ola bilsin ki, *adam dəstəmazdan sonra birbaşa* fərz namazını qılsın, – onda bu namaz ona əlavə savab gətirəcək. Yəni, günahlarının bağışlanmasına əlavə bir səbəb. Çünki dəstəmaz almaqla onun günahları əfv olunmuşdur. Namazı isə bundan da önəmlidir. Beləcə, onun məscidə getməsi və namaz qılması günahlarının bağışlanmasına əlavə bir səbəbdir. Çünki lüğəti mənada "nəfl" sözü "əlavə" deməkdir. Uca Allah bu xüsusda buyurur: **"Gecənin bir vaxtı oyanıb sənə nafilə olaraq *buyrulmuş təhəccüd* namazını qıl".**[1]

Sonra müəllif رحمه الله Əbu Hureyranın رضي الله عنه hədisini qeyd edir. Həmin hədisə görə, müsəlman dəstəmaz aldıqda, xətaları bədənindən çıxır – üzünü yuduqda su ilə, yaxud suyun son damlası ilə xətaları çıxır.

"Yaxud" sözü ravinin şübhəsidir. Hər bir halda, dəstəmaz alanın gözünün xətaları çıxmış olur. Əllərini yuduqda, əlləri ilə toxunaraq etdiyi xətalar ondan çıxmış olur. Ayaqlarını yuduqda, ayaqları ilə getdiyi xətalar ondan çıxmış olur. Beləcə o, günahlardan təmizlənmiş halda çıxmış olur. Bu da dəstəmazın fəzilətinə dəlildir. Allaha həmd olsun!

İndi gəlin görək, bizlərdən bu fəzilət barədə heç düşünən varmı?! Hətta bunu düşünərək dəstəmaz alan adama görəsən belə bir fəzilət və əcr yazılırmı? Zahirən düşünsə də, düşünməsə də ona savab yazılır. Lakin bu barədə düşünsə daha kamil olar. Çünki o, düşünməlidir ki, bunun əcrini uca Allah verəcək, üstəlik yəqinliklə bilməlidir ki, bu əmələ görə O onu mükafatlandıracaq. Bu barədə heç düşünmədən dəstəmaz aldıqda isə belə olmayacaq. [Mən isə belə] fikirləşirəm ki, uca Allah insana [barəsində] düşünmədən dəstəmaz aldıqda da bu əcri yazır. Müvəffəq edən Allahdır.

١٠٢٩ – وعنْهُ أَنَّ رسُول اللَّهِ ﷺ أَتَى المقبرةَ فَقَال: « السَّلامُ عَلَيْكُمْ دَار قَومٍ مُؤْمِنِينِ
وإِنَّا إِنْ شَاءَ اللَّه بِكُمْ لاحِقُونَ، ودِدْتُ أَنَّا قَدْ رأَيْنَا إِخْوانَنَا »: قَالُوا: أَوَلَسْنَا إِخْوانَكَ يا رسُول

[1] "əl-İsra" surəsi, 79.

اللَّهِ؟ قال: « أَنْتُمْ أَصْحَابِي، وَإِخْوَانُنَا الّذينَ لَم يَأْتُوا بعد » قالوا: كيف تَعْرِفُ مَنْ لَمْ يَأْتُوا بَعْدُ من أُمَّتِكَ يا رسول الله؟ فقال: « أَرَأَيْتَ لَوْ أَنَّ رَجُلا لهُ خَيْلٌ غُرٌّ مُحجَّلَةٌ بيْنَ ظَهْرَيْ خَيْلٍ دُهْمٍ بُهْمٍ، أَلا يعْرِفُ خَيْلَهُ؟ » قَالُوا: بلَى يا رسولُ اللَّهِ، قَالَ: «فَإِنَّهُمْ يأْتُونَ غُرًّا مَحجَّلِينَ مِنَ الوُضُوءِ، وأَنَا فرَطُهُمْ على الحوْضِ »رواه مسلم.

**1029.** Yenə Əbu Hureyra ﷺ rəvayət edir ki, *bir dəfə* Rəsulullah ﷺ qəbiristanlığa gəlib dedi: **"Salam olsun sizlərə, ey *bu* diyarın mömin sakinləri! Allah istəsə, biz də sizə qovuşacağıq. Qardaşlarımızı görməyimizə ümid edirəm".** *Səhabələr* dedilər: "Biz sənin qardaşların deyilikmi, ya Rəsulullah?" *Peyğəmbər* ﷺ dedi: **"Siz mənim səhabələrimsiniz, qardaşlarımız isə hələ *dünyaya* gəlməyiblər".** *Səhabələr* soruşdular: "Hələ *dünyaya* gəlməmiş kimsələrin sənin ümmətindən olduğunu necə tanıyacaqsan, ya Rəsulullah?" *Peyğəmbər* ﷺ dedi: **"Bir deyin görək, əgər bir adamın alnında və ayaqlarında ağ ləkə olan atları olsa və bu atlar, rənginə başqa rəng qarışmamış qapqara atların arasında olarsa, o adam öz atını tanımazmı?"** *Səhabələr*: "Əlbəttə *tanıyar*, ya Rəsulullah!"– deyə cavab verdilər. *Peyğəmbər* ﷺ buyurdu: **"Heç şübhəsiz, onlar da dəstəmaz almaqdan dolayı *Qiyamət günü* üzləri parlaq, əlləri və ayaqları nurlu halda *məhşərə* gələcəklər. Hovuzun başına hamıdan əvvəl gələn kimsə isə mən olacağam".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllifin ﷺ "Salehlər bağçası" adlı kitabının "Dəstəmazın fəziləti" adlı fəslində Əbu Hureyraya ﷺ istinadən rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: **"Salam olsun sizlərə, ey *bu* diyarın mömin sakinləri! Allah istəsə, biz də sizə qovuşacağıq".**

Peyğəmbər ﷺ ilk əvvəl qəbirləri ziyarət etməyi qadağan etmişdi. Çünki insanlar şirkdən yeni çıxmışdılar. Qorxurdu ki, onların qəlbi qəbirlərə bağlanaraq fitnəyə düşər. Buna görə də onları ziyarət etməyi qadağan etmişdi. İman insanların qəlbində qərar tutduqdan sonra onlara qəbirləri ziyarət etməyi əmr etmiş və belə demişdir: **"Mən sizlərə qəbirləri ziyarət**

---

[1] "Səhih Muslim", 249.

**etməyi qadağan etmişdim, indi isə onları ziyarət edin. Çünki bu,** ***insanı*** **dünyada zahid olmağa yönəldir və ona axirəti xatırladır”.**[1]

Beləcə, Peyğəmbər ﷺ insanlara qəbirləri ziyarət etməyi əmr etmiş və bunun hikmətini belə açıqlamışdır ki, bu ziyarət insana ölümü xatırladır. Yer üzərində gəzən insana xatırladır ki, bu gün o, yerin üstündə gəzir, sabah isə altında olacaq. Bunun da nə zaman baş verəcəyini bilmir. Ola bilsin ki, insan səhər yerin üstündə olsun, axşam isə altında. Ola da bilsin ki, axşam yerin üzərində olsun, səhər isə altında.

Qəbirləri ziyarət etməklə insan ölümü və axirəti xatırlamış olur. Çünki insan məzarlığa gedir və düşünür ki, atası, əmisi, zövcəsi, qardaşı, yaxud başqa bir yaxını hələ dünən onunla birlikdə idi, yeyir-içir, qəsrdə yaşayırdı. İndi isə onlar öz əməlləri ilə baş-başa məzardadırlar. Öncəki illərin eyni vaxtını xatırlayır ki, onlarla birlikdə dünyada sevinc içərisində və dünyaya bağlı idi. İndi isə onlar dünyanı tərk edib getmiş, öz əməlləri ilə baş-başa qalmışlar – kim yaxşı iş görübsə, əvəzini görür, kim də pis iş görübsə, əvəzini görür.

Beləcə, ziyarət ona həm axirəti xatırlatmış olar, həm də ölümün həqiqət olduğunu. Odur ki, qəbiristanlığa get və saylarının uca Allahdan başqasının bilmədiyi, yaxud çətinliklə sayıla bilən məzarlara bax. Hələ dünən səninlə birlikdə olanlar bu gün yerin altındadırlar. Bilmirsən, bəlkə də az sonra sən də onlarla birlikdə orada uyuyacaqsan. Beləcə, bu sənə Peyğəmbərin ﷺ dediyi kimi, axirəti xatırladır. Bu səbəbdən də Peyğəmbərin ﷺ özü də tez-tez Bəqi məzarlığına gedərək ölüləri ziyarət edər, onlara salam verər və onlar üçün dua edərdi.

Onlara salam ver: **“Salam olsun sizlərə, ey** ***bu*** **diyarın mömin sakinləri!”** – yəni, ey mömin qövm.

Zahirən – daha doğrusunu Allah bilir – o onlara salam verir, onlar da onu eşidirlər. Çünki xitab olunan eşitmədiyi təqdirdə ona xitab etməkdə heç bir fayda yoxdur. Lakin onlar cavab verə bilmirlər, çünki qəbirlərindədirlər. Deməli, onlara salam verib deyir: **“Salam olsun sizlərə, ey** ***bu*** **diyarın mömin sakinləri! Allah istəsə, biz də sizə qovuşacağıq”.**

[1] “Sunən İbn Macə”, 1571.

Peyğəmbər ﷺ doğru söyləmişdir. Belə ki, elə bir diri yoxdur ki, uca Allahın izni ilə *vaxtı çatanda* ölməsin.

**"Allah istəsə, biz də sizə qovuşacağıq".** Alimlər onun nə üçün: "Biz də inşəAllah sizlərə qovuşacağıq" sözü xüsusunda ixtilaf etmişlər. Axı bu yəqinliklə məlum olan bir məsələdir. Necə ola bilər ki, Peyğəmbər ﷺ "inşəAllah" deyir? Səhih olan rəy budur ki, burada anlaşılmayan heç nə yoxdur. Buradakı **"inşəAllah"** sözünün mənası belədir: Biz sizlərə qovuşduğumuz zaman bu, Allahın izni ilə baş verəcəkdir – Allah nə zaman istəsə, biz o zaman sizlərə qovuşacağıq. Çünki əmr Onun əmridir, mülk Onun mülküdür. Uca Allah işləri istədiyi kimi səhmana salır. Buna bənzər bir ayədə uca Allah buyurur: "**İnşəAllah, siz əmin-amanlıqla, başınızı qırxdırmış, *bəziləriniz də saçlarını* qısaltmış halda və qorxmadan Məscidul-Hərama daxil olacaqsınız".**[1]

Baxmayaraq ki, onlar daxil olacaqlar, *uca Allah bu ayədə də "İnşəAllah" deyir*. Bu ayədə Allah "ləm" və "nun" hərfləri ilə və andla onların daxil olacaqlarını təkid etmişdi. Şübhə yoxdur ki, onlar oraya daxil olacaqdılar. Ona görə də Hudeybiyyə sazişi zamanı Rəsulullahdan ﷺ ümrəsini tamamlamadan geri dönməsi tələb olunduqda, Ömərin رضي الله عنه: "Məgər bizə deməmişdinmi ki, bizlər Allahın evinə daxil olaraq orada təvaf edəcəyik?" deməsinə Rəsulullah ﷺ belə cavab vermişdi: **"Bəli, demişdim, lakin sənə demişdimmi ki, bu il gedəcəyik?"** Ömərin: "Xeyr"– cavabına Rəsulullah ﷺ: **"Sən oraya gedəcəksən və orada təvaf edəcəksən"** demişdi.[2]

Dolayısıyla, **"inşəAllah"** kəlməsi burada bir şeyin baş verib-verməməsinə tərəddüd mənasında deyil. Mənası odur ki, bizim sizə qovuşmağımız bizim istəyimizlə deyil, uca Allahın izni ilə baş verəcəkdir.

Sonra Peyğəmbər ﷺ dedi: **"Qardaşlarımızı görməyimizə ümid edirəm".** Peyğəmbər ﷺ öz qardaşları ilə görüşməyi təmənna edir. Allah məni və sizləri onlardan etsin. O, qardaşları ilə görüşmək istəyir.

*Səhabələr* dedilər: "Biz sənin qardaşların deyilikmi, ya Rəsulullah?" *Peyğəmbər* ﷺ dedi: **"Siz mənim səhabələrimsiniz, qardaşlarımız isə hələ *dünyaya* gəlməyiblər".** Bu qardaşlardan daha xüsusidir. Səhabə qardaşdan

---

[1] "əl-Fəth" surəsi, 27.

[2] "Səhih əl-Buxari", 2734.

da artıqdır, yəni qardaş olmaqla yanaşı, həm də səhabədir. Qardaş isə sadəcə qardaşdır.

*Peyğəmbər* ﷺ dedi: **"Siz mənim səhabələrimsiniz".** Yəni, siz onlardan daha özəlsiniz. Səhabələr Rəsulullahın ﷺ həm qardaşlarıdır, həm də əlavə olaraq səhabələridir. Onlardan sonra gələn möminlər isə onun sadəcə qardaşlarıdır, səhabələri deyil.

**"Məni görmədən mənə iman gətirəcəklər".** Allahım, həmd Sənə məxsusdur! Onlar Rəsulullaha ﷺ iman gətirirlər – onu görmədən, sanki onu görübmüş kimi, onun haqq peyğəmbər olmasına iman gətirirlər. Allahım, bizləri bu iman üzərində sabit et!

*Səhabələr* soruşdular: "Hələ *dünyaya* gəlməmiş kimsələrin sənin ümmətindən olduğunu necə tanıyacaqsan, ya Rəsulullah?" Yəni, sən onları görməmisən axı?

Bundan sonra *Peyğəmbər* ﷺ onlara alnında və ayaqlarında ağ ləkəli atları olan kəsi misal gətirir: əgər birisinin alnında və ayaqlarında ağ ləkə olan atları olsa və bu atlar, rənginə başqa rəng qarışmamış qapqara atların arasında olarsa, o adam öz atını tanımazmı?

Ərəbcə "ğurr" sözü başında ağ işarə olan deməkdir, "muhəccələ" sözü isə ayağında ağlıq olan tam qara rəngli at deməkdir.

*Səhabələr*: "Əlbəttə *tanıyar*, ya Rəsulullah!"– deyə cavab verdilər. *Peyğəmbər* ﷺ buyurdu: **"Heç şübhəsiz, onlar da dəstəmaz almaqdan dolayı *Qiyamət günü* üzləri parlaq, əlləri və ayaqları nurlu halda *məhşərə* gələcəklər".**

Bu da dəstəmazın fəzilətinə dəlildir. Həmçinin dəlildir ki, bu ümmət Qiyamət günü dəstəmaz əzaları parlaq şəkildə olacaqdır – "ğurr", yəni üzün ağlığı, "muhəccəlun", yəni əllərin və ayaqların ağlığı. Bu ağlıq nur və işıqdır. O əzəmətli Qiyamət günü insanlar onları bu nişanələrlə tanıyacaqlar. Bu möhtərəm Peyğəmbərin ﷺ ümməti Qiyamət günü digərlərində olmayan bu əlamətlərindən tanınacaq.

Uca Allahdan Onu minnəti və səxavəti ilə diləyirəm ki, bizləri və sizi bu cür həşr etsin, bizləri həm zahirən, həm də batinən Onun elçisinin ümmətindən etsin. Şübhəsiz ki, O hər şeyə Qadirdir.

١٠٣٠ – وعنْهُ أَنَّ رسُولَ اللَّهِ ﷺ قال: « أَلا أَدُلُّكُمْ على ما يَمْحُو اللَّهُ بِهِ الخَطَايا، ويرْفَعُ بِهِ الـدَّرجاتِ؟ قَالُوا: بلى يا رَسُول اللَّهِ، قَالَ: إِسْباغُ الوُضُوءِ على المكَارِهِ وكَثْرَةُ الخُطَا إلى المساجِدِ، وانْتِظَارُ الصَّلاةِ بعْد الصَّلاةِ، فَذلِكُمُ الرِّبَاطُ، فذلِكُمُ الرِّباطُ » رواه مسلم.

**1030.** Yenə Əbu Hureyra ﵁ rəvayət edir ki, *bir dəfə* Rəsulullah ﷺ *səhabələrinə* buyurdu: **"Sizi elə bir əmələ yönəldimmi ki, Allah onun sayəsində xətaları silir və dərəcələri qaldırır?"** Onlar: "Bəli, ey Allahın rəsulu"– deyə cavab verdilər. Rəsulullah ﷺ buyurdu: **"Çətinliklərə rəğmən dəstəmazı kamil şəkildə almaq, məscidlərə getdikdə addımları çoxaltmaq və namazdan sonra *növbəti* namazı gözləməkdir. Bunlar keşik çəkməkdir, bunlar keşik çəkməkdir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٠٣١ – وعَنْ أَبي مَالكٍ الأَشْعرِيِّ ﵁ قَالَ: قالَ رسُولُ اللَّهِ ﷺ: «الطُّهُورُ شَطْرُ الإِيمانِ » رواه مسلم. وقد سبقَ بِطولِهِ في باب الصبرِ.

وفي الباب حديثُ عمرو بْنِ عَبْسةَ ﵁ السَّابِقُ في آخِرِ باب الرَّجاءِ، وَهُو حدِيثٌ عظيمٌ، مُشْتَمِلٌ على جُملٍ من الخيرات.

**1031.** Əbu Malik əl-Əşari ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Təmizlik imanın yarısıdır".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2] Hədisin tam mətni **"Səbir"** fəslində qeyd olunmuşdur.

Bu fəsildə Amr ibn Əbsədən ﵁ nəql edilmiş hədis də qeyd olunmuşdur ki, o da **"Rəca / Ümid etmək"** fəslində zikr olunur. O olduqca möhtəşəm bir hədisdir və özündə bir sıra xeyirləri cəm edir.

١٠٣٢ - وعنْ عُمَر بْنِ الخَطَّابِ ﵁ عنِ النَّبِيِّ ﷺ قَالَ: « ما مِنْكُمْ مِنْ أَحدٍ يتوضَّأُ فَيُبْلِغُ أَو فَيُسْبِغُ الوُضُوءَ ثُمَّ يَقُولُ: أَشْهدُ أَنْ لا إِلـه إِلاَّ اللَّه وحْدَه لا شَريكَ لهُ، وأَشْهدُ أَنَّ مُحمَّدًا عبْدُهُ وَرسُولُه، إِلاَّ فُتِحَت لَهُ أَبْوابُ الجنَّةِ الثَّمَانِيَةُ يَدْخُلُ مِنْ أَيِّها شاءَ » رواه مسلم.

[1] "Səhih Muslim", 251.
[2] "Səhih Muslim", 223.

وزاد الترمذي: « اللَّهُمَّ اجْعلْني من التَّوَّابِينَ واجْعلْني مِنَ المُتَطَهِّرِينَ ».

**1032.** Ömər ibn əl-Xəttabdan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Sizlərdən hansı biriniz dəstəmaz alar və dəstəmazını kamil şəkildə, [yaxud tam şəkildə] yerinə yetirər, sonra da: "Şəhadət verirəm ki, Allahdan başqa ibadət haqqına malik məbud yoxdur, Onun şəriki də yoxdur, həmçinin şəhadət verirəm ki, Muhəmməd Onun qulu və elçisidir"– desə, Cənnətin səkkiz qapısının hamısı onun üzünə açılar, o da istədiyi qapıdan oraya daxil olar".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Tirmizidə belə əlavə də vardır: **"Allahım, məni çoxlu tövbə edənlərdən et və məni pak olanlardan et".**[2]

**Şərh:**

Bu hədislər dəstəmazın fəzilətini açıqlayır. Bu mənada başqa hədislər də qeyd olunmuşdur.

Biz müəllifin ﷺ qeyd etdiyi qəbirləri ziyarət etmək məsələsi barədə söhbət açmış və bəyan etmişdik ki, bunda böyük faydalar vardır. Belə ki, bu, insana ölümü və axirəti xatırladır. Bilin ki, qadınların qəbirləri ziyarət etmələri halal deyil. Qadın məzarlığı ziyarət etməməlidir. Çünki Peyğəmbər ﷺ qəbirləri ziyarət edən, oranı məscidlərə çevirib çıraq taxan qadınları lənətləmişdir.[3] Çünki qadın zəifdir, dözə bilmir. Ola bilsin ki, ah-nalə çəkib ağlayar, özünü vurar. Adətən, əksər hallarda məzarlıqlarda insanlar olmur. Ehtiyat edilir ki, qadın ora getsə, səfeh və səfillər ona qoşular, bununla da fitnə baş verər. Bu səbəbdən Peyğəmbər ﷺ qəbirləri ziyarət edən qadınları lənətləmişdir.

Qadın ziyarət məqsədi olmadan qəbiristanlığa getdikdə isə dayanıb salam verə və kişilər kimi dua edə bilər. Yəni məqsədli getməklə məqsədsiz getmək arasında fərq vardır.

---

[1] "Səhih Muslim", 234.

[2] "Sunən ət-Tirmizi", 55.

[3] "Musnəd İmam Əhməd", 1/129; "Sunən Əbu Davud", 3236; "Sunən ət-Tirmizi", 320; "Sunən ən-Nəsai", 2043.

Həmçinin bilmək lazımdır ki, qəbirdəki insanlar nə qədər yaxşı işlər görüb Allahdan qorxmuş olsalar belə, özlərinə nə bir xeyir, nə də zərər verə bilməzlər. Onlar başqalarına da nə bir xeyir, nə də ki, zərər verə bilməzlər. Odur ki, onlar üçün ancaq dua edilir, onlar isə çağırılmırlar. Onlar üçün dua edilir – necə ki, Peyğəmbər ﷺ onlar üçün dua etmişdi. Onların özlərini isə çağırmaq olmaz, çünki onlar fayda verə bilməzlər. Uca Allah buyurur: **"Allahı qoyub Qiyamət gününədək özünə cavab verə bilməyən bütlərə yalvaran kimsədən daha çox azmış kim ola bilər?! Halbuki *o bütlər* onların yalvarışından xəbərsizdirlər. İnsanlar bir yerə toplanacaqları zaman *bütlər* onlara düşmən kəsiləcək və onların ibadətini inkar edəcəklər."**[1]

Uca Allah həmçinin buyurur: **"Sizin Ondan başqa yalvardıqlarınız xurma çəyirdəyinin pərdəsinə belə sahib deyillər. Əgər siz onları çağırsanız, onlar sizin duanızı eşitməzlər, eşitsələr də cavab verə bilməzlər. Özləri də Qiyamət günü sizin *onlara* ibadət etdiyinizi danacaqlar. Heç kəs *hər şeydən* Xəbərdar olan *Allah* kimi sənə xəbər verə bilməz."**[2]

Müəllifin رحمه الله qeyd etdiyi digər hədis Əbu Hureyradan رضي الله عنه nəql olunmuşdur. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Sizi elə bir əmələ yönəldimmi ki, Allah onun sayəsində xətaları silir və dərəcələri qaldırır?"**

Hədisin əvvəli sualla başlayır ki, dinləyicinin diqqəti deyiləcək sözlərə cəlb olunsun. Çünki bu olduqca önəmli məsələdir. Peyğəmbər ﷺ: **"Sizi elə bir əmələ yönəldimmi ki, Allah onun sayəsində xətaları silir və dərəcələri qaldırır?"**– dedikdə, onlar: "Bəli, ey Allahın rəsulu"– deyə cavab verdilər. Onda Rəsulullah ﷺ buyurdu: **"Çətinliklərə rağmən dəstəmazı kamil şəkildə almaq, məscidlərə getdikdə addımları çoxaltmaq və namazdan sonra *növbəti* namazı gözləməkdir. Bunlar keşik çəkməkdir, bunlar, keşik çəkməkdir".**

**"Çətinliklərə rağmən dəstəmazı kamil şəkildə almaq...".** Yəni insan çətin vəziyyətdə kamil şəkildə dəstəmaz alarsa. Məsələn, qızdırması olduğu halda çətinliklə dəstəmaz alır, yaxud soyuq havada suyu qızdırmaq imkanı olmadığından soyuq su ilə çətinliklə dəstəmaz alır, ya da

[1] "əl-Əhqaf" surəsi, 5-6.
[2] "Fatir" surəsi, 13-14.

dəstəmaz üçün gedəcəyi məkanda yağış yağır, bu səbəbdən o, çətinliklə dəstəmaz alır. Dolayısıyla o, məşəqqət və çətinliklə dəstəmaz alır, lakin bundan zərər görmür. Zərər görə biləcəyi təqdirdə isə dəstəmaz almır, təyəmmüm edir. [Özündən asılı olmayan səbəblərdən] əziyyətlə dəstəmaz aldıqda bu onun günahlarının silinməsinə və dərəcələrinin qaldırılmasına səbəb olur. Ancaq bu o demək deyil ki, insan isti suyu tərk edərək soyuq su ilə dəstəmaz almalı, yaxud su qızdırmağa imkanı olduğu halda o: "Yox, qızdırmıram, istəyirəm soyuq su ilə dəstəmaz alım ki, bu əcri əldə edə bilim" düşüncəsi ilə hərəkət etməlidir. Bu doğru deyil. Belə ki, Uca Allah buyurur: **"Şükür etsəniz və iman gətirsəniz, Allah sizə nə üçün əzab versin ki... Allah şükrün əvəzini verəndir, *hər şeyi* biləndir".**[1]

Bir dəfə Peyğəmbər ﷺ günəş altında dayanmış bir kişini görüb soruşdu: **"Bu nədir?"** *Orada olanlar* dedilər: "*Bu adam* nəzir edib ki, günün altında dayansın". *Bu zaman* Peyğəmbər ﷺ ona bunu qadağan etdi və əmr etdi ki, kölgədə dayansın.[2]

İnsan, ona məşəqqətli və çətin gələn işləri yerinə yetirməyə məcbur deyil. İbadət nə qədər asan olarsa, bir o qədər yaxşıdır. Əziyyət çəkməyə məcbur qaldıqda isə buna görə əcr qazanır. Çünki bu, onun ixtiyarı ilə baş vermir.

Həmçinin: **"Məscidlərə getdikdə addımları çoxaltmaq..."** ona dəlildir ki, camaat məsciddə olur, evdə olmur. İnsanın məscidlərə addımları çoxaldıqda, buna görə əcr qazanır – Allah bununla onun dərəcələrini qaldırır, günahlarını isə silir. Peyğəmbərin ﷺ belə dediyi nəql olunmuşdur: **"Sizlərdən biri gözəl şəkildə dəstəmaz alar və ancaq namaz qılmaq məqsədilə məscidə gedərsə, məscidə daxil olanadək atdığı hər addıma görə o, bir dərəcə yüksələr və onun bir günahı silinər. Məscidə daxil olduqdan sonra orada qaldığı vaxt ərzində namazda olduğu kimi sayılar. Namazını qılacağı yerdə gözlədiyi vaxt ərzində, dəstəmazı pozulanadək mələklər: "Allahım, onu bağışla! Allahım, ona rəhm et!"– deyə onun üçün dua edərlər".**[3] – bu, olduqca böyük bir nemətdir.

---

[1] "ən-Nisa" surəsi, 147.

[2] "Səhih əl-Buxari", 6704.

[3] "Səhih əl-Buxari", 647.

**"Addımları çoxaltmaq",** yəni məscid uzaqda olsa belə, namaz qılmaq üçün ora *piyada* getmək. Bu o demək deyil ki, məscidə gedən zaman uzaq yolu seçməlisən, yaxud addımlarını kiçiltməlisən. Belə etmək düzgün deyil. Əksinə, adəti üzrə yeriməli və uzun yolu seçməməlidir. Məsələn, adamın evindən məscidə getmək üçün iki yol var. Onlardan biri uzun, digəri isə qısa yoldur. Bu zaman həmin adam uzun yolu seçməməlidir. Lakin bir adam uzun yolla getmək məcburiyyətində qalarsa, o zaman çoxlu addımları sayəsində Allah onun xətalarını silir və dərəcələrini qaldırır.

**"Namazdan sonra *növbəti* namazı gözləmək",** yəni insan namazını bitirdikdə başqa namazı qılmaq istəyir – əsr namazını bitirdikdə qəlbi ilə məğrib namazını gözləyir. Məğrib namazını bitirdikdə qəlbi ilə işa namazını gösləyir. Beləcə, onun qəlbi məscidə bağlı olur. Hər dəfə namazını bitirdikdə növbəti namazı gözləyir. Bununla da Allah o insanın xətalarını silir və dərəcələrini qaldırır.

**"Bunlar keşik çəkməkdir, bunlar keşik çəkməkdir".** Yəni keşik çəkmək və xeyir üzərində davamiyyətdir. Uca Allah bu xüsusda buyurur: **"Ey iman gətirənlər! Səbir edin, *düşmən qarşısında* dözümlü olun, növbə ilə keşik çəkin və Allahdan qorxun ki, bəlkə nicat tapasınız!"**[1]

Sonra müəllif ﷺ Əbu Malik əl-Əşaridən ﷺ nəql olunan hədisi qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Təmizlik imanın yarısıdır".**

Burada **"təmizlik"** deyildikdə su ilə, təyəmmüm ilə, habelə qəlbin şirk və şübhələrdən, müsəlmanlara qarşı kin və nifrətdən təmiz olması nəzərdə tutulur. Üstəlik, burada təmizlənməsi gərəkən hər cür hissi və mənəvi təmizlik də nəzərdə tutulur.

**"İmanın yarısıdır".** İkinci yarısı isə gözəl əxlaqa və yaxşı əməllərə sahib olmaqdır. Çünki hər bir iş naqisliklərin aradan qaldırılması, fəzilətlərin kamilləşdirilməsi ilə olur. Demək fəzilətlərlə kamilləşmək bir yarısı, pisliklərdən uzaqlaşmaq isə digər yarısıdır. Buna görə də o: **"Təmizlik imanın yarısıdır"** deyir. İkinci yarısı isə gözəl əxlaqla və saleh əməllərlə kamilləşməkdir.

---

[1] "Ali İmran" surəsi, 200.

Fəslin sonunda müəllif ﷫ Ömər ibn əl-Xəttabdan ﷛ nəql olunan hədisi qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ belə demişdir: **"Sizlərdən hansı biriniz dəstəmaz alar və dəstəmazını kamil şəkildə, [yaxud tam şəkildə] yerinə yetirər, sonra da: "Şəhadət verirəm ki, Allahdan başqa ibadət haqqına malik məbud yoxdur, Onun şəriki də yoxdur, və şəhadət verirəm ki, Muhəmməd Onun qulu və elçisidir"– desə, Cənnətin səkkiz qapısının hamısı onun üzünə açılar, o da istədiyi qapıdan oraya daxil olar".**

Tirmizinin rəvayət etdiyi hədisdə isə əlavə olaraq bunlar da deyilir: **"Allahım, məni çoxlu tövbə edənlərdən et və məni pak olanlardan et".**

Bu hədislərin hamısı "Dəstəmazın fəziləti" fəslinə aiddir. Müəllif bu fəslə aid olan bütün hədisləri burada qeyd etməmişdir. Lakin onun fəzilətlərindən bəhs edən bircə hədis belə dəstəmaza dəvət etməyə, onu kamil şəkildə almağa sövq etməyə kifayət edərdi. Allah hər birimizi xeyirli və yaxşı işlərə müvəffəq etsin.

# Yüz səksən altıncı fəsil

## Azanın fəziləti

**Mövzu ilə əlaqəli hədislər:**

١٠٣٣ – عَنْ أَبي هُريْرةَ ﵁ أَنَّ رسُولَ اللَّهِ ﷺ قَال: « لَوْ يعْلمُ النَّاسُ ما في النِّداءِ والصَّفِّ الأَولِ. ثُمَّ لَمْ يَجِدُوا إِلاَّ أَنْ يسْتَهِموا علَيهِ لاسْتهموا علَيْهِ، ولوْ يعْلَمُونَ ما في التَّهْجِير لاسْتبَقوا إِلَيْهِ، ولَوْ يعْلَمُون ما في العَتَمَةِ والصُّبْحِ لأتوهمُا ولَوْ حبواً » متفقٌ عليه.

« الاسْتهامُ »: الاقْتراعُ، « والتَّهْجِيرُ »: التَّبْكيرُ إِلى الصَّلاةِ.

**1033.** Əbu Hureyra ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Əgər insanlar azan** ***verməyin*** **və** ***namazda*** **birinci sırada** ***durmağın nə qədər fəzilətli*** **olduğunu bilsəydilər,** ***buna nail olmaq üçün də*** **püşk atmaqdan başqa bir çarə tapmasaydılar, hökmən püşk atardılar; əgər onlar namazın vaxtı yetişən kimi onu qılmağın** ***nə qədər fəzilətli*** **olduğunu bilsəydilər, onu yerinə yetirmək üçün bir-birini ötüb keçməyə çalışardılar; və əgər onlar işa və sübh namazlarını** ***camaatla birgə*** **qılmağın** ***nə qədər fəzilətli*** **olduğunu bilsəydilər, bu namazları qılmaq üçün iməkləyə-iməkləyə də olsa** ***məscidə*** **gələrdilər".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

**Şərh:**

Müəllif ﵀, "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"Azanın fəziləti"** adını vermişdir, yəni azanın fəziləti barədə varid olanlar.

Azan, elandır, yəni namaz üçün elandır. Namazın vaxtı tezləşdirilə bilən olduğu təqdirdə həm onun vaxtının daxil olması barədə elandır. Həm də namaz feili ilə gecikdirilə bilinərsə, azan onun üçün də elandır. Yəni adam başqalarını çağıraraq bildirir ki, məğrib namazının, yaxud sübh namazının və ya əsr namazının, zöhr namazının vaxtı artıq daxil olmuşdur. Yalnız zöhr namazında bəzən sərin vaxtı gözlədikdə azan gecikdirilə bilər. Əks halda isə azan vaxt daxil olduqda olur. Həmçinin işa

[1] "Səhih əl-Buxari", 615; "Səhih Muslim", 437.

namazının vaxtında da namaz gecikdirilərsə azan gec verilə bilər. Əks təqdirdə azan vaxtında verilməlidir. Peyğəmbər ﷺ bu xüsusda demişdir: **"Namazın vaxtı daxil olduqda biriniz sizin üçün azan versin".**[1]

Buyurulmuş azan beş vaxt namaz üçün çağırılan azandır. Azan hicrətin ikinci ilində, Peyğəmbər ﷺ Mədinəyə hicrət etdikdən sonra buyurulmuşdur.

Səhabələr namazın vaxtının daxil olmasını necə bildirməkləri barədə ixtilaf etmişdilər. Bəziləri dedilər ki, böyük bir od qalayaq, insanlar da bilsinlər ki, namazın vaxtı artıq daxil olub. Bəziləri dedilər ki, zınqırovla çağıraq. Zınqırov zəngə bənzəyir və nəsranilər öz ibadətlərinə onunla çağırırlar. Başqaları da dedilər ki, yəhudilər kimi şeypur çalaq. Bütün bu təkliflər Peyğəmbərin ﷺ xoşuna gəlmədi. Bir dəfə səhabələrdən Abdullah ibn Zeyd yuxuda رضي الله عنه əlində zınqırov olan bir adam görür və ona deyir: "*Ey Allahın qulu,* bunu mənə satarsanmı?" O deyir: "Onunla nə edəcəksən ki?" O deyir: "İnsanları namaza çağıracağam". O deyir: "Sənə bundan daha xeyirlisi barədə xəbər verimmi?" O deyir: "Bəli". Beləcə, əvvəlcə azanı, sonra da iqaməni ona oxuyur. Səhər açıldıqda Abdullah ibn Zeyd رضي الله عنه Peyğəmbərin ﷺ yanına gedərək ona yuxusunu danışır. Bu zaman Peyğəmbər ﷺ belə deyir: **"Şübhəsiz ki, bu, haqq yuxudur".** Sonra onu Bilala رضي الله عنه öyrədir, o da bu gün bildiyimiz azanı verir.[2]

Osman ibn Əffanın رضي الله عنه zamanında insanlar çoxaldıqda o əmr edir ki, cümədə imam gəldikdə verilən ikinci azandan öncə birinci azan da verilsin. Beləcə cümə günü iki azan verilərdi: birinci azan və ikinci azan.

Ramazan ayında Peyğəmbər ﷺ Bilala رضي الله عنه əmr edir ki, gecənin sonunda səhurun vaxtı yaxınlaşdıqda azan versin. Peyğəmbər ﷺ deyərdi: **"Bilal gecə vaxtı azan verir ki, yatanlarınızı oyatsın, gecə namazı qılanlarınızı isə xəbərdar etsin. Odur ki, İbn Ummu Məktumun azanını eşidənədək yeyin, için. Çünki o, dan yeri sökülməmiş azan vermir".**[3]

Beləliklə, bizdə fəcrin iki azanı olur. Birinci azan fəcr namazını deyil, səhur vaxtının başladığını elan edir. Cümənin də birinci azanı olur və bu,

[1] "Səhih əl-Buxari", 628; "Səhih Muslim", 674.

[2] "Sunən Əbu Davud", 499; "Sunən ət-Tirmizi", 189; "Musnəd İmam Əhməd", 4/72. Bu hədisi şeyx Albani "İrva əl-Ğalil" kitabında (246) həsən hesab etmişdir.

[3] "Səhih əl-Buxari", 617; "Səhih Muslim", 1092.

Osman ibn Əffanın ﷺ sünnəsidir. Osman ibn Əffan ﷺ raşidi xəlifələrdən biridir və bizlərə əmr olunmuşdur ki, onlara tabe olaq.

Özlərini sünni, sələfi adlandıran bəzi çoxdanışanlar deyirlər ki, "cümənin ilk azanını qəbul etmirik, çünki bu bidətdir, Peyğəmbərin ﷺ vaxtında belə bir şey olmayıb". Onların bu sözü həm Peyğəmbərə ﷺ, həm raşidi xəlifələrə, həm də bütün səhabələrə bir tənədir. Allah o səhabələrdən razı olsun. Bu zavallılar özləri də bilmədən bu hala düşüblər.

Peyğəmbərə ﷺ tənə olması ona görədir ki, Peyğəmbər ﷺ demişdir: **"Mənim və məndən sonra gələcək raşidi xəlifələrimin yolunu tutub gedin".**[1] Müsəlmanların yekdil rəyi ilə Osman ﷺ da raşidi xəlifələrdəndir.

Raşidi xəlifələrə tənə olmasına gəlincə, burada Osmana ﷺ tənə olunur. Onlardan birinə tənə etmək isə hamısına tənə etmək anlamındadır. Necə ki, peyğəmbərlərdən birini inkar edən kəs onların hamısını inkar etmiş olur.

Səhabələrə edilən tənəyə gəlincə isə onlar Osmanın ﷺ bu əməlini inkar etməmişdilər. Çünki əgər o səhv etmiş olsaydı, səhabələr onun bu əməlini inkar edərdilər – həcc vaxtı günorta namazını Minada tamamlamaq məsələsində etdikləri kimi. Əcəba, görəsən belə danışanlar Allahın şəriətini, şəriətin məqsədlərini səhabələrdən dahamı yaxşı bilirlər?! Əslində Peyğəmbər ﷺ doğru buyurmuşdur: **"Bu ümmətin sonuncuları əvvəlincilərini lənətləyərək – Allah qorusun – onlara tənə edəcəklər".**[2]

Beləliklə, cümə günü verilən birinci azan şəri baxımdan doğrudur. Çünki buna Peyğəmbər ﷺ özü işarə vermişdir və bu möminlərin əmiri Osmanın ﷺ sünnəsidir. Səhabələr də susaraq yekdilliklə buna öz razılıqlarını bildirmişlər. [Bu məsələdə] heç kimin üzürü yoxdur. Allah bu ümmətin raşidi xəlifələrinə və səhabələrinə etiraz edənlərin dilini qoparsın!

Bu yerdə kimsə deyə bilər ki, "yaxşı, bəs Peyğəmbərin ﷺ zamanında cümə olduğu halda nə üçün o özü bunu əmr etməmişdir?"

---

[1] "Musnəd İmam Əhməd", 4/126; "Sunən ət-Tirmizi", 2676; "Sunən İbn Macə", 42; "Silsilə əl-Əhadis əs-Səhihə", 2735.

[2] "Sunən ət-Tirmizi", 2210; "Sunən İbn Macə", 263; "Daif ət-Tərğib vət-Tərhib", 96.

Cavabı budur ki, Osmanın ﵁ zamanında şəhərin sakinləri artmış, Mədinə şəhəri də genişlənmişdi. Onlar imam gəldiyi vaxt verilən sonuncu azandan öncə bir azanın verilməsinə ehtiyac duymuşdular ki, ehtiyatlarını tutsunlar. Bu azanın verilməsində də bir hikmət var idi.

Osmanın ﵁ bu qərarının bir əsası da vardır. Belə ki, Peyğəmbər ﷺ Bilala əmr etmişdi ki, gecənin bir aləmində azan versin. Həmin vaxt fəcr namazının vaxtı daxil olmurdu. Sadəcə yatanlar oyansın, gecə namazı qılanlar da xəbərdar olsunlar deyə bunu əmr etmişdi. Bu, şəri bir məqsəd hesab olunur. Bu baxımdan cümə günü verilən birinci azanda heç bir problem yoxdur. Bu azan Muhəmməd peyğəmbərin ﷺ işarəsi və səhabələrin icması ilə raşidi xəlifələrin sünnəsindən hesab olunur.

Ramazan ayında gecənin sonunda verilən azan isə Peyğəmbərin ﷺ sünnəsi olaraq buyurulmuşdur ki, yatanlar oyansın, gecə namazı qılanlar da xəbərdar olsunlar.

Yaxşı, bəs Ramazandan qeyri aylarda bunu etmək olarmı? Deyirik ki, Osmanın ﵁ qiyasına əsasən bunda bir qəbahət olduğunu görmürük.

Burada ikinci bir məsələ də vardır ki, bu da sübh namazı azanının sözlərindən olan "Namaz yatmaqdan xeyirlidir" ifadəsidir. Bəzi müasir alimlər iddia etmişlər ki, bu sözlər yalnız sübh namazından öncəki birinci azanda deyilir. Bununla da onlar böyük bir səhv ediblər. Çünki Peyğəmbər ﷺ Bilala ﵁ əmr etmişdir ki, sübh azanında "Namaz yatmaqdan xeyirlidir" desin: **"Sübh namazı üçün birinci azanı verdikdə: "Namaz yatmaqdan xeyirlidir" de".**[1]

Məlum məsələdir ki, namaz üçün verilən azan onun vaxtı daxil olduqdan sonra verilir. Çünki Peyğəmbər ﷺ demişdir: **"Namazın vaxtı yetişdikdə biriniz sizin üçün azan versin".**[2]

Dəmək, iqaməyə nisbətdə həmin azan birinci azan adlandırılmışdır. Belə ki, iqamə ikinci azan hesab olunur. Bu xüsusda Peyğəmbər ﷺ belə demişdir: **"Hər iki azan arasında namaz vardır".**[3]

---

[1] "Musnəd İmam Əhməd", 3/408.

[2] "Səhih əl-Buxari", 819.

[3] "Səhih əl-Buxari", 624; "Səhih Muslim", 838.

Muslimin "Səhih" əsərində Aişənin ﷺ belə dediyi nəql olunur: "Sübhün birinci azanı verildikdə Peyğəmbər ﷺ qalxar və iki xəfif rükətli namaz qılardı. Sonra da müəzzin gəlib iqamə vermək üçün izin istəyənə qədər sağ çiyni üzərində bir az uzanardı".[1]

Bu da aşkar dəlildir ki, sübhün birinci azanı vaxt daxil olduqda verilən azandır. Gecənin sonunda verilən azan isə sübhün azanı deyil. Bu, sadəcə yatanları oyatmaq, gecə namazı qılanları xəbərdar etmək və oruc vaxtı olduqda səhur etmələri məqsədilə verilən azandır.

Deməli, azan ən fəzilətli əməllərdəndir. Azan vermək hətta imam durmaqdan da əfzəldir. Yəni azan verən əcr baxımından imamdan daha yüksək mərtəbədədir. Çünki azan verən kəs Allahın əzəmətini və tövhidini, habelə Rəsulullahın ﷺ elçi olmasını elan edir, həmçinin gün ərzində beş və ya daha çox vaxtda insanları namaz qılmağa – nicata çağırır. İmam isə bunu etmir.

Müəzzinin səsini eşidən hər bir insan və cin Qiyamət günü onun lehinə şahidlik edəcək.[2] Buna görə də şəriətə görə müəzzinin mərtəbəsi imamlığın mərtəbəsindən daha yüksəkdir.

Birdən kimsə desə ki, əgər belədirsə, nə üçün Rəsulullah ﷺ və raşidi xəlifələr azan vermirdilər? Alimlər bu suala belə cavab veriblər ki, Peyğəmbər ﷺ və raşidi xəlifələr insanların işləri ilə məşğul idilər. Belə ki, onlar rəhbər idilər və insanların xeyrinə olan işlərlə məşğul idilər. Peyğəmbərin ﷺ zamanında azan vermək indiki zamanda azan vermək kimi deyildi. İndi azan vermək istəyən adam sadəcə saata baxmaqla namazın vaxtının daxil olub-olmadığını öyrənə bilər. Peyğəmbərin ﷺ zamanında isə günəşi təqib edərdilər. Kölgəyə diqqət edir və onun sayəsində günəşin zeniti keçdiyini təyin edirdilər. Habelə günəşin batmasını onu izləməklə bilirdilər. Bu minvalla da şəfəqi izləyirdilər. Daha sonra dan yerinin sökülüb-sökülmədiyini təqib edərdilər. Bu isə olduqca çətin idi. Bu səbəbdən də Peyğəmbər ﷺ və raşidi xəlifələr azan vermirdilər – ona görə yox ki, onun fəziləti imamın fəzilətindən azdır, sadəcə ona görə ki, onlar azandan daha önəmli məsələlərlə məşğul idilər.

---

[1] "Səhih əl-Buxari", 626; "Səhih Muslim", 736.

[2] Az sonra hədisin təxrici qeyd olunacaq.

Peyğəmbər ﷺ onun fəzilətini qeyd edərək demişdir ki, **“Əgər insanlar azan** *verməyin* **və** *namazda* **birinci sırada** *durmağın nə qədər fəzilətli* **olduğunu bilsəydilər,** *buna nail olmaq üçün də* **püşk atmaqdan başqa bir çarə tapmasaydılar, hökmən püşk atardılar”.**

Sübhanallah, yəni insanlar azanda nə qədər fəzilət və əcrin olduğunu bilsəydilər, kimin azan verməsi xüsusunda püşk atardılar. Ancaq əfsuslar olsun ki, günümüzdə insanlar bundan boyun qaçırırlar. Məsələn, birinə deyirsən ki, “filankəs, dur, azan ver”, o da deyir ki, “mənim səsim gözəl deyil”, yaxud “səsim gur deyil”, yaxud da deyir ki, azanı başqaları verəcəklər”. Beləcə, şeytan onların xeyirli iş görmələrinə mane olur. Halbuki, baxın görün Peyğəmbər ﷺ nə buyurur: ***“Buna nail olmaq üçün də*** **püşk atmaqdan başqa bir çarə tapmasaydılar, hökmən püşk atardılar”.**

Odur ki, səfərdə olarkən çalış ki, azan verən sən olasan. Məlum məsələdir ki, səfər zamanı bir rəhbər olur. Bu, istər səfərə, istərsə də gəzintiyə şamil olunur – əmir hər bir halda olmalıdır. Əmir azan vermək üçün bir adam təyin etdikdə, heç kim önə çıxıb azan verməməlidir. Çünki həmin [seçilən] adamın azan verməsi gərək olur. Həmçinin, əgər onlardan birinə desə ki, “Sən imam dur”, onda həmin adam imam durmalı, ondan başqası önə keçib imam durmamalıdır. Peyğəmbər ﷺ demişdir: **“Bir kişinin rəhbər olduğu yerdə başqa birisi** ***onun izni olmadan*** **ona imamlıq etməsin”.**[1]

Allah hər birimizi xeyirə və islaha yönləndirsin.

١٠٣٤ – وعَنْ مُعاوِيةَ رضي الله عنه قَال: سمِعْتُ رسُولَ اللَّهِ ﷺ يَقُولُ: « المُؤذِّنُونَ أَطْولُ النَّاسِ أعْنَاقاً يوْمَ الْقِيامةِ » رواه مسلم.

**1034.** Rəvayət olunur ki, Müaviyə رضي الله عنه demişdir: «Mən Allahın elçisinin ﷺ belə dediyini eşitmişəm: **“Müəzzinlər Qiyamət günü boyunları ən uzun olan kimsələr olacaqlar”».**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

---

1 “Səhih Muslim”, 673.

2 “Səhih Muslim”, 387.

١٠٣٥ – وعَنْ عَبْدِ اللَّه بْنِ عبدِ الرَّحْمنِ بنِ أَبي صَعْصعَةَ أَن أَبَا سعِيدٍ الخُدْرِيِّ رضي الله عنه قَالَ لَهُ: إني أراكَ تُحِبُّ الْغَنَم والْبادِيةَ فإِذا كُنْتَ في غَنَمِكَ أَوْ بادِيَتِكَ فَأَذَّنْتَ للصلاةِ، فَارْفَعْ صَوْتَكَ بالنِّدَاءِ، فَإِنَّهُ لا يَسمعُ مَدَى صوْتِ المُؤَذِّن جِنٌّ، ولا إِنْسٌ، وَلا شَيْءٌ، إِلاَّ شَهِد لَهُ يوْمَ الْقِيامَةِ » قال أبو سعيدٍ: سَمِعْتُهُ مِنْ رَسُولِ اللَّهِ ﷺ. رواه البخاري.

**1035.** Abdullah ibn Abdurrəhman ibn Əbi Sasaə rəvayət edir ki, Əbu Səid əl-Xudri (radıyallahu anhu) ona belə demişdir: "Görürəm qoyunu və çöllüyü xoşlayırsan. Elə isə qoyununla, yaxud vadidə olduğun zaman namaz üçün azan verərkən səsini ucalt. Çünki müəzzinin səsini eşidən elə bir cin, insan və elə bir məxluq yoxdur ki, Qiyamət günü onun lehinə şahidlik etməsin".

Əbu Səid (radıyallahu anhu) demişdir: "Mən bunu Rəsulullahdan ﷺ eşitmişəm".

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllifin (rahimahullah) qeyd etdiyi bu iki hədis "Azanın fəziləti" fəslindədir.

Rəvayət olunur ki, Müaviyə (radıyallahu anhu) demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Müəzzinlər Qiyamət günü boyunları ən uzun olan kimsələr olacaqlar".**

İnsanlar dirildikləri zaman müəzzinlərin başqalarında olmayan bir özəllikləri olacaq. Belə ki, onlar boyunları ən uzun olan kimsələr olacaqlar. Onlar bununla tanınacaqlar. Bu da onların fəzilətlərinə və şərəflərinin izharına dəlildir. Çünki onlar, yəni müəzzinlər azan verərək insanları uca Allahın böyüklüyünü, tövhidini, Rəsulullahın ﷺ peyğəmbərliyini, namaza və nicata çağırışı elan edirlər. Onlar bunu uca yerdən elan edirlər. Onların mükafatları da əməllərinə müvafiq olacaqdır. Yəni onların başları və danışdıqları üzləri uca olacaqdır. Bu, Qiyamət günü onların boyunlarının uca olması sayəsində baş verəcək. Bu da ona dəlalət edir ki, insan dostları ilə birlikdə gəzintidə olsa belə, gərək azan verməyə həris olsun və buna səy etsin. Daha öncə demişdik ki, Peyğəmbər ﷺ demişdir: **"Əgər insanlar azan** ***verməyin*** **və** ***namazda*** **birinci sırada** ***durmağın nə qədər fəzilətli*** **olduğunu bilsəydilər,** ***buna nail olmaq üçün də*** **püşk atmaqdan başqa bir çarə tapmasaydılar, hökmən püşk atardılar".**

[1] "Səhih əl-Buxari", 609.

Əbu Səid əl-Xudrinin ﷺ rəvayət etdiyi hədis də azanın fəzilətinə aiddir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Müəzzinin səsini eşidən elə bir cin, elə bir insan və elə bir məxluq yoxdur ki, Qiyamət günü onun lehinə şahidlik etməsin".**

Bu da azanın fəzilətindəndir. Belə ki, Qiyamət günü azan verənə şahidlik verəcəklər ki, o, müəzzinlərdəndir. Bununla da onun fəzilətinə diqqət çəkiləcək və savabı bəyan olunacaqdır.

Xülasə, azanın fəziləti böyükdür. Gərək insan azan verməyə səy etsin. Yox, əgər həmin yerdə azan verən şəxs əvvəlcədən təyin olunubsa, başqa birisinin onun yerinə azan verməsi doğru deyil. Yalnız həmin müəzzinin özü tapşırsa və ya buna bənzər başqa bir hal baş versə, onda başqası azan verə bilər. Yəni elə düşünməyin ki, insan məscidə tələsik gedərək qanuni müəzzin gəlmədən öncə azan verməlidir. Çünki bu, ona qarşı haqsızlıqdır. Peyğəmbər ﷺ demişdir: **"Bir kişinin rəhbər olduğu yerdə başqa birisi *onun izni olmadan* ona imamlıq etməsin".**[1] Müvəffəq edən Allahdır.

١٠٣٦ – وعَنْ أَبي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِذا نُودِي بالصَّلاةِ، أَدْبرَ الشَّيْطَانُ و لهُ ضُرَاطٌ حتَّى لا يسْمع التَّأْذِينَ، فَإِذا قُضِيَ النِّداءُ أَقْبَل، حتَّى إِذا ثُوِّبَ للصَّلاةِ أَدْبَر، حَتَّى إِذا قُضِيَ التَّثْوِيبُ أَقْبلَ، حَتَّى يخْطِر بَيْنَ المرْءِ ونَفْسِهِ يقُولُ: اذْكُرْ كَذا، واذكُرْ كذا - لمَا لَمْ يذْكُرْ منْ قَبْلُ - حَتَّى يظَلَّ الرَّجُلُ مَا يدرَي كَمْ صلَّى» متفقٌ عليه.

«التَّثْوِيبُ»: الإِقَامةُ.

**1036.** Əbu Hureyradan ﷺ nəql olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"Namaza çağırıldıqda şeytan bərkdən yel buraxaraq qaçır ki, bu çağırışı eşitməsin, azan qurtardıqda isə geri qayıdır. Namaz üçün iqamə veriləndə yenə dönüb qaçır, iqamə bitdikdə isə geri qayıdır və insanla onun qəlbi arasında dayanıb ona: "Filan şeyi və filan şeyi yadına sal"– deyərək onun xatırlamadığı şeyləri ona təlqin edir. Axırda da o adam neçə *rükət* qıldığını *belə yadına sala* bilmir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "Səhih Muslim", 673.

[2] "Səhih əl-Buxari", 608; "Səhih Muslim", 389.

[Hədisin ərəbcəsində keçən] "təsvib" sözünün mənası "iqamə"dir.

١٠٣٧ – وَعَنْ عبْدِ اللَّهِ بْنِ عَمرِو بْنِ العاصِ رضي الله عنهما أَنه سَمِع رسُولَ اللَّهِ ﷺ يقُولُ: «إِذا سمِعْتُمُ النِّداءَ فَقُولُوا مِثْلَ ما يَقُولُ، ثُمَّ صَلُّوا عليَّ، فَإِنَّهُ مَنْ صَلَّى علَيَّ صَلاةً صَلَّى اللَّه عَلَيْهِ بِهَا عشْراً، ثُمَّ سلُوا اللَّه لي الْوسِيلَةَ، فَإِنَّهَا مَنزِلَةٌ في الجنَّةِ لا تَنْبَغِي إِلاَّ لعَبْدٍ منْ عِباد اللَّه وَأَرْجُو أَنْ أَكُونَ أَنَا هُو، فَمنْ سَأَل لِيَ الْوسِيلَةَ حَلَّتْ لَهُ الشَّفاعَةُ » رواه مسلم.

**1037.** Abdullah ibn Amr ibn əl-Asdan ﷺ rəvayət olunur ki, o, Rəsulullahın ﷺ belə dediyini eşitmişdir: **"Müəzzinin çağırışını eşitdiyiniz zaman onun dediklərini təkrar edin, sonra da mənə salavat deyin. Kim mənə bir dəfə salavat deyərsə, Allah ona bunun sayəsində on dəfə salavat verər. Sonra Allahdan mənim üçün vəsilə istəyin. Çünki o, Cənnətdə bir məqamdır və Allahın bəndələrindən yalnız biri üçün müəyyən olunmuşdur. Ümid edirəm ki, həmin bəndə mən olacam. Kim mənim üçün vəsilə diləyərsə, şəfaətim ona vacib olar".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Bu hədislər də azanın fəziləti haqqındadır. Onlardan biri Əbu Hureyranın ﷺ hədisidir. Həmin hədisdə deyilir ki, müəzzin azan verdikdə şeytan bərkdən yel buraxaraq qaçır ki, Allahın zikrini eşitməsin. Bu da Uca Allahın: **"Vəsvəsə verən şeytanın şərindən"**[2] ayəsinin mənasıdır. Belə ki, şeytan uca Allahın adı zikr edildikdə vəsvəsə verir, uzaqlaşır və gizlənir. Çünki şeytanın ən çox nifrət etdiyi şey Allaha ibadətdir. Allaha ibadət edənlər də onun ən çox nifrət etdiyi kəslərdir. Ən çox sevdiyi əməl isə uca Allaha şərik qoşulması və günahlar edilməsidir. Nə üçün? – Çünki o, insanları pis işlərə sövq edir. Uca Allah buyurur: **"Şeytan sizi yoxsulluqla qorxudur və yaramaz işlər görməyi əmr edir".**[3]

Şeytan istəyir ki, insanlar Allahın əmr etmədiyi işləri görsünlər, uca Allahın əmr etdiyi əməlləri isə etməsinlər.

---

[1] "Səhih Muslim", 384.

[2] "ən-Nas" surəsi, 4.

[3] "əl-Bəqərə" surəsi, 268.

Müəzzin azan verdikdə şeytan azan verilən yerdən uzaqlaşar. Hətta həmin şəhərdən də çıxar ki, azanı eşitməsin. Azan bitdikdə isə geri dönərək Adəm övladlarına qarşı mübarizə aparar. İqamə verildikdə yenə də çıxıb gedər. İqamə bitdikdə gəlib yenə insanın qəlbini və fikrini məşğul edər: ona deyər ki, onu xatırla, bunu xatırla. Yadına elə şeylər salar ki, o, onları unutmuşdu. Reallıq da bunu sübut edir – insan bəzi məsələləri unudur, namaza başladıqda isə şeytan həmin məsələləri ona xatırladar, adam da onu xatırlayar. Deyilənə görə, birisi başqasına şikayət edir ki, bir əmanət qoyub, lakin onun yerini unudub. Həmin adam da ona deyir ki, get dəstəmaz al və iki rükət namaz qıl, xatırlayacaqsan. O da elə edir və xatırlayır. Beləcə, şeytan ona bunu [namazda] xatırladır.

Peyğəmbər ﷺ doğru söyləmişdir. Belə ki, bu iki hədisdə iki böyük fayda vardır:

**Birinci fayda,** azanın fəzilətinin bəyanıdır. Belə ki, azan şeytanları qovur. Bu səbəbdən də bir çox alimlər müstəhəb bilmişlər ki, yenicə doğulan uşağın qulağına azan verilsin ki, şeytanları qovsun. Bəzi elm əhli isə belə demişdir: "Qulağına azan verilir ki, onun eşitdiyi ilk şey uca Allahın zikri olsun". Hər bir halda azan şeytanları qovur. Bəs namaz vaxtı olmadıqda insan azan verərsə, şeytanları qovmuş olurmu? Bunu Allah bilir. Lakin ümumən Allahı zikr etmək şeytanları qovur. Belə ki, "xannəs" sözünün mənası "uca Allah zikr olunduqda vəsvəsə verən" deməkdir.

İkinci hədisin fəzilətinə gəlincə, Peyğəmbər ﷺ əmr etmişdir ki, biz müəzzini eşitdikdə onun dediklərini təkrarlayaq: o, "Allahu Əkbər" dedikdə, bizlər də "Allahu Əkbər" deyək. "Əşhədu ən la ilahə illəllah" dedikdə, bizlər də "Əşhədu ən la ilahə illəllah" deyək. "Əşhədu ənnə Muhəmmədən Rasulullah" dedikdə, biz də "Əşhədu ənnə Muhəmmədən Rasulullah" deyək və s. Yalnız "Həyya aləs-saləh, həyya aləl fələh" dediyində onun dediklərini demirik. Çünki bizlər çağıran deyil, çağırılanlarıq. Odur ki, müəzzin "Həyya aləs-saləh" dedikdə, bizim "Həyya aləs-saləh" deməyimiz doğru deyil. Bu zaman biz: "Lə həulə va lə quvvətə illə billəh" deməliyik. Bu da o deməkdir ki, biz onun çağırışını qəbul etmək əzmindəyik, yəni çağırışa cavab veririk. Lakin biz uca Allahdan yardım istəyirik. Bu kəlmələri demək insana işlərində yardım edir. Bunu dedikdə insanın işləri düzəlir və halı yaxşılaşır.

Buna görə də iki bağ sahibinin qissəsində mömin kişi belə demişdi: **“Bağına girdiyin zaman: “Maşallah (Allahın istədiyidir)! Qüvvət yalnız Allaha məxsusdur!”– deməli deyildinmi?”**[1] Yəni, bu sənin üçün daha xeyirli olardı və sənin bağın tələf olmazdı.

Bu, olduqca əzəmətli bir kəlmədir. Hətta Peyğəmbər ﷺ Abdullah ibn Qeys – Əbu Musa əl-Əşaridən رضي الله عنه: **“Sənə Cənnət xəzinələrindən biri barədə xəbər verimmi?”** deyə soruşanda, o: “Bəli” demiş, Peyğəmbər ﷺ də: **“[Bu,] “Lə həulə və lə quvvətə illə billəh” [kəlməsidir]”** demişdir.[2]

Müəzzin: “Həyya aləs-saləh, həyya aləl fələh” dedikdə, biz: “Lə həulə və lə quvvətə illə billəh” deyirik. Sübhün azanında: “Əs-salətu xayrun minən-nəum” dedikdə, biz də onun kimi: “Əs-salətu xayrun minən-nəum” deyirik. O: “Allahu Əkbər” dedikdə, biz: “Allahu Əkbər” deyirik. O: “Lə iləhə illəllah” dedikdə, biz də: “Lə iləhə illəllah” deyirik.

Daha sonra Peyğəmbərə ﷺ salavat deyirik: “Allahummə salli alə Muhəmməd”. Kim ona bir dəfə salavat deyərsə, Allah bunun sayəsində ona on dəfə salavat deyər. Sonra da Peyğəmbər ﷺ üçün vəsilə istəyirik: “Allahummə, rabbə həzihid-davətit-təmməh, vəssalətil-qaiməh, ati Muhəmmədənil-vəsilətə vəl-fadilə, vəb'ashu məqamən mahmudənilləzi vəadtəh, innəkə lə tuxliful-miad”.

Peyğəmbərə ﷺ salavat deyib onun üçün vəsilə istəsək, Peyğəmbərin ﷺ şəfaəti bizə vacib olur. Yəni, biz onun şəfaət edəcəyi kəslərdən olacağıq.

Yaxşı, bəs vəsilə nədir? O, Cənnətin ən uca yerində olan bir məqamdır. Ora yalnız bir bəndəyə veriləcəkdir. Peyğəmbər ﷺ demişdir: **“Ümid edirəm ki, həmin bəndə mən olacam”.** Bu ümid inşəAllah gerçəyə çevriləcəkdir. Çünki biz bilirik ki, Allah yanında məxluqatın ən xeyirlisi Muhəmməddir ﷺ. Muhəmmədin ﷺ ümməti də hər azandan sonra Uca Allaha bunun üçün dua edir. Azanla iqamə arasında edilən dua isə rədd olunmur. Bütün ümmət belə deyir: “Allahım, Muhəmmədə vəsilə ver”. Muhəmmədin ﷺ ümməti də uca Allaha dua edərək bir şey istədikdə, Allahın izni ilə qəbul olunar. Ona görə Peyğəmbər ﷺ: **“Ümid edirəm ki, həmin adam mən olacam”**– demişdir.

---

[1] “əl-Kəhf” surəsi, 39.

[2] “Səhih əl-Buxari”, 6409; “Səhih Muslim”, 2704.

Beləliklə, biz müəzzinin səsini eşitdikdə onun dediklərini təkrarlamalıyıq. Hətta Quran oxuduqda belə, qiraəti saxlayıb müəzzinin dediklərini təkrarlamalısan. Azan bitdikdən sonra isə qiraətinə davam et.

Alimlər ixtilaf etmişlər ki, insan namaz qılarkən azan verilərsə, o müəzzinin sözlərini təkrarlamalıdırmı? Şeyxulislam İbn Teymiyyə demişdir ki, "Namazda olsan belə, bəli. Çünki azan zikrdir və namazı batil etmir". Peyğəmbər ﷺ: **"Müəzzinin çağırışını eşitdiyiniz zaman onun dediklərini təkrar edin"**– demiş və heç bir halı istisna etməmişdir.

Əksər alimlər isə: "Namaz qılarkən azanı təkrarlama, çünki namazda özünə xas olan bir məşğuliyyət vardır. Azan isə uzundur, səni yayındıra bilər" demişlər. Lakin əgər namazda asqırmış olsan: "Əlhəmdulilləh"– de. Çünki bu sadəcə bir kəlmədir və səni namazdan yayındırmaz. Müəzzinə cavab vermək isə uzundur. Odur ki, onun sözlərini təkrarlama. Namazı bitirdikdən sonra isə onun sözlərini təkrarla. Çünki sən namazdan yayınmamaqdan ötrü susmuşdun. Həmçinin sən ayaqyolunda olan zaman azan verildiyində də onu təkrarlamırsan. Çünki azan zikrlərdir. Ayaqyolundan çıxdıqdan sonra isə müəzzinin sözlərini təkrarlayırsan. Bəziləri demişlər ki, qəlbində cavab verirsən. Yəni, azanın sözlərini ürəyində təkrarlayırsan. Lakin bu rəy mötəbər deyil. Çünki Peyğəmbər ﷺ: **"Onun dediyi kimi deyin"** demişdir. Qəlbi ilə təkrarlayan isə sözlə təkrarlamış olmur.

Bu zaman belə bir sual meydana çıxır: Görsən ki, bir neçə müəzzin azan verir, bu zaman onların hər birinin sözlərini təkrarlayırsan, yoxsa birinci eşitdiyinin sözlərini təkrarlayıb susursan?

Bu barədə belə deyirik: "Əgər onlar birlikdə azan verirlərsə, yəni birinci bitirməmiş ikinci deyirsə, bu zaman birincinin sözlərini təkrarla, ikincini isə təkrarlama. Çünki sən birincinin sözlərini təkrarlamaqla məşğulsan. Yox, əgər sən birinci bitdikdən sonra ikincini eşitsən, yəni birinci müəzzin azanı bitirdikdən sonra ikincisi azana başlayarsa, bu zaman hər iki azanı təkrarla. Çünki burada xeyir var. Həm də bu Peyğəmbərin ﷺ bu ümumi sözünə daxildir: **"Müəzzinin dediklərini təkrar edin".**

Lakin alimlər: "*Digər müəzzinin verdiyi* azanı təkrarlamaq, namazını hələ qılmayan adama aiddir"– demişlər. Yox, əgər bir adam müəzzinin verdiyi azandan sonra namaz qılarsa, sonra da *digər müəzzinin verdiyi* azanı eşidərsə, bu zaman onu təkrarlamır. Çünki o, bu azanda xitab olunan deyil.

O, üzərinə düşən fərzi artıq yerinə yetirmişdir. *Yəni namazını qılmışdır.* Odur ki, müəzzinin sözlərini təkrarlamalı deyil. Lakin bu rəyə baxılmalıdır. Çünki o, Peyğəmbərin ﷺ ümumi şəkildə dediyi: **"Müəzzini eşitdikdə onun dediklərini təkrarlayın"**– sözünə müxalifdir. Bu hədisdə heç bir hal istisna olunmur.

Alimlərin: "O, bu azanla xitab olunmamışdır"– deməlİərinə gəldikdə isə deyirik ki, o, indi namaza çağırılmır, gələcəkdə isə çağırılacaqdır. Bu, elə də çətin məsələ deyil. Biz deyirik: "*Müəzzinin azanını eşitdikdən sonra* namazını qılmış olsan belə, *digər* müəzzinin dediklərini təkrarla. Çünki bununla sən xeyir içində olacaqsan. Bundan sənə zərər gəlməz. Müvəffəq edən Allahdır.

١٠٣٨ – وعن أَبي سعيدٍ الخُدْرِيِّ رضي الله عنه أَنَّ رسُول اللَّهِ ﷺ قال: « إِذا سمِعْتُمُ النِّداءَ، فَقُولُوا كَما يقُولُ المُؤَذِّنُ ». متفق عليه.

**1038.** Əbu Səid əl-Xudri رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Azanı eşitdiyiniz zaman siz də müəzzinin dediyi kimi deyin".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٠٣٩ – وَعنْ جابرٍ رضي الله عنه أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « من قَال حِين يسْمعُ النِّداءَ: اللَّهُمَّ رَبَّ هذِهِ الدَّعوةِ التَّامَّةِ، والصَّلاةِ الْقَائِمةِ، آت مُحمَّداً الْوسِيلَةَ، والْفَضِيلَة، وابْعثْهُ مقَامًا محْمُوداً الَّذي وعَدْتَه، حلَّتْ لَهُ شَفَاعتي يوْم الْقِيامِة » رواه البخاري.

**1039.** Cabirdən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Hər kim azanı eşitdikdə: "Bu tam dəvətin və qılınacaq namazın Rəbbi olan Allahım! Muhəmmədə vasitəçilik haqqı və fəzilət ver və onu vəd etdiyin tərifl ənən məqama çatdır!"[2]– deyərsə, Qiyamət günü mənim şəfaətimə qovuşar".**

Bu hədisi Buxari rəvayət etmişdir.[3]

---

[1] "Səhih əl-Buxari", 611; "Səhih Muslim", 383.

[2] Transkripsiyası: Allahummə Rabbə həzihid-dəvətit-tammə, vəs-səlatil qaimə, ati Muhəmmədənil-vəsilətə vəl-fədilətə, vəb'ashu məqamən məhmudənilləzi vəadtəhu.

[3] "Səhih əl-Buxari", 614.

١٠٤٠ – وعنْ سَعْدِ بْن أَبي وقَّاصٍ ﷺ عَن النبي ﷺ أَنَّهُ قَالَ: مَنْ قَال حِينَ يسْمعُ المُؤَذِّنَ: أَشْهَد أَنْ لا إِله إِلاَّ اللَّه وحْدهُ لا شَريك لهُ، وَأَنَّ مُحمَّداً عبْدُهُ وَرسُولُهُ، رضِيتُ بِاللَّهِ ربًّا، وبمُحَمَّدٍ رَسُولاً، وبالإِسْلامِ دِينًا، غُفِر لَهُ ذَنْبُهُ » رواه مسلم.

**1040.** Səd ibn Əbu Vaqqas ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Hər kim müəzzinin *azan dediyini* eşitdikdə: "Mən şahidlik edirəm ki, Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur və Muhəmməd Onun qulu və elçisidir. Allahın Rəbb, Muhəmmədin elçi və İslamın din olduğundan razıyam"[1] – deyərsə, onun günahı bağışlanar."**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٠٤١ – وعنْ أَنَسٍ ﷺ قَالَ: قَال رسُولُ اللَّهِ ﷺ: « الدُّعَاءُ لا يُردُّ بين الأَذانِ والإِقامةِ » رواه أبو داود والترمذي وقال: حديث حسن.

**1041.** Ənəs ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Azanla iqamə arasında dua rədd olunmaz".**

Bu hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir"– demişdir.[3]

**Şərh:**

Bu hədislər müəllifin ﷺ "Azanın fəziləti" fəslində qeyd etdiyi son hədislərdir. Onlardan birində Peyğəmbər ﷺ belə demişdir: **"Azanı eşitdiyiniz zaman siz də müəzzinin dediyi kimi deyin".**

Peyğəmbər ﷺ həmçinin demişdir: **"Hər kim azanı eşitdikdə: "Bu tam dəvətin və qılınacaq namazın Rəbbi olan Allahım! Muhəmmədə vasitəçilik haqqı və fəzilət ver və onu vəd etdiyin təriflənən məqama çatdır!"– deyərsə, Qiyamət günü mənim şəfaətimə qovuşar".**

---

[1] Transkripsiyası: Əşhədu ən la ilahə illəllahu vəhdəhu lə şərikə ləh və ənnə Muhəmmədən abduhu və rasuluh. Radiytu billəhi Rabbən və bi Muhəmmədin rasulən və bil-islami dinən.

[2] "Səhih Muslim", 386.

[3] "Musnəd İmam Əhməd", 3/119; "Sunən Əbu Davud", 521; "Sunən ət-Tirmizi", 3595; "Səhih əl-Cami", 3408.

O həmçinin demişdir: **"Hər kim müəzzinin *azan dediyini* eşitdikdə: "Mən şahidlik edirəm ki, Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur və Muhəmməd Onun qulu və elçisidir. Allahın Rəbb, Muhəmmədin elçi və İslamın din olduğundan razıyam!"– deyərsə, onun günahı bağışlanar".**

Sonuncu hədisdə isə belə demişdir: **"Azanla iqamə arasında dua rədd olunmaz".**

Birinci hədisə gəlincə, onun barəsində söhbət açmışdıq ki, gərək insan azanı eşitdikdə eynilə müəzzinin dediyi kimi desin. Yalnız müəzzin: "Həyya aləs-saləh, həyya aləl-fələh"– dedikdə, *hər birinin yerinə:* "Lə həulə va lə quvvətə illə billəh" deyir. Bunları daha öncə də qeyd etmişdik.

İkinci hədisdə isə deyilir ki: **"Hər kim azanı eşitdikdə",** yəni müəzzin azanı bitirdikdə. Daha öncə izah etdiyimiz hədisdə də keçirdi ki, müəzzin azanı bitirdikdən sonra Peyğəmbərə ﷺ salavat deyirsən və daha sonra bunu oxuyursan: **"Bu tam dəvətin və qılınacaq namazın Rəbbi olan Allahım! Muhəmmədə vasitəçilik haqqı və fəzilət ver və onu vəd etdiyin təriflənən məqama çatdır. Şübhəsiz ki, Sən vədinə xilaf çıxmazsan".**

**"Bu tam dəvətin və qılınacaq namazın Rəbbi olan Allahım!"** Bu tam dəvət *olan azan* namaza və nicata dəvətdir. Çünki bu dəvət, *yəni çağırış,* dəvətlərin ən kamilidir.

**"Qılınacaq namaz",** yəni *azandan sonra* qılınan namaz. Çünki azan namazın vaxtının daxil olmasını bildirən elandır.

**"Muhəmmədə vasitəçilik haqqı və fəzilət ver",** yəni ona Cənnətdə ən yüksək dərəcə olan **vasitəçilik haqqını** bəxş et. O isə Peyğəmbərə ﷺ veriləcəkdir.

**"Fəzilət"** isə başqalarından yüksək rütbə və özəllikdir ki, o da Peyğəmbərə ﷺ verilmişdir.

**"Onu vəd etdiyin təriflənən məqama çatdır".** Uca Allah ona bunu vəd vermişdir. Uca Allah buyurur: **"Gecənin bir vaxtı oyanıb, sənə nafilə olaraq *buyrulmuş təhəccüd* namazını qıl. Umulur ki, Rəbbin səni tərifəlayiq bir məqama yüksəltsin".**[1]

---

[1] "əl-İsra" surəsi, 79.

Bu tərifəlayiq məqamda da o şəfaət edəcək. Müddəti əlli min il olan həmin böyük məqamda insanlar dözülməz bir halda, qəm və kədər içində olacaqlar. Çağıran onları eşidəcək, gözlər onları görəcək, bədənləri çılpaq, ayaqları yalın olacaq, gözləri də bərələ qalacaq. Onlar özlərinə nə bir fayda, nə də bir zərər verə bilməyəcəklər. Adam öz qardaşından, anasından, atasından, yoldaşından və övladlarından qaçacaq, Günəş bir mil məsafəsində onlara yaxınlaşacaq.[1] Bu yerdə *günəşdən daldalanmaq üçün* nə bir kölgə, nə bir əyri yer (dalan), nə də bir tikili olacaq.

Həmin vaxt insanlar *bu üzüntüdən qurtarmaq üçün* tələb edəcəklər ki, kimsə onlar üçün Allah yanında şəfaətçi olsun. Onlar əvvəlcə Adəmin, sonra Nuhun, sonra İbrahimin, sonra Musanın, sonra İsanın yanına gələcəklər. Nəhayət, onlar Peyğəmbərin ﷺ yanına gələcək, o da qalxıb onlar üçün şəfaətçilik edəcək.[2]

Bu məqamda hər kəs ona təşəkkür edəcək. Çünki bütün insanlar həmin yerdə olacaqlar. İbrahim, Musa, İsa, Nuh, bəşəriyyətin atası Adəm kimi bütün böyük və möhtərəm peyğəmbərlər şəfaətçi olmaqdan üzrxahlıq edəcəklər. Peyğəmbər ﷺ o an qalxıb şəfaətçilik etdikdə bütün insanlar ona təşəkkür edəcəklər. Bu tərifəlayiq məqam izzət və cəlal sahibi Allahın ona vəd etdiyi məqamdır.

Bu hədisi Buxari **“əlləzi vəadtəhu”** sözünədək rəvayət etmişdir. **“Şübhəsiz ki, Sən vədinə xilaf çıxmazsan”**[3] əlavəsi səhih olduğu üçün onu da demək lazımdır. Həm də bu möminlərin dualarındandır. Uca Allah buyurur: **“Ey Rəbbimiz, Öz elçilərinin vasitəsilə vəd etdiklərini bizə ver və Qiyamət günü bizi rəzil etmə! Şübhəsiz ki, Sən vədinə xilaf çıxmazsan!”**[4]

Uca Allah kamil sidqi (doğruluğu) və qüdrəti ilə vədinə xilaf çıxan deyil. Vədə xilaf çıxmaq ya vəd verənin öz vədinə xilaf çıxması, ya da bunu yerinə yetirməyə aciz olması səbəbindən olur. İzzət və cəlal sahibi Allah isə ən doğru danışan, ən qüdrətli olandır. Uca Allah öz peyğəmbərinə vəd vermişdir ki: **“Umulur ki, Rəbbin səni tərifəlayiq bir məqama**

---

[1] “Musnəd İmam Əhməd”, 5/254.

[2] “Səhih Muslim”, 193.

[3] Beyhəqi, “Sunən əl-Kubra”, 1/410. Transkripsiyası: İnnəkə lə tuxliful-miad.

[4] “Ali İmran” surəsi, 194.

**yüksəltsin."**[1] Uca Allah həm vədinə sadiqdir, həm də onu yerinə yetirməyə də qadirdir.

Azanı eşitdikdə: **"Mən şahidlik edirəm ki, Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur və Muhəmməd Onun qulu və elçisidir. Allahın Rəbb, Muhəmmədin elçi və İslamın din olduğundan razıyam!"**– deyilməsinə gəlincə, bunu müəzzin: "Əşhədu ən lə iləhə illəllah. Əşhədu ənnə Muhəmmədən rasulullah" dedikdə söyləmək lazımdır. Bu zaman deyirsən ki: "Allahın Rəbb, Muhəmmədin elçi və İslamın din olduğundan razıyam".

Bu fəsildəki sonuncu hədisdə isə azanla iqamə arasında dua etməyə təşviq olunur. Belə ki, azanla iqamə arasındakı dualar qəbul olunur. Odur ki, fürsətdən istifadə edərək bu vaxt izzət və cəlal sahibi Allaha dualar etməyə çalış. Ola bilsin, Allah sənin dualarını qəbul edər. Müvəffəq edən Allahdır.

---

[1] "əl-İsra" surəsi, 79.

# Yüz səksən yeddinci fəsil

## Namazların fəziləti

**Mövzu ilə əlaqəli ayə:**

Uca Allah buyurur:

﴿إِنَّ ٱلصَّلَوٰةَ تَنْهَىٰ عَنِ ٱلْفَحْشَآءِ وَٱلْمُنكَرِ﴾

**“Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir”.**[1]

**Şərh:**

Müəllif ﵀ bu fəslə **“Namazların fəziləti”** adını vermişdir.

**Namaz**, təkbirlə başlayıb təslimlə (salamla) bitən bəlli bir ibadətdir.

**Namaz**, kəlmeyi-şəhadətdən sonra İslamın ikinci və ən üstün rüknüdür. Həmçinin kəlmeyi-şəhadətdən sonra İslamın ən faydalı rüknü sayılır.

**Namaz**, insanla Rəbbi arasında olan bir rabitədir. Çünki insan namaz qılan zaman izzətli və qüdrətli Allahın hüzurunda durub Onunla danışmış sayılır. O, “Əlhəmdulillahi Rabbil aləmin”– dedikdə, Allah: “Qulum Məni həmd-səna ilə təqdis etdi”– deyir. O, “ər-Rəhmanir-Rəhim”– dedikdə, Allah: “Qulum Məni təriflədi”– deyir. O, “Maliki yəumiddin”– dedikdə, Allah: “Qulum Məni mədh etdi” [və ya “Mənə arxayın oldu”] deyir. O, “İyyakə nəbudu və iyyakə nəstəin”– dedikdə, Allah buyurur: “Bu, Mənimlə qulumun arasında iki hissəyə bölünür və o, dilədiyini alacaq”. O, “İhdinəs-siratal-mustəqim, siratal-ləzinə ənamtə aleyhim, ğeyril-məğdubi aleyhim vələddallin”– dedikdə, Allah buyurur: “Bu, quluma məxsusdur və o, dilədiyini alacaqdır”.[2] Bütün bunlar Allahla bəndə arasında baş verən söhbətdir.

Bundan əlavə, namazdakı hərəkətlərin və sözlərin hamısı təzimdir. Belə ki, adam elə namaza başlayan zaman ilk olaraq “Allahu əkbər” deyir. Yəni elmdə, səltənətdə, ucalıqda, qüdrətdə və başqa bu kimi vəsflərdə ən böyük olan Allahdır. Yeddi göy, yeddi yer və içindəki hər şey Onun

---

[1] “əl-Ənkəbut” surəsi, 45.

[2] “Səhih Muslim”, 395.

ovucunda, birimizin ovucundakı bir xardal dənəsi qədər belə yer tutmaz. O, bu qədər böyüklükdə olan göyləri *Qiyamət günü* sağ Əli ilə bükəcəkdir. Habelə, *Qiyamət günü* bu qədər böyüklükdə olan Yeri, birimizin istənilən bir şeyi ovucuna aldığı kimi ovucuna alacaqdır. Bütün məxluqat *nisbətcə* Allahın yanında heç nədir – Allah ən böyükdür.

Daha sonra, namaz vasitəsilə Allahla danışan bəndə hərəkətlə Ona təzim edərək rüku edir və dillə də təzim edərək "Sübhanə Rabbiyəl Azim" (Əzəmətli Rəbbim pak və müqəddəsdir) deyir. Sonra rükudan qalxıb dik dayanır, daha sonra səcdə edir. Rükudan qalxıb dik dayanmaq, təzim əlaməti olan rüku ilə boyun əymə əlaməti olan səcdə arasında bir fasilədir. Ona görə də Peyğəmbər ﷺ: **"Rükuda Rəbbinizə təzim edin"**– deyə buyurmuşdur. *Yəni, rükuda "Sübhanə Rabbiyəl Azim" deyin.*

Daha sonra bəndə, itaət və boyun əymə əlaməti olaraq Allah üçün səcdəyə qapanır. Bədənin ən hörmətli yeri sayılan üzünü bədənin ən alt nöqtəsi olan ayaqlarının səviyyəsinə endirir və Rəbbinə boyun əyərək, Onun qarşısında alçalaraq alnını yerə qoyur. Sonra Rəbbini alçalmaqdan və aşağıda olmaqdan uzaq tutaraq "Sübhanə Rabbiyəl-Əla" (Ən uca Rəbbim pak və müqəddəsdir) deyir. Bunu deyən zaman həmin adam ən aşağı vəziyyətdə və alnı da yerdə olur. Sanki o, "Mənim Rəbbim hər cür aşağılıqdan pak və müqəddəsdir. O, hər şeydən ucadır və hər şeyin fövqündədir" deyir.

Namaz möhtəşəm bir ibadətdir. Uca Allah namazın qədrini bilməyi və onu haqqı ilə yerinə yetirməyi bizlərə nəsib etsin.

Namazın nə qədər fəzilətli və möhtəşəm bir ibadət olduğunu, habelə Allahın nə qədər çox sevdiyi bir əməl olduğunu bilmək üçün onun necə fərz buyurulduğunu bilmək yetər. Belə ki, namazdan başqa bütün fərz əməllər Allahın elçisinə ﷺ vəhy vasitəsilə fərz buyurulmuşdur. Namazı isə uca Allah Öz elçisinə ﷺ bilavasitə, birbaşa xitab edərək, insan oğlunun yetişə biləcəyi ən uca bir yerdə, Peyğəmbər ﷺ üçün ən şərəfli gecə sayılan merac gecəsində fərz buyurmuşdur.

Uca Allah ilk olaraq gün ərzində əlli vaxt namaz qılmağı fərz buyurmuşdu. Çünki Allah namazı çox sevir, habelə namazın savabı çox böyükdür. Lakin *sonradan* uca Allah Öz lütfünü göstərərək onların sayını əllidən azaltmış və beş vaxt etmişdir. Allahım, Sənə həmd olsun!

**Namazın çox böyük və çox dəyərli faydaları vardır ki, onlardan da bəziləri aşağıdakılardır:**

1. Müəllifin bu fəslin başında zikr etmiş olduğu **"Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir"** ayəsində ifadə olunan fayda ən birinci gəlir. Bu ayənin ərəbcəsində keçən **"əl-fəhşa (çirkin iş)"** zina və homoseksuallıq kimi böyük günahlardır. Ayədə keçən **"munkər (yaramaz iş)"** isə bunlardan aşağı dərəcədə olan günahlardır.

Bəs namaz insanı nə zaman çirkin və yaramaz işlərdən çəkindirir?

Cavabı belədir: Əgər namaz mükəmməl şəkildə, haqqı ilə qılınarsa, bu baş verir. Haqqı ilə qılınmadığına görədir ki, namaz qılan bir çox insanların qəlblərinin namazdan sonra dəyişmədiyini, yəni çirkin və yaramaz işlərə nifrət etmədiyini və ya ən azından namazdan sonrakı hallarının namazdan öncəki hallarından daha yaxşı olmadığını görürük. Bəs nə üçün bu belədir? – Çünki bizim qıldığımız namazlar adamı çirkin və yaramaz işlərdən çəkindirən namazlardan deyildir. Axı Allahın kəlamı haqdır və vədi də doğrudur. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir.

Əgər sən pis bir iş görməyə niyyət etmisənsə, yaxud qəlbin günah etməyə meyl etmişsə, bu zaman namaz qılsan, bunların hamısı səndən yox olub gedər. Lakin bir şərtlə ki, səndən tələb olunan və sənin sırf Allah üçün qılmaq istədiyin o namazı mümkün olan ən mükəmməl şəkildə qılasan. Deməli, namazlarımıza önəm verməliyik. Uca Allahdan istəyirik ki, bu xüsusda bizə yardım etsin. Biz bacardığımız qədər namazları ən mükəmməl şəkildə yerinə yetirməyə çalışmalıyıq – rüknlərini, şərtlərini, vaciblərini və sünnələrini lazımi qaydada yerinə yetirməliyik. Belə olarsa, namaz bizi çirkin və yaramaz işlərdən çəkindirər.

Sələfi salehdən bəziləri: "Əgər bir adamın qıldığı namaz onu çirkin və yaramaz işlərdən çəkindirmirsə, o zaman *həmin adam* bu namazı ilə Allahdan daha da uzaqlaşmış olur" demişlər. Bu xüsusda Allah bizləri qorusun! Çünki bizdən tələb olunan namaz bu namaz deyildir. Bizdən tələb olunan namaz, həmin kəlmənin tam mənası ilə həyata keçirilən bir namazdır. Sələfi salehdən bəziləri namaz qılmağa başladıqda heç bir şeyi hiss etməz və Allahdan başqa hər şeyi unudarmış. Hətta *rəvayət olunur ki,* tabiinlərin fəqihlərindən olan Urva ibn əz-Zubeyrin ﷺ bir ayağında qanqrenaya çevrilə biləcək bir yara olur. Təbib bu yaranın bədənin qalan

yerlərinə yayılmaması üçün onun ayağının kəsilməsinə qərar verir. Lakin o zamanlar keyidici vasitələr yox idi. Bu səbəbdən Urva: "Gözləyin, mən namaza başlayım" demişdir. Urva namaza başladıqdan sonra isə həkim onun ayağını kəsmiş və o bunu hiss etməmişdir. Çünki onun qəlbi Allahı zikr etməklə məşğul idi. Qəlb isə məşğul olduqda bədənə toxunan heç bir şeyi hiss etməz. Məsələn, yük daşımaqla məşğul olan fəhlələrə bir nəzər salaq. Bəzən onlardan biri yük boşaldan, yaxud yükləyən zaman əlini və ya ayağını yaralasa da, bunu hiss etmir. Çünki onun fikri yüklərdədir. Ona görə də həmin yaranın ağrısını yalnız işini qurtardıqdan sonra hiss etməyə başlayır.

Bir sözlə, insan namaz əsnasında mütləq Allahla olmalıdır. Bir çoxumuzda olduğu kimi, qəlbi orada-burada olmamalıdır. Kənar bir şey barəsində fikirləşməməli və heç bir əsası olmayan vəsvəsələrlə özünü məşğul etməməlidir. Çünki insan namaza başladığı zaman şeytan onun yanına gəlir və "Filan şeyi yadına sal, filan şeyi xatırla, elə et, belə etmə" kimi vəsvəsələr edir. Bunların hamısı namaza xələl gətirir. Bəzən elə olur ki, insan namazını bitirdikdə həmin namazdan heç bir şey əldə etmir. Sadəcə üzərinə düşən vacibi yerinə yetirmiş sayılır və bundan əlavə heç bir şey qazanmır.

*Hədislərdə varid olub ki,* Ömər ﵁ ordusunu namazda hazırlamışdır.[1] Bəzi avamlar da bunu dəlil olaraq gətirir ki, insanın namaz əsnasında istənilən bir şey barəsində fikirləşməsində heç bir qəbahət yoxdur. Çünki Ömər ﵁ ordusunu namazda hazırlamışdır. Odur ki, adam namazda bəzi şeyləri götür-qoy edə bilər. Lakin *bu fikir doğru deyildir. Çünki* ordunu hazırlamaq Allah yolunda cihaddır. Allah yolunda cihadın namaza daxil edilməsi isə caizdir. Ona görə də görürük ki, uca Allah müsəlmanlara [düşmənlə döyüş zamanı] qorxu namazı qılmağı buyurmuşdur. Qorxu namazında elə hərəkətlər var ki, həmin hərəkətlər adi namazlarda yoxdur. Bunu elm əhli yaxşı bilir. Ona görə Ömər ﵁ ordusunu namazda hazırlamış və bununla belə qəlbi də Allaha bağlı olmuşdur. Yəni qəlbi oradaburada olmamışdır. O, ordusunu namazda hazırlamış olsa belə, yenə də Allaha ibadət etməklə məşğul idi. Allahdan istəyim budur ki, bizləri,

---

[1] "Səhih əl-Buxari. Cümə kitabı, Kişinin namazda *bir şey barəsində* fikirləşməsi fəsli".

namazları özlərini çirkin və yaramaz işlərdən çəkindirən kimsələrdən etsin, qıldığımız namazları da bizdən qəbul etsin. Şübhəsiz ki, Allah hər şeyə qadirdir.

**Mövzu ilə əlaqəli hədislər:**

١٠٤٢ – وَعنْ أَبي هُرَيْرةَ ﷺ قَال: سمِعْتُ رسُول اللَّهِ ﷺ يَقُولُ: « أَرأَيْتُمْ لَوْ أَنَّ نَهْراً بِباب أَحَدِكم يغْتَسِلُ مِنْه كُلَّ يَوْمٍ خَمْس مرَّاتٍ، هلْ يبْقى مِنْ دَرَنِهِ شَيءٌ؟» قالُوا: لا يبْقَى مِنْ درنِهِ شَيْء، قَال: « فذلكَ مَثَلُ الصَّلَواتِ الخَمْسِ، يمْحُو اللَّه بهِنَّ الخطَايا » متفقٌ عليه.

**1042.** Rəvayət olunur ki, Əbu Hureyra ﷺ demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Bir deyin görüm, əgər sizdən birinizin qapısının önündən çay axsaydı, o da hər gün bu çayda beş dəfə yuyunsaydı, onun *bədəninin* kirindən bir şey qalardımı?"** Səhabələr: "*Xeyr,* onun kirindən heç bir şey qalmazdı"– deyə cavab verdilər. Onda *Rəsulullah* ﷺ buyurdu: **"Beş vaxt qılınan namazların məsəli də buna bənzəyir. Bunların sayəsində Allah xətaları silər!"».**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

١٠٤٣ – وعنْ جَابِرٍ ﷺ قال: قال رسُولُ اللَّهِ ﷺ: « مثَلُ الصَّلواتِ الخَمْسِ كمثَلِ نَهْرٍ جارٍ غمْرٍ علَى باب أَحَدِكُم يغْتَسِلُ مِنْهُ كُلَّ يَوْمٍ خمْسَ مرَّاتٍ» رواه مسلم.

« الغَمْرُ » بفتحِ الغين المعجمةِ: الكثِيرُ.

**1043.** Cabir ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Beş *vaxt* namazın məsəli, sizdən birinizin qapısı önündən axan, bol suyu olan və içində beş dəfə yuyunduğu bir çay kimidir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

[Hədisin ərəbcəsində keçən] "əl-ğamr" sözü "bol sulu" deməkdir.

---

[1] "Səhih əl-Buxari", 528; "Səhih Muslim", 667.

[2] "Səhih Muslim", 668.

١٠٤٤ – وعَنِ ابْنِ مَسْعُودٍ ﷺ أَنَّ رجُلاً أَصاب مِنِ امْرأَةٍ قُبْلَةً، فأَتَى النَّبِيَّ ﷺ فَأَخبرهُ فأَنزَل الله تعالى: ﴿ وَأَقِمِ ٱلصَّلَوٰةَ طَرَفَيِ ٱلنَّهَارِ وَزُلَفًا مِّنَ ٱلَّيۡلِۚ إِنَّ ٱلۡحَسَنَٰتِ يُذۡهِبۡنَ ٱلسَّيِّـَٔاتِۚ ﴾ فقال الرَّجُلُ: أَلِي هذا؟ قال: «لجمِيع أُمَّتِي كُلِّهِمْ» متفقٌ عليه.

**1044.** İbn Məsud ﷺ rəvayət edir ki, bir dəfə bir kişi *naməhrəm* bir qadını öpür və gəlib bunu Peyğəmbərə ﷺ xəbər verir. Uca Allah da bu ayəni nazil edir: **"Gündüzün iki başında –** *əvvəlində və axırında* **və gecənin bəzi saatlarında doğru-düzgün namaz qıl! Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır".** Kişi deyir: "Bu *hökm yalnız* mənə aiddir?" Peyğəmbər ﷺ deyir: ***"Bu*** **mənim ümmətimin hamısına aiddir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٠٤٥ - وعن أَبي هُريرة ﷺ أَنَّ رسولَ اللَّهِ ﷺ قال: «الصَّلواتُ الخَمْسُ، والجُمُعةُ إِلى الجُمُعَةِ، كفَّارةٌ لما بَيْنهُنَّ، ما لم تُغْشَ الكبَائِرُ» رواه مسلم.

**1045.** Əbu Hureyra ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Böyük günahlar işlətmədikcə, beş** ***vaxt*** **namaz,** ***bunların arasındakı günahların,*** **habelə cümə namazı, növbəti cüməyədək arada olan günahların kəffarəsidir."**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٠٤٦ - وعن عثمانَ بنِ عفان ﷺ قال: سمِعْتُ رسولَ الله ﷺ يقولُ: «ما مِن امْرِيءٍ مُسْلِمٍ تحضُرُهُ صلاةٌ مَكتُوبةٌ فَيُحْسِنُ وُضُوءَهَا، وَخُشوعَهَا، وَرُكُوعَها، إلاَّ كانت كَفَّارةً لما قَبْلَهَا مِنْ الذنُوبِ ما لم تُؤْتَ كَبِيرةٌ، وَذلكَ الدَّهْرَ كلَّهُ» رواه مسلم.

**1046.** Rəvayət olunur ki, Osman ibn Affan ﷺ demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: **"Bir fərz namazının vaxtı yetişdikdə onun dəstəmazını, xuşusunu və rükusunu gözəl tərzdə yerinə yetirən elə bir müsəlman bəndə yoxdur ki, böyük günah işləmədikcə bu namazı onun əvvəlki günahlarına kəffarə olmasın. Bu da hər zaman beləcə davam edər"».**

---

[1] "Səhih əl-Buxari", 526; "Səhih Muslim", 2763.

[2] "Səhih Muslim", 233.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Bu hədislər namazların fəzilətləri barəsindədir. Peyğəmbər ﷺ namazı bol sulu, durğun olmayan, axar çaya bənzədir. Bir insan gündə beş dəfə orada çimərsə onun kirindən heç əsər-əlamət qalarmı? – Onun kirindən heç bir şey qalmaz. Beş vaxt namaz da belədir. Allah bu namazlar vasitəsilə insanın xətalarını silir, bununla da insan xətalardan təmizlənmiş olur. Lakin əvvəldə də qeyd etdiyimiz kimi, bu, insanın kamil şəkildə qıldığı namazlara aiddir – bu o namazlardır ki, insan onu mükəmməl şəkildə, layiqincə qılır, fikri namazda olur, namaz əsnasında Rəbbi ilə danışdığını hiss edir. Əgər namaz tələb olunan şəkildə qılınarsa, bu böyük savab əldə olunar və bu namaz vasitəsilə Allah xətaları silər.

Beş vaxt namazın fəzilətlərindən biri də odur ki, *insan* böyük günahlar işlətmədikcə, beş *vaxt* namaz *insanın bunlar arasındakı günahlarına,* habelə cümə namazı da növbəti cüməyədək arada olan günahlarına kəffarədir. Demək, beş vaxt namaz kiçik günahları silir, böyük günahları isə silmir. Misal üçün, alış-veriş zamanı kələk gəlmək böyük günahlardan hesab olunur. Belə ki, Peyğəmbər ﷺ belə bir insandan uzaq olduğunu bildirərək demişdir: **"Kələk gələn bizdən deyildir".**[2]

Əgər bir insan beş vaxt namazını qılırsa, amma bununla yanaşı fırıldaqçılıq da edirsə, o zaman bu namazlar onun fırıldağına kəffarə olmaz. Çünki fırıldaq etmək böyük günahlardan sayılır.

Alış-verişdə yalandan and içmək də böyük günahlardandır. Məsələn, malını satan yalandan and içir ki, vallahi onu bu qiymətə almışam. Yaxud yalandan and içir ki, vallahi bu mal filan növdəndir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Üç qisim insan vardır ki, Qiyamət günü Allah onları danışdırmayacaq, onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır; üstəlik onları üzücü bir əzab gözləyir. *Onlar, libasının* ətəyini topuqdan aşağı uzadan, verdiyini başa qaxan və yalandan and içməklə malını sırıyan *kimsələrdir.*"**[3]

---

[1] "Səhih Muslim", 228.
[2] "Səhih Muslim", 102.
[3] "Səhih əl-Buxari", 2369; "Səhih Muslim", 106.

Həmçinin, insanın libasının ətəyini təkəbbürlüklə *topuqdan* aşağı salaraq geyinməsi də böyük günahlardan sayılır. Həmin adamın qıldığı namaz bu günahı silmir. Hətta təkəbbürlük etmədən belə libasının ətəyini topuqdan aşağı uzatsa, yenə də bu əməl böyük günahlardan sayılar və qıldığı namaz *onun* bu günahına kəffarə olmaz. Çünki bu, böyük günahlardandır.

Qeybət də böyük günahlardandır. İnsan sübhlə zöhr namazının arasında birinin qeybətini etdikdə zöhr namazı həmin günahı silmir. Çünki qeybət etmək böyük günahlardandır. Hətta bu qeybət yalnız bir dəfə və bir nəfər haqqında olsa belə, yenə hökm eynidir.

Avam insanlar qeybətə "səbbabə" ("şəhadət barmağı", yəni birinə dil uzatmaq, onun haqqında nalayiq sözlər demək) deyirlər. Dolayısıyla qeybət, müsəlman qardaşını onun xoşuna gəlməyəcək bir şəkildə zikr etməkdir. Çünki Peyğəmbərdən ﷺ qeybət haqqında soruşulduqda o belə buyurmuşdur: **"Qardaşını onun xoşuna gəlməyən tərzdə zikr etməyindir".** *Səhabələr* soruşdular: "Əgər qardaşımda dediklərim varsa, onda necə?" O dedi: **"Əgər sənin dediklərin onda varsa, onun qeybətini etmiş olursan, yox, əgər yoxdursa, onda ona böhtan atmış olursan".**[1]

Qeybətin günahı onun qoyduğu izlərə və törətdiyi fəsadlara görə fərqli olur. Məsələn, alimlərin qeybətini etməyin günahı avam insanların qeybətini etməkdən fərqlənir. Habelə, əmr sahiblərinin qeybətini etmək adi insanların qeybətini etməkdən fərqlidir. Bununla aydın olur ki, qəzetlərdə xəbərlər adı ilə yazılan və insanlar arasında yayılan bu söz-söhbətlərin hamısı qeybətdəndir. Bu şeyləri insanlar arasında yaymağın özü də böyük günahlardandır. İnsan buna görə də böyük günah qazanmış olur. Çünki bu qəzetlərdə və buna bənzər nəşrlərdə yazılan bu qeybətlərin hamısı insanlarda qeybəti olunan adamlara qarşı nifrət oyadır və camaatın onlara qarşı çıxmalarına səbəb olur. Həmçinin bu, qəlblərdə nifrətin yaranmasına və fitnələrin baş verməsinə səbəb olur. Əmr sahiblərinin qeybətinin edilməsi qeybətin ən böyük günah sayılan növlərindəndir. Kim bunları insanlar arasında yayırsa, Allah qorusun, böyük günah işləmiş olur. Həmin adam həm öz günahı ilə yüklənməklə yanaşı, yaydığı qeybət vasitəsilə təsirlənən

---

[1] "Səhih Muslim", 2589.

insanların günahlarına da şərik olur. Allahdan salamatlıq diləyirik. Çünki bu cür hərəkətlər qeybətə daxildir: **“Qardaşını onun xoşuna gəlməyən tərzdə zikr etməyin...”.**

Bundan əlavə, bu yayılan xəbərlərin mənbəyi haradadır? Bu xəbərlərin doğru olduğunu kim söyləyə bilər və ya isbat edə bilər? Odur ki, bəzi qəzetlərdə və buna bənzər şeylərdə yayılan məlumatların *əsli olmadığı üçün* bunların hamısı yalan sayılır. Biz *dəfələrlə* onların yalan və doğru olmadığına şahid olmuşuq. Belə olduqda bunu yayan adam qeybətlə böhtanı cəm etmiş olur. Allaha sığınırıq.

Yaxşı, bəs bu şayiələri yaymaqla nə baş verir, işlər düzəlirmi? İnsanlar bu şayiələrdə söylənilənlərdən uzaqlaşırlarmı? Qətiyyən yox! Əksinə, iş daha da qəlizləşir. Odur ki, biz əmr sahibləri barəsində qeybət yazan bu cür qəzetləri yaymağı böyük günahlardan hesab edirik. *Sıravi* insan onu yaymaqla, nəşr etməklə, insanlara paylamaqla günah qazanır. Çünki qeybətin həqiqəti ona da tətbiq olunur. Qeybətin həqiqəti isə: **“Qardaşını onun xoşuna gəlməyən tərzdə zikr etməyindir”.** Heç şübhəsiz, sənin etdiyin bu əməl də qardaşını onun xoşuna gəlməyən tərzdə zikr etməyindəndir.

Bundan əlavə, bu qeybətin böyük fəsadları da olur. Bu cür qeybət adi adamları qeybət etməklə eyni deyildir. Belə ki, adi adamın qeybətini etmək şəxsi məsələ hesab olunur. Əmr sahibinin qeybətini etdikdə isə bunun zərəri birbaşa həm qeybət edənin özünə, həm də *ölkədəki* əmin-amanlığa xələl gətirir. Çünki bu zaman insanların qəlbində əmr sahiblərinə qarşı kin və nifrət yaranır. Odur ki, biz bu tip şayiələrin yayılmasından həzər edir və deyirik ki, kim onu yayırsa, yayılmasında iştirak edirsə, həmin adam böyük günah qazanır. Əgər bununla vəziyyətin düzələcəyini bilmiş olsaydıq, iş daha yüngül olardı. Təəssüf ki, bununla iş düzəlmir – sadəcə əmr sahiblərinə qarşı kin və nifrət artmış olur ki, bu da böyük bir şərdir.

Uca Allahdan diləyirik ki, bunu yayanları layiqli şəkildə cəzalandırsın. Həqiqətən O, hər şeyə Qadirdir. Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və bütün səhabələrinə Allahın salavatı və salamı olsun.

## Yüz səksən səkkizinci fəsil

### Sübh və əsr namazlarının fəziləti

**Mövzu ilə əlaqəli hədislər:**

١٠٤٧ – عـن أَبـي موسـى ﵁ أَنَّ رسـول اللَّهِ ﷺ قـال: « مَـنْ صـلَّى البَـرْدَيْنِ دَخَـلَ الجنَّة» متفقٌ عليه.

« البرْدانِ »: الصُّبْحُ والعَصرُ.

**1047.** Əbu Musa ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Kim iki sərinlik namazını qılarsa, Cənnətə girər".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

**"İki sərinlik namazı"** sübh və əsr namazlarıdır.

١٠٤٨ – وعن أَبي زُهَيْرٍ عُمارَةَ بن رُوَيْبةَ ﵁ قال: سمِعْتُ رسـول اللَّهِ ﷺ يقـولُ: «لَنْ يلجَ النَّارَ أَحدٌ صلَّى قبْلَ طُلُوعِ الشَّمْس وَقَبْل غُرُوبَها » يعْني الفجْرَ، والعصْرَ. رواه مسلم.

**1048.** Rəvayət olunur ki, Əbu Zuheyr Umarə ibn Ruveybə ﵁ demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Gün doğmazdan və gün batmazdan əvvəl namaz qılan bir kimsə Cəhənnəmə girməyəcəkdir"**».

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

**Şərh:**

Müəllif ﵀ bu fəslə **"Sübh və əsr namazlarının fəziləti"** adını vermişdir. Bu namazların başqalarında olmayan özünəməxsus özəllikləri vardır:

Sübh namazına gəlincə, uca Allah belə buyurur: **"Gün batmağa meyl edəndən gecənin qaranlığınadək *bəlli vaxtlarda* namaz qıl və sübh çağı Quran oxu (fəcr namazını da qıl)! Çünki sübh çağı oxunan Quranın**

---

[1] "Səhih əl-Buxari", 574; "Səhih Muslim", 635.

[2] "Səhih Muslim", 634.

**şahidləri olur"**[1]**.** Yəni Allah və mələkləri ona şahidlik edir. Bu, böyük fəzilətdir.

Sübh namazının bir özəlliyi də digər namazlardan ayrı, özünə xas olan bir vaxtının olmasıdır. İşa namazı ilə sübh namazının arasında gecənin son yarısı vardır. Sübh namazı ilə zöhr namazının arasında isə gündüzün ilk yarısı vardır. Çünki işa namazının vaxtı gecənin yarısında bitir və sübh namazınadək davam etmir. Deməli, gecənin yarısı olduqda işa namazının vaxtı çıxır. *Bundan sonra* geriyə qalan və sübh namazına qədər davam edən digər yarısı isə içində fərz namazı olmayan bir vaxtdır. Həmin vaxt uca Allahın müvəffəq etdiyi kəslər üçün təhəccüd vaxtıdır.

Həmçinin gün çıxandan zenitə yüksələnədək olan vaxt da içində fərz namazı olmayan bir vaxtdır. Həmin vaxtda yalnız duha namazı kimi nafilə namazlar qılınır.

Beləliklə, sübh namazının özəlliyi budur ki, həmin namaz müşahidə olunur və onun ayrıca, digər fərz namazlarına birləşməyən özünə xas vaxtı vardır. Yəni, sübh namazı nə özündən öncəki, nə də sonrakı fərz namazlarına bitişmir.

Əsr namazının özəlliyi isə budur ki, o orta namazdır. Peyğəmbərin ﷺ bir hədisində də deyildiyi kimi, orta namaz əsr namazıdır.[2] Əsr namazının digər bir özəlliyi də budur ki, uca Allah onun fəzilətinə və dəyərinə işarət etmişdir. Belə ki, ümumi olaraq namazları qeyd etdikdən sonra onu xüsusiləşdirərək belə buyurmuşdur: **"Namazları, *xüsusilə* orta namazı qoruyun".**[3]

Bu ayədə **"namazları"** sözü ümumidir. ***"Xüsusilə*** **orta namazı",** yəni əsr namazını. Uca Allah əsr namazının fəzilətinə görə onu xüsusi olaraq zikr etmişdir. Əsr və sübh namazının bəzi ortaq fəzilətləri və xüsusiyyətləri də vardır ki, müəllif ؒ bu fəsildə onları qeyd etmişdir:

**Birinci. "Kim iki sərinlik namazını qılarsa, Cənnətə girər".** Burada **"iki sərinlik namazı"** deyildikdə, sübh və əsr namazları qəsd edilir. Çünki sübh namazı gecənin ən soyuq vaxtında olur. Gecənin ən soyuq vaxtı isə

---

[1] "əl-İsra" surəsi, 78.

[2] "Səhih əl-Buxari", 2931; "Səhih Muslim", 627.

[3] "əl-Bəqərə" surəsi, 238.

onun sonudur. Əsr namazı isə gündüzün ən soyuq vaxtında olur. Gündüzün də ən soyuq vaxtı onun sonuna doğru olur. Buna görə də Peyğəmbər ﷺ: **"Kim iki sərinlik namazını qılarsa, Cənnətə girər"**– demişdir.

**İkinci.** Yenə Peyğəmbər ﷺ xəbər vermişdir ki: **"Gün doğmazdan və gün batmazdan əvvəl namaz qılan bir kimsə Cəhənnəmə girməyəcəkdir".** Yəni sübh və əsr namazlarını.

Birinci hədis Cənnətə daxil olmağa sübutdur, ikinci hədis isə Cəhənnəmə daxil olmamağa sübutdur. Bu da Uca Allahın aşağıdakı ayəsinə bənzəyir: **"Kim Oddan uzaqlaşdırılıb Cənnətə daxil edilərsə, o, əlbəttə, uğur qazanmış olar".**[1]

Uca Allahdan diləyirik ki, bizi və sizi namazlarını, xüsusən də orta namazı qoruyanlardan etsin. Bizləri Cəhənnəmə haram edib, Cənnətə daxil etsin. Həqiqətən də O, hər şeyə Qadirdir.

١٠٤٩ – وعن جُندَبِ بن سُفْيانَ رضي الله عنه قال: قال رسولُ الله ﷺ: « مَنْ صَلَّى الصُّبْحَ فهُوَ في ذِمَّةِ اللَّهِ فَانْظُرْ يَا ابنَ آدم لاَ يَطْلُبنَّك اللَّه مِنْ ذِمَّتِهِ بِشيءٍ » رواه مسلم.

**1049.** Cundəb ibn Sufyan رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Kim sübh namazını qılarsa, o adam Allahın himayəsi altında olar. Elə isə, ey Adəm oğlu, bax ki, Allah səni Öz himayəsində olan bir şeydən dolayı hesaba çəkməsin".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٠٥٠ – وعن أَبي هُريرةَ رضي الله عنه قالَ: قال رسولُ اللَّهِ ﷺ: «يَتَعاقَبُونَ فِيكم مَلائِكَةٌ بِاللَّيْلِ، وملائِكَةٌ بِالنَّهارِ، وَيجْتَمِعُونَ في صَلاةِ الصُّبْحِ وصلاةِ العصْرِ، ثُمَّ يعْرُجُ الَّذِينَ باتُوا فِيكم، فيسْأَلُهُمُ اللَّه – وهُو أَعْلمُ بِهِمْ – : كَيفَ تَركتمْ عِبادِي؟ فَيقُولُونَ: تَركنَاهُمْ وهُمْ يُصلُّونَ، وأَتيناهُمْ وهُمْ يُصلُّون ». متفقٌ عليه.

**1050.** Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Bir dəstə mələk gecələr, bir dəstə mələk də gündüzlər növbə ilə sizi**

[1] "Ali İmran" surəsi, 185.
[2] "Səhih Muslim", 1050.

**təqib edir. Onlar sübh və əsr namazlarında bir yerə toplanırlar. Bundan sonra gecəni sizin aranızda keçirən mələklər [səmaya] qalxır və Allah onlardan: "Siz Mənim qullarımı nə vəziyyətdə tərk etdiniz?"– deyə soruşur. Halbuki O, qullarının [nə etdiklərini] daha yaxşı bilir. Bununla belə, onlar deyirlər: "Biz onları namaz qıldıqları halda tərk etdik, yanlarına gəldikdə də onlar namaz qılırdılar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٠٥١ – وعن جَريرِ بنِ عبدِ اللَّهِ البجليِّ ﷺ قال: كنا عِندَ النبيِّ ﷺ، فَنَظَرَ إلى القَمرِ لَيْلَةَ البَدْرِ، فقال: « إنكم سَتَرَوْنَ ربكمْ كما تَرَوْنَ هذا القَمر، لا تُضَامُّونَ في رُؤْيَتِهِ، فَإِنِ اسْتَطَعْتُمْ أَنْ لا تُغْلبُوا عَلى صلاةٍ قَبْل طُلُوعِ الشَّمْسِ، وَقَبْل غُرُوبِها فافْعلُوا» متفق عليه.

وفي روايةٍ: « فَنَظَرَ إِلى القَمر لَيْلَةَ أَرْبَعَ عَشْرَةَ ».

**1051.** Rəvayət olunur ki, Cərir ibn Abdullah əl-Bəcəli ﷺ demişdir: «Biz Peyğəmbərin ﷺ yanında idik və o, bədirlənmiş aya baxıb dedi: **"Həqiqətən, siz Rəbbinizi bu ayı gördüyünüz kimi görəcək və Onu görməkdə çətinlik çəkməyəcəksiniz. Əgər gün doğmamışdan və batmamışdan öncəki namazları qaçırmadan qılmağı bacarırsınızsa, onda *buna* əməl edin"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Başqa bir rəvayətdə isə: **"On dörd gecəlik aya baxdı"** deyilir.

١٠٥٢ – وعن بُريْدَةَ ﷺ قال: قال رسولُ اللهِ ﷺ: « مَنْ تَركَ صَلاةَ العصْرِ فَقدْ حَبِطَ عَملُهُ » رواه البخاري.

**1052.** Bureydə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə demişdir: **"Kim əsr namazını tərk edərsə, əməlləri puç olar".**

Bu hədisi Buxari rəvayət etmişdir.[3]

[1] "Səhih əl-Buxari", 555; "Səhih Muslim", 1001.
[2] "Səhih əl-Buxari", 554; "Səhih Muslim", 1002.
[3] "Səhih əl-Buxari", 553.

**Şərh:**

Bu hədislər sübh və əsr namazlarının fəziləti haqqındadır.

Birinci hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kim sübh namazını qılarsa, o adam Allahın himayəsi altında olar".** Yəni Onun əhdi və təhlükəsizliyi içində olar.

"**Elə isə, ey Adəm oğlu, bax ki, Allah səni Öz himayəsində olan bir şeydən dolayı hesaba çəkməsin".** Yəni xəyanət və pis əməllər etməyin ki, uca Allah da sizə əhd etmiş olduğu şeylərdən dolayı sizi hesaba çəkməsin. Bu da dəlildir ki, sübh namazı gündüz qılınan namazlar üçün sanki bir açardır. Hətta *deyə bilərik ki,* gündüz edilən bütün əməllər üçün bir açar kimidir. Bu sanki qulun, əmrlərinə itaət edəcəyi və qadağalarından çəkinəcəyinə dair Allaha vermiş olduğu bir əhdnamədir. Başqa sözlə, qul ilə Rəbbi arasında bir anlaşma kimidir.

**Sübh və əsr namazlarının bəzi fəzilətləri bunlardır:**

**1.** Uca Allah öz bəndələrinə onları təqib edən mələklər təyin etmişdir. Onlar bizləri uca Allahın əmri ilə mühafizə edirlər. Onlar sübh və əsr namazlarının vaxtında bir yerə toplanırlar. Bundan sonra gecəni bizim aramızda keçirən mələklər Allaha tərəf qalxırlar. Uca Allah bəndələrinin halını bildiyi halda mələklərdən soruşur: **"Siz Mənim qullarımı nə vəziyyətdə tərk etdiniz?"** Bunu soruşmasının səbəbi qullarının şərəfini göstərmək və onların fəzilətini bildirməkdir. Heç şübhəsiz, bunlar Allaha gizli deyildir. Çünki uca Allah gizlində və aşkarda olanları bilir. O, sadəcə qullarının fəzilətini ortaya çıxartmaq üçün *mələklərdən bu haqda soruşur.* Mələklər də: **"Biz onları namaz qıldıqları halda tərk etdik, yanlarına gəldikdə də onlar namaz qılırdılar"**– deyə cavab verirlər. Çünki onlar səhər və axşam vaxtı sübh və əsr namazının vaxtında növbə dəyişirlər. Bir qismi enir, digər qismi isə qalxır. Uca Allah mələklərin enmə və qalxma vaxtlarını, fəzilətlərindən dolayı sübh və əsr namazlarının vaxtında təyin etmişdir. Belə ki, əsr namazı orta namazdır, sübh namazı isə müşahidə olunan namazdır.

**2.** Sübh və əsr namazlarının fəzilətləri haqqında Cərir ibn Abdullah əl-Bəcəlinin رضي الله عنه rəvayət etdiyi hədisdə də xəbər verilir. Həmin hədisdə deyilir ki, bir dəfə onlar Peyğəmbərlə ﷺ birlikdə olarkən Peyğəmbər ﷺ

bədirlənmiş on dörd gecəlik aya baxaraq dedi: **"Həqiqətən, siz Rəbbinizi bu ayı gördüyünüz kimi görəcək və Onu görməkdə çətinlik çəkməyəcəksiniz".** Yəni möminlər Qiyamət günü və Cənnətdə Allahı, on dörd gecəlik bu ayı gördükləri kimi, rahat görəcəklər. Bu o demək deyil ki, Allah ay kimidir. Çünki uca Allahın tayı-bənzəri yoxdur. Allah ən Əzəmətli və Qüdrətli olandır. Səhih bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Onun hicabı nurdur. Əgər onu açsaydı, Üzünün sübuhatı[1] Gözünün əhatə etdiyi bütün məxluqatını yandırıb-yaxardı".**[2]

Burada Peyğəmbər ﷺ insanların görməyini bənzədir. Yəni necə ki, bizlər bədirlənmiş ayı həqiqi şəkildə görürük və burada mücərrəd heç nə yoxdur, eləcə də Rəbbimizi gözümüzlə, həqiqi şəkildə görəcəyik və orada da mücərrəd (qeyri-müəyyən) heç nə olmayacaqdır.

Bilin ki, Cənnət əhli üçün ən ləzzətli və ən gözəl nemət Allahın üzünü görmək olacaqdır. Bu misilsiz bir nemətdir. Allah bizi və sizi onlardan etsin. Uca Allah bu xüsusda belə buyurur: **"Yaxşı iş görənlər üçün ən yaxşısı və bundan da üstünü (Cənnət, üstəlik də Allahı görmək) vardır".**[3] Peyğəmbər ﷺ ayədə keçən **"bundan da üstünü"** kəlməsini Allahın üzünü görmək kimi təfsir etmişdir.

Ayənin ərəbcəsində keçən **"əl-husnə" (ən yaxşı)** kəlməsi "əhsən", yəni "ən yaxşı" sözünün qadın cinsindəki formasıdır. **"Ziyadə"** isə əlavə olaraq deməkdir ki, bu da uca Allahın üzünə baxmaqdır.

Rəsulullah ﷺ bizlərin Allahı görəcəyimizi qeyd etdikdə bunu bədrlənmiş ayı görməyimizə bənzətmiş və demişdir: **"Əgər gün doğmamışdan və batmamışdan öncəki namazları qaçırmadan qılmağı bacarırsınızsa, onda *buna* əməl edin".**

Burada **"bacarırsınızsa"** deyildikdə, həmin namazların həm tam şəkildə və haqqı ilə, həm də camaatla qılınması nəzərdə tutulur. Bu da

---

[1] Lüğəti mənada "sübuhat" nur, əzəmət, gözəllik və gülcamal mənalarını ifadə edir. ("Lisan əl-Arab", 2/470; "ən-Nihayə", 2/833; "əs-Sihah", 2/395). "Sübuhat" sözünün mənası bəlli olsa da, Allahın Üzünün sübuhatının necəliyi Onun Özündən başqa heç kəsə məlum deyil. Uca Allah buyurur: **"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Göröndir".** ("əş-Şura" surəsi, 11).

[2] "Səhih Muslim", 179.

[3] "Yunus" surəsi, 26.

dəlildir ki, sübh və əsr namazlarını vaxtlı-vaxtında qılmaq Allahın üzünü görməyə bir vəsilədir. Görün bu necə də böyük bir dəyərdir. Ən gözəl dəyəri ən gözəl dəyər verən vermişdir. Elə isə, əsr və sübh namazlarını mühafizə edin ki, Nəim cənnətlərində izzət və cəlal sahibi Allahın üzünə baxmağa nail olasınız.

Ona görə də Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Əgər gün doğmamışdan və batmamışdan öncəki namazları qaçırmadan qılmağı bacarırsınızsa, onda *buna* əməl edin".**

**3.** Xüsusi olaraq əsr namazının fəzilətlərindən biri də odur ki, bu namazı tərk edən kəsin əməlləri puç olur. Çünki əsr namazı çox əzəmətli bir namazdır. Bunu tərk etdikdə, əməllər silinir. Bu hədisə əsasən bəzi alimlər bildirmişlər ki, əsr namazını tərk edən kəs küfr etmiş olur. Çünki əməlləri yalnız dindən çıxma batil edir. Uca Allah buyurur: **"Əgər *Ona* şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı".**[1]

Uca Allah həmçinin buyurur: **"Sizlərdən hər kim dinindən dönüb kafir olaraq ölərsə, onların əməlləri dünyada və axirətdə puça çıxar. Onlar Od sakinləridir və onlar orada əbədi qalacaqlar".**[2]

Bəzi alimlər də: "Xüsusən əsr namazını tərk edən kəs küfr etmiş olur"– demişlər. Ümumən, digər namazları tərk edən kəs də küfr etmiş olur. Bu rəy də doğru rəyə yaxındır. Çünki əməlin puç olması yalnız küfr və dindən çıxmaqla olur. Allah qorusun.

Bu hədis əsr namazının nə qədər əzəmətli olmasına dəlalət edir. Buna görə də uca Allah namazlar arasından məhz onu qorumağı xüsusilə qeyd edərək belə buyurur: **"Namazları, *xüsusilə* orta namazı qoruyun"**, yəni əsr namazını, **"və Allah üçün mütiliklə *namaza* durun".**[3]

Müvəffəq edən Allahdır.

---

[1] "əl-Ənam" surəsi, 88.
[2] "əl-Bəqərə" surəsi, 217.
[3] "əl-Bəqərə" surəsi, 238.

## Yüz səksən doqquzuncu fəsil

### Məscidlərə yeriyərək getməyin fəziləti

**Mövzu ilə əlaqəli hədislər:**

١٠٥٣ – عن أَبي هريرةَ ﷺ أَنَّ النبيَّ ﷺ قال: « مَنْ غَدا إِلى المسْجِدِ أَوْ رَاحَ، أَعَدَّ اللَّه لهُ في الجَنَّةِ نُزُلاً كُلَّما غَدَا أَوْ رَاحَ » متفق عليه.

**1053.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim səhər və ya axşamüstü məscidə gedərsə, hər gedişində Allah onun üçün Cənnətdə bir ziyafət hazırlayar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٠٥٤ – وعنهُ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قال: « مَنْ تَطَهَّرَ في بَيْتِهِ، ثُمَّ مَضَى إِلى بَيْتٍ مِنْ بُيُوتِ اللَّهِ، لِيَقْضِيَ فَرِيضَةً مِنْ فَرائِضِ اللَّهِ كانَتْ خُطُواتُهُ إِحْدَاها تَحُطُّ خَطِيئَةً، والأُخْرى تَرْفَعُ دَرَجَةً » رواه مسلم.

**1054.** Yenə Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Hər kim öz evində dəstəmaz aldıqdan sonra Allahın evlərindən birinə Allahın fərz buyurduqlarından birini yerinə yetirmək üçün piyada gedərsə, onun atdığı addımlarından hər biri onun bir xətasını silər, digəri isə onu bir dərəcə yüksəldər".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٠٥٥ – وعن أُبَيِّ بن كعْبٍ ﷺ قال: كانَ رجُلٌ مِنَ الأَنْصَارِ لا أَعْلم أَحدًا أَبْعدَ مِنَ المسْجِد مِنْهُ، وَكَانَتْ لا تُخْطِئُهُ صَلاةٌ، فَقيلَ له: لو اشْتَرَيْتَ حِمَارًا لِتَرْكَبَهُ في الظَّلْمَاءِ وفي الرَّمْضَاءِ قالَ: ما يَسُرُّني أَنَّ مَنْزِلي إِلى جنْبِ المَسْجِدِ، إِنِّي أُريدُ أَنْ يُكتَب لي مَمْشاي إِلى المسْجِدِ، وَرجُوعِي إِذا رَجَعْتُ إِلى أَهْلي. فقالَ رسولُ اللَّهِ ﷺ: « قَدْ جَمَع اللَّه لكَ ذَلكَ كُلَّه » رواه مسلم.

---

[1] "Səhih əl-Buxari", 662; "Səhih Muslim", 669.

[2] "Səhih Muslim", 666.

**1055.** Rəvayət olunur ki, Ubey ibn Kəb ﷺ demişdir: "Ənsardan olan bir nəfər var idi ki, məsciddən onun kimi daha uzaqda yaşayan birisini tanımırdım. Buna rəğmən o, heç vaxt *camaat* namazını buraxmazdı. *Bir gün* ona dedilər: "Bəlkə *özün üçün* bir uzunqulaq alasan ki, gecənin qaranlığında və *gündüzün* lap isti çağında onu minəsən". O dedi: "Evimin məscidin yanında olması məni sevindirməz. Mən istəyirəm ki, məscidə gedərkən və ailəmin yanına qayıdarkən *atdığım hər addıma* görə mənə *savab* yazılsın". Onda Rəsulullah ﷺ *ona* belə buyurdu: **"Allah bunların hamısının *savabını* sənin üçün cəm etmişdir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٠٥٦ – وعن جابرٍ رضي الله عنه قال: خَلَتِ البِقَاعُ حَوْلَ المسْجِد، فَأَرادَ بَنُو سَلِمَةَ أَنْ ينتقلُوا قُرْبَ المَسْجِد، فَبَلَغَ ذلكَ النبيَّ ﷺ فقالَ لهم: « بَلَغَني أَنَّكُم تُرِيدُونَ أَن تَنْتَقِلُوا قُرْبَ المَسْجِدِ؟ قالوا: نعم يَا رَسولَ اللَّهِ قَدْ أَرَدنَا ذَلكَ، فقالَ: « بَنِي سَلمَةَ ديارَكُمْ تُكْتَبْ آثارُكُمْ، ديارَكُمْ تُكْتَبْ آثارُكُمْ » فقالوا: ما يَسُرُّنَا أَنَّا كُنَّا تَحَوَلْنَا: رواه مسلم، وروى البخاري معناه من رواية أَنَس.

**1056.** Cabirdən ﷺ rəvayət olunur ki, o demişdir: "Məscidin ətrafında bəzi yaşayış sahələri boşaldı. Bu səbəbdən Səlimə oğulları məscidin yaxınlığına köçmək istədilər. Bu xəbər Rəsulullaha ﷺ yetişdikdə onlara: **"Mənə xəbər çatdı ki, siz məscidin yanına köçmək istəyirsiniz"**– dedi. Onlar: "Bəli, ya Rəsulullah, köçmək istəyirik"– dedilər. Onda Rəsulullah ﷺ *onlara belə* buyurdu: **"Ey Səlimə oğulları, yurdunuzda qalın ki, addım izləriniz yazılsın. Yurdunuzda qalın ki, addım izləriniz yazılsın".** Onlar dedilər: "Artıq yurdumuzdan köçmək *istəyi* bizi sevindirmirdi**".**

Bu hədisi Muslim rəvayət etmişdir. Bu hədisi Buxari də eyni məna ilə Ənəsdən ﷺ rəvayət etmişdir.[2]

**Şərh:**

Müəllif ﷺ bu fəslə **"Məscidlərə yeriyərək getməyin fəziləti"** adını vermişdir. Məscidlərə yeriyərək getmək dedikdə, ora namaz qılmaq üçün getmək qəsd olunur.

---

[1] "Səhih Muslim", 663.

[2] "Səhih əl-Buxari", 655, 656; "Səhih Muslim", 665.

Məscidlərə fərqli-fərqli məqsədlərlə gedilir. Məsələn, dərsdə iştirak etmək, yaxud orada Quran oxumaq və ya oradakı bir şeyi təmir etmək üçün, ya da başqa bir məqsədlə. Bu fəsildə nəzərdə tutulan isə məscidə namaz qılmaq məqsədilə getməkdir. Əbu Hureyranın ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə demişdir: **"Kim səhər və ya axşamüstü məscidə gedərsə, hər gedişində Allah onun üçün Cənnətdə bir ziyafət hazırlayar".**

Hədisin ərəbcəsində keçən **"ğadə"** sözünün mənası səhər vaxtı getməkdir. **"Rahə"** sözü isə günortadan sonra axşamüstü getməyə deyilir. *Müsəlman* hər dəfə səhər və axşam məscidə getdikdə, Cənnətdə onun üçün ziyafət hazırlanır.

Bizlər də, Allaha həmd olsun ki, hər səhər və axşam, *və ya* gündə beş dəfə *namaz qılmaq üçün* məscidə gedirik və hər gedişimiz üçün bizlərə Cənnətdə bir ziyafət, yəni qonaqlıq hazırlanır. Bu da məscidlərə piyada getməyin fəzilətlərindəndir.

Məscidlərə piyada getməyin fəzilətlərindən biri də odur ki, adam evində dəstəmaz alıb və ancaq namaz qılmaq məqsədilə məscidə gedərsə, müəllifin qeyd etdiyi bu hədisdə deyildiyi kimi, *məscidə daxil olanadək* atdığı hər addıma görə Allah onu bir dərəcə yüksəldər, digər addıma görə isə onun bir günahını silər. Başqa bir hədisdə isə belə deyilir: **"Atdığı hər bir addıma görə Allah onu bir dərəcə yüksəldər və onun bir günahını bağışlayar".**[1] Yəni atılan tək bir addımla həm bir dərəcə yüksəlir, həm də bir günahı silinir. Bir şərtlə ki, o, evində gözəl şəkildə dəstəmaz alsın və məscidə yalnız namaz qılmaq məqsədilə getmiş olsun. Beləsinin atdığı hər addıma görə dərəcəsi bir dərəcə yüksəlir və onun bir günahı silinir. Bu da uca Allah tərəfindən verilmiş böyük bir nemətdir.

Bunun başqa bir faydası da odur ki, insan məscidə gərək piyada getsin və piyada qayıtsın. Bu, daha fəzilətlidir. Bunun dəlili evi məsciddən uzaq olan ənsarın hədisidir. Ona dedilər ki: "Bəlkə *özün üçün* bir uzunqulaq alasan ki, gecənin qaranlığında və *gündüzün* lap isti çağında onu minəsən". O isə cavabında belə dedi: "Evimin məscidin yanında olması məni sevindirməz. Mən istəyirəm ki, məscidə gedərkən və ailəmin yanına

[1] "Səhih Muslim", 1065.

qayıdarkən *atdığım hər addıma* görə mənə *savab* yazılsın". Onda Rəsulullah ﷺ *ona* belə buyurdu: **"Allah, bunların hamısının *savabını* sənin üçün cəm etmişdir".** Bu da dəlildir ki, məscidə piyada getmək miniklə getməkdən daha əfzəldir. Çünki bu zaman addımlarına görə savab qazanmış olur.

Üzrlü səbəb olduqda insan məscidə avtomobillə də gedə bilər. Avtomobilin "addım"ı təkərinin dövrəsidir. Yəni təkərin bir dövrəsi bir addım olur. Çünki dövrəyə başlayan zaman təkərin yerlə təmasda olan hissəsi yerdən ayrılır və bir dövrənin tamamında yenidən yerlə təmas edir. Bu da yeriyərkən ayağı yerdən qaldırıb yenidən yerə qoymağa bənzəyir. Deməli, üzürlü səbəb olduqda avtomobillə də məscidə getmək olar. Bu zaman təkərin dövrəsi addıma bərabər olur. Bu da məscidə doğru addımlamağın fəzilətlərindəndir. İnsan hər dəfə məscidə getdikdə və hər dəfə məsciddən qayıtdıqda, Uca Allah onun hər addımına görə savab yazmış olur.

Uzaq olsa belə, məscidlərə yeriyərək getməyin fəzilətinə dəlalət edən bir hədis də Cabirdən رضي الله عنه Sələmə oğulları barəsində nəql olunan hədisdir.

Həmin hədisdə deyilir ki, məscidin ətrafında bəzi yaşayış sahələri, yəni bəzi evlər boşaldı. Sələmə oğulları da məscidin yaxınlığına köçmək istədilər. Bu xəbər Peyğəmbərə ﷺ çatdıqda, onlardan bu xəbərin doğru olub-olmadığını soruşdu. Onlar da: "Bəli, ya Rəsulullah, məscidə yaxın olmaq üçün köçmək istəyirik". Onda Rəsulullah ﷺ *onlara belə* buyurdu: **"Ey Sələmə oğulları, yurdunuzda qalın ki, addım izləriniz yazılsın. Yurdunuzda qalın ki, addım izləriniz yazılsın".** Yəni məscidə yaxın köçməyin, öz diyarınızda qalın ki, *hər məscidə gəldikdə* addım izləriniz yazılsın. Bu da ona dəlalət edir ki, insanın evi məsciddən nə qədər uzaqda olarsa, *ora getməyində* daha çox əcr qazanmış olar. Çünki Peyğəmbər ﷺ: **"Addım izləriniz yazılsın"– buyurur.**

Lakin bu o demək deyil ki, insan məsciddən uzaqda yaşamağa can atmalıdır. Amma adamın evi məsciddən uzaqda yerləşirsə, yaxud evi öz qövmünün yanındadırsa, yaxud buna bənzər başqa bir hal varsa, bu zaman atdığı addım izlərinin savabını qazanmış olur. Bu da məscidlərə piyada getməyin fəzilətini göstərir. Uca Allahın lütfü böyük, xeyiri isə genişdir – Allah insanın az bir əməlinə çox savab yazır. Allahdan diləyirik ki, bizlərə və sizə bu böyük lütfünü nəsib etsin.

١٠٥٧ – وعنْ أَبي موسى ﷺ قالَ: قال رسولُ اللَّهِ ﷺ: «إنَّ أَعْظَم الناس أَجرًا في الصَّلاةِ أَبْعَدُهُمْ إِليْها ممْشًى فَأَبْعَدُهُمْ. والَّذي يَنْتَظِرُ الصَّلاةَ حتَّى يُصلِّيها مَعَ الإمامِ أَعْظَمُ أَجراً مِنَ الذي يُصلِّيها ثُمَّ يَنَامُ» متفقٌ عليه.

**1057.** Əbu Musa ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Şübhəsiz ki, namaz xüsusunda ən böyük savab qazanan kimsələr namaza ən uzaq və ən uzaq məsafədən yeriyərək gələnlərdir. İmamla birgə namaz qılmaq üçün namazı gözləyənin mükafatı isə, namazı *təkbaşına* qılıb sonra uzanıb yatan kimsənin mükafatından daha böyükdür".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٠٥٨ – وعن بُرَيدَةَ ﷺ عن النَّبِيِّ ﷺ قال: «بشِّروا المَشَّائِينَ في الظُّلَمِ إلى المسَاجِدِ بِالنور التَّامِّ يَوْمَ القِيامَةِ» رواه أبو داود والترمذي.

**1058.** Bureydədən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Qaranlıq gecələrdə məscidlərə yeriyərək gedən kəslərə Qiyamət günü tam bir nurun olacağı ilə müjdə verin".**

Bu hədisi Əbu Davud və Tirmizi rəvayət etmişlər.[2]

١٠٥٩ – وعن أَبي هريرةَ ﷺ أَنَّ رسول اللَّهِ ﷺ قالَ: «أَلا أَدُلُّكُمْ علَى مَا يمْحُو اللَّهُ بِهِ الخَطَايا، ويَرْفَعُ بِهِ الدَّرجَاتِ؟ قَالُوا: بَلى يا رسولَ اللَّهِ. قَالَ: «إِسْباغُ الْوُضُوءِ عَلى المَكَارِهِ، وَكَثْرَةُ الخُطَا إِلى المَسَاجِدِ، وَانْتِظَارُ الصَّلاةِ بعْد الصَّلاةِ، فَذلِكُمُ الرِّباطُ، فَذلكُمُ الرِّباطُ» رواه مسلم.

**1059.** Əbu Hureyra ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "**Sizə elə bir əməl öyrədimmi ki, Allah onun sayəsində günahları silir və dərəcələri yüksəldir?"** Onlar: "Bəli, ya Rəsulullah!"– deyə cavab verdilər. Peyğəmbər ﷺ buyurdu: **"Çətinliklərə rəğmən dəstəmazı kamil**

[1] "Səhih əl-Buxari", 651; "Səhih Muslim", 662.

[2] "Sunən Əbu Davud", 561; "Sunən ət-Tirmizi", 223; "Sunən İbn Macə", 781; "Səhih əl-Cami", 2823.

**şəkildə almaq, məscidlərə getdikdə addımları çoxaltmaq və namazdan sonra *növbəti* namazı gözləməkdir. Bunlar, keşik çəkməkdir, bunlar, keşik çəkməkdir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٠٦٠ – وعن أَبي سعيدٍ الخدْرِيِّ ﵁ عنِ النبيِّ ﷺ قال: «إذا رَأَيْتُمُ الرَّجُلَ يَعْتَادُ المَسَاجِد فاشْهدُوا لَهُ بالإِيمَانِ» قال الله عزَّ وجلَّ: ﴿إِنَّمَا يَعۡمُرُ مَسَٰجِدَ ٱللَّهِ مَنۡ ءَامَنَ بِٱللَّهِ وَٱلۡيَوۡمِ ٱلۡأٓخِرِ﴾ الآية. رواه الترمذي وقال: حديث حسن.

**1060.** Əbu Səid əl-Xudridən ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Bir adamın məscidlərə getməyə adət etdiyini görsəniz, onun *həqiqi* iman sahibi olduğuna dair şahidlik edin. Uca Allah belə buyurmuşdur: "Allahın məscidlərini yalnız Allaha və Axirət gününə iman gətirənlər... abadlaşdırar".**[2]

Bu hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişdir.[3]

**Şərh:**

Bunlar məscidlərə yeriyərək getməyin fəziləti fəslindəki digər hədislərdir. Birinci hədisdə Peyğəmbər ﷺ demişdir: **"Şübhəsiz ki, namaz xüsusunda ən böyük savab qazanan kimsələr namaza ən uzaq və ən uzaq məsafədən yeriyərək gələnlərdir. İmamla birgə namaz qılmaq üçün namazı gözləyənin mükafatı isə, namazı *təkbaşına* qılıb sonra uzanıb yatan kimsənin mükafatından daha böyükdür".**

Əvvəldə də qeyd etmişdik ki, hər kim evində kamil şəkildə dəstəmaz alar, sonra evindən çıxıb məscidə gedər, onu evindən yalnız *camaatla* namaz qılmaq *niyyəti* çıxararsa, atdığı hər bir addıma görə Allah onu bir dərəcə yüksəldər və onun bir günahını bağışlayar. O, namaz qıldığı yerdə qaldığı müddətdə mələklər onun üçün xeyir dua edərlər.

---

[1] "Səhih Muslim", 251.

[2] "ət-Tövbə" surəsi, 18.

[3] "Musnəd İmam Əhməd", 3/68; "Sunən ət-Tirmizi", 3093; "Sunən İbn Macə", 802; "Daif ət-Tərğib vət-Tərhib", 203; "Daif əl-Cami", 509.

Əgər sənin evin məsciddən uzaqdadırsa, amma buna rəğmən sən camaat namazına gəlirsənsə, sən *məscidə* yaxında yaşayandan daha çox savab qazanmış olursan. Çünki yaxında olanın üzürü yoxdur. Yaxında olan asanlıqla məscidə gedə bilir. Uzaqda olanın isə ola bilsin ki, uzaqda olması onun üçün üzür olsun. Bununla belə o, uzaq məsafəni qət edərək məscidə gəlir və camaatla namaz qılır. Odur ki, bu daha fəzilətlidir.

Namazı imamla birlikdə qılmaq üçün gözləyən kəs isə namazı təkbaşına qılıb, sonra da yatandan daha üstündür. Bu, işa namazında olur. İşa namazını gecənin ilk üçdə birinədək gecikdirmək müstəhəbdir. Çünki bir dəfə Peyğəmbər ﷺ işa namazını gecənin böyük bir hissəsi keçdikdən sonra qıldırmış, sonra da belə demişdir: **“Bu, işa namazının *fəzilətli* vaxtıdır. Əgər ümmətimi çətinə salmaq *qorxusu* olmasaydı, *işa namazını bu vaxtda qılmağı onlara əmr edərdim*”.**[1]

Bu, işa namazını təkbaşına qılıb yatan kəsə aiddir. Çünki insanlar işa namazını gecikdirdikləri zaman camaat namazını gözləmək həmin adama çətin gəlir. Biz həmin adama belə deyirik: Əgər gözləyib camaatla namaz qılsan, bu daha əfzəldir. Yox, əgər imam *işa namazını* adətən hər gün eyni vaxtda qıldırırsa, bu zaman namazı təkbaşına qılıb yatmaq olmaz. Çünki camaat namazı vacibdir. Hətta Peyğəmbər ﷺ demişdir: ***“Canım Əlində olan Allaha and olsun ki,* istərdim əmr edəm namaza iqamə verilsin. Sonra əmr edəm bir nəfər camaata namaz qıldırsın. Sonra da əllərində odun parçaları tutmuş bir dəstə kişi ilə namaza gəlməyən kimsələrin yanına gedib onların evlərini yandırıb kül edəm”.**[2]

Daha sonra müəllif Tirmizinin nəql etdiyi hədisi qeyd edir. Hədisdə belə deyilir: **“Qaranlıq gecələrdə məscidlərə yeriyərək gedən kəslərə Qiyamət günü tam bir nurun olacağı ilə müjdə verin”.**

Bu hədis zəifdir. Lakin şəkk yoxdur ki, məscidə qaranlıq vaxtlarda gedənlər etdikləri əmələ uyğun bir mükafat alacaqlar. Yəni, necə ki gecənin qaranlıqlarında əziyyət çəkib məscidə gedib, eləcə də Qiyamət günü ona tam bir nur veriləcəkdir.

---

[1] “Səhih əl-Buxari”, 7239; “Səhih Muslim”, 638.

[2] “Səhih əl-Buxari”, 2420; “Səhih Muslim”, 651.

Sonrakı hədis əvvəlkindən də zəifdir: **“Bir adamın məscidlərə getməyə adət etdiyini görsəniz, onun *həqiqi* iman sahibi olduğuna dair şahidlik edin. Uca Allah belə buyurmuşdur: “Allahın məscidlərini yalnız Allaha və Axirət gününə iman gətirən, namaz qılan, zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar abadlaşdırar”.**[1] Bu da zəif hədisdir və isnadı Peyğəmbərə ﷺ səhih olaraq çatmamışdır.

Məscidlərə piyada getməyin fəziləti barədə elə öncə qeyd etdiyimiz səhih hədislər kifayətdir. Uca Allahdan diləyirəm ki, bizləri və sizi ixlasla əməl edənlərdən və Özünün razı qaldığı əməlləri yerinə yetirməyə müvəffəq olanlardan etsin.

[1] “ət-Tövbə” surəsi, 18.

# Yüz doxsanıncı fəsil

## Namazı gözləməyin fəziləti

**Mövzu ilə əlaqəli hədislər:**

١٠٦١ – عَنْ أَبي هريرةَ ﵁ أَنَّ رسولَ اللَّهِ ﷺ قَالَ: « لا يَزَالُ أَحَدُكُمْ في صَلاةٍ مَا دَامتِ الصَّلاَةُ تَحْبِسُهُ، لا يَمْنَعُهُ أَنْ يَنْقَلِبَ إِلى أَهْلِهِ إِلاَّ الصَّلاةُ » متفقٌ عليه.

**1061.** Əbu Hureyradan ﵁ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Sizlərdən birinizi namazı həbs etdiyi və namazdan başqa ailəsinin yanına qayıtmağa mane olduğu müddətdə o, namazda sayılır".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٠٦٢ – وعنه أَنَّ رسولَ اللَّهِ ﷺ قال: « المَلائِكَةُ تُصَلِّي عَلَى أَحَدِكُمْ مَا دَامَ في مُصَلاَّهُ الَّذي صَلَّى فِيهِ مَا لمْ يُحْدِثْ، تَقُولُ: اللَّهُمَّ اغْفِرْ لَهُ، اللَّهُمَّ ارْحَمْهُ » رواه البخاري.

**1062.** Yenə Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Biriniz hadisə törətmədən namaz qıldığı yerdə olduğu müddətdə mələklər ona salam verir və: "Allahım, onu bağışla! Allahım, ona rəhm et!" deyirlər".**

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

١٠٦٣ – وعن أَنس ﵁ أَنَّ رسولَ اللَّهِ ﷺ أَخَّرَ لَيْلَة صلاةَ الْعِشَاءِ إِلى شَطْرِ اللَّيْلِ ثُمَّ أَقْبَلَ عَلَيْنَا بوَجْهِهِ بَعْدَ ما صَلَّى فقال: « صَلَّى النَّاسُ وَرَقَدُوا ولَمْ تَزَالُوا في صَلاةٍ مُنْذُ انْتَظَرْتُموها » رواه البخاري.

**1063.** Ənəsdən ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ işa namazını gecənin bir hissəsinədək gecikdirdi. Namazdan sonra o, üzünü bizə tərəf çevirib dedi: **"İnsanlar namazlarını qılıb yatdılar, siz isə namazı gözlədiyiniz müddətdə namazda idiniz".**

Bu hədisi Buxari rəvayət etmişdir.[3]

---

[1] "Səhih əl-Buxari", 619; "Səhih Muslim", 1062.
[2] "Səhih əl-Buxari", 426.
[3] "Səhih əl-Buxari", 621.

**Şərh:**

Bütün bu hədislər namazı gözləməyin fəziləti barəsindədir. Bu həm bir namazdan sonra digər namazı gözləməyə, həm də məscidə gəlib namazı gözləməyə aiddir. Peyğəmbər ﷺ bu hədislərdə bəyan etmişdir ki, insan bir namazı gözlədiyi müddətdə namazda sayılır. Həmçinin bəyan etmişdir ki, insan hadisə törətmədən namaz qıldığı yerdə oturduğu müddətdə mələklər ona salam deyərək söyləyirlər ki: "Allahım, ona salam çatdır, Allahım, onu bağışla, Allahım, ona rəhm et!"

**"Hadisə törətmədən".** Bəzilərinə görə, burada İslamda günah iş törətməmək nəzərdə tutulur. Digərləri isə burada dəstəmazlı olmağın nəzərdə tutulduğunu bildirir. Çünki hədəs vəziyyətində dəstəmaz batil olur və namaz da batil hesab olunur. Hər bir halda hədis namazdan sonra digər namazı gözləməyin fəzilətinə dəlalət edir. Buradan həm də o anlaşılır ki, gərək insan məscidlərə getsin.

Sonra müəllif رحمه الله Peyğəmbərin ﷺ işa namazını gecənin bir aləminədək gecikdirməsi barədə söhbət açır. Səhabələr də həmin vaxt Peyğəmbəri ﷺ gözləyirdilər. Namazını bitirdikdən sonra onlara dedi: **"İnsanlar namazlarını qılıb yatdılar, siz isə namazı gözlədiyiniz müddətdə namazda idiniz".**

Həmin vaxt gecəyarıyadək olan işanın vaxtı idi. Peyğəmbər ﷺ namazını bitirənədək insanlar onu gözləyirdilər. Bu hədis dəlildir ki, işa namazını gecikdirmək daha əfzəldir. İnsanlara və ya onların bəzisinə bunun çətin olması halı isə istisnadır – bu zaman daha əvvəl qılmaları yaxşıdır. Çətinlik olmadıqda isə gecikdirmələri daha əfzəldir.

Əgər bir camaat öz vətənində və ya səfərdə olarsa, yaxud camaat namazı qılınmayan bir ölkədə olarlarsa, bu zaman yaxşı olar ki, işa namazını gecəyarıya yaxın vaxtadək gecikdirsinlər. Çünki Peyğəmbər ﷺ demişdir: **"Ümmətimə çətin olmasaydı, bunu işanın vaxtı edərdim".** Peyğəmbər ﷺ insanların işa namazına toplandığını gördükdə namazı tez qıldırar, onların gec gəldiyini gördükdə isə gec qıldırardı. Müvəffəq edən Allahdır.

# Yüz doxsan birinci fəsil

## Camaat namazının fəziləti

**Mövzu ilə əlaqəli hədislər:**

١٠٦٤ – عن ابنِ عمَر رضي الله عنهما أَنَّ رسولَ اللَّه ﷺ قال: «صَلاةُ الجَماعَةِ أَفضَلُ مِنْ صَلاةِ الفَذِّ بِسَبْعٍ وَعِشْرِينَ درَجَةً» متفقٌ عليه.

**1064.** İbn Ömərdən رضي الله عنهما nəql olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"Camaatla qılınan namaz tək qılınan namazdan iyirmi yeddi dəfə daha əfzəldir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٠٦٥ – وعن أَبي هريرة رضي الله عنه قال: قال رسولُ اللَّهِ ﷺ: «صَلاةُ الرَّجُلِ في جَماعةٍ تُضَعَّفُ عَلى صلاتِهِ في بَيْتِهِ وفي سُوقِهِ خمساً وَعِشْرِينَ ضِعفًا، وذلكَ أَنَّهُ إِذا تَوَضَّأَ فَأَحْسَنَ الْوُضُوءَ ثُمَّ خَرَجَ إِلى المَسْجِدِ، لا يُخْرِجُه إِلاَّ الصَّلاةُ، لَمْ يَخْطُ خَطْوَةً إِلاَّ رُفِعَتْ لَه بِهَا دَرَجَةٌ، وَحُطَّتْ عَنْه بِهَا خَطِيئَةٌ، فَإِذا صَلى لَمْ تَزَلِ المَلائِكَة تُصَلِّي عَلَيْهِ مَا دَامَ في مُصَلاَّه، مَا لَمْ يُحْدِثْ، تَقُولُ: اللَّهُمَّ صَلِّ عَلَيْهِ، اللَّهُمَّ ارحَمْهُ. وَلا يَزَالُ في صَلاةٍ مَا انْتَظَرَ الصَّلاةَ» متفقٌ عليه. وهذا لفظ البخاري.

**1065.** Əbu Hureyradan رضي الله عنه nəql olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"Kişinin camaatla qıldığı namaz, evdə və ya bazarda qıldığı namazdan iyirmi beş dəfə daha fəzilətlidir. Belə ki, o, gözəl şəkildə dəstəmaz aldıqdan sonra məscidə gedərsə, məqsədi də yalnız namaz qılmaq olarsa, atdığı hər addıma görə dərəcəsi qalxar, günahı silinər. Namazı qıldıqda namazda olduğu və hadisə törətmədiyi müddətdə mələklər onu salamlayıb deyər: "Allahım, onu salamla! Allahım, ona rəhm et!" Həmin adam namazı gözlədiyi müddətdə də namazda sayılar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2] Buradakı ləfz Buxarinindir.

---

[1] "Səhih əl-Buxari", 609; "Səhih Muslim", 1038.

[2] "Səhih əl-Buxari", 648; "Səhih Muslim", 649.

**Şərh:**

Müəllif ﷺ **“Camaat namazının fəziləti”** fəslini qeyd edir və bununla o, camaatla qılınan namazın fəzilətini bəyan etmək istəyir.

Alimlər ittifaq etmişlər ki, camaat namazı ən fəzilətli əməllərdən və itaətlərdən hesab olunur. Lakin onun sünnə, vacib, yaxud da namazın səhihliyinin şərti olması barədə ixtilaf etmişlər. Bunlar üç rəydir:

Birinci rəy: Sünnədir – insan bunu etdikdə savab qazanır, tərk etdikdə isə günah qazanmır.

İkinci rəy: Vacibdir – insana vacibdir ki, namazlarını camaatla qılsın. Belə etməsə, onun namazı səhih olsa belə, özü günah qazanmış olur.

Üçüncü rəy: Namazı camaatla qılmaq onun səhihliyi üçün şərtdir – namazını camaatla qılmayanın namazı batildir və ondan qəbul olunmur.

Bu sonuncu rəy Şeyxulislam İbn Teymiyyəyə məxsusdur və İmam Əhməddən nəql olunan bir rəy də belədir: Əgər insan heç bir şəri üzür olmadan namazı tək qılırsa, namazı qəbul olunmur. O, namazını dəstəmazsız qılan kəsə bənzəyir. Onlar bunu da belə açıqlamışlar ki, camaat namazı vacibdir. Qaydaya əsasən isə “namazın vacibini tərk edən kəsin namazı batil olur”.

Lakin daha racih rəy belədir ki, camaat namazı vacibdir, onu tərk edən kəs günah qazanır. Lakin namazı tək qıldıqda onun namazı qəbul olunur və namazın camaatla qılınması onun səhihliyi üçün şərt deyil. Buna da dəlil Abdullah ibn Ömərdən ﷺ nəql olunan hədisdir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **“Camaatla qılınan namaz tək qılınan namazdan iyirmi yeddi dəfə daha əfzəldir”.** Dəlil də budur ki, əgər tək qılınan namazda savab olmasaydı, müqayisə düzgün sayılmazdı. Lakin camaatla namaz qılmayan kəs günah qazanmış olur.

Əbu Hureyradan ﷺ nəql olunan hədisə gəlincə isə, orada Peyğəmbər ﷺ bəyan etmişdir ki, **“kişinin camaatla qıldığı namaz, evdə və ya bazarda qıldığı namazdan iyirmi beş dəfə daha fəzilətlidir”**.

Bu iki hədis arasında heç bir ziddiyyət yoxdur və *savab baxımından* daha çox olan *əsas* götürülür. Çünki Allahın fəziləti genişdir. Sonra da bunu açıqlayaraq belə buyurmuşdur: **“Belə ki, o, gözəl şəkildə dəstəmaz aldıqdan sonra”**, yəni kamil şəkildə, evindən çıxıb **“məscidə gedərsə, məqsədi**

**də yalnız namaz qılmaq olarsa, atdığı hər addıma görə dərəcəsi qalxar, günahı da silinər".**

Hər bir addımda iki fayda vardır: **birincisi,** bununla onun dərəcəsi qalxar, **ikincisi,** günahı silinər.

Məsciddə namaz qıldıqda həmin yerdə olduğu müddətdə mələklər ona salam verib deyərlər: "Allahım, onu salamla! Allahım, ona rəhm et!" Həmin adam hadisə törətmədiyi və namazı gözlədiyi müddətdə namazda sayılar. Bu əzəmətli bir əcr və böyük bir fəzilətdir. Mömin olan kəs gərək bu məsələdə ifrata varmasın. Əgər sənə deyilsə ki, "malını öz şəhərində satsan, yüzə satarsan, başqa şəhərə getsən isə yüz ona sata bilərsən", sən dərhal on faizlik gəliri əldə etmək üçün səfərə çıxardın, bu səfər də sənə çətin gəlməzdi.

İnsanların çoxu, Allah qorusun, xeyirli işlərdən məhrum olmuşlar. Görürsən ki, məscidə yaxın olmalarına rəğmən bu böyük fəziləti və qazancı tərk edirlər. İyirmi yeddi dəfə daha çox savab! Bununla belə, məscidə getmirlər. Allah bizləri bağışlasın. Dünya gəlirinə gəlincə isə, az olsa belə, ona can atır. Halbuki dünya nemətləri fanidir. Dünyadakı bütün nemətlər ya səni tərk edəcək, ya da sən onları tərk edəcəksən. Bu labüddür. Çünki əbədi nemətlər və əbədi həyat yoxdur. Dünya nemətləri ya səni tərk edir, ya da sən onu tərk edirsən. Axirətin nemətləri isə əbədidir. Buna baxmayaraq, bəzi insanlar buna əhəmiyyət vermirlər.

Uca Allah öz fəzilətini dilədiyinə verir. Allahdan diləyirik ki, bizləri Onu zikr etməyə, Ona şükür və ibadət etməyə müvəffəq etsin.

١٠٦٦ – وعنهُ قالَ: أَتَى النبيَّ ﷺ رَجُلٌ أعمى فقال: يا رسولَ اللهِ! لَيْس لي قَائِدٌ يقُودُني إلى المَسْجِدِ، فَسألَ رسولَ اللهِ ﷺ أن يُرَخِّصَ لَهُ فَيُصَلِّيَ في بيْتِهِ، فَرَخَّص لَهُ، فَلَمَّا وَلَّىٰ دَعَاهُ فقال له: هلْ تَسْمَعُ النِّدَاءَ بِالصَّلاةِ؟ » قال: نَعَمْ، قال: « فَأَجِبْ » رواه مسلم.

**1066.** Yenə Əbu Hureyradan ﵁ rəvayət olunur ki, o demişdir: "Bir dəfə Peyğəmbərin ﷺ yanına kor bir kişi gəlib dedi: "Ey Allahın rəsulu, məni məscidə aparan bir kimsə yoxdur". Rəsulullahdan ﷺ istədi ki, ona namazlarını evdə qılmasına rüxsət versin. O da ona rüxsət verdi. Kişi çıxıb getmək istədikdə ona dedi: **"Namaza çağırışı eşidirsənmi?"** Dedi: "Bəli". Dedi: **"Elə isə cavab ver".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٠٦٧ – وعن عبدِ اللَّهِ – وَقِيلَ: عَمْرِو – بْنِ قيْسٍ المعرُوف بابنِ أُمِّ مَكْتُوم المُؤَذِّنِ ﷺ أَنَّهُ قَالَ: يا رسولَ اللَّه إِنَّ المَدِينَةَ كَثيرَةُ الهَوَامِّ وَالسِّبَاعِ. فقال رسولُ اللَّهِ ﷺ: «تَسْمَعُ حَيَّ عَلى الصَّلاةِ، حَيَّ عَلى الفَلاحِ، فَحَيَّ هَلا».

رواه أبو داود بإسناد حسن. ومعنى: «حَيَّ هَلا»: تعال.

**1067.** Abdullahdan və ya deyilənə görə müəzzin İbn Ummu Məktum kimi tanınan Amr ibn Qeysin ﷺ belə dediyi rəvayət olunur ki, o dedi: "Ey Allahın rəsulu, Mədinədə çoxlu yırtıcı heyvanlar olur". Rəsulullah ﷺ dedi: **"Namaza gəl, nicata gəl" sözlərini eşidirsənsə, gəl".**

Hədisi Əbu Davud həsən isnadla rəvayət etmişdir.[2]

Hədisin ərəbcəsindəki "həyyahələ" sözünün mənası "gəl" deməkdir.

١٠٦٨ – وعن أبي هريرةَ ﷺ أَنَّ رسولَ اللَّهِ ﷺ قالَ: «وَالَّذِي نَفْسِي بِيدِهِ لَقَدْ هَمَمْت أَن آمُرَ بحَطَبٍ فَيُحْتَطَب، ثُمَّ آمُرَ بالصَّلاةِ فَيُؤذَّنَ لَهَا، ثُمَّ آمُرَ رَجُلاً فَيَؤُمَّ النَّاسَ ثُمَّ أُخالِفَ إِلى رِجَالٍ فأُحَرِّقَ عَلَيْهِمْ بُيُوتَهم» متفقٌ عليه.

**1068.** Əbu Hureyradan ﷺ nəql olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"Canım əlində olana and olsun ki, istəyirəm əmr edim odun toplasınlar, sonra da əmr edim namaz üçün azan verilsin, sonra əmr edim birisi imam dursun, sonra da gedim camaat namazına gəlməyənlərin evlərini yandırım".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

**Şərh:**

Bu üç hədis camaat namazının vacibliyini, onun məsciddə qılınmasının gərəkliliyini bəyan edir. Həmin hədislərdən biri Əbu Hureyradan ﷺ nəql olunan hədisdir.

---

[1] "Səhih Muslim", 1044.

[2] "Sunən Əbu Davud", 466; "Sunən ən-Nəsai", 842.

[3] "Səhih əl-Buxari", 608; "Səhih Muslim", 1041.

Hədisdə Peyğəmbər ﷺ and içir – Peyğəmbər ﷺ isə andına sadiqdir – və istəyir ki, əmr etsin ki, namazın iqaməsi verilsin və əmr etsin ki, biri imamlıq etsin. Sonra da gedib camaat namazına gəlməyənlərin evlərini üzərlərinə odunla yandırsın. Bu da camaat namazının vacibliyinə dəlildir. Çünki Peyğəmbər ﷺ yalnız vacib bir əməl tərk olunduğuna görə belə bir iş etmək istəyərdi. İnsanlara da bu barədə xəbər vermişdir ki, onlar bundan çəkinsinlər. Əks halda, bunun bir faydası olmazdı. Peyğəmbərin ﷺ onları bu şəkildə cəzalandırmaq istəyi camaat namazının önəminə və mühümlüyünə dəlalət edir. Zəif sənədlə rəvayət olunan bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Evlərdə qadınlar və uşaqlar olmasaydı...".**[1] Lakin bu zəif rəvayətdir. Kifayət edir ki, o bunu etmək istəmiş və ümmətinə də bu barədə xəbər vermişdir.

Sonra isə... Kimlərə camaat namazı vacibdir? – Azanı eşidib ora getmək iqtidarında olanlara. Yəni o kəsə ki, azanı eşidir və ona cavab vermək iqtidarında olur. Həmin adama camaat namazı vacibdir. Buna görə də bir kişi Peyğəmbərə ﷺ deyir ki, "ey Allahın rəsulu, məni məscidə aparan yoxdur". Bununla o istəyir ki, Peyğəmbər ﷺ ona namazları evdə qılmasına rüxsət versin. O da ona rüxsət verir. Çıxıb getmək istədikdə isə ona dedi: **"Namaza çağırışı eşidirsənmi?"** Dedi: "Bəli". Dedi: **"Elə isə cavab ver".**[2] Bu da kor adamın camaatla namaz qılmasının vacibliyinə dəlalət edir – korluq belə camaat namazının tərk olunması üçün üzür deyildir.

Hədis təkcə camaatla qılınan namaza deyil, həm də camaat namazının məsciddə qılınmasına dəlildir. Hədis həm də ona dəlildir ki, *camaat namazında iştirakı vacib edən* əsas azanın eşidilməsidir. Lakin burada nəzərdə tutulan səsgücləndirici ilə deyil, *adi* səslə verilən azanın eşidilməsidir. Çünki səsgücləndiricinin səsi uzaq məsafədən eşidilir. Səsi eşitməyə bir maneə yoxdursa, camaat namazına getmək onu eşidənə vacib olur.

Hədis həm də ona dəlildir ki, məscidin xaricində olan kəs imkanı olsa belə, məsciddə qılınan namaza *paralel* qoşula bilməz. Misal üçün, məscidin yanında evi olan birisi imamın təkbirlərini eşidir və oğluna deyir ki, gəl ikimiz elə evdə imama qoşulub namazı qılaq. Bu doğru deyil, çünki camaat namazının qılındığı yerə getmək şərtdir. Yox, əgər məscid dolarsa

---

[1] "Musnəd İmam Əhməd", 2/367.

[2] "Səhih Muslim", 653.

və məscidətrafı yollardakı sıralar məscidə bitişik olarsa, bu zaman camaatla qılmış sayılırlar. Sıralar məscidin sıralarına bitişik olmadıqda isə namazı qılmaq olmaz. Adam hətta artıq namazın təkbirlərini eşidirsə belə, camaat namazına *qoşulmaq üçün* getməlidir.

Soruşula bilər ki, əgər xəstə birisi evindən azanı və təkbirləri səsgücləndiricidən eşidirsə, imama tabe ola bilərmi?

Biz deyirik: İmamla namaz qılmasın, çünki o, camaat namazını tərk etməkdə üzürlüdür. Əgər adətən camaatla namaz qılırsa, sağlam vaxtı qıldığı namazın mislinin savabı ona yazılır. Peyğəmbər ﷺ demişdir: **"Kim xəstələnərsə və ya səfərə gedərsə, sağlam və öz evində olduğu vaxt qıldığı namazın savabının misli ona yazılar".**[1] Daha doğrusunu Allah bilir.

١٠٦٩ – وعن ابنِ مسعودٍ رضي الله عنه قال: مَنْ سَرَّه أَن يَلْقَي اللَّه تعالى غدًا مُسْلِمًا فَلْيُحَافِظْ عَلى هَؤُلاءِ الصَّلَوات حَيْثُ يُنادَي بهنَّ، فَإِنَّ اللَّهَ شَرَعَ لِنَبِيِّكم ﷺ سُنَنَ الهُدَى وَإِنَّهُنَّ مِن سُنَنِ الهُدى، وَلَو أَنَّكُمْ صلَّيْتم في بُيوتِكم كما يُصَلِّي هذا المُتَخَلِّف في بَيتِهِ لَتَركتم سُنَّة نَبِيِّكم، ولَو تَركتم سُنَّةَ نَبِيِّكم لَضَلَلْتُم، ولَقَد رَأَيْتُنَا وما يَتَخَلَّف عَنها إلاَّ منافق مَعْلُومُ النِّفَاق، وَلَقَدَ كانَ الرَّجُل يُؤتى بِهِ، يُهَادَي بيْنَ الرَّجُلَيْنِ حَتَّى يُقَامَ في الصَّفِّ. رواه مسلم.

وفي روايةٍ له قال: إِنَّ رسولَ اللَّهِ ﷺ عَلَّمَنَا سُنَنَ الهُدَى، وَإِنَّ مِن سُنَنِ الهُدَى الصَّلاَة في المَسَجدِ الذي يُؤَذَّنُ فيه.

**1069.** İbn Məsuddan رضي الله عنه rəvayət olunur ki, o demişdir: "Kim Uca Allahla sabah müsəlman kimi görüşmək istəyirsə, bu namazları çağırıldığı yerdə mühafizə etsin. Şübhəsiz ki, Allah peyğəmbərinizə hidayət yollarını göstərmişdir. Bu namazlar da hidayət yollarındandır. Sizlər də bu evdə qılan  kimi namazlarınızı evlərinizdə qılsanız, Peyğəmbərinizin sünnəsini tərk etmiş olarsınız. Peyğəmbərinizin ﷺ sünnəsini tərk etdikdə isə azarsınız. Bizlərdən yalnız nifaqı bəlli olan münafiqlər camaat namazına gəlməzdilər. Adamı gətirər və iki adamın arasında yerləşdirərdilər".

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

[1] "Səhih əl-Buxari", 2774.
[2] "Səhih Muslim", 1046.

Başqa bir rəvayətdə isə o demişdir: "Şübhəsiz ki, Rəsulullah ﷺ bizlərə hidayət yollarını öyrətmişdir. Həmin hidayət yollarından biri də azan verilən məscidlərdə namaz qılmaqdır".[1]

**Şərh:**

Müəllif "Camaat namazının fəziləti" fəslində bu əsəri qeyd etmişdir. Əsər Abdullah ibn Məsuddan nəql olunsa da, sanki Peyğəmbərin ﷺ elmindəndir. Yəni nizamına, gözəlliyinə və səlisliyinə görə sanki Peyğəmbərin ﷺ sözüdür. O deyir: "Kim Uca Allahla sabah müsəlman kimi görüşmək istəyirsə, bu namazları çağırıldığı yerdə mühafizə etsin".

Əlbəttə, hər kəs istəyər ki, uca və nöqsansız Allahla müsəlman və itaətkar mömin kimi görüşsün. Kim bunu istəyirsə, beş vaxt namazları çağırıldığı yerdə, yəni məscidlərdə mühafizə etsin. Bu da namazın məscidlərdə camaatla qılınmasının vacibliyini göstərir. Namazını məsciddə qılmaq iqtidarında olan hər kəsə namazlarını orada camaatla qılması vacibdir. Bu da təbii ki, kişilərə aiddir.

Sonra o deyir ki, uca və nöqsansız Allah öz peyğəmbərinə ﷺ hidayət yollarını göstərmişdir. Peyğəmbərin ﷺ gətirdiyi hər bir şey hidayət və nurdur – bunları ona Allah buyurmuşdur. "Onlar (yəni beş vaxt namaz) da hidayət yollarındandır". O, doğru söyləyir. Allah ondan razı olsun! Çünki namaz şəhadətdən sonra İslamın ərkanlarından ən əzəmətli hidayət yoludur.

Sonra o deyir: "Sizlər də bu evdə qılan kimi namazlarınızı evlərinizdə qılsanız, Peyğəmbərinizin sünnəsini tərk etmiş olarsınız. Peyğəmbərinizin ﷺ sünnəsini tərk etdikdə isə azarsınız". Əgər hər kəs evdə namaz qılan kəs kimi evində namaz qılsa, bizlər sünnəni tərk etmiş olarıq, məscidlərə də heç kim getməz.

İnsanları bir-birilərindən ayırmamalıyıq. Belə olsa insanlar bir-birilərini tanımaz və mehriban olmazlar. Əgər insanlar *ancaq* evlərində namaz qılmış olsaydılar, İslam dininin bu əzəmətli görkəmi də olmazdı. Lakin Allahın rəhmətindən və hikmətindəndir ki, insanlara camaatla namaz qılmağı buyurmuşdur. Gündə beş dəfə qardaşını görüb ona salam verirsən,

---

[1] "Səhih Muslim", 1045.

o da sənə salam verir və onunla birlikdə eyni imamın arxasında namaz qılırsınız. Camaat namazı böyük bir nemətdir. Bu həm də qardaşlıq əlaqələrinin, mərhəmət və mehribançılığın əsaslarındandır.

Sonra deyir: "Bizlərdən yalnız nifaqı bəlli olan münafiqlər camaat namazına gəlməzdilər".

Münafiqlər İslam güclədikdə çoxalırlar, çünki bu zaman adam kafir olduğunu açıq bildirə bilmir. Ona görə də Peyğəmbərin ﷺ zamanında müsəlmanların Bədr döyüşündə qalib gəlməsindən sonra münafiqlər meydana çıxdı. Hicrətin ikinci ilində müsəlmanlar Bədr döyüşündə qalib gəldikdən sonra münafiqlər əmələ gəlməyə başladı. Kafirlər özləri üçün qorxub müsəlman olduqlarını elan edərək Rəsulullahın ﷺ yanına gəldilər və: "Biz şəhadət veririk ki, sən Allahın rəsulusan" dedilər. İzzət və cəlal sahibi Allah buyurur: "Münafiqlər sənin yanına gəldikləri zaman: **"Biz şəhadət veririk ki, sən Allahın rəsulusan"– deyirlər. Allah da bilir ki, sən Onun rəsulusan. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar".**[1] Yəni, doğru söz söyləmirlər: **"Onlar qəlblərində olmayanları dilləri ilə deyirlər".**[2]

Bəs münafiq nə üçün *camaat namazına* gəlmirdi? – Çünki münafiq hesab gününə iman gətirmir, buna önəm vermir və savab qazanmaq istəmir. Buna görə də Peyğəmbər ﷺ demişdir: **"Münafiqlər üçün ən ağır namaz işa və sübh namazlarıdır".**[3]

Peyğəmbərin ﷺ zamanında elektrik və sair növ işıqlandırma olmadığından kiminsə işa namazına gedib-getmədiyi bilinmirdi. Birisi namaza gəlmədikdə digərinin bundan xəbəri olmurdu. İşa və sübh namazları həm də yatmaq və rahatlanmaq vaxtında olduğundan münafiqlərə ağır gəlirdi və onlar həmin namazlara getmirdilər. Əgər onlar həmin namazlarda nə qədər böyük savab qazanacaqlarını bilsəydilər, ora iməkləyə-iməkləyə də olsa gedərdilər.

[İbn Məsud] daha sonra deyir ki, o zamanlar bəzən adamı namaza gətirib iki nəfərin arasında yerləşdirərdilər. Yəni həmin adam xəstə idi, təkbaşına gedə bilmirdi. Onuköməkləşib gətirib sıraya qoyurdular ki, camaat namazını qılsın. Allah onların hamısından razı olsun.

---

[1] "əl-Munafiqun" surəsi, 1.

[2] "əl-Fəth" surəsi, 11.

[3] "Səhih əl-Buxari", 657; "Səhih Muslim", 1041.

Bu və buna bənzər digər *təmənnasız xeyirli* əməllərin sayəsində onlar yerin şərqinə və qərbinə sahib oldular. İslam ümməti bundan uzaqlaşdıqda isə qəlbləri ixtilafa düşdü və vəziyyət gördüyünüz hala gəlib çatdı: zəlil bir ümmət. Sayları bir milyarddan çoxdur, lakin buna rəğmən ən zəlil ümmətlərdən biridir. Hətta bəziləri bir-birilərinə düşmən kəsiliblər. Bəziləri elə düşünür ki, digərləri yəhudi və xaçpərəstlərdən daha pisdir. Allah qorusun! Çünki onlar öz aralarında çəkişərək təfriqəyə düşmüşlər. Rəsulullahın ﷺ zamanında isə heç kim xəstə olsa belə, camaat namazını tərk etmirdi. Xəstə olanı da gətirib sıraya qoyurdular ki, namazını qılsın. Əgər bizlər səhabələrin yoluna qayıtsaq, güclü-qüvvətli bir ümmətə çevrilərik, hər kəs də bizdən qorxar, hər kəs bizə pənah aparar, bizə sığınar. Allahdan diləyirik ki, bizləri dinimizdə izzətli etsin, ümmətimizin hörmətini özünə qaytarsın. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

١٠٧٠ – وعن أَبي الدرداءِ رضي الله عنه قال: سمعت رسولَ اللَّه ﷺ يقول: « ما مِن ثَلاثَةٍ في قَرْيَةٍ ولا بَدْوٍ لا تُقَامُ فِيهِمُ الصَّلاةُ إِلاَّ قدِ اسْتَحْوَذَ عَلَيْهِمُ الشَّيْطَانُ. فَعَلَيكُمْ بِالجَمَاعَةِ، فَإِنَّمَا يأْكُلُ الذِّئْبُ مِنَ الغَنَمِ القَاصِيَةَ » رواه أبو داود بإِسناد حسن.

**1070.** Rəvayət olunur ki, Əbu Dərda رضي الله عنه demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Hər hansı bir kənddə və ya çöldə bir yerdə olan üç nəfər namazı camaat halında qılmazlarsa, şeytan onları əhatə edər. Camaatla olun, çünki tək quzunu canavar yeyər".**

Bu hədisi Əbu Davud həsən isnadla rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllif رحمه الله "Camaat namazının fəziləti" fəslində Əbu Dərdadan رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: **"Hər hansı bir kənddə və ya çöldə"**, yəni çöllük ərazidə, **"bir yerdə olan üç nəfər namazı camaat halında qılmazlarsa, şeytan onları əhatə edər"**. Yəni mənası budur ki, kənddə və ya çöllükdə birlikdə olan üç nəfər camaat və cümə namazlarını qılmazlarsa, şeytan onları əhatə edər. Bu da dəlildir ki, camaatı tərk etmək olmaz. Bu hədisdən belə anlaşılır ki, üç və daha artıq şəxs olduqda, bu

[1] "Musnəd İmam Əhməd", 6/446; "Sunən Əbu Davud", 460; "Sunən ən-Nəsai", 838.

qadağandır. Lakin başqa hədislərdə bildirilir ki, iki və daha artıq şəxs olduqda, *onlara* camaat namazı vacib olur. Cümə namazı isə çöllükdə olmayan üç və daha artıq şəxsə vacib olur. Müsafirlərə və çöllükdə olanlara cümə namazı vacib deyil. Kəndlərdə və şəhərlərdə cümə namazı qılınır. Bunun üçün də ən azı üç nəfər olmalıdır.

Sual oluna bilər ki, necə ola bilər ki, kənddə və ya şəhərdə üç nəfər olmasın?

Deyirik: Ola bilsin ki, həmin kəndin və şəhərin əhalisinin mütləq əksəriyyəti, məsələn, elm almaq üçün gəmiş qəriblərdir. Bəzi xarici ölkələrdə olan şəhərciklərdə olduğu kimi. Bəzən həmin şəhərciklərdə cəmi üç nəfər vətəndaş (yerli sakin) olur, qalanları isə müsafirlər olur. Bu zaman onlara cümə namazını qılmaq vacib olur. Çünki orada üç yerli sakin var. Çöllükdə olanlara isə cümə namazı qılmaq vacib deyil. Çünki cümə yalnız kəndlərdə və şəhərlərdə vacibdir. Peyğəmbərin ﷺ zamanında insanlar Mədinənin ətrafında olurdular və çöllükdə olmurdular, cüməni də orada qılırdılar.

**"Camaatla olun, çünki tək quzunu canavar yeyər"**. Bu da dəlildir ki, gərək müsəlmanlar təfriqəyə düşüb ixtilaf etməsinlər, əksinə, bir olsunlar.

Camaatdan ayrılmaq həlak olma səbəblərindəndir. Peyğəmbər ﷺ bunu tək quzuya bənzətmiş və: **"tək quzunu canavar yeyər"** demişdir. Camaatdan uzaqlaşan da belədir. Hətta bir fikirdə belə dəlillərin öz xeyrinə olduğunu düşünərək camaatdan ayrılan kəs də belədir.

İnsan görsə ki, əlindəki dəlil cümhurun rəyinə müxalif rəyə əsaslanır, gərək bu məsələyə təkrar-təkrar yenidən baxsın. Çünki ola bilməz ki, əksər alimlər hamısı xəta etsin, sən isə tək düz mövqedə olasan. Buna görə də Huzeyfə İbn Məsuda dedikdə ki, bəziləri Bəsrədə etikaf edir, Rəsulullah ﷺ isə demişdir ki: **"Yalnız üç məsciddə etikaf olunur: Məscidul-haram, Məscidun Nəbəvi, əl-Əqsa məscidi"**.[1] Dedi: "Bəlkə deyiblər, sən unutmusan, onlar isə əzbərləyiblər?"

İbn Məsud Huzeyfəyə belə dedi. Çünki müsəlmanların demək olar ki, yekdil rəyinə görə hər məsciddə etikaf etmək olar. Fərz etsək ki, Huzeyfənin

[1] "Mutəsəm əl-Müxtəsər", 1/153; "Mucəm əl-Kəbir", 9/302; "Mucəm şuyux Əbi Bəkr", 3/721; "Siyər əlam ən-Nubəla", 15/81.

hədisi səhihdir, bu zaman o anlaşılacaqdı ki, yalnız bu üç məsciddə tam etikaf etmək olar. Mümkün deyil ki, Uca Allah islam ümmətinə xitab edərək: **"Məscidlərdə etikafda olduğunuz vaxt onlara yaxınlaşmayın"**[1] buyursun, sonra da biz deyək ki, yalnız bu üç məsciddə etikaf etmək olar. Axı müsəlmanların yalnız yüzdə biri həmin məscidlərə gedə bilirlər. Bu, bəlağət və dil baxımından da doğru hesab olunmur.

Lakin bəzi adamlar da var ki, hər bir məsələdə təəccübləndirməyi xoşlayırlar – xoşlayırlar ki, onların adı hallansın. Hətta belə bir məsəl də işlədirlər ki, müxalif ol ki, tanınasan. Bəs əgər o, dəlilə və cümhurun rəyinə müxalif olmaqla məşhurlaşarsa, onda necə? – Peyğəmbər ﷺ camaatdan ayrılan hər kəsi sürüdən ayrılmış quzuya bənzətmiş və bildirmişdir ki, onu canavar yeyər. Müvəffəq edən Allahdır.

---

[1] "əl-Bəqərə" surəsi, 187.

# Yüz doxsan ikinci fəsil

## Sübh və işa namazlarında camaat namazına gəlməyə təşviq etmək

**Mövzu ilə əlaqəli hədislər:**

١٠٧١ – عـنْ عثمـانَ بـنِ عفـانَ ﵁ قـالَ: سـمعتُ رسـولَ الله ﷺ يقـولُ: «مَـنْ صَـلَّى العِشَـاءَ فِي جَـمَاعَـةٍ، فَكَأَنَّما قـامَ نِصْـف اللَّيْل وَمَـنْ صَلَّى الصبْح فِي جَمَاعَـةٍ، فَكَأَنَّما صَلَّى اللَّيْل كُلَّهُ » رواه مسلم.

وفي روايـةِ الترمـذيّ عـنْ عثمـانَ بـنِ عفـانَ ﵁ قـال: قـال رسـولُ اللَّهِ ﷺ: «مَـنْ شَـهِدَ العِشَـاءَ في جمَاعـةٍ كان لـهُ قِيـامُ نِصْـفِ لَيْلَـة، ومَـنْ صَلَّى العِشَـاءَ والْفَجْـر في جمَاعَـةٍ، كَانَ لَـهُ كَقِيَامِ لَيْلَة » قال التِّرمذي: حديثٌ حسن صحيحٌ.

**1071.** Osman ibn Əffandan ﵁ nəql olunan hədisdə o demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Kim işa namazını camaatla qılarsa, sanki gecənin yarısını qalxıb ibadət etmiş sayılar. Kim də sübh namazını camaatla qılarsa, sanki bütün gecəni namaz qılmış kimi olar".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Tirmizinin rəvayətində isə Osman ibn Əffandan ﵁ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim işa namazını camaatla qılarsa, gecənin yarısını qalxıb ibadət etmiş sayılar. İşa və sübh namazlarını camaatla qılan kəs isə sanki bütün gecəni ibadət etmiş sayılar".**

Bu hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən-səhih hədisdir"– demişdir.[2]

١٠٧٢ – وعـن أَبي هُريـرة ﵁ أَنَّ رسـولَ اللَّهِ ﷺ قـال: « وَلَـوْ يعْلَمُـونَ مَـا في العَتَمَـةِ والـصُّبْحِ لأَتَوْهُما وَلَـو حبْوًا » متفقٌ عليه. وقد سبق بطولِه.

---

[1] "Səhih Muslim", 1049.

[2] "Musnəd İmam Əhməd", 1/58; "Sunən Əbu Davud", 468; "Sunən ət-Tirmizi", 205.

**1072.** Əbu Hureyradan ﷺ nəql olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"Əgər siz işa və sübh namazında nəyin olduğunu bilsəydiniz, ona sürünərək gedərdiniz"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1] Hədisin tam mətni daha öncə qeyd olunmuşdur.

١٠٧٣ – وعنهُ رضي الله عنه قال: قال رسولُ الله ﷺ: « لَيْسَ صَلاةٌ أَثْقَلَ عَلَى المُنَافِقِينَ مِنْ صلاة الفَجْرِ وَالعِشاءِ وَلَوْ يَعْلَمُونَ ما فِيهِما لأَتَوْهُما وَلَوْ حبْوًا » متفق عليه.

**1073.** Yenə Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Münafiqlər üçün ən çətin namaz işa və sübh namazlarıdır. Əgər onlar həmin namazlarda nəyin olduğunu bilsəydilər, iməkləyərək gedərdilər".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

**Şərh:**

Hafiz ən-Nəvəvi رحمه الله "**Sübh və işa namazlarında camaat namazına gəlməyə təşviq etmək**" fəslini qeyd edir. Məhz bu iki namazın – sübh və işa namazlarının fəziləti böyük olduğu üçün onları zikr etmişdir.

Osman ibn Əffandan ﷺ nəql olunan hədisdə deyilir ki, insan işa və sübh namazlarını camaatla qıldıqda, sanki bütün gecəni ibadətdə keçirmiş olur. Yəni, sanki bütün gecə boyu qalxıb namaz qılıb – işanı qıldıqda gecənin yarısını, sübhü (fəcri) qıldıqda isə digər yarısını. Yəni sən işa və sübh namazlarını camaatla qılmısansa, yatağında yatsan belə, bütün gecəni qalxıb ibadət etmiş kimi olursan.

Əbu Hureyradan رضي الله عنه nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Əgər siz işa və sübh namazında nəyin olduğunu bilsəydiniz, ona sürünərək gedərdiniz".** Əgər onlarda nə qədər savabın olduğunu bilsəydiniz, uşaq kimi iməkləyərək onlara gedərdiniz. Çünki onların savabı olduqca böyükdür.

[1] "Səhih əl-Buxari", 580; "Səhih Muslim", 661.

[2] "Səhih əl-Buxari", 617; "Səhih Muslim", 1041.

Sonrakı hədis də bu mövzudadır. Həmin hədisdə Əbu Hureyradan رضي الله عنه nəql olunur ki, münafiqlər üçün ən çətin namaz işa və sübh namazlarıdır. Çünki münafiqlər riyakarlıq edir və özlərini göstərərək namaz qılırlar. İşa və sübh namazlarında isə qaranlıq olur və onları görmürlər. Həmin namazlara onlar çətinliklə gəlirlər. Zöhr, əsr və məğrib namazlarına isə gəlirlər, çünki insanlar onları görür. Beləcə onlar özlərini göstərirlər. Allahı da çox az zikr edirlər. İşa və sübh namazlarında riyakarlıq olmur, çünki hava qaranlıq olur. Peyğəmbərin ﷺ dönəmində elektrik işıqları və çilçıraqlar mövcud deyildi. Onları da heç kim görmürdü. Buna görə də işa və sübh namazlarına gəlmək onlara ağır gəlirdi. Çünki onlar özlərini göstərə bilmirdilər. Bu, məsələnin bir tərəfi. Digər tərəfdən isə işa və sübh namazlarının vaxtı yatıb-dincəlmək vaxtına təsadüf edir.

Peyğəmbərin ﷺ zamanında insanlar indiki kimi gec yatmırdılar. İşa namazından dərhal sonra yatır, sübh vaxtına da oyanırdılar. Bəziləri Allahın yardımı ilə gecə namazı qılır, digərləri isə sübh namazı üçün oyanırdılar. Bu iki namaz da münafiqlərə çox ağır gəlirdi. Gərək insan işa və sübh namazlarını qılmağa həris ola. Lakin əsr namazı ilə müqayisədə işa namazı əsr namazından əfzəl deyil. Əsr namazı daha əfzəldir. Buna görə də sübh namazı əsr və işa namazlarına taydır. Əvvəldə də qeyd etdik ki: **"Kim sübh və əsr namazlarını qılarsa, Cənnətə daxil olar".**[1]

Peyğəmbər ﷺ həmçinin demişdir: **"Şübhəsiz ki, siz bədirlənmiş ayı gecə gördüyünüz kimi, Rəbbinizi də görəcəksiniz. Gün çıxmamışdan öncə [yəni sübh namazını], bir də gün batmamışdan öncə [yəni əsr namazını] çalışın ki, daim qılasınız".**[2]

İnsan işa namazı ilə sübh namazını da *camaatla* qılmış olarsa, sanki bütün gecəni namaz qılmış kimi savab qazanır.

Həmçinin: **"Əgər onlar həmin namazlarda nəyin olduğunu bilsəydilər, iməkləyərək gedərdilər".** Odur ki, müsəlman qardaşım, çalış bütün namazları vaxtında qılmağa həris ol və onları vaxtlı-vaxtında qıl. İzzət və cəlal sahibi Allah buyurur: **"Möminlər, həqiqətən də, nicat tapmışlar – o kəslər ki, namazlarında mütidirlər; o kəslər ki, sözbazlıqdan qaçırlar; o**

[1] "Səhih əl-Buxari", 540; "Səhih Muslim", 1005.
[2] "Səhih əl-Buxari", 521; "Səhih Muslim", 1002.

**kəslər ki, zəkat verirlər; o kəslər ki, övrət yerlərini** ***həmişə*** **qoruyurlar – zövcələri və sahib olduqları cariyələr istisnadır. Onlar** ***buna görə heç*** **qınanmazlar. Bundan artığına can atanlar isə həddi aşanlardır; o** ***mömin*** **kəslər ki, əmanətlərini və vədlərini qoruyurlar; o kəslər ki, namazlarını öz vaxtlarında qılırlar. Məhz onlar varis olanlardır. O kəslər ki, Firdovs cənnətinə varis olacaqlar; onlar orada əbədi qalacaqlar".**[1]

Baxın, nöqsansız və uca Allah namazı gözəl əməllərin həm əvvəlində, həm də sonunda zikr edir. "əl-Məaric" surəsində isə O buyurur: **"Həqiqətən, insan kəmhövsələ yaradılmışdır. Ona bir pislik toxunduqda özündən çıxır, bir xeyir nəsib olduqda isə xəsislik edir. Namaz qılanlar istisnadır – o kəslər ki, namazlarını həmişə qılırlar".**[2]

Bununla da bəlli olur ki, Allahdan başqa ibadət haqqına malik məbudun olmamasına və Muhəmmədin Onun elçisi olması şəhadətindən sonra ən əzəmətli əməl namazdır. Allah bizləri namazlarını vaxtlı-vaxtında qılan, zəkat verən, Allahın fərzlərini yerinə yetirən və haramlarından çəkinənlərdən etsin.

---

[1] "əl-Muminun" surəsi, 1-11.

[2] "əl-Məaric" surəsi, 34.

# Yüz doxsan üçüncü fəsil

## Fərz namazlarını qorumağın əmr edilməsi, onları tərk etməyin qadağan olması və buna görə şiddətli əzab vədi

**Mövzu ilə əlaqəli ayələr:**
Uca Allah belə buyurur:

﴿حَٰفِظُواْ عَلَى ٱلصَّلَوَٰتِ وَٱلصَّلَوٰةِ ٱلْوُسْطَىٰ﴾

**"Namazları, *xüsusilə* orta namazı qoruyun".**[1]

﴿فَإِن تَابُواْ وَأَقَامُواْ ٱلصَّلَوٰةَ وَءَاتَوُاْ ٱلزَّكَوٰةَ فَخَلُّواْ سَبِيلَهُمْ﴾

**"Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın".**[2]

**Mövzu ilə əlaqəli hədislər:**

١٠٧٤ – وعن ابنِ مسعودٍ ﷺ قال: سَأَلتُ رسولَ اللهِ ﷺ: أَيُّ الأَعْمَالِ أَفْضَلُ؟ قال: « الصَّلاةُ على وَقْتِها » قلتُ: ثُمَّ أَيٌّ؟ قال: « بِرُّ الوَالِدَيْنِ » قلتُ: ثُمَّ أَيٌّ؟ قال: « الجهادُ في سَبِيلِ اللهِ » متفقٌ عليه.

**1074.** İbn Məsuddan ﷺ nəql olunan hədisdə o demişdir: «Mən Rəsulullahdan ﷺ soruşdum: "Hansı əməllər daha xeyirlidir?" Dedi: **"Vaxtında qılınan namaz".** Dedim: "Sonra hansı?" Dedi: **"Valideyinlərə qayğı göstərmək".** Dedim: "Sonra hansı?" Dedi: **"Allah yolunda cihad etmək"».**
Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

**Şərh:**

Müəllif ﷺ *bu fəsildə* namazları qorumağın vacibliyini və onları zay etməkdən çəkinməyi qeyd edir.

---

[1] "əl-Bəqərə" surəsi, 238.
[2] "ət-Tövbə" surəsi, 5.
[3] "Səhih əl-Buxari", 44; "Səhih Muslim", 12.

**Namazlar.**

İzzət və cəlal sahibi Allah öz qullarına gündüz və gecə ərzində beş vaxt namazı fərz buyurmuşdur. Peyğəmbər ﷺ Rəbbindən öz ümməti üçün asanlıq istədikdə, O dedi: "O beş vaxt namazdır və əlli namaza bərabərdir".[1] Yəni onlar əməldə beş namaz olsa da, tərəzidə əlli namazdır.

Bir dəfə bir kişi Peyğəmbərdən ﷺ İslam, sonra namazlar barəsində soruşur, o da beş vaxt namaz qeyd edir. Həmin adam soruşur ki, "Bundan artığı mənə vacibdirmi?" Dedi: **"Xeyr, yalnız nafilə qıla bilərsən"**.[2]

O ﷺ Müazı Yəmənə göndərərkən ona belə demişdir: **"Onlara xəbər ver ki, Allah onlara gündüz və gecə ərzində beş vaxt namazı fərz buyurmuşdur".**[3]

Uca Allah namazları qorumağı əmr edərək belə buyurur: **"Namazları, *xüsusilə* orta namazı qoruyun".**[4] O, fəzilətinə və özəlliyinə görə orta namazı xüsusiləşdirmişdir. "Orta namaz" deyildikdə, əsr namazı nəzərdə tutulur. Bunu Allahın kitabını və Onun muradını (qayəsini, məqsədini) ən yaxşı bilən Peyğəmbər ﷺ izah etmişdir. Həmçinin Uca Allah buyurur: **"Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın".**[5] Kaş ki, müəllif bu yerdə **"Əgər tövbə edib, namaz qılıb zəkat versələr, sizin din qardaşlarınız olarlar".**[6] ayəsini də qeyd edəydi. Çünki bu ayə dəlalət edir ki, namaz qılmayan kəs kafirdir.

Sonra müəllif رحمه الله İbn Məsuddan رضي الله عنه nəql olunan hədisi qeyd edir. O, Peyğəmbərdən ﷺ: "Hansı əməl daha fəzilətlidir?" deyə soruşur, o da buyurur ki: **"Vaxtında qılınan namaz"**, yəni şəriətin buyurduğu vaxtda qılınan namaz. Əgər tezləşdirmək tələb olunursa, həmin namazı tezləşdirmək daha əfzəldir. Gecikdirilməsi tələb olunan namazı isə gecikdirmək daha əfzəldir.

Beş vaxt namazın hamısını tezləşdirmək daha əfzəldir. Yalnız işa namazı istisnadır – insanlar üçün çətin olmayacaqsa, onu gecikdirmək daha

---

1 "Səhih əl-Buxari", 336; "Səhih Muslim", 237.
2 "Səhih əl-Buxari", 540; "Səhih Muslim", 1005.
3 "Səhih əl-Buxari", 1308; "Səhih Muslim", 27.
4 "əl-Bəqərə" surəsi, 238.
5 "ət-Tövbə" surəsi, 5.
6 "ət-Tövbə" surəsi, 11.

əfzəldir. Həmçinin, çox isti havada insanlara çətin olmasın deyə, zöhr namazını da gecikdirmək daha əfzəldir. Lakin alimlər demişlər ki, kim azanı eşidən kimi qalxıb dəstəmaz alaraq namaza hazırlanarsa, bu bir başlanğıcdır. Yəni o anlama gəlmir ki, azan verilən kimi namaz qılmalıyıq. Önəmli olan budur ki, namaza vaxtının əvvəlindən hazırlaşaq.

İbn Məsud ﷺ dedi: "Sonra hansı?" Dedi: **"Valideyinlərə qayğı göstərmək".** Yəni sözdə, əməldə, mal-dövlətlə, nüfuzla, xidmətlə və digər məsələlərlə onların, yəni atanın və ananın qayğısına qalmaq.

Dedi: "Sonra hansı?" Dedi: **"Allah yolunda cihad etmək".**

İbn Məsud ﷺ deyir ki, əgər ondan yenə soruşsaydım, yenə cavab verərdi. Yəni yenə də: "Sonra hansı?"– deyə soruşsaydım, Peyğəmbər ﷺ mənə yenə cavab verərdi. O bunu vəziyyətə əsasən demişdir.

Bu hədis izzət və cəlal sahibi Allaha sevginin isbatına dəlildir. Dəlildir ki, O, *yaxşı* əməlləri və onları edənləri sevir. Həmçinin nöqsansız və uca Allahın sevgisi fərqlidir və bəzi şeylər Ona digərlərindən daha sevimlidir.

Həmçinin dəlildir ki, valideyinlərə qayğı Allah yolunda cihad etməkdən daha üstündür. Bu əməlin vacibi vacibindən, müstəhəbi də müstəhəbindən üstündür. Məsələn, valideyinlərin qayğısına qala biləcək, onlara xidmət göstərə biləcək bir kəs yoxdursa, bunu etmək övlad üçün vacibdir. Bu zaman o, cihada getməyib valideyninin qayğısına qalmalıdır. Yox, əgər onların qayğısına qalan bir adam varsa, bu zaman onun qalması müstəhəbdir. Sonra da ki, cihad həmin adama ehtiyac olduqda daha əfzəldir. Yox, əgər ona ehtiyac yoxdursa, valideyinlərin qayğısına qalmaq daha əfzəldir. *Bu mövzu ilə əlaqəli* İbn Ömərin hədisi barədə daha sonra söhbət açacağıq. Daha doğrusunu Allah bilir.

**Qeyd.** Sübh namazının vaxtına aid məsələyə gəlincə, məlumdur ki, insanların əlində olan namaz vaxtları təqvimindən azı beş dəqiqə daha erkən *fərqli* bir təqvim də var. Bəzi qardaşlar düzənliyə çıxıb görüblər ki, insanların əllərindəki təqvimlə sübhün girməsi arasında azı iyirmi dəqiqə fərq var. Odur ki, məsələ təhlükəlidir. Ona görə də gərək azandan sonra tələsik iqamə verilməməlidir. İyirmi və ya iyirmi beş dəqiqə gözləmək lazımdır ki, fəcr namazının vaxtının daxil olmasında əminlik olsun.

١٠٧٥ – وعن ابنِ عمرَ رضي الله عنهما قال: قالَ رسولُ الله ﷺ: «بُنِيَ الإِسلامُ على خَمْسٍ: شَهادَةِ أَنْ لا إِلـهَ إِلاَّ اللَّه، وأَنَّ مُحمداً رسولُ اللَّهِ، وإِقامِ الصَّلاةِ، وَإِيتاءِ الزَّكاةِ، وَحَجِّ البَيْتِ، وَصَوْمِ رَمضانَ » متفقٌ عليه.

**1075.** İbn Ömər ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"İslam beş** *əsas* **üzərində bina edilmişdir: Allahdan başqa** ***ibadət haqqına malik*** **məbudun olmamasına və Muhəmmədin Onun qulu və elçisi olmasına şəhadət vermək, namaz qılmaq, zəkat vermək, həcc etmək və Ramazan orucu** ***tutmaq*"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

**Şərh:**

Hafiz ən-Nəvəvi ﷺ "Fərz namazlarını qorumağın əmr edilməsi, onları tərk etməyin qadağan olması və buna görə şiddətli əzab vədi" fəslində İbn Ömərdən ﷺ rəvayət olunan hədisi qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"İslam beş** *əsas* **üzərində bina edilmişdir: "Allahdan başqa** ***ibadət haqqına malik*** **məbudun olmamasına və Muhəmmədin Onun qulu və elçisi olmasına şəhadət vermək"** – bu bir, **"namaz qılmaq"** – bu iki, **"zəkat vermək"** – bu üç, **"həcc etmək"** – bu dörd və **"Ramazan orucu** ***tutmaq*"** – bu da beş. Hədis İbn Ömərdən ﷺ bu cür nəql olunmuşdur. Başqa bir ləfzdə isə o, Ramazan orucunu öncə qeyd etmişdir. Buxari öz "Səhih" əsərini də bu hədisdəki sıralamaya uyğun tərtib etmişdir, yəni həcc bölümünü orucdan öncə qeyd etmişdir. Əksər hədislərdə isə oruc həcdən öncə qeyd edilir.

Peyğəmbərin ﷺ: **"İslam beş** *əsas* **üzərində bina edilmişdir"** sözünə gəlincə, o, İslamı beş sütun üzərində inşa edilmiş qəsrə bənzədir. Məlum məsələdir ki, binanın əsasını sütunlar təşkil edir. Sütunlar olmasa, bina dağılar. Başqa sütunlar üzərində inşa edilsə isə zəif olar. Ancaq İslam möhkəm bir binadır. İzzət və cəlal sahibi Allah onu öz qullarına əmr edərək buyurur: **"Bu gün Mən dininizi kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizlərə İslamı bəyənib seçdim".**[2]

---

[1] "Səhih əl-Buxari", 8; "Səhih Muslim", 16.

[2] "əl-Maidə" surəsi, 3.

Bu beş sütun və əsası Peyğəmbər ﷺ bəyan edərək demişdir: **"Allahdan başqa *ibadət haqqına malik* məbudun olmamasına və Muhəmmədin Onun qulu və elçisi olmasına şəhadət vermək".** Yəni dilinlə deməli, qəlbinlə iman gətirməlisən ki, Allahdan başqa ibadət haqqına malik məbud yoxdur.

Allahdan başqa ibadət olunan hər bir şey batildir. Bəzi insanlar günəşə, digərləri aya, başqa biriləri də Şiraya, yəni müəyyən bir ulduza ibadət edirlər. Ağaca, inəyə, hətta qadın [və kişi] cinsiyyət orqanına da ibadət edənlər var. Bəs həqiqi məbud kimdir? – Şübhəsiz ki, O, izzət və cəlal sahibi Allahdır. Allahdan başqa ibadət haqqına malik məbud yoxdur. Bunu dilimlə etiraf edərək, qəlbimlə təsdiqləyərək deyirəm ki, Allahdan başqa ibadət haqqına malik məbud yoxdur. Bu da şəriətin və ağlın tələbidir. Çünki məxluqatı yaradan kimdirsə, ibadətə layiq olan da Odur. Bəs məxluqatı kim yaradıb?! – Əlbəttə ki, izzət və cəlal sahibi Uca Allah! O, buyurur: **"Bəlkə onlar öz-özünə yaranıblar? Yaxud onlar yaradanlardır?"**[1] Həmçinin buyurur: **"Axıtdığınız nütfəni gördünüzmü? Onu siz yaradırsınız, yoxsa Biz?"**[2]

*Bütün* məxluqat bir araya gələrək bir rüşeym yaratmaq istəsələr, bunu edə bilməzlər. İzzət və cəlal sahibi Allah buyurur: **"Ey insanlar, sizə bir məsəl çəkilir, Onu dinləyin".** Allah məsəl çəkərək onu dinləməyi bizə əmr edir: **"Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz"**, Allahdan başqa dua etdiyiniz hər kəs, **"bir milçək belə yarada bilməzlər – hətta bunun üçün bir yerə yığışsalar belə".**[3] Sübhanallah! Bütün müxtəlif növ yaradılanlar bir yerə toplansalar belə, bircə milçək də yarada bilməzlər. İzzət və cəlal sahibi Allahdan başqa Onun yaratdığı bütün məxluqlar toplanıb bir milçək belə yarada bilməzlər. Bu qədərlə belədir.

Şəriətdə isə uca və böyük Allah buyurur: «**De: "Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün *bir yerə* toplaşıb bir-birinə kömək etsələr belə, ona bənzərini gətirə bilməzlər"».**[4]

Deməli, heç kim nə Allahın kəlamının bənzərini gətirə bilməz, nə də Allahın yaratdığı kimisini yarada bilməz.

---

[1] "ət-Tur" surəsi, 35.

[2] "əl-Vaqiə" surəsi, 58-59.

[3] "əl-Həcc" surəsi, 73.

[4] "əl-İsra" surəsi, 88.

**«Əgər sən onlardan: “Göyləri və yeri kim yaratmışdır?”– deyə soruşsan, onlar hökmən: “Allah!”– deyəcəklər”».**[1]**;**

**«Əgər onlardan özlərini kimin yaratdığını soruşsan, əlbəttə: “Allah!”– deyərlər”».**[2]**;**

**«De: “Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?” Onlar deyəcəklər: “Allah!”»**[3]**.**

Bu vəsflərə malik olan Rəbb – məhz O, ibadətə layiqdir. İdarə olunan bir şey ibadətə layiq ola bilərmi?! Məsələn, idarə olunan günəş: **“Günəş də özü üçün müəyyən edilmiş yerdə hərəkət edər. Bu, Qüdrətli, Bilən *Allahın* əzəli hökmüdür”**.[4] Əgər belədirsə, günəş ibadətə layiqdirmi? Bəs ay necə? O, ibadətə layiqdirmi? Ulduz ibadətə layiqdirmi? Ağac ibadətə layiqdirmi? – Heç biri layiq deyil! Çünki bütün bunlar idarə olunan məxluqlardır.

Bir zaman İbrahim öz qövmü ilə höcətləşdi. Qövmündən bəziləri ulduzlara ibadət edirdilər. Gecə qaranlığında ulduz görən İbrahim dedi ki, bu mənim Rəbbimdir. *Görəsən* İbrahim nə üçün bunu dedi? – Dedi ki, onlara dəlil gətirsin. O: “Bu mənim Rəbbimdir”– dedi. Adəti üzrə ulduz batıb gedir. Ulduz batdıqda isə *İbrahim*: “Mən yoxa çıxanları sevmirəm”– dedi. Çünki Rəbb öz qullarının yanından itməz, bu isə itir. Sonra ulduzlardan daha parlaq görünən aya baxıb deyir ki: “Bu mənim Rəbbimdir”. Onun qövmündən aya da ibadət edənlər var idi. Ay da itdikdə *İbrahim* deyir: **“Əgər Rəbbim məni doğru yola yönəltməzsə, mən azmış adamlardan olaram”.**[5] Bu isə əvvəlkindən daha betər idi. Sonra da deyir ki, mən itənləri sevmirəm. Buna ibadət etsəm, azmışlardan olaram. Sonra günəşin daha böyük olduğunu görür. Qövmündən günəşə də ibadət edənlər var idi. O, parlayan günəşə baxıb: “Bu mənim Rəbbimdir”– deyir. Sonra günəş də batır. Heç Rəbb də yaratdıqlarının yanından itərmi? – Təbii ki, yox! Günəşin də *gözdən* itməsilə İbrahim tövhidi elan edib dedi: **“Ey qövmüm, həqiqətən, mən sizin *Allaha* şərik qoşduqlarınızdan uzağam! Həqiqətən,**

---

[1] “Loğman” surəsi, 25.

[2] “əz-Zuxruf” surəsi, 87.

[3] “Yunus” surəsi, 31.

[4] “Ya sin” surəsi, 38.

[5] “əl-Ənam” surəsi, 77.

**mən hənif olaraq üzümü göyləri və yeri yaradana çevirdim. Mən müşriklərdən deyiləm".**[1]

Deməli, Allahdan başqa ibadət haqqına malik məbud yoxdur. Allahdan başqa ibadət olunanlar batildir. Əziz qardaşlar! Qəribə deyilmi ki, bu ibadət olunan bütlər bir yerə toplanan daşlar kimi, Qiyamət günü bir yerə toplanacaq və Cəhənnəm oduna atılcaqlar? Oraya həm də onlara ibadət edənlər də atılacaqlar: ***"Ey kafirlər!* Siz və Allahdan başqa tapındıqlarınız Cəhənnəm odunusunuz. Siz *mütləq* ora girəcəksiniz. Əgər bunlar məbud olsaydılar, ora girməzdilər. Halbuki, hamısı orada əbədi qalacaq".**[2]

*Bu deyilənlər* doğrudur: əgər bunlar haqq ilahlar olsaydı, Cəhənnəm oduna girərdilərmi? – Xeyr! Ancaq onlar oraya daxil olacaqlar. Deməli, onlar ilah olmağa layiq deyillər. Əgər onlar özlərini xilas edə bilməyiblərsə, başqalarını necə xilas edəcəklər? Onlara ibadət edənlər də həmçinin.

Bu ayə nazil olduqda müşriklər onu bənzətməyə qalxdılar və dedilər: "İsa ibn Məryəmə ibadət olunur. Bəs İsaya ibadət edənlər kimlərdir? – Xaçpərəstlər. Demək *İsa da, onlar da* Cəhənnəm oduna atılacaqlar". Onda uca Allah bu ayələri nazil etdi: **"Əzəldən özlərinə ən gözəl aqibət yazılmış insanlara gəldikdə isə, onlar Oddan uzaqlaşdırılmış olacaqlar. Onlar onun xışıltısını belə eşitməyəcəklər. Onlar ürəklərinin istədiyi şeylər arasında əbədi qalacaqlar. Ən böyük dəhşət onları kədərləndirməyəcək. Mələklər onları qarşılayıb: "Bu sizə vəd olunmuş gününüzdür!"*– deyəcəklər."***[3]

Allahın nemət bəxş etdiyi şəxslərdən biri də İsa ibn Məryəmdir. Belə ki, o, ulul-əzm peyğəmbərlərindən biridir.

Əziz qardaşlar! Bilməyiniz mühüm olanların **birincisi** odur ki, Allahdan savayı ibadət olunan hər bir şey batildir. Ulduzlar, övliyalar, əməlisalehlər, alimlər və ya başçılar da belədir. Allahdan savayı ibadət olunan hər bir şey batildir. Onlara ibadət etmək də batildir. Yaxşı, bəs ibadət olunmağa layiq olan kimdir? – İzzət və cəlal sahibi Allah! Ondan başqası isə batildir. Odur ki, "la ilahə illəllah" şəhadətinin mənasına diqqət yetirin. Deməli, "la ilahə illəllah" şəhadəti özündə ixlası da ehtiva edir. İxlas olmadıqda isə

---

[1] "əl-Ənam" surəsi, 78-79.

[2] "əl-Ənbiya" surəsi, 98-99.

[3] "əl-Ənbiya" surəsi, 101-103.

ibadət səhih hesab olunmur. "Əşhədu ənnə Muhəmmədən rəsulullah" şəhadəti isə tabeçiliyi ehtiva edir. Buna görə də bu, rükn hesab olunur.

**İkincisi**, namaz qılmaqdır. Namaz deyildikdə beş vaxt namaz, ona aid olan və olmayan digər nafilələr nəzərdə tutulur.

Namaz qılmaq İslamın əsaslarından biridir. Müsəlmanların yekdil rəyinə görə namaz vacibdir və onların sayı beşdir: sübh, zöhr, əsr, məğrib və işa. Cümə namazı zöhr namazını əvəz edir. Digər namazlar barəsində isə ixtilaf vardır. Məsələn, vitr namazı barəsində alimlər ixtilaf etmişlər ki, onu qılmaq sünnədir, yoxsa vacibdir – bu səbəbdən onu tərk edən insan günah qazanır, ya yox? Burada açıqlamağa ehtiyac var: Kim gecə namazını qılırsa, gərək vitr namazını da qılsın. Gecə namazını qılmayanlar isə işanı qıldıqdan sonra sübhədək yatırlar. Beləsinə vitr namazı vacib deyil.

Kusuf namazı barədə isə müxtəlif rəylər mövcuddur. Bəzi alimlər onun vacib, digərləri isə vacib olmadığını demişlər. Səhih olan odur ki, o, vacibdir. Çünki Peyğəmbər ﷺ onu əmr etmiş, həm də günəş tutulduğu zaman qalxaraq onu bir qədər fərqli şəkildə qılmışdır. Lakin o fərdu-kifayədir – bir qrup insan onu qılarsa, digərlərinə artıq vacib olmur.

Alimlər məscidə salam namazının vacib olub-olmaması barəsində də ixtilaf etmişlər. Onun vacib olması rəyi olduqca güclüdür. Lakin bu barədə də qəti söz söyləmək olmaz. Hədislər ona dəlalət edir ki, məscidə salam namazı vacib deyil. Məsələn, imamın cümə namazı üçün məscidə gəlişi buna dəlalət edir. Peyğəmbər ﷺ cümə günü məscidə daxil olaraq birbaşa minbərə qalxar, xütbə verər və iki xütbə arasında otururardı. Ancaq məscidə salam namazını qılmazdı. Digər xəbərlərin də zahiri məscidə salam namazının vacib olmamasına dəlildir.

Bayram namazlarının vacib olub-olmaması barədə də alimlərin müxtəlif rəyləri vardır. Bəziləri onu vacub, digərləri isə sünnə hesab etmişlər. Başqa biriləri isə onun fardu-kifayə olduğunu bildirmişlər.

Mühüm olan odur ki, fərz olması barədə yekdil rəy olan namazların sayı beşdir. Cümə namazı isə zöh namazını əvəz edir.

Namaz qılmaq sözünün mənası, insanın onu vaxtlı-vaxtında, rüknlərini, şərtləri və vaciblərini, habelə müstəhəblərini tamamlayaraq qılması deməkdir. Namaz qılmaq buna deyilir.

**Üçüncüsü,** zəkat vermək, zəkatı layiq olan kəslərə ödəməkdir. Zəkat Uca Allahın vacib etdiyi və qızıl, gümüş, pul, ticarət malları, yerdən çıxan məhsul və ev heyvanlarından ibarət olan malının bir hissəsini çıxarıb layiq olan kəslərə verməkdir. Zəkata layiq olan kəslər isə aşağıdakı ayədə qeyd olunanlardır: **"Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri *İslam dininə* isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur. Allah *hər şeyi* biləndir, hikmət sahibidir".**[1]

**Dördüncüsü**, həcc etməkdir. Həcc etmək, *zülhiccə ayında* Məkkəyə gedib həcc ayinlərini yerinə yetirməkdir. İzzət və cəlal sahibi Allah həcc ziyarətini bu ümmətə hicrətin doqquzuncu və ya onuncu ilində fərz buyurdu.

**Beşincisi**. Ramazan orucu isə şabanla şəvvalın arasında olan ayı oruc tutmaqdır ki, o da hicrətin ikinci ilində fərz buyurulmuşdur.

İslamın rükünləri bunlardır. Kim müsəlman olaraq bunları yerinə yetirərsə, möhkəm bir özül üzərində bina inşa etmiş olar. Bunları etməyən isə ya fasiqdir, ya da ki, kafir. Kim şəhadəti deməzsə, kafirdir. Kim namaz qılmazsa, kafirdir. Kim zəkat verməzsə, fasiqdir. Kim həcc etməzsə, fasiqdir. Kim də oruc tutmazsa, fasiqdir. Müvəffəq edən Allahdır.

١٠٧٦ – وعنهُ قالَ: قالَ رسولُ اللهِ ﷺ: « أُمِرْتُ أَنْ أُقاتِلَ الناسَ حتَّى يَشْهدُوا أَنْ لا إلهَ إلاَّ اللَّهُ وَأَنَّ مُحَمَّدًا رسولُ اللَّهِ، وَيُقِيمُوا الصَّلاَةَ، ويُؤْتُوا الزَّكاةَ، فَإِذا فَعَلُوا ذلكَ عَصمُوا مِنِّي دِماءَهُمْ وَأَمْوَالَهمْ إِلاَّ بحقِّ الإِسلامِ، وَحِسَابُهْم على اللَّهِ » متفقٌ عليه.

**1076.** Yenə İbn Ömər ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"İnsanlar Allahdan başqa *haqq* məbudun olmadığına və Muhəmmədin Onun elçisi olduğuna şəhadət gətirməyincə, namaz qılıb zəkat verməyincə, *onlarla* vuruşmaq mənə əmr edildi. Əgər *aşkarda* bunları yerinə yetirsələr, İslam haqqı istisna olmaqla canlarını və mallarını məndən qorumuş olarlar. Onların *gizli əməllərinin* haqq-hesabı isə Allaha aiddir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "ət-Tövbə" surəsi, 60.

[2] "Səhih əl-Buxari", 25; "Səhih Muslim", 22.

**Şərh:**

Hafiz ən-Nəvəvi رحمه الله beş vaxt namazı vaxtlı-vaxtında qılmaq fəslində Abdullah ibn Ömərdən رضي الله عنهما Rəsulullahın ﷺ belə dediyini rəvayət etmişdir: **"İnsanlar Allahdan başqa *haqq* məbudun olmadığına və Muhəmmədin Onun elçisi olduğuna şəhadət gətirməyincə, namaz qılıb zəkat verməyincə, *onlarla* vuruşmaq mənə əmr edildi. Əgər *aşkarda* bunları yerinə yetirsələr, İslam haqqı istisna olmaqla canlarını və mallarını məndən qorumuş olarlar. Onların *gizli əməllərinin* haqq-hesabı isə Allaha aiddir".**

**"Mənə əmr edildi".** Ona əmr edən izzət və cəlal sahibi olan Allahdır. **"İnsanlar Allahdan başqa *haqq* məbudun olmadığına və Muhəmmədin Onun elçisi olduğuna şəhadət gətirməyincə, namaz qılıb zəkat verməyincə, *onlarla* vuruşmaq...".** Ona vuruşmağı əmr edən onları yaradandır.

O, öz mülkü ilə istədiyi kimi davrana bilər: Öz qullarına əmr edə bilər ki, belələrini öldürsünlər. Həmçinin əmr edə bilər ki, onlar islamı qəbul edənədək onlarla vuruşsunlar, İslamı qəbul etdikdə isə onlardan əl çəksinlər. Bu hədis Uca Allahın bu ayəsinə xasdır: **"Kitab verilənlərdən Allaha və Axirət gününə iman gətirməyən, Allahın və Onun Elçisinin haram buyurduğunu haram saymayan və həqiqi din *olan İslama* etiqad etməyənlərlə, zəlil günə qalıb öz əlləri ilə cizyə verməyə məcbur oluncaya qədər vuruşun."**[1]

Bureydə ibn əl-Huseybdən رضي الله عنه nəql olunur ki, Peyğəmbər ﷺ kimisə hər hansı bir orduya başçı təyin etdikdə ona izzət və cəlal sahibi Allahdan qorxmağı tövsiyə edərdi. Həmin hədisdə belə deyilir: **"Əgər cizyə vermək istəsələr, bunu onlardan qəbul et və onlardan əl çək".**[2]

Buna əsasən də kafirlərə qarşı iki məqsədlə vuruşulur: ya İslamı qəbul edirlər, ya da zəlil halda cizyə vergisi verirlər. Əgər heç birini etməsələr, müsəlmanlara vacibdir ki, onlara qarşı vuruşsunlar. Müsəlmanların onlara qarşı vuruşması həm onların, həm də kafirlərin Rəbbi olan Allahın əmridir. Bu müsəlmanların öz dinlərinin təəssübünü çəkməsinə görə deyil. Baxmayaraq ki, bu, izzət və cəlal sahibi Allahın dini olduğu üçün onlar buna

---

[1] "ət-Tövbə" surəsi, 29.

[2] "Səhih Muslim", 3261.

təəssübkeşlik edə bilərlər. Qeyri-müsəlmanların dini isə batildir və nəsx olunmuşdur. İzzət və cəlal sahibi Allah onlardan heç birini qəbul etmir. Uca Allah buyurur: **“Kim İslamdan başqa bir din arayarsa, *bilsin ki, o din* ondan əsla qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar”.**[1]

**“Əgər *aşkarda* bunları yerinə yetirsələr, İslam haqqı istisna olmaqla canlarını və mallarını məndən qorumuş olarlar. Onların *gizli əməllərinin* haqq-hesabı isə Allaha aiddir”.** Bu da dəlildir ki, kafirlərə qarşı vuruşduğumuz zaman onların malları bizlərə halal olur. Bizlər onların qanları ilə bərabər mallarını da halal görürük. Həmçinin onların qadınları və zürriyyətləri bizlərə – müsəlmanlara kölə olurlar. Bizlər onları izzət və cəlal sahibi Allahın kəlmələri, əmri, dini və şəriəti ilə götürürük.

Əbu Bəkr ﵁ zəkat verməyənlərə qarşı döyüşmüşdü. Hətta Ömər və digər səhabələr ﵃ *bu fikirdən daşındırmaq* üçün ona bu xüsusda müraciət də etmişdilər. Lakin Əbu Bəkr ﵁ zəkat verməyənlərə qarşı vuruşmaqda israr etmiş və: “Vallahi ki, onlar Rəsulullaha ﷺ verdikləri kiçik bir çəpişi, [başqa bir rəvayətdə “dəvənin bağlandığı kəndiri”] verməsələr, onlara qarşı vuruşacağam” demişdi. Bundan sonra Ömər: “Allahın Əbu Bəkrin qəlbini döyüşə yönəltdiyini gördükdə, bildim ki, bu, haqdır” dedi.[2]

Bu, namazın əhəmiyyətinə dəlildir. Həm də dəlildir ki, namaz qılmayanlara qarşı onlar qılanadək vuruşulur. Müvəffəq edən Allahdır.

١٠٧٧ – وعن معاذٍ ﵁ قال: بعَثني رسولُ اللَّهِ ﷺ إلى اليَمن فقال: «إِنَّكَ تأْتي قَوْمًا منْ أَهْلِ الكتاب، فَادْعُهُمْ إِلى شَهَادةِ أَنْ لا إِله إِلاَّ اللَّه، وأَنِّي رسولُ اللَّه، فَإِنْ هُمْ أَطاعُوا لِذلكَ، فَأَعْلِمهُم أَنَّ اللَّه تَعالى افْتَرَض عَلَيْهِمْ خمْسَ صَلَواتٍ في كلِّ يَوْمٍ ولَيْلَةٍ، فَإِنْ هُمْ أَطَاعُوا لِذلكَ، فأَعْلِمهُم أَنَّ اللَّه تَعَالى افْتَرَض علَيْهِمْ صَدقة تُؤْخَذُ مِنْ أَغْنِيائِهِم فَتُردُّ عَلى فُقَرائِهم، فَإِنْ هُمْ أَطَاعُوا لِذلَكَ، فَإِيَّاكَ وكَرائِم أَمْوالِهِم وَاتَّقِ دَعْوة المظْلُومِ، فَإِنَّهُ لَيْسَ بَيْنَهَا وبيْنَ اللَّهِ حِجَابٌ» متفقٌ عليه.

**1077.** Rəvayət olunur ki, Muaz ﵁ demişdir: “Rəsulullah ﷺ məni Yəmənə göndərdi və dedi: **“Sən Kitab əhlindən olan bir qövmün yanına**

---

[1] “Ali İmran” surəsi, 85.

[2] “Səhih əl-Buxari”, 1312; “Səhih Muslim”, 20.

**gedirsən. Onları Allahdan başqa *ibadətə haqqı olan* məbudun olmadığına və mənim Allahın elçisi olduğuma şəhadət verməyə dəvət et. Bu işdə sənə itaət etsələr, onlara bildir ki, uca Allah onlara hər gün və gecədə beş vaxt namazı fərz etmişdir. Əgər onlar buna da itaət etsələr, onlara bildir ki, uca Allah onların varlılarından götürülüb kasıblarına paylanılan sədəqəni (zəkatı) fərz buyurmuşdur. Əgər onlar buna da itaət etsələr, onda onların mallarının ən qiymətlisini götürməkdən çəkin və məzlumun bədduasından qorx. Çünki onunla Allah arasında heç bir pərdə yoxdur".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

**Şərh:**

Hafiz ən-Nəvəvi ﷺ namazları mühafizə etmək fəslində İbn Abbasın Muaz ibn Cəbəldən ﷺ nəql etdiyi hədisi zikr edir. Belə ki, Peyğəmbər onu Yəmənə göndərmişdir. Yəmən Ərəbistan yarımadasının cənubunda yerləşir. Peyğəmbər ﷺ hicrətin onuncu ilində Rabiul-əvvəl ayında onu göndərdikdə ona belə demişdir: **"Sən Kitab əhlindən olan bir qövmün yanına gedirsən".** "Kitab əhli" deyildikdə, yəhudi və nəsranilər nəzərdə tutulur. Belə ki, Allah yəhudilərə Tövratı, nəsranilərə isə İncili nazil etmişdir. Peyğəmbər ﷺ ona bu barədə xəbər verir ki, hazırlıqlı olsun. Çünki həmin vaxt Kitab əhli Allahın şəriəti barədə ən savadlı kəslər idi. Gərək insan onların halını bilsin ki, onlarla mücadilə edə bilsin.

**"Onları Allahdan başqa *ibadətə haqqı olan* məbudun olmadığına və mənim Allahın elçisi olduğuma şəhadət verməyə dəvət et"**.

Bu, İslamın açarıdır – "Allahdan başqa *ibadət haqqına malik* məbud yoxdur və Muhəmməd Onun rəsuludur" şəhadəti. Bu o demək deyil ki, rəsul yalnız odur. Ondan öncə də rəsullar olmuşdur: Musa, Hud, İsa və başqaları. Lakin Allahın elçisi Məhəmməd ﷺ peyğəmbərlərin sonuncusudur. Onun risaləti bütün şəriətləri hökmdən salmışdır. Ondan sonra peyğəmbər olmayacaq. Onun şəriətindən başqa doğru şəriət yoxdur.

**"Bu işdə sənə itaət etsələr, onlara bildir ki, uca Allah onlara hər gün və gecədə beş vaxt namazı fərz etmişdir".** Həmin namazlar da zöhr, əsr, məğrib, işa və sübh namazlarıdır. Cümə namazı isə zöhrü əvəz edir.

---

[1] Səhih əl-Buxari, 1496; Səhih Muslim, 19.

**“Əgər onlar buna da itaət etsələr, onlara bildir ki, uca Allah onların varlılarından götürülüb kasıblarına paylanılan sədəqəni (zəkatı) fərz buyurmuşdur”**. Buxaridən nəql olunmuş bir rəvayətdə “mallarında” sözü keçir. “Zənginlər”, “zəngin” sözünün cəmidir və zəkat nisabına malik olan şəxslərə deyilir. Zənginlik *meyarı* yerinə görə dəyişir. Zəkatın nisabı barədə zəkatın vacibliyi fəslində məlumat verilir. Zəkat əhli fəslində isə qeyd olunur ki, o, özü və ailəsi üçün bir il və daha çox müddətə tədarükü olan kəsə deyilir.

**“Əgər onlar buna da itaət etsələr, onda onların mallarının ən qiymətlisini götürməkdən çəkin”.** Yəni onların mal-dövlətinin yaxşısına toxunma. Sən orta vəziyyətdə olanı götür – nə sənə zülm olunmasın, nə də ki, zəkat götürənlərə (zəkatdan pay alanlara). Sən malın pisini götürsən, zəkat götürənlərə zülm etmiş olarsan, ən yaxşısını götürdükdə isə mal sahiblərinə. Ona görə orta olanı götür.

**“Məzlumun bədduasından qorx. Çünki onunla Allah arasında heç bir pərdə yoxdur”**. Yəni sən onların ən yaxşı malını götürsən, onlara zülm etmiş olarsan, onlar da sənə bəddua edər.

Məzlum adam kafir olsa belə, izzət və cəlal sahibi Allaha dua edir, Allah da onun duasına cavab verir. Məzlum olan kəs kafir olsa belə, Allaha dua edərsə, Allah gec-tez zalımdan onun üçün intiqam alır. Çünki bu ədalətdəndir. Nöqsansız və uca Allah da hikmətlilərin hikmətlisidir. Onun hökmünün də tamamı qulları arasında ədalətli olmasındadır – O, zalımdan haqqı alaraq məzluma verir.

Bu hədisdəki dəlil: **“Uca Allah onlara hər gün və gecədə beş vaxt namazı fərz etmişdir”.** Müvəffəq edən Allahdır.

١٠٧٨ – وعن جابرٍ ﵁ قال: سمعتُ رسولَ الله ﷺ يقولُ: « إِنَّ بَيْنَ الرَّجُلِ وَبَيْنَ الشِّرْكِ والكُفْرِ تَرْكَ الصَّلاةِ » رواه مسلم.

**1078.** Rəvayət olunur ki, Cabir ﵁ demişdir: “Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: **“İnsanla şirk və küfr arasında namazı tərk etmək durur”.**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[1] “Səhih Muslim”, 82.

١٠٧٩ – وعن بُرَيْدَةَ ﵁ عن النبيِّ ﷺ قال: « العهْدُ الذي بيْنَنا وبَيْنَهُمْ الصَّلاةُ، فمنْ تَرَكَهَا فَقدْ كَفَرَ » رواه الترمذي وقال: حديثٌ حسنٌ صحيحٌ.

**1079.** Bureydə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Bizimlə onların arasındakı fərq namazdır – kim onu tərk edərsə, küfr etmiş olur".**

Bu hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən-səhih hədisdir"– demişdir.[1]

١٠٨٠ – وعن شقِيق بنِ عبدِ اللَّهِ التابعيِّ المُتَّفَقِ على جَلالتهِ رَحِمهُ الله قال: كانَ أَصْحابُ مُحَمَّدٍ ﷺ لا يرونَ شَيْئاً مِنَ الأَعْمالِ تَرْكُهُ كُفْرٌ غَيْرَ الصَّلاةِ. رواه الترمذي في كتاب الإيمان بإِسنادٍ صحيحٍ.

**1080.** Mötəbərliyi barədə ittifaq edilmiş tabiin Şəqiq ibn Abdullah ﵀ demişdir: "Muhəmmədin ﷺ səhabələri namazdan savayı hər hansı bir əməlin tərk olunmasını küfr hesab etmirdilər".[2]

Hədisi Tirmizi "İman" kitabında səhih isnadla rəvayət emişdir.

**Şərh:**

Bu hədislər namazı tərk etməkdən çəkindirmə barəsindədir. Bunlar Cabir ﵁ və Bureydədən ﵁ nəql olunmuş hədislərdir.

Cabirdən nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"İnsanla şirk və küfr arasında namazı tərk etmək durur".**

Bureydənin hədisində isə: **"Bizimlə onların arasındakı fərq namazdır – kim onu tərk edərsə, küfr etmiş olur"**– deyilir.

Bu iki hədis dəlalət edir ki, namazı tərk edən kəs kafirdir. O, həm də İslam millətindən çıxaran küfrü etmiş olur. Namazı tərk edən kəs yəhudi və nəsranilərdən daha pisdir. Belə ki, yəhudi və nəsranilərin kəsdiyi heyvanların ətini yemək olar, namazı tərk edən kəsin kəsdiyi əti isə yemək halal deyil.

---

[1] "Musnəd İmam Əhməd", 5/346; "Sunən ət-Tirmizi", 2621; "Sunən ən-Nəsai", 463; "Sunən İbn Macə", 1079; "Səhih əl-Cami", 4143.

[2] "Sunən ət-Tirmizi", 2546.

Yaxud, məsələn, namazı tərk edən kəs qadındırsa, müsəlman olan kəs onunla evlənə bilməz. Ancaq müsəlman nəsrani, yaxud yəhudi qadınla evlənə bilər.

Namazı tərk edən kəs namazı tərk etməsində davamlı qala bilməz. Ona deyilir ki, namaz qıl, yoxsa sənə qarşı vuruşacağıq. Yəhudi və nəsranilər isə əhd bağlamaqla, aman diləməklə, yaxud zimmə əhli kimi öz dinində qala bilər. Bu da dəlalət edir ki, namazı tərk etmək yəhudi və nəsranilikdən daha betərdir. Bu elə bir şeydir ki, insanlar buna günümüzdə bir o qədər də önəm vermirlər.

Bilmək lazımdır ki, namazı tərk etmiş kəsin qadınla bağladığı nikah səhih sayılmır – həmin qadınla yaxınlıq edərsə, zina etmiş sayılır. Allah qorusun! Həmçinin namaz qıldığı dönəmdə nikah bağlayarsa, sonra da namazı tərk edərsə, onun nikahı pozulmuş olur. Gərək onunla qadını bir-birilərindən ayrılsınlar. Tövbə edib İslama qayıdarsa, nikahında qalır.

Yenə bilmək lazımdır ki, namazı tərk edən adam bu hal üzərində ölərsə, ona qüsl verilmir, kəfənlənmir, cənazə namazı da qılınmır. O, müsəlman məzarlığında dəfn olunmur, onun üçün rəhmət dilənmir, özü də Qiyamət günü Peyğəmbərin ﷺ şəfaətinə nail olmur.

Yaxşı, bəs onunla nə edək? Cəsədini çöldə qoyaq ki, heyvanlar gəlib gözümüzün önündə onu yesin? – Xeyr, bu onun yaxınlarının qəlbinin qırılmasına səbəb ola bilər. Onu çöllüyə aparıb orada bir çuxur qazaraq öz paltarında, qüslsüz, kəfənsiz, namazsız gömürük. Bu zaman ona heç bir ehtiram göstərilmir. Əgər bu onun ailəsinə pis təsir etməsəydi, deyərdik ki, qoyun elə çöldə qalsın, heyvanlar onu yesin, insanlar da bunu görsünlər. Lakin üfunətin və natəmizliyin qarşısını almaq üçün o gömülür. Qiyamət günü isə Peyğəmbərin ﷺ dediyi kimi: **"O, Firon, Haman, Qarun və Ubey ibn Xələflə birlikdə həşr olunacaqdır".**[1] Bunlar küfrün başçılarıdır. Allaha sığınırıq! Eləsi əsla Əbu Bəkr, Ömər, Osman və Əli (Allah onlardan razı olsun!) ilə həşr olunmayacaqdır.

Bununla bizə aydın olur ki, namazı tərk etmək böyük məsələdir. Kiminsə namaz qılmayan bir yaxını ölərsə, gərək onu müsəlmanların məscidlərindən uzaq tutsun. Onu namazının qılınması üçün müsəlmanlara təqdim etməməlidir. Axı o, bilir ki, həmin adam namaz qılmırdı. Əgər

[1] "Musnəd İmam Əhməd", 2/169.

bunu edərsə, müsəlmanlara haqsızlıq etmiş olar. Müsəlmanlar buna görə günah qazanmırlar, çünki onlar bilmirdilər. Uca Allah buyurur: **"Heç vaxt onlardan ölmüş bir kəsin *cənazə* namazını qılma, qəbrinin başında da durma. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər və günahkar olaraq öldülər".**[1]

Namaz qılmayan kəs Allah və Onun elçisinə qarşı küfr etmiş olur. O hətta desə ki, Allah mövcuddur, Muhəmməd də Onun elçisidir, bu kifayət etmir. Çünki münafiqlər də buna bənzər sözlər deyirlər: **"Münafiqlər sənin yanına gəldikləri zaman: "Biz şəhadət veririk ki, sən Allahın rəsulusan!"– deyirlər. Allah da bilir ki, sən Onun rəsulusan. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar".**[2]

Sonra da bil ki, namaz qılmayan bir yaxının ölərsə, əksər elm əhlinə görə, onun mirasından nəyisə götürmək sənə halal deyil. Çünki onun mirası müsəlman yaxınları üçün deyil. Həmçinin, namaz qılmayanın müsəlman bir qohumu ölərsə, onun da mirası ona (namaz qılmayana) halal deyil. Məsələn, ölən birisinin namaz qılmayan bir oğlu, namaz qılan da əmisi varsa, ona kim varis olur? Onun mirası əmisinə və əmisi oğluna çatır. Öz oğluna isə miras düşmür. Həmçinin, namaz qılmayan atası və namaz qılan əmisi olan varlı oğul ölərsə, bu vaxt onun malı kimə çatır – namaz qılmayan atasına, yoxsa namaz qılan əmisinə? – Malı əmisinə çatır. Peyğəmbər ﷺ bu xüsusda demişdir: **"Müsəlman kafirə varis olmur, kafir də müsəlmana varis olmur".**[3]

Quran, Sünnə və səhabələrin icması buna dəlalət edir. Elə Şəqiq ibn Abdullah ؓ da onlar barəsində belə demişdir: "Peyğəmbərin ﷺ səhabələri namazdan başqa hər hansı bir əməlin tərk olunmasını küfr hesab etmirdilər". ən-Nəvəvi ؓ bu adam barəsində: "Onun möhtərəm, etibarlı və ədalətli olması barədə ittifaq edilmişdir" demişdir.

Şeyx Əbdül-Əziz bin Bəz kimi çağdaş alimlərimizə görə, namazı tərk edən kəs insanı İslam millətindən çıxaran küfrü etmişdir – o, İslam dinindən çıxaraq mürtəd olur.

---

[1] "ət-Tövbə" surəsi, 84.
[2] "əl-Munafiqun" surəsi, 1.
[3] "Səhih əl-Buxari", 6383; "Səhih Muslim", 1614.

Əfsuslar olsun ki, bəzi insanlar bu məsələyə biganə yanaşırlar. Uca Allahdan diləyirik ki, bizləri xeyir və islah olan işlərə müvəffəq etsin.

١٠٨١– وعن أَبي هُرَيْرةَ ﷺ قالَ: قال رسولُ اللَّهِ ﷺ: «إِنَّ أَوَّل ما يُحاسبُ بِهِ العبْدُ يَوْم القِيامةِ منْ عَملِهِ صلاتُهُ، فَإِنْ صَلُحت، فَقَدْ أَفَلحَ وَأَنجح، وإِن فَسدتْ، فَقَدْ خَابَ وخَسِر، فَإِنِ انْتقَص مِنْ فِريضتِهِ شَيْئاً، قال الرَّبُّ، عَزَّ وجلَّ: انظُروا هَلْ لِعَبْدِي منْ تَطَوُّع، فَيُكَمَّلُ بِها ما انْتَقَص مِنَ الفَرِيضَةِ؟ ثُمَّ تكونُ سَائِرُ أَعمالِهِ عَلى هذا» رواه الترمذي وقال حديث حسن.

**1081.** Əbu Hureyra ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Qiyamət günü qulun ilk soruşulacağı əməl namazdır. Əgər namazı yerində olarsa, qul zəfər çalıb nicat tapar. Əgər yerində olmazsa, uduzub xəsarətə uğrayar. Əgər onun fərzlərində bir əksiklik olarsa, izzət və cəlal sahibi Allah buyurar: "Baxın, görün qulumun nafilə namazı varmı?" Beləcə, onun naqis olan fərzləri tamamlanar. Sonra onun digər əməlləri də bu minvalla *haqq-hesab* olar"**.

Bu hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişdir.[1]

**Şərh:**

Bu, "Fərz namazlarını qorumağın əmr edilməsi və onları tərk etməyin qadağan olması və buna görə şiddətli əzab vədi" fəslində sonuncu hədisdir. Həmin hədisdə deyilir ki, **"Qiyamət günü qulun ilk soruşulacağı əməl namazdır"**. Bu, izzət və cəlal sahibi Allahın haqqı ilə bağlıdır.

İnsanın ilk soruşulacağı əməl namazdır. **"Əgər namazları yerində olarsa, qul zəfər çalıb nicat tapar. Əgər yerində olmazsa, uduzub xəsarətə uğrayar"**. Allah qorusun!

Adəm övladlarının haqlarına gəlincə isə insanlar arasında ilk əvvəl axıdılan qanlar, yəni qətllərlə bağlı haqq-hesab olunacaq. Sonra isə başqa əməllər barədə soruşulacaq. İzzət və cəlal sahibi Allah öz qulunu namazla bağlı haqq-hesaba çəkdikdə namazları yerli-yerində olarsa, qul nicat tapar, əks halda məğlub olar. Sonra izzət və cəlal sahibi Allah əmr edir ki, onun

---

[1] "Sunən ət-Tirmizi", 413; "Səhih ət-Tərğib vət-Tərhib", 540; "Səhih əl-Cami", 2020.

əməllərinə baxılsın ki, onun nafilələri varmı. Həmin nafilələrlə onun əksik fərzləri tamamlanır. Bu səbəbdən Uca Allahın fəzilət, mərhəmət, nemət və etdiyi yaxşılıqdandır ki, *Öz elçisinin dili ilə* bizə fərz namazlarından əvvəl və sonra, habelə qadağan olunmuş vaxtlar istisna olmaqla, digər vaxtlarda nafilə namazları buyurmuşdur. Çünki insanın namazlarında əksikliklərin olması qaçılmazdır. Həmin əksikliklər isə nafilələrlə tamamlanır. Məsələn, zöhrdən öncə dörd, sonra isə iki rükət nafilə vardır. Öncəki dörd rükət iki-iki qılınır. Əsr namazının xüsusi nafiləsi olmasa da, onun üçün ümumi nafilə vardır. Peyğəmbər ﷺ demişdir: **“Hər bir azanla iqamə arasında namaz vardır”.**[1]

Məğrib namazından sonra iki rükət nafilə vardır. Namazdan öncə isə ümumi nafilə vardır. Məğribdən sonrakı nafilə iki rükətdir. İşa namazından sonra da iki rükət nafilə vardır. Fəcr namazından əvvəl də iki rükət nafilə vardır. Gecə namazı, vitr və duha namazları kimi nafilələrlə namaz qılan kəs böyük əcr qazanmış olur. Bununla həm də insanın fərz namazlarında olan nöqsanları da bu nafilələrlə tamamlanmış olur. Bu da izzət və cəlal sahibi Allah tərəfindən bir nemətdir. Allahdan diləyirik ki, bizləri və sizi Onu zikr etməyə, Ona şükür etməyə və Ona gözəl şəkildə ibadət etməyə müvəffəq etsin.

---

[1] “Səhih əl-Buxari”, 598; “Səhih Muslim”, 838.

# Yüz doxsan dördüncü fəsil

## Birinci sırada durmağın fəziləti, sıraların tamamlanması əmri, düz və sıx durmaq

**Mövzu ilə əlaqəli hədislər:**

١٠٨٢– عَـن جـابِرِ بْـنِ سـمُرةَ رضي الله عنهما قَـالَ: خَـرجَ عَلَيْنَـا رَسُـولُ اللَّهِ ﷺ فَقَـالَ: « أَلا تَصُفُّونَ كما تُصُفُّ الملائِكَةُ عِنْدَ رَبِّهَا؟ » فَقُلْنَا: يا رسُولَ اللَّهِ وَكَيْفَ تَصُفُّ الملائِكةُ عِند ربِّها؟ قال: « يُتِمُّونَ الصُّفوفَ الأُولَ، ويَتَراصُّونَ في الصفِّ» رواه مسلم.

**1082.** Cabir ibn Səmuradan رضي الله عنهما nəql olunan hədisdə o, demişdir: «Bir dəfə Peyğəmbər ﷺ bizim yanımıza gəlib dedi: **"Mələklər Rəbbinin yanında düzləndiyi kimi, sizlər də düzlənməyəcəksinizmi?"** Dedik: "Ey Allahın rəsulu, mələklər Rəbbinin yanında necə düzlənir?" Dedi: **"Öncəki sıraları tamamlayırlar, sıralarda da sıx-sıx dururlar".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٠٨٣– وعن أَبي هُريْرة، رضي الله عنه ، أَنَّ رَسُول اللَّه ﷺ قال: «لوْ يعلَمُ الناسُ ما في النِّدَاءِ وَالصَّفِّ الأَوَّلِ، ثُم لَمْ يجِدُوا إِلاَّ أَنْ يَسْتَهِمُوا عَلَيْهِ لاسْتَهمُوا » متفقٌ عليه.

**1083.** Əbu Hureyradan رضي الله عنه nəql olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"İnsanlar azanda və birinci sırada nə olduğunu bilsəydilər, bunun üçün püşk atmaqdan başqa bir yol tapmasaydılar belə, bunu edərdilər".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

**Şərh:**

Müəllif رحمه الله "**Birinci sırada durmağın fəziləti, sıraların tamamlanması əmri, düz və sıx durmaq"** fəslini qeyd edir.

---

[1] "Səhih Muslim", 651.

[2] "Səhih əl-Buxari", 588; "Səhih Muslim", 661.

Bunlar ayrı-ayrı məsələlərdir. Müəllif bunların hökmünü qeyd etdiyi hədislərlə bəyan etmişdir.

Bu fəsildə Cabir ibn Səmuradan ﵁ nəql olunan birinci hədisdə o, demişdir: "Bir dəfə Peyğəmbər ﷺ bizim yanımıza gəlib dedi: **"Mələklər Rəbbinin yanında düzləndiyi kimi, sizlər də düzlənməyəcəksinizmi?"**

Mələklərin müxtəlif ibadətləri vardır. Onlar Allaha ibadət etməyə təkəbbür göstərməz, bundan bezməz, gecə-gündüz usanmadan Allahı zikr edərlər. Uca Allahın bu ayəsi haqqında bir düşün: **"Onlar gecə-gündüz, usanmadan *Onun* şəninə təriflər deyirlər".**[1] Uca Allah bu ayədə "gecədə və gündüzdə Onun şəninə təriflər deyirlər" demir, çünki onlar bütün vaxtlarını zikrə və tərifə həsr edirlər – **"onlar gecə-gündüz, usanmadan Onun şəninə təriflər deyirlər"**.

Mələklərin Allah yanındakı ibadətlərindən biri də onların Rəbbi qarşısında sıra-sıra durmalarıdır. Uca Allah buyurur: **"Həqiqətən, biz səf-səf dururuq. Həqiqətən, biz *Allahın şəninə* təriflər deyirik".**[2] Bəs onların sıraları necədir? Peyğəmbər ﷺ demişdir: **"Öncəki sıraları tamamlayırlar, sıralarda da sıx-sıx dururlar"**. Deməli, biz də Allahın önündə düzləndiyimiz zaman gərək sıralarımız mələklərin sıralarına bənzəsin – onlar öncəki sıraları tamamlayırlar, sıralarda da sıx-sıx dururlar.

"Sıra-sıra *durmaq*" həm də izzət və cəlal sahibi Allahın mələklərinin sünnəsi, insanların da buna can atmalı olduğu məsələlərdəndir. Çünki Əbu Hureyranın ﵁ hədisində Peyğəmbər ﷺ demişdir: **"İnsanlar azanda və birinci sırada nə olduğunu bilsəydilər, bunun üçün püşk atmaqdan başqa bir yol tapmasaydılar belə, bunu edərdilər".** Yəni insanlar birinci sırada namaz qılmağın fəzilətini bilsəydilər və bunun üçün püşk atmaqdan başqa bir yol tapmasaydılar, bunu edərdilər. Bu həm birinci sıranın fəzilətinə dəlalət edir, həm də sıraların sıx olmasının daha əfzəl olmasına, habelə sıraların bir-bir tamamlanmasının gərəkliliyinə dəlalət edir.

İnsan gərək bu üç məsələyə diqqət yetirsin:

Birincisi, ön sıra dolmayınca arxadakı sırada dayanmamaq – sıralar bir-bir dolmalıdır.

---

[1] "əl-Ənbiya" surəsi, 20.

[2] "əs-Saffat" surəsi, 165-166.

İkincisi, namazda sıx-sıx dayanmalı, yəni topuqlarını və çiyinlərini birləşdirməlidirlər. Bəs onlar topuq və çiyinlərini birləşdirmədikdə nə baş verdiyini bilirsinizmi? – Şeytanlar onların arasına daxil olur. Yəni kiçik quzular kimi daxil olur və sonra da onların namazlarına mane olur. Onlar sıx dayandıqda isə şeytanlara yer qalmır.

Bu məsələ ilə əlaqəli digər bəzi məsələlərə də diqqət etmək lazımdır:

*Birinci məsələ.* Sıx durmaq deyildikdə başqalarına mane olacaq, onları narahat edəcək dərəcədə sıxlaşmaq nəzərdə tutulmur və bu icazəli deyil. Sıxlaşmaqdan məqsəd budur ki, səninlə onun arasında məsafə qalmasın. Sıxlaşmaq dedikdə sıxlaşaraq qardaşına əziyyət və narahatçılıq verməyin nəzərdə tutulmur.

*İkinci məsələ* – birinci sıra *məsələsi*: **“bunun üçün püşk atmaqdan başqa bir yol tapmasaydılar belə, bunu edərdilər”**.

Birinci sıraya dəsmal, kitab və ya başqa bir şey qoymaq, yaxud da müəyyən yerə daş yerləşdirməklə *yeri zəbt etmək* icazəli deyil. Eşitdiyimə görə, bəziləri cümə namazına erkən gəlir, ön sırada boş yerlərin olduğunu görüb orada namaz qılır. Sonra da adətən həmin yerdə namaz qılan birisi gəlir və sanki həmin yeri satın alıbmış kimi, başqasının orada ondan öncə namaz qıldığını görüb deyir ki, bu yerdən nə istəyirsən? Adam da deyir ki, mən sənin yerində deyiləm axı, sadəcə boş yer tapıb oturdum. O da deyir ki, yox, bu yer mənimdir, mən adətən burada otururam, mən öz əşyamı bura qoymuşam.

Sübhanallah, axı bu necə ola bilər?! Məscidlər izzət və cəlal sahibi Allaha məxsusdur – kim əvvəl gəlirsə, o daha haqlıdır. Heç kim müəyyən bir yerə daha haqlı deyil. Gərək insan buna bənzər əməllərdən çəkinsin. Şeyximiz Abdur-Rahmən bin Sədi demişdir: “Yer tutmaq haramdır və caiz deyil”.

Bəzi fiqh alimləri demişlər ki, həmin adamın namazı qəbul olunmaya bilər, çünki həmin yer qəsb olunmuş kimidir. Belə ki, o, haqqı olmadığı yerdə oturmuşdur.

Məscidə daha öncə gələn məkandan istifadə etməyə də daha haqlıdır. Əgər fitnə baş verəcəyindən qorxmasaydım, yerlərə əşya qoyanların əşyalarını toplayıb küçəyə atardım. Mən yalnız fitnənin, nifrət və kinin baş verə biləcəyindən qorxuram. Bizim buna ehtiyacımız yoxdur.

Peyğəmbərin ﷺ: **"püşk atmaqdan başqa bir yol tapmasaydılar belə, bunu edərdilər"**. Yəni onlar tələsər, bunun üçün yarışardılar. Üstəlik məkana əşya qoymaqla yer tutması insanın özünə zərərdir. Adam arxayınlaşır ki, mənim zəmanətli yerim var, sonra da gecikərək həmin xeyirdən məhrum olur ki, yer tutumuşam.

Bəli, əgər məscidə gəlib sonra birinci sıradan uzaqlaşaraq Quran oxumaq, təkrarlamaq, namaz qılmaq və ya yatmaq istəyərsə, bunda bir qəbahət yoxdur. Çünki o, buna layiqdir. Lakin o, sıralar sıxlaşanadək yerinə qayıtmalıdır ki, başqalarının üzərindən adlayıb keçməsin. Bir dəfə Peyğəmbər ﷺ bir nəfərin başqalarının üzərindən adlayıb keçdiyini görüb, ona dedi: **"Otur, insanlara əziyyət verirsən"**.[1]

Bu fəsildə Əbu Hureyradan رضي الله عنه nəql olunmuş ikinci hədis püşk atmağın caizliyinə dəlildir. Məsələn, iki nəfər azan verməkdən ötrü püşk atır. Onlardan biri deyir ki, mən azan verəcəyəm, digəri isə deyir ki, yox mən verəcəyəm. Əslində isə onların heç biri qanuni müəzzin deyillər. Bu zaman onların arasında püşk atılır – kimin adı çıxarsa, o da azan verir.

Əfsuslar olsun ki, indi bir toplum səfərdə olarkən hər kəs bir başqasına deyir ki, sən azan ver, sən azan ver. Əgər onlar bilsəydi ki, azanda nə qədər xeyir var – onun səsini eşidən hər bir ağac, əşya və daş Qiyamət günü bu barədə onun lehinə şahidlik edəcək. Elə isə, belə bir qəniməti necə tərk etmək olar? Axı buna tələsmək lazımdır. Bu adamlardan hər ikisi, yəni həm başqasının azan verməsini istəyən, həm də *haqqı ola-ola* birinci sırada durmayan səhv edir. Tutaq ki, o bunu qarşı tərəf hirslənməsin deyə belə edir. Axı niyə? Onun özü də Sünnəyə riayət etməlidir axı. Yox, əgər buna təkəbbürlük edərsə, günah qazanmış olur.

**Vacib bir qeyd.** Bəzən görürsən ki, bəzi qardaşlar sırada ayaqlarını həddən artıq aralı tutaraq yanındakı adamın ayağına birləşdirir, çiyinləri isə aralı (toxunulmaz) qalır, özü də bunu sünnə hesab edir. Əslində bu səhvdir və sünnə deyil. Səhabələr رضي الله عنهم sırada sıx-sıx durarkən çiyinlərini və ayaqlarını birləşdirərdilər. Yəni, sıxlaşmaq o demək deyil ki, ayaqlarını birləşdirəsən, çiyinlərin isə aralı olsun (toxunulmaz qalsın).

Uca Allahdan diləyirik ki, bizləri xeyirə müvəffəq etsin və bizləri xeyirli işlərdə yarışanlardan etsin. Şübhəsiz ki, O, hər şeyə qadirdir.

---

[1] "Mustədrək əl-Hakim", 1/424.

١٠٨٤– وعَنْـهُ قَـالَ: قَـالَ رسُـولُ اللهِ ﷺ: «خَيْرُ صُـفوفِ الرِّجـالِ أَوَّلُهَـا، وشـرُّها آخِرُهَـا وخيْرُ صُفوفِ النِّسَاءِ آخِرُها، وَشرُّهَا أَوَّلُهَا» رواه مسلم.

**1084.** Yenə Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kişilərin ən xeyirli sıraları birincisi, ən pisi isə sonuncusudur. Qadınların isə ən xeyirli sırası axırıncısı, ən pisi isə əvvəlincisidir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٠٨٥– وعـن أبي سـعِيد الخُـدْرِيّ ﷺ، أَنَّ رسُـول اللَّهِ ﷺ: رأَى في أَصْحابِهِ تـأَخُّراً، فقَـالَ لَهُمْ: «تقـدَّمُوا فـأَتمُّوا بِي، وَليَـأْتَمَّ بِكُمْ مَنْ بَعْـدَكُم، لا يـزالُ قَـوْمٌ يَتَـأَخَّرُونَ حَتى يُوخِّرَهُمُ اللَّه» رواه مسلم.

**1085.** Əbu Səid əl-Xudridən ﷺ nəql olunan hədisdə Peyğəmbər ﷺ səhabələrinin arxada durduqlarını görüb onlara belə dedi: **"Qabağa gəlin və mənə doğru sıraları tamamlayın. Sizdən sonra da arxadakılar tamamlasınlar. İnsanlar geridə durduqca, Allah da onlardan uzaqlaşar".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٠٨٦– وعن أَبي مسعودٍ ﷺ، قال: كانَ رسولُ اللَّهِ ﷺ يَمْسحُ مَناكِبَنَا في الصَّلاةِ، ويقُولُ: «اسْتوُوا ولا تَختلِفوا فتَخْتَلِفَ قُلُوبُكُمْ، لِيلِيني مِنْكُم أُولُوا الأَحْلامِ والنُّهَى، ثمَّ الـذينَ يلُونَهمْ، ثُمَّ الذِين يَلُونَهمْ» رواه مسلم.

**1086.** Əbu Məsuddan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ namazda bizim çiyinlərimizə toxunub deyərdi: **"Düzlənin, ixtilaf etməyin ki, qəlbləriniz də ixtilafa düşməsin. Mənim arxamda yetkin və böyüklər dayansın, sonra başqaları, sonra da başqaları".**

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

١٠٨٧– وعـن أَنـسٍ ﷺ قـال: قـال رسُـولُ اللَّهِ ﷺ: «سَـوُّوا صُـفُوفَكُمْ، فَـإِنَّ تَسْـوِيَةَ الصَّفِّ مِنْ تَمامِ الصَّلاةِ» متفقٌ عليه.

وفي رواية البخاري: «فإنَّ تَسوِيَةَ الصُّفُوفِ مِن إِقَامة الصَّلاةِ».

---

[1] "Səhih Muslim", 664.
[2] "Səhih Muslim", 662.
[3] "Səhih Muslim", 654.

**1087.** Rəvayət olunur ki, Ənəs ﷺ demişdir: «Rəsulullah ﷺ demişdir: **"Sıralarınızı düzəldin! Şübhəsiz ki, sıraların düzgünlüyü namazın kamilliyindəndir"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Buxarinin rəvayətində isə belədir: **"Şübhəsiz ki, sıraların düzgünlüyü namazın qılınmasındandır".**[2]

**Şərh:**

Hafiz ən-Nəvəvi ﷺ bu hədisləri **"Birinci sırada durmağın fəziləti, sıraların tamamlanması əmri, düz və sıx durmaq"** fəslində qeyd edir. Həmin hədislərdən birində Əbu Hureyradan ﷺ ondan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kişilərin ən xeyirli sıraları birincisi, ən pisi isə sonuncusudur. Qadınların isə ən xeyirli sırası axırıncısı, ən pisi isə əvvəlincisidir".**

Qadınların sıraları kişilərin arxasında yerləşir. Sünnəyə görə belədir. Qadınların sıralarının birincisi kişilərə daha yaxın olduğu üçün ən şərlisi, sonuncusu isə kişilərdən uzaq olduğu üçün ən xeyirlisi hesab olunur. Kişilər isə nə qədər öndə olsalar, onlar üçün bir o qədər fəzilətlidir. Peyğəmbər ﷺ insanları arxada durmaqdan çəkindirərək demişdir: **"İnsanlar geridə durduqca, Allah da onlardan uzaqlaşar"**.

Bu da təhlükəli məsələdir. İnsan birinci, ikinci, üçüncü, dördüncü sıralara doğru arxada durduqca, Allah onun qəlbinə yaxşı əməllərdən uzaqlaşma istəyi verir. Allah qorusun! Ona görə də buyurur ki: **"İnsanlar geridə durduqca, Allah da onlardan uzaqlaşar"**. Ona görə, qardaşım, çalış, öndə dayanasan.

Hədisdə həmçinin: "**Qadınların isə ən xeyirli sırası axırıncısı, ən pisi isə əvvəlincisidir**"– deyilir. Qadınlar namazı özlərinə xas məkanda qıldıqda isə belə deyil. Bu zaman ilk sırada durmaları daha xeyirlidir. Çünki bu zaman imama daha yaxın olurlar və buna aid heç bir qadağa yoxdur.

Müəllif daha sonra qeyd edir ki, Peyğəmbər ﷺ səhabələrin çiyinlərini birləşdirər və deyərdi: "**Düzlənin, ixtilaf etməyin ki, qəlbləriniz də**

[1] "Səhih əl-Buxari", 681; "Səhih Muslim", 656.

[2] "Səhih əl-Buxari", ٧٢٣.

**ixtilafa düşməsin**". Yəni insanların bəzisi öndə, bəziləri də arxada durduqda, onların qəlbləri də ixtilafda olur.

Sonuncu hədisdə isə Peyğəmbər ﷺ sıraları düzəltməyi əmr edərək demişdir: **"Şübhəsiz ki, sıraların düzgünlüyü namazın kamilliyindəndir".** Başqa bir rəvayətdə isə: **"Şübhəsiz ki, sıraların düzgünlüyü namazın qılınmasındandır"**– deyilir. Odur ki, biz gərək sıralarımızı düz tutaq, gərək sıralarımızı önə doğru tamamlayaq, özümüz də sıx-sıx dayanaq ki, namazımız kamil olsun.

**Mülahizə.** Bir məsələni də qeyd etmək istəyirəm ki, insanlar əvvəllər edilməyən bir əməli edirlər – namazın salamını verən kimi, önə keçərək qardaşlarına arxa çevirirlər. Qorxuram ki, Peyğəmbərin ﷺ: **"Bir-birinizə arxa çevirməyin!"** sözü onlara da şamil olunsun. Adamlar bununla bağlı mənə şikayət edirlər ki, bəziləri bizimlə bərabər namaz qıldıqdan sonra bizə arxa çevirirlər. Yəni arxalarını bizə tərəf çevirirlər. Axı niyə? Buna ehtiyac varmı? Əgər dərs varsa və o, dərsə qulaq asmaq istəyirsə, problem yoxdur. Yox, əgər məsələn, desə ki, mən sıxılıram, ona deyirik ki, qalx və sıradan uzaqlaş. Ya qiblə tərəfə, ya da arxaya get ki, arxanı müsəlman qardaşına çevirməyəsən.

Mən, daha doğrusunu Allah bilir, *belə* hiss edirəm ki, insan *sırada* başqalarından önə çıxdıqda, onlardan daha üstün olduğunu, başqalarının isə geridə olduğunu düşünür. Qorxuram ki, şeytan onunla bu məsələdə oynaya. Düşünürəm ki, bu əməl, qeyd olunan hədisdəki qadağaya aiddir. Kim salamdan sonra qardaşlarından önə çıxırsa, qorxuram ki, qəlbi də onlarla ixtilafa düşsün. Buna görə də belə edənlərə nəsihətim budur ki, həmin əmələ son qoysunlar. Müvəffəq edən Allahdır.

١٠٨٨– وعَنْهُ قال: أُقِيمَتِ الصَّلاةُ، فأَقبَل عَلينَا رسُولُ اللَّهِ ﷺ بِوَجْهِهِ فقَالَ: «أَقِيمُوا صُفُوفَكُمْ وتَراصُّوا، فَإِنِّي أَراكُمْ مِنْ وَرَاءِ ظَهْرِي » رواهُ البُخَارِيُّ بِلَفْظِهِ، ومُسْلِمٌ بمعْنَاهُ.

وفي رِوَايةٍ للبُخَارِيِّ: وكَانَ أَحدُنَا يَلْزَقُ مَنكِبَهُ بِمنْكِبِ صاحِبِهِ وقَدَمِه بِقَدمِهِ ».

**1088.** Yenə Ənəsdən رضي الله عنه rəvayət olunur ki, o, demişdir: «Namazın iqaməsi verildi və Rəsulullah ﷺ üzünü bizə tərəf çevirib dedi: **"Sıralarınızı düzəldin və sıx-sıx dayanın, mən sizi arxamdan görürəm"**».

Hədisi Buxari bu ləfzlə nəql etmişdir.[1] Muslim də bu mənada hədis rəvayət etmişdir.

Buxarinin bir rəvayətində isə: "Biz çiynimizi və ayağımızı yanımızdakının çiyninə və ayağına birləşdirərdik"– deyilir.[2]

١٠٨٩– وَعَنِ النُّعْمَانِ بنِ بشيرٍ، رضي الله عنهما، قال: سمعتُ رسولَ الله ﷺ يقولُ: « لَتُسَوُّنَّ صُفُوفَكُمْ، أَوْ ليُخَالِفَنَّ اللَّه بَيْنَ وجُوهِكُمْ » متفقٌ عليه.

وفي روايةٍ لمسلمٍ: أَنَّ رسولَ اللَّه ﷺ كانَ يُسَوِّي صُفُوفَنَا، حتَّى كأَنَّما يُسَوّي بها القِدَاحَ، حَتَّى رَأَى أنَّا قَد عَقَلْنَا عَنْهُ. ثُمَّ خَرَج يَوْماً فَقَامَ حَتَّى كَادَ يُكَبِّرُ، فَرَأَى رجُلا بَادِياً صدْرُهُ مِنَ الصَّفِّ فقالَ: « عِبَادَ اللهِ، لَتُسَوُّنَّ صُفُوفكُمْ، أَوْ لَيُخَالِفَنَّ الله بيْنَ وجُوهكُمْ».

**1089.** Rəvayət olunur ki, Noman ibn Bəşir رضي الله عنهما demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Ya sıralarınızı düzəldəcəksiniz, ya da Allah üzlərinizi bir-birinə müxalif edəcək"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

Muslimin rəvayəti isə belədir: "Rəsulullah ﷺ bizim sıralarımızı sanki qədəhləri düzəldirmiş kimi düzəldərdi. Hətta bizim bunu etdiyimizi görənə kimi *gözlərdi*. Bir dəfə o, önə çıxıb təkbir gətirhagətirdə birisinin sinəsini daha önə çıxardığını görüb dedi: **"Ey Allahın qulları, ya sıralarınızı düzəldəcəksiniz, ya da Allah üzlərinizi bir-birinə müxalif edəcək".**[4]

**Şərh:**

Bu hədislər sıraların düzəlməsi, buna təşviq və buna aid məsələlərlə bağlıdır. Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ sıraları düzəldər, üzünü insanlara tərəf çevirib deyərdi: **"Sıralarınızı düzəldin və sıx-sıx dayanın, mən sizi arxamdan görürəm".** Bu, Peyğəmbərin ﷺ xüsusi bir halda insanları arxadan görməsini göstərir. Başqa hallarda isə o, insanlarla eynidir, başqalarını arxadan görmür.

---

[1] "Səhih əl-Buxari", 687.
[2] "Səhih əl-Buxari", 683.
[3] "Səhih əl-Buxari", 676; "Səhih Muslim", 659.
[4] "Səhih Muslim", 660.

Nomən ibn Bəşirdən ﷺ nəql olunmuş hədisdə Peyğəmbər ﷺ xəbər vermişdir ki, insanlar ya sıralarını düzəldəcək, ya da Allah onlardan üz döndərəcəkdir. O ﷺ demişdir: **"Ey Allahın qulları, ya sıralarınızı düzəldəcəksiniz, ya da Allah sizdən üz döndərəcək".**

Alimlər **"üzləriniz arasına"** sözü barəsində ixtilaf etmişlər. Bəziləri demişlər ki, Uca Allah onların üzlərini arxaya tərəf edəcək, beləcə boyunları büküləcəkdir. "**Üzləriniz arasına"** sözünə belə bir məna da verilmişdir: "Yəni, qeyd olunan **"İxtilaf etməyin ki, qəlbləriniz də ixtilafa düşməsin"** hədisi mənasındadır". Bu məna daha səhih və daha racihdir. Məlum məsələdir ki, zahirin ixtilafı batinin də ixtilafına gətirib çıxarır. Qəlblər ixtilaf etdikdə isə şər və fəsad yayılmış olur. Allah qorusun!

Bu fəslin xülasəsi odur ki, bizlər sıraların aşağıda sadalandığı kimi düz tutulmasına əmr olunmuşuq:

Birinci: Hər kəs yanaşı durmaqla sıralar düz olmalı, heç kim digərindən önə çıxmamalıdır. Buna görə də səhabələr topuq və çiyinlərini bir-birilərinə birləşdirərdilər. Bu da bəzilərinin çiyinlərini uzaq tutub ayaqlarını çox aralamaqla başqalarına birləşdirənlərin əməllərinin doğru olmadığını göstərir – bu, bidətdir. Sünnə odur ki, bizlər sıx-sıx dayanaq, topuqlarımızı və çiyinlərimizi yanımızdakı adamların topuq və çiyinlərinə birləşdirək, ayaqlarımızı da həddən ziyadə aralamadan təbii halında saxlayaq.

İkinci: Sıralar bir-bir tamamlanmalıdır, yəni birinci sıra tamamlanmadan ikinci sırada durulmur. Yaxud ikinci sıra dolmamış, üçüncüdə durulmur. Və ya üçüncü sıra dolmadan dördüncüdə durulmur və beləcə.

Üçüncü: Əgər kişilər və qadınlar eyni məkanda namaz qılırlarsa, yaxşı olar ki, qadınlar kişilərdən uzaqda dursunlar. Belə ki, qadınların ən xeyirli sırası sonuncu, ən şərlisi isə birincidir.

Dördüncü: Araları doldurmaqla şeytanların aralara girməsinə yer qoymuruq. Çünki şeytanlar Adəm oğullarına nöqsansız və uca Allah tərəfindən bəla və imtahan olaraq yaxınlaşırlar – sıralarda ara tapdıqda oraya daxil olurlar ki, namaz qılanlara vəsvəsələr versinlər.

Beşinci: Üç nəfər olduqda onlardan biri öndə imam durur, iki nəfər isə onun arxasında dayanır. Fərqi yoxdur, həmin iki nəfər həddi-büluğa çatmış da ola bilər, azyaşlı da. Yaxud biri həddi-büluğa çatmış, digəri isə

azyaşlı ola bilər. Yalnız onlar arasında hər hansı bir fərqin olmasına dəlilin olması istisnadır. Müvəffəq edən Allahdır.

١٠٩٠– وعنِ البَرَاءِ بنِ عازِبٍ، رضي الله عنهما، قال: كانَ رسولُ الله ﷺ، يَتخلَّلُ الصَّفَّ مِنْ نَاحِيَةٍ إِلى نَاحِيَةٍ، يَمسَحُ صُدُورَنَا، وَمَناكِبَنَا، ويقولُ: لا تَخْتَلِفُوا فتَخْتَلِفَ قُلُوبُكُمْ » وكَانَ يَقُولُ: إن اللَّه وَمَلائِكَتَهُ يُصَلُّونَ على الصُّفُوفِ الأُوَلِ » رواه أبو داود بإِسناد حَسَنٍ.

**1090.** Bəra ibn Azibdən رضي الله عنهما rəvayət olunur ki, o demişdir: «Peyğəmbər ﷺ sıraları bir-bir düzəldər, əlini sinəmizə, çiynimizə toxundurar və deyərdi: **"İxtilaf etməyin ki, qəlbləriniz də ixtilafa düşməsin"**». O həmçinin deyərdi: **"Şübhəsiz ki, Allah və Onun mələkləri birinci sıraya salam verərlər".**

Hədisi Əbu Davud həsən isnadla rəvayət etmişdir.[1]

١٠٩١– وعَن ابن عُمرَ رضي الله عنهما، أَنَّ رسولَ اللَّهِ ﷺ قال: «أَقِيمُوا الصُّفُوفَ وَحَاذُوا بَينَ المَنَاكِب، وسُدُّوا الخَلَلَ، وَلِينُوا بِأَيْدِي إِخْوَانِكُمْ، وَلا تَذَرُوا فَرُجَاتٍ للشَّيْطانِ، ومَنْ وصَلَ صَفًّا وَصَلَهُ اللَّه، وَمَنْ قَطَعَ صَفًّا قَطَعهُ اللَّه » رواه أبو داود بإِسناد صحيحٍ.

**1090.** İbn Ömərdən رضي الله عنهما rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Sıraları düzəldin, çiyinlərinizi bərabər tutun, araları doldurun. Qardaşlarınızla yumşaq davranın, aranızda şeytana yer buraxmayın. Kim sıraları birləşdirərsə, Allah da onu birləşdirər, kim də sıranı kəsərsə, Allah da onu kəsər"**.

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[2]

١٠٩٢– وعَنْ أَنسٍ رضي الله عنه أَنَّ رسولَ اللَّهِ ﷺ قال: « رُصُّوا صُفُوفَكُمْ، وَقَارِبُوا بَيْنَهَا، وحاذُوا بالأَعْناق، فَوَالَّذِي نَفْسِي بيَدِهِ إِنِّي لأَرَى الشَّيْطَانَ يَدْخُلُ منْ خَلَلِ الصَّفِّ، كأَنَّها الحَذَفُ » حديث صحيح رواه أبو داود بإِسناد على شرط مسلم.

« الحذَفُ » بحاءٍ مهملةٍ وذالٍ معجم مفتوحتين ثم فاءٌ وهي: غَنَمٌ سُودٌ صغارٌ تَكُونُ بِالْيَمنِ.

---

[1] "Sunən Əbu Davud", 568.

[2] "Musnəd İmam Əhməd", 2/97; "Sunən Əbu Davud", 570; "Sunən ən-Nəsai", 810.

**1092.** Ənəsdən رضي الله عنه rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Sıralarınızı sıx tutun, onları yaxınlaşdırın, boyunlarınızı da düz tutun. Canım əlimdə olan Allaha and olsun ki, mən şeytanın sıralarınıza qara qoyun kimi daxil olduğunu görürəm".**

Hədis səhihdir. Əbu Davud onu Muslimin şərtinə isnad edərək nəql etmişdir.[1]

Hədisin ərəbcəsində keçən "həzəf" sözü "kiçik qara quzular"dır.

**Şərh:**

Bu hədislər "Birinci sırada durmağın fəziləti, sıraların tamamlanması əmri, düz və sıx durmaq" fəslini davam etdirir. Onlar birinci sırada durmağın fəzilətini, sıraları bir-bir düzəltməyin əhəmiyyətini əhatə edir. Bu hədislər həm də bəzi məsələlərə də dəlildir:

Birinci: Peyğəmbər ﷺ sıraları düzəltmək üçün əlini səhabələrin sinələrinə və çiyinlərinə toxundurar və deyərdi: **"İxtilaf etməyin ki, qəlbləriniz də ixtilafa düşməsin".**

İkinci: Sıraları əlləri ilə düzəltmək Peyğəmbərin ﷺ adətindən idi.

Möminlərin əmiri Ömər ibn əl-Xəttabın رضي الله عنه və Osmanın رضي الله عنه zamanında insanlar çoxaldıqda xəlifə tərəfindən təyin olunmuş müəyyən adamlar var idi ki, onlar sıraları düzəldərdilər. Onlar imama dedikdə ki, sıralar düzdür, imam təkbir edib namaza başlayardı. Bu da Peyğəmbərin ﷺ və raşidi xəlifələrin sıralara, onların sıx olmasına, bərabərliyinə, şeytana yer verilməməsinə nə qədər önəm verdiklərinə dəlildir. Belə edərdilər ki, namaz kamil olsun – sıraların düzgünlüyü namazın kamilliyindən və ya namazın qılınmasındandır. Müvəffəq edən Allahdır.

١٠٩٣– وعنهُ أَنَّ رسولَ اللهِ ﷺ قال: « أَتمُّوا الصَّفَّ المقدَّمَ، ثُمَّ الَّذي يلِيهِ، فَمَا كَانَ مَنْ نقْصٍ فَلْيَكُنْ فِي الصَّفِّ المُؤَخَّرِ » رواه أبو داود بإسناد حسن.

**1093.** Yenə Ənəsdən رضي الله عنه nəql olunur ki, Allahın elçisi ﷺ demişdir: **"Öndəki sıranı tamamlayın, sonra ondan sonra gələni. Əgər naqislik varsa, qoy sonuncu sırada olsun".**

---

[1] "Sunən Əbu Davud", 571.

Hədisi Əbu Davud həsən isnadla rəvayət etmişdir.[1]

١٠٩٤– وعن عائشة رضي الله عنها قالت: قال رسول الله ﷺ: « إِنَّ اللَّه وملائِكَتَهُ يُصلُّونَ على ميامِنِ الصُّفوف » رواه أبو داود بإِسناد عَلى شرْطِ مُسْلِمٍ، وفيهِ رجلٌ مُخْتَلَفٌ في توْثِيقِهِ.

**1094.** Aişədən ﵂ rəvayət olunur ki, o demişdir: «Allahın elçisi ﷺ demişdir: **"Şübhəsiz ki, Allah və Onun mələkləri sıraların sağ tərəfinə salavat deyir"**».

Əbu Davud bu hədisi Muslimin şərtinə uyğun isnadla rəvayət etmişdir. Həmin hədisdə etibarlılığı barədə ixtilaf olan bir ravi vardır.[2]

١٠٩٥– وعَنِ البراءِ رضي الله عنه قال: « كُنَّا إِذا صَلَّينَا خَلْفَ رسولِ اللَّه ﷺ أَحْبَبْنَا أَنْ نَكُونَ عَنْ يَمِينِهِ، يُقبِلُ علَينا بِوَجْهِهِ، فَسمِعْتُهُ يقول: « رَبِّ قِنِي عذَابَكَ يَوْمَ تَبْعَثُ أَوْ تَجْمَعُ عبَادَكَ » رواه مسلم.

**1095.** Rəvayət olunur ki, Bəra ﵁ demişdir: «Biz Rəsulullahın ﷺ arxasında namaz qıldıqda sağ tərəfdə olmağı sevərdik. O da üzünü bizə tərəf çevirərdi. Mən onun belə dediyini eşitmişəm: **"Ey Rəbbim qullarını dirildib toplayacağın gün məni əzabdan qoru"**».

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

١٠٩٦– وعَنْ أَبي هُريرَةَ رضي الله عنه ، قالَ: قالَ رسولُ اللَّهِ ﷺ: «وسِّطُوا الإِمامَ، وَسُدُّوا الخَلَلَ » رواه أبو داود.

**1096.** Əbu Hureyradan ﵁ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"İmam ortada dayansın, aranızdakı əyrilikləri düzəldin".**

Bu hədisi Əbu Davud rəvayət etmişdir.[4]

**Şərh:**

Bu hədislərlə "Birinci sırada durmağın fəziləti..." fəsli yekunlaşır.

---

1 "Musnəd İmam Əhməd", 3/132; "Sunən Əbu Davud", 574; "Sunən ən-Nəsai", 809.
2 "Sunən Əbu Davud", 578.
3 "Səhih Muslim", 1159.
4 "Sunən Əbu Davud", 583.

Bir qədər öncə qeyd etdik ki, Peyğəmbər ﷺ sıraların bir-bir doldurulmasını əmr etmişdir. Müəllifin رحمه الله bu fəsildə qeyd etdiyi və Ənəs ibn Malikdən رضي الله عنه rəvayət olunan hədisdə deyilir ki, Peyğəmbər ﷺ əmr etmişdir ki, *ilk olaraq* öndəki sıraları dolduraq, naqislik isə son sırada olsun. Yəni ön sıralar tədricən doldurulur, yarımçıq qalan sıra isə sonuncu olur. Bu o deməkdir ki, kim birinci sıra dolmadan ikinci sırada durarsa, Sünnəyə müxalif olar. Sünnə odur ki, birinci sıra dolmadıqca heç kəs ikinci sırada durmasın, ikinci sıra dolmadıqca üçüncü sırada dayanmasın, üçüncü sıra dolmadıqca dördüncü sırada dayanmasın və beləcə.

Müəllifin رحمه الله burada qeyd etdiyi bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Şübhəsiz ki, Allah və Onun mələkləri sıraların sağ tərəfinə salavat deyir"**.[1] Ancaq bu hədisin isnadında etibarlılığı barədə ixtilaf olan bir ravi olduğuna görə o zəif sayılır – baxmayaraq ki, həmin hədis Muslimin şərtinə görədir. Əgər hədisin isnadında etibarlılığı barədə ixtilaf olan bir kəs varsa, həmin hədis zəif hesab olunur.

Sonuncu hədisdə isə Peyğəmbər ﷺ əmr etmişdir ki, imam ortada dayansın. O demişdir: **"İmam ortada dayansın..."**, yəni ortada dursun. Doğru olan budur ki, imam nə sağda, nə də solda dayanmır. Məhz ortada durur. Elə İslamın və ya hicrətin ilk illərində də üç nəfər namaz qıldıqda onlar yanaşı dayanar, imam da onların arasında durardı. Yəni imam solda deyil, ortada dururdu. Bu da dəlildir ki, imamın ortada dayanmağının əhəmiyyəti vardır.

O da bəlli olur ki, bəzilərinin etdiyi kimi – sıranın sağ tərəfini doldurub sol tərəfdə az adamın dayanması Sünnəyə müxalifdir. Sünnəyə görə sağ tərəflə sol tərəf bərabər olmalıdır. Bərabər olarsa, deyirik: "Sağ tərəf daha əfzəldir". Bir-iki adam sağ tərəfdə çox olarsa, eybi yoxdur. Yox, əgər sağ tərəf tam dolu, sol tərəf isə boşdursa, bu, Sünnəyə müxalifdir, çünki bu zaman imam sıranın ortasında olmur. Daha doğrusunu Allah bilir.

[1] "Sunən Əbu Davud", 578; "Sunən İbn Macə", 995.

# Yüz doxsan beşinci fəsil

## Fərzlərlə bərabər sünnə namazlarının fəziləti, onların azının, kamilinin və onların arasında olanın bəyanı

**Mövzu ilə əlaqəli hədislər:**

١٠٩٧– عنْ أُمِّ المؤمِنِينَ أُمِّ حبِيبَةَ رَمْلةَ بِنتِ أَبي سُفيانَ ﵄، قَالتْ: سَمِعْتُ رسولَ اللَّه ﷺ يقولُ:« مَا مِنْ عبْدٍ مُسْلِمٍ يُصَلِّي للَّهِ تَعَالى كُلَّ يَوْمٍ ثِنْتَيْ عشْرةَ رَكْعَةً تَطوعاً غَيْرَ الفريضَةِ، إلاَّ بَنَى اللَّه لهُ بَيْتاً في الجَنَّةِ، أَوْ: إلاَّ بُنِي لَهُ بيتٌ في الجنَّةِ» رواه مسلم.

**1097.** Möminlərin anası Ummu Həbibə Ramlə bint Əbu Sufyandan rəvayət olunur ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: **"Hər hansı bir müsəlman bəndə Uca Allah üçün hər gün on iki rükət fərz deyil, nafilə namazı qılarsa, Allah onun üçün Cənnətdə bir ev tikər"**, yaxud: **"... onun üçün Cənnətdə bir ev tikilər".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٠٩٨– وعَنِ ابنِ عُمَر ﵄، قال: صَلَّيْتُ مَعَ رسُول اللَّهِ ﷺ رَكْعتَيْنِ قَبْلَ الظُّهْرِ، وَرَكْعَتَيْنِ بَعْدَهَا، ورَكْعَتيْنِ بَعْدَ الجُمُعةِ، ورَكْعتيْنِ بَعْد المغرِبِ، وركْعتيْنِ بعْد العِشَاءِ. متفقٌ عليه.

**1098.** İbn Ömərdən ﵁ rəvayət olunur ki, o, demişdir: "Mən Rəsulullahla ﷺ birlikdə zöhr namazından öncə iki rükət, sonra da iki rükət, cümədən sonra iki rükət, məğribdən sonra iki rükət, işadan da sonra iki rükət namaz qıldım".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٠٩٩– وعنْ عبدِ اللَّهِ بن مُغَفَّلٍ ﵁ قال: قال رسولُ اللَّهِ ﷺ: « بَيْنَ كُلِّ أَذانَيْنِ صَلاةٌ، بيْنَ كلِّ أَذَانيْنِ صَلاةٌ، بَيْنَ كُلِّ أَذَانَيْنِ صَلاةٌ » وقالَ في الثَّالثَة: «لِمَنْ شَاءَ » متفقٌ عليه.

المُرَادُ بالأَذَانَيْن: الأَذَانُ وَالإِقَامةُ.

---

[1] "Səhih əl-Buxari", 199.

[2] "Səhih əl-Buxari", 1099; "Səhih Muslim", 1200.

**1099.** Abdullah ibn Muğaffəldən ﷺ rəvayət olunur ki, o demişdir: «Rəsulullah ﷺ: **"Hər azanla iqamə arasında namaz vardır. Hər azanla iqamə arasında namaz vardır. Hər azanla iqamə arasında namaz vardır"**– dedi, üçüncüdə də belə bir əlavə etdi: **"istəyən kəs üçün"**».[1]

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

**Şərh:**

Müəllif ﷺ "Salehlər bağçası" əsərində nafilələr və fərz namazlarına əlavə sünnətlər fəslini qeyd edir.

Bil ki, izzət və cəlal sahibi Allahın nemətindəndir ki, Öz qullarına fərz namazlarının tamamlanması üçün əlavə namazlar buyurmuşdur. Çünki fərz namazlarında naqisliklər olur. Əgər Allah bu nafilələri bizlərə əmr etmiş olmasaydı, *onlar* bidət hesab olunardı. Lakin Allahın nemətindəndir ki, fərzlərin tamamlanması üçün bu nafilələri buyurub.

Nafilələrin müxtəlif növləri və çeşidləri vardır. Onlardan bəziləri fərz namazlarına tabe olan nafilələrdir ki, onlar on iki rükətdir: zöhrdən öncə iki rükət-iki rükət olmaqla dörd rükət, iki rükət də zöhrdən sonra; məğribdən sonra iki rükət, işadan sonra iki rükət, sübh namazından da əvvəl iki rükət. Bu da edir on iki rükət. Kim hər gün və gecə bu namazları qılarsa, **"Allah ona Cənnətdə bir ev tikər"** – Ummu Həbibənin hədisində belə qeyd olunur.

Yaxşı olar ki, bu namazları evdə qılasan. Bu həm imama aiddir, həm də digərlərinə. Çünki Peyğəmbər ﷺ: **"Fərz namazları istisna olmaqla, kişinin ən xeyirli qıldığı namazlar evində qıldıqlarıdır"** demişdir.[2]

Hətta Məkkədə və ya Mədinədə olsa belə, yaxşı olar ki, bu nafilə namazlar evdə qılınsın. Çünki Peyğəmbər ﷺ onları evdə qılar və deyərdi: **"Fərz namazları istisna olmaqla, kişinin ən xeyirli qıldığı namazlar evində qıldıqlarıdır"**.

Fərz namazlarına aid olan bəzi nafilələr də vardır ki, onlar bu on iki rükətə aid deyil. Abdullah ibn Muğaffəldən rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: "**Hər azanla iqamə arasında namaz vardır. Hər azanla**

---

[1] "Səhih əl-Buxari", 591; "Səhih Muslim", 1384.

[2] "Səhih əl-Buxari", 6746.

**iqamə arasında namaz vardır. Hər azanla iqamə arasında namaz vardır**" Üçüncüdə isə: **"istəyən kəs üçün"** deyə əlavə etmişdir. O belə demişdir ki, insanlar bunu davamlı sünnəyə çevirməsinlər.

Beləliklə, hər bir azanla iqamə arasında namaz vardır. Sübh namazının azanı ilə iqaməsi arasında namaz vardır. Zöhr namazının azanı ilə iqaməsi arasında namaz vardır. Əsr namazından nə əvvəl, nə də ki, sonra sünnə namazı olmasa da, bu hədis ona da aid olur – əsr namazının azanı verildikdən iqamə verilənədək iki rükət namaz qılına bilər. Məğrib namazından da əvvəl sünnə namazı olmasa belə, onun da azanı ilə iqaməsi arasında namaz qılınır. Onunla bağlı xüsusi bir hədis də vardır. Peyğəmbər ﷺ demişdir: **"Məğribdən öncə namaz qılın, məğribdən öncə namaz qılın".**[1] O, bu sözləri üç dəfə təkrarlamış, sonuncuda isə: **"istəyən kəs üçün"–** deyə əlavə etmişdir. Həmçinin işa namazından öncə də sünnə namazı olmasa belə, o da "azanla iqamə arasında namaz qılın" hədisinə şamil olunur. Əgər birisi namazdan öncə qılınan namazlara çatmasa, yəni məsələn, gəlib görsə ki, imam fərz namazı qıldırır, bu zaman o, sünnə namazının qəzasını sonra qılır.

Əgər namazın həm öncə, həm də sonra iki rükət sünnəsi varsa və adam onu qılmağa yetişməyibsə, bu zaman ilk öncə sonrakı sünnə namazını, daha sonra əvvəlkinin qəzasını edir. Bunun misalı belədir: birisi daxil olub görür ki, imam zöhr namazını qıldırır, o isə zöhr namazının sünnəsini qılmayıb. Namaz bitdikdə ilk öncə namazdan sonrakı sünnəni qılır, sonra öncəki dörd rükətin qəzasını qılır.

Cümə namazı barəsində İbn Ömər رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ cümə namazından sonra iki rükət namaz qılardı. Ondan həmçinin sabit olmuşdur ki, o, cümə namazından sonra dörd rükət qılınmasını buyurmuş və demişdir: **"Sizlərdən biriniz cümə namazı qılarsa, ondan sonra dörd rükət namaz qılsın".**[2]

Bəzi alimlər demişlər ki: "Peyğəmbərin ﷺ sözü əsas götürülür – cümənin sünnəsi dörd rükətdir". Bəziləri isə demişlər ki: "Peyğəmbərin ﷺ sözü ilə əməli cəm olunur və altı rükət namaz qılınır". Bəziləri də demişlər

---

[1] "Musnəd İmam Əhməd", 5/55; "Sunən Əbu Davud", 1089.

[2] "Səhih Muslim", 1457.

ki: "Cümə namazının nafiləsi məsciddə qılındıqda dörd rükət, evdə qılındıqda isə iki rükət olur. Çünki Peyğəmbər ﷺ onu evdə iki rükət qılardı. Bu məsələ genişdir. Ancaq gərək insan bu namazlara aludə olsun. Çünki onlarda böyük xeyir – fərzlərin naqisliklərinin tamamlanması vardır.

Sübh namazının sünnəsini öz vaxtında qılmasan, sən ixtiyar sahibisən – istəyirsən onun qəzasını sübh namazından sonra qıl, istəyirsənsə də onu gecikdir. Lakin çox vaxt insan onu gecikdirdikdə unudur, başı qarışır. Ona görə də bu səbəbli namaz olduğu üçün, habelə bu barədə qadağa olmadığı üçün, özü də namaza aid olduğuna görə onu sübh namazından sonra qıl. Daha doğrusunu Allah bilir.

# Yüz doxsan altıncı fəsil

## Sübh namazının *nafilə* iki rükətinə təkid

**Mövzu ilə əlaqəli hədislər:**

١١٠٠– عن عائشةَ ﵂، أَنَّ النَّبِيَّ ﷺ كانَ لا يدَعُ أَرْبعاً قَبْلَ الظُّهْرِ، ورَكْعَتَيْنِ قبْلَ الغَدَاةِ. رواه البخاري.

**1100.** Aişədən ﵂ rəvayət olunur ki, Peyğəmbər ﷺ zöhr namazından öncəki dörd rükəti, bir də sübh namazından öncəki iki rükəti tərk etməzdi.

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

١١٠١– وعَنْها ﵂ قَالَتْ: لَمْ يَكُن النَّبيُّ ﷺ على شيءٍ مِنَ النَّوافِلِ أَشَدَّ تَعَاهُدًا مِنْهُ عَلَى رَكْعَتي الفجر. متفق عليه.

**1101.** Yenə ondan rəvayət olunur ki, o demişdir: "Peyğəmbərin ﷺ ən davamlı qıldığı nafilə namazı sübh namazının iki rükəti idi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١١٠٢– وَعنْها عَنِ النبي ﷺ قالَ: « رَكْعتا الفجْرِ خيْرٌ مِنَ الدُّنيا ومَا فِيها » رواه مسلم.
وفي روايةٍ: «لَهُمَا أَحب إِلَيَّ مِنَ الدُّنْيا جميعاً ».

1102. Yenə ondan rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Sübh namazının iki rükəti dünya və onun üzərindəkilərdən daha xeyirlidir"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

Başqa bir rəvayətdə isə: **"O mənim üçün bütün dünyadan daha sevimlidir"**– deyilir.[4]

---

[1] "Səhih əl-Buxari", 1110.

[2] "Səhih əl-Buxari", 1093; "Səhih Muslim", 1191.

[3] "Səhih Muslim", 1193.

[4] "Səhih Muslim", 1194.

١١٠٣– وعنْ أَبي عبدِ اللَّهِ بِلالِ بنِ رَبَاحٍ ﷺ، مُؤَذِّنِ رسولِ اللَّهِ ﷺ أَنَّهُ أَتَى رَسُولَ اللَّهِ ﷺ لِيُؤذِنَه بِصَلاةِ الغداةِ، فَشَغَلَتْ عَائِشَةُ بِلالاً بِأَمْرٍ سَأَلَتهُ عَنْهُ حَتى أَصبحَ جِدًّا، فَقَامَ بِلالٌ فَآذنَهُ بِالصَّلاةِ، وتَابعَ أَذَانَهُ، فَلَم يَخْرُجْ رَسُولُ اللَّهِ ﷺ، فلما خَرجَ صلَّى بِالنَّاسِ، فَأَخبَرهُ أَنَّ عائشةَ شَغَلَتْهُ بِأَمْرٍ سَأَلَتْهُ عنهُ حتى أَصبحَ جدًّا، وأَنَّهُ أَبطَأَ عَلَيهِ بالخُروجِ، فَقَال يَعْني النبي ﷺ: «إِني كُنْتُ رَكَعْتُ ركعتي الفَجْرِ» فقالَ:يا رسول اللَّهِ إِنَّكَ أَصْبَحْتَ جِدًّا؟ فقالَ:«لَوْ أَصبَحتُ أَكْثَرَ مِما أَصبَحتُ، لرَكعْتُهُما، وأَحْسنْتُهُمَا وَأَجمَلْتُهُمَا»رواه أَبو داود بإِسناد حسن.

**1103.** Peyğəmbərin ﷺ müəzzini Əbu Abdullah Bilal ibn Əbu Rabəhdən ؓ rəvayət olunur ki, bir dəfə o, sübh namazının azanına izin almaq üçün Peyğəmbərin ﷺ yanına gəlir, Aişə ؓ də ona suallar verməklə hava işıqlananadək onu məşğul edir. Sonra Bilal qalxıb namaz üçün izin istəyir və azan verir. Rəsulullah ﷺ həmin anda evdən çıxmasa da, bir qədər sonra çıxıb insanlara namazı qıldırır. *Bilal ona* xəbər verir ki, Aişə onun başını qatmış, o da buna görə gec çıxmışdır. Peyğəmbər ﷺ dedi: **"Mən sübh namazının iki rükətini qıldım"**. Bilal dedi: "Ey Allahın elçisi, sən çox gec qıldın". Dedi: **"Əgər tez qılmış olsaydım, onu daha yaxşı və daha gözəl qılardım".**

Bu hədisi Əbu Davud həsən isnadla rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllif ؒ "Salehlər bağçası" əsərində **"Sübh namazının iki rükətinə təkid"** fəslini qeyd edir.

Sübhün iki rükətli sünnəsinin bəzi özəllikləri var:

Birincisi, həmin namaz qısa qılınır. İnsan onu uzun qılarsa, sünnəyə müxalif olar. Əksinə, o qısa qılınır. Hətta Peyğəmbər ﷺ onu o qədər qısa qılardı ki, Aişə ؓ belə deyərdi: "Peyğəmbər onu elə qısa qılardı ki, mən öz-özümə deyərdim ki, görəsən "Fatihə" surəsini oxudumu?"

İkincisi, o namazda *"Fatihə" ilə yanaşı* müəyyən surələri oxumaq Sünnədir. Məsələn, ya birinci rükətdə **"De ki, ey kafirlər!"** surəsini[2], ikinci

---

[1] "Musnəd İmam Əhməd", 6/14; "Sunən Əbu Davud", 1066.

[2] "əl-Kafirun" surəsi.

rükətdə də **"De ki, o Allah təkdir!"** surəsini[1], ya da *birinci rükətdə* **"Deyin ki, Allaha və bizə nazil olana iman gətirdik..."** ayəsini[2] və *ikinci rükətdə* **"De ki, ey kitab əhli, bizimlə sizin aranızda bərabər olan bir kəlməyə tərəf gəlin..."** ayəsini[3]. Yəni bir dəfə bu, bir dəfə də o biri.

Üçüncüsu, Peyğəmbər ﷺ sübh namazından əvvəl qılınan iki rükətdən daha çox heç bir nafilə namazını davamlı qılmazdı. Davamlı şəkildə onu qılardı.

Dördüncüsü, Peyğəmbər ﷺ xəbər vermişdir ki: **"O iki rükət dünya və onun üzərindəkilərdən daha xeyirlidir"** və ya: **"dünya və onun üzərindəkilərdən daha sevimlidir".**

Beşincisi, Peyğəmbər ﷺ nə səfərdə, nə də səfərdə olmadıqda onu tərk etməzdi.

Sübh namazının sünnəsinin belə özəllikləri vardır. Gərək insan bu namazı həm səfərdə, həm də səfərdə olmadıqda qılsın. Namazdan əvvəl onu qıla bilmədikdə onu ya namazdan dərhal sonra, ya da günəş bir nizə miqdarında qalxdıqdan sonra qılsın.

Aişə رضي الله عنها qeyd etmişdir ki, Peyğəmbər ﷺ zöhrdən qabaq dörd rükəti tərk etməzdi. Lakin həmin namazları iki salamla, yəni iki rükət-iki rükət qılardı. Belə ki, zöhr namazının altı rükət sünnəsi vardır: əvvəl dörd rükət, sonra da iki rükət.

Biz də Peyğəmbərin ﷺ həris olduğu namazlara həris olmalı, bacardığımız qədər onun sünnəsinə tabe olmalıyıq. Uca Allah buyurur: **"Allahın elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir".**[4] Müvəffəq edən Allahdır.

---

[1] "əl-İxlas" surəsi.

[2] "əl-Bəqərə" surəsi, 136.

[3] "Ali İmran" surəsi, 64.

[4] "əl-Əhzab" surəsi, 21.

# Yüz doxsan yeddinci fəsil

## Sübh namazının *nafilə* iki rükətinin qısalığı, *həmin* namazda oxunanlar və olanların bəyanı

**Mövzu ilə əlaqəli hədislər:**

١١٠٤– عَـنْ عائشَـةَ ﵂ أَنَّ النَّبِيَّ ﷺ كـانَ يُصَـلي رَكْعتَـيْنِ خَفِيفتَـيْنِ بَـيْنَ النِّـدَاءِ وَالإِقَامةِ مِن صَلاةِ الصُّبْحِ. مُتَّفَقٌ عليه.

وفي روايةٍ لهمَا: يُصَلِّي رَكعتَي الفَجْرِ، فَيُخَفِّفُهمَا حتى أَقُولَ: هَل قرَأَ فيهما بِأُمِّ القُرْآنِ؟،

وفي روايةٍ لمُسْلِمٍ: كان يُصَلِّي ركعَتَي الفَجْرِ إِذَا سمِعَ الأَذَانَ ويُخَفِّفُهما.

وفي روايةٍ: إِذا طَلَع الفَجْرُ.

**1104.** Aişədən ﵂ rəvayət olunur ki, Peyğəmbər ﷺ sübh namazının azanı ilə iqaməsi arasında iki rükət qısa *nafilə* namaz qılardı.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Onlardan nəql olunan digər rəvayətdə deyilir: «Fəcrin *nafilə* iki rükətini elə qısa qılardı ki, öz-özümə: "Görəsən o, Quranın anasını ("əl-Fatihə" surəsini) oxudumu?" deyirdim».

Muslimin başqa rəvayətində isə belədir: "O, azanı eşitdikdə sübhün *nafilə* iki rükətini qısa şəkildə qılardı".

Digər rəvayətdə: "sübh çıxdıqda" deyə qeyd olunur.

١١٠٥– وعَـنْ حفصَـةَ ﵂ أَنَّ رسـولَ اللَّهِ ﷺ كـانَ إِذا أَذَّنَ المُـؤَذِّنُ للصُّـبحِ، وَبَـدَا الصُّبحُ، صلَّى ركعتيْن خَفيفتينِ. متفقٌ عليه.

وفي روايةٍ لمسلمٍ: كانَ رسولُ اللَّه ﷺ إذا طَلَعَ الفَجْر لا يُصلي إِلاَّ رَكْعَتيْنِ خَفيفَتيْنِ.

**1105.** Həfsadan ﵂ rəvayət olunur ki, müəzzin sübh namazının azanını verdikdə və sübh çıxdıqda Rəsulullah ﷺ iki qısa rükət namaz qılardı.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "Səhih əl-Buxari", 584; "Səhih Muslim", 724.

[2] "Səhih əl-Buxari", 583; "Səhih Muslim", 723.

Muslimin rəvayətində isə belədir: “Rəsulullah ﷺ sübh çıxdıqda iki qısa rükətdən savayı *nafilə* namaz qılmazdı”.

١١٠٦– وعَنِ ابن عُمرَ رضي الله عنهما قال: كانَ رسولُ اللَّه ﷺ يُصلِّي مِنَ اللَّيْلِ مثْنَى مثْنَى، ويُوتِر برَكْعَةٍ مِن آخِرِ اللَّيْلِ، ويُصَلِّي الرَّكعَتينِ قَبْل صَلاةِ الغَداةِ، وَكَأَنَّ الأذَانَ بأُذُنَيْهِ. متفقٌ عليه.

**1106.** Rəvayət olunur ki, İbn Ömər رضي الله عنه demişdir: “Peyğəmbər ﷺ gecə vaxtı iki rükət-iki rükət namaz qılar, gecənin sonunda isə bir rükət vitr namazı qılardı. Sübh namazından əvvəl də iki rükət namaz qılardı. Sanki azan onun qulaqlarında idi”.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١١٠٧– وعَنِ ابنِ عباسٍ رضي الله عنهما أَنَّ رَسُولَ اللَّهِ ﷺ كانَ يَقْرَأُ في رَكْعَتَي الْفَجْرِ في الأولى مِنْهُمَا: { قُولُوا آمَنَّا بِاللَّهِ ومَا أُنْزِلَ إِلَيْنَا } الآيةُ التي في البقرة، وفي الآخِرَةِ مِنهما: { آمَنَّا بِاللَّهِ وَاشْهَدْ بِأَنَّا مُسلمُونَ }.

وفي روايةٍ: في الآخرةِ التي في آلِ عِمرانَ: { تَعَالَوْا إِلى كَلِمَةٍ سَوَاءٍ بَيْنَنَا وَبَيْنَكُمْ } رواهما مسلم.

**1107.** İbn Abbasdan رضي الله عنهما rəvayət olunur ki, Rəsulullah ﷺ sübh namazının iki rükətinin birincisində “əl-Bəqərə” surəsindəki **“Deyin ki, Allaha və bizə nazil olana iman gətirdik”** ayəsini, ikinci rükətdə **“Allaha iman gətirdik və şahidlik edirik ki, bizlər müsəlmanıq”** ayəsini, bir başqa rəvayətdə isə ikinci rükətdə “Ali İmran” surəsinin **“Bizimlə sizin aranızdakı bir kəlməyə gəlin...”** ayəsini oxudu.

Hədisi Muslim rəvayət etmişdir.[2]

١١٠٨– وعنْ أَبي هُريرةَ رضي الله عنه أَنَّ رسولَ اللَّهِ ﷺ قرأَ في رَكْعَتَيِ الْفَجْرِ: {قُلْ يَا أَيُّهَا الْكَافِرُونَ } و { قُلْ هُوَ اللَّه أَحَدٌ } رواه مسلم.

---

[1] “Səhih əl-Buxari”, 940; “Səhih Muslim”, 749.
[2] “Səhih Muslim”, 727.

**1108.** Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ sübh namazının iki rükətində **“De ki, ey kafirlər!”** və **“De ki, o Allah təkdir!”** *surələrini* oxudu.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١١٠٩– وعـنِ ابـنِ عمـر ﵄، قـال: رمقْـتُ النَّبِيَّ ﷺ شَـهْراً يقْـرَأُ في الـرَّكْعَتيْنِ قَبْـلَ الْفَجْرِ: { قُلْ يَا أَيُّهَا الكَافِرُونَ }، و: { قل هُوَ اللَّه أَحَدٌ } . رواهُ الترمذي وقال: حديثٌ حَسَنٌ.

**1109.** Rəvayət olunur ki, İbn Ömər ﵄ demişdir: «Mən Peyğəmbəri ﷺ bir ay izlədim. O, sübh namazından əvvəlki iki rükətdə **“De ki, ey kafirlər!”** və **“De ki, o Allah təkdir!”** *surələrini* oxuyurdu».

Hədisi Tirmizi rəvayət etmiş və: “Bu, həsən hədisdir” demişdir.[2]

---

[1] “Səhih Muslim”, 726.

[2] “Sunən ət-Tirmizi”, 419.

## Yüz doxsan səkkizinci fəsil

### Sübh namazından sonra sağ tərəf üzərində uzanmağın müstəhəbliyi və gecə namazını qılmış olsa belə, buna təşviq

**Mövzu ilə əlaqəli hədislər:**

١١١٠– عنْ عائِشَةَ رضي الله عنها قالَت: كانَ النَّبيُّ ﷺ إذا صلَّى رَكْعَتي الْفَجْرِ، اضْطَجع على شِقِّهِ الأَيْمنِ. رواه البخاريُّ.

**1110**. Rəvayət olunur ki, Aişə ﵄ demişdir: "Peyğəmbər ﷺ sübh namazının iki rükətini qılar, *sonra* sağ tərəfi üstə uzanardı".

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

١١١١– وَعنْهَا قَالَتْ: كانَ النبيُّ ﷺ يُصَلِّي فيما بيْنَ أَنْ يفْرُغَ مِنْ صلاة الْعشَاءِ إلى الْفجْرِ إحْدَى عَشْرَةَ رَكْعةً يُسَلِّمُ بيْنَ كُلِّ ركعَتيْنِ، ويُوتِرُ بِوَاحِدَةٍ، فَإذا سَكَتَ المُؤَذِّنُ مِنْ صلاةِ الْفَجْرِ، وتَبيَّنَ لَهُ الْفَجْرُ، وَجاءَهُ المُؤَذِّنُ، قام فَرَكَعَ رَكْعَتيْن خَفِيفتَيْنِ، ثُمَّ اضْطَجَعَ عَلى شِقِّه الأَيْمَنِ، هكذا حَتَّى يأْتِيَهُ المُؤَذِّنُ للإقَامَةِ. رواه مُسْلِمٌ.،

قَوْلُهَا: «يُسلِّمُ بيْن كُلِّ رَكْعتَيْن» هكذا هو في مسلمٍ ومعناه: بعْد كُلِّ رَكْعتَيْنِ.

**1111.** Yenə Aişədən ﵄ rəvayət olunur ki, o, demişdir: "Peyğəmbər ﷺ işa namazını bitirdikdən sonra sübhədək on bir rükət namaz qılardı. Hər iki rükətdən sonra salam verər, sonda bir rükət qılardı. Müəzzin sübh namazının azanını bitirdikdə sübh ona bəlli olar, müəzzin də onun yanına gələrdi. Bu zaman o qalxıb iki rükət qısa namaz qılar, sonra da sağ tərəfi üstə uzanardı. Müəzzin iqaməni vermək üçün onun yanına gələnədək belə qalardı".

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Onun "hər iki rükətdən bir salam verərdi" sözü Muslimdə nəql olunmuşdur. Mənası "hər iki rükəti bitirdikdə" deməkdir.

---

[1] "Səhih əl-Buxari", 1090.

[2] "Səhih Muslim", 1216.

١١١٢– وعنْ أَبي هُريرةَ ﷺ، قالَ: قال رسولُ اللَّهِ ﷺ: « إِذا صَلَّى أَحَدُكُمْ ركْعَتَيِ الفَجْرِ فَلْيَضطَجِعْ عَلَى يمِينِهِ ».

رَوَاه أَبو داود، والترمذي بأَسانِيدَ صحيحةٍ. قالَ الترمذي: حديثٌ حَسَنٌ صَحِيحٌ.

**1112.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Sizlərdən biriniz sübh namazının *nafilə* iki rükətini qıldısa, sağ tərəfi üstə uzansın"**.[1]

Hədisi Əbu Davud və Tirmizi səhih isnadla rəvayət etmiş, Tirmizi: "Bu, həsən səhih hədisdir"– demişdir.

**Şərh:**

Bir qədər əvvəl qeyd etdik ki, Peyğəmbər ﷺ sübh namazından öncə iki rükət namaz qılardı. Həmçinin qeyd etdik ki, bu iki rükət namaz digər nafilə namazlardan bəzi özəlliklərinə görə fərqlənir. Həmin özəlliklərdən biri odur ki, bu iki rükət namazı qıldıqdan sonra Peyğəmbərin ﷺ etdiyi kimi, sağ tərəf üzərində uzanılır. Buxari və Muslimin "Səhih" əsərlərində Aişədən ﷺ nəql olunur ki: "Peyğəmbər ﷺ sübh namazının iki rükətini qılar, sonra sağ tərəfi üstündə uzanardı".

Muslimin nəql etdiyi və Aişədən ﷺ rəvayət olunan ikinci hədisdə isə deyilir: "Peyğəmbər ﷺ işa namazını bitirdikdən sonra sübhədək on bir rükət namaz qılardı. Hər iki rükətdən sonra salam verər, sonda bir rükət qılardı". Bu da dəlildir ki, Peyğəmbər ﷺ bəzilərinin düşündüyü kimi dörd rükət, sonra dörd rükət, sonra da üç rükət qılmazdı. Belə ki, Aişədən ﷺ nəql olunmuş başqa bir hədisdə o demişdir: "Peyğəmbər ﷺ nə Ramazanda, nə də qeyrisində on bir rükətdən artıq namaz qılmazdı. Dörd rükət qılardı – onların uzunluğu və gözəlliyi barəsində heç soruşma. Sonra yenə dörd rükət qılardı – onların da uzunluğu və gözəlliyi barəsində soruşma. Sonra da üç rükət qılardı".[2]

Bəziləri elə düşünüblər ki, o, dörd rükəti bir yerdə, sonra dörd rükəti bir yerdə, sonra da üç rükət namaz qılmışdır. Bu doğru deyil. Biz hədisin zahirini götürürük. Yəni o, iki-iki dörd rükət qıldıqdan sonra istirahət edər,

---

[1] "Musnəd İmam Əhməd", 2/415; "Sunən Əbu Davud", 1070; "Sunən ət-Tirmizi", 385.
[2] "Səhih əl-Buxari", 1079.

sonra yenə iki-iki dörd rükət qılıb istirahət edər, sonra da üç rükət qılardı. Hədis belə başa düşülməlidir. Çünki bu hədislərin ravisi eyni adam – Aişədir ﷺ. Əməl də eynidir. Belə olduğu halda onları bir-biri ilə açıqlamaq lazımdır ki, Sünnədə ittifaq olsun. Deməsinlər ki, o, gah belə edərdi, gah da belə. Çünki "edərdi" sözü həmin əməlin davamlı şəkildə olmasını bildirir.

Əbu Hureyranın ﷺ Peyğəmbərin ﷺ əmri ilə bağlı nəql etdiyi hədis isə belədir: **"Sizlərdən biriniz sübhün iki rükətini qıldısa, sağ tərəfi üzərində uzansın".** Bu hədisləri Tirmizi və Əbu Davud rəvayət etsələr də, müəllif: "onların isnadları səhihdir" demişdir. Ümmətin alimi, əqli və nəqli elmlərin dəryası Şeyxulislam ibn Teymiyyə demişdir ki, bu hədis münkərdir. Yəni Peyğəmbərdən ﷺ səhih olaraq nəql olunmamışdır ki, o, sübhün sünnəti ilə fərzi arasında uzanmağı əmr etmişdir. Şeyxin dediyi səhihdir, çünki o münkər hədisdir və o götürülmür, yəni Rəsulullah ﷺ sübhün sünnəsindən sonra sağ tərəfi üzərində uzanmağı əmr etməmişdir.

Müəllif fəslin başlığında qeyd edir ki, gecə namazı qılanla qılmayan arasında fərq yoxdur. Bununla o, həmin məsələdə ixtilaf olduğuna işarə edir. Bəzi alimlər demişlər ki, sübh namazının iki rükət nafiləsindən sonra mütləq şəkildə uzanmaq gərəkdir. Digərləri bunun mütləq şəkildə Sünnə olmadığını bildirmişlər. Bir başqaları isə burada təfsilatın olmasını bildirmişlər: əgər o, təhəccüd qılırsa, bu zaman o, uzanaraq dincələ bilər. Gecə namazı qılmayan kəs isə uzanmır.

Ən qəribə və təəccüblü rəylərdən biri də "sübhün sünnəsindən sonra uzanmaq sübh namazının səhihliyi üçün şərtdir" rəyidir. *Bu rəyə görə* kim uzanmasa, onun namazı batildir. Bu da olduqca qəribədir: axı namazla uzanmaq arasında nə əlaqə var? Uzanmaq namazdan fərqlidir və onlar arasında heç bir əlaqə yoxdur. Mən də sadəcə bəzi alimlərin rəyi ilə tanış olmağınız üçün bunu qeyd etdim.

Doğru rəy Şeyxulislam ibn Teymiyyənin dediyi kimidir: "Əgər insan gecə namazından yorulubsa, sağ tərəfi üstə uzanaraq istirahət edə bilər. Ancaq bir şərtlə ki, uzandıqda yuxunun ona güc gəlməyəcəyindən və namazı buraxmayacağından əmin olsun. Bundan əmin deyilsə, uzanmasın".

# Yüz doxsan doqquzuncu fəsil

## Zöhrün sünnəsi

**Mövzu ilə əlaqəli hədislər:**

١١١٣– عَنِ ابنِ عُمَرَ، رضي الله عنهما، قالَ: صلَّيْتُ مَع رسولِ اللَّهِ ﷺ ركْعَتَيْنِ قَبْل الظُّهْرِ، ورَكْعَتيْنِ بعدَهَا. متفقٌ عليه.

**1113.** İbn Ömərdən رضي الله عنهما rəvayət olunur ki, o demişdir: "Mən Rəsulullahla ﷺ birgə zöhr namazından öncə iki rükət, sonra da iki rükət qıldım".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١١١٤– وعَنْ عائِشَة رضي الله عنها، أَنَّ النَّبِيَّ ﷺ كان لا يدعُ أَرْبعاً قَبْلَ الظُّهْرِ، رواه البخاريُّ.

**1114.** Aişədən رضي الله عنها rəvayət olunur ki, Peyğəmbər ﷺ zöhr namazından öncə dörd rükət namazı əsla buraxmazdı.

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

١١١٥– وَعَنها قالتْ: كانَ النبيُّ ﷺ يُصَليِّ في بَيْتي قَبْلَ الظُّهْر أَرْبَعاً، ثم يخْرُجُ فَيُصليِّ بِالنَّاسِ، ثُمَّ يدخُلُ فَيُصَليِّ رَكْعَتَينْ، وَكانَ يُصليِّ بِالنَّاسِ المَغْرِب، ثُمَّ يَدْخُلُ بيتي فَيُصليِّ رَكْعَتْينِ، وَيُصَليِّ بِالنَّاسِ العِشاءَ، وَيدْخُلُ بَيْتي فَيُصليِّ ركْعتَيْنِ. رواه مسلم.

**1115.** Yenə Aişədən رضي الله عنها rəvayət olunur ki, o demişdir: "Peyğəmbər ﷺ mənim evimdə zöhrdən öncə dörd rükət qılıb sonra çıxar və insanlara namaz qıldırardı. Sonra yenə evə daxil olaraq iki rükət namaz qılardı. İnsanlara məğrib namazını da qıldırdıqdan sonra evə daxil olar və iki rükət namaz qılardı. O, insanlara işa namazını qıldırdıqdan sonra da evimə daxil olar və iki rükət namaz qılardı".

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

---

[1] "Səhih əl-Buxari", 1079; "Səhih Muslim", 1102.

[2] "Səhih əl-Buxari", 1102.

[3] "Səhih Muslim", 1201.

١١١٦– وعن أُمِّ حَبِيبَةَ رضي الله عنها قَالَتْ: قال رسولُ اللهِ ﷺ: «منْ حَافظَ عَلى أَرْبَعِ ركعَاتٍ قَبْلَ الظُّهْرِ، وَأَرْبعٍ بَعْدَهَا، حَرَّمهُ اللهُ على النَّارَ».

رواه أبو داود، والترمذي وقال: حديثٌ حسنٌ صحيحٌ.

**1116.** Rəvayət olunur ki, Ummu Həbibə رضي الله عنها demişdir: «Rəsulullah ﷺ demişdir: **"Kim zöhr namazından öncə dörd rükət, sonra da dörd rükət namazı davamlı şəkildə qılarsa, Allah Cəhənnəmi ona haram edər"**».

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən səhih hədisdir"– demişdir.[1]

١١١٧– وعَنْ عبدِ اللهِ بن السائب رضي الله عنه أَنَّ رسولَ اللهِ ﷺ كانَ يُصَلِّي أَرْبعاً بعْدَ أَن تَزول الشَّمْسُ قَبْلَ الظُّهْرِ، وقَالَ: «إِنَّهَا سَاعَةٌ تُفْتَحُ فِيهَا أَبوابُ السَّمَاءِ، فأُحِبُّ أَن يَصعَدَ لي فيها عمَلٌ صَالِحٌ» رواه الترمذي وقالَ: حديثٌ حسنٌ.

**1117.** Abdullah ibn əs-Saibdən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ zöhrdən öncə günəş zeniti keçdikdən sonra dörd rükət namaz qılardı. O belə demişdir: **"Həmin saatda səmanın qapıları açılır. İstəyirəm ki, həmin saatda mənim gözəl əməllərim yüksəlsin".**

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən hədisdir".[2]

١١١٨– وعَنْ عَائِشَةَ رضي الله عنها، أَنَّ النَّبِيَّ ﷺ كانَ إِذا لَمْ يُصَلِّ أَرْبعاً قبْلَ الظهْرِ، صَلاَّهُنَّ بعْدَها. رَوَاهُ الترمذيُّ وَقَالَ: حديثٌ حسنٌ.

**1118.** Aişədən رضي الله عنها rəvayət olunur ki, Peyğəmbər ﷺ zöhrdən öncə dörd rükət namaz qılmadıqda onu namazdan sonra qılardı.

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən hədisdir".[3]

---

[1] "Sunən Əbu Davud", 1077; "Sunən ət-Tirmizi", 393; "Sunən ən-Nəsai", 1793.

[2] "Sunən ət-Tirmizi", 440.

[3] "Sunən ət-Tirmizi", 428.

**Şərh:**

Müəllif رحمه الله əsərin bu yerində "Zöhrün sünnəsi" fəslini qeyd edir. O orada müxtəlif hədislər qeyd etmişdir ki, onların da hamısı zöhrün altı rükət nafiləsinin olmasına dəlalət edir – zöhrdən əvvəl iki-iki dörd rükət, iki rükət də zöhrdən sonra.

İnsan unutduqda və ya zöhrdən öncəki dörd rükəti qılmadıqda onu zöhrdən sonra qılır. Belə ki, nafilələr də fərzlər kimi qəza olunur. Lakin İbn Macənin nəql etdiyi hədisdə varid olmuşdur ki: "O, ilk öncə namazdan sonrakı sünnəni qılar, daha sonra isə əvvəlki sünnəni qılardı". Məsələn, zöhr namazı üçün məscidə gəlib görürsən ki, artıq imam namaz qıldırır, sən isə namazdan öncəki nafiləni qılmamısan. Bu zaman deyirik ki, *fərz* namazı qıl. Namazı və onun zikrlərini bitirdikdə isə əvvəlcə namazdan sonrakı iki rükəti qıl, daha sonra isə namazdan öncə qılınmalı olan dörd rükəti iki-iki qıl. Sünnə belədir.

Bu hədislər dəlildir ki, insan sünnə namazlarını gərək davamlı şəkildə qılsın. Belə ki, Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ zöhrdən öncə dörd rükət namazı tərk etməzdi".

Səfərdə olduqda isə nə zöhrdən əvvəlki, nə də sonrakı sünnə namazları qılınmır. Çünki Peyğəmbər ﷺ səfərdə olarkən zöhrün sünnəsini qılmırdı. Müvəffəq edən Allahdır.

# İki yüzüncü fəsil

## Əsrin sünnəsi

**Mövzu ilə əlaqəli hədislər:**

١١١٩– عنْ عليِّ بنِ أَبي طَالبٍ ﵁، قالَ: كانَ النَّبي ﷺ يُصلِّي قَبْلَ العَصْرِ أَرْبَعَ رَكعَاتٍ، يَفْصِلُ بَيْنَهُنَّ بِالتَّسْليمِ عَلى الملائِكَةِ المقربِينَ، وَمَنْ تبِعَهُمْ مِنَ المسْلِمِين وَالمؤمِنِينَ. رواه الترمذي وقالَ: حديثٌ حسنٌ.

**1119.** Rəvayət olunur ki, Əli ibn Əbu Talib ﵁ demişdir: "Peyğəmbər ﷺ əsrdən öncə dörd rükət namaz qılar, onların arasını mələklərə, möminlərə və müsəlmanlara salam verməklə ayırardı".

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən hədisdir".[1]

١١٢٠– وعَن ابن عُمَرَ ﵄، عنِ النَّبيِّ ﷺ، قالَ: « رَحِمَ اللَّه امْرَءاً صلَّى قبْلَ العَصْرِ أَرْبعاً ». رَوَاه أبو داود، والترمذي وقالَ: حديثٌ حَسَنٌ.

**1120.** İbn Ömərdən ﵄ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Allah əsrdən öncə dörd rükət namaz qılan kəsə rəhm edər"**.

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir"– demişdir.[2]

١١٢١– وعنْ عليِّ بن أَبي طالبٍ، ﵁، أَنَّ النبيَّ ﷺ كانَ يُصَلِّي قَبْلَ العَصرِ رَكْعَتَيْنِ. رَوَاه أبو داود بإسناد صحيح.

**1121.** Əli ibn Əbu Talibdən ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ əsrdən öncə iki rükət namaz qılardı.

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[3]

---

[1] "Sunən ət-Tirmizi", 431.

[2] "Sunən Əbu Davud", 1271; "Sunən ət-Tirmizi", 432.

[3] "Sunən Əbu Davud", 1272.

# İki yüz birinci fəsil

## Məğribin əvvəlki və sonrakı sünnəsi

**Mövzu ilə əlaqəli hədislər:**

Burada əvvəlcə İbn Ömərdən ﵄ və Aişədən ﵄ nəql olunmuş hədislər qeyd olunur. Hər iki hədis səhihdir. Həmin hədislərdə deyilir ki, Peyğəmbər ﷺ məğribdən sonra iki rükət namaz qılardı.

١١٢٢– وَعَنْ عَبْدِ اللَّهِ بنِ مُغَفَّلٍ ﵁، عَنِ النَّبِيِّ ﷺ قالَ: «صَلُّوا قَبلَ المَغرِب» قَالَ فِي الثَّالثَةِ: «لِمَنْ شَاءَ» رواه البخاريُّ.

**1122.** Abdullah ibn Muğaffəldən ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ *üç dəfə*: **"Məğribdən öncə namaz qılın"**– dedi, üçüncüsündə: **"İstəyən kəs üçün"**– deyə əlavə etdi.

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

١١٢٣– وعن أَنسٍ ﵁ قالَ: لَقَدْ رَأَيْتُ كِبارَ أَصحابِ رسولِ اللَّهِ ﷺ يَبْتَدِرُونَ السَّوَارِيَ عندَ المغربِ. رواه البخاري.

**1123.** Rəvayət olunur ki, Ənəs ﵁ demişdir: "Mən Rəsulullahın ﷺ böyük səhabələrinin məğrib vaxtı divarlara doğru getdiklərini görmüşəm".

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

١١٢٤– وعَنْهُ قَالَ: كُنَّا نُصَلِّي عَلى عَهدِ رسولِ اللَّهِ ﷺ رَكعَتيْنِ بعدَ غُروبِ الشَّمْس قبلَ المَغربِ، فقيلَ: أَكانَ رسولُ اللَّهِ ﷺ صلاَّهُمَا؟ قال: كانَ يَرانَا نُصَلِّيهِمَا فَلَمْ يَأْمُرْنَا وَلَمْ يَنْهَنا. رَوَاه مُسْلِمٌ.

**1124.** Yenə Ənəsdən ﵁ rəvayət olunur ki, o demişdir: "Biz Rəsulullahın ﷺ vaxtında günəş batdıqdan sonra məğribdən öncə iki rükət namaz

---

[1] "Səhih əl-Buxari", 1111.

[2] "Səhih əl-Buxari", 473.

qılardıq". Soruşdular: "Peyğəmbər ﷺ də onu qılırdımı?" Dedi: "O bizim namaz qıldığımızı görə-görə bunu bizə nə əmr edər, nə də bunu qadağan etməzdi".

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١١٢٥– وعنه قَالَ: كُنَّا بِالْمَدِينَةِ فإذا أَذَّنَ الْمُؤَذِّنُ لِصَلاةِ المَغرِبِ، ابْتَدَرُوا السَّوَارِيَ، فَرَكَعُوا رَكعَتْين، حَتى إنَّ الرَّجُلَ الغَرِيبَ ليَدخُلُ المَسجدِ فيَحْسَبُ أَنَّ الصَّلاةَ قدْ صُلِّيتْ من كَثْرَةِ مَنْ يُصَلِّيهِما. رَوَاهُ مُسْلِمٌ.

**1125.** Yenə Ənəsdən ﷺ belə rəvayət olunur ki: "Biz Mədinədə olarkən müəzzin məğrib namazının azanını verincə insanlar divarlara doğru tələsər və iki rükət namaz qılardılar. Hətta məscidə daxil olan qərib birisi namaz qılanların çoxluğundan elə hesab edərdi ki, artıq namaz qılınıb".

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

---

[1] "Səhih Muslim", 1382.
[2] "Səhih Muslim", 1383.

# İki yüz ikinci fəsil

## İşanın əvvəlki və sonrakı sünnəsi

Bu fəsildə öncə qeyd olunmuş və İbn Ömərin ﷺ nəql etdiyi: "Mən Rəsulullahla ﷺ birlikdə işadan sonra iki rükət namaz qıldım" hədisini göstərmək olar.

Burada həm də Abdullah ibn Muğaffəlin ﷺ daha öncə qeyd olunmuş: **"Hər bir azanla iqamə arasında namaz vardır"** hədisini[1] göstərmək olar.

**Şərh:**

Bu fəsillər əsr, məğrib və işa namazlarının sünnəsi ilə bağlıdır.

Sübh və zöhr namazlarının sünnəsi barədə artıq söhbət açmışıq. Əsrin sünnəsinə gəlincə isə aşağıdakı hədisə əsasən bu namazdan öncə dörd rükət qılınır: **"Əsr namazından öncə dörd rükət namaz qılan kəsi Allah bağışlayar".**

Bu, dua cümləsidir. Yəni Peyğəmbər ﷺ əsrdən öncə dörd rükət namaz qılan üçün dua etmişdir. Elm əhli bu hədis barəsində danışmış olsalar belə, insanın bu namazı qılmaqla həmin əcrə çatacağına ümid edirik.

Məğribə gəlincə, ondan həm öncə, həm də sonra sünnə namazı vardır. Lakin ondan öncə olan sünnə nafilə deyil. Öncə qılınan namaz barəsində hədis vardır. Peyğəmbər ﷺ üç dəfə: **"Məğribdən öncə namaz qılın"**– demiş, üçüncüdə isə: **"istəyən kəs üçün"**– deyə əlavə etmişdir. Yəni insanlar bunu davamlı şəkildə etməsinlər.

Beləliklə, məğrib namazının azanı verildikdə iki rükət namaz qılınır. Lakin bu namaz məğribdən sonrakı nafilə namaz kimi təkid olunmamışdır. Bu sünnəni insan tərk edə bilər. Buna görə də Ənəs ﷺ demişdir: "Peyğəmbər bizim namaz qıldığımızı görə-görə bunu bizə nə əmr edər, nə də bunu qadağan etməzdi".

İşanın isə həm əvvəl, həm də sonra sünnəsi vardır. Lakin əvvəlki sünnə davamlı şəkildə qılınan deyil və o, Peyğəmbərin ﷺ bu ümumi sözünə

[1] "Səhih əl-Buxari", 591; "Səhih Muslim", 1384.

aiddir: **"Hər bir azanla iqamə arasında namaz vardır"**. İşadan sonra isə iki rükət namaz qılmaq sünnədir.

Bu deyilənlərdən aydın olur ki, beş vaxt namazın əvvəlində və ya sonunda sünnələr vardır. Belə ki, sübh namazından qabaq iki rükət var, sübhdən sonra isə sünnə yoxdur. Zöhrdən həm əvvəl, həm də sonra sünnə var. Əsrdən qabaq sünnə var, sonra isə yoxdur, çünki qadağan olunmuş vaxtdır. Məğribdən sonra sünnə var. Məğribdən öncə qılınan namaz isə davamlı şəkildə qılınan deyil. İşadan da sonra sünnə var, əvvəl qılınan isə davamlı şəkildə qılınan deyil.

Fərz namazlarına aid olan sünnələr haqqında bu qədər.

Sünnə namazların faydalarından biri də budur ki, fərzlərdə çatışmamazlıqlar olduqda, həmin nöqsanlar sünnələrlə (nafilələrlə) tamamlanır. Daha doğrusunu Allah bilir.

# İki yüz üçüncü fəsil

## Cümənin sünnəsi

**Mövzu ilə əlaqəli hədislər:**

Burada ilk olaraq daha öncə qeyd olunmuş və İbn Ömərdən rəvayət olunan hədisi göstəririk. Həmin hədisdə deyilir ki, o, Peyğəmbərlə ﷺ birlikdə cümədən sonra iki rükət namaz qıldı".[1]

١١٢٦– عَنْ أَبي هُرَيرَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: «إذا صَلَّى أَحدُكُمُ الجُمُعَةَ، فَلْيُصَلِّ بعْدَهَا أَرْبعاً» رواه مسلم.

**1126.** Əbu Hureyradan رضي الله عنه nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Sizlərdən kim cümə namazını qılarsa, ondan sonra dörd rükət namaz qılsın".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١١٢٧– وَعَنِ ابنِ عُمرَ رضي الله عنهما أَنَّ النَّبِيَّ ﷺ كانَ لا يُصلِّي بَعْدَ الجُمُعَةِ حتَّى يَنْصَرِفَ فَيُصَلِّي رَكْعَتيْنِ في بَيْتِهِ، رواه مسلم.

**1127.** İbn Ömərdən rəvayət olunur ki, Peyğəmbər ﷺ cümədən sonra gedənədək namaz qılmazdı, gedib evdə iki rükət namaz qılardı".

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

**Şərh:**

Müəllif ən-Nəvəvi رحمه الله "Salehlər bağçası" əsərində **"Cümənin sünnəsi"** fəslini qeyd edir.

Cümə müstəqil bir namazdır və zöhr namazı ilə eyni deyil. Ona görə də müsafir olan kəs cüməni əsr namazına birləşdirə bilməz. Tutaq ki, bir ölkədə səfərdəsən. Bu zaman cümə namazını qıldıqdan sonra əsr namazını

---

[1] "Səhih əl-Buxari", 885; "Səhih Muslim", 1462.

[2] "Səhih Muslim", 1457.

[3] "Səhih Muslim", 1461.

da onunla birlikdə qıla bilməzsən. Çünki o, müstəqil bir namazdır. Sünnəyə görə zöhrlə əsr namazları cəm oluna bilər, ancaq cümə ilə əsr namazları yox.

Cümə namazı özündən əvvəl, özündən sonra, qılındığı gündə buyurulanlara görə digər namazlardan fərqlənir. Cümədən öncə sünnə namazı yoxdur. İnsan namaz üçün məscidə gəldiyi zaman imam gələnədək istədiyi qədər nafilə namazı qıla bilər. İmam gələnədək istəsə namaz qıla, istəsə də Quran oxuya bilər.[1] İki rükət də qıla bilər, dörd rükət də, altı da, səkkiz də. Cümədən sonra isə sünnə namazı var ki, o da iki rükət evdə qılınan namazdır. İbn Ömər demişdir ki, Peyğəmbər ﷺ cümədən sonra gedənədək namaz qılmazdı, gedib evdə iki rükət namaz qılardı. Müəllifin qeyd etdiyi Əbu Hureyradan nəql olunmuş hədisdə Peyğəmbər ﷺ demişdir: **"Sizlərdən kim cümə namazını qılarsa, ondan sonra dörd rükət namaz qılsın".**

Alimlər ixtilaf etmişlər ki, cümə namazının sünnəsi iki-iki qılınmaqla dörd rükətdir, yoxsa iki rükət. Bəziləri demişlər ki, o dörd rükətdir, çünki Peyğəmbər ﷺ məhz bunu əmr etmişdir. İki rükətə gəlincə isə, bunu Peyğəmbər ﷺ etmişdir. Onun əmri isə əməlindən daha önəmlidir. Buna görə də dörd rükət qılınır.

Bəziləri demişlər ki, iki rükətdən ibarətdir, çünki İbn Ömərin qeyd etdiyi məhz budur. Dörd rükət isə davamlı şəkildə qılınan deyil.

Digərləri də təfsilata vararaq belə demişlər ki, əgər cümənin sünnəsini məsciddə qılarsa, dörd rükət qılır, evdə qıldıqda isə iki rükət qılır. Şeyxulislam İbn Teymiyyə də bu rəyi seçmişdir.

Bəziləri də demişlər ki, bunları cəm etmək lazımdır. Peyğəmbərin ﷺ əmri ilə dörd rükət, əməlinə əsasən isə iki rükət qılır. Bununla da, cümə namazından sonra altı rükət sünnə namazı qılır.

Cümədən sonra sünnəni evdə qılmaq Şeyxulislamın rəyinə əsasən daha əfzəldir. Yox, əgər məsciddə qılsan, onda dörd rükət qılırsan. Daha doğrusunu Allah bilir. Müvəffəq edən də Odur.

---

[1] Bax: "Fəthu zil-cələli vəl-ikram bişərhi Buluğ əl-məram", 2/90.

# İki yüz dördüncü fəsil

## Bütün nafilələri evdə qılmağın müstəhəbliyi, fərz namazından sonra nafilə üçün yeri dəyişmək və ya onları danışmaqla ayırmaq

**Mövzu ilə əlaqəli hədislər:**

١١٢٨– عَنْ زيدِ بنِ ثابتٍ ﷺ، أَنَّ النَّبِيَّ ﷺ قال: « صلُّوا أَيُّها النَّاسُ في بُيُوتِكُمْ، فَإِنَّ أفضلَ الصَّلاةِ صلاةُ المَرْءِ في بَيْتِهِ إلاَّ المكْتُوبَةَ » متفقٌ عليه.

**1128.** Zeyd ibn Sabitdən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Ey insanlar, evinizdə namaz qılın! Fərz namazları istisna olmaqla, kişinin qıldığı ən fəzilətli namaz evində qıldığıdır".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١١٢٩– وعن ابنِ عُمَرَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قال: « اجْعَلُوا مِنْ صلاتِكُمْ في بُيُوتِكُمْ، ولا تَتَّخِذُوها قُبُوراً » متفقٌ عليه.

**1129.** İbn Ömərdən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Bəzi namazlarınızı evlərinizdə qılın, evlərinizi məzarlığa çevirməyin".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١١٣٠– وعَنْ جابرٍ ﷺ قالَ: قَالَ رسولُ اللَّهِ ﷺ: « إذا قَضَى أَحَدُكُمْ صلاتَهُ في مسْجِدِهِ، فَلْيَجْعَلْ لِبَيْتهِ نَصِيباً مِنْ صَلاتِهِ، فَإِنَّ اللَّه جَاعِلٌ في بيْتِهِ مِنْ صلاتِهِ خَيْراً » رواه مسلم.

**1130.** Cabirdən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Biriniz məsciddə namazını bitirdikdən sonra evində də qılması üçün bir pay ayırsın. Şübhəsiz ki, Allah onun evində qıldığı namazda xeyir nəsib edir".**

---

[1] "Səhih əl-Buxari", 689; "Səhih Muslim", 1301.

[2] "Səhih əl-Buxari", 414; "Səhih Muslim", 1296.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllif ﵀ fərz namazlarına bağlı nafilələri qeyd etdikdən sonra bu fəsildə qeyd edir ki, daha əfzəl olanı insanın *nafilə* namazlarını evdə qılmasıdır. Sonra da bununla bağlı hədisləri qeyd etmişdir:

Peyğəmbər ﷺ demişdir: **"Evlərinizdə namaz qılın, evlərinizdə namaz qılın".** Bununla o əmr etmişdir ki, evimizdə namaz qılaq. Fərz namazları istisna olmaqla, kişinin evində qıldığı namazlar daha fəzilətlidir. Bu da dəlildir ki, insan bütün nafilə namazlarını evində qılmalıdır – istər sünnə namazları olsun, istərsə də duha və ya təhəccüd namazları. Hətta Məkkə və ya Mədinədə belə yaxşı olar ki, nafilə namazlar evdə qılınsın. Bu, həmin namazların hətta Məscidul-haram və ya Peyğəmbər məscidi olsa belə, həmin məscidlərdə qılınmasından daha yaxşıdır. Çünki Peyğəmbər ﷺ bu sözləri Mədinədə olarkən demişdir. Halbuki, onun məscidində qılınan namaz başqa məscidlərdə qılınan namazlardan min dəfə daha fəzilətlidir.

Hal-hazırda bir çoxları *nafilə namazları* evində deyil, Məscidul-haramda qılmağı daha əfzəl hesab edirlər. Bu da cahilliyin bir növüdür. Misal üçün, Məkkədəsən və sübh namazının azanı verilir. Biri səndən soruşur ki, hansı daha yaxşıdır: sünnəni evdə qılım, yoxsa gedim məsciddə qılım? Deyirik ki, evdə qılmağın. Yaxud duha namazını evdə qılsam yaxşıdır, yoxsa Məscidul-haramda? Deyirik ki: evdə və beləcə. Fərz namazları isə istisnadır – onlar məsciddə qılınır.

Sonuncu hədisdə Peyğəmbər ﷺ buyurur ki: "**Allah onun evində qıldığı namazda xeyir nəsib edir".** Yəni evdə namaz qıldıqda, o xeyirli olur. Allah evdə namaz qıldığına görə ora xeyir nəsib edir. Həmin xeyirin biri də odur ki, ailən sənin namaz qıldığını görüb sənə qoşulur, namaza bağlanır və onu sevirlər. Ələlxüsus da azyaşlılar.

Həmçinin evdə qılınan namaz riyakarlıqdan uzaq olur. İnsan məsciddə namaz qıldıqda insanlar onu görür və ola bilsin ki, qəlbində riya yaransın. Evdə isə o, riyadan uzaqlaşır və ixlasa yaxınlaşır. Həm də insan öz evində namaz qıldıqda rahat olur, qəlbində rahatlıq tapır. Bu da onun

[1] "Səhih Muslim", 1298.

imanının artmasına səbəb olur. Mühüm olan odur ki, Peyğəmbər ﷺ bizə əmr etmişdir ki, fərz namazlar xaric digər namazları evimizdə qılaq.

Bundan həm də Ramazan qiyamının nafilələri istisnadır. Ramazan qiyamında əfzəl olan onun məsciddə camaatla qılınmasıdır. Baxmayaraq ki, bu vacib deyil, sünnədir. Lakin sünnə dəlalət edir ki, Ramazan qiyamı məsciddə daha əfzəl olur. Rəsulullah ﷺ öz səhabələrinə iki, ya da üç gecə namaz qıldırmış, daha sonra qıldırmamış və buyurmuşdur ki: **"Qorxdum ki, sizlərə fərz buyurular"**. Müvəffəq edən Allahdır.

١١٣١– وَعنْ عُمَر بْنِ عطاءٍ أَنَّ نَافِعَ بْنَ جُبَيْر أَرْسلَهُ إلى السَّائِب ابن أُخْتِ نَمِرٍ يَسْأَلُهُ عَنْ شَيْءٍ رَآهُ مِنْهُ مُعَاوِيةُ فِي الصَّلاةِ فَقَالَ: نَعمْ صَلَّيْتُ مَعَهُ الجُمُعَةَ فِي المقصُورَةِ، فَلَمَّا سَلَّمَ الإِمامُ، قُمتُ فِي مقَامِي، فَصلَّيْتُ، فَلَما دَخل أَرْسلَ إِلَيَّ فقال: لا تَعُدْ لما فعَلتَ: إذا صلَّيْتَ الجُمُعةَ، فَلا تَصِلْها حَتى تَتَكَلَّمَ أَوْ تخْرُجَ، فَإِنَّ رسولَ اللَّهِ ﷺ أَمرَنا بِذلكَ، أَنْ لا نُوصِلَ صلاةً بصلاةٍ حتَّى نَتَكَلَّمَ أَوْ نَخْرُجَ. رواه مسلم.

**1131.** Ömər ibn Ətadan rəvayət olunur ki, Nafi ibn Cubeyr onu Nəmrin bacısı oğlu Saibin yanına göndərdi ki, ondan Müaviyənin رضي الله عنه onun namazında gördüyü bir şey barəsində soruşsun. Dedi: «Bəli, mən onunla birlikdə əl-Məqsurada cümə namazı qıldım. İmam salam verdikdə mən yerimdə dayandım, namaz qıldım. O, daxil olduqda mənim yanıma adam göndərib dedi: "Bir daha belə etmə. Cümə namazını qıldıqda danışıb çıxmayınca onu başqa namaza birləşdirmə". Rəsulullah ﷺ bunu bizə əmr etmişdir ki, danışıb çıxmadan bir namazı digərinə birləşdirməyək"».

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllifin رحمه الله fərzlə sünnəni bir-birindən ayırma fəslində qeyd etdiyi bu hədis Müaviyədən رضي الله عنه rəvayət olunur. Bir dəfə o görür ki, bir nəfər cümə namazını qıldıqdan *dərhal* sonra qalxıb sünnə namazını qılır. Müaviyə də onu yanına çağırıb deyir ki, belə etmə. Ona xəbər verir ki, Peyğəmbər ﷺ

[1] "Səhih Muslim", 1463.

çıxıb danışmadan bir namazın digərinə birləşdirilməsini qadağan etmişdir. Məsələn, zöhr namazını qıldın. Zöhrdən sonrakı nafilə namazını qılmaq istəsən, həmin yerdə qılma. Qalx, başqa yerdə qıl və ya evinə get – bu daha əfzəldir. Yaxud ən azından danış. Çünki Peyğəmbər ﷺ çıxıb danışmadan bir namazın digərinə birləşdirilməsini qadağan etmişdir. Buna görə də alimlər demişlər ki, fərzlə sünnə namazı arasında ya danışmaq olmalıdır, ya da yeri dəyişmə.

Bunun da hikməti odur ki, fərz namazı sünnə namazına birləşməsin. Gərək fərz ayrıca, sünnə də ayrıca qılınsın ki, bir-birinə qarışmasın. Elm əhli, Allah onlara rəhmət eləsin, belə demişlər. Müvəffəq edən Allahdır.

## İki yüz beşinci fəsil

### Vitr namazına təşviq və onun təkid edilən sünnə olmasının və vaxtının bəyanı

**Mövzu ilə əlaqəli hədislər:**

١١٣٢– عَنْ عليٍّ رضي الله عنه قالَ: الوترُ لَيْس بِحَتْمٍ كَصَلاةِ المكْتُوبَةِ، ولكِنْ سَنَّ رسولُ اللَّهِ ﷺ قالَ: « إنَّ اللَّه وِترٌ يُحِبُّ الْوِتْرَ، فأَوْتِرُوا، يَا أَهْلَ الْقُرْآنِ ».

رواه أبو داود والترمذي وقَالَ: حديثٌ حسنٌ.

**1132.** Rəvayət olunur ki, Əli ﷺ demişdir: «Vitr fərz namazları kimi qəti *əmr* deyil, ancaq Rəsulullah ﷺ bunu sünnət buyuraraq demişdir: **"Şübhəsiz ki, Allah təkdir və vitri sevir. Elə isə, ey Quran əhli, vitri qılın"**».

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir"– demişdir.[1]

١١٣٣– وَعَنْ عَائِشَةَ رضي الله عنها ، قَالَتْ: مِنْ كُلِّ الليْلِ قَدْ أَوْتَر رسولُ اللَّهِ ﷺ مِنْ أَوَّلِ اللَّيْلِ، ومَن أَوْسَطِهِ، وَمِنْ آخِرِهِ. وَانْتَهى وِتْرُهُ إلى السَّحَرِ. متفقٌ عليه.

**1133.** Rəvayət olunur ki, Aişə ﷺ demişdir: "Bütün gecə ərzində Rəsulullah ﷺ gecənin əvvəlində, ortasında və sonunda vitri qılardı. Onun vitri sübhədək bitərdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١١٣٤– وعنِ ابنِ عُمرَ رضي الله عنهما ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: «اجْعلوا آخِرَ صلاتِكُمْ بِاللَّيْلِ وِتْراً » متفقٌ عليه

**1134.** İbn Ömərdən ﷺ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Gecə ərzində qıldığınız namazları vitrlə bitirin"**.

---

[1] "Musnəd İmam Əhmәd", 1/143; "Sunən Əbu Davud", 1207; "Sunən ət-Tirmizi", 415.

[2] "Səhih əl-Buxari", 941; "Səhih Muslim", 1230.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

**Şərh:**

Müəllif ﷺ "**Vitr namazına təşviq və onun təkid edilən sünnə olmasının və vaxtının bəyanı**" fəslində demişdir: Bilin ki, Peyğəmbərin ﷺ belə dediyi sabitdir: **"Şübhəsiz ki, Allah təkdir və vitri sevir"**.

Allah təkdir, yəni Onun şəriki yoxdur. Nöqsansız və uca Allah vitri sevir. Bu sevginin bəzi təzahürləri Onun məxluqları və əmrlərində görünür. Görünür ki, onların çoxu təkdir və tək saydadır. Beş vaxt namazın rükətlərinin sayı on yeddidir – tək saydadır. Gecə namazı on bir rükətdir – tək saydadır. Həmçinin yaratdıqlarından ən əzəmətlisi Ərşdir ki, o da tək saydadır. Səmaların sayı yeddidir. Yerin qatları yeddidir. İzzət və cəlal sahibi Allahın buyurduqlarında və məxluqlarında da təklik vardır. Çünki O, Təkdir və təki sevir.

Həmçinin bil ki, vitr iki növdür: fərz vitri, sünnə vitri.

Fərz vitrinə gəlincə, buna məğrib namazını göstərmək olar. Səhih hədisdə qeyd olunur ki, məğrib namazı günorta qılınan namazların tək sayda sonudur. Yəni günorta qılınan namazlar tək saylı namazla yekunlaşır. Baxmayaraq ki, məğrib həm də gecənin başlanğıcıdır.

Nafilə vitri isə gecə namazlarının sonunda qılınan vitr namazıdır. Peyğəmbər ﷺ demişdir: **"Gecə ərzində qıldığınız namazları vitrlə bitirin".**

Alimlər gecə namazının vitri barəsində ixtilaf etmişlər. Bəziləri onun vacib olduğunu, onu tərk edənin isə günah qazandığını bildirmişlər. Demişlər ki, o, fərz kimi deyil, o, İslamın rüknlərindən deyil, sadəcə vacibdir və insan onu tərk etdikdə günah qazanmış olur.

Bəziləri isə demişlər ki, o, sünnədir və onu tərk edən insan günah qazanmır.

Onların hər birinin dəlilləri vardır. Lakin onun vacib olmadığını bildirənlərin dəlilləri daha güclüdür. Belə ki, bir nəfər Peyğəmbərdən ﷺ ona vacib olan namazlar barəsində soruşmuş, o da beş vaxt namazı saymışdır. Sonra da onun: "Mənə başqası vacibdirmi?" sualına: "Xeyr, yalnız nafilə qıla bilərsən"– cavabını vermişdir.

---

[1] "Səhih əl-Buxari", 943; "Səhih Muslim", 1245.

Bəzi alimlər isə təfsilata vararaq demişlər ki, kim adətən gecənin sonunda namaz qılırsa, vitri də qılmalıdır. Kim belə deyilsə, yəni işanı qılıb yatırsa, beləsinin vitr qılması vacib deyil. Peyğəmbər ﷺ demişdir: **"Ey Quran əhli, vitri qılın"**.[1] Bu, onlara xasdır, onlar üçün xüsusidir. Çünki əmr ümumidir – həm onlara, həm də başqalarına şamil olunur. Bu isə xüsusi əmrdir.

Hər bir halda vitri tərk etməmək lazımdır. Hətta Sünnə əhlinin imamı və bidətlərin qənimi İmam Əhməd ibn Hənbəl demişdir: "Kim vitr namazını tərk edirsə, yaxşı adam deyil. Gərək onun şahidliyi qəbul olunmasın". Yəni onun pis adam olduğunu bildirmişdir. Çünki vitrin ən az sayı bir rükətdir. Bir rükəti qılmaq isə heç kimə çətin deyil, çox vaxt da almır. Kim bunun fəzilətini, təkidini və Peyğəmbərin ﷺ onu əmr etməsini bildiyi halda vitri tərk edərsə, pis adamdır və onda xeyir yoxdur. Onun şahidliyi də gərək qəbul olunmasın. Əgər qazi qarşısında şahidlik etsə, biz də biliriksə ki, o vitr namazını qılmır, onda onun şahidliyini geri qaytarırıq. Bu, İmam Əhmədin rəyidir. Bu da vitr namazının təkid edilən olmasını göstərir və insan gərək onu tərk etməsin.

Vitrin vaxtına gəlincə, o işa namazı və onun sünnəsindən sonra başlayıb sübhə qədər davam edir. Əgər məğriblə birlikdə işa namazı təqdim cəmi edilərsə, yəni məsələn, səfərdə olan, yaxud bərk yağış yağdıqda və sairə bu kimi hallarda namazlarını cəm edən kəs işa namazını məğriblə cəm edərsə, *onun üçün* vitr yenə də öz vaxtında daxil olur.

*Ardıcıllığa gəlincə,* əvvəlcə işa, sonra onun sünnəsi, sonra da vitr qılınır. Vitr gecənin əvvəli də qılına bilər, ortası da, axırı da. Rəvayət olunur ki, Aişə رضي الله عنها demişdir: "Bütün gecə ərzində Rəsulullah ﷺ gecənin əvvəlində, ortasında və sonunda vitri qılardı. Onun vitri sübhədək bitərdi". Vitrin vaxtı budur. Sayına gəlincə isə biz bu barədə inşəAllah danışacağıq.

Bilmək lazımdır ki, namazında rahatlığını pozacaq qədər tələsən kəsin istər fərz olsun, istərsə də nafilə namazı, sayılmır. Bir dəfə bir kişi məscidə gəlib tələsik namaz qıldıqda Peyğəmbər ﷺ ona demişdi ki: **"Get, yenidən namaz qıl, çünki sən namaz qılmamısan"**. Bu hal üç dəfə təkrarlandı.[2]

---

[1] "Səhih əl-Buxari", 44; "Səhih Muslim", 12.
[2] "Səhih əl-Buxari", 715; "Səhih Muslim", 602.

Odur ki, namazda rahatlıq önəmlidir. Adəm oğlu, onun tələsməyi, cahilliyi, zülmü necə də qəribədir: Allahla danışaraq Ondan imdad diləyərkən axı necə tələsə bilər?!

İnsan öz dostu ilə söhbət etdikdə bundan bezmədən bir-iki saat dura bilər. Bəs izzət və cəlal sahibi Allahın hüzurunda olduqda necə? Axı bu zaman o, Allahla danışıb Ona dərdini deyir, "Ey Rəbbim, bağışla məni! Uca Rəbbim nöqsansızdır. Əzəmətli Rəbbim nöqsansızdır" sözlərilə Ondan yardım diləyir. Bu zaman necə tələsə bilər? Məgər onun arxasınca ordu gəlir? – Xeyr, sadəcə bizim düşmənimiz şeytan yalnız bizlərə ziyan verə biləcək işləri sevir. O, istəyir ki, bizləri namazdan və Allahı zikr etməkdən yayındırsın. Deyir ki, tez ol, tələs! Sanki biz köz üzərində oturmuşuq.

Mən deyirəm: Ey qardaşım, özünü yoxla, çalış namazda rahat olasan. Düşün ki, sən Allahla danışırsan, Ondan yardım diləyirsən. Bununla sən onun dadını biləcəksən – namaz Peyğəmbərin ﷺ gözünün nuru olduğu kimi, sənin də gözünün nuru olacaq. Namazdan oğurluq etmək isə şeytanın əməlidir. Məlun şeytanın şərindən Allaha sığınırıq: Allahım, bizim hamımızı məlun şeytanın şərindən qoru!

١١٣٥– وَعَنْ أَبِي سعيدٍ الخُدْرِيِّ رضي الله عنه، أَنَّ النَّبِيَّ ﷺ قالَ: «أَوْتِرُوا قبْلَ أَنْ تُصْبِحُوا » رواه مسلم.

**1135.** Əbu Səid əl-Xudridən رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Səhərə çıxmamışdan öncə vitri qılın"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١١٣٦– وعن عائشةَ، رضي الله عنها، أَنَّ النَّبِيَّ ﷺ كانَ يُصلِّي صَلاتَهُ بِاللَّيْلِ، وهِيِ مُعْتَرِضَةٌ بينَ يَدَيهِ، فَإِذا بقِيَ الوِتْرُ، أَيقِظَها فَأَوْترتْ. رواه مسلم.

وفي روايةٍ له: فَإِذا بَقِيَ الوترُ قالَ: « قُومِي فَأَوْتِري يا عَائِشةُ ».

**1136.** Aişədən رضي الله عنها rəvayət olunur ki, Peyğəmbər ﷺ gecə namazını qılarkən o, Peyğəmbərin ﷺ önündə yatardı. Vitrə çatdıqda isə onu oyadar, o da vitri qılardı.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

---

[1] "Səhih Muslim", 1253.
[2] "Səhih Muslim", 1229.

Başqa bir rəvayətdə isə deyilir ki, «vitr qaldıqda deyərdi: **"Qalx, vitri qıl, ey Aişə"**».[1]

١١٣٧– وعَنِ ابن عُمَرَ رضي الله عنهما، أَنَّ النَّبِيَّ ﷺ قَالَ: « بَادِروا الصُّبْحَ بالوِتْرِ».
رَوَاه أبو داود، والترمذي وقالَ: حديثٌ حسنٌ صحيحٌ.

**1137.** İbn Ömərdən رضي الله عنهما rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Sübhdən əvvəl vitri qılın".**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən səhih hədisdir"– demişdir.[2]

١١٣٨– وعَنْ جابرٍ رضي الله عنه، قَالَ: قالَ رسولُ اللَّهِ ﷺ: « منْ خَافَ أَنْ لا يَقُوم مِنْ آخرِ اللَّيْلِ، فَلْيُوتِرْ أَوَّلَهُ، ومنْ طمِع أَنْ يقُومَ آخِرَهُ، فَليوتِرْ آخِر اللَّيْل، فإِنَّ صلاة آخِرِ اللَّيْلِ مشْهُودةٌ، وذلكَ أَفضَلُ » رواه مسلم.

**1138.** Cabirdən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim gecənin sonunda qalxa bilməyəcəyindən qorxarsa, gecənin əvvəlində vitri qılsın. Kim gecənin axırında qalxmaq istəyirsə, sonunda qılsın. Şübhəsiz ki, gecənin sonunda qılınan namaz müşahidə olunur. Bu daha əfzəldir"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

**Şərh:**

Müəllifin رحمه الله "Salehlər bağçası" əsərində qeyd etdiyi bu hədislər də vitr namazı haqqındadır. Həmin hədislərin birində Peyğəmbər ﷺ demişdir: **"Səhərə çıxmamışdan öncə vitri qılın".** Çünki vitrin vaxtı gecənin çıxan vaxtı bitir. Sübhün vaxtı girdikdə vitr qılınmır. Hətta sübhün azanı ilə iqaməsi arasında da vitr qılınmır. Lakin insan vitri qılmayıbsa və sübhün vaxtı giribsə, onu cüt sayda qılır. Məsələn, vitri üç rükət qılırsa, dörd rükət qılır. Beş rükət vitr qılırsa, altı rükət qılır. Yeddi rükət vitr qılırdısa, səkkiz

---

[1] "Səhih Muslim", 1228.
[2] "Səhih Muslim", 1243.
[3] "Səhih Muslim", 1255.

rükət qılır. Rəvayət olunur ki, Aişə ﵂ demişdir: "Peyğəmbərə ﷺ yuxu və ya ağrı güc gələrdisə, gündüz vaxtı on iki rükət namaz qılardı".

Vitr namazının qılınmasının müəyyən formaları var:

Birincisi, yalnız bir rükət qılmaqdır. Bu caizdir və vitri belə qılmaq məkruh deyil.

İkincisi, üç rükət qılmaqdır. Bu zaman həmin şəxs ixtiyar sahibidir: istəsə, iki rükətdən sonra salam verib, sonra bir rükət qılmaqla üç rükəti tamamlayar, istəsə də, birdəfəlik qılar.

Üçüncüsü, beş rükət qılmaqdır. Bu zaman birdəfəlik qılmaq və yalnız sonda təşəhhüd etmək lazımdır.

Dördüncüsü, yeddi rükət qılmaqdır. Bunu da birdəfəlik qılıb yalnız sonda təşəhhüd etmək lazımdır.

Beşincisi, doqquz rükət qılmaqdır. Birdəfəlik qılır, lakin səkkizinci rükətdən sonra təşəhhüd edir, salam vermədən qalxıb doqquzuncunu qılır və salam verir.

Altıncısı, on bir rükət qılmaqdır. Hər iki rükətdən bir salam verir və sonda bir rükət qılır.

Bunlar vitrin qılınma formalarıdır.

Qeyd etdiyimiz kimi, vitr təkid edilən sünnədir və bəzi alimlər onun vacib olduğunu bildirmişlər. Ona görə də çalış vitri buraxma. Sonra da ki, əgər gecənin sonunda oyanacaqsansa, vitri gecənin sonunda qıl. Qalxmayacağından ehtiyat etdikdə isə vitri gecənin əvvəlində qıl və vitri qılmadan yatma. Peyğəmbər ﷺ Əbu Hureyraya ﵁ tövsiyə etmişdir ki, vitri yatmamışdan öncə qılsın. Çünki Əbu Hureyra ﵁ gecənin əvvəlində Peyğəmbərin ﷺ hədislərini oxuyurdu.

Bil ki, vitr həm səfərdə olan, həm də səfərdə olmayan üçün sünnədir. Hətta səfərdə olduqda belə onu tərk etmə. Müzdəlifə gecəsi də buna aiddir. İnsan məğrib və işa namazlarını qıldıqdan sonra vitr qılınır. Baxmayaraq ki, Cabir bunu öz hədisində qeyd etməyib, lakin hər şey öz əslində qalır. Peyğəmbər də nə səfərdə, nə də ki, qeyri-səfərdə vitri buraxmırdı. Müvəffəq edən Allahdır.

# İki yüz altıncı, iki yüz yeddinci fəsillər

## Duha namazının fəziləti, onun qılındığı ən fəzilətli vaxt, onun azının, ortasının və çoxunun bəyanı, onu davamlı qılmağa təşviq

**Mövzu ilə əlaqəli hədislər:**

١١٣٩– عنْ أَبي هُريرةَ ، قال: أوصَاني خَليلي ﷺ بصِيامِ ثَلاثَةِ أَيَّامٍ مِن كُلِّ شهر، وركْعَتي الضُّحَى، وأَنْ أُوتِرَ قَبل أَنْ أَرْقُد » متفقٌ عليه.

والإيتار قبل النوم إنما يُسْتَحَبُّ لمن لا يَثِقُ بالاستيقاظ آخر اللَّيل فإنْ وثق فآخر اللَّيل أفضل.

**1139.** Rəvayət olunur ki, Əbu Hureyra  demişdir: "Dostum mənə hər aydan üç gün oruc tutmağı, duha namazını qılmağı, bir də yatmamışdan öncə vitr namazını qılmağı vəsiyyət etmişdir".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Yatmamışdan öncə vitri qılmaq gecənin sonunda qalxmayacaq şəxslər üçün müstəhəbdir. Bundan əmin olduqda isə vitri gecənin sonu qılmaq daha əfzəldir.

١١٤٠– وعَنْ أَبي ذَر ، عن النبيِّ ﷺ قال: « يُصبِحُ عَلى كُلِّ سُلامَى مِنْ أَحدِكُمْ صدقَةٌ: فَكُلُّ تَسبِيحة صدَقةٌ،وكل تحميدة صدقة، وكُل تَهليلَةٍ صدَقةٌ، وَكُلُّ تكبيرة صدَقةٌ، وأَمر بالمعْروفِ صدقَةٌ، ونهيٌ عنِ المُنْكَرِ صدقَةٌ، ويُجْزِئ مِن ذلكَ ركْعتَانِ يركَعُهُما مِنَ الضحى » رواه مسلم.

**1140.** Əbu Zərdən  rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Sizlərdən hər bir üzv və oynağın sədəqə payı vardır: hər bir "sübhanallah" sözü sədəqədir, hər bir "əlhəmdulilləh" sözü sədəqədir, hər bir "la ilahə illəllah" sözü sədəqədir, hər bir "Allahu Əkbər" sözü sədəqədir, yaxşı işlərə dəvət etmək sədəqədir, pis işlərdən çəkindirmək sədəqədir. İki rükət duha namazını qılmaq isə bütün bunları əvəz edir"**.

---

[1] "Səhih əl-Buxari", 1845; "Səhih Muslim", 1182.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١١٤١– وعَنْ عائشَةَ رضي الله عنها ، قالتْ: كانَ رسولُ اللهِ ﷺ يصلِّي الضُّحَى أَرْبعاً، ويزَيدُ ما شاءَ اللَّه. رواه مسلم.

**1141.** Rəvayət olunur ki, Aişə رضي الله عنها demişdir: "Rəsulullah ﷺ duha namazını dörd rükət qılar, dilədiyi qədər də artırardı".

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١١٤٢– وعنْ أُمِّ هانيءٍ فاخِتةَ بنتِ أَبي طالبٍ رضي الله عنها ، قَالتْ: ذهَبْتُ إِلى رسول اللهِ ﷺ عامِ الفَتْحِ فَوجدْتُه يغْتَسِلُ، فَلَمَّا فَرَغَ مِنْ غُسْلِهِ، صَلَّى ثَمانيَ رَكعاتٍ، وَذلكَ ضُحى. متفقٌ عليه. وهذا مختصر لفظ إحدى روايات مسلم.

**1142.** Ummu Hani Faxitə bint Əbu Talibdən رضي الله عنها rəvayət olunur ki, o demişdir: "Fəth ili mən Rəsulullahın ﷺ yanına gedib gördüm ki, o, qüsl alır. O, qüslünü bitirdikdən sonra səkkiz rükət duha namazı qıldı".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

Bu mətn Muslimin rəvayətlərindən birinin müxtəsəridir.

١١٤٣– عن زيدِ بن أَرْقَم رضي الله عنه ، أَنَّهُ رَأَى قَوْماً يُصَلُّونَ مِنَ الضُّحَى، فقال: أَمَا لَقَدْ عَلِمُوا أَنَّ الصَّلاةَ في غَيْرِ هذِهِ السَّاعَةِ أَفْضَلُ، إنَّ رسولَ اللهِ ﷺ قال: « صَلاةُ الأوَّابِينَ حِينَ ترْمَضُ الفِصَالُ » رواه مسلم.

**1143.** Zeyd ibn Ərqamdan رضي الله عنه rəvayət olunur ki, bir dəfə o, duha namazını qılan bir camaat görür və belə deyir: «Məgər onlar bilmirlər ki, bu namazı başqa bir vaxtda qılmaq daha əfzəldir? Rəsulullah ﷺ demişdir: **"Duha namazı kiçik dəvələrin istidən istirahət etdiyi vaxtdadır"**».

Hədisi Muslim rəvayət etmişdir.

[Hədisin ərəbcəsində keçən] "əl-fisal" dəvə balaları, "turmadu" da onların çox susadığı vaxtdır ki, bu da duhanın vaxtının sonunda olur.

---

[1] "Səhih Muslim", 1181.
[2] "Səhih Muslim", 1176.
[3] "Səhih əl-Buxari", 2935; "Səhih Muslim", 1179.

**Şərh:**

**Duha namazı** iki və daha çox rükətdən ibarətdir. Günəş bir nizə miqdarında qalxdıqdan sonra, yəni gün çıxdıqdan təxminən on beş dəqiqə sonrakı vaxtdan başlayır və günəş zenitdə olanadək davam edir. Yəni həmin vaxtdan duha namazının vaxtı başlayır və günortaya on dəqiqə və ya buna bənzər bir vaxt qalmışa qədər davam edir. Göstərilən bu vaxt duhanın vaxtıdır. Lakin onu vaxtının sonunda qılmaq daha əfzəldir. Peyğəmbər ﷺ demişdir: **"Duha namazı kiçik dəvələrin istidən istirahət etdiyi vaxtdadır".**[1]

Duha da gecikdirilməsi sünnə olan namazlardandır. Fərz namazlarından işa namazı da bunun kimidir. İşa namazını da insanlara çətin olmayacağı təqdirdə vaxtının sonunadək gecikdirmək əfzəldir.

Duha namazı Peyğəmbərin ﷺ bəzi səhabələrinə tövsiyə etdiyi namazlardandır. O, Əbu Hureyra, Əbu Dərda və Əbu Zərə رضي الله عنهم bu xüsusda tövsiyə vermişdir.

Peyğəmbərin ﷺ Əbu Hureyraya رضي الله عنه etdiyi tövsiyəni səhabə bu sözlərlə bizə çatdırmışdır: "Dostum mənə hər aydan üç gün oruc tutmağı vəsiyyət etmişdir". Ancaq burada ayın hansı günlərində oruc tutmaq göstərilməyib. Bu mövzuda bir hədisdə Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ hər ayın üç gününü oruc tutar və həmin orucların ayın əvvəlində, ortasında və ya sonunda tutmasına önəm verməzdi".[2]

Həmin orucların ardıcıl və ya fərqli günlərdə tutulması arasında fərq yoxdur – bunların hər ikisində əcr qazanılır. Lakin ən əfzəl olanı həmin orucu hər ayın on üçüncü, on dördüncü və on beşinci günləri tutmaqdır.

Peyğəmbər ﷺ Əbu Hureyraya günəş bir nizə miqdarında qalxmasından günortadan öncəyədək bir vaxtda iki rükət duha namazını qılmağı da tövsiyə etmişdir.

Üçüncüdə isə: "yatmamışdan öncə vitr namazını qılmağımı" demişdir. Bununla da ona yatmamışdan öncə vitr namazını qılmağı tövsiyə etmişdir. Çünki Əbu Hureyra gecə yatmamışdan öncə Rəsulullahın ﷺ hədislərini öyrənir və buna görə də gec yatırdı. Gecə də qalxa bilməyəcəyindən

---

[1] "Səhih Muslim", 1237.

[2] "Musnəd İmam Əhməd", 2/129; "Sunən ət-Tirmizi", 694; "Sunən İbn Macə", 1699.

qorxduğundan Peyğəmbər ﷺ ona tövsiyə edir ki, yatmamışdan öncə vitr namazını qılsın.

Daha sonra Əbu Zərin رضي الله عنه hədisində belə deyilir: **"Sizlərdən hər bir üzv və oynağın sədəqə payı vardır"** – günəşin çıxdığı hər bir gündə.

Hədisin ərəbcəsindəki **"suləmə"** sözü üzvlər, sümüklər və oynaqlar deməkdir. Öncəki alimlər demişlər ki, hər bir insanın bədənində irili-xırdalı üç yüz altmış oynaq vardır. Həmin oynaqların hər biri hər gün səndən sədəqə tələb edirlər. Çünki onu dirildib saxlayan izzət və cəlal sahibi Allahdır və Onun sənin üzərində minnəti və fəziləti vardır.

Beləliklə, hər bir üzv səndən sədəqə tələb edir. Ancaq o, mal sədəqəsi deyil, o, Allaha yaxınlaşdıran hər bir söz, əməl, malından sərf etmək və ya başqa şeylərdir: **"hər bir "sübhanallah" sözü sədəqədir, hər bir "əlhəmdulilləh" sözü sədəqədir, hər bir "la ilahə illəllah" sözü sədəqədir, hər bir "Allahu Əkbər" sözü sədəqədir, yaxşı işlərə dəvət etmək sədəqədir, pis işlərdən çəkindirmək sədəqədir"** – Allaha yaxınlaşdıran hər bir əməl sədəqədir. Bu minvalla insan gün ərzində asanlıqla üç yüz altmış sədəqə vermək iqtidarındadır.

Bunların hamısını isə iki rükət duha namazı qılmaq əvəz edir. Hər bir bədən üzvünün səndən sədəqə tələb etməsinə cavab olaraq iki rükət duha namazı qılmağın kifayət edər.

Bu da dəlalət edir ki, insan gərək həm səfərdə olduqda, həm də evdə olduqda bu namazı davamlı şəkildə qılsın. Bəs onun müəyyən bir sayı vardırmı?

Deyirik: Ən azı iki rükətdir, çoxu isə dilədiyin qədər. Bütün duha vaxtını namaz qılsan belə, sən xeyir içərisində olarsan. Bu səbəbdən Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ duha namazını dörd rükət qılar, dilədiyi qədər də artırardı". Bunda müəyyən bir hədd yoxdur. Bəziləri onun ən çox həddinin səkkiz rükət olduğunu bildirmişlər. Lakin bu rəy bir daha nəzərdən keçirilməlidir. Çünki Məkkənin fəthi zamanına aid olan Ummu Haninin hədisində deyilir ki, Rəsulullah ﷺ səkkiz rükət namaz qıldı. Lakin bu o demək deyil ki, onun ən yüksək həddi səkkizdir. O sadəcə səkkiz rükət qılmışdı və bu onun ən yüksək həddə qıldığına dəlalət etmir.

Buna əsasən bir daha deyirik: Onun ən azı iki rükətdir, ən çoxunun isə həddi yoxdur – istədiyin qədər qıl. Peyğəmbər ﷺ onu dörd rükət də qılardı, bəzən səkkiz rükət də qılardı. İnsan gərək öz ömrünü yaxşı işlərə sərf etsin. Çünki ölüm gəldiyi zaman o peşman olacaq. İzzət və cəlal sahibi Allaha yaxınlaşmadan keçirilən hər bir saata görə peşman olacaq. Allaha yaxınlaşmadan keçirdiyin hər bir saat sənin üçün məğlubiyyətdir. Odur ki, namaz, zikr, Quran oxuma, izzət və cəlal sahibi Allaha bağlılıqla fürsətdən istifadə et. Qəlbinin hər zaman nöqsansız və uca Allahla olmasına çalış. Rəbbin səmadadır, sən isə yerdəsən. Dilinlə, əməlinlə və qəlbinlə Allahı zikr etməkdən qafil olma. Uğrunda çalışdığın dünya gəldi-gedərdir və heç kimə qalmayıb.

Səndən əvvəlki yaxın-uzaq keçmişdə olmuş ümmətlərə bir nəzər sal. Səndən öncə olub getmiş insanlara bax. Onlar da dünən səninlə birlikdə ləzzət alırdılar – sənin kimi yemək yeyir, sənin kimi su içirdilər. İndi isə onlar əməlləri ilə baş-başa qalıblar. Gec-tez sənin də aqibətin elə olacaq. Uca Allah buyurur: **“Ey insan! Sən, həqiqətən də, səy göstərib Rəbbinə tərəf can atırsan. Sən Onunla qarşılaşacaqsan!”**[1]

Odur ki, ey qardaşım, fürsətləri dəyərləndir, həyat fürsətindən istifadə et. Qiyamət günü nə mal-dövlət, nə övladlar, nə də ailə insana fayda verməyəcək. Yalnız Allahın qarşısına sağlam qəlblə gələnlər istisnadır.

Uca Allahdan diləyirəm ki, məni və sizləri Rəbbinin qarşısına sağlam qəlblə gələnlərdən etsin, bizləri iman və tövhid üzərində öldürsün. Heç şübhəsiz, O, hər şeyə Qadirdir.

[1] “əl-İnşiqaq” surəsi, 6.

## İki yüz səkkizinci fəsil

### Məscidə salam namazına təşviq, hər hansı bir vaxtda məscidə daxil olduqda iki rükət namaz qılmadan oturmağın məkruhluğu – bu, məscidə salam da ola bilər, fərz də, sünnə və ya başqa namaz da

**Mövzu ilə əlaqəli hədislər**

١١٤٤– عن أَبي قتادةَ ﷺ، قالَ: قالَ رسولُ اللَّهِ ﷺ: « إذا دَخَلَ أحَدُكم المسْجِدَ، فَلا يَجلِسْ حَتَّى يُصَلِّيَ رَكْعَتيْنِ » متفقٌ عليه.

**1144.** Rəvayət olunur ki, Əbu Qatədə ﷺ demişdir: «Rəsulullah ﷺ demişdir: **"Biriniz məscidə daxil olduqda iki rükət namaz qılmadan oturmasın"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١١٤٥– وعن جابرٍ ﷺ قالَ: أَتيْتُ النَّبِيَّ ﷺ وهَو فِي المسْجدِ، فَقَالَ: «صَلِّ ركْعَتيْن » متفقٌ عليه.

**1145.** Rəvayət olunur ki, Cabir ﷺ demişdir: «Peyğəmbər ﷺ məsciddə ikən onun yanına gəldim, o da mənə dedi: **"İki rükət namaz qıl"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "Səhih əl-Buxari", 1097; "Səhih Muslim", 1167.

[2] "Səhih əl-Buxari", 424; "Səhih Muslim", 1168.

# İki yüz doqquzuncu fəsil

## Dəstəmazdan sonra iki rükət namaz qılmağın müstəhəbliyi

**Mövzu ilə əlaqəli hədislər:**

١١٤٦– عن أبي هُريرةَ ﷺ أَنَّ رَسولَ اللَّهِ ﷺ قالَ لِبلالٍ: «يَا بِلالُ حَدِّثْنِي بِأَرْجَى عَمَلٍ عَمِلْتَهُ فِي الإِسْلامِ، فَإِنِّي سمِعْتُ دَفَّ نَعْلَيْكَ بيْنَ يَديَّ فِي الجَنَّة» قَالَ: مَا عَمِلْتُ عَمَلاً أَرْجَى عِنْدِي مِنْ أَنِّي لَم أَتَطَهَّرْ طُهُوراً فِي سَاعَةٍ مِنْ لَيْلٍ أَوْ نَهارٍ إِلاَّ صَلَّيْتُ بِذلكَ الطُّهورِ ما كُتِبَ لِي أَنْ أُصَلِّيَ. متفقٌ عليه. وهذا لفظ البخاري.

« الدَّفُّ » بالفاءِ: صَوْتُ النَّعْلِ وَحَرَكَتُهُ عَلى الأَرْضِ، واللَّه أَعلم.

**1146.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ Bilala belə demişdir: **"Ey Bilal, İslamda etdiyin ən yüksək əməl barədə danış. Mən sənin Cənnətdə ayaq səslərini eşitdim"**. Dedi: "Mən ən yüksək əməl olaraq yalnız gecə və ya gündüz vaxtı hər dəfə dəstəmaz aldıqdan sonra bacardığım qədər namaz qılardım".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Bu Buxarinin ləfzidir.

[Hədisin ərəbcəsində keçən] "dəff" sözü ayaqqabının yerə dəyərkən çıxardığı səsdir. Daha doğrusunu Allah bilir.

**Şərh:**

Müəllif ﷺ bundan öncəki və bu fəsli qeyd edir:

Birinci fəsil məscidə salam namazı barəsindədir. Bu da istənilən vaxtda məscidə daxil olduqda qılınması təkid edilmiş sünnə hökmündədir. İki rükət namaz qılmadan oturmaq bəyənilmir. Həmin namazın da məscidə salam, fərz, istixarə və ya hər hansı başqa bir namaz olması fərq etmir. Əsas odur ki, *məscidə daxil olan kəs* namaz qılmadan oturmasın.

---

[1] "Səhih əl-Buxari", 1081; "Səhih Muslim", 4497.

İlk öncə məscidə salam namazı haqqında danışaq. O, təkid edilmiş əməldir. Hətta bəzi alimlər demişlər ki, o, vacibdir. Onun çox təkid edilən namaz olmasına dəlil odur ki, bir dəfə Peyğəmbər ﷺ cümə günü xütbə verərkən bir kişi məscidə daxil olub dərhal oturur. Peyğəmbər ﷺ ondan: **"Namaz qıldınmı?"**– deyə soruşur, həmin adam da: "Xeyr"– deyə cavab verir. Peyğəmbər ﷺ buyurur ki: **"Qalx və iki rükət qısa namaz qıl".**[1] Yəni namazı qısa qıl ki, xütbəni dinləyəsən.

Əgər Peyğəmbər ﷺ ona xütbə vaxtı namaz qılmağı əmr etmişdirsə – baxmayaraq ki, xütbəni dinləmək vacibdir – bu dəlildir ki, məscidə salam namazı da vacibdir. Əgər onun vacibliyinə dəlalət edən *digər aşkar* dəlillər olsaydı, biz onun vacib olduğunu deyərdik. Lakin o, istənilən vaxtda təkid olunan sünnə hökmündədir – sübh namazından sonra məscidə daxil olsan, iki rükət namaz qıl. Əsr namazından sonra məscidə daxil olsan, iki rükət namaz qıl. Gün çıxdığı zaman iki rükət namaz qıl. Gün batmamıışdan öncə iki rükət namaz qıl və oturma. Daxil olduqda görsən ki, imam xütbə verir, sən iki rükət namaz qıl. Yaxud daxil olub görsən ki, insanlar elm məclisindədir, sən də həmin məclisə gəlmisən, iki rükət namaz qılmadan oturma. Ancaq burada iki hal istisnadır:

Birincisi, xütbə vermək üçün məscidə daxil olanın iki rükət namaz qılması sünnəyə uyğun deyil. O, minbərə doğru gedib, insanlara salam verərək xütbə verməlidir.

İkincisi, Məscidul-harama təvaf məqsədilə daxil olanın təvafı onun iki rükət namaz qılmasını əvəz edir. Namaz məqsədilə Məscidul-harama daxil olan kəs isə başqa məscidlərdə olduğu kimi, məscidə salam namazı qılmalıdır.

İnsanlar arasında belə bir fikir yayılmışdır ki, Məscidul-haramın salamı təvafdır. Bunun bir əsası yoxdur. Əksinə deyilir ki, kim Məscidul-harama təvaf məqsədilə daxil olursa, təvaf etməsi ona kifayət edir. Kim də dərs dinləmək, fərz namazını gözləmək və ya başqa bu kimi məqsədlərlə daxil olarsa, başqa məscidlərdə olduğu kimi, məscidə salam namazını qılmadan oturmamalıdır. Hətta imamın cümə günü xütbə verdiyi əsnada məscidə daxil olan kəs də iki rükət qısa namaz qılmalıdır. Həmçinin birisi

[1] "Səhih əl-Buxari", 878; "Səhih Muslim", 1445.

müəzzin azan verdikdə məscidə daxil olarsa, cümə namazı olmadığı təqdirdə ayaq üstə dayanaraq azanın bitməsini gözləyir, sonra azandan sonrakı duanı oxuyur, daha sonra isə iki rükət namaz qılır. Onun məscidə daxil olmağı cümə namazının ikinci azanının verildiyi vaxta təsadüf edirsə, o, azanın bitməsini gözləmədən məscidə salam namazını qılır ki, xütbəni dinləməyə tələssin. Elm əhli, Allah onlara rəhmət eləsin, belə demişlər.

Haqqında danışmaq istədiyim ikinci fəsil isə dəstəmazın sünnəsi ilə bağlıdır. İnsan gərək istənilən vaxtda, hətta əsr və ya sübh namazlarından sonra olsa belə, dəstəmaz aldıqda iki rükət namaz qılsın. İstənilən vaxtda dəstəmaz aldınsa, gərək iki rükət namaz qılasan. Çünki Peyğəmbər ﷺ Bilal ibn Əbu Rabəhdən رضي الله عنه İslamda etdiyi ən yüksək əməl barədə soruşduqda o: "Mən ən yüksək əməl olaraq yalnız gecə və ya gündüz vaxtı hər dəfə dəstəmaz aldıqdan sonra bacardığım qədər namaz qılardım"– demiş, Peyğəmbər ﷺ də bununla razılaşmışdı.

Bu iki rükəti qıldıqda da çalışmalısan ki, şeytanın vəsvəsələrinə qarşı mübarizə aparasan. Yəni namaza aid olmayan hər hansı bir məsələ barədə düşünməməlisən. Əksinə, bütün fikrin və zikrin namazda olmalıdır.

Peyğəmbər ﷺ buyurur ki: **"Kim gözəl tərzdə dəstəmaz aldıqdan sonra iki rükət namaz qılarsa, Allah onun keçmiş günahlarını bağışlayar".**[1] Bunu edən istər evində dəstəmaz alsın, istər məscidin dəstəmazxanasında, yaxud başqa bir yerdə dəstəmaz alsın, iki rükət namaz qılmalıdır. Müvəffəq edən Allahdır.

---

[1] "Səhih əl-Buxari", 155; "Səhih Muslim", 331.

# İki yüz onuncu fəsil

## Cümə gününün fəziləti, onun vacibliyi, onun üçün namaz qılmaq, ətirlənmək, ona tələsmək; cümə günü dua, Peyğəmbərə ﷺ salavat demək; icabət saatı barədə; habelə cümədən sonra Allahı çoxlu zikr etmək

**Mövzu ilə əlaqəli ayə:**

Uca Allah buyurur:

﴿ فَإِذَا قُضِيَتِ ٱلصَّلَوٰةُ فَٱنتَشِرُوا۟ فِى ٱلْأَرْضِ وَٱبْتَغُوا۟ مِن فَضْلِ ٱللَّهِ وَٱذْكُرُوا۟ ٱللَّهَ كَثِيرًا لَّعَلَّكُمْ تُفْلِحُونَ ﴾

**“Namaz başa çatdıqdan sonra yer üzünə dağılışıb Allahın lütfünü axtarın və Allahı çox zikr edin ki, bəlkə nicat tapasınız”.**[1]

**Şərh:**

Müəllif ﷺ “Salehlər bağçası” əsərində cümə namazının fəziləti – “**Cümə gününün fəziləti, onun vacibliyi, onun üçün namaz qılmaq, ətirlənmək, ona tələsmək; cümə günü dua, Peyğəmbərə ﷺ salavat demək; icabət saatı barədə; habelə cümədən sonra Allahı çoxlu zikr etmək**” fəslini qeyd edir.

O, cümə gününün bəzi xüsusiyyətlərini qeyd edərək bildirir ki, cümə günü cümə axşamı ilə şənbə gününün arasında olan gündür. Həmin gün bu ümmət üçün xüsusiləşmişdir. Allah yəhudi və nəsraniləri ondan məhrum etmişdir. Yəhudilərin şənbə günü, nəsranilərin isə bazar günü var idi. Onlar bizdən öncə yaranmış olsalar da, bizim ümmətə tabe olmalıdırlar. Bu da ümmətimizin fəzilətlərindəndir. Allaha həmd olsun!

Cümə günü özəllikləri olan elə bir gündür ki, şənbə və bazar günlərində həmin xüsusiyyətlər yoxdur. Lakin yəhudi və nəsranilər cümə gününə iman gətirmirlər. Ona görə də həmin gün bizlərə xasdır.

Cümə gününün özünəməxsus özəllikləri barədə İbn əl-Qeyyimin “Zad əl-məad” əsərində gözəl bir şəkildə qeyd olunur. Onu oxuyan kəs dolğun, faydalı məlumatlar əldə edə bilər.

---

[1] “əl-Cumuə” surəsi, 10.

Müəllif ﷺ fəslin əvvəlində Uca Allahın aşağıdakı ayəsini qeyd edir: **“Namaz başa çatdıqdan sonra yer üzünə dağılışıb Allahın lütfünü axtarın və Allahı çox zikr edin ki, bəlkə nicat tapasınız”.**[1]

Bu, özündən əvvəlki ayənin davamıdır: **“Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığı zaman Allahı yad etməyə tələsin və alış-verişi buraxın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!”.**[2]

Uca Allah möminlərə xitab edir ki, cümə namazının azanı verildikdə alış-verişi tərk etsinlər. Burada imam gəldikdən sonra verilən ikinci azan nəzərdə tutulur. Birinci azana gəlincə isə Osman ibn Əffan ﷺ Mədinədə insanların çoxalmasından sonra əmr etmişdi ki, azan verilsin və insanlar namaza hazırlaşsınlar. Bu raşidi xəlifələrin sünnəsindəndir ki, ona tabe olmağa əmr olunmuşuq. Peyğəmbər ﷺ demişdir: **“Mənim və məndən sonrakı hidayət olunmuş raşidi xəlifələrin yoluna tabe olun”.**[3]

Bunun bidət olduğunu deyən kəs zəlalətə düşmüşdür. Bununla o, səhabələri və raşidi xəlifələri səfeh hesab edir. Biz ona deyirik ki, iddia etdiyin bu rəydə bidətçi sənsən. Necə bidət ola bilər? Axı Peyğəmbər ﷺ bunu Sünnə adlandırıb: **“Məndən sonrakı hidayət olunmuş raşidi xəlifələrin yoluna”**. Lakin elələri, yaşları çox olsa belə, səfeh gənclərdir. Sən necə səhabələri, ələlxüsus da onların rəhbəri Osman ibn Əffanı ﷺ zəlalətdə ittiham edə bilərsən? Bundan sonra da iddia edirsən ki, sən Sünnə üzərindəsən? Bu rəydə bidətçi sənsən.

İzzət və cəlal sahibi Allah buyurur: **“Cümə günü namaza çağırıldığı zaman Allahı yad etməyə tələsin”.** Burada Allahı zikr etmək deyildikdə xütbə və namaz nəzərdə tutulur. Xütbədə şəhadət, əhkamlar zikr olunur, moizə edilir və başqa sözlər deyilir. Namazda zikrin olması isə məlum məsələdir.

**“Alış-verişi buraxın”,** yəni tərk edin. Buna görə də cümə günü namaza çağırış olunduqdan sonra alış-veriş etmək haramdır. Yalnız cümənin onlara vacib olmadığı kəslər, məsələn, qadınlar istisnadır. Cümə vacib olan kəslərin isə ticarət etməsi haramdır – ticarət edərlərsə, bu doğru deyil. Hətta məscid yolunun üzərində olsa belə, cümənin azanını eşidərsə və

---

[1] “əl-Cumuə” surəsi, 10.

[2] “əl-Cumuə” surəsi, 9.

[3] “Sunən ət-Tirmizi”, 2600; “Sunən İbn Macə”, 42.

dostundan bir şey alarsa, həmin alış-veriş batildir. Bununla nə mal müştəriyə aid olmur, nə də pul satıcının olmur. Çünki o batildir. Allahın qadağan etdiyi hər bir şey batildir. Peyğəmbər ﷺ demişdir: **"Allahın kitabında olmayan hər hansı bir şərt batildir".**[1]

**"Cümə günü namaza çağırıldığı zaman Allahı yad etməyə tələsin"** ayəsi müsafirə də aiddir. Əgər səfərdə olan kəs cümə azanını eşidərsə, ora getməlidir. Çünki o, mömindir. Desə ki, "mən müsafirəm", deyirik: "Məgər mömin deyilsənmi?" Deyəcək: "Bəli". Deyirik: «Elə isə dinlə: **"Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığı zaman Allahı yad etməyə tələsin və alış-verişi buraxın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!"**» Yəni alqı-satqıdan daha xeyirlidir. Çünki burada İslamın şüarlarından biri vardır. Vacibi yerinə yetirmək ticarətdən daha xeyirlidir.

**"Bilsəniz"**, yəni elminiz varsa, bilin ki, bu xeyirlidir. Bu şərt cümləsinin mənası ticarəti tərk edib cüməyə tələsməyə təşviqdir.

**"Namaz başa çatdıqdan sonra yer üzünə dağılışıb Allahın lütfünü axtarın",** yəni buna rüxsətiniz var. Yer üzərində dağılışıb ticarət etməklə Allahın ruzisini tələb edin. Lakin bu da sizi Allahı zikr etməkdən yayındırmasın. Çünki Rəbbimiz buyurur: **"Allahı çox zikr edin".** Yəni elə düşünməyin ki, namaz və xütbə ilə Allahı zikr etməyi bitirdikdə, zikri bitirmisiniz. Xeyr, Allahı zikr etmək hər zaman, hər yerdə olmalıdır. Uca Allah buyurur: **"Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır".**[2]

Bəs ağıl sahibləri kimlərdir? – **"O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər, göylərin və yerin yaradılışı haqqında düşünər** *və deyərlər:* **"Ey Rəbbimiz, Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!".**[3]

Xülasə, namaz bitdikdən sonra oturmaq lazım deyil. Çıxıb səy göstərərək Allahın ruzisini tələb et. Ona görə də İmam Əhməd demişdir: "Namazdan sonra kimsə danışdıqda, onu dinləmə! Yalnız sultandan gələn məktub istisnadır. Çünki sultan tərəfindən göndərilmiş məktublara rəiyyət qulaq asmalıdır. Belə ki, sultanın rəiyyət üzərində haqqı vardır. Ona

[1] "Musnəd İmam Əhməd", 6/213; "Sunən İbn Macə", 2512.
[2] "Ali İmran" surəsi, 190.
[3] "Ali İmran" surəsi, 191.

müraciət edə və onu xeyirə yönəldə bilər. Digər nəsihətlərə gəlincə isə iki xütbədə olanlar kifayət edir. Ən xeyirli hidayət kimindir? – Muhəmmədin. Onun isə namazdan sonra xütbə verməsi nə səhih, nə də ki, zəif bir hədisdə rəvayət olunmamışdır.

Bəzi insanlar bunu sünnə hesab edirlər – hər dəfə cümə namazı bitdikdə qalxıb danışır. Bu zaman cümənin neçə xütbəsi olur? Üç xütbəsi. Bu haradan gəlib? Əgər zərurət varsa və ya sultandan, yaxud onun köməkçisindən, nazirlərdən, ya da başqalarından məktub varsa, bəli, bu zaman danışa bilərik – onu insanlara oxumaq olar ki, onlar da eşitsinlər.

Uca və böyük Allahın **"bəlkə nicat tapasınız"** ayəsinin *ərəbcəsində keçən* "ləallə" sözü rica deyil, açıqlama mənasındadır. Allahın kitabında "ləallə" sözü hər zaman açıqlama mənasındadır. Çünki rica çətinliklə üzləşən adamlarda olur, izzət və cəlal sahibi Rəbbimiz üçün isə hər şey asandır. Odur ki, Quranda "ləallə" sözü açıqlama mənasındadır. Məsələn, **"Ey iman gətirənlər, sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə *Allahdan* qorxasınız"**[1] ayəsində **"bəlkə *Allahdan* qorxasınız"** ifadəsi "Allahdan layiqincə qorxmağınız üçün" mənasında olduğu kimi, **"bəlkə nicat tapasınız"** da "nicat tapasınız deyə" mənasındadır. Allah həm bizə, həm də sizə nicat və islah, hidayət və düzgünlük nəsib etsin. Allah bizlərə hidayət versin, Allah bizimlə hidayət versin. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

**Qeyd:** Bu məqamda xüsusilə vurğulamaq istərdim ki, cümənin ikinci azanından sonra alış-veriş etmək hər şeyə, hətta misvak çubuqlarına belə aiddir. Çox vaxt məscidlərin ətrafında onun alış-verişi edilir ki, *ikinci azandan sonra* heç onu da almaq, satmaq caiz deyil. Daha doğrusunu Allah bilir.

**Mövzu ilə əlaqəli hədislər:**

١١٤٧– وعَنْ أَبي هُريرةَ رضي الله عنه ، قالَ: قالَ رسولُ الله صلى الله عليه وسلم : «خيْرُ يوْمٍ طلعَتْ عَلَيْهِ الشَّمْسُ يَوْمُ الجُمُعَةِ: فِيهِ خُلِقَ آدمُ، وَفيه أُدْخِلَ الجَنَّةَ، وفيه أُخْرِجَ مِنْهَا » رواه مسلم.

[1] "əl-Bəqərə" surəsi, 183.

**1147.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Günəşin çıxdığı ən xeyirli gün cümə günüdür – o gün Adəm yaradılıb, o gün Cənnətə daxil edilib, o gün də oradan çıxarılıb".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Hafiz ən-Nəvəvi ﷺ "Salehlər bağçası" əsərində cümənin fəziləti və onunla əlaqəli məsələlər fəslini qeyd edir.

Əbu Hureyradan ﷺ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Günəşin çıxdığı ən xeyirli gün cümə günüdür".** Burada ən xeyirli gün deyildikdə, həftənin ən xeyirli günü nəzərdə tutulur. Bunu ona görə qeyd edirik ki, Peyğəmbərin ﷺ digər bir hədisi ilə ziddiyyət təşkil etməsin: **"Günəşin çıxdığı ən xeyirli gün Ərəfa günüdür".**[2] Ərəfa günü ilin ən xeyirli günüdür. Cümə isə həftənin ən xeyirli günüdür. Adəm həmin gün yaradılmışdır.

Adəm bəşəriyyətin atasıdır. İzzət və cəlal sahibi Allah onu öz Əli ilə torpaqdan yaratmış, sonra ona: "Ol!" demiş, o da olmuşdur. Allah onu cümə günü yaratmış və həmin gün də onu və zövcəsini Cənnətə daxil etmişdir. Bu haqda O belə buyurur: **"Ey Adəm, sən zövcənlə birlikdə Cənnətdə sakin ol. Bəyəndiyiniz yerlərdə yeyin, ancaq bu ağaca yaxınlaşmayın! Yoxsa *özlərinə* zülm edənlərdən olarsınız".**[3]

Allah onlara izin vermişdi ki, Cənnətin bütün meyvələrindən yesinlər. Yalnız imtahan olaraq bir ağacı onlara qadağan etmişdi. Sonra isə: **"Şeytan onlara vəsvəsə verdi"**[4], **"Beləliklə, *şeytan* onları tovlayaraq Cənnətdən aşağı endirdi".**[5]

Şeytan onlara and vermişdi ki, əgər həmin ağacın meyvəsindən yesəniz, fani olmayan əbədi həyata nail olacaqsınız. Onlara o qədər *davamlı* vəsvəsə verdi ki, sonunda onlar həmin meyvəni yedilər. Uca Allah onların övrət yerlərini görünməz etmişdi. Həmin meyvəni yeməklə övrət yerləri

---

[1] "Səhih Muslim", 331.
[2] "Sunən ət-Tirmizi", 3262.
[3] "əl-Əraf" surəsi, 19.
[4] "əl-Əraf" surəsi, 20.
[5] "əl-Əraf" surəsi, 22.

aşkara çıxdı. Hər biri digərinin övrətinə baxmağa başladı – Adəm Həvvanın, Həvva da Adəmin övrətinə. Onlar izzət və cəlal sahibi Allahın haram buyurduğu əməli etdiklərinə və ağacın meyvəsindən yediklərinə görə övrət yerləri görünmüşdü. Uca Allah bu xüsusda buyurur: **“Beləliklə, Adəm Rəbbinə asi olub səhv yol tutdu”.**[1]

Onlar həmin meyvədən yedikdən sonra izzət və cəlal sahibi Allah onlara əmr edir ki, yerə ensinlər. O onları Cənnətdən çıxararaq yerə endirdi. Bu da izzət və cəlal sahibi Allahın hikmətindəndir. Çünki bu olmasaydı, bəşəriyyət də yaranmış olmazdı. Bu *möhtərəm* xəlifənin başına belə bir imtahan gəldi. Lakin Uca Allah hər bir işə bir səbəb təqdir etmişdir.

Görürsünüzmü, onlar bir asilik səbəbindən uca Cənnətdən yerə endirildilər. Bəs gecə-gündüz günahlar edən bizlərin halımız necə olacaq? Allahdan diləyirik ki, bizlərlə və sizinlə öz əfvi ilə rəftar etsin. Bununla belə biz yenə ümidlər edərək xəyallar qururuq. Xəyal edirik ki, bizlər uca dərəcələrdəyik. Əslində isə bizlər günahlarımızın çoxluğu, vaciblərdəki nöqsanlar, habelə qəlbimizdəki nifrət və kin səbəbindən aşağı enmişik. Allah bizim və sizin tövbələrimizi qəbul etsin, həm bizim, həm də sizin qəlblərimizi islah etsin.

Adəmin endiyi Cənnət barədə alimlər ixtilaf etmişlər ki, o, Məva Cənnətidir, yoxsa bol suyu, təmiz havası olan gözəl bir bağdır? Doğru olan budur ki, o həmin Xuld Cənnətidir. İbn əl-Qeyyim bu barədə demişdir:

*Gəlin Ədn Cənnətinə, həqiqətən o,*
*Sənin ilk mənzilindir, orada çadırlar var.*

Heç şübhəsiz, Allah hər şeyə Qadirdir.

Beləliklə, cümə gününün fəzilətindəndir ki, Adəm həmin gün yaradılmış, həmin gün Cənnətə girmiş və həmin gün də oradan çıxarılmışdır. Bunların hər biri bir hikmətdir – Adəmin yaradılışı hikmətdir, Cənnətə daxil olması hikmətdir, günah edərək yerə enməsi də bir başqa hikmətdir. Lakin bilin ki, Adəm və zövcəsi Allaha tövbə etmişlər: **“Hər ikisi: “Ey Rəbbimiz, biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan və bizə rəhm etməsən, əlbəttə, ziyana uğrayanlardan olarıq”– dedilər”.**[2]

---

[1] “Ta ha” surəsi, 121.
[2] “əl-Əraf” surəsi, 23.

Uca Allah həmçinin buyurur: **“Sonra Rəbbi onu seçib tövbəsini qəbul etdi və *onu* doğru yola yönəltdi”.**[1] Onun tövbədən sonrakı halı, tövbədən öncəki halından daha xeyirli idi. Müvəffəq edən Allahdır.

١١٤٨– وَعَنْهُ قَالَ: قال رَسُولُ اللَّهِ ﷺ: « مَنْ تَوَضَّأَ فأَحْسَنَ الوُضُوءَ ثُمَّ أَتى الجُمُعَةَ، فاسْتَمَعَ وَأَنْصتَ، غُفِرَ لَهُ ما بَيْنَه وَبَيْنَ الجُمُعَةِ وزِيَادة ثَلاثَةِ أَيَّامٍ، وَمَنْ مَسَّ الحَصَى، فَقَدْ لَغَا ». رواه مسلم.

**1148.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Kim gözəl tərzdə dəstəmaz alar, sonra da cüməyə gələrək susub dinləyərsə, onunla növbəti cümə gününə, hətta üç gün artıq bir müddətədək olan günahları bağışlanar. Kim daşa toxunarsa, cüməsini zay edər”**.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١١٤٩– وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قالَ: « الصَّلَواتُ الخَمْسُ والجُمُعةُ إلى الجُمعةِ، وَرَمَضَانُ إلى رمَضَانَ، مُكَفِّرَاتٌ ما بيْنَهُنَّ إذا اجْتُنِبَتِ الكبَائِرُ » رواه مسلم.

**1149.** Yenə ondan rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **“Beş vaxt namaz *arası*, cümədən növbəti cüməyədək, Ramazandan növbəti Ramazanadək böyük günahlardan çəkinilərsə, digər günahlar əfv olunar”.**

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

١١٥٠– وَعَنْهُ وعَنِ ابنِ عُمَرَ رضي الله عنهم ، أَنَّهما سَمِعَا رسولَ اللَّه ﷺ يقولُ عَلَى أَعْوَادِ مِنْبَرِهِ: « لَيَنْتَهِيَنَّ أَقْوَامٌ عَنْ وَدْعِهِمُ الجمُعَاتِ، أَوْ لَيَخْتِمَنَّ اللَّه على قُلُوبِهِمْ، ثُمَّ ليَكُونُنَّ مِنَ الغَافِلِينَ » رواه مسلم.

**1150.** Əbu Hureyra və İbn Ömər رضي الله عنهما Rəsulullahın ﷺ minbərdən belə dediyini eşitdiklərini rəvayət etmişlər: **“Bəzi insanlar cüməni tərk edəcəklər. Allah onların qəlbinə möhür vuracaq, sonra da onlar qafillərdən olacaqlar”**.

---

[1] “Ta ha” surəsi, 122.

[2] “Səhih Muslim”, 1419.

[3] “Səhih Muslim”, 344.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١١٥١– وَعَن ابنِ عُمَرَ رضي الله عنهما ، أَنَّ رَسولَ اللَّهِ ﷺ ، قالَ: «إِذا جاءَ أَحَدُكُمُ الجُمُعَةَ، فَلْيَغْتَسِلْ » متفقٌ عليه.

**1151.** İbn Ömərdən رضي الله عنهما rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Sizlərdən biriniz cüməyə getdikdə qüsl alsın"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١١٥٢– وعن أبي سعيدٍ الخُدْرِيّ رضي الله عنه ، أَنَّ رسولَ اللَّهِ ﷺ قالَ: « غُسْلُ يَوْمِ الجُمُعَةِ وَاجِبٌ على كلِّ مُحْتَلِمٍ » متفقٌ عليه.

المُراد بالمُحْتَلِمِ: البَالِغُ. وَالمُرَادُ بِالوُجُوبِ: وَجُوبُ اختِيَارٍ، كقَوْلِ الرَّجُلِ لِصَاحِبِهِ حَقُّكَ وَاجِبٌ عليَّ، والله أعلم.

**1152.** Əbu Səid əl-Xudridən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Həddi-büluğa çatmış hər kəsə cümə günü qüsl almaq vacibdir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

[Hədisin ərəbcəsində keçən] "əl-muhtəlim" həddi-büluğa çatmış kəsdir, "vacib" deyildikdə isə ixtiyari vaciblik nəzərdə tutulur. Məsələn, adam öz dostuna deyir ki, sənin haqqın mənim üzərimdə vacibdir. Daha doğrusunu Allah bilir.

١١٥٣– وَعَنْ سَمُرَةَ رضي الله عنه قالَ: قالَ رَسُولُ اللَّهِ ﷺ: « مَنْ تَوَضَّأَ يَوْمَ الجمعة فَبِها ونعمت، ومن اغتسلَ فالغُسْلُ أفضَل ». رواه أبو داود، والترمذي وقال: حديث حسن.

**1153.** Rəvayət olunur ki, Səmura رضي الله عنه demişdir: «Rəsulullah ﷺ demişdir: **"Kim cümə günü dəstəmaz alarsa, çox gözəl olar. Qüsl almış olarsa, qüsl daha əfzəldir"**».

[1] "Səhih Muslim", 1432.
[2] "Səhih əl-Buxari", 828; "Səhih Muslim", 1393.
[3] "Səhih əl-Buxari", 830; "Səhih Muslim", 1397.

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir"– demişdir.[1]

**Şərh:**

Hafiz ən-Nəvəvinin "Salehlər bağçası" əsərində qeyd etdiyi bu hədislər cümə namazı ilə əlaqəlidir.

Həmin hədislərin birində deyilir ki, insan evində dəstəmaz aldıqdan sonra məscidə gələrsə, sonra da imam işini bitirənədək sakit oturarsa, iki cümə arasındakı günahları onun üçün bağışlanar.

**"Kim daşa toxunarsa, cüməsini zay edər"**, yəni cümənin fəzilətindən məhrum olar. Bu zaman o, zöhr namazının savabını qazanır, cümə namazının savabından isə məhrum olur. Mənası odur ki, Peyğəmbərin ﷺ məscidində çoxlu xırda daşlar olurdu. Həmin vaxt məsciddə nə xalı vardı, nə də ki, qum. O zaman məsciddə cəmərata atılan daşlara bənzər daşlar olurdu. Kim də həmin daşlara toxunarsa, yəni onlarla oynayarsa, cüməsini zay etmiş olur. Belə ki, o bunu etməklə xütbədən yayınmış olur. Xütbəni dinləmək isə vacibdir. Buna görə Peyğəmbər demişdir: **"İmam xütbə verərkən danışan kəs yük daşıyan uzunqulağa bənzəyir".**[2] Yəni o, kitab daşıyan, lakin ondan faydalana bilməyən uzunqulağa bənzəyir. Hətta ona: "Sus!" deyən kəsin də cümə namazı pozulmuş olur və o, cümənin əcrindən məhrum olur.

Muslimin rəvayət etdiyi hədisdə deyilir: **"Kim cümə günü dəstəmaz alarsa"**. Əbu Səid əl-Xudridən رضي الله عنه nəql olunan hədisdə isə deyilir: **"Cümə günü qüsl almaq həddi-büluğa yetişmiş hər kəsə vacibdir"**. Əbu Səidin hədisini götürmək bir neçə yöndən daha önəmlidir.

Birincisi, Əbu Səidin رضي الله عنه hədisində əlavə vardır ki, bu da "vacibdir" sözüdür. Yəni qüsl almaq vacibdir. Əbu Hureyranın رضي الله عنه hədisində isə "dəstəmaz almaq" deyilir. Əlavəni götürmək vacibdir.

İkincisi, Əbu Səidin رضي الله عنه hədisində yeddi alim – Buxari, Muslim, Əhməd, Nəsai, Tirmizi, Əbu Davud və İbn Macə ittifaq etmişlər. Əbu Hureyranın hədisini isə yalnız Muslim rəvayət etmişdir. Məlum məsələdir ki,

---

[1] "Musnəd İmam Əhməd", 5/16; "Sunən Əbu Davud", 300; "Sunən ət-Tirmizi", 1363; "Sunən İbn Macə", 1081.

[2] "Əmsal əl-hədis", 1/89.

yeddi mühəddisin ittifaq etdiyi hədis yalnız Muslimin nəql etdiyi hədisdən üstündür.

Başqa bir məqam. Əbu Səidin ﷺ hədisində Peyğəmbər ﷺ *cümə qüslünün* həddi-büluğa çatanlar üçün vacibliyini qeyd etmişdir. Belə ki, hədisdə: **"həddi-büluğa çatmış hər kəsə"**– deyilir. "Muhtəlim" də həddi-büluğa çatmış kəsə deyilir.

İnsan həddi-büluğa çatdıqda mükəlləf olur. Buna görə də deyirik ki, elm əhlinin bu məsələ barəsindəki racih rəyinə əsasən həm qış, həm də yay fəsli ərzində cümə günü qüsl almaq vacibdir – istər həmin adam kirli olsun, istərsə də təmiz. Çünki Peyğəmbərin ﷺ bu xüsusdakı sözü aydındır. Həmçinin səhabələrin anladıqları da məhz bu olmuşdur.

Bir dəfə möminlərin əmiri Ömər ibn əl-Xəttab xütbə verərkən Osman ibn Əffan *məscidə* daxil olur və *onu qınayan Ömərə* etiraz edərək deyir: "Ey möminlərin əmiri, vallahi ki, dəstəmaz alıb gəldim". Dedi: "Həmçinin dəstəmaz". Peyğəmbər ﷺ demişdir: **"Sizlərdən biriniz cümə günü dəstəmaz alsın"**. Yəni, nə cür yalnız dəstəmazı qeyd edirsən? Beləliklə o, səhabələrin qarşısında onun sözünə etiraz edir.

Xülasə, racih rəy budur ki, cümə günü qüsl almaq vacibdir.

Yaxşı, bəs əgər birisi cümə qüslü almasa cüməsi batilmi olur? Xeyr, batil olmur. Çünki bu hədəs vəziyyətindən təmizlənmək üçün alınan qüsl deyil. Bu zaman deyirik ki, o, təharətsiz namaz qıldı. Lakin bu qüsl (cümə qüslü) hədəs vəziyyətində olmayan üçün vacibdir, cənabət qüslünü də əvəz etmir. Əgər bir insan cənabət halında ikən cümə qüslü alarsa və bu zaman cənabət qüslünə niyyət etməzsə, olmaz. Çünki cümə qüslü cənabət qüslündən fərqli olaraq hədəs vəziyyətini aradan qaldırmır. Müvəffəq edən Allahdır.

١١٥٤– وَعَنْ سَلمَانَ رضي الله عنه قال: قَالَ رَسُولُ اللَّه ﷺ: « لا يَغْتَسِلُ رَجُلٌ يَوْمَ الجُمُعةِ، ويَتَطَهرُ ما استَطَاعَ مِنْ طُهْرٍ، وَيدَّهِنُ مِنْ دُهْنِهِ، أَو يَمَسُّ مِن طِيبِ بَيتِهِ، ثُمَّ يَخْرُجُ فلا يُفرِّق بَيْنَ اثنَيْنِ، ثُمَّ يُصَلِّي مَا كُتِبَ لَهُ، ثُمَّ يُنْصِتُ إذا تكَلَّم الإِمَامُ، إلاَّ غُفِرَ لهُ ما بَيْنَه وبيْنَ الجُمُعَةِ الأخرَى » رواه البخاري.

**1154.** Rəvayət olunur ki, Salman ﵁ demişdir: «Rəsulullah ﷺ demişdir: **"Kişi cümə günü qüsl alıb bacardığı qədər təmizləndikdən sonra yağ sürtər, yaxud evinin ətirindən vurarsa, sonra da çıxıb iki nəfəri bir-birindən ayırmazsa, sonra da ona fərz olan namazlardan qılarsa, sonra da imam danışarkən susarsa, növbəti cüməyədək olan günahları bağışlanar".**

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

١١٥٥– وعَـنْ أَبي هُريـرةَ ﵁، أَنَّ رسـول الله ﷺ قـال: «مَـن اغْتَسَـلَ يَـوْم الجُمُعَـةِ غُسْـلَ الجنَابَـةِ، ثُـمَّ رَاحَ في السـاعة الأولى، فكَأَنَّمَـا قـرَّبَ بَدنَـةً، ومـنْ رَاحَ في السَّـاعَةِ الثَّانِيَـة، فكأنَّما قَـرَّبَ بَقَـرَةً، وَمَنْ رَاحَ في السَاعَةِ الثَالِثةِ، فكأنَّما قَـرَّبَ كَبْشـاً أَقـرَنَ، ومنْ رَاحَ في السَّـاعَةِ الرَّابِعةِ، فَكَأنَّمـا قَـرَّبَ دَجَاجَـةً، ومنْ رَاحَ في السَّـاعَةِ الخامِسـةِ فكأنَّما قَـرَّبَ بيْضَـةً، فَـإِذا خَـرَجَ الإِمامُ، حَضَرَتِ الملائِكَةُ يَسْتمِعُونَ الذِّكرَ» متفقٌ عليه.

قوله: « غُسلَ الجَنَابة »، أَي: غُسلاً كغُسْل الجنَابَةِ في الصِّفَةِ.

**1155.** Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim cümə günü cənabət qüslü alar, sonra da birinci saatda *məscidə* gedərsə, bir dəvə kəsmiş kimi olar. Kim ikinci saatda gedərsə, inək kəsmiş kimi olar. Kim üçüncü saatda gedərsə, buynuzlu qoç kəsmiş kimi olar. Kim dördüncü saatda gedərsə, toyuq kəsmiş kimi olar. Kim də beşinci saatda gedərsə, yumurta vermiş kimi olar. İmam *minbərə* çıxdıqda mələklər gəlib zikri dinləyərlər"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

**"Cənabət qüslü"**, yəni cənabət qüslü kimi.

**Şərh:**

Bu hədislər cümə günü və namazı barəsindədir. Birinci hədisdə Salmandan ﵁ nəql olunur ki, Peyğəmbər ﷺ bəzi elə əməlləri qeyd edir ki, onları etdikdə insanın növbəti cüməyədək olan günahları əfv olunur.

---

[1] "Səhih əl-Buxari", 834.

[2] "Səhih əl-Buxari", 832; "Səhih Muslim", 850.

Həmin əməllərdən biri qüsldür, yəni cənabət qüslü kimi qüsl almaq – Əbu Hureyradan ﷺ nəql olunan digər hədisdəki kimi. Bu qüsl barədə qeyd etdik ki, racih rəyə görə o vacibdir. Əgər insan cümə günü cümə namazı qılacaqsa, qüsl alsın. Qadınlara isə bu vacib deyil. Bu vaciblik hədəs vəziyyətinə görə deyil. Əgər insan qüslü tərk edib cümə namazını qılarsa, günah qazanar, lakin cüməsi də qəbul olar. Çünki o hədəs vəziyyətində deyildi.

– yağ sürtmək. Yəni gül, reyhan və ya başqa bir bitkinin ətirindən vurmaq. Mühüm olan ətirlənməkdir – tapdığı ən gözəl ətirlə ətirlənmək.

– iki nəfəri bir-birindən ayırmamaq məsələsi. Çünki əgər o, iki nəfəri bir-birindən ayırarsa, günah qazanmış olar. Yəni görsə ki, sıra sıxdır, insanların arasından keçməməlidir. Yox, əgər iki nəfərin arasında geniş yer varsa, bu zaman keçə bilər. Çünki həmin adamlar özləri öz aralarında yer qoymuşlar.

– vacib olan namazı qılmaq. Peyğəmbər ﷺ burada müəyyən bir namazı qeyd etməmişdir. Bu da dəlildir ki, cümədən əvvəl nafilə namazı yoxdur. İnsan dilədiyi qədər namaz qıla bilər. İmam gələnə qədər az da qıla bilər, çox da.

– susmaq, yəni susaraq xütbəni dinləmək. *Cümə xütbəsini dinləyən kəs* imam xütbəni bitirənədək heç kimlə danışmamalıdır.

Bu beş əməli edənin növbəti cüməyədək olan günahları bağışlanır. Bu da izzət və cəlal sahibi Allahın böyük bir lütfüdür.

Əbu Hureyranın hədisinə gəlincə isə, Peyğəmbər ﷺ demişdir: **"Kim cənabət qüslü alarsa",** yəni cümə günü. Cənabət qüslünün nə olduğu isə məlumdur.

"**Sonra da birinci saatda *məscidə* gedərsə, bir dəvə kəsmiş kimi olar**". Yəni sanki dəvə kəsib ətini kasıblara verib.

**"Kim ikinci saatda gedərsə, inək kəsmiş kimi olar. Kim üçüncü saatda gedərsə, buynuzlu qoç kəsmiş kimi olar".** Ona görə buynuzlu qoçu qeyd etmişdir ki, çünki o həcmcə daha böyük və qüvvətlidir.

**"Kim dördüncü saatda gedərsə, toyuq kəsmiş kimi olar. Kim də beşinci saatda gedərsə, yumurta vermiş kimi olar. İmam *minbərə* çıxdıqda mələklər gəlib zikri dinləyərlər"**. İmamın gəlməsi ilə səhifələr bağlanır

və *sonradan* gələn adama adi namazın savabından başqa heç bir savab yazılmır. Düzdür, imamdan sonra məscidə daxil olan kəs gəlməyinə görə savab qazanmır, ancaq evindən məscidə qədər olan addımlarının isə savabını qazanmış olur.

Bu da dəlildir ki, gərək insan cümə günü *məscidə* ertədən getsin. Bu gün, Allaha şükür, insanların çoxunun sağlamlığı və boş vaxtı vardır. Lakin şeytan onları tənbəlləşdirir və xeyirli işlər görmələrinə mane olur. Hətta insan bazardan bir şey almayacaqsa belə, gedib orada imam gələnədək vaxtını keçirir. Bununla da o, bu böyük xeyirdən məhrum olur.

Həmin saatların uzunluğu və qısalığı fəsillərə görə dəyişir. Yay vaxtı günlər uzanır və həmin saatlar da uzun olur. Qış vaxtı isə gündüzlər qısadır və həmin saatlar da qısa olur. *Bu saatların təyini üçün* günəş çıxdığı vaxtla imamın gəldiyi vaxtı beş hissəyə bölmək lazımdır. Ola bilsin ki, bizim bildiyimiz saatlar olsun, ola bilsin ki, ondan daha uzun və ya qısa olsun. Birinci saat birinci beşdə birdir, ikinci saat beşdə ikinci hissədir və bu minvalla. Müvəffəq edən Allahdır.

١١٥٦– وعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ ذكر يَوْمَ الجُمُعَةِ، فَقَالَ: « فِيها سَاعَةٌ لا يُوَافِقها عَبْدٌ مُسلِمٌ، وَهُو قَائِمٌ يُصَلِّي يسأَلُ اللَّه شَيْئاً، إلاَّ أَعْطَاهُ إِيَّاه » وَأَشَارَ بِيدِهِ يُقَلِّلُهَا، متفقٌ عليه.

**1156.** Yenə Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ cümə gününü zikr etmiş və belə demişdir: **“Onda elə bir saat vardır ki, müsəlman olan kəs həmin vaxt qalxıb namaz qılaraq Allahdan bir şey diləyərsə, Allah dilədiyini ona verər”**. Bu zaman əli ilə sanki azaldırmış kimi işarə etdi.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١١٥٧– وَعنْ أَبي بُردةَ بنِ أَبي مُوسَى الأَشْعَرِيِّ رضي الله عنه، قَالَ: قَالَ عَبْدُ اللَّهِ ابنُ عُمرَ رضي الله عنهما: أَسَمِعْت أَبَاكَ يُحَدِّثُ عَن رَسُولِ اللَّهِ ﷺ في شَأْنِ ساعَةِ الجُمُعَةِ؟ قَالَ: قلتُ: نعمْ، سَمِعتُهُ يقُولُ: سمِعْتُ رسُولَ الله ﷺ يَقُولُ: « هي ما بيْنَ أَنْ يَجلِسَ الإِمامُ إِلى أَنْ تُقضَى الصَّلاةُ » رواه مسلم.

[1] “Səhih əl-Buxari”, 883; “Səhih Muslim”, 1406.

**1157.** Əbu Burdə ibn Əbu Musa əl-Əşaridən ﷺ rəvayət olunur ki, Abdullah ibn Ömər ﷺ *mənə* dedi: "Atanın cümə saatı barədə Rəsulullahdan ﷺ nəql etdiyini eşitmisənmi?" Dedim ki, bəli, mən onun (atamın) belə dediyini eşitmişəm: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Həmin saat imam oturandan namazı bitirənədək olan vaxtdır"**».

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١١٥٨– وَعَنْ أَوسِ بنِ أَوسٍ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « إِنَّ مِنْ أَفضَلِ أَيَّامِكُمْ يَوْم الجُمُعَةِ، فأَكْثِروا عليَّ مِنَ الصَّلاةِ فِيهِ، فَإِنَّ صَلاتَكُمْ مَعْروضَةٌ عليَّ » رواه أبو داود بإِسناد صحيح.

**1158.** Rəvayət olunur ki, Ovs ibn Ovs ﷺ demişdir: «Rəsulullah ﷺ demişdir: **"Sizin ən fəzilətli günlərinizdən biri də cümə günüdür. Həmin gün mənə çoxlu salavat deyin. Şübhəsiz ki, sizin salavatınız mənə çatdırılır"**».

Hədisi Əbu Davud səhih isnadla nəql etmişdir.[2]

**Şərh:**

Bu üç hədis cümə günü ilə bağlıdır.

Birinci hədisə gəlincə, o, Əbu Hureyradan ﷺ nəql olunmuşdur.

İkinci hədis Əbu Musadan ﷺ nəql olunmuşdur.

Bu iki hədisdə bəyan edilir ki, cümə günündə elə bir saat vardır ki, müsəlman bəndə həmin saatda Allahdan bir şey diləyərsə, Allah ona həmin şeyi verər. Bu da cümə gününün özəl xüsusiyyətlərindəndir. Ondakı saatda Allahdan bir şey istəsən – nə olursa, olsun, bir şərtlə ki, günah iş və qohumluq əlaqələrini kəsmək olmasın, – uca Allah bu duaya cavab verər. Lakin hədisdə deyilir ki, "həmin adam qalxıb namaz qılarsa".

Peyğəmbər ﷺ bu saatın uzun olmadığına işarə etmişdir. Yəni həmin saat uzun deyildir. Alimlər bu saatın təyini ilə bağlı ixtilaf etmişlər. Hansı vaxtdır – günün əvvəlində, ortasında, yoxsa sonunda? Bu xüsusda onlar

---

[1] "Səhih Muslim", 1409.

[2] "Musnəd İmam Əhməd", 4/8; "Sunən Əbu Davud", 883; "Sunən ən-Nəsai", 1357; "Sunən İbn Macə", 1075.

qırxdan çox rəy bildirmişlər. Necə ki, qədr gecəsi ilə bağlı da qırxdan çox rəy vardır. Lakin bu rəylərin bəziləri digərlərinə oxşar ola bilər və onları ixtisar etmək mümkündür.

Bu saatın təsadüf edə biləcəyi ən münasib vaxt Əbu Musa əl-Əşarinin hədisində qeyd olunmuşdur – imam oturandan namaz qılanadək olan vaxt. Yəni imam cümə günü məscidə gələrək insanlara salam verib oturduğu andan duaların qəbul olunduğu həmin saat başlayır. Məlum məsələdir ki, imam qalxıb xütbə verdikdə insanlar sakit dururlar. Lakin onlar iki xütbə arasında, habelə fərz namazı əsnasında dua edə bilərlər. Fərz namazında edilən duanın qəbul olunma ehtimalı böyükdür. Çünki həmin vaxt insan Allaha səcdə etmiş olur: **"Bəndənin də öz Rəbbinə ən yaxın olduğu vaxt səcdədə olduğu vaxtdır".**[1] Bu səbəbdən biz cümə günü duaların qəbul oluna biləcəyi ən münasib saatın məhz bu saat olması qənaətindəyik. Yəni imam oturandan qalxıb namaz qılanadək olan vaxt.

Odur ki, qardaşım, Rəbbinə həmin vaxt çoxlu dualar et. Ola bilsin ki, izzət və cəlal sahibi Allah sənə cavab versin. Həmçinin nə cavabın gecikməsini, nə də tələbin böyüklüyünü düşünmə. Şübhəsiz ki, nöqsansız və uca Allahdan böyük heç bir şey yoxdur. Hər bir şey izzət və cəlal sahibi Allah üçün asandır. Odur ki, nöqsansız və uca Allaha dua et, məhz elə bu vaxtda da dualar etməyə həris ol.

*Ehtimal olunan* ikinci vaxt əsr namazından gün batanadək olan vaxtdır. Həmin vaxt da duaların qəbul olunduğu vaxtlardan ola bilər. Lakin hədisdəki **"həmin vaxt qalxıb namaz qılaraq"** sözü bu rəyə ziddiyyət təşkil edir. Axı əsrdən sonra *məğribədək* namaz yoxdur. Ola bilsin desinlər ki, insan bu vaxt dəstəmaz almalı olur və dəstəmaz aldıqdan sonra iki rükət namaz qılır. Həmçinin deyilə bilər ki, insan namazı gözlədiyi müddətdə namazda sayılır. Bu səbəbdən Əbu Musanın ﵁ hədisinin dəlalət etdiyi vaxtı daha doğru hesab edirik. Əbu Hureyra ﵁ və başqalarından nəql olunmuş hədislərdə isə *vaxta dair* açıq-aydın dəlil yoxdur.

Cümə günü həm də Peyğəmbərə ﷺ çoxlu salavat deməklə seçilir. Şübhəsiz ki, bizim üzərimizdə ən böyük haqqı olan kəs Peyğəmbərdir ﷺ. Onun bizim üzərimizdəki haqları, bizim öz üzərimizdəki haqlarımızdan

[1] "Səhih Muslim", 744.

daha böyükdür. Odur ki, ona olan sevgi özümüzə, övladımıza, atamıza, anamıza, həyat yoldaşımıza və bütün insanlara sevgimizdən daha öndə olmalıdır – Peyğəmbəri ﷺ bütün insanlardan daha çox sevmədikcə, sənin imanın tamamlana bilməz.

Onun ﷺ bizim üzərimizdəki haqlarından biri də bizim ona çoxlu salavat və salam deməyimizdir. Onun bizim salavatımıza və salamımıza ehtiyacı yoxdur. Sənin həmin salavat və salamın əcrinə ehtiyacın var. Çünki sən Rəsulullaha ﷺ bir dəfə salavat desən, Allah bunun əvəzində sənə on dəfə xeyir-dua verər. Desən ki: "Allahummə salli alə Muhəmməd", Allah sənə on dəfə xeyir dua verər. Deməli, sənin buna ehtiyacın var, Rəsulullahın ﷺ isə buna ehtiyacı yoxdur.

Bəs Peyğəmbərə ﷺ salavat demək nə deməkdir? Hər birimiz "Allahummə salli alə Muhəmməd" deyirik, ancaq bir çoxlarımız bunun mənasını anlamır. Bəs "Allahummə salli alə Muhəmməd" nə deməkdir? Əbul-Aliyə demişdir: "Allahın Peyğəmbərə salavat deməsi onu yüksək məqamda tərifləməsidir". Yəni onu Allaha yaxın mələklərin yanında tərifləyərək: "Qulum filankəs belədir, belədir" deyir və beləcə onu gözəl şəkildə vəsf edir. Sən də Peyğəmbərə ﷺ salavat dedikdə Allah səni on dəfə tərifləyər. Odur ki, həm cümə günü, həm də başqa vaxtlarda Peyğəmbərə ﷺ çoxlu salavat və salam de.

Nöqsansız və uca Allahdan diləyirəm ki, bizi və sizi Onun, Onun elçisinin və mömin bəndələrinin haqqını ödəməyə müvəffəq etsin.

# İki yüz on birinci fəsil

## Məlum bir nemət əldə etdikdə, yaxud məlum bir bəla sovuşduqda şükür səcdəsi etmək

**Mövzu ilə əlaqəli hədis:**

١١٥٩– عَنْ سَعْدِ بنِ أَبي وَقَّاصٍ ﵁ قَالَ: خَرَجْنَا مَعَ رَسُولِ اللَّهِ ﷺ مِن مَكَّةَ نُرِيدُ المَدِينَةَ، فَلَمَّا كُنَّا قَرِيبًا مِن عَزْوَراءَ نَزَلَ ثُمَّ رَفَعَ يَدَيْهِ، فدعَا اللَّه سَاعَةً، ثُمَّ خَرَّ سَاجِدًا، فَمَكَثَ طَوِيلاً، ثُمَّ قامَ فَرَفَعَ يَدَيْهِ، ساعَةً، ثُمَّ خَرَّ ساجِدًا فَعَلَهُ ثَلاثاً وَقَالَ: إِنِّي سَأَلْتُ رَبِّي، وَشَفَعْتُ لأُمَّتِي، فَأَعْطَاني ثُلُثَ أُمَّتي، فَخَررتُ ساجدًا لِرَبِّي شُكرًا، ثُمَّ رَفعْتُ رَأْسِي، فَسَأَلْتُ رَبِّي لأُمَّتي، فَأَعْطَانِي ثُلثَ أُمَّتي، فَخررْتُ ساجداً لربِّي شُكراً، ثمَّ رَفعْت رَأسِي فَسَأَلتُ رَبِّي لأُمَّتي، فَأعطاني الثُّلُثَ الآخرَ، فَخَررتُ ساجِدا لِرَبِّي» رواه أبو داود.

**1159.** Səd ibn Əbu Vaqqasdan ﵁ rəvayət olunur ki, o demişdir: "Bir dəfə biz Rəsulullahla ﷺ birlikdə Məkkədən Mədinəyə getmək üçün yola çıxdıq. Əzvaraya yaxınlaşdıqda o *miniyindən* endi və əllərini qaldırıb bir saat dua etdi. Sonra da səcdə edib bir müddət səcdədə qaldı. Sonra yenə qalxıb bir saat əllərini qaldırdı, sonra yenə səcdə etdi. O, bunu üç dəfə etdi və dedi: **"Mən Rəbbimdən dilədim və ümmətimə şəfaətçi oldum. O, ümmətimin üçdə birini mənə verdi, mən də Rəbbimə təşəkkür edərək səcdə etdim. Sonra yenə başımı qaldırıb ümmətim üçün dua etdim, O da ümmətimin digər üçdə birini mənə verdi. Mən yenə də Rəbbimə təşəkkür edərək səcdə etdim. Sonra yenə başımı qaldırıb ümmətim üçün dua etdim, O da ümmətimin son üçdə-birini mənə verdi. Mən yenə də Rəbbimə təşəkkür edərək səcdə etdim".**

Hədisi Əbu Davud rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllif ﵀ "**Məlum bir nemət əldə etdikdə, yaxud məlum bir bəla sovuşduqda şükür səcdəsi etmək**" fəslini qeyd edir.

[1] "Sunən Əbu Davud", 2394.

Məlumdur ki, nöqsansız və uca Allahın nemətləri sayılmaqla bitməz. Uca və böyük Allah buyurur: **“Əgər siz Allahın nemətlərini saymaq istəsəniz, onları sayıb bitirə bilməzsiniz”.**[1] Buna misal olaraq dəqiqə ərzində altmış dəfə təkrarlanan nəfəs almaq nemətini göstərə bilərik. İnsan nəfəs almasa ölə bilər. Bu, böyük bir nemətdir və onu sayıb bitirmək mümkün deyil. Həmçinin sağlamlıq, afiyət, yemək, içmək, təbii ehtiyacları rəf etmək – bütün bunlar böyük, həm də davamlı şəkildə olan nemətlərdir. Əgər insan hər *faydalandığı* nemətdən sonra səcdə etmək istəsə, bütün həyatını səcdədə keçirər.

Lakin bəzi nemətlər də var ki, onlar *tez-tez də olmasa,* vaxtaşırı baş verir. Məsələn, insanın övladının doğulması, yaxud evlənməyə imkan tapması, yaxud görməyə ümidini üzdüyü kəsi tapması və ya pul tapması və s. Yaxud da müsəlmanların qələbə müjdəsini almaq və buna bənzər hadisələr. Bütün bu nemətlər vaxtaşırı baş verir. Bu halda müstəhəbdir ki, insan Uca Allaha səcdə edərək şükür etsin.

Misal üçün, gəlib deyirlər ki, gözün aydın, övladın oldu. Bu bəzən baş verən nemətlərdəndir. Bu zaman xəbəri eşidən namazda etdiyi kimi, Allaha səcdə edib deyir: “Subhanə rabbiyəl-əala. Subhanəkəl-lahummə rabbənə va bihəmdikə, Allahummə-ğfirli”. Sonra da əldə etdiyi müəyyən bir nemətə görə şükür edir və deyir: “Ey Rəbbim, bu nemətə görə Sənə şükür edirəm”. Bununla da Uca Allaha həmin nemətə görə tərif edir.

Bəlanın sovuşması da bunun kimidir. İnsan davamlı şəkildə salamatlıq içərisində olur. Ancaq o istənilən an bəla və müsibətlərlə üzləşə bilər. Lakin bəzən bəlanın səbəbi aradan qalxır, Allah da həmin bəlanı sovuşdurur. Misal üçün, insan yolda ikən avtomobili çevrilir, ancaq ona heç bir xətər toxunmur. Bu, bəlanın sovuşmasıdır. Bu zaman o, Uca Allaha həmin bəladan yaxa qurtardığına görə şükür səcdəsi edir. Yaxud, birisi yolla gedərkən ayağının altı çökür, ancaq o xilas olur. Bu zaman da o, nöqsansız və uca Allaha şükür edir.

Bəlaların sovuşması müxtəlif cür olur. Allah səni hər hansı bir bəladan xilas etdikdə Ona səcdə edərək bu bəlanı sovuşdurmasına görə Ona şükür et. Məsələn, səcdədə de ki: “Sübhanə rabbiyəl-əalə. Sübhanəkəllahummə rabbənə va bihəmdikə, Allahummə-ğfirli. Allahım, məni bu bəladan

---

[1] “İbrahim” surəsi, 34.

xilas etdiyinə görə sənə şükür edirəm”. Beləcə bunu deyir, bu da onun şükür səcdəsi olur.

Alimlər bu səcdə üçün təharətin vacib olub-olmaması xüsusunda ixtilaf etmişlər. Səhih odur ki, təharətin olması vacib deyil. Çünki bunlar qəflətən baş verir və insan buna hazırlıqlı olmur. Əgər gedib dəstəmaz alası olsa, səbəblə səcdə arasındakı zaman uzanar. Təharətli olmasa belə, qoy səcdə etsin. Müvəffəq edən Allahdır.

# İki yüz on ikinci fəsil

## Gecə namazının fəziləti

**Mövzu ilə əlaqəli ayələr:**
Uca Allah buyurur:

﴿ وَمِنَ ٱلَّيۡلِ فَتَهَجَّدۡ بِهِۦ نَافِلَةٗ لَّكَ عَسَىٰٓ أَن يَبۡعَثَكَ رَبُّكَ مَقَامٗا مَّحۡمُودٗا ﴾

**“Gecənin bir vaxtı oyanıb sənə nafilə olaraq *buyrulmuş təhəccüd* namazını qıl. Umulur ki, Rəbbin səni tərifəlayiq bir məqama yüksəltsin”.**[1]

﴿ تَتَجَافَىٰ جُنُوبُهُمۡ عَنِ ٱلۡمَضَاجِعِ يَدۡعُونَ رَبَّهُمۡ خَوۡفٗا وَطَمَعٗا وَمِمَّا رَزَقۡنَٰهُمۡ يُنفِقُونَ ﴾

**“Onlar *gecə namazını qılmaq üçün* böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən *Allah yolunda* xərcləyirlər”.**[2]

﴿ كَانُواْ قَلِيلٗا مِّنَ ٱلَّيۡلِ مَا يَهۡجَعُونَ ﴾

**“Onlar gecələr *ibadət edib* az yatardılar”.**[3]

**Şərh:**

Müəllif ﷺ “Salehlər bağçası” əsərində **“Gecə namazının fəziləti”** fəslini qeyd edir. “Gecə qiyam etmək” deyildikdə gecə vaxtı namaz qılmaq nəzərdə tutulur. Fərz namazlarından sonra ən fəzilətli namaz gecə namazıdır. Bu barədə qarşıdakı hədislərdə qeyd olunacaq.

Nöqsansız və uca Allah gecə namazı qılanları tərifləyir, Öz peyğəmbərinə də gecə vaxtı təhəccüd etməyi buyurur: **“Gecənin bir vaxtı oyanıb sənə nafilə olaraq *buyrulmuş təhəccüd* namazını qıl. Umulur ki, Rəbbin səni tərifəlayiq bir məqama yüksəltsin”.**

---

[1] “əl-İsra” surəsi, 79.

[2] “əs-Səcdə” surəsi, 16.

[3] “əz-Zariyat” surəsi, 17.

Uca Allah öz peyğəmbərinə əmr edir ki, təhəccüd namazı qılsın. Çünki bütün gecəni namaz qılmaq sünnəyə uyğun deyil. Yalnız bəzi gecələr, məsələn, Ramazanın son on gecəsində bütün gecəni təhəccüd etmək olar. Qalan günlərdə isə sünnə olan budur ki, həm yatasan, həm də qalxasan.

**"Sənə nafilə olaraq** ***buyrulmuş təhəccüd*** **namazını qıl"**. Alimlər ayədəki **"nafilə"** sözü barəsində ixtilaf etmişlər. Bəziləri bu vacibliyin yalnız ona xas olmasını bildirmişlər, yəni təhəccüd ona vacibdir. Peyğəmbərdən qeyriləri üçün isə nəzir etməsi istisna olmaqla, təhəccüd vacib deyil – təhəccüd etmək barədə nəzir edən kəsin bunu etməsi vacibdir. Əks təqdirdə vacib deyil. Peyğəmbərə ﷺ gəlincə isə onun gecə vaxtı təhəccüd etməsi vacibdir.

Bəziləri isə "nafilə" sözünün mənasının "əlavə" olduğunu bildirmişlər. Bu zaman o həm peyğəmbərə ﷺ, həm də başqalarına şamil olunur.

Sonra Uca Allah təhəccüdün bəzi faydalarını qeyd edərək buyurur: **"Umulur ki, Rəbbin səni tərifəlayiq bir məqama yüksəltsin".** Alimlər demişlər ki, Uca Allah Quranda "ola bilsin ki" ifadəsi işlədirsə, bu baş verir. Yəni Rəbbin səni tərifəlayiq bir məqama yüksəldəcək, Qiyamət günü Allah səni hər kəsin tərif edəcəyi bir məqama yetişdirəcəkdir.

Rəsulullah ﷺ Qiyamət günü tərifəlayiq məqamda olacaqdır, oradan insanlar üçün şəfaət edəcək. Yəni həmin tərifəlayiq məqamdan Rəsulullah insanlar üçün şəfaət edəcəkdir. İnsanlar o zaman dirilib bir araya gətiriləcəklər. Həmin vaxt dağlar, çaylar, ağaclar və binalar olmayacaq. Çağıran adam onları eşidəcək, gözlər onları görəcək. İnsanlarla çağırışçı arasında heç bir maneə olmayacaq və hər kəs bir yerə toplanacaq.

Günəş insanlara yaxınlaşacaq. Hətta onlarla günəş arasındakı məsafə bir mil qədər olacaq. Həmin gün olduqca uzun – əlli min il uzunluğunda olacaq. Sübhanallah! İnsan iyirmi dörd saat ayaq üstə dura bilmir, həmin günün uzunluğu isə əlli min ildir. İnsanları üzüntü və kədər bürüyəcək, onların buna taqətləri çatmayacaq. Bu zaman onların bəziləri digərlərinə müraciət edəcək ki, yardım etsin. Bəlkə kimsə izzət və cəlal sahibi Allahın yanında onlar üçün şəfaətçilik edərək onları rahatlandıra bildi. İlk olaraq onlar Adəmin yanına gedəcəklər. İzzət və cəlal sahibi Allah onlara ilham edəcək ki, Adəmin yanına getsinlər, çünki Adəm bəşəriyyətin atasıdır. Bütün insanların atası birdir – Adəm. Adətən insan daha faydalı olduğunu bildiyi

kəsin yanına can atır. Beləcə atalarının yanına gedib deyirlər ki, bizim üçün şəfaətçilik et, məgər halımızı görmürsənmi? Allah səni Öz əli ilə yaratmış, sonra hər bir şeyin adını sənə öyrətmiş, mələklərə də əmr etmişdir ki, sənə səcdə etsinlər. Yəni, sənə bir çox xeyirlər bəxş etmişdir. Odur ki, Allah yanında bizim üçün şəfaətçilik et. O isə üzrxahlıq edir. Nəyə görə üzrxahlıq edir? – Deyir ki, Allah ona müəyyən bir ağacın meyvəsini qadağan etsə də, o həmin meyvədən yeməklə Rəbbinə asi olmuşdur. Odur ki, izzət və cəlal sahibi Allahdan utanır. Belə olduqda Allah yanında sizin üçün necə şəfaətçilik edə bilər?

Sonra insanlar Adəm nəslindən ilk rəsul olan Nuhun yanına gedirlər. Allahın insanlara göndərdiyi ilk elçi Nuhdur. Onlar Allahın nemətlərini ona xatırladır və deyirlər ki, o, Allahın yerə göndərdiyi ilk rəsuldur. Lakin o da üzrxahlıq edir. Nəyə görə üzrxahlıq edir? – Deyir ki: **"Ey Rəbbim, axı oğlum da mənim ailəmdəndir. Sənin vədin, şübhəsiz ki, haqdır. Sən hakimlərin hakimisən!".**[1] Allah ona vəd vermişdi ki, onu və ailəsini xilas edəcək. Onun oğullarından biri isə kafir idi və xilas ola bilmədi. Nuh ona dedi: **"Oğlum, bizimlə birlikdə** *gəmiyə* **min, kafirlərdən olma!"** ***Oğlu*** **dedi: "Məni sudan qoruyacaq bir dağa sığınacağam".**[2] Yəni, sizinlə *bir gəmiyə* minməyəcəyəm. Bu zaman suyun miqdarı olduqca çox idi. Necəliyini təsəvvür edirsinizmi? Allah səmanı açmışdı: **"Biz göyün qapılarını leysan yağışı ilə açdıq".**[3] Başqa bir rəydə *ərəbcə* "fəttəhnə" deyilir ki, bu daha əzəmətlidir. Hətta sudan ən uzaqda olan odun məkanı təndirdən belə su qaynamağa başladı: **"Yeri yarıb bulaqlar qaynatdıq".** Yəni, bütün yer üzünü. Əgər bütün yer üzü su ilə açılmışdısa, üstəlik yer üzündə də bulaqlar qaynayırdısa, sular hara tökülə bilərdi? Su olduqca çox idi, hətta su dağların başına çatmışdı.

Nuha iman gətirməyənlərin arasında yanında uşağı olan bir qadın var idi. Suyun miqdarı artdıqca, o da dağın zirvəsinə qalxırdı. Beləcə suyun səviyyəsi dağın zirvəsinə çatır. Su əvvəlcə onun topuqlarına, sonra dizlərinə çatdı. Su bir qədər də artdı və qadın uşağı yuxarı qaldırdı ki, o xilas olsun. Qadın istəyir ki, özü batsa da, heç olmasa uşaq xilas ola bilsin.

---

[1] "Hud" surəsi, 45.

[2] "Hud" surəsi, 42-43.

[3] "əl-Qəmər" surəsi, 11.

Peyğəmbər dedi: **"Allah kimisə xilas etmiş olsaydı, uşağın anasını xilas edərdi".**[1] Lakin, Allah qorusun, Allah belə təqdir etdi ki, Nuhun gəmisinə minməyən hər kəs suya qərq oldu. Nuhun kafir olan oğlu da gəmiyə minmək istəmədi və dedi: **"Məni sudan qoruyacaq bir dağa sığınacağam!"** Atası ona dedi: **"Bu gün Allahın rəhm etdiklərindən başqa heç kəs Onun əmrindən qoruna bilməz!"** *Sonda* **dalğa onları bir-birindən ayırdı və o, suda boğulanlardan oldu".**[2] Nuh dedi: **"Ey Rəbbim, axı oğlum da mənim ailəmdəndir. Sənin vədin, şübhəsiz ki, haqdır. Sən hakimlərin hakimisən!"** *Allah* **buyurdu: "Ey Nuh, o sənin ailəndən deyil. Çünki bu (onun küfr etməsi və ya sənin onun xilas olması üçün kömək diləməyin), pis bir işdir. Elə isə, bilmədiyin bir şeyi Məndən istəmə. Həqiqətən də, Mən sənə cahillərdən olmamağı tövsiyə edirəm".**[3]

Sübhanallah! Bunlar izzət və cəlal sahibi Allahın öz böyük əzmkarlığa sahib (ulul-əzm) peyğəmbərinə olan sözüdür. Buyurur ki: **"Həqiqətən də, Mən sənə cahillərdən olmamağı tövsiyə edirəm".** Allahdan diləyirəm ki, bizi və sizləri Öz əzabından qorusun.

Xülasə, həmin gün insanlar Nuhun yanına gəlir və deyirlər ki, bizim üçün şəfaətçilik et. Nuh da həmin günahını xatırladır ki, Allahdan elmsiz olaraq bir şey istəmişdi. Günahkar olan kəsin isə şəfaətçi olmağa üzü olmur. Günahkar kəsin asi olduğunun yanında şəfaətçi olması mümkün deyil. Onun buna üzü gəlmir və üzrxahlıq edir.

Sonra insanlar İbrahimin yanına gedirlər. Bizə əmr olunub ki, peyğəmbərlərin atasının millətinə tabe olaq. Onlar ona da Allahın nemətlərini xatırladırlar. Lakin o da bəzi şeylərlə üzrxahlıq edir, müəyyən üzrlər gətirir. Əslində həmin üzrlərin ona zərəri yoxdur, lakin o, kamil imanı ilə onları zərərli şeylər olaraq qeyd edir və deyir ki, Musanın yanına gedin.

İnsanlar Musanın yanına gəlir və ona Allahın nemətlərini xatırladırlar. Ancaq o da üzrxahlıq edir. Nə ilə üzrxahlıq edir? – Deyir ki, o, bir adamı izinsiz olaraq qətlə yetirib. Belə ki, o, israilli ilə mübahisə edən qibtini qətlə yetirmişdi. İsrail oğullarından bir nəfər bir qibti ilə mübahisə

---

[1] "Mustədrək əl-Hakim", 2/372.

[2] "Hud" surəsi, 43.

[3] "Hud" surəsi, 45-46.

edirdi. Musa da olduqca güclü və şiddətli bir insan idi. Bu, Allahın hikmətindəndir. Belə ki, İsrail oğullarının arasında güclü olmasan, faydası yoxdur. Allah onu İsrail oğullarına göndərmişdi. İsrailli qibtinin əleyhinə Musadan yardım istəyir. Musa ona (qibtiyə) bir yumruq vurur və o ölür. Bu səbəbdən də o üzrxahlıq edir ki, əmr olunmadığı bir adamı qətlə yetirib. Onlara da deyir ki, İsanın yanına getsinlər.

Onlar İsa ibn Məryəmin yanına gedirlər. O, Muhəmməddən öncə gəlmiş sonuncu peyğəmbərdir – bu ikisi arasında nə peyğəmbər gəlib, nə də ki, rəsul. O da bir səbəb göstərmədən üzrxahlıq edir və insanları daha kamil olan birisinin yanına göndərir. Həmin adam da Muhəmməd ﷺ idi. Uca Allahdan diləyirik ki, bizləri və sizi öz şəfaətinə çatdırsın.

Beləliklə, onlar Muhəmmədin yanına gəlirlər və o: "Mənlikdir" deyir.[1] İzzət və cəlal sahibi Allah izn verdikdə o gedib ərşin altında səcdə edir. Sonra ona şəfaət etməsi üçün icazə verilir və o, şəfaət edir. İzzət və cəlal sahibi Allah qullarının arasında hökm vermək üçün enir, onların arasında hökm verir və onlar da rahatlanırlar.

Bu məqama görə Rəsulullaha təşəkkür edilirmi? Heç şübhəsiz, bəli. Bütün peyğəmbərlər, rəsullar, hətta ulul-əzm peyğəmbərlər belə üzrxahlıq edirlər. Beləcə, Rəsulullah ﷺ şəfaət edir. Diqqət et, gör bu necə ardıcıllıqla baş verir. Nöqsansız və Uca Allah istəsəydi, onları birbaşa Muhəmmədin yanına yönləndirərdi. Lakin O, bu peyğəmbərin fəzilətini *bir daha* göstərmək üçün belə edir. Uca Allahın da bu ayəsi həyata keçmiş olur: **"Gecənin bir vaxtı oyanıb sənə nafilə olaraq *buyrulmuş təhəccüd* namazını qıl. Umulur ki, Rəbbin səni tərifəlayiq bir məqama yüksəltsin".**[2]

Bu necə də gözəl məqamdır! Allahın xeyir-duası və salamı olsun ona. Ayələrlə bağlı söhbəti növbəti fəsildə davam edəcəyik.

---

[1] "Səhih əl-Buxari", 6956; "Səhih Muslim", 286.
[2] "əl-İsra" surəsi, 79.

# İki yüz on ikinci fəslin davamı

## Gecə namazının fəziləti

[ardı]

**Mövzu ilə əlaqəli ayələr:**

Uca Allah buyurur:

﴿ وَمِنَ ٱلَّيۡلِ فَتَهَجَّدۡ بِهِۦ نَافِلَةٗ لَّكَ عَسَىٰٓ أَن يَبۡعَثَكَ رَبُّكَ مَقَامٗا مَّحۡمُودٗا ﴾

**“Gecənin bir vaxtı oyanıb sənə nafilə olaraq *buyrulmuş təhəccüd* namazını qıl. Umulur ki, Rəbbin səni tərifəlayiq bir məqama yüksəltsin”.**[1]

﴿ تَتَجَافَىٰ جُنُوبُهُمۡ عَنِ ٱلۡمَضَاجِعِ يَدۡعُونَ رَبَّهُمۡ خَوۡفٗا وَطَمَعٗا وَمِمَّا رَزَقۡنَٰهُمۡ يُنفِقُونَ ﴾

**“Onlar *gecə namazını qılmaq üçün* böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən *Allah yolunda* xərcləyirlər”.**[2]

﴿ كَانُواْ قَلِيلٗا مِّنَ ٱلَّيۡلِ مَا يَهۡجَعُونَ ﴾

**“Onlar gecələr *ibadət edib* az yatardılar”.**[3]

**Şərh:**

İmam Nəvəvi ﵀ “Salehlər bağçası” əsərində “Gecə namazının fəziləti” fəslinə davam edir. O ilk olaraq Uca və Böyük Allahın: **“Gecənin bir vaxtı oyanıb sənə nafilə olaraq *buyrulmuş təhəccüd* namazını qıl. Umulur ki, Rəbbin səni tərifəlayiq bir məqama yüksəltsin”** ayəsini qeyd edir ki, bu ayə barəsində artıq söhbət açdıq.

Sonra müəllif Uca Allahın bu ayəsini qeyd edir: **“Onlar *gecə namazını qılmaq üçün* böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz**

---

[1] “əl-İsra” surəsi, 79.

[2] “əs-Səcdə” surəsi, 16.

[3] “əz-Zariyat” surəsi, 17.

**Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən** ***Allah yolunda*** **xərcləyirlər".** Bu ayədən öncəki ayə isə belədir: **"Ayələrimizə ancaq o kəslər iman gətirirlər ki, ayələrimiz onlara xatırlanarkən təkəbbür göstərmədən səcdəyə qapanır, Rəbbinə həmd-səna ilə təriflər deyirlər".**[1]

İzzət və cəlal sahibi Allah onlara belə gözəl vəsflər vermişdir: onlara Allahın ayələri oxunduğu zaman səcdəyə qapanarlar. Yəni, səcdə tələb olunan yerdə təkəbbürlük etməz, alınlarını və burunlarını yerə vurarlar. Beləcə onlar Allahın qarşısında alçalarlar. Onlara səcdə etmək əmr olunduqda səcdə edərlər. Belə bir ehtimal da var ki, **"səcdəyə qapanarlar"** sözünün mənası *istənilən növ* ibadətlə kamil şəkildə Allahın qarşısında zəlil olmaq nəzərdə tutulur. Bu, istər səcdə ilə olsun, istərsə də olmasın.

**"Rəbbinə həmd-səna ilə təriflər deyirlər".** Yəni, nöqsansız və uca Allahı tərif edərlər.

Tərif etmək, Onu hər növ naqisliklərdən və eyiblərdən uzaq tutmaqdır. Tərif budur. "Allahı tərif etdin", yəni Onu hər növ naqislikdən uzaq tutdun. Çünki O, ən kamil sifətlərə malikdir və hər növ naqisliklər Ondan uzaqdır. "Rəbbinə həmd edərək", yəni Ona həmd edərək Ona tərif edərlər.

Həmd, sevgi və təzimlə olunan yaxşı vəsfdir. "Həmd" sözünün mənası budur. "Allaha həmd etdin", yəni Onun ən kamil sifətlərinin olmasına etiqad etdin, dilinlə də bunu təsdiq etdin.

Tərif təkrarlandıqda "səna" olur. Əbu Hureyradan nəql olunan hədis də elə buna dəlalət edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **«İzzət və cəlal sahibi Allah buyurur: "Mən namazı qulumla Öz aramızda bölmüşəm. Qul: "Həmd aləmlərin rəbbi olan Allaha məxsusdur"– dedikdə,** ***Allah*** **deyər: "Qulum mənə həmd etdi".** ***Qul*****: "Rəhimli, Mərhəmətli olana"– dedikdə,** ***Allah*** **deyər: "Qulum məni təriflədi"».**[2]

**"Təkəbbürlük etməzlər" –** onlar Allaha ibadət etməyə əsla təkəbbürlük etməzlər. Allah onlara əmr etdikdə, Ona zəlilcəsinə tabe olar, qul olduqlarını hiss edərlər. Həmçinin, izzət və cəlal sahibi Allahı üluhiyyətdə və rübubiyyətdə kamilləşdirərlər.

[1] "əs-Səcdə" surəsi, 15.
[2] "Səhih Muslim", 598.

**"böyürlərini qaldırır",** yəni bədənlərini yataqdan qaldırır. Çarpayıdan qalxaraq gecələrini izzət və cəlal sahibi Allaha zikr və ibadətlə keçirər, namazlarını bitirdikdən sonra isə Ondan bağışlanma diləyərlər. Uca Allah buyurur: **"Səhərlər də istiğfar edərlər".**[1]

Bəzi sələflər demişlər ki, bu onların özlərini kamilcə tanımalarına dəlalət edir. Onlar gecəni qalxar, gecənin sonunda da izzət və cəlal sahibi Allahla bağlı təqsirkar olmalarından qorxaraq istiğfar edərlər.

**"qorxu və ümid içində öz Rəbbinə yalvarır".** Onlar Allahdan həm ibadət, həm də dilək duası edirlər. Dilək dualarına: "Ey Rəbbimiz, bizi bağışla! Ey Rəbbimiz, bizə rəhm et! Ey Rəbbimiz, işlərimizi asanlaşdır! Ey Rəbbimiz, qəlblərimizi genişlət" misal göstərmək olar. Bunlar dilək dualarıdır. İbadət duası isə namaz qılmaq, zəkat vermək, Ramazan orucunu tutmaq, həcc ziyarəti etmək, valideyinlərə yaxşılıq etmək, qohumlarla əlaqə qurmaq və başqa ibadətlərə deyilir.

İbadət də duadır. Çünki sən abid bir insandan Allaha nə üçün ibadət etdiyini soruşsan, deyər ki, Onun razılığını və Cənnəti qazanmaq üçün. O, öz dilinin halı ilə dua edir. Ola bilsin ki, sözü ilə də dua etmiş olsun. Misal üçün, namazda rükn olan bir dua vardır. Həmin duanı namazda etməsən, namazın batil olar. Hansı məqamda? – Fatihə surəsində: **"Bizi doğru yola yönəlt!"** Bu, ibadətdəki rükn olan duadır – onu tərk etsən, namazın səhih olmaz. Beləliklə, namazda həm dilin halı, həm də dilin sözü ilə dua edilir. Odur ki, **"Rəbbinə yalvarır"** buyurur. Yəni, Ona ibadət və dua edirlər. **"qorxu və ümid içində",** yəni əzabından qorxaraq, savabına ümid edərək. Çünki onlar haram iş görsələr, buna görə cəzalandırılar, haramı tərk edib vacibi yerinə yetirsələr isə savab əldə edərlər. Beləliklə, onlar həm qorxur, həm də ümid bəsləyirlər. Həmçinin: "günahlarından qorxub, Allahın fəzilətinə ümid edərək" demişlər. İnsan özünə və günahlarına baxdıqda qorxur. Çünki bu günahlar dağlardan böyük, qum dənələrindən çoxdur. Allahdan diləyirik ki, bizimlə Öz mərhəməti ilə davransın.

İnsan Allahın rəhmətinə, əfvinin böyüklüyünə nəzər saldıqda, əfvin Ona cəzadan daha sevimli olduğuna əmin olar. Allah öz bəndəsinin tövbə etməsinə dünyadakı bütün sevinclərdən daha çox sevinir. Peyğəmbər ﷺ

---

[1] "əz-Zariyat" surəsi, 16.

demişdir: **“Allah daha çox sevinir...”.** Hədisin *ərəbcəsinin* bu yerindəki “ləm” hərfi başlanğıcı bildirir və təkidləyici mənanı daşıyır. **“Qulunun tövbəsinə – nə zaman ki, biriniz çöllükdə miniyinin üzərində tövbə edir”.** Ətrafında heç kim yoxdur, bu zaman miniyi də onun əlindən qaçıb gözdən itir. **“Onun yeməyi, içməyi həmin miniyin üzərində olur. Ondan ümidini üzür”.**[1] Onu axtarır, lakin tapa bilmir. Artıq ondan və həyatdan ümidini tam üzmüş halda bir ağacın kölgəsində uzanaraq öz ölümünü gözləyir. Belə ki, onun ölümdən başqa bir çıxış yolu yoxdur. **“Miniyini tapmaq ümidini üzür. O, həmin vəziyyətdə ikən bir də görür ki, miniyi yanındadır. Tez onun ovsarından tutur”.** Ovsarından, yəni ipindən tutur. **“Sonra da sevindiyindən: “Allahım, Sən mənim qulumsan, mən isə Sənin rəbbinəm”– deyir”.** İstəyir ki, “Allahım, Sən mənim Rəbbimsən, mən də Sənin qulunam” desin, lakin o qədər sevinir ki, “Allahım, Sən mənim qulumsan, mən isə Sənin rəbbinəm” deyir. İzzət və cəlal sahibi Allah da qulunun tövbə etməsinə miniyi tapan bu şəxsdən daha çox sevinir.

Beləliklə, bizlər Allahın fəzilətinə tamah salaraq günahlarımızı böyütdük və çoxaltdıq. Lakin Allahın fəziləti daha böyükdür. Əgər beş vaxt namaz böyük günahların edilməməsi şərti ilə öz aralarındakı *digər* günahlara kəffarədirsə, bu, böyük bir fəzilətdir. Hər bir halda onlar öz Rəblərinə qorxu və ümidlə dua edərlər. Əzabından qorxaraq və savabına ümid edərək; günahlarından qorxaraq və fəzilətinə ümid edərək. Bütün bu formalar doğrudur.

**“Onlara verdiyimiz ruzilərdən *Allah yolunda* xərcləyirlər”.** Ayənin ərəbcəsindəki “ مِن “ / “min” kəlməsi “bir qismi” mənasını daşıyır. Yəni, bütün mallarını xərcləmirlər. İnsan bütün mal-dövlətini Allah yolunda xərcləməli deyil. Əbu Lubəbə ﵁: “Ey Allahın elçisi, mən bütün malımı sədəqə verirəm” deyəndə, Peyğəmbər ﷺ ona belə cavab vermişdi: **“Üçdə birini verməyin kifayətdir, üçdə birini verməyin kifayətdir, üçdə birini sədəqə ver”.**[2] Hətta bəzi alimlər demişlər ki, birisi öz malının hamısını sədəqə verməyi nəzir etsə belə, üçdə birini sədəqə verməsi kifayət edir. Çünki buyurulan məhz budur. Buna görə də buradakı “min” kəlməsi “bir qisim” mənasındadır. Yəni, onlara verdiklərimizin bir qismini xərcləyirlər.

---

[1] “Səhih Muslim”, 2747.

[2] “Səhih əl-Buxari”, 2537; “Səhih Muslim”, 3076.

Bəziləri isə buradakı "min" kəlməsinin bəyan mənasında olduğunu demişlər. Yəni, növün bəyanı üçün. Onlar vəziyyətə görə xərcləyirlər – bəzən az, bəzən də çox; bəzən üçdə birini, bəzən yarısını, bəzən də hamısını xərcləyirlər – Əbu Bəkrin ﷺ etdiyi kimi. Peyğəmbər ﷺ onu sədəqə verməyə təşviq etdikdə, o, bütün malını sədəqə vermişdi. Ömər ﷺ isə malının yarısını sədəqə vermiş və demişdi ki: "Bax indi mən Əbu Bəkri keçərəm".[1] Çünki səhabələr *yaxşılıqda* bir-biriləri ilə yarışardılar. Onlar həsəd etməz, sadəcə xeyirli işlərdə yarışardılar. O, malının yarısını sədəqə vermək üçün Peyğəmbərin ﷺ yanına gələndə görür ki, Əbu Bəkr malının hamısını sədəqə verib. Peyğəmbərﷺ Əbu Bəkrdən: **"Öz ailən üçün nə saxladın?"** deyə soruşanda, o deyir ki: "Mən onlar üçün Allah və rəsulunu saxladım". Peyğəmbər ﷺ Ömərdən: **"Ailənə nə saxladın?"** deyə soruşanda, o deyir ki, malımın yarısını. Sonra Ömər deyir ki: "Allaha and olsun ki, bu gündən etibarən onunla yarışmayacağam". Çünki Əbu Bəkrin elə fəzilətləri və əməlləri var idi ki, heç kim onu keçə bilməzdi – nə Ömər, nə Osman, nə Əli, nə də bir başqası.

Mühüm olan odur ki, onlar Allah yolunda öz mallarından sədəqə verirlər. Bəs bunun mükafatı və səmərəsi nədir? – **"Etdikləri əməllərin mükafatı kimi, onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir".**[2] Allahım, ey Rəbbimiz, bizləri də onlardan et!

Heç bir nəfs onun üçün nələrin hazırlandığını bilmir. Bunlar Nəim cənnətlərində olacaq: orada gözlərin görmədiyi, qulaqların eşitmədiyi, heç kimin ağlına belə gəlməyən nemətlər olacaq. Bəs Uca Allahın buyurduğu: **"Orada meyvə, xurma və nar olacaq"**[3] ayəsindəki meyvə, xurma və nar dünyada gördüklərimiz ilə eyni deyilmi? – Vallahi ki, yox! Cənnətdə dünyada var olan heç bir şey olmayacaq. Onların yalnız adları eyni olacaq. Məsələn, orada nar olacaq, lakin o narın necəliyini sən təsəvvür edə bilməzsən. Yaxud xurma olacaq, lakin onun da necəliyini sən təsəvvür edə bilməzsən. Yaxud meyvələr olacaq, lakin həmin meyvələrin necəliyi sənin ağlına belə gələ bilməz: **"Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir".**

---

[1] "Sunən Əbu Davud", 1429; "Sunən ət-Tirmizi", 3608.

[2] "əs-Səcdə" surəsi, 17.

[3] "ər-Rəhman" surəsi, 68.

Uca Allahdan diləyirik ki, sizləri və bizi həmin yaxşı insanlardan etsin. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

Uca Allah buyurur:

﴿ كَانُواْ قَلِيلٗا مِّنَ ٱلَّيۡلِ مَا يَهۡجَعُونَ ﴾

**"Onlar gecələr *ibadət edib* az yatardılar".**[1]

**Mövzu ilə əlaqəli hədis:**

١١٦٠– وَعَن عائِشَةَ ﵂، قَالَتْ: كَانَ النَّبِيُّ ﷺ يَقُومُ مِنَ اللَّيْلِ حَتى تَتَفطَّر قَدَمَاه، فَقُلْتُ لَهُ: لِمَ تَصْنَعُ هذا يا رسُول اللَّهِ وَقد غُفِرَ لَكَ ما تَقَدَّم مِن ذَنْبِكَ وَمَا تَأَخَّرَ؟ قَالَ: «أَفَلا أَكُونُ عَبْدًا شَكُورًا». متفقٌ عليه.

وعَنِ المغيرةِ بنِ شعبةَ نحوهُ، متفقٌ عليه.

**1160.** Rəvayət olunur ki, Aişə ﵂ demişdir: «Peyğəmbər gecə vaxtı qalxıb ayaqları şişənədək ibadət edərdi. Mən ona dedim: "Ey Allahın elçisi, niyə belə edirsən? Axı sənin keçmiş və gələcək bütün günahların bağışlanıb". Dedi: **"Məgər şükür edən qullardan olmayımmı?"**»

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Bu hədisin bənzəri Muğira ibn Şöbədən də rəvayət olunmuşdur ki, onun da səhihliyində Buxari və Muslim ittifaq etmişlər.

**Şərh:**

Müəllifin ﵀ "Gecə namazının fəziləti" fəslində qeyd etdiyi üç ayədən ikisi barəsində söhbət açdıq. Üçüncü ayə *və davamı* isə budur: **"Onlar gecələr *ibadət edib* az yatardılar. Səhərlər isə istiğfar edərdilər".**[3]

Bunlar Allahın Cənnət vəd etdiyi müttəqilərin vəsfləridir. Həmin vəsflərin biri budur ki, onlar gecələr az yatardılar. Çünki onlar qalxıb təhəccüd

---

[1] "əz-Zariyat" surəsi, 17.

[2] "Səhih əl-Buxari", 1062; "Səhih Muslim", 5044.

[3] "əz-Zariyat" surəsi, 17-18.

namazı qılar, Quran oxuyar və başqa *xeyirli* işlər görərdilər. Uca Allah buyurur: **“Həqiqətən, Rəbbin bilir ki, sən və səninlə olan *səhabələrin* bir qismi *bəzən* gecənin üçdə ikisinə yaxın qismini, *bəzən* yarısını, *bəzən də* üçdə birini *ibadət üçün* durursunuz”.**[1] Onlar gecə qalxıb namaz qılar, namazlarını bitirdikdə isə *yenə də* özlərini təqsirkar bilib izzət və cəlal sahibi Allahdan bağışlanma diləyərdilər: **“Səhərlər istiğfar edərlər”.** Uca Allah “Ali-İmran” surəsində buyurur: **“sübh çağına yaxın *Allahdan* bağışlanma diləyən kimsələrdir”**[2]**,** yəni gecənin sonunda.

Sonra müəllif ﷬ bəzi hədisləri qeyd edir. Həmin hədislərin birində Aişə ﵂ rəvayət edir ki, Peyğəmbər ﷺ gecələr o qədər davamlı namaz qılardı ki, ayaqları şişərdi. Belə ki, qan ayağa toplandıqda ayaq şişir. Ondan bu barədə soruşdular ki, niyə belə edirsən? Axı Allah sənin keçmiş və gələcək günahlarını bağışlayıb. O isə belə cavab verdi: **“Məgər şükür edən qullardan olmayımmı?”** Beləliklə, Peyğəmbər ﷺ bu ibadətləri nöqsansız və uca Allaha şükür hesab etdi.

Buradan anlaşılır ki, nemət verənə itaət etmək şükür hesab olunur. İnsan *sözlə* “Allaha şükür” dedikdə, bu kifayət etmir. Gərək bədəninlə də şükür edəsən, yəni izzət və cəlal sahibi Allaha *bədəninlə də* ibadət edəsən.

Bu hədis Peyğəmbərin ﷺ ibadətlərə necə səbrlə yanaşmasına və onu çox sevməsinə dəlildir. Çünki yalnız güclü sevən kəs bunu edə bilər. Ona görə də Peyğəmbər ﷺ demişdir: **“Gözümün nuru namazdadır”.**[3]

Namaz Peyğəmbərin ﷺ ən çox sevdiyi əməllərdəndir. Səhabələrindən Abdullah ibn Məsud ﵁ onunla birlikdə gecə namazı qılmağından danışır və deyir ki, bir gecə onunla namaz qıldı və Peyğəmbər ﷺ qiyamı çox uzatdı. Abdullah deyir ki: “İş o yerə çatdı ki, pis şeylər fikirləşdim”. Ondan soruşdular: “Nə fikirləşdin, ey Əbu Əbdür-Rəhman?” Dedi: “Fikirləşdim ki, oturum və onu tərk edim”. Baxın, o gənc idi və Peyğəmbərdən cavan idi, ancaq o da onun kimi *ibadət* etməkdə aciz oldu.

Əgər kimsə soruşsa ki, gecə namazının qiyamını uzatmaq daha fəzilətlidir, yoxsa rukusunu və ya səcdəsini? Biz deyərik ki, bax, gör qəlbinə nə

---

[1] “əl-Muzzəmmil” surəsi, 20.

[2] “Ali-İmran” surəsi, 17.

[3] “Musnəd İmam Əhməd”, 3/245; “Sunən ən-Nəsai”, 3879.

yatırsa, onu et. Ola bilsin, insanın qəlbi səcdədə daha mütməin (arxayın) olsun. Yaxud ola bilsin, qiyam halında Quran oxuyarkən onun mənalarını düşünür və səcdə halında əldə edə bilmədiyi faydaları qiyam halında əldə edir. Lakin yaxşı olar ki, namazdakı vəziyyətlərini bərabərləşdirsin: əgər qiyamı uzadırsa, rukunu və səcdəni də uzatsın, qiyamda qısa durduğunda isə ruku və səcdəni də qısa etsin ki, Peyğəmbərin ﷺ namazına bənzəsin. Daha doğrusunu Allah bilir.

١١٦١– وَعَنْ عليٍّ رضي الله عنه ، أَنَّ النَّبِيَّ ﷺ طَرَقَهُ وَفاطِمَةَ لَيلاً، فَقَالَ: « أَلا تُصلِّيَانِ؟ » متفقٌ عليه.

« طرقَةُ »: أَتَاهُ لَيْلا.

**1161.** Əlidən رضي الله عنه rəvayət olunur ki, «Bir gecə Peyğəmbər ﷺ onunla Fatiməni oyadıb dedi: **"Namaz qılmırsınızmı?"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

[Hədisin ərəbcəsində keçən] "taraqahu" sözü, "gecə vaxtı onların yanına gəldi" deməkdir.

١١٦٢– وعَن سالِمِ بنِ عبدِ اللَّهِ بنِ عُمَرَ بنِ الخَطَّابِ رضي الله عنهم ، عَن أَبِيه: أَنَّ رسولَ اللَّهِ ﷺ قَالَ: « نِعْمَ الرَّجلُ عبدُ اللَّهِ لَو كانَ يُصلِّي مِنَ اللَّيْلِ » قالَ سالِمٌ: فَكَانَ عَبْدُ اللهِ بعْدَ ذلكَ لا يَنَامُ مِنَ اللَّيْلِ إِلاَّ قَلِيلاً. متفقٌ عليه.

**1162.** Salim ibn Abdullah ibn Ömər ibn əl-Xəttab رضي الله عنهم atasından rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Gecə namazını qıldığı təqdirdə Abdullah necə də gözəl adamdır".** Salim deyir ki, o vaxtdan Abdullah gecənin az bir hissəsini yatardı.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١١٦٣– وَعن عبدِ اللَّهِ بنِ عَمْرِو بنِ العاصِ رضي الله عنهما قالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « يَا عَبْدَ اللَّهِ لا تكن مِثْلَ فُلانٍ: كانَ يَقُومُ اللَّيْلَ فَتَرَكَ قِيَامَ اللَّيْلِ » متفقٌ عليه.

---

[1] "Səhih əl-Buxari", 4355; "Səhih Muslim", 775.

[2] "Səhih əl-Buxari", 3457; "Səhih Muslim", 2479.

**1163.** Abdullah ibn Amr ibn əl-As ﷺ demişdir: Rəsulullah ﷺ demişdir: **"Ey Abdullah, filankəs kimi olma. O əvvəllər gecə namazı qılardı, ancaq sonra gecə namazını tərk etdi".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١١٦٤– وعن ابن مَسْعُودٍ ﷺ، قَالَ: ذُكِرَ عِنْدَ النَّبِيِّ ﷺ رَجُلٌ نَامَ لَيْلَةً حَتى أَصبحَ، قالَ: « ذاكَ رَجُلٌ بال الشَّيْطَانُ في أُذنَيْهِ أَو قال: في أُذنِه »، متفقٌ عليه.

**1164.** İbn Məsud ﷺ demişdir: "Peyğəmbərin ﷺ yanında bütün gecəni səhərə qədər yatan bir kişini zikr etdilər. O dedi: **"O adamın qulaqlarına şeytan sidik ifraz edib".** Yaxud: **"qulağına"**– dedi.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١١٦٥– وعن أَبي هُريرَةَ ﷺ، أَنَّ رسُولَ اللَّهِ ﷺ قالَ: « يَعْقِدُ الشَّيطَانُ عَلى قافِيةِ رَأْسِ أَحَدِكُم، إِذا هُوَ نَامَ، ثَلاثَ عُقدٍ، يَضرِب عَلى كلِّ عُقدَةٍ: عَلَيْكَ لَيْلٌ طَويلٌ فَارقُدْ، فإِنْ اسْتَيْقظَ، فَذَكَرَ اللَّه تَعَالَى انحلَّت عُقْدَةٌ، فإِنْ توضَّأَ انحَلَّت عُقدَةٌ، فَإِن صلَّى انحَلَّت عُقدُهُ كُلُّهَا، فأَصبَحَ نَشِيطاً طَيِّب النَّفسِ، وَإِلاَّ أَصبح خَبِيثَ النَّفْسِ كَسْلانَ » متفقٌ عليه.

**1165.** Əbu Hureyradan ﷺ nəql olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"Biriniz yatdığı zaman şeytan onun başının arxasına üç düyün vurur, hər düyünün də üstünə vurub deyir ki, yat, qarşıda uzun bir gecə var. Əgər adam qalxıb Uca Allahı zikr edərsə, bir düyün açılar, dəstəmaz alarsa, daha bir düyün açılar, namaz qılarsa, bütün düyünlər açılmış olar. Beləcə o, gümrah və kefi kök olar. Əks təqdirdə isə kefsiz və tənbəl olar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

**Şərh:**

Bu iki hədis gecə namazına aiddir.

Birinci hədisdə deyilir ki, bir dəfə Peyğəmbərin ﷺ yanında səhərə qədər yatmış bir kişi barədə söz düşdü. Yəni o sübhə qədər yatmış, təhəccüd

---

[1] "Səhih əl-Buxari", 1084; "Səhih Muslim", 1159.

[2] "Səhih əl-Buxari", 3030; "Səhih Muslim", 1293.

[3] "Səhih əl-Buxari", 1074; "Səhih Muslim", 776.

etməmişdi. Bir ehtimal da var ki, "səhərə qədər", yəni heç sübh namazını da qıla bilməmişdi. Peyğəmbər ﷺ də buyurur ki: **"Bu adamın qulaqlarına, yaxud qulağına şeytan sidik ifraz etmişdir".** Onun qulaqlarına sidik ifraz etdikdə isə bu onun azanın səsini eşitməsinə mane olmuş, o da qalxa bilməmişdi. Bu da dəlildir ki, şeytan da sidik ifraz edir. Çünki Peyğəmbər ﷺ buyurur ki: **"Şeytan onun qulağına sidik ifraz edir".**

O (şeytan) yeyir və içir. Peyğəmbərin ﷺ belə də dediyi sabit olmuşdur ki: **"Sizlərdən heç kim sol əli ilə yeməsin, içməsin. Çünki şeytan sol əli ilə yeyir və sol əli ilə içir".**[1] Yenə ondan ﷺ sabit olmuşdur ki, şeytan qusur. Adam "bismilləh" demədən yemək yeyərsə, şeytan onun yeməyinə şərik olar. Çünki sən "bismilləh" demədən yeməyə başladıqda, şeytana şərik olursan. Bir nəfərin sonradan "bismilləh" deməsini eşidən Peyğəmbər ﷺ dedi: **"Şeytan yediyini qaytardı".**[2] Yəni onu içərisindən çıxardı.

Beləliklə, biz Peyğəmbərin ﷺ xəbər verdiyi bu dörd şeyə iman gətirməliyik: *şeytanın* sidik ifraz etməsinə, yemək yeməsinə, içməsinə və qaytarmasına. Bunların həqiqətən baş verdiyinə *həm də aşağıdakı səbəblərdən* iman gətirməliyik:

Birinci, Peyğəmbər ﷺ qeyb məsələlərində məxluqatın ən elmlisidir.

İkinci, o ﷺ ümmətə ən yaxşı nəsihət edəndir. Onun üzərinə (dediklərinə alternativ) kəlam gətirilə bilməz.

Üçüncü, Peyğəmbər ﷺ məxluqatın ən doğrudanışanıdır. Ola bilməz ki, "şeytan yeyir, içir, qaytarır və sidik ifraz edir" misalında bir söz söyləsin, ancaq başqa bir şeyi nəzərdə tutsun. Bəs görəsən şeytanın yeməyi, içməyi, sidik ifrazı və qaytarması gözlə görülürmü? Xeyr, görünmür. Biz sadəcə ona iman gətirir və deyirik ki, bu qeyb məsələlərindəndir və biz onun necəliyini bilmirik. Fakt olaraq da biz onun göründüyü haqqında bir şey bilmirik.

Hədis dəlildir ki, insan gərək gecə namazına qalxmağa həris olsun ki, şeytan ona yol tapa bilməsin.

Əbu Hureyradan nəql olunmuş hədisdə isə Peyğəmbər ﷺ xəbər vermişdir ki, insan yatdığı zaman şeytan onun başının arxasına üç düyün

---

[1] "Səhih Muslim", 3765.

[2] Bax: əş-Şərbini, "əl-İqna", 1/47.

vurur, hər düyünün də üstünə vurub deyir ki; "yat, qarşıda uzun bir gecə var". İstəyir ki, onu xeyirdən məhrum etsin. Lakin insan qalxıb Allahı zikr edərsə, düyünün biri açılar, dəstəmaz aldıqda ikinci düyün, namaz qıldıqda isə üçüncü düyün açılar. Beləcə o, gümrah oyanar. Bu asan dərmana görə Allaha həmd olsun.

*Oyanar-oyanmaz ilk öncə* Allahı zikr et, de ki: "La ilahə illəllah. Öldükdən sonra bizi dirildən Allaha həmd olsun". "Ali-İmran" surəsinin son on ayəsini oxu. *Birinci düyün açılacaq.* Dəstəmaz al. Bu zaman ikinci düyün açılacaq. Namaz qılsan üçüncü düyün də açılacaq. Odur ki, yaxşı olar ki, insan gecə namazını iki xəfif rükətlə açsın. Çünki Peyğəmbər bunu əmr edər, özü də belə edərdi – gecə namazını iki qısa rükətlə açardı. Çünki bu, şeytanın düyününün daha tez açılması ilə nəticələnir. İki rükət namaz qılan kimi, düyün açılmış olur. Bu da hissiyatımızla dərk etmədiyimiz qeybi məsələlərdəndir. Biz bunu yalnız vəhy vasitəsilə dərk edə bilərik. *Hissimizlə dərk etmədiyimiz şeylər üçün isə* gərək: "Allah və Onun elçisinin xəbər verdiklərini eşitdik və təsdiq etdik" deyək. İmanın həqiqəti də budur. Görmədiyi şeyə iman gətirməyən kəs isə mömin deyil. Buna görə də kafirlər əzabı gözləri ilə gördükdə, yaxud ölümü gördükdə iman gətirirlər. Məsələn, Firon suda bataraq həlak olacağını gördükdə demişdi ki: **"İsrail oğullarının iman gətirdiklərindən başqa məbud olmadığına inandım. Mən də müsəlmanlardanam!".**[1]

Baxın, bir qədər əvvəl İsrail oğullarına ağalıq edirdi, indi isə onlara tabe olaraq iman gətirir. Ölməmişdən öncə diri ikən özünü alçaldır. Ona belə deyilir: **"İndimi?"** Yəni indi iman gətirirsən? Faydası yoxdur: **«*Firona deyildi:* "İndimi? Sən ki, əvvəllər asilik etmiş və fəsad törədənlərdən olmuşdun. Bu gün sənin bədənini üzə çıxaracağıq ki, səndən sonra gələnlərə ibrət olasan"».**[2] Çünki Firon İsrail oğullarını qorxudurdu. Əgər onlara deyilsəydi ki, o öldü, onların qəlbində şübhə qalacaqdı. Ancaq onun cəsədini suyun üzərində görsəydilər, inanardılar: «**"Bu gün sənin bədənini üzə çıxaracağıq ki, səndən sonra gələnlərə ibrət olasan". Həqiqətən də, insanların çoxu ayələrimizdən xəbərsizdir».**[3]

---

[1] "Yunus" surəsi, 90.
[2] "Yunus" surəsi, 91-92.
[3] "Yunus" surəsi, 92.

Xülasə, ey qardaşlar, ağıllarınızın mümkünsüz hesab etdiyi bu məsələlərə gərək iman gətirəsiniz. Əgər bu haqda Peyğəmbər deyibsə, o zaman de ki, "iman gətirdim, təsdiq edirəm". Demə ki, əlimi qulağıma çəkirəm, ancaq nəmliyini görmürəm. Məgər şeytanın sidiyi insanın sidiyi kimidir? Bu işin elmi Allah yanındadır. Biz iman gətiririk ki, şeytan, namazı gecikdirməsi üçün insanın qulağına sidik ifraz edir – onun nəmliyini duysaq da, duymasaq da. Həmçinin o, yeyir, içir və qusur. İnsan bu kimi məsələlərə gərək iman gətirib təsdiqləsin. Bizim bilmədiyimiz o qədər çox məsələlər var ki...

Peyğəmbərdən ﷺ ruh barəsində soruşurlar ki, insanın bədənində var olduqca insan sağdır, gedib-gəlir, bədənindən çıxdıqda isə insan ölür və cansız bədənə çevrilir. Bəs ruh nədir? Uca Allah buyurur: **«Səndən ruh haqqında soruşurlar. De: "Ruh Rəbbimin əmrindəndir. Sizə yalnız az bir bilik verilmişdir"».**[1] Yəni, ruh barədə elm sizə bəlli olmaz.

Sərçə dənizdən su götürdükdə, Xıdır Musaya demişdi ki, "Mənim və sənin elmin Allahın elmindən heç bu sərçənin dənizdən götürdüyü su qədər də əksiltmədi".[2] Yəni, *Allahın elmi* heç naqis olmadı.

Biz də Allahın bizə öyrətdiyindən başqa heç bir şey bilmirik, – bizə elmdən az bir şey verilmişdir. Müvəffəq edən Allahdır.

١١٦٦– وَعن عبدِ اللَّهِ بنِ سَلاَمٍ رضي الله عنه ، أَنَّ النَّبِيَّ ﷺ قالَ: « أَيُّهَا النَّاسُ أَفْشُوا السَّلامَ، وَأَطْعِمُوا الطَّعَامَ، وَصَلُّوا باللَّيْل وَالنَّاسُ نِيامٌ، تَدخُلُوا الجَنَّةَ بِسَلامٍ ».

رواهُ الترمذيُّ وقالَ: حديثٌ حسنٌ صحيحٌ.

**1166.** Abdullah ibn Salamdan رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Ey insanlar, salamı yayın, yemək yedirin, insanlar yatdığı zaman gecə namaz qılın, *bununla da* salamatlıqla Cənnətə daxil olun!"**

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən səhih hədisdir".[3]

---

[1] "əl-İsra" surəsi, 85.

[2] "Səhih əl-Buxari", 119; "Səhih Muslim", 4385.

[3] "Musnəd İmam Əhməd", 5/451; "Sunən ət-Tirmizi", 2409.

**Şərh:**

Müəllif ﷺ "Gecə namazının fəziləti" fəslində Abdullah ibn Salam-dan ﷺ hədis nəql edir ki, həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Ey insanlar, salamı yayın"**.

Bilin ki, şəriətin xitabı nida ilə (çağırışla) edilirsə, bu həmin xitabın mühümlüyünə işarə edir. Çünki nida (çağırış) xitab olunanın diqqətini cəlb etmək üçündür. Hər hansı bir sözü ümumən demək ilə xitab olunanın nəzərini cəlb etmək arasında fərq var. İkinci fikri daha çox cəlb edir.

**"Ey insanlar, salamı yayın"**. Yayın, yəni elan edin, izhar edin, çoxlu salam verin.

Salam, salam verənin salam verilənə dediyi sözdür. Salam verən kəs gərək tanıyıb-tanımamasından asılı olmayaraq, gördüyü hər kəsə – əgər həmin adam buna layiqdirsə, – salam versin. Salama layiq olan kəs də o kəsdir ki, o, müsəlmandır və onu tərk etmək halal deyil. Kafirə isə salam verilmir – istər həmin kafir İslama nisbət olunmayan kafir olsun, istərsə də İslama nisbət olunan. Məsələn, küfr bidəti edən kəsə salam vermə, çünki o buna layiq deyil. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Yəhudi və nəsranilərə salamı birinci verməyin".**[1]

Salam verən kəs gərək səsini ucaltsın ki, səsi eşidilsin, burnunda (dodağının altında) salam verməsin. Çünki bəzi insanlar – Allah bizləri də, onları da hidayət etsin! – təkəbbürlü və sərt olur. Səni görəndə burnunda mızıldanaraq salam verir. Onun səsini az qala eşitmirsən. Bu, salamı yaymağa müxalifdir. Salamı yaymaq səsini ucaltmaq və *ətrafdakılara mane olmayacaq dərəcədə* yüksək səslə "əssəlamu aleykə" deməkdir. Alimlər demişlər ki, yalnız aralarında yatmış kəslər olan oyaqlara salam verilməsi istisnadır. Bu zaman yatanları oyadacaq səviyyədə səsi yüksəldərək salam verilməməlidir. Çünki bu, yatanlara əziyyət verir.

Salamın müstəhəb deyiliş forması belədir ki, əgər salam verilən bir nəfərdirsə, "əssəlamu aleykə" deyirsən; əgər kişi camaatıdırsa, "əssəlamu aleykum" deyirsən; əgər qadın camaatıdırsa, "əssəlamu aleykunnə" deyirsən. Beləcə, müraciət xitab olunana görə dəyişir. Əgər sən "əssəlamu aleykə,.. aleykum,.. aleykunnə" desən, hiss edərsən ki, onların salamatlığı üçün dua edirsən. Axı "əssəlamu aleykum" sadəcə salamlaşmaq deyil,

---

[1] "Səhih Muslim", 4030.

həm də salamatlıq duasıdır. Dua edirsən ki, Allah onu bütün bəlalardan – günahlardan, qəlbin və bədənin naqisliklərindən və irili-xırdalı başqa hər növ bəlalardan qorusun. Buna görə də əgər "əssəlamu aleykum" sözünün əvəzinə "əhlən və mərhabən" (xoş gördük!)" desən, bu keçərli deyil, çünki "xoş gördük!" sözündə dua yoxdur. Bu sadəcə salamlaşmadır – bu sözdə duadan heç bir əsər-əlamət yoxdur. Şəriətin buyurduğu salam qaydası "əssəlamu aleykum" deməyindir.

Salamı alan kəsə gəlincə isə o, verilən salamı olduğu kimi qaytarmalıdır. Bu, vacib bir işdir. Uca Allah buyurur: **"Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya *verilən salamı olduğu kimi* qaytarın".**[1] Bu o deməkdir ki, əgər sənə: "əssəlamu aleykə" deyilərsə, sənin: "xoş gördük; xoş gəlmisən, ey filankəs; Allah səni qorusun; səni görməyimə çox şadam" kimi dediyin bütün sözlər: "əssəlamu aleykə" sözünü əvəz etmir. Gərək məhz: "əssəlamu aleykə" deyəsən. Bunu etməsən, günah qazanmış olursan. Çünki bu halda sən vacibi tərk edirsən: sən nə onu gözəl şəkildə aldın, nə də ki, qaytardın. Halbuki: **"onu daha gözəl şəkildə alın və ya *verilən salamı olduğu kimi* qaytarın!"**

Həmçinin, əgər sənə yüksək səslə aydın şəkildə salam verilərsə, ona burnunda (dodağının altında) *mızıldanaraq* cavab vermə. Ola bilsin ki, onu eşitməsin. Bu caiz deyil. Çünki sən salamı nə daha yaxşı şəkildə, nə də misli ilə qaytarmamısan. Bir çoxları aydın səslə: "əssəlamu aleykum" deyəndə, qarşısındakı adam sakit səslə, burnunda (dodağının altında) gizlicə "və aleykum əssəlam" deyir. Belə düzgün deyil. Çünki Uca Allah buyurur: **"onu daha gözəl şəkildə alın və ya *verilən salamı olduğu kimi* qaytarın!"** Burada həm söz, həm də onun deyilişi (ifadə tonu) nəzərdə tutulur.

Əgər kimisə salamlasan, o da cavabında: "xoş gördük" və s. deyərsə, ona de ki, "ay qardaş, bu kifayət etmir. Sən boynunda vacib olan salamı hələ qaytarmamısan". Onu tənbeh et, çünki izzət və cəlal sahibi Allah yaxşı işlər etməyi və pis işlərdən çəkinməyi əmr etmişdir.

Hədisin davamında Peyğəmbər ﷺ demişdir: **"Yemək yedirin"**.

Yemək kimə yedirilir? – Ehtiyacı olana. Ailəni, xanımını, övladlarını və evindəki başqa adamları yedirtmən ən əfzəl olandır. Onları yedirmən

[1] "ən-Nisa" surəsi, 86.

kasıblara sədəqə verməyindən daha üstündür. Çünki onları yedirməyin vacibdir. Vacib olanı etmək isə nafiləni etməkdən daha əfzəldir.

Bir qüdsi hədisdə Uca Allah buyurur: **"Qulumun mənə ən sevimli yaxınlaşması, ona fərz buyurduqlarımladır".**[1] Öz ailənə yemək yedirtməyin qapında durmuş kasıbı yedizdirməyindən daha fəzilətlidir. Çünki birinci vacibdir, ikinci isə nafilə. Kim öz ailəsini yedirirsə və bu işdə onların yanında təqsirkar deyilsə, o zaman başqalarını da yedirə bilər, əlavə olanı da sədəqə verə bilər – belə daha xeyirlidir.

**"İnsanlar yatdığı zaman gecə namaz qılın".** Allahım, bizi onlardan et! Gecə yuxusunun ən şirin vaxtı gecəyarıdan sübhə qədər olan vaxtdır. Əgər birisi həmin vaxt izzət və cəlal sahibi Allah üçün qalxıb təhəccüd qılarsa, məhz insanlar yatdığı vaxt sözü və duası ilə Onun qarşısında qorxaraq ibadət edərsə, bu ən əfzəl əməllərdən biri hesab olunur.

**"İnsanlar yatdığı zaman gecə namaz qılın"**. Bu hədisdə tələb olunan yer budur. Allahın elçisi ﷺ gecə namazını Cənnətə daxil olma səbəblərindən etmiş və demişdir ki, *bu əməlin əvəzi olaraq*: **"Salamatlıqla Cənnətə daxil olun".** Orada mələklər sizə salam verəcəkdir: *"**onlar üçün*** **özlərinin, əməlisaleh atalarının, zövcələrinin və övladlarının daxil olacaqları Ədn cənnətləri hazırlanmışdır. Mələklər** *Cənnətdəki* **hər bir qapıdan onların yanına daxil olub** *deyəcəklər*: *"Dünyadakı çətinliklərə* **səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdu necə də gözəldir".**[2] – səbir etdiklərinə və bu böyük savaba nail olduqlarına görə onları təbrik edirlər.

**"Salamatlıqla Cənnətə daxil olun"** – onların ora əzabsız, cəzasız daxil olacaqları bildirilir. Çünki əzab çəkən şəxs salamat olmur.

Bu hədisdə qeyd olunan üç şey Cənnətə daxil olma səbəblərindəndir. Uca Allahdan diləyirəm ki, mənə və sizlərə yardım etsin, bizləri Cənnətə salamatlıqla daxil olanlardan etsin. Şübhəsiz ki, O, hər şeyə qadirdir.

١١٦٧– وَعَنْ أَبِي هُرِيرَةَ رضي الله عنه قَالَ: قَالَ رَسولُ اللَّهِ ﷺ: «أَفْضَلُ الصيَّامِ بعْدَ رَمَضَانَ شَهْرُ اللَّهِ المُحَرَّمُ، وَأَفْضَلُ الصَّلاةِ بعدَ الفَرِيضَةِ صَلاةُ اللَّيْل» رواه مُسلِمٌ.

---

[1] "Səhih əl-Buxari", 6021.

[2] "ər-Rad" surəsi, 23-24.

**1167.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Ramazan orucundan sonra ən əfzəl oruc Allahın ayı Məhərrəmdə tutulandır, fərz namazından sonra ən əfzəl namaz isə gecə namazıdır”.**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١١٦٨– وَعَنِ ابنِ عُمَرَ رضي الله عنهما ، أَن النَّبِيَّ ﷺ قَالَ: «صَلاةُ اللَّيْلِ مَثْنَى مَثْنَى، فَإِذا خِفْتَ الصُّبْح فَأَوْتِرْ بِواحِدَةٍ » متفقٌ عليه.

**1168.** İbn Ömərdən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **“Gecə namazı iki rükət-iki rükətdir. Sübhün daxil olmasından qorxsan, bir rükət vitr namazını qıl”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١١٦٩– وَعَنْهُ قَالَ:كَانَ النَّبِيُّ ﷺ يُصلِّي منَ اللَّيْل مَثْنَى مَثْنَى، وَيُوترُ بِرَكعة.متفقٌ عليه.

**1169.** Yenə İbn Ömərdən ﷺ rəvayət olunur ki, o demişdir: “Peyğəmbər ﷺ gecə vaxtı namazı iki rükət-iki rükət qılar, vitri isə bir rükət qılardı”.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

١١٧٠– وعنْ أَنَسٍ رضي الله عنه ، قالَ: كَانَ رسُولُ اللَّهِ ﷺ يُفطِرُ منَ الشَّهْرِ حتَّى نَظُنَّ أَنْ لا يصوم مِنهُ، ويصَومُ حتَّى نَظُن أَن لا يُفْطِرَ مِنْهُ شَيْئاً، وَكانَ لا تَشَاءُ أَنْ تَراهُ مِنَ اللَّيْلِ مُصَلِّياً إِلا رَأَيْتَهُ، وَلا نَائماً إِلا رَأَيْتَهُ. رواهُ البخاريُّ.

**1170.** Rəvayət olunur ki, Ənəs ﷺ demişdir: “Rəsulullah ﷺ ay ərzində o qədər iftar edərdi ki, biz onun heç oruc tutmadığını zənn edərdik. Bəzən də o qədər oruclu olardı ki, biz onun heç iftar etmədiyini düşünərdik. O, nə gecə vaxtı onun namaz qılmasının, nə də yatmasının görülməsini istəməzdi”.

Bu hədisi Buxari rəvayət etmişdir.[4]

---

[1] “Səhih Muslim”, 1982.
[2] “Səhih əl-Buxari”, 1069; “Səhih Muslim”, 1241.
[3] “Səhih əl-Buxari”, 940; “Səhih Muslim”, 1251.
[4] “Səhih əl-Buxari”, 1073.

**Şərh:**

Bu hədislər gecə namazının fəzilətini bəyan edir.

Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Ramazan orucundan sonra ən əfzəl oruc Allahın ayı Məhərrəmdə tutulandır".**

Ramazan orucunu tutmaq İslamın rüknlərindən biridir. Onu tutmaq yekdilliklə vacibdir. Məhərrəm ayı isə insanın nafilə orucu tutması üçün ən əfzəl aydır. Buna əsasən də Məhərrəm ayında oruc tutmaq müstəhəb hesab olunur. Çünki o, fərz oruclarından sonra ən əfzəl oruc hesab olunur.

*Mövzumuza görə* bu hədisdə tələb olunan yer isə: **"Fərz namazından sonra ən əfzəl namaz gecə namazıdır"** ifadəsidir. Gecə vaxtı namaz qılmaq gündüz qılmaqdan daha əfzəldir. Bu halda fərz namazının sünnələri istisnadır. Həmin namazlar gecə vaxtı mütləq şəkildə qılınan namazlardan əfzəldir. Misal üçün, zöhr namazının sünnəsi iki salamla olub dörd rükət əvvəl, iki rükət də sonra qılınan namazdır. Həmin altı rükət gecə vaxtı qılınan altı rükət namazdan əfzəldir. Çünki o, təkid olunmuş sünnədir və fərzə tabedir (bağlıdır). Mütləq şəkildə gecə vaxtı qılınan nafilə isə gündüz vaxtı qılınan digər növ nafilədən daha fəzilətlidir. Odur ki, Peyğəmbər ﷺ demişdir: **"Fərz namazından sonra ən əfzəl namaz gecə namazıdır".**

İbn Ömərdən ﵄ rəvayət olunan birinci və ikinci hədislər dəlildir ki, gecə namazı iki rükət-iki rükət qılınır. İmam Əhməd ﵀ demişdir: "Əgər unudaraq üçüncü rükətə qalxarsa, sübh namazında səhvən üçüncü rükətə qalxmış kimi olur". Yəni, gərək geri qayıtsın (təşəhhüdə otursun). Əgər belə etməsə, namazı batil olar. Yəni, məsələn, əgər gecə vaxtı iki rükət qıldığın namazda səhvən üçüncü rükətə qalxmısansa, hətta "Fatihə" surəsini oxumağa başlamış olsan belə, gərək qayıdıb təşəhhüdə oturasan. Əgər belə etməsən, namazın batil olur. Çünki Rəsulullah ﷺ demişdir: **"Gecə namazı iki rükət-iki rükətdir"**. O yalnız vitr namazını istisna etmişdir – vitr namazını üç, beş, yeddi, doqquz rükət qıla bilər. Əgər üç rükət vitr qılırsa, istəsə, iki rükətdən sonra salam verib bir rükəti ayrıca qılar, istəsə də üç rükətin hamısını bir salamla qılar. Beş rükəti də bir salamla və bir təşəhhüdlə qıla bilər. Yeddi rükəti də bir salamla və bir təşəhhüdlə qıla bilər. Doqquz rükəti də bir salamla qıla bilər, lakin bu zaman səkkizinci

rükətdən sonra oturub təşəhhüd edir, ancaq salam vermir. Sonra doqquzuncu rükəti qılıb salam verir. On bir rükət vitr namazı qıldıqda isə hər iki rükətdən bir salam verir. Peyğəmbər ﷺ belə edərdi.

İbn Ömərdən رضي الله عنه nəql olunmuş bu iki hədis dəlildir ki, sübh çağı girdikdən sonra vitr namazı qılınmır. Sübhün vaxtının daxil olması ilə vitr namazının vaxtı bitir. Əgər yuxu birisinə qalib gələrsə, o da vitri qılmazsa, onu gündüz vaxtı qılır. Lakin bu zaman cüt rükət qılır – əgər o, adətən üç rükət namaz qılırsa, dörd rükət qılır, əgər adətən beş rükət vitr namazı qılırsa, altı rükət qılır və bu minvalla.

Bu hədislər gecə namazının fəziləti, necəliyi və iki rükət-iki rükət qılınması ilə bağlıdır.

Ənəs ibn Malikdən رضي الله عنه nəql olunan hədis dəlildir ki, Rəsulullah ﷺ yaxşı işləri bəzən elə davamlı edirdi ki, hətta düşünürdün ki, o, ancaq bu yaxşı əməli edir. Elə olurdu ki, hər zaman onu eyni əməli edən görürdün. O istəmirdi ki, sən onun gecə namazına qalxdığını görəsən, lakin sən onun namaza qalxdığını görə bilərdin. Onu yatan görməyini də istəməzdi, lakin onu yatmış da görərdin. İnsanların onun oruc tutmasını da görməyini istəməzdi, lakin sən onu oruclu da görərdin. Onun iftar etməyini görməni də istəməzdi, lakin sən onu iftar edən də görərdin. Yəni Peyğəmbər ﷺ daha əfzəl olanı edərdi – bəzən ardıcıl oruc tutar, davamlı gecə namazı qılar, bəzən də oruc tutmaz, həm də yatardı. Çünki Peyğəmbər ﷺ ən əfzəl olana, Rəbbini daha çox razı salan əmələ tabe olurdu. Çünki insanın özü üzərində haqqı vardır. Peyğəmbər ﷺ Abdullah ibn Amr ibn əl-Asa رضي الله عنه demişdir: **"Nəfsinin də sənin üzərində haqqı vardır".**[1] Müvəffəq edən Allahdır.

١١٧١– وعَنْ عائِشة رضي الله عنها ، أَنَّ رَسولَ اللَّهِ ﷺ كَان يُصلِّي إِحْدَى عَشرَةَ رَكْعَةً تَعْني في اللَّيْلِ يَسْجُدُ السَّجْدَةَ مِنْ ذلك قَدْر مَا يقْرَأُ أَحدُكُمْ خَمْسِين آية قَبْلَ أَن يرْفَعَ رَأْسهُ، ويَرْكَعُ رَكْعتَيْنِ قَبْل صَلاةِ الفَجْرِ، ثُمَّ يضْطَجِعُ على شِقِّهِ الأَيْمنِ حَتَّى يأْتِيَهُ المُنَادِي للصلاةِ، رواه البخاري.

[1] "Səhih əl-Buxari", 5674.

**1171.** Aişədən ﵂ rəvayət olunur ki, “Rəsulullah ﷺ gecə vaxtı on bir rükət namaz qılardı. Onun başını yerdən qaldıranadək etdiyi səcdənin müddəti sizlərdən birinizin əlli ayə oxuduğunuz qədər idi. Sübh namazından öncə də iki rükət namaz qılar, sonra da kiminsə gəlib onu namaza çağırmasınadək sağ tərəfi üstə uzanardı”.

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

١١٧٢– وَعنْها قَالَتْ: ما كان رسُولُ اللَّهِ ﷺ يَزِيدُ في رمضانَ وَلا في غَيْرِهِ عَلى إِحْدى عشرةَ رَكْعَةً: يُصلِّي أَرْبعاً فَلا تَسْأَلْ عَنْ حُسْنِهِنَّ وَطولِهِنَّ، ثُمَّ يُصَلِّي أَرْبعاً فَلا تَسْأَلْ عَنْ حُسْنِهِنَّ وَطولِهِنَّ، ثُمَّ يُصَلِّي ثَلاثاً. فَقُلْتُ: يا رسُولَ اللَّهِ أَتنَامُ قَبْلَ أَنْ تُوترَ، ؟ فقال: « يا عائشةُ إِنَّ عيْنَيَّ تَنامانِ وَلا يَنامُ قلبي » متفقٌ عليه.

**1172.** Yenə ondan rəvayət olunur ki, o demişdir: “Rəsulullah ﷺ nə Ramazanda, nə də qeyri vaxtda *gecə* on bir rükətdən artıq namaz qılmazdı. Dörd rükət namaz qılırdı, – sən onun gözəlliyi və uzunluğu barədə heç soruşma. Sonra yenə dörd rükət namaz qılırdı, – onun da gözəlliyi və uzunluğu barədə soruşma. Sonra da üç rükət namaz qılırdı. Mən soruşdum: “Ey Allahın elçisi, vitri qılmamışdan öncə yatırsanmı?” Dedi: **“Ey Aişə, mənim gözlərim yatır, qəlbim isə yatmır”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١١٧٣– وعنْها أَنَّ النَّبِيَّ ﷺ كانَ يَنَامُ أَوَّل اللَّيْل، ويقومُ آخِرهُ فَيُصلي. متفقٌ عليه.

**1173.** Yenə ondan rəvayət olunur ki, “*Peyğəmbər* ﷺ gecənin əvvəlini yatar, sonunu isə qalxıb namaz qılardı”.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

١١٧٤– وعَن ابنِ مَسْعُودٍ ﵁، قَالَ: صلَّيْتُ مَعَ النَّبِيِّ ﷺ لَيْلَةً، فلَمْ يَزلْ قائماً حتى هَمَمْتُ بِأَمْرِ سُوءٍ. قَيل: ما هَممْت؟ قال: هَممْتُ أَنْ أَجْلِس وَأَدعهُ. متفقٌ عليه.

---

[1] “Səhih əl-Buxari”, 939.

[2] “Səhih əl-Buxari”, 1079; “Səhih Muslim”, 1219.

[3] “Səhih əl-Buxari”, 1078; “Səhih Muslim”, 1223.

**1174.** Rəvayət olunur ki, İbn Məsud ﵁ demişdir: “Bir gecə mən Peyğəmbərlə ﷺ birlikdə namaz qıldım. O, qiyamda o qədər çox dayandı ki, pis şeylər düşündüm”. Soruşdular ki: “Nə düşündün?”, dedi: “Düşündüm ki, oturum, onu tək buraxım”.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١١٧٥– وعَـنْ حُذيفَـةَ ﵁، قَـالَ: صَـلَّيْتُ مَـعَ النَّبِيِّ ﷺ، ذاتَ لَيْلَـةٍ فَـافْتَتَح البقَـرَةَ، فقلتُ: يَرْكَعُ عِنْدَ المِئَةِ، ثُمَّ مضى، فقلتُ: يُصَلِّي بها في رَكْعَةٍ، فمَضَى، فَقُلْتُ: يَرْكَعُ بها، ثُمَّ افْتَتَح النِّسَاءَ فَقَرَأَهَا، ثُمَّ افْتَتَحَ آلَ عِمْرَانَ، فَقَرَأَها، يَقْرَأُ مُتَرَسِّلاً إذا مَرَّ بآيَةٍ فِيها تَسْبيحٌ سَبَّحَ، وَإذا مَرَّ بِسُؤَالٍ سَأَلَ، وإذا مَرَّ بتَعوُّذٍ تَعَوَّذَ، ثُمَّ رَكَعَ، فجعَل يَقُولُ: سُبْحَانَ رَبِّيَ العظيمِ، فَكَانَ رُكُوعُهُ نَحْواً مِنْ قِيَامِهِ، ثُمَّ قال: سمِعَ اللهُ لِمَنْ حَمِدَه، رَبَّنَا لك الحَمْدُ، ثُمَّ قامَ طَويلاً قَرِيباً مِمَّا ركع، ثُمَّ سَجد فَقَالَ: سُبْحانَ رَبِّيَ الأَعْلى فكَانَ سَجُودُهُ قَرِيباً مِنْ قِيَامِهِ. رواه مسلم.

**1175.** Huzeyfədən ﵁ rəvayət olunur ki, o demişdir: “Bir gecə mən Peyğəmbərlə ﷺ birlikdə namaz qıldım. O, “əl-Bəqərə”ni oxumağa başladı. *Öz-özümə* dedim ki, yəqin yüz ayədən sonra rükuya gedər, o isə davam etdi. *Öz-özümə* dedim ki, yəqin “əl-Bəqərə”ni bir rükətdə oxuyacaq. O isə davam edib *onu bitirdi*. *Öz-özümə* dedim ki, indi rüku edər. O isə “ən-Nisa” *surəsinə* başladı və onu oxudu. Sonra “Ali-İmran” *surəsinə* başladı və onu oxudu. Ayələri də aramla oxuyurdu – təsbeh ayəsi oxuduqda “sübhanallah” deyər, dua ayəsi oxuduqda dua edər, sığınma ayəsi oxuduqda da *Allaha* sığınardı. Sonra rüku edib dedi: **“Sübhanə rabbiyəl-azim”**. Onun rükusu da qiyamı qədər oldu. Sonra *rükudan qalxıb* dedi: **“Səmiəllahu limən həmidəhu, Rabbənə ləkəl həmd”**. Sonra rükusu qədər yenə qiyamda dayandı. Sonra səcdə etdi və dedi: **“Sübhanə rabbiyəl-əalə”**. Onun səcdəsi də qiyamı qədər oldu”.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

**Şərh:**

Bu hədislər Peyğəmbərin ﷺ gecə namazı barəsindədir.

---

[1] “Səhih əl-Buxari”, 1067; “Səhih Muslim”, 1292.

[2] “Səhih Muslim”, 1291.

Aişədən رضي الله عنها nəql olunmuş birinci hədisdə deyilir ki, Peyğəmbər ﷺ gecə vaxtı on bir rükət namaz qılardı. O, bunu müfəssəl şəkildə başqa hədislərdə qeyd etmişdir ki, o, iki rükətdən sonra salam verərdi. İki rükət qılar, sonra yenə iki rükət, daha iki rükət qılardı, sonra yenə iki rükət qılar, sonra daha bir iki rükət qılar, sonra da bir rükət qılardı. Yəni, on bir rükət namaz qılardı. Hər iki rükətdən sonra salam verər, sonda da bir rükət qılardı.

Sonra sübh namazından öncə iki rükət namaz qılardı. Yəni, sübh namazının azanı verildikdə iki rükət namaz qılardı. Həmin iki rükəti o qədər qısa qılardı ki, Aişə رضي الله عنها deyərdi ki, görəsən "Fatihə" surəsini oxudumu? Yəni, o dərəcədə qısa şəkildə qılardı. Sonra müəzzin gəlib onu namaza çağıranadək sağ böyrü üstə uzanardı. Bu da dəlildir ki, gecə namazı on bir rükətdir, onlardan biri tək qılınır. Həmçinin dəlildir ki, nafilə namazı evdə qılmaq məsciddə qılmaqdan daha əfzəldir. Ələlxüsus da imam üçün. Həmçinin bildirilir ki, imam evindən yalnız iqamə veriləndə çıxmalıdır. Çıxıb məscidə gedib namazı qılmalıdır. Əfzəl olan budur. Bu imamın məscidə gedib orada nafilə namazı qılmasından daha əfzəldir. Başqa insanlar isə imamı gözləməlidirlər. Daha əfzəl olan odur ki, *imam* namazın iqaməsi verilənədək geciksin. Yalnız buna bir səbəb olması, yaxud tez gəlməyinin məsləhət olması halı istisnadır. Məsələn, onun tez gəlməyi namaz qılanları namaza təşviq edirsə, bu səbəbdən onlar da tez gəlirlərsə, yaxud gec gəldiyində onlar tənbəllik edirlərsə, bu zaman məsləhət olanı etmək gərəkdir.

Aişədən رضي الله عنها nəql olunan başqa bir hədisdə deyilir ki, Peyğəmbər ﷺ nə Ramazanda, nə də qeyri vaxtda on bir rükətdən artıq namaz qılmazdı. Çünki ondan Peyğəmbərin ﷺ Ramazanda namazının necəliyi barədə soruşulanda o demişdi: "O nə Ramazanda, nə də qeyri vaxtda on bir rükətdən artıq namaz qılmazdı. Dörd rükət namaz qılırdı, – sən onun gözəlliyi və uzunluğu barədə heç soruşma. Sonra yenə dörd rükət namaz qılırdı, – onun da gözəlliyi və uzunluğu barədə soruşma. Sonra da üç rükət namaz qılırdı". Bu dörd, dörd və üç on bir rükət edir. Sünnə və əfzəl olan budur ki, gecə namazını on bir və ya on üç rükətdən çox qılmayasan.

Bu səhih hədisdə Aişə رضي الله عنها deyir ki: "Dörd rükət namaz qılırdı – onların gözəlliyi və uzunluğu barəsində heç soruşma".

Bəziləri elə zənn edirlər ki, dörd rükət bir salamla qılınır. Bu səhvdir. Bunu təfsilatlı şəkildə qeyd etdik ki, bu dörd rükətdə hər iki rükətdən sonra salam verilir. Sonra daha bir dörd rükət qılınır və yenə hər iki rükətdən sonra salam verilir. Daha sonra üç rükət qılınır. Onun: "Dörd rükət namaz qılırdı – onların gözəlliyi və uzunluğu barəsində heç soruşma. Sonra yenə *dörd rükət* namaz qılardı" sözləri dəlildir ki, o ﷺ dörd rükəti iki-iki qıldıqdan sonra azacıq istirahət edərdi. Çünki buyurur ki: "Sonra namaz qılardı". "Sonra" sözü tərtibi bildirir. Sonra yenə iki-iki olmaqla dörd rükət qılar və salam verərdi.

Burada ona işarə verilir ki, gərək insan dəlillərdən nəticə çıxarmağa tələsməsin. Dəlilin bütün formalarını toplamalı, cəm etməlidir ki, iş onun üçün aydın olsun. Hətta elm almağa başlayan tələbələr, xüsusən də hədis elmini almağa başlayan bəzi qardaşlar Ramazanda insanlara dörd rükət birdən namaz qıldırırlar ki, bu, doğru deyil, Sünnəyə müxalifdir, hədisin səhv anlaşılmasıdır. Çünki Peyğəmbərdən gecə namazı barəsində soruşulanda o belə cavab vermişdir: **"İki rükət-iki rükətdir"**. Bununla da aydın olur ki, gecə namazı iki rükət-iki rükət qılınır. Dörd rükət birdən yalnız vitr namazı, həm də bəzi hallarda qılınır. Beş rükət birdən, yeddi rükət birdən və doqquz rükət birdən qılınır, sadəcə səkkizinci rükətdə təşəhhüd edilir.

Abdullah ibn Məsuddan رضي الله عنه nəql olunan hədisdə qeyd olunur ki, o, Peyğəmbərlə ﷺ birlikdə bir gecə namaz qılmışdır. Belə ki, Peyğəmbərin ﷺ qapısı açıq olurdu. Onun evi səhabələr və ümmət üçün açıq idi. Kimsə gecə vaxtı gəlib Peyğəmbərlə namaz qılmaq istəsəydi, o heç kimə deməzdi ki, mənimlə namaz qılma, öz evində namaz qıl. Əksinə, bu onun xoşuna gələrdi. Adam onun evinə girib namaz qılardı.

İbn Məsud رضي الله عنه Peyğəmbərə ﷺ xidmət edənlərdən idi. Misvak sahibi idi – Peyğəmbərin ﷺ misvakını təmizləyərdi. O, yastıq və ayaqqabı məsələsində də Peyğəmbərə ﷺ yardımçı olardı. Bəzən İbn Məsud رضي الله عنه Peyğəmbərin ﷺ yanına gələrək onunla birlikdə namaz qılardı. Bir gecə yenə onun yanına gəlib onunla namaz qıldı. O namaz qılarkən Peyğəmbər ﷺ qiyamı uzatdı: "O, qiyamda o qədər dayandı ki, pis şeylər düşündüm". Soruşdular ki, nə düşündün, ey Əbu Abdur-Rəhman? Dedi: "Düşündüm ki, oturum, onu tək buraxım". O gənc idi, Peyğəmbər ﷺ isə ondan yaşlı idi. Buna rəğmən o qədər uzun namaz qılırdı ki, gənclər belə həmin namazı

qılmaqda aciz olurdular. Allahın onun keçmiş və gələcək bütün günahlarını bağışlamasına rəğmən o, izzət və cəlal sahibi Allaha şükür olaraq namaz qılar və: **"Şükür edən qul olmayımmı?"** deyərdi.[1]

Başqa bir vaxtda Hüzeyfə ibn əl-Yəmən ﵁ bir gecə onunla namaz qıldı. *O danışır ki,* Peyğəmbər ﷺ "əl-Bəqərə" surəsi ilə başladı, mən də *öz-özümə* dedim ki, yəqin ki, yüz ayə oxuyub rüku edəcək. Yəni, yüz ayə oxuyub bitirdikdən sonra rüku edəcək. Ancaq o davam etdi. Dedim yəqin surəni bitirib rüku edəcək. Ancaq o, surəni bitirib "ən-Nisa" surəsini oxumağa başladı. Onu da tamamlayıb "Ali-İmran" surəsinə keçdi. Bütün bu oxuduqlarını da aramla oxudu. Bu üç surə beş cüz və dörddə bir cüz edir. Aramla oxuduqda iki saat yarım vaxt aparır. Üstəlik, rəhmət ayəsi oxuduqda, o dayanıb Allahdan rəhmət dilədi, təsbeh ayəsi oxuduqda "sübhanallah" dedi, əzab ayəsi oxuduqda isə ondan Allaha sığındı, beləcə qiraət, zikr və duanı özündə birləşdirdi. Bu uzun qiraətdən sonra rüku etdi. Bəs onun rükusu necə idi? Onun rükusu qiyamı kimi idi. Uzun-uzadı rüku etdikdən sonra qalxar və deyərdi: "Səmiəllahu limən həmidəh". Sonra rükuda dayandığı qədər qiyamda dayanar, sonra da səcdə edərdi. Onun səcdəsi də qiyamı qədər idi. Beləcə, onun namazı həmahəng idi – qiraəti uzatdıqda, rükunu və səcdəni də uzadardı. Rükuda deyərdi ki, "Sübhana rabbiyəl azim". Səcdədə deyərdi ki, "Sübhana rabbiyəl əalə". Əlavə olaraq: "Subhənəkə-llahummə rabbənə va bihəmdikə, Allahumməğfir li" deyər, bunlara da: "Subbuhu quddusu rabbil-mələikəti varruh" əlavə edərdi.[2]

Namaz ibadətlərin əsasını təşkil edən bir bağçadır. Bu elə bir bağdır ki, orada hər növ çiçəklər var: Quran, zikr, dua, təsbih, təkbir, sığınma. Buna görə də namaz bədənlə icra olunan ən əfzəl ibadət hesab olunur. O orucdan da əfzəldir, zəkatdan da, həcdən də – bir sözlə, bütün ibadətlərdən. Bircə tövhid istisnadır: şəhadət vermək ki, Allahdan başqa ibadət haqqına malik məbud yoxdur və şəhadət vermək ki, Muhəmməd Onun elçisidir. Çünki bu, İslamın açarıdır.

Xülasə, bunlar Peyğəmbərin ﷺ gecə namazının qılınma qaydası idi. Müsəlman qardaşım, buna həris ol. Allahdan diləyirəm ki, bizləri və sizi

---

[1] "Səhih Muslim", 1291.

[2] "Səhih Muslim", 752.

həm zahirdə, həm də batində onu etməyə müvəffəq etsin. Bizləri İslam milləti üzərində öldürsün, Öz zümrəsində həşr etsin və elçisi ilə birlikdə Nəim cənnətlərinə daxil etsin.

١١٧٦– وَعَنْ جابرٍ ﷺ قَالَ: سُئِلَ رَسُولُ اللَّهِ ﷺ: أَيُّ الصَّلاةِ أَفْضَلُ؟ قال: « طُولُ القُنُوتِ ». رواه مسلم.

المرادُ بِالقنُوتِ: القِيَامُ.

**1176.** Rəvayət olunur ki, Cabir ﷺ demişdir: "Peyğəmbərdən ﷺ soruşdular ki, hansı namaz daha əfzəldir? O dedi: **"Qunutu uzun *olan*"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Burada "qunut" deyildikdə, qiyam nəzərdə tutulur.

١١٧٧– وَعَنْ عبدِ اللَّهِ بنِ عَمْرو بنِ العَاصِ، ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « أَحَبُّ الصَّلاةِ إلى اللَّهِ صَلاةُ دَاوُدَ، وَأَحبُّ الصيامِ إلى اللَّهِ صِيامُ دَاوُدَ، كانَ يَنَامُ نِصْفَ اللَّيْل وَيَقُومُ ثُلُثَهُ ويَنَامُ سُدُسَهُ وَيصومُ يَوماً وَيُفطِرُ يَوماً » متفقٌ عليه.

**1177.** Abdullah ibn Amr ibn əl-Asdan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Allaha ən sevimli namaz Davudun namazıdır. Allaha ən sevimli oruc da Davudun orucudur. O, gecənin yarısını yatar, üçdə birini qalxar, altıda birini yatardı; bir gün oruc tutar, o biri günü isə tutmazdı".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١١٧٨– وَعَنْ جَابِرٍ ﷺ قَالَ: سمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يقُولُ: « إِنَّ في اللَّيْلِ لَسَاعةً، لا يُوافقُهَا رَجلٌ مُسلِمٌ يسأَلُ اللَّه تعالى خيراً من أمرِ الدُّنيا وَالآخِرةَ إلاَّ أَعْطاهُ إيَّاهُ، وَذلكَ كلَّ لَيْلَةٍ ». رواه مسلم.

**1178.** Rəvayət olunur ki, Cabir ﷺ demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Gecə vaxtı bir saat vardır ki, müsəlman bir adam həmin saatda Uca Allahdan dünya və Axirət xeyirindən bir şey istəyərsə, Allah ona verər. Bu hər gecə baş verir"**».

---

[1] "Səhih Muslim", 1258.

[2] "Səhih əl-Buxari", 1063; "Səhih Muslim", 1969.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Hafiz Nəvəvinin ﷺ zikr etdiyi bu hədislər "Gecə namazının fəziləti" fəslindədir. Həmin hədislərin birində Peyğəmbərdən ﷺ soruşurlar ki, hansı namaz daha fəzilətlidir? O dedi: **"Qunutu uzun *olan*"**. Burada "qunutu uzun" deyildikdə, izzət və cəlal sahibi Allaha mütiliklə uzun-uzadı qiyamda dayanmaq nəzərdə tutulur.

Alimlər ixtilaf etmişlər ki, hansı daha əfzəldir: qiraəti uzadıb rukunu və səcdəni qısaltmaq, yoxsa qiraəti qısa ruku və səcdəni uzatmaq? Yəni rükətlərin sayını çox etmək daha fəzilətlidir, yoxsa rükətləri uzadıb sayını az etmək? Doğru olan budur ki, daha əfzəl olan namazın mütənasib olmasıdır. Daha öncə qeyd etmişdik ki, Peyğəmbər ﷺ rukusunu və səcdəsini qiyamı qədər və ya ona yaxın müddətdə uzadardı.

Müəllifin ﷺ qeyd etdiyi hədisdə Abdullah ibn Amr ibn əl-Asdan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Allaha ən sevimli namaz Davudun namazıdır. Allaha ən sevimli oruc da Davudun orucudur..."**.

Namaza gəlincə, burada nafilə namazı, gecə namazı nəzərdə tutulur. Belə ki, o, gecənin yarısını yatar, üçdə birini qalxar, altıda birini yenə yatardı. Gecəni üç hissəyə bölərdi: birinci yarısı yatmaq üçün, sonrakı üçdəbiri qiyam üçün, növbəti altıdabiri isə yatmaq üçün. Adam üçdəbiri ibadət etdikdən sonra yorulduqda, gecənin son altıdabirini yatmaqla həmin yorğunluğu aradan qaldırır. Bununla belə, insan gecənin istənilən vaxtında *namaz üçün* qalxdıqda, ümid edilir ki, həmin savabı qazanır. Sadəcə Peyğəmbərin ﷺ bu qeyd etdiyi Allaha daha sevimli və daha fəzilətlidir. Lakin son üçdəbiri, orta üçdəbiri və ya ilk yarısını qalxması kifayət edir. Bu, hansının sənə asan gəlməsindən asılıdır. Aişə ﷺ deyir ki: "Bütün gecədən Peyğəmbər ﷺ həm gecənin əvvəlində, həm ortasında, həm də axırında qiyam edərdi". Allaha həmd olsun ki, bu geniş məsələdir.

Daha sonra müəllif ﷺ üçüncü hədisi qeyd edir: **"Gecə vaxtı bir saat vardır ki, müsəlman bir adam həmin saatda Uca Allahdan dünya və Axirət xeyirindən bir şey istəyərsə, Allah ona verər".**

---

[1] "Səhih Muslim", 1259.

Bu saatın da hansı saat olması dəqiq bilinmir, yəni, doğrusunu Allah bilir. Lakin Peyğəmbər ﷺ bunu bizə xəbər vermişdir ki, çalışaq, izzət və cəlal sahibi Allahın qədərini dualar etməklə arayaq. Bu saat da cümə günündəki saat kimi məchuldur. Baxmayaraq ki, daha racih rəyə əsasən, cümə günündəki həmin saat imam xütbə verməyə gəldikdən namazı bitirənədək olan vaxtdır. Müvəffəq edən Allahdır.

١١٧٩– وَعَنْ أَبي هُريرَةَ رضي الله عنه، أَنَّ النَّبِيَّ ﷺ قَالَ: إذا قَامَ أَحَدُكُم مِنَ اللَّيْلِ فَليَفتَتحِ الصَّلاةَ بِركعَتَيْن خَفيفتيْنِ » رواهُ مسلِم.

**1179.** Əbu Hureyradan رضي الله عنه nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Biriniz gecə qalxdığınız zaman *gecə namazına* iki qısa rükətlə başlasın"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١١٨٠– وَعَنْ عَائِشَةَ، رضي الله عنها، قالت: كانَ رَسُولُ اللهِ ﷺ إذا قام مِن اللَّيْلِ افتَتَحَ صَلاتَهُ بِرَكْعَتَيْن خَفيفَتَيْنِ، رواه مسلم.

**1180.** Rəvayət olunur ki, Aişə رضي الله عنها demişdir: "Rəsulullah ﷺ gecə vaxtı qalxdıqda, namaza iki qısa rükətlə başlayardı".

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١١٨١– وعَنْها، رضي الله عنها، قالَتْ: كان رسولُ اللهِ ﷺ إذا فاتتْهُ الصَّلاةُ من اللَّيل مِنْ وجعٍ أَوْ غيرِهِ، صَلَّى مِنَ النَّهارِ ثِنَتي عشَرة ركْعَة. رواه مسلِم.

**1181.** Rəvayət olunur ki, Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ağrı və ya başqa bir səbəbdən gecə namazını buraxdıqda, gündüz vaxtı on iki rükət namaz qılardı".

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

---

[1] "Səhih Muslim", 768.
[2] "Səhih Muslim", 746.
[3] "Səhih Muslim", 1234.

١١٨٢– وعنْ عُمَرَ بنِ الخَطَّابِ ﷺ،قَالَ:قَالَ رسُولُ اللَّهِ ﷺ:« مَنْ نَام عن حِزْبِهِ، أو عَنْ شْيءٍ مِنهُ، فَقَرأهُ فِيما بينَ صَلاةِ الفَجْرِ وصَلاةِ الظُّهْرِ، كُتِب لهُ كأَنَّما قَرَأَهُ منَ اللَّيْلِ ». رواه مسلم.

**1182.** Rəvayət olunur ki, Ömər ibn əl-Xəttab ﷺ demişdir: «Rəsulullah ﷺ demişdir: **"Kim yatıb gecə ibadətdən qalarsa, sonra da sübh namazı ilə zöhr namazı arasında onu qılarsa, ona həmin ibadəti gecə qılmış kimi savab yazılır"**».

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١١٨٣– وعَنْ أَبي هُريرة ﷺ، قال: قالَ رسُولُ اللَّهِ ﷺ: « رحِمَ الله رَجُلا قامَ منَ اللَّيْلِ، فصلىَّ وأيْقَظَ امرأَتهُ، فإنْ أَبَتْ نَضحَ في وجْهِهَا الماءَ، رَحِمَ اللَّهُ امَرَأَةً قَامت مِن اللَّيْلِ فَصلَّتْ، وأَيْقظَتْ زَوْجَهَا فإِن أَبي نَضَحَتْ في وجْهِهِ الماءَ » رواهُ أبو داود. بإِسنادٍ صحيحٍ.

**1183.** Rəvayət olunur ki, Əbu Hureyra ﷺ demişdir: «Rəsulullah demişdir: **"Allah rəhm etsin o kişiyə ki, gecə qalxıb namaz qılar, zövcəsini də oyadar. *Zövcəsi* qalxmasa, onun üzünə su səpər. Həmçinin, Allah rəhm etsin o qadına ki, gecə qalxıb namaz qılar, ərini də oyadar. *Əri* oyanmasa, onun üzünə su səpər"**».

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[2]

١١٨٤– وعنهُ وَعنْ أَبي سَعيدٍ ﷺ، قَالا: قالَ رسولُ اللَّهِ ﷺ: « إذا أَيقَظَ الرَّجُلُ أَهْلَهُ مِنَ اللَّيْل فَصلَّيا أَوْ صَلَّى ركْعَتَينِ جَمِيعاً، كُتِبَ في الذَّاكِرِينَ وَالذَّكِراتِ ». رواه أبو داود بإِسناد صحيحٍ.

**1184.** Yenə Əbu Hureyradan və Əbu Səiddən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kişi öz ailəsini gecə oyadar və onlar da birlikdə iki rükət namaz qılarlarsa, Allahı zikr edən kişilər və qadınlardan yazılarlar".**

[1] "Səhih Muslim", 1236.

[2] "Musnəd İmam Əhməd", 2/250; "Sunən Əbu Davud", 1238; "Sunən ən-Nəsai", 1592; "Sunən İbn Macə", 1326.

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[1]

١١٨٥– وعن عائِشة رضي الله عنها ، أنَّ النَّبِيَّ ﷺ قَالَ: « إذا نَعَس أَحَدُكُمْ في الصَّلاةِ، فَلْيَرْقُدْ حتى يَذهَب عَنْهُ النَّومُ، فَإِنَّ أَحدكُمْ إذا صَلى وهو ناعِسٌ، لَعَلَّهُ يَذهَبُ يَستَغفِرُ فَيَسُبَّ نَفسهُ ». متفقٌ عليهِ.

**1185.** Aişədən رضي الله عنها rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Sizlərdən biriniz namazdan yoruldusa, yuxusunu aradan qaldıranadək yatsın. Çünki yorğun halda namaz qılan, ola bilsin ki, istiğfar edərkən özünü söysün".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١١٨٦– وَعَنْ أَبي هُرَيرَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « إذا قَامَ أَحدُكُمْ مِنَ اللَّيْلِ فَاستعجمَ القُرآنُ على لِسَانِهِ، فَلَم يَدْرِ ما يقُولُ، فَلْيضْطَجِعْ » رواه مُسلِمٌ.

**1186.** Rəvayət olunur ki, Əbu Hureyra رضي الله عنه demişdir: «Rəsulullah ﷺ demişdir: **"Sizlərdən biriniz gecə qalxdıqda *yuxusuzluqdan* Quranı tələsik oxuyursa, nə oxuduğunu da bilmirsə, uzansın"**».

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

**Şərh:**

Hafiz ən-Nəvəvinin رحمه الله nəql etdiyi hədislər gecə namazının fəziləti ilə bağlıdır. Buna aşağıdakılar dəlalət edir:

**Birinci məsələ.** İnsan gecə vaxtı namaz qıla bilməsə, gündüz vaxtı qılmalıdır. Lakin bu zaman vitr namazını qılmır. Çünki gecə namazları vitrlə tamamlanır. Aişənin رضي الله عنها hədisi dəlalət edir ki, Peyğəmbər ﷺ ağrı və ya başqa bir səbəbdən, yəni yuxu səbəbindən gecə namazına qalxmadıqda gündüz vaxtı on iki rükət namaz qılardı. Çünki Peyğəmbər ﷺ əksər hallarda on bir rükəti davamlı şəkildə qılardı. Beləcə, o, daha kamil və çox olanı qəza edər və on iki rükət namaz qılardı. Buna əsasən də əgər

---

[1] "Sunən Əbu Davud", 1114.

[2] "Səhih əl-Buxari", 205; "Səhih Muslim", 1309.

[3] "Səhih Muslim", 1310.

insan adətən üç rükət vitr namazı qılırdısa, dura bilmədikdə, gündüz vaxtı üç deyil, dörd rükət namaz qılmalıdır. Əgər adətən beş rükət namaz qılırdısa, gündüz altı rükət qəza edir və beləcə. Lakin nə zaman qəza edir? – Günəş qalxdığı andan zenitdə olanadək olan vaxtda. Ömərdən ﵁ nəql olunmuş hədis də buna dəlalət edir. Kim gecə vaxtı adətən qıldığı namazı qılmazsa, onu duha vaxtı qəza edir. Əgər unutsa və zöhrədək xatırlamasa, zöhrdən sonra onu qəza edir. Çünki Peyğəmbərin ﷺ bu sözləri ümumidir: **"Biriniz namazdan yatıb qalarsa və ya unudarsa, xatırladıqda onu qılsın".**[1]

Bu hədislər dəlalət edir ki, insana namaz vaxtı yuxu qalib gələrsə, yaxud yorğunluq ona güc gələrsə, namaz qılmamalıdır. Çünki ola bilsin o, yorğunluqdan çaşıb özündən bağışlanma diləyər və ya özünü söyə bilər. Həmçinin ola bilsin, çaşıb Quranı səhv oxuyar. Qurandakı hər hansı bir sözü fərqli şəkildə oxuyar, bununla da Quranı təhrif edər. Sən də əgər adətən gecə vaxtı namaz qılırsansa, birdən yuxu sənə güc gəldikdə özünə əziyyət vermə – yorğunluğunu aradan qaldıranadək yat, sonra qiyama davam et. Əgər bu zaman sübh vaxtı girmiş olsa, vitr namazını da qeyd etdiyimiz kimi, cüt sayda qıl.

Bu hədislər həm də ona dəlalət edir ki, əgər insanın ailəsi varsa, gecə namaza qalxdığında gərək onları da oyatsın. Lakin bu, ailənin halına görə olur. Peyğəmbər ﷺ gecə vaxtı namaz qılar, vitr namazına çatdıqda Aişəni də oyadardı. O da qalxıb vitri qılardı. Yəni lazım deyil ki, ailəni özünlə birlikdə oyadasan. Çünki ola bilsin, ailən bədən və nəfsi cəhətdən sənin kimi gümrah olmasın. Onları özünlə birlikdə oyatma. Onlar bunu istəyirsə, oyada bilərsən. Lakin gecənin sonunda onları oyatmağı unutma. Qoy heç olmazsa vitr üçün qalxsınlar. Rəsulullah ﷺ da belə edərdi.

Allahdan diləyirəm ki, bizləri və sizləri gecəni qalxıb gündüzü oruc tutan, Allaha haqqı ilə ibadət edən qullarından etsin.

---

[1] "Səhih Muslim", 1104.

# İki yüz on üçüncü fəsil

## Ramazan qiyamının, yəni təravih namazının müstəhəbliyi

**Mövzu ilə əlaqəli hədislər:**

١١٨٧– عـنْ أَبـي هُريـرةَ رضي الله عنه أَنَّ رَسُـولَ اللَّهِ ﷺ قـالَ: « مـنْ قـام رَمَضَـانَ إِيمانـاً واحْتِساباً غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ ». متفقٌ عليه.

**1187.** Əbu Hureyradan رضي الله عنه nəql olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"Kim Ramazan ayını imanla, savabını Allahdan umaraq qalxarsa, keçmiş günahları bağışlanar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١١٨٨– وَعنْـهُ رضي الله عنه ، قَـال: كانَ رسُـولُ اللَّهِ ﷺ يُرَغِّـبُ في قِيَـامِ رَمَضَـانَ مِـنْ غيْرِ أَنْ يَأْمُرَهُمْ فِيه بعزيمةٍ، فيقُولُ: « مَنْ قَـامَ رَمَضَـانَ إِيمانـاً واحْتِسَـاباً غُفِرَ لَـهُ مَا تَقَدَّم مِنْ ذَنْبِهِ ». رواه مُسْلِمٌ.

**1188.** Yenə ondan nəql olunur ki, Rəsulullah ﷺ Ramazan qiyamına *böyük* rəğbət bəsləyər, lakin onu başqalarına əmr etməzdi. O ﷺ deyərdi: **"Kim Ramazanı imanla və savabını Allahdan diləyərək qalxarsa, onun keçmiş günahları əfv olunar".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

**Şərh:**

Müəllif رحمه الله **"Ramazan qiyamının, yəni təravih namazının müstəhəbliyi"** fəslini qeyd edir.

Bu ona görə "təravih" adlanır ki, əməlisaleh sələflər Ramazanı qiyam edər, qiyamda, rükuda və səcdədə çox dayanardılar. Onlar dörd rükət namaz qıldıqdan sonra istirahət edər, sonra yenə dörd rükət qılıb yenə istirahət edər, sonra daha üç rükət qılardılar. Elə Aişədən رضي الله عنها nəql olunan hədis də bunu dəstəkləyir. Həmin hədisdə qeyd olunur ki, "Rəsulullah ﷺ

---

[1] "Səhih əl-Buxari", 36; "Səhih Muslim", 1266.

[2] "Səhih Muslim", 1267.

dörd rükət namaz qılardı, – onların uzunluğu və gözəlliyi barədə heç soruşma. Sonra yenə dörd rükət namaz qılardı, – onların da uzunluğu və gözəlliyi barədə soruşma. Sonra yenə üç rükət namaz qılardı".

Peyğəmbər ﷺ Ramazan qiyamına təşviq edər, lakin onu əmr etməzdi. Yəni vacib etmir, sadəcə təşviq edər və deyərdi: **"Kim Ramazanı imanla və savabını Allahdan diləyərək qalxarsa, onun keçmiş günahları əfv olunar".**

Bir Ramazanda Peyğəmbər ﷺ öz səhabələri ilə birlikdə üç gecə camaat namazı qıldı. Sonra *özü gəlmədi* və belə dedi: **"Qorxdum ki, *bu namaz da* sizlərə fərz buyurular, siz isə buna aciz olarsınız".**[1] Beləcə camaat şəklində qlılmağı tərk etdi.

İnsanlar isə gəlib namaz qılmağa davam etdilər. Onlar iki-iki, üç-üç namazlarını qılırdılar – hər kəs namazı öz dosti ilə birlikdə qılırdı. Bir dəfə Ömər gecə vaxtı məscidə gəlib görəndə ki, insanlar yenə ayrı-ayrı namaz qılırlar, öz ağlı ilə belə qərara gəlir ki, onları bir imamın arxasında toplasın – Ubey ibn Kəb رضي الله عنه və onunla birlikdə başqa birisinə göstəriş verir ki, insanlara on bir rükət namaz qıldırsınlar. Beləcə, insanlar təravih namazını bir imamın arxasında qılmağa başladılar. Müsəlmanlar da günümüzədək bu cür namaz qılırlar.

Ancaq alimlər təravih namazının rükətlərinin sayı xüsusunda ixtilaf etmişlər. Bəziləri onun on bir rükət, bəziləri on üç rükət, bəziləri iyirmi üç rükət, digərləri isə daha çox olduğunu bildirmişlər. Bu geniş bir məsələdir. Çünki bu xüsusda ixtilaf etmiş sələflər bunu bir-birilərinə irad tutmamışlar. Məsələ genişdir. Yəni, biz namazı on bir rükətdən artıq qılan kəsin əməlini inkar etmirik. Bunu iyirmi üç rükətdən çox qılanlara da irad tutmuruq. Biz deyirik ki, əgər məscid camaatı razıdırsa, nə qədər istəyirsən, onlarla qıl. Bunu heç kim inkar etməyib.

Əgər *bu mövzuda* insanlar ixtilaf edirlərsə, Sünnəyə qayıtmaq daha əfzəldir. Sünnə isə odur ki, on üç rükətdən artıq qılınmasın. Aişədən رضي الله عنها Peyğəmbərin ﷺ Ramazanda necə namaz qılması barədə soruşulanda o, belə cavab vermişdi: "O, nə Ramazanda, nə də qeyri vaxtda on bir rükətdən artıq namaz qılmazdı".

Yox, əgər ixtilaf yoxdursa, iyirmi üç və ya daha artıq qılmaq olar. Əsas odur ki, insanlar: "bir qədər azalt" demirlər. Əgər "azalt" desələr, gərək bu zaman on bir və ya on üç rükətdən çox qılmasın. Müvəffəq edən Allahdır.

---

[1] "Səhih əl-Buxari", 872; "Səhih Muslim", 1270.

# İki yüz on dördüncü fəsil

## Qədr gecəsinin qiyamının fəziləti və onun əsas gecələrinin bəyanı

**Mövzu ilə əlaqəli ayələr:**

Uca Allah buyurur:

﴿ إِنَّآ أَنزَلْنَٰهُ فِى لَيْلَةِ ٱلْقَدْرِ ﴿١﴾ وَمَآ أَدْرَىٰكَ مَا لَيْلَةُ ٱلْقَدْرِ ﴿٢﴾ لَيْلَةُ ٱلْقَدْرِ خَيْرٌ مِّنْ أَلْفِ شَهْرٍ ﴿٣﴾ تَنَزَّلُ ٱلْمَلَٰٓئِكَةُ وَٱلرُّوحُ فِيهَا بِإِذْنِ رَبِّهِم مِّن كُلِّ أَمْرٍ ﴿٤﴾ سَلَٰمٌ هِىَ حَتَّىٰ مَطْلَعِ ٱلْفَجْرِ ﴿٥﴾ ﴾

**"1. Həqiqətən, Biz *Quranı* Qədr gecəsində nazil etdik. 2. Sən haradan biləsən ki, Qədr gecəsi nədir? 3. Qədr gecəsi min aydan xeyirlidir. 4. O gecə Rəbbinin izni ilə mələklər və Ruh *(Cəbrail)* hər işə görə *yerə* enirlər. 5. O gecə sübh açılanadək əmin-amanlıq olur".**[1]

﴿ إِنَّآ أَنزَلْنَٰهُ فِى لَيْلَةٍ مُّبَٰرَكَةٍ ۚ إِنَّا كُنَّا مُنذِرِينَ ﴾

**"Biz onu mübarək bir gecədə nazil etdik. Həqiqətən, Biz xəbərdar edirik".**[2]

**Mövzu ilə əlaqəli hədislər:**

١١٨٩– وَعَنْ أَبِي هُرِيرَةَ رضي الله عنه ، عن النَّبِيِّ ﷺ قال: « مَنْ قام لَيْلَةَ القَدْرِ إِيماناً واحْتِسَاباً، غُفِر لَهُ ما تقدَّم مِنْ ذنْبِهِ » متفقٌ عليه.

**1189.** Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim Qədr gecəsini imanla, savabını da Allahdan umaraq qalxarsa, keçmiş günahları bağışlanar"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] "əl-Qədr" surəsi, 1-5.

[2] "əd-Duxan" surəsi, 3.

[3] "Səhih əl-Buxari", 1768; "Səhih Muslim", 1268.

١١٩٠– وعن ابنِ عُمر ﭬ أَنَّ رِجَالاً مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ، أُرُوا ليْلَةَ القَدْرِ في المنَامِ في السَّبْعِ الأَواخِرِ، فَقال رسُولُ اللهِ ﷺ: «أَرى رُؤْيَاكُمْ قَدْ تَواطَأَتْ في السَّبْعِ الأَوَاخِرِ، فَمَنْ كَانَ مُتحَرِّيهَا، فَلْيَتَحرَّهَا في السبْعِ الأَواخِرِ» متُفقٌ عليهِ.

**1190.** İbn Ömərdən ﭬ rəvayət olunur ki, Peyğəmbərin ﷺ səhabələrindən bəziləri qədr gecəsini yuxularında son yeddi gecədə görmüşdülər. Rəsulullah ﷺ dedi: **"Görürəm ki, sizin yuxunuz Qədr gecəsinin son yeddi gecədə olduğunu deyir. Kim həmin gecəni axtarırsa, onu son yeddi gecədə axtarsın"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١١٩١– وعنْ عائِشَةَ ﭫ، قَالَتْ: كانَ رسُولُ اللهِ ﷺ يُجاوِزُ في العَشْرِ الأَوَاخِرِ مِنْ رمضَانَ، ويَقُول: «تحَرَّوْا لَيْلَةَ القَدْرِ في العشْرِ الأَوَاخِرِ مِنْ رَمَضانَ» متفقٌ عليه.

**1191.** Aişədən ﭫ rəvayət olunur ki, Rəsulullah ﷺ Ramazanın son on günündə ibadətləri artırar və deyərdi: **"Qədr gecəsini Ramazanın son on günündə axtarın".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١١٩٢– وَعَنْها ﭫ أَنَّ رَسُولَ اللهِ ﷺ قَالَ: «تَحرّوْا لَيْلةَ القَدْرِ في الوتْرِ من العَشْرِ الأَواخِرِ منْ رمَضَانَ» رواهُ البخاريُّ.

**1192.** Yenə Aişədən ﭫ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Qədr gecəsini Ramazan ayının tək gecələrində arayın"**.

Bu hədisi Buxari rəvayət etmişdir.[3]

١١٩٣– وعَنْهَا ﭫ، قَالَتْ: كَانَ رسُول اللَّهِ ﷺ: «إِذا دَخَلَ العَشْرُ الأَوَاخِرُ مِنْ رمَضَانَ، أَحْيا اللَّيْلَ، وَأَيْقَظَ أَهْلَه، وجَدَّ وَشَدَّ المِئزرَ» متفقٌ عليه.

---

[1] "Səhih əl-Buxari", 1088; "Səhih Muslim", 1985.
[2] "Səhih əl-Buxari", 1880; "Səhih Muslim", 1998.
[3] "Səhih əl-Buxari", 1878.

**1193.** Yenə Aişədən ﵂ rəvayət olunur ki, "Ramazanın son on günü daxil olduqda Peyğəmbər ﷺ gecəni oyaq qalar, ailəsini oyadar, kəmərini də bərk-bərk sıxardı".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١١٩٤– وَعَنْهَا قَالَتْ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يَجْتَهِدُ فِي رَمضانَ مَالا يَجْتَهِدُ في غَيْرِهِ، وفي العَشْرِ الأَوَاخِرِ منْه، مَالا يَجْتَهِدُ في غَيْرِهِ » رواهُ مسلمٌ.

**1194.** Yenə Aişədən ﵂ rəvayət olunur ki, "Peyğəmbər ﷺ Ramazanda başqa vaxtlardan daha çox çalışar, Ramazanın son on günündə isə başqa vaxtlardan daha çox çalışardı".

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١١٩٥– وَعَنْهَا قَالَتْ: قُلْتُ: يا رَسُولَ اللَّهِ أَرَأَيْتَ إِن عَلِمْتُ أَيَّ لَيْلَةٍ لَيْلَةُ القَدْرِ ما أَقُولُ فيها؟ قَالَ: « قُولِي: اللَّهُمَّ إِنَّكَ عَفُوٌّ تُحِبُّ العفْوَ فاعْفُ عنِّي » رواهُ التِرْمذيُّ وقال: حديثٌ حسنٌ صحيحٌ.

**1195.** Aişənin ﵂ belə dediyi rəvayət olunur: «Mən soruşdum: "Ey Allahın elçisi, əgər bilsəm ki, qədr gecəsi hansı gecədir, o vaxt nə deyim?" Dedi: **"De ki: – Allahım, həqiqətən Sən əfv edənsən, əfv etməyi sevirsən, məni əfv et!"**».

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu hədis həsən-səhihdir" demişdir.[3]

**Şərh:**

Müəllif ﵀ "**Qədr gecəsinin qiyamının fəziləti və onun əsas gecələrinin bəyanı"** fəslini qeyd edir.

Qədr gecəsinin bu adla adlandırılması iki yöndəndir:

Birinci. Adəm övladının və başqalarının əməllərindən sünnədə olanların *bu gecədə* təqdir olunmasıdır. Buna dəlil Uca Allahın aşağıdakı ayəsidir: **"Biz onu mübarək bir gecədə nazil etdik. Həqiqətən, Biz**

---

[1] "Səhih əl-Buxari", 1884; "Səhih Muslim", 2008.

[2] "Səhih Muslim", 1878.

[3] "Sunən ət-Tirmizi", 3513.

**xəbərdar edirik. Hər bir hikmətli iş o *gecədə* ayırd edilir".**[1] Yəni ayırır və bəyan edir.

İkinci. Bu gecə, yəni Qədr gecəsi şərəfli bir gecədir. Çünki onun məqamı çox böyükdür. Buna dəlil Uca Allahın bu ayələridir: **"Həqiqətən, Biz *Quranı* Qədr gecəsində nazil etdik. Sən haradan biləsən ki, Qədr gecəsi nədir? Qədr gecəsi min aydan xeyirlidir".**[2]

Qədr gecəsi bu ümmətə xasdır və ona məxsusdur. Rəvayət olunur ki, Peyğəmbərə ﷺ öz ümmətinin yaşları (orta yaşayış müddəti) ərz olunub və onların yaşca az olması məlum olduqda ona min aydan üstün olan Qədr gecəsi verilib. Mömin *adi gündə hansısa xeyir işdən* iyirmi savab alırsa, Qədr gecəsi *həmin xeyir işin müqabilində* iyirmi min savab əldə etmiş olur. Bu da nöqsansız və uca Allahın bu ümmətə bəxş etdiyi fəzilətdir. Uca Allah bu ümmətə və peyğəmbərinə öncəki ümmətlərə vermədiyi fərqli xüsusiyyətlər vermişdir. Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur.

Sonra müəllif رحمه الله bu xüsusda varid olmuş hədisləri qeyd edir. Həmin hədislərdə deyilir ki, Qədr gecəsi Ramazan ayındadır, onun son on günündədir, son on günün tək gecələrindədir. Lakin həmin son on gün də dəyişkəndir. Yəni ola bilsin, bu il iyirmi birinci gecədə olsun, növbəti il iyirmi üçüncü gecədə, digərində iyirmi beşinci, iyirmi yeddinci və ya iyirmi doqquzuncu gecədə. Yaxud da iyirmi ikinci, iyirmi dördüncü və ya iyirmi altıncı gecədə. Beləcə dəyişir və daim müəyyən gecədə olmur. Lakin daha böyük ehtimalla iyirmi yeddinci gecədə və ya tək gecələrdə olur. Daha böyük ehtimal son on günün son yeddi gecəsidir. Çünki bir qrup səhabə yuxuda Qədr gecəsinin son yeddi gecədə olduğunu görmüş, Peyğəmbər ﷺ də demişdir ki: **"Görürəm ki, sizin yuxunuz Qədr gecəsinin son yeddi gecədə olduğunu deyir. Kim həmin gecəni axtarırsa, onu son yeddi gecədə axtarsın".** Yaxşı, bəs bu həmin ilə aiddir, yoxsa bütün illərə? Hər bir halda Qədr gecəsi son on gündədir – nə ayın əvvəlindədir, nə də ki, ortasında – ayın son on günündədir.

Daha sonra müəllif Aişədən رضي الله عنها nəql olunmuş hədisləri gətirir. Bu hədislər həmin qadının fəzilətini göstərir – göstərir ki, Aişə رضي الله عنها ümmətə

---

[1] "əd-Duxan" surəsi, 3-4.

[2] "əl-Qədr" surəsi, 1-3.

başqa qadınların bilmədiklərini öyrənib çatdırmışdır. Rəsulullahdan ﷺ ən çox hədis rəvayət edən qadın odur. O, Allah və elçisinin şəriətindən başqa qadınların öyrənib-bilmədiyi qədər öyrənmişdir.

Bir dəfə Aişə رضي الله عنها Rəsulullahdan ﷺ soruşdu ki: "Ey Allahın elçisi, əgər bilsəm ki, qədr gecəsi hansı gecədir, o vaxt nə deyim?" Dedi: **"De ki: – Allahım, həqiqətən Sən əfv edənsən, əfv etməyi sevirsən, məni əfv et!"».**

Əfv etmək Allahın qullarının günahlarını bağışlamasına deyilir. Nöqsansız və Uca Allah Əfv edən və Qadirdir, yəni qadir ola-ola əfv edir. O, Adəm övladı kimi deyil ki, aciz olduqda bağışlasın. Uca və cəlal sahibi Allah qadir olaraq bağışlayır – kamil əfv də elə budur.

Nöqsansız və Uca Allah insanları əfv edənləri sevir. Kim əfv edərsə və islah edərsə, onun əcrini Allah verər. Uca Allah insanları əfv edən kəsləri sevir və bunu əmr edərək buyurur: **"Sən bağışlama *yolunu* tut, yaxşı iş görməyi əmr et".**[1]

Alimlər demişlər: **"Bağışlama yolunu tut"**, yəni insanlardan əfv olunanı, asan olanı götür, – götür və kəndiri sıxma, onları da sıxışdırma; əfvi seç və başqa şeylərə baxma. Bu da Quranın ədəblərindəndir ki, insan əfv edən olmalıdır.

Deməli, Qədr gecəsi edilə biləcək ən gözəl dua: "Allahım, həqiqətən Sən əfv edənsən, əfv etməyi sevirsən, məni əfv et" duasıdır. Müvəffəq edən Allahdır.

---

[1] "əl-Əraf" surəsi, 199.

# İki yüz on beşinci fəsil

## Misvak və fitri məsələlər

**Mövzu ilə əlaqəli hədislər:**

١١٩٦– عَنْ أَبي هُريرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قالَ: « لَوْلا أَنْ أَشُقَّ عَلى أُمَّتي أَوْ عَلى الناس لأمرْتُهُمْ بِالسِّواكِ معَ كلِّ صلاةٍ » متفقٌ عليه.

**1196.** Əbu Hureyradan ﷺ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Ümmətimə və ya insanlara çətin olmasaydı, onlara hər namazdan öncə misvakdan istifadə etməyi əmr edərdim".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١١٩٧– وَعنْ حُذيفَةَ ﷺ ، قالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذا قَامَ مِنَ النَّومِ يَشُوصُ فَاهُ بالسِّواكِ. متفقٌ عليه.

«الشَّوْص »: الدَّلكُ »

**1197.** Rəvayət olunur ki, Huzeyfə ﷺ demişdir: "Rəsulullah ﷺ yuxudan oyandıqda dişlərini misvakla təmizləyərdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Hədisin ərəbcəsində keçən "əş-şəus" sözü "sürtmək" mənasındadır.

١١٩٨– وَعَنْ عائشَةَ ﷺ قَالَتْ: كنَّا نُعِدُّ لرسُولِ اللَّهِ ﷺ سِوَاكَهُ وَطَهُورَهُ فَيَبْعَثُهُ اللَّه مَا شَاءَ أَن يبْعَثَهُ مِنَ اللَّيْلِ، فَيتسَوَّكُ، وَيَتَوَضَّأُ ويُصَلِّي » رواهُ مُسلمٌ.

**1198.** Rəvayət olunur ki, Aişə ﷺ demişdir: "Biz Peyğəmbər ﷺ üçün onun misvakını və suyunu hazırlayardıq. Allah onu gecənin bir aləmində oyadar, o da misvakdan istifadə edər, dəstəmaz alıb namaz qılardı".

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

---

[1] "Səhih əl-Buxari", 838; "Səhih Muslim", 370.

[2] "Səhih əl-Buxari", 238; "Səhih Muslim", 375.

[3] "Səhih Muslim", 1233.

١١٩٩– وعنْ أَنسٍ ﷺ، قَالَ: قَالَ رسُولُ اللَّهِ ﷺ: « أَكثَرْتُ عَليكُمْ في السِّوَاكِ » رواهُ البُخاريُّ.

**1199.** Ənəsdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Misvakla bağlı sizə çox-çox göstəriş verirəm".**

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

١٢٠٠– وعَنْ شُرَيحِ بنِ هانِيءٍ قَالَ: قُلْتُ لِعَائِشَةَ ﷺ: بأَيِّ شيءٍ كَان يَبْدَأُ النَّبِيُّ ﷺ إِذا دَخَلَ بَيْتَهُ، قَالَتْ: بِالسِّوَاكِ، روَاهُ مُسْلِمٌ.

**1200.** Şureyh ibn Hani demişdir: «Mən Aişədən ﷺ soruşdum: "Peyğəmbər ﷺ evə gəldikdə ilk öncə nə edərdi?" O dedi: "Misvakdan istifadə edərdi"».

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٢٠١– وعَنْ أَبي موسَى الأشعَرِيِّ ﷺ، قَالَ: دَخلت عَلى النَّبي ﷺ وطرَفُ السوَاكِ على لِسانِهِ. مُتَّفَقٌ عليهِ، وهذا لَفْظُ مُسلِمٍ.

**1201.** Əbu Musa əl-Əşaridən ﷺ rəvayət olunur ki, o demişdir: "Mən Rəsulullahın ﷺ yanına daxil oldum, misvakın bir ucu onun dilində idi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

Bu mətn Muslimin mətnidir.

١٢٠٢- وعنْ عائِشَةَ ﷺ، أَنَّ النَّبِيَّ ﷺ قَالَ: « السِّواكُ مَطهَرةٌ للفَمِ مرضَاةٌ للرَّبِّ » رواهُ النَّسائيُّ، وابنُ خُزَيمةَ في صحيحهِ بأَسانيد صحيحةٍ.

**1202.** Aişədən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Misvak ağızı təmizləyən, Rəbbi isə razı salan bir şeydir"**.

Hədisi Nəsai və İbn Xuzeymə öz "Səhih" əsərində səhih isnadlarla rəvayət etmişlər.[4]

---

[1] "Səhih əl-Buxari", 1839.
[2] "Səhih Muslim", 371.
[3] "Səhih Muslim", 373.
[4] "Sunən ən-Nəsai", 5; "Səhih İbn Xuzeymə", 135.

**Şərh:**

Hafiz ən-Nəvəvi ﷺ **"Misvak və fitri məsələlər"** fəslini qeyd edir.

"Misvak işlətmək" dişləri, damağı və dili ərak ağacının budağı ilə təmizləməyə deyilir. Ərak və ya digər ona bənzər ağaclardan istifadə etməklə həmin fəziləti əldə etmək olar. Parça və ya barmaqla da həmin fəzilət əldə olunur. Lakin misvakdan istifadə etmək daha əfzəldir. Aişənin ﷺ hədisində də deyildiyi kimi, misvak işlətməkdə iki böyük fayda vardır. Peyğəmbər ﷺ demişdir: **"Misvak ağızı təmizləyən, Rəbbi isə razı salan bir şeydir".**

Birinci fayda, ağızı təmizləyəndir. Yəni ağızı kirdən və digər zərərlərdən təmizləyir. "Ağız" sözü ağızın bütün yerlərinə, o cümlədən dişlərə, damağa və dilə şamil olunur. Əbu Musadan ﷺ nəql olunmuş hədisdə deyilir ki: "Mən Rəsulullahın ﷺ yanına daxil oldum, misvakın bir ucu onun dilində idi".

İkinci fayda, Rəbbin razılığıdır. Yəni Allahın öz qulundan razı qalmasının səbəblərindən biri onun misvakdan istifadə etməsidir.

Bəzi hallarda misvak işlətmək təkid edilmişdir. Ümumən isə hər bir vaxtda işlədilməsi sünnədir. Müəyyən hallarda isə təkid edilmiş sünnə olur. Məsələn, yuxudan oyandıqda misvak işlətmək sünnədir.

Huzeyfədən ﷺ nəql olunmuş hədisdə deyilir ki, Peyğəmbər ﷺ yuxudan oyandıqda ağzını misvakla təmizləyərdi. Bu barədə Aişədən ﷺ nəql edilən hədis də onu dəstəkləyir. Həmin hədisdə deyilir ki, onlar Peyğəmbər ﷺ üçün onun misvakını və suyunu hazırlayar, o da gecə qalxdıqda misvakdan istifadə edər, dəstəmaz alıb Allah dilədiyi qədər namaz qılardı.

Gecə və ya gündüz vaxtı yatıb oyandıqda da bunu etmək sünnədir. Çünki ağız *tamı, qoxusu* dəyişir və ondan istifadə etməyə ehtiyac duyulur.

İnsan evinə daxil olduqda da onun misvak işlətməsi sünnədir. Aişədən ﷺ soruşulanda ki, "Peyğəmbər ﷺ evə gəldikdə ilk öncə nə edərdi?", o dedi: "Misvakdan istifadə edərdi".

Namazdan öncə misvakdan istifadə etmək də sünnədir. Kim rüku və səcdəsi olan fərz və ya nafilə namazı, yaxud cənazə namazı qılmaq istəyərsə, misvak işlətməsi Sünnədir. Belə ki, Peyğəmbər ﷺ demişdir:

**“Ümmətimə və ya insanlara çətin olmasaydı, onlara hər namazdan öncə misvakdan istifadə etməyi əmr edərdim”.**

Həmçinin dəstəmazdan öncə, ağızı yumamışdan əvvəl və sonra misvak işlətmək də sünnədir. Lakin bu, Peyğəmbərdən ﷺ nəql edildiyi kimi, dəstəmazdan öncə olur.

Alimlər yemək, içmək, süd və ya başqa növ yağlı qidadan sonra ağız qoxusu dəyişdikdə də misvak işlətməyi sünnə hesab edirlər.

Hər bir halda misvak sünnədir və bəzi məqamlarda təkid olunandır. Sünnə demişkən, oruclu üçün hər bir vaxtda müsvak işlətmək sünnədir – başqaları kimi o da misvak işlədə bilər. Elm əhlindən kimsə bunu məkruh görübsə, onun dəlili yoxdur. Səhih olan budur ki, oruc tutan kəs gündüzün əvvəlində də, sonunda da misvakdan istifadə edə bilər. Müvəffəq edən Allahdır.

١٢٠٣– وعَنْ أَبي هُريرةَ ﷺ، عَنِ النَّبيِّ ﷺ قَالَ: « الفِطرةُ خَمسٌ، أَوْ خمْسٌ مِنَ الفِطرةِ: الخِتان، وَالاسْتِحْدَادُ، وَتقلِيمُ الأَظْفَارِ، ونَتف الإِبِطِ، وقَصُّ الشَّارِبِ » مُتفقٌ عليه.

الاسْتِحْدَادُ: حلْقُ العَانَةِ، وهُو حَلقُ الشعْرِ الذي حَوْلَ الفرْجِ.

**1203.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **“Fitrət beşdir və ya beş şey fitrətdəndir: sünnət olunmaq, dırnaqları kəsmək, övrət yerindəki tükləri qırxmaq, qoltuqaltı tükləri qoparmaq və bığları qısaltmaq”.**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

[Hədisin ərəbcəsində keçən] “əl-istihdad” sözü “övrət yerinin ətrafındakı tükləri qırxmaq” deməkdir.

**Şərh:**

Müəllif ﷺ fitrət xislətləri ilə bağlı hədisləri də misvakın fəziləti fəslində qeyd edir.

**Fitrət.** Yəni, məxluqat bunların gözəlləşdirilərək daha xeyirli olmasına əmr olunur. Burada sağlam fitrətlər nəzərdə tutulur. Çünki sağlam olmayan fitrətlərə baxılmır. Peyğəmbər ﷺ demişdir: **“Anadan olan hər bir körpə**

[1] “Səhih əl-Buxari”, 5439; “Səhih Muslim”, 377.

**fitrət üzərində doğulur.** ***Sonradan*** **valideynləri onu yəhudi, nəsrani və ya məcusi edir”**.[1]

Müəllif bu barədə Əbu Hureyradan nəql olunmuş hədisi qeyd edir. Həmin hədisdə Peyğəmbər demişdir: **“Fitrət beşdir”.** Başqa bir ləfzdə deyilir: **“Beş şey fitrətdəndir”.** Birinci ləfzə əsasən fitrət *yalnız* bu beş şeydir. İkinci ləfzə görə isə bu beş şey fitrətdəndir və deməli, fitrətdən olan başqa şeylər də vardır. Belə ləfz reallığa daha yaxındır. Çünki Əbu Hureyradan nəql olunmuş hədisdə sadalanan bu beş şeydən savayı fitrətdən sayılan başqa şeylər də vardır. Odur ki, **“Beş şey fitrətdəndir”** ləfzi daha yaxındır.

Xülasə, birinci ləfzə əsasən *deyilənlərdə* tam fitrət nəzərdə tutulur. Digər ləfzdə isə fitrəti tamamlayan amillər nəzərdə tutulur:

**Birinci: əl-xitan (sünnət olunmaq)**. Buna insanlar arasında təmizlənmək də deyilir. Bu həm kişilər üçün olur, həm də qadınlar üçün. Kişilərə gəlincə, onların xitan olunmaları vacibdir. Qadınların xitan olunması isə sünnədir və vacib deyil. Çünki kişi xitan etmədikdə, cinsiyyət üzvünün üzərindəki dərinin altında sidik *qalığı* toplanır və bu, nəcasətə səbəb olur. Belə ki, sonradan təzyiq (gərilmə, ereksiya) olduqda dərinin altındakı qalıq çıxaraq libası kirləndirir və o nəcisə bulaşır. Həmçinin insan böyüyüb evləndikdə cinsi əlaqə zamanı da bu müəyyən çətinliyə səbəb olur. Odur ki, həmin dərinin kəsilməsi fitrətdəndir. İndi bir çox kafirlər də xitan etdirirlər. Ancaq onlar bunu təmizlik və təharət üçün etmirlər, onsuz da onlar nəcisdirlər. Onlar bunu cinsi əlaqə zamanı daha çox həzz almaq və çətinlik çəkməməkdən ötrü edirlər.

Bəs, xitan nə zaman olmalıdır? Xitan yeddinci gündən etibarən olur. Çünki azyaşlı körpəni xitan etdikdə, onun yalnız bədənində ağrı olur, qəlbində isə ağrı olmur. Böyük adama gəldikdə isə, onda həm bədən, həm də qəlb ağrısı olur. Sonra da ki, kiçik yaşda insanın yarası daha tez sağalır. Odur ki, alimlər demişlər ki, kiçik yaşlarda xitan etdirmək daha əfzəldir. Doğrudan da belədir.

**İkinci: övrət yerini qırxıb təmizləmək.** Burada övrət yerinin ətrafında çıxan qalın tüklər nəzərdə tutulur. Bu tüklər həddi-büluğun əlamətlərindəndir. Həmin tükləri qırxmaq fitrətdəndir. Çünki qırxılmadıqda

---

[1] “Səhih əl-Buxari”, 1296; “Səhih Muslim”, 4803.

həmin tüklər arxadan və ya öndən nəcasətə bulaşa bilər və natəmizlik yarana bilər. Baxmayaraq ki, bu həm də zərərlidir, bəzi insanlar heyvan kimi həmin tükləri saxlayıb uzadırlar. Allah qorusun!

**Üçüncü: bığları qısaltmaq.** Bığ yuxarı dodağın üzərində bitən tüklərə deyilir. Onun həddi dodaqların ətrafıdır. Bığları qısaltmaq gərəkdir. Çünki onun qalması ilə burundan çıxanlardan natəmizlik ola bilər. Su içdikdə də həmin bulanmış bığ suya bataraq onu kirləndirə bilər. Ola bilsin ki, orada mikroblar olsun. Hər bir halda bığları qısaltmaq sünnədir. Əsas odur ki, bu sünnədir və onu qısaltmaq izzət və cəlal sahibi Allaha yaxınlaşmaqdır.

**Dördüncü: dırnaqların kəsilməsi.** Burada həm əl, həm də ayaq dırnaqları nəzərdə tutulur. Dırnaqları ətə qədər kəsmək lazım deyil, çünki bu insana zərərlidir və ola bilsin, bu zaman barmaq yaralansın. Biz sadəcə onu orta səviyyədə qısaldırıq.

**Beşinci: qoltuq altı tükləri qoparmaq.** Əgər orada tüklər varsa, onları qırxmaq və ya qısaltmaq deyil, qoparmaq lazımdır. Çünki qoparmaq onu tamamilə aradan qaldırmaqdır – onun köklərini zəiflədir ki, gələcəkdə yenidən bitməsin. Bu da şəriətin tələblərindəndir.

Deməli, bu beş şey: xitan, övrət yerinin ətrafının qırxılması, bığları qısaltmaq, dırnaqları kəsmək və qoltuqaltı tükləri qoparmaq fitrətdəndir.

Xitana gəlincə, bu, insan həyatında bir dəfə baş verir və bitir. Burada bir məsələyə diqqət çəkmək istərdim ki, bəzi insanlar artıq xitan olunmuş halda doğulurlar. Yəni, onlarda xitan zamanı kəsilib götürülən dəri olmur. Görürsən ki, cinsiyyət orqanının başı doğum anından etibarən zahirdədir. Biz bunu gözümüzlə görmüşük. Beləsi xitan olunmur, çünki kəsilməsi olan bir şey yoxdur.

Digər dörd fitrətə, yəni övrət yerinin ətrafını qırxmaq, bığları qısaltmaq, dırnaqları kəsmək və qoltuqaltı tükləri qoparmağa gəlincə isə, bu işlərin icrası qırx gündən artıq saxlanılmamalıdır. Çünki Peyğəmbər ﷺ bu şeylərin ümməti üçün qırx gündən gec olmayacaq müddətdə edilməli olduğunu demişdir. Bunun müəyyən müddəti vardır, onu keçmə. Qırx günü keçirməməyin də ən gözəl yolu insanın özü üçün bir gün müəyyən etməsidir. Misal üçün, özünə deyirsən ki, hər ayın ilk cümə günü filan işi edəcəyəm. Belə etsək unutmarıq. Çünki insan bəzən unudaraq qırx günü,

hətta əlli günü belə keçə bilər. Bunun üçün müəyyən vaxt təyin edərək, "hər ayın ilk cümə günü bu dörd şeyi edəcəyəm" desən, özün üçün vaxt müəyyənləşdirmiş olarsan. Düzdür bu, sünnə deyil, ancaq bu, sünnəyə riayət etmək üçün vaxtı tənzimləmək sayılır. Bundan da məqsəd qırx günü keçməməkdir. Müvəffəq edən Allahdır.

Bığlar ülgüclə qırxılmır. Hətta İmam Malik belə demişdir ki, bığlarını *dibindən* qırxan kəsi tərbiyələndirmək lazımdır. Çünki o, yaradılışı dəyişir və bu əməl Sünnəyə müxalifdir – Sünnə olan, onun saxlanılması və qısaldılmasıdır.

Qoltuqaltı tüklərin qopardılması isə daha əfzəldir. Düzdür, onun qırxılmasında da bir qəbahət yoxdur, ancaq qoparmaq daha əfzəldir. Bəzi insanlar vardır ki, tükləri qoparmaq onlar üçün çətindir. Bu zaman onlar yağlı maddə və başqa vasitələrlə onları aradan qaldıra bilərlər.

١٢٠٤– وعَنْ عائِشَة رضي الله عنها قَالَتْ: قالَ رَسُولُ اللَّهِ ﷺ: « عَشرٌ مِنَ الفِطرَةِ: قَصُّ الشَّارِبِ، وإِعفَاءُ اللِّحْيَةِ، وَالسِّوَاكُ، واسْتِنشَاقُ الماءِ، وقَصُّ الأَظفَارِ، وغَسلُ البَرَاجِمِ، وَنَتفُ الإِبطِ، وَحلقُ العانَة، وانتِقاصُ المَاءِ » قال الرَّاوي: ونسِيتُ العاشِرة إِلاَّ أَن تَكون المَضمضَةُ، قالَ وَكيعٌ وَهُوَ أَحَدُ روَاتِهِ: انتِقَاصُ الماءِ، يَعني: الاسْتِنْجاءَ. رَواهُ مُسلِمٌ.

« البَرَاجِمُ » بالباءِ الموحدةِ والجيم، وهي: « عُقَدُ الأَصَابِعِ ». « وَإِعْفَاءُ اللَّحْيَةِ » مَعْنَاهُ: لا يقُص مِنْهَا شَيئاً.

**1204.** Rəvayət olunur ki, Aişə ﵂ demişdir: «Rəsulullah ﷺ demişdir: **"On şey fitrətdəndir: bığları qısaltmaq, saqqalı uzatmaq, misvak *istifadə etmək*, su ilə burunu yumaq, dırnaqları qısaltmaq, barmaqların arasını yumaq, qoltuq altındakı tükləri qoparmaq, övrət yerindəki tükləri qırxmaq, su ilə yuyunmaq"**».

Ravi dedi: "Mən onuncunu unutdum. Bu, yəqin ki, su ilə ağızı yaxalamaqdır".

Hədisin ravilərindən olan Vaki demişdir: "Su ilə yuyunmaq deyildikdə, istinca etmək nəzərdə tutulur".

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

---

[1] "Səhih Muslim", 384.

[Hədisin ərəbcəsində keçən] "əl-bəracim" barmaqların arasıdır; "saqqalı uzatmaq" demək, ondan heç götürməməkdir.

١٢٠٥– وَعَن ابنِ عُمَرَ رضي الله عنهما، عن النَّبي ﷺ قال: «أَحْفُوا الشَّوارِبَ وأَعْفُوا اللِّحَى» مُتفقٌ عليهِ.

**1205.** İbn Ömərdən (r.a.) rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Bığınızı qısaldın, saqqalınızı isə uzadın"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

**Şərh:**

Bunlar fitrətin digər xüsusiyyətləridir.

Öncəki hədisdə Əbu Hureyradan (r.a.) rəvayət olunmuşdu ki, Peyğəmbər ﷺ demişdir: **"Fitrət beşdir və ya beş şey fitrətdəndir: sünnət olunmaq, dırnaqları kəsmək, övrət yerindəki tükləri qırxmaq, qoltuqaltı tükləri qoparmaq və bığları qısaltmaq".** Qeyd etmişdik ki, xitandan savayı digər dörd şey qırx gündən artıq tərk olunmamalıdır. Çünki Peyğəmbər ﷺ buna vaxt qoymuşdur.

Aişənin (r.a.) hədisində isə qeyd olunur ki, on şey fitrətdəndir. Bunların bəzisi Əbu Hureyranın (r.a.) hədisində keçir. Aişənin (r.a.) hədisində olan bəziləri isə Əbu Hureyranın hədisində qeyd olunmamışdır. Onlardan biri də saqqalı buraxmaqdır ki, bu da fitrətdəndir. İbn Ömərdən nəql olunan hədisdə Peyğəmbər ﷺ saqqal saxlamağı əmr etmişdir.

Dilçi alimlər saqqal barədə demişlər ki, saqqal üzdə və çənədə (yəni həm də çənənin kənarında) olan tüklərə deyilir. Bütün bunlar saqqaldandır. Bığ barədə isə bir qədər öncə söhbət açmışdıq.

"Saqqalı buraxmaq", onu saxlamaq və olduğu kimi tərk etmək mənasındadır. Bu, Allahın insanlara üzərində olmağa əmr etdiyi fitrətdəndir. Onu gözəl bir şəkildə saxlamaq lazımdır. Saqqal hətta kişinin gözəlliyindən və əlamətindəndir. Buna görə də adamın saqqalı qırxması caiz deyil. Kim belə edərsə həm asi, həm də Peyğəmbərin ﷺ yoluna müxalif olmuş olur. Belə etməklə o həm də müşriklərə və məcusilərə bənzəmiş olur.

[1] "Səhih əl-Buxari", 5442; "Səhih Muslim", 380.

Çünki Peyğəmbər ﷺ demişdir: **"Məcusilərə və ya müşriklərə müxalif olun – saqqalınızı buraxın, bığınızı isə qısaldın"**.[1]

İnsanlar, yəni müsəlmanlar saqqal qırxmağın nə olduğunu bilmirdilər. Hətta zalim insanlar kimisə cəzalandırmaq istədikdə onun saqqalını qırxardılar. Belə etmək haramdır. Çünki haram bir əməllə cəzalandırmaq olmaz. Demək istədiyim budur ki, onlar saqqalın qırxılmasını əzab və cəza hesab edirdilər. Kafirlər Misirdə, Şamda, İraqda və başqa yerlərdə müsəlman torpaqlarını işğal etdikdən sonra onların arasına bu pis adəti – saqqal qırxmaq adətini saldılar, insanlar da əhəmiyyət vermədən bunu etdilər. İndi bəzi müsəlman ölkələrində saqqalını qırxmayan kəs *vəzifəsindən* uzaqlaşdırılır. Bu da şəkk yoxdur ki, Rəsulullaha ﷺ bir üsyandır. Rəsulullaha asi olan kəs isə Allaha asi olmuş olur. Kim də Rəsulullaha itaət edərsə, Allaha itaət etmiş olar.

İnsanın qohumlarından biri saqqalını qırxmaq bəlasına düçar olarsa, gərək ona nəsihət edilə və ona haqq göstərilə. Onu tərk etmək isə məsləhətə bağlıdır. Əgər onu tərk etməyin faydası olacaqsa, qoy tərk etsin. Yox, əgər bunun faydası olmayacaqsa və əksinə, vəziyyəti daha da ağırlaşdıracaqsa, tərk etməsin. Çünki tərk etmək bir dərmandır və fayda verməsi üçün istifadə olunur. Yox, əgər fayda verməzsə, bu zaman mömini tərk etmək haramdır, belə olduqda biz işin əslinə qayıdırıq. Çünki Peyğəmbər ﷺ demişdir: **"Bir möminə, qardaşını üç gündən artıq tərk etməsi, qarşılaşdıqda ondan üz çevirməsi, onun da bundan üz çevirməsi halal deyildir".**[2]

Şərh etdiyimiz hədisdə fitrətə aid edilənlərdən biri də burunu yumaqdır. Burunu yumaq fitrətdəndir, çünki bu zaman burun əziyyət verən şeylərdən təmizlənir – bu, təmizlikdir. Burunu həm dəstəmaz zamanı, həm də başqa vaxtlarda təmizləmək olur. Nə zaman burunu təmizləməyə ehtiyac duysan, burnunu su ilə təmizlə. Bu da insanlara görə dəyişir. Elə insanlar vardır ki, onlar buna yalnız dəstəmaz zamanı ehtiyac duyurlar. Elələri də var ki, onların buna daha çox ehtiyacı var.

Fitrət sünnələrindən biri də ağızı yumaqdır. Çünki burada ağızın təmizlənməsi vardır. Ağızın təmizliyə ehtiyacı vardır. Çünki yemək, yağ və başqa şeylər daxilə buradan keçir. Odur ki, təmizlənməsinə ehtiyac var. Buna görə də ağızı yumaq fitrətdən hesab olunur.

---

[1] "Səhih əl-Buxari", 5442.

[2] "Səhih əl-Buxari", 5613; "Səhih Muslim", 4643.

Su ilə yuyunmaq da fitrətdəndir. Vaki ﷺ hədisdəki "suyun azalması" sözünü su ilə təmizlənmək kimi açıqlamışdır. Çünki su ilə təmizlənmə təmizlik və əziyyətin aradan qaldırılmasıdır.

Barmaqların aralarını yumaq da buna aiddir. Alimlər burada barmaqların aralarının yuyulmasının nəzərdə tutulduğunu bildirmişlər. Çünki barmaqların içəri tərəfdən dibləri çöl tərəfindən daha çox təmizliyə ehtiyacı vardır.

Bu hədis saqqal buraxmağa dəlildir. Çünki bu fitrət sünnəsi ilə insan müşriklərə müxalif olur. Bununla belə, belə bir şübhə ortaya atılır ki: "Günümüzdə bəzi müşriklər də saqqal saxlayırlar, elə isə daha yaxşı olmazmı ki, biz saqqalımızı qırxmaqla onlara müxalif olaq?" Görürsünüzmü şeytanın vəsvəsəsini? Allah qorusun! Biz deyirik: "Onların saqqal saxlamaları yaradılış fitrətindəndir. Bizlər isə fitrətə tabe olmağa əmr olunmuşuq. Əgər onlar fitrət məsələsində bizə oxşayırlarsa, biz onlara bunu qadağan etmirik. Amma bu həm də o demək deyil ki, onlar bizlərə bənzədiklərinə görə bizlər fitrətdən imtina etməliyik. Yaxud əgər onlar dırnaqları kəsmək məsələsində bizlərə bənzəyirlərsə, bu o demək deyil ki, biz dırnaqlarımızı uzatmalıyıq. Xeyr, dırnaqlarımızı kəsməliyik. Digər fitrət məsələləri də belədir. Kafirlərə müvafiq olduğumuz təqdirdə biz fitrətdən imtina etməməliyik. Müvəffəq edən Allahdır.

Bilməliyik ki, dəstəmaz və ya qüsl zamanı sudan istifadə etməkdə israf etməmək Uca Allahın bu ayəsinə aiddir: **"Ey Adəm oğulları, məscidlərə *gedərkən* gözəl geyimlərinizi geyin. Yeyin-için, lakin israf etməyin. Şübhəsiz ki, *Allah* israf edənləri sevmir".**[1]

Bu ayəyə görə də fiqh alimləri demişlər ki, hətta axar su üzərində olduqda belə israfa yol vermək olmaz. Elə isə, xüsusi avadanlıqlar vasitəsilə yerdən çıxarılan suyun israf olunması daha çox yolverilməzdir.

Xülasə, həm dəstəmazda, həm də dəstəmazdan fərqli prosedurlar zamanı sudan israfa yol vermək pis xüsusiyyətdir.

---

[1] "əl-Əraf" surəsi, 31.

# İki yüz on altıncı fəsil

## Zəkatın vacib olmasının təkid olunması, onun fəziləti ilə bağlı məsələlər

Hafiz ən-Nəvəvi ﷺ **"Zəkatın vacib olmasının təkid olunması, onun fəziləti ilə bağlı məsələlər"** fəslini qeyd edir.

Zəkat İslamın rüknlərinin üçüncüsüdür. Abdullah ibn Ömər ibn əl-Xəttabdan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"İslam beş şey üzərində bina edilmişdir: Allahdan başqa ibadət haqqına malik olan məbudun olmadığına və Muhəmmədin Onun elçisi olduğuna şahidlik etmək, namaz qılmaq, zəkat vermək..."**[1]

Nöqsansız və Uca Allah Qurani-Kərimdə bir çox məqamlarda zəkatı namazla birlikdə qeyd edir. Bu səbəbdən alimlər onu tərk edənin namazı tərk edən kimi küfr edib-etməməsi barədə ixtilaf etmişlər. Bu xüsusda iki rəy mövcuddur.

**Zəkat,** xüsusi bir malı xüsusi bir şəkildə ödəməklə Uca Allaha ibadət etməyə deyilir. Bu xüsusi mal da müəyyən miqdardadır: onda birin dörddə biri, onda birin yarısı, onda bir qədər. Zəkat müəyyən sinif insanlara ödənilir ki, inşəAllah, bu barədə söhbət açacağıq.

Zəkatın böyük faydaları vardır. Onlardan:

**Birinci fayda**, insanın İslamının kamilləşməsidir. Çünki o, İslamın rüknlərindən biridir və fəzilət baxımından sədəqədən daha üstündür. Əgər insan yüz rial zəkat, yüz rial da sədəqə verərsə, yüz rial zəkat izzət və cəlal sahibi Allaha daha sevimli və əfzəl olar.

**İkinci fayda**, zəkat verən insan paxıllar dairəsindən çıxaraq səxavətli insanlar dairəsinə daxil olur. Çünki burada malı sərf etmək vardır. Pulu yığıb saxlamaq isə paxıllıqdır. Bu pulu ödəyən insan paxılların sırasından çıxaraq səxavətli kəslərin sırasına daxil olur.

**Üçüncü fayda**, savabları artırmasıdır. Çünki mallarını Allah yolunda xərcləyənlər yeddi sünbül çıxaran bir toxuma bənzəyir. Hər sünbüldə də yüz dən olur. Yəni bir rial, yeddi yüz rialdan artığa bərabər olur.

---

[1] "Səhih əl-Buxari", 7; "Səhih Muslim", 20.

**Dördüncü fayda**. Zəkat kasıbların qəlblərini yumşaldır, onların ehtiyaclarını ödəyir və onunla onların qəzəbindən uzaqlaşmış olursan. Çünki varlılar kasıblara pul vermədikdə onlar cürətlənir və zənginlərə nifrət edirlər. Düşünürlər ki, varlılar hara, kasıblar hara.

İslam ümməti vahid bir ümmətdir. Hər kəs düşünməlidir ki, o, müsəlman qardaşları ilə birlikdə bir qəsrin tikintisində istifadə olunan kərpicdir. Peyğəmbər ﷺ demişdir: **"Mömin digər mömin üçün bina *tikilişinə qoyulan kərpici* kimidir – onlar bir-birini gücləndirirlər".**[1]

**Beşinci fayda**. Zəkat insanın qəlbinin rahatlıq tapmasına səbəbdir. Çünki insan nə qədər öz malından xərcləsə, Allah da bir o qədər onun qəlbini rahat edər. Bu təcrübədən keçirilmiş bir həqiqətdir. İnsan zəkatdan az bir şey xərclədikdə belə öz qəlbində rahatlıq tapmış olur. Onun qəlbində xeyirə sevgi yaranır.

**Altıncı fayda**. Zəkat həm də Allahın qəzəbini götürür və pis sonluqdan qoruyur. Bu böyük bir faydadır. Bu insanı pis vəziyyətdə ölməkdən mühafizə edir. Allah bizə və sizə gözəl sonluq nəsib etsin.

İnsan üçün ən əziz şey gözəl sonluqdur. Çünki həmin vaxt insan dünyanı tərk edərək Axirətə yollanır. Şeytan da Adəm oğlunun son saatında ona daha yaxın olmağa çalışır. Çünki bu son saatdır – adam ya Cənnət əhlindən olacaq, ya da Cəhənnəm əhlindən. Abdullah ibn Məsuddan رضي الله عنه nəql olunan hədisdə deyilir: **"Ola bilər ki, biriniz o qədər Cənnət əhlinin əməlini etsin ki, hətta onunla Cənnət arasında bir qarış məsafə qalsın, sonra kitabı (onun üçün yazılan) onu keçsin, o da Cəhənnəm əhlinin əməlini etsin və Cəhənnəmə daxil olsun. Ola da bilər ki, biriniz o qədər Cəhənnəm əhlinin əməlini etsin ki, hətta onunla Cəhənnəm arasında bir qarış məsafə qalsın, sonra kitabı onu keçsin, o da Cənnət əhlinin əməlini etsin və Cənnətə daxil olsun".**[2] Odur ki, sonluq əməllərə görədir. Sədəqə, ələlxüsus da zəkat insanı pis ölümdən qoruyur.

**Yeddinci fayda**. Peyğəmbər ﷺ xəbər vermişdir ki, **"Hər bir insan Qiyamət günü öz sədəqəsinin kölgəsində olacaqdır"**. Hər kəs Qiyamət günü öz sədəqəsinin kölgəsində olacaqdır. Günəş insanların başı üzərində bir mil məsafədə olacaq, sədəqə və zəkat verənlər də Qiyamət günü öz sədəqələrinin kölgəsində olacaqlar.

---

[1] "Səhih əl-Buxari", 2266; "Səhih Muslim", 4684.
[2] "Səhih əl-Buxari", 2969; "Səhih Muslim", 4781.

Bəzi əməlisaleh kəslər mənə nəql ediblər ki, bir nəfər kişi öz əhlinə evdən sədəqə verməyi qadağan etmiş və demişdi ki, sədəqə verməyin. Günlərin bir günü o yuxuda görür ki, artıq Qiyamət qopub. Görür ki, başının üzərində onu günəşdən qoruyan bir çətir var, ancaq onun üç dəliyi var. Sonra görür ki, üç ədəd xurma gəlib həmin dəlikləri bağlayır. O da bu yuxusundan bərk təəccüblənir. Təəccüblənir ki, görəsən bu nə yuxudur? Necə ola bilər ki, xurmalar gəlib çətirin dəliklərini qapayır? O yuxusunu zövcəsinə danışdıqda zövcəsi ona xəbər verir ki, o, üç ədəd xurma sədəqə verib. Buna görə də həmin çətirin dəliklərini xurma örtüb. O da buna görə sevinir. Bundan sonra ona icazə verir ki, onun pulundan sədəqə versin. Nəticədə bu yuxu Peyğəmbərin ﷺ bu sözlərini təsdiqləyir: **"Hər bir insan Qiyamət günü öz sədəqəsinin kölgəsində olacaqdır".**[1]

**Səkkizinci fayda**. Sədəqə (zəkat) vermək həm də qəlbi yumşaldır. Belə ki, insan kasıblara və möhtaclara yardım etməklə onun qəlbi yumşalır və onlara rəhm edir. Bu da Allahın rəhmətindəndir. Çünki Allah öz rəhmli qullarına rəhm edir.

Zəkatın (sədəqənin) bir çox başqa faydaları da vardır. Ancaq onları bu məqamda zikr etmək çox uzun olar. Müvəffəq edən Allahdır.

**Mövzu ilə əlaqəli ayələr:**

Uca Allah buyurur:

﴿ وَأَقِيمُوا۟ ٱلصَّلَوٰةَ وَءَاتُوا۟ ٱلزَّكَوٰةَ وَٱرْكَعُوا۟ مَعَ ٱلرَّٰكِعِينَ ﴾

**"Namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə rüku edin!".**[2]

﴿ وَمَآ أُمِرُوٓا۟ إِلَّا لِيَعْبُدُوا۟ ٱللَّهَ مُخْلِصِينَ لَهُ ٱلدِّينَ حُنَفَآءَ وَيُقِيمُوا۟ ٱلصَّلَوٰةَ وَيُؤْتُوا۟ ٱلزَّكَوٰةَ ۚ وَذَٰلِكَ دِينُ ٱلْقَيِّمَةِ ﴾

**"Halbuki onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur".**[3]

---

[1] "Musnəd İmam Əhməd", 4/147.
[2] "əl-Bəqərə" surəsi, 43.
[3] "əl-Beyyinə" surəsi, 5.

﴿ خُذۡ مِنۡ أَمۡوَٰلِهِمۡ صَدَقَةٗ تُطَهِّرُهُمۡ وَتُزَكِّيهِم بِهَا ﴾

**"Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan".**[1]

**Şərh:**

Hafiz ən-Nəvəvi ﷺ "**Zəkatın vacib olmasının təkid olunması, onun fəziləti ilə bağlı məsələlər**" fəslini qeyd etmiş, sonra da üç ayə zikr etmişdir. Birinci ayədə Uca Allah buyurur: **"Namaz qılın, zəkat verin".**

"Namaz qılmaq" onu Peyğəmbərin ﷺ buyurduğu doğru şəkildə qılmağa deyilir. "Zəkat vermək" isə onu zəkatın mənasını açıqladıqda dediyimiz kimi, layiq olan kəslərə verməyimizə deyilir. Onun faydaları isə Uca Allahın asanlaşdırdığı qədərdir.

Sonra müəllif ﷺ ikinci ayəni zikr edir. Uca Allah buyurur: **"Halbuki onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur".**

**"Əmr olunmuşdu"**, yəni insanlara.

**"Allaha... ibadət etmək"** – etiqad, söz və əməllə ibadət edərək Onun qarşısında zəlil olmaq.

**"dini məhz Allaha məxsus edərək"**, yəni əməlləri ixlasla edərək, elmi Allaha ixlasla alaraq, əməlində də insanın izzət və cəlal sahibindən başqa heç bir şey istəməməsidir – dünya, şan-şöhrət, vəzifə və ya başqa bir şey məqsədilə etməməli, yalnız Allahın savabını diləməlidir.

**"hənifər kimi",** yəni şirkdən üz döndərərək. Bu da şirksiz ixlasdır.

**"namaz qılmaq və zəkat vermək"**. Burada zəkat vermək qəsd olunur.

**"Doğru din də elə budur".** "Budur", yəni Uca Allaha ixlasla ibadət etmək, namaz qılmaq və zəkat verməkdir. "Doğru din", yəni qiymətli millətin dinidir ki, bu da izzət və cəlal sahibi Allahı razı salan əməlləri etməkdir.

*Fəsildəki üçüncü ayədə* nöqsansız və Uca Allah buyurur: **"Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan".**

---

[1] "ət-Tövbə" surəsi, 103.

**"Onların mallarından sədəqə götür".** Bu xitab Peyğəmbərədir ﷺ və burada zəkat nəzərdə tutulur.

**"Bununla onları pak edib təmizə çıxarasan".** Yəni onları günahlardan və yaramaz əxlaqi keyfiyyətlərdən qoruyasan. Günahlardan qorumağa gəlincə, Peyğəmbər ﷺ bu xüsusda demişdir: **"Su odu söndürdüyü kimi, sədəqə də xətanı yox edir".**[1]

Pis əxlaqdan təmizləməsinə gəlincə, layiqli insanlara verməsilə zəkat, onu verən kəsi səxavətli və əliaçıq insanların sırasına qoşur.

**"Təmizə çıxarasan"**, yəni əxlaqlarını yüksəldəsən – insanı pis əxlaqlardan təmizlədikdən sonra onda gözəl əxlaqi keyfiyyətləri inkişaf etdirəsən. Onları həm də din və əxlaq baxımından inkişaf etdirəsən. Yəni onlar üçün dua et və onları salamla.

Hər hansı bir qövm Peyğəmbərin ﷺ yanına sədəqə gətirdikdə, o, Allahın əmrini yerinə yetirərək onlara deyərdi: **"Allahım, onları salamla!"**

**"Sənin salamın onlar üçün bir sükunətdir".** Yəni onlara salamla dua etməyin onlar üçün bir sükunətdir. Nəfsləri bununla sakit olur, qəlbləri də rahatlaşır. Bununla da onlar mallarını daha asan xərcləyirlər. Allah eşidən və biləndir.

Bu üç ayə zəkatın vacibliyinə və onun ən əfzəl əməllərdən olmasına dəlildir. Bu barədə, inşəAllah, sonradan daha ətraflı söhbət açacağıq.

**Mövzu ilə əlaqəli hədislər:**

١٢٠٦– وَعنِ ابنِ عُمَرَ رضي الله عنهما ، أَنَّ رَسُول اللَّهِ ﷺ قَالَ: بُنِيَ الإِسْلامُ عَلى خَمْسٍ: شَهَادَةِ أَنْ لا إِلهَ إِلاَّ اللَّه، وأَنَّ مُحمَّداً عَبْدُهُ ورسُولُه، وإِقامِ الصَّلاةِ، وَإِيتَاءِ الزَّكَاةِ، وحَجِّ البَيْتِ، وَصوْمِ رمضَان » متفقٌ عليه.

**1206.** İbn Ömərdən رضي الله عنهما rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"İslam beş əsas üzərində bina edilmişdir: Allahdan başqa ibadət haqqına malik məbudun olmadığına və Muhəmmədin Onun qulu və elçisi olmasına şahidlik etmək, namaz qılmaq, zəkat vermək, Evə həcc etmək və Ramazanı oruc tutmaq".**

[1] "Musnəd İmam Əhməd", 3/399; "Sunən İbn Macə", 3963.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٢٠٧– وعن طَلْحَةَ بنِ عُبَيْدِ اللَّهِ ﷺ، قالَ: جَاءَ رجُلٌ إِلى رسُولِ اللَّهِ ﷺ مِنْ أَهْلِ نَجْدٍ، ثَائِرُ الرَّأْسِ نَسَمْعُ دَوِيَّ صَوْتِهِ، ولا نَفْقَهُ ما يقُولُ، حَتى دَنَا مِنَ رَسُولِ اللَّهِ ﷺ فإِذا هُوَ يَسْأَلُ عَنِ الإِسْلامِ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: « خَمْسُ صَلَواتٍ في اليوْمِ واللَّيْلَةِ » قالَ: هَلْ عَلَيَّ غَيْرُهُنَّ؟ قَالَ: « لا، إلاَّ أَنْ تَطَّوَّعَ » فَقَالَ رَسُولُ اللَّه ﷺ: « وصِيَامُ شَهْرِ رَمضَانَ » قَالَ: هَلْ عَلَيَّ غيْرُهْ؟ قَالَ: « لا، إلاَّ أَنْ تَطَّوَّعَ » قَالَ: وَذَكَرَ لَهُ رَسُولُ اللَّهِ ﷺ، الزَّكَاةَ فَقَالَ: هَلْ عَلَيَّ غَيْرُهَا؟ قَالَ: « لا، إلاَّ أَنْ تَطَّوَّعَ » فَأَدْبَر الرَّجُلُ وهُوَ يَقُولُ: واللَّهِ لا أَزيدُ عَلى هذا وَلا أَنْقُصُ مِنْهُ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «أَفْلَحَ إِنْ صَدَقَ » مُتفقٌ عليهِ.

**1207.** Talhə ibn Ubeydullahdan ﷺ rəvayət olunur ki, o demişdir: «Nəcd əhlindən bir kişi Rəsulullahın ﷺ yanına gəlib onunla yüksək səslə danışdı. Biz onun səsini eşidir, ancaq nə dediyini anlamırdıq. O, Rəsulullaha yaxınlaşaraq ondan İslam barədə soruşdu. Rəsulullah ﷺ dedi: **"Gecə və gündüz ərzində beş vaxt namaz qılmaq".** Dedi: "Onlardan başqası mənə vacibdirmi?" Dedi: **"Xeyr, yalnız nafilə qıla bilərsən"**. *Sonra* Rəsulullah ﷺ dedi: **"Ramazan ayında oruc tutmaq"**. Dedi: "Ondan başqası mənə vacibdirmi?" Dedi: **"Xeyr, yalnız nafilə tuta bilərsən"**. Sonra Rəsulullah ﷺ ona zəkatı zikr etdi. Dedi: "Ondan başqası mənə vacibdirmi?" Dedi: **"Xeyr, yalnız nafilə qıla bilərsən"**. Həmin adam: "Allaha and olsun ki, *mən buna* nə bir şey artıracam, nə də *bundan bir şey* əksiltməyəcəm"– deyərək dönüb getdi. Rəsulullah ﷺ dedi: **"Əgər dediyini doğrulasa (etsə), nicat tapacaq"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٢٠٨– وعن ابن عبَّاس ﷺ، أَنَّ النَّبِيَّ ﷺ، بعَثَ مُعَاذاً ﷺ إِلى اليَمنِ فَقَالَ: « ادْعُهُمْ إِلى شهادَةِ أَنْ لا إِلهَ إِلاَّ اللَّه وَأَنِّي رسُولُ اللَّهِ، فإِنْ هُمْ أَطَاعُوا لِذلكَ، فَأَعْلِمْهُم أَنَّ اللَّهَ تَعَالى افترض علَيهِمْ خَمسَ صَلواتٍ في كُلِّ يَوْمٍ وليلةٍ، فَإِن هُمْ أَطاعُوا لِذلكَ فَأَعْلمْهُمْ أَنَّ اللَّه افترض عَلَيهِمْ صَدقَةً تُؤخَذُ مِنْ أَغْنِيَائِهِمْ، وَتُردُّ عَلى فُقَرائِهم » متفقٌ عليه.

---

[1] "Musnəd İmam Əhməd", 3/399; "Sunən İbn Macə", 3963.

[2] "Səhih əl-Buxari", 44; "Səhih Muslim", 12.

**1208.** İbn Abbasdan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ Müazı Yəmənə göndərdikdə dedi: **"Onları Allahdan başqa ibadət haqqına malik məbud olmadığına və mənim Onun elçisi olmağıma dəvət et. Əgər onlar bunda sənə itaət etsələr, onlara bildir ki, Uca Allah hər gecə-gündüz ərzində beş vaxt namaz fərz buyurmuşdur. Əgər onlar bunda da sənə itaət etsələr, onlara bildir ki, Allah onlara zənginlərinin malından götürülüb kasıblarına verilməsi üçün bir sədəqə fərz buyurmuşdur".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

**Şərh:**

Hafiz ən-Nəvəvinin ﷺ qeyd etdiyi bu üç hədis "Zəkatın vacib olmasının təkidi..." fəslindədir. Abdullah ibn Ömərdən ﷺ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir ki: **"İslam beş** ***əsas*** **üzərində bina edilmişdir...".** Bu barədə artıq təfsilatlı şəkildə söhbət açmışdıq və onu yenidən təkrarlamağa ehtiyac yoxdur.

Talhə ibn Ubeydullahın ﷺ hədisində isə Nəcdli bir kişi yüksək səslə danışırdı. İnsanlar onu eşidir, lakin nə dediyini başa düşmürdülər. O, Peyğəmbərdən ﷺ İslam barədə soruşdu. O da dedi ki, beş vaxt namaz, Ramazan orucu, zəkat. O, Allahdan başqa ibadətə layiq məbudun olmaması və Muhəmmədin Onun elçisi olduğu şəhadətini qeyd etmədi. Çünki Peyğəmbər ﷺ onun şəhadəti dediyini bilirdi. O, müsəlman olaraq bəzi şeylərin təfsilatını öyrənmək üçün gəlmişdi. Peyğəmbər ﷺ həmin kişiyə beş vaxt namaz, Ramazan orucu və zəkat deyir. Kişi soruşanda ki, başqa bir şey etməliyəmmi, Peyğəmbər ﷺ dedi: **"Xeyr, yalnız nafilə edə bilərsən"**. Bu da dəlildir ki, gündüz və gecə ərzində beş vaxt namazdan artığı vacib deyil. Vitr də vacib deyil, təkid olunmuş sünnədir. Məscidə salam namazı da vacib deyil, təkid olunmuş sünnədir. Bayram namazları da vacib deyil, təkid olunmuş sünnədir. Həmçinin alimlərin ixtilaf etdikləri digər məsələlər də buna aiddir.

Beləcə, bəzi elm əhli bu hədisə əsasən bütün sadalananların vacib olmadığını demişlər. Lakin düşündükdə görürsən ki, onlara burada dəlil yoxdur. Yəni, bu hədis məscidə salam namazının, bayram namazlarının

---

[1] "Səhih əl-Buxari", 1308; "Səhih Muslim", 27.

və başqa əməllərin vacib olmadığına *əsas* dəlil deyil. Çünki bu namazların öz səbəbləri var və həmin səbəblər mövcud olduqda, namaz da vacib olur. Lakin racih rəyə görə, məscidə salam namazı vacib deyil, təkid edilmiş sünnədir. Bayram namazı isə vacibdir, çünki Peyğəmbər hətta heyzli qadınlara və kölələrə belə əmr etmişdir ki, çıxıb namaz qılsınlar. Sadəcə heyzli qadınlar namazgahdan kənarda dayansınlar. Vitrə gəlincə isə bəli, bu hədis onun vacib olmamasına dəlildir. Çünki vitr hər gün təkrarlanır. Əgər vacib olsaydı, Peyğəmbər ﷺ həmin adama onu da deyərdi. Doğru rəy budur ki, vitr vacib deyil, təkid edilmiş sünnədir. İnsan onu tərk edərsə, günah qazanmır. Lakin kim davamlı şəkildə onu tərk edərsə, ədalət vəsfi ondan düşmüş olar. İmam Əhməd demişdir: "Kim vitri tərk edirsə, o pis adamdır və ondan şahidlik qəbul olunmamalıdır".

Ramazan orucuna gəlincə, ondan başqasını tutmaq vacib deyil. Yalnız nəzir olunmuş oruc istisnadır. Peyğəmbər ﷺ demişdir: **"Kim Allaha itaət edəcəyini nəzir edərsə, itaətini etsin".**[1]

Zəkatdan başqa bir səbəblə malı vermək müsəlmana vacib deyil. Yalnız ailə, qohumlar, qonaq kimi vacib məsələlərə xərclənənlər istisnadır. Bunlar səbəb olduğu üçün öz malından verməsi müsəlmana vacib olur.

Həmin adam dönüb getdikdə belə deyir: "Allaha and olsun ki, *mən buna* nə bir şey artıracam, nə də *bundan bir şey* əksiltməyəcəm". O, and içərək Allahla əhd bağlayır ki, bundan artığını və ya əksiyini etməyəcək. Peyğəmbər ﷺ də buyurur ki, **"Əgər dediyini etsə, nicat tapacaq"**.

**"Dediyini etsə, nicat tapacaq".** Bu da dəlildir ki, insan şəriətin vacib buyurduqları ilə kifayətlənərsə, nicata çatmış olar. Lakin bu o demək deyil ki, nafilələri etmək sünnə deyil. Belə ki, Qiyamət günü fərzlər məhz nafilələrlə tamamlanacaqdır. O qədər insanlar vardır ki, fərzlərində qüsur və çatışmamazlıqlar var və həmin fərzlərin tamamlanmağa ehtiyacı var.

İbn Abbasdan nəql olunmuş hədis isə Peyğəmbərin ﷺ Muazı Yəmənə göndərməsi ilə bağlıdır. Bu barədə də artıq söhbət açmışıq və onu təkrarlamağa lüzum yoxdur. Lakin orada deyilir ki, Peyğəmbər ﷺ demişdir: **"Allah onlara zənginlərinin malından götürülüb kasıblarına verilməsi üçün bir sədəqə fərz buyurmuşdur".** Bu fəsildə *zəkatın vacib olmasına* dəlil də elə budur. Müvəffəq edən Allahdır.

---

[1] "Səhih əl-Buxari", 6696.

١٢٠٩– وعَن ابن عُمَر ﷺ قال: قال رَسُولُ اللَّهِ ﷺ: « أُمِرْتُ أَن أُقاتِلَ النَّاسَ حتى يشهدوا أَن لا إِلـهَ إِلاَّ اللَّه وأَنَّ مُحَمَّداً رَسُولُ اللَّهِ، ويُقِيمُوا الصَّلاةَ، وَيُؤْتُوا الزَّكاةَ، فَإِذا فَعَلوا ذلكَ، عَصَمُوا مِنِّي دِمَاءَهُمْ وأَمْوَالَهم إِلاَّ بحَقِّ الإِسْلامِ وحِسابُهُمْ عَلى اللَّهِ » مُتفقٌ عليه.

**1209.** İbn Ömərdən ﷺ nəql olunan hədisdə Allahın elçisi ﷺ demişdir: **"İnsanlar "la ilahə illəllah, Muhəmmədən rəsulullah" deyib, namaz qılıb zəkat verənədək onlarla vuruşmağa əmr olundum. Onlar bunu etsələr, İslamın haqqı istisna olmaqla, öz qanlarını və mallarını məndən qorumuş olarlar. Onların hesabı isə Allaha aiddir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٢١٠– وَعَنْ أَبي هُرِيرةَ ﷺ، قالَ: لَمَّا تُوُفي رَسُولُ اللَّهِ ﷺ، وَكانَ أَبُو بَكْر، ﷺ، وَكَفَرَ مَنْ كَفَرَ مِنَ العربِ، فَقَالَ عُمرُ ﷺ: كيفَ تُقَاتِلُ النَّاسَ وَقدْ قَالَ رسُولُ اللَّهِ ﷺ: « أُمِرتُ أَنْ أُقاتِل النَّاسَ حتَّى يَقُولُوا لا إِلهَ إِلاَّ اللَّه فَمَنْ قَالَهَا، فقَدْ عَصَمَ مِني مَالَهُ وَنَفْسَهُ إِلاَّ بِحَقِّه، وَحِسَابُهُ عَلى اللَّهِ؟ » فَقَالَ أَبُو بَكْرٍ: واللَّهِ لأُقَاتِلَنَّ مَنْ فَرَّقَ بَيْنَ الصَّلاةِ والزَّكاةِ، فإِن الزَّكَاةَ حَقُّ المَالِ. واللَّهِ لَو مَنعُوني عِقَالاً كانَوا يُؤَدونَهُ إِلى رَسُولِ اللَّهِ ﷺ، لَقَاتَلْتُهُمْ على منعِهِ، قَالَ عُمرُ ﷺ: فَوَاللَّهِ مَا هُو إِلاَّ أَن رَأَيْتُ اللَّه قَدْ شَرَحَ صَدْرَ أَبي بَكْرٍ للقِتَالِ، فَعَرفْتُ أَنَّهُ الحَقُّ. مُتفقٌ عليه.

**1210.** Rəvayət olunur ki, Əbu Hureyra ﷺ demişdir: "Peyğəmbər ﷺ vəfat etdikdən sonra Əbu Bəkrin ﷺ xəlifəliyi zamanında ərəblərin bir qismi kafir oldu. Bu vaxt Ömər ﷺ dedi: "İnsanlara qarşı necə vuruşa bilərsən axı? Məgər Rəsulullah ﷺ deməyib ki: **"İnsanlar "la ilahə illəllah" deyənədək onlara qarşı vuruşmağa əmr olundum. Onlar bunu etsələr, İslamın haqqı istisna olmaqla, öz qanlarını və mallarını məndən qorumuş olarlar. Onların hesabı isə Allaha aiddir"**? Əbu Bəkr dedi: "Allaha and olsun ki, namazla zəkatı bir-birindən fərqləndirdikləri müddətdə onlara qarşı vuruşacağam. Zəkat malın haqqıdır. Allaha and olsun ki, əgər Allahın elçisinə verdikləri kəndirləri belə mənə verməsələr, buna görə

[1] "Səhih əl-Buxari", 24; "Səhih Muslim", 31.

onlara qarşı vuruşacağam". Ömər dedi: "Vallahi, görəndə ki, Allah Əbu Bəkrin köksünü döyüşə meyilləndirib, anladım ki, bu haqdır".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

**Şərh:**

Müəllifin ﷺ zikr etdiyi bu hədislər "Zəkatın vacib olmasının təkid olunması, onun fəziləti ilə bağlı məsələlər" fəslindədir. Həmin fəsildə qeyd olunan bəzi hədislər barədə artıq söhbət açmışıq. Sonra o, Abdullah ibn Ömərdən nəql olunmuş hədisi qeyd edir. Həmin hədisdə Rəsulullah ﷺ demişdir: **"İnsanlar "la ilahə illəllah, Muhəmmədən rəsulullah" deyib, namaz qılıb, zəkat verənədək, onlarla vuruşmağa əmr olundum".**

**"Əmr olundum"** dedikdə, əmr edən izzət və cəlal sahibi Allahdır. Bu da dəlildir ki, Muhəmməd Allahın quludur və ona da başqaları kimi əmrlər və qadağalar buyurulur. O da Allahın qullarından biridir – Rəbb deyil və rübubiyyət haqlarından nəyəsə malik deyil, o da bir bəndədir, ona da əmr və qadağalar buyurulur. Ola bilsin ki, ondan daha artığı ona nəsib olsun. Uca Allah buyurur: **"Allah səni bağışlasın! Doğru danışanlar sənə bəlli olmamış, yalançıları da tanımamış nə üçün onlara *cihaddan yayınmağa* izin verdin?"**[2]

O həmçinin buyurur: **"Ey Peyğəmbər, zövcələrini razı salmağa çalışaraq Allahın sənə halal etdiyi şeyi nə üçün özünə haram edirsən?! Allah Bağışlayandır, Rəhmlidir".**[3] Bu sözlərlə izzət və cəlal sahibi Allah onu qınayır.

Uca və nöqsansız Allah ona xitabən buyurur: **"Allahın aşkar edəcəyi şeyi ürəyində gizli saxlayır və insanlardan çəkinirdin. Halbuki, əslində qorxmalı olduğun məhz Allahdır".**[4]

Kim iddia edərsə ki, Muhəmməddə rübubiyyətdən bir şey var, o fayda və zərər verə bilir, dualara cavab verir, pisliyi aradan qaldırır, o kəs Allaha şərik qoşmuş, Muhəmmədə də küfr etmiş olur.

---

[1] "Səhih əl-Buxari", 1312; "Səhih Muslim", 29.
[2] "ət-Tövbə" surəsi, 43.
[3] "ət-Təhrim" surəsi, 1.
[4] "əl-Əhzab" surəsi, 37.

Peyğəmbər ﷺ demişdir: **“İnsanlar “la ilahə illəllah, Muhəmmədən rəsulullah” deyib, namaz qılıb zəkat verənədək onlarla vuruşmağa əmr olundum”.** Deməli, o, bu dörd şeydən birindən imtina edənə qarşı vuruşmağa əmr olunub: “la ilahə illəllah”, “Muhəmmədən rəsulullah” şəhadətləri, namaz qılmaq, zəkat vermək. O, onlarla bu dörd şeyə itaət edənədək vuruşmağa əmr olundu. Əgər bunları – “la ilahə illəllah”, “Muhəmmədən rəsulullah” şəhadətlərini, namazı və zəkat verməyi qəbul etsələr, **“İslamın haqqı istisna olmaqla, öz qanlarını və mallarını məndən qorumuş olarlar. Onların hesabı isə *izzət və cəlal sahibi* Allaha aiddir”.** Yəni, əgər bunları etsələr, zahirən təslim olmuş olurlar. Bununla da mallarını və canlarını qorumuş olurlar. Hesabları isə Allaha aiddir. Çünki insanlardan bəziləri həm “la ilahə illəllah, Muhəmmədən rəsulullah” deyir, həm namaz qılır, həm də zəkat verir, lakin qəlbi küfrlə doludur. Ona görə də: **“Hesabları Allaha aiddir”** buyurur. Münafiqlər də “la ilahə illəllah” deyir, lakin Allahı olduqca az zikr edirdilər. Onlar Rəsulullaha ﷺ “biz şahidlik edirik ki, sən Allahın rəsulusan” deyirdilər, namaz qılır, lakin namaza tənbəlliklə gəlirdilər; sədəqə verir, lakin bunu istəməyərəkdən edirdilər. Bununla belə, onların qəlbi küfrlə dolu idi. Allah qorusun! Ona görə də buyurur ki: **“Onların hesabı Allaha aiddir”.**

Sonra müəllif Əbu Hureyradan رضي الله عنه nəql olunmuş hədisdə Rəsulullahın ﷺ birinci xəlifəsi Əbu Bəkr əs-Siddiqlə رضي الله عنه Rəsulullahın ﷺ ikinci xəlifəsi Ömər ibn əl-Xəttab رضي الله عنه arasındakı söhbəti zikr edir.

Diqqət edin! Onlar dini bir məsələ barəsində söhbət etmişdilər. Baxmayaraq ki, onların hər biri digərinə qarşı böyük sevgi bəsləyirdi, ancaq bu sevgi onların dini bir məsələ barəsində söhbət etmələrinə mane olmurdu. Çünki din hər şeyin üzərindədir. Əbu Bəkr رضي الله عنه Rəsulullahın vəfatından sonra səhabələrin seçimi və Rəsulullahın ﷺ işarəsi ilə xəlifə olmuşdu. Belə ki, o onu həcc vaxtı imam təyin etmişdi. Bu da insanlara görə böyük rəhbərlik anlamında idi. Həmçinin namazda da onu imam təyin etmişdi ki, bu da kiçik rəhbərlik idi. Çünki həcc mərasimində imamlıq edən kəs namazdakından daha çox insana imamlıq edir. O hicrətin doqquzuncu ilində həcc mərasimində onu insanlara imam təyin etmişdi. Daha sonra Peyğəmbər ﷺ xəstələndikdə də onu insanlara imam təyin etmişdi. Müsəlmanlar da Peyğəmbərin ﷺ vəfatından sonra ittifaq etdilər ki, Peyğəmbərdən sonra xəlifə Əbu Bəkrdir رضي الله عنه.

Əlqərəz, Peyğəmbərin ﷺ ölümü ilə bəzi ərəblər mürtəd oldular. Daha əvvəl Uca Allah bu ayədə buna işarə etmişdir: **"Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də, elçilər gəlib getmişlər. Məgər o ölərsə və ya öldürülərsə, siz *dininizdən* gerimi dönəcəksiniz?! Kim geri dönərsə, Allaha heç bir şeylə zərər yetirməz. Allah şükür edənləri mütləq mükafatlandırar".**[1]

Elə də olur. Bəzi ərəblər dindən çıxaraq zəkat verməkdən imtina edir və Allaha qarşı küfr edirlər. Əbu Bəkr رضي الله عنه də qərara gəlir ki, onlara qarşı vuruşsun. Ömər ona deyir ki: "İnsanlara qarşı necə vuruşa bilərsən axı? Məgər Rəsulullah ﷺ deməyib ki: **"İnsanlar "la ilahə illəllah" deyənədək onlara qarşı vuruşmağa əmr olundum"?**». Bu, Ömərin Peyğəmbərdən ﷺ eşitdiyi idi. Oğlu Abdullah isə Rəsulullahdan ﷺ daha artığını eşitmişdi. O, Rəsulullahın ﷺ belə dediyini eşitmişdi: **"İnsanlar "la ilahə illəllah, Muhəmmədən rəsulullah" deyib, namaz qılıb zəkat verənədək onlarla vuruşmağa əmr olundum…".** Ömər isə bunu eşitməmişdi. Əbu Bəkr dedi: "Allaha and olsun ki, namazla zəkatı bir-birindən fərqləndirdikləri müddətdə onlara qarşı vuruşacağam. Zəkat malın haqqıdır. Allaha and olsun ki, əgər Allahın elçisinə verdikləri kəndirləri belə mənə verməsələr, buna görə onlara qarşı vuruşacağam". Bu da onun qətiyyətinə dəlildir. Baxmayaraq ki, o, təbiətcə Ömərdən daha yumşaq birisi idi, bununla belə, çətin və sıxıntılı anlarda Əbu Bəkr Ömərdən daha qətiyyətli olurdu. Buna bir neçə misal gətirmək olr.

Həmin misallardan biri budur. Ömər رضي الله عنه insanlara qarşı vuruşmağın tərəfdarı deyildi. Lakin Əbu Bəkrlə رضي الله عنه danışdıqdan sonra bildi ki, bu haqdır. Gördü ki, Allah Əbu Bəkrin qəlbini döyüşməyə yönəldib. Özü də Rəsulullahdan ﷺ sonra xəlifə idi. Anladı ki, bu haqdır, çünki Uca və nöqsansız Allah bu birinci raşidi xəlifənin köksünü yalnız haqqa yönəltmişdi. Ömər də Əbu Bəkrin qəlbinin buna yönəldiyini gördükdə bunun haqq olduğunu anladı. Bu məqamda Əbu Bəkr Ömərdən daha sabit, daha qərarlı idi.

İkinci misal. Peyğəmbərin ﷺ vəfatı ilə kədər Mədinəni zülmətə qərq etmiş, insanlar çaş-baş qalmışdılar. Bu ağır bir gün idi. İnsanların məsciddə toplandığı bir vaxtda Ömər qalxıb demişdi ki: "Peyğəmbər ölməyib,

[1] "Ali İmran" surəsi, 144.

sadəcə huşunu itirib. Allah onu yenidən göndərəcək və o da insanların əllərini və qollarını kəsəcək". O bunları qəti əminliklə deyirdi. Peyğəmbər ﷺ vəfat etdiyi an Əbu Bəkr Mədinənin kənarındakı bağçasında idi. Ona bu barədə xəbər verirlər, o da gəlib Peyğəmbərin üzündəki örtüyü qaldırır və deyir: "Atam-anam sənə qurban, ey Allahın rəsulu! Sən həm diri ikən, həm də ölü ikən necə də gözəlsən. Vallahi ki, Allah sənə ikinci dəfə ölüm acısını daddırmayacaq. Birinci ölümü isə sən artıq yaşadın".

Sonra o, insanların qarşısına çıxır. Həmin vaxt Ömər Peyğəmbərin ölümünü hələ də inkar edərək deyirdi ki: "O ölməyib, huşunu itirib, Allah onu yenidən oyadacaq". Əbu Bəkr ona: "Sakit ol!" deyir. Ömər də oturur və ya ayaq üstündə qalır. Bu vaxt Əbu Bəkr minbərə çıxaraq bu çətin anda insanlara bəlağətli və gözəl bir xütbə verərək dedi: "Ey insanlar! Kim Muhəmmədə ibadət edirdisə, bilsin ki, Muhəmməd artıq vəfat etmişdir". Allah ondan razı olsun! Baxmayaraq ki, ən böyük faciə yaşayanlardan biri onun elə özü idi. "Kim də Allaha ibadət edirsə, bilsin ki, Allah diridir və ölməzdir". Sonra o Uca Allahın bu ayəsini oxudu: **"Həqiqətən sən də öləcəksən, onlar da öləcəklər".**[1] Daha sonra bu ayəni oxudu: **"Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də, elçilər gəlib getmişlər. Məgər o ölərsə və ya öldürülərsə, siz *dininizdən* gerimi dönəcəksiniz?! Kim geri dönərsə, Allaha heç bir şeylə zərər yetirməz. Allah şükür edənləri mütləq mükafatlandırar".**[2]

Ömər deyir ki, "Bu vaxt ayaqlarım məni saxlamadı və mən yerə çökdüm".[3] Yəni ayaqda dura bilməyib oturdu. Çünki o bunun haqq olduğunu anladı. Baxın görün, Əbu Bəkr bu ağır vaxtda necə sabit qaldı.

Üçüncü misal Hüdeybiyyə sülhüdür. Orada elə şərtlər var idi ki, onlar zahirən müsəlmanlara bir təzyiq idi. Həmin şərtlərdən biri də bu idi ki, qureyşlilərdən kimsə müsəlman olaraq onların yanına gəlsəydi, Peyğəmbər ﷺ onu qureyşlilərə qaytarmalı, müsəlmanlardan kimsə qureyşlilərin yanına getmiş olsaydı isə onu qaytarmalı deyildilər. Bu şərt zahirən bir haqsızlıq idi. Ömər buna dözməyib deyir ki, "Necə, ey Allahın rəsulu, necə? Onlardan müsəlman olub yanımıza gələn kəsi biz qaytarırıq, bizdən

---

[1] "əz-Zumər" surəsi, 30.
[2] "Ali İmran" surəsi, 144.
[3] "Səhih əl-Buxari", 3670.

onların yanına gedəni isə bizə qaytarmırlar? Axı biz dinimizdə necə güzəştə gedə bilərik? Məgər biz haqq, onlar isə batil üzərində deyillərmi?" Peyğəmbər ﷺ də buyurur ki: **"Elədir, lakin bu Allahın əmridir. Mən isə Allahın qulu və elçisiyəm və Allaha asi olmayacağam. İzzət və cəlal sahibi Allah mənə yardım edəcək".**[1]

Bundan sonra Ömər Əbu Bəkrin yanına gedərək ondan dəstək istəyir ki, o da gedib Rəsulullahı ﷺ fikrindən döndərsin. Lakin Əbu Bəkrin də cavabı Rəsulullahın ﷺ cavabı ilə sözbəsöz eyni olur. Belə bir çətin anda da o möhkəm dayanmışdı. O dedi: "O, Allahın elçisidir, Allah da ona yardım edəcək. Ona tabe ol!" Bununla Ömərə deyir ki, şübhəsiz ki, Peyğəmbər ﷺ haqq üzərindədir, ona müxalif olma.

Bu üç böyük məqamda Əbu Bəkrin رضي الله عنه qətiyyəti bəlli olur. Bu da dəlildir ki, o səhabələr arasında ən qətiyyətlisi, xilafətə rəhbərliyə də ən layiq olanı, ən ağıllısı idi. İşlərə kənardan nəzər salan insanın sabit qalma halı beləcə bəlli olur: o gərək tələsməsin, tələsməkdə bəzən ziyan olur.

Mühüm olan budur ki, Hafiz ən-Nəvəvinin رحمه الله bu fəsildə qeyd etdiyi hədisdən çıxarılan nəticə ondan ibarətdir ki, kim zəkat verməkdən imtina edərsə, zəkatı ödəyənədək rəhbər ona qarşı vuruşmalıdır. Müvəffəq edən Allahdır.

١٢١١– وعن أَبي أَيوبَ رضي الله عنه، أَنَّ رَجُلاً قَالَ للنَّبيِّ ﷺ: أَخْبِرْني بِعَمَلٍ يُدْخِلُني الجَنَّةَ، قَالَ: «تَعْبُدُ اللَّه وَلاَ تُشْرِكُ بِه شَيْئاً، وتُقِيمُ الصَّلاةَ، وتُؤْتي الزَّكَاةَ، وتَصِلُ الرَّحِمَ» متفقٌ عليه.

**1211.** Əbu Əyyubdan رضي الله عنه rəvayət olunur ki, bir kişi Peyğəmbərə ﷺ dedi: "Mənə elə bir əməl de ki, o məni Cənnətə daxil etsin". Dedi: **"Allaha ibadət edib Ona heç bir şeyi şərik qoşmamaq, namaz qılmaq, zəkat vermək, qohumlarla əlaqə yaratmaq".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٢١٢– وَعنْ أَبي هُرَيرَة رضي الله عنه أَنَّ أَعرابِيًّا أَتى النَّبيَّ ﷺ فقَال: يا رَسُول اللَّهِ دُلَّني على عمَل إِذا عمِلْتُهُ، دخَلْتُ الجنَّةَ. قَالَ: «تَعْبُدُ اللَّه ولا تُشْرِكُ بِهِ شَيْئاً، وَتُقِيمُ الصَّلاةَ، وَتُؤْتي

---

[1] "Səhih əl-Buxari", 2529; "Səhih Muslim", 3338.

[2] "Səhih əl-Buxari", 1309; "Səhih Muslim", 14.

الزَّكَاةَ المَفْرُوضَةَ، وَتَصُومُ رَمَضَانَ » قَالَ: وَالذي نَفْسِي بِيَدِهِ، لا أَزِيدُ عَلى هذا. فَلَمَّا وَلَّى، قالَ النَّبِيُّ ﷺ: « مَنْ سَرَّهُ أَنْ يَنْظُرَ إِلى رَجُلٍ مِنْ أَهْلِ الجَنَّةِ فَلْيَنْظُرْ إِلى هذا » مُتفقٌ عليه.

**1212.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, bir bədəvi Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ey Allahın elçisi, mənə elə bir əməl göstər ki, onu etməklə Cənnətə daxil olum". Dedi: **"Allaha ibadət edib Ona heç bir şeyi şərik qoşmamaq, namaz qılmaq, fərz olunmuş zəkatı vermək, Ramazanda oruc tutmaq".** Dedi: "Canım əlində olan *Allaha* and olsun ki, bundan artığını etməyəcəyəm". O getdikdən sonra Peyğəmbər ﷺ dedi: **"Kim Cənnət əhlindən olan bir adama baxmaq istəyirsə, buna baxsın".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٢١٣– وَعَنْ جَريرِ بنِ عبدِ اللَّهِ ﷺ، قَالَ: بَايعْت النَّبِيَّ ﷺ عَلى إِقامِ الصَّلاةِ، وَإِيتاءِ الزَّكاةِ، والنُّصْحِ لِكُلِّ مُسْلِمٍ. مُتفقٌ عليه.

**1213.** Rəvayət olunur ki, Cərir ibn Abdullah ﷺ demişdir: "Mən namaz qılmağıma, zəkat verməyimə və hər bir müsəlmana nəsihət edəcəyimə dair Peyğəmbərə ﷺ beyət etdim".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

**Şərh:**

Bu üç hədis də "Zəkatın vacib olmasının təkid olunması, onun fəziləti ilə bağlı məsələlər" fəslindədir. Əbu Hureyradan, Əbu Əyyubdan və Cərirdən rəvayət olunan hər üç hədis dəlalət edir ki, namaz qılmaq və zəkat vermək İslamın fərzlərindəndir.

Əbu Əyyubun ﷺ hədisində "qohumluq əlaqələri qurmaq" əlavəsi də vardır. Hədisin ərəbcəsində keçən "rahm" dedikdə ata və ya ana tərəfdən qohumlar nəzərdə tutulur. Onlarla əlaqə yaratmaq isə adətdəndir. Çünki Peyğəmbər ﷺ onlarla nə cür əlaqənin qurulmalı olduğunu bildirməmişdir. Quran və Sünnədə bəyan olunmayan hər bir şeydə insanların adətinə qayıtmaq lazımdır. Bu da hala, zamana və məkana görə dəyişir.

---

[1] "Səhih əl-Buxari", 1310; "Səhih Muslim", 15.

[2] "Səhih əl-Buxari", 55; "Səhih Muslim", 83.

Məsələn, kasıblıq və ehtiyac anında qohumlarla onlara sədəqə verməklə və ehtiyaclarını ödəməklə əlaqə qurmaq olur. Həmçinin əgər qohumlardan xəstələnən kimsə varsa, onlarla onları ziyarət etməklə əlaqə yaradılır. Xəstəliyin dərəcəsinə görə bu ziyarət təkrarlana bilər. Yox, əgər heç bir şeyə ehtiyac yoxdursa, bu günkü adətlərimizə görə onlara yazmaq və ya zəng etməklə əlaqə yaratmaq yetərlidir. Yaxud bayramlarda və ya başqa münasibətlərdə əlaqə yaratmaq olar. Əsası budur ki, qohumlarla əlaqə yaratmaq vacibdir. Lakin şəriət onun necəliyini müəyyənləşdirməmişdir. Bu məsələdə insanların adət-ənənələrinə əsaslanmaq gərəkdir.

Cərir ibn Abdullahdan ﵁ nəql olunmuş hədisdə isə namaz qılmaq, zəkat vermək kimi əvvəl deyilənlərə digər bir əlavə də vardır: hər bir müsəlmana nəsihət etmək.

İnsan hər bir müsəlmana nəsihət etməlidir. Belə ki, o, özü ilə necə müamilə edirsə, başqası ilə də elə davranmalıdır – ona yalan danışmamalı, onu aldatmamalı, hiylə gəlməməli və xəyanət etməməlidir. Ona hərtərəfli nəsihət etməli, onunla hər hansı bir işdə məşvərət etdikdə ona həm din, həm də dünya baxımından daha yaxşı olanı məsləhət görməlidir. Qeyd olunur ki, Cərir ibn Abdullah ﵁ Peyğəmbərə ﷺ beyət edərkən hər bir müsəlmana nəsihət edəcəyinə də beyət etmişdir. Onun haqqında rəvayət olunur ki, "Cərir bir nəfərdən müəyyən məbləğə at alır. Atı mindikdə görür ki, at yaxşı atdır. Satıcının yanına qayıdıb deyir ki, sənin satdığın bu atın qiyməti daha çoxdur. Ona yenə, hətta əvvəlki məbləğin iki və ya üç mislində pul verir". Çünki o, Peyğəmbərə ﷺ hər bir müsəlmana nəsihət etmək barədə beyət etmişdi.

Mömin olan kəs qohumları ilə əlaqə saxlamalı, müsəlman qardaşlarına nəsihət etməlidir. Təmim əd-Daridən ﵁ nəql olunmuş hədisdə Peyğəmbər ﷺ demişdir: **"Din nəsihətdir".** O bu sözləri üç dəfə təkrar etdi. Soruşdular: "Kimə, ey Allahın elçisi?" Dedi: **"Allaha, kitabına, elçisinə, müsəlmanların rəhbərlərinə və ümumi camaata".**[1] Müvəffəq edən Allahdır.

١٢١٤– وَعَنْ أَبي هُريرَةَ ﵁ قَالَ: قَالَ رسولُ اللَّهِ ﷺ: « مَا مِنْ صاحِبِ ذهَبٍ، وَلا فِضَّةٍ، لا يُؤَدِّي مِنْهَا حَقَّهَا إِلاَّ إذا كَانَ يَوْمُ القِيامَةِ صُفِّحَتْ لَهُ صَفائِحُ مِنْ نَارِ، فَأُحْمِيَ عَلَيْهَا في

[1] "Səhih Muslim", 55.

نـار جَهَـنَّمَ، فَيُكْـوَى بِهَـا جنبُـهُ، وجبِينُـهُ، وظَهْـرُهُ، كُلَّمـا بـرَدتْ أُعيـدتْ لَـهُ في يـوْمٍ كَانَ مِقْـدَارُه خمْسِينَ أَلْـف سنَةٍ، حتَّى يُقْضَى بيْنَ العِبادِ فَيُرَى سبِيلُهُ – إِمَّا إِلى الجنَّةِ وإِما إِلى النَّارِ ».

قيل: يا رسُـولَ اللَّهِ فالإِبلُ؟ قـال: ولا صـاحبِ إِبِلٍ لا يـؤَدِّي مِنهَـا حقَّهَـا، ومِنْ حقِّهَـا، حَلْبُهَـا يـومَ وِرْدِهـا، إِلا إِذا كان يـوم القيامَـة بُطِحَ لهـا بِقَـاعٍ قَرْقَـرٍ أَوْفـر ما كانـتْ، لا يَفقِـدُ مِنْهَـا فَصِيلاً واحِداً، تَطؤُهُ بأَخْفَافِها، وتَعَضُّهُ بِأَفْواهِها، كُلَّما مَرَّ عليْهِ أولاها، ردَّ عليْهِ أُخْراها، في يومٍ كانَ مِقْداره خَمْسِينَ أَلْفَ سَنةٍ، حتَّى يُقْضَي بَيْنَ العِبَاد، فَيُرَى سبِيلُه، إِمَّا إِلى الجنَّةِ وإِمَّا إِلى النارِ ».

قِيل: يَا رسـول اللَّهِ فَالْبقرُ وَالغَنَمُ؟ قـال: ولا صاحِبِ بقرٍ ولا غَنمٍ لا يُؤَدِّي مِنْهَا حقَّهَا إِلاَّ إِذا كان يَوْمُ القيامَةِ، بُطِحَ لهَا بقَاعٍ قَرقَرٍ، لا يفْقِد مِنْهَا شَيْئاً لَيْس فِيها عَقْصاءُ، وَلا جَلْحاءُ، وَلا عَضباءُ، تَنْطحه بِقُرُونهَا، وَتطَؤُهُ بِأَظْلافِهَا، كُلَّمَا مَرَّ عَلَيْهِ أُولاها، رُدَّ عَلَيْهِ أُخْراها، في يومٍ كانَ مِقدَارُهُ خَمْسِينَ أَلْف سنَةٍ حتَّى يُقْضَى بيْنَ العِبادِ، فيُرَى سبِيلُهُ إِمَّا إِلى الجَنَّةِ وإِمَّا إِلى النَّارِ ».

قِيلَ: يا رسُـول اللَّهِ فالخيْلُ؟ قـال: « الخَيْلُ ثلاثَـةٌ: هِي لِرَجُلٍ وِزرٌ، وهِيَ لِرَجُلٍ سِتْرٌ، وهِي لرجُلٍ أَجْرٌ، فأَمَّا التي هي لهُ وزر فَرَجُلٌ ربطَها رِياءً وفَخْراً ونِواءً عَلى أَهْلِ الإِسْلامِ، فهِي لَهُ وِزرٌ، وأَمَّا التي هِيَ لَـهُ سِتْرٌ، فَرَجُل ربَطَهَا في سَبِيلِ اللَّهِ، ثُمَّ لـم ينْسَ حقَّ اللَّهِ في ظُهُورِها، ولا رِقابِها، فَهِي لَهُ سِتْرٌ، وأَمَّا التي هِيَ لَهُ أَجْرٌ، فرجُلٌ ربطَهَا في سبِيلِ اللَّهِ لأَهْل الإِسْلامِ في مَرْجٍ، أَو رَوضَـةٍ، فَمَـا أَكَلَت مِن ذلك المَرْجِ أَو الرَّوضَـةِ مِن شَيءٍ إِلاَّ كُتِب لَـهُ عـدد ما أَكَلَـت حسـنَاتٌ، وكُتِب لَـه عـدد أَرْوَاثِهَا وأَبْوَالِهَا حَسنَاتٌ، وَلا تَقْطَعُ طِوَلَهَا فاستَنَّت شَرَفاً أَو شَرفَيْنِ إِلاَّ كَتَب اللَّهُ لَـهُ عـددَ آثَارِهَا، وأَرْوَاثِهَا حَسنَاتٍ، ولا مرَّ بها صاحِبُهَا عَلى نَهْرٍ فَشَرِبَت مِنْهُ، وَلا يُرِيدُ أَنْ يَسْقِيَهَا إِلاَّ كَتَبَ اللَّهُ لَهُ عدَدَ ما شَرِبَت حَسنَاتٍ ».

قِيلَ: يا رسـولَ اللَّهِ فـالحُمُرُ؟ قـال: « مـا أُنْـزِل علَيَّ في الحُمُرِ شَيءٌ إِلاَّ هـذِهِ الآيـةُ الْفَـاذَّةُ الجَامِعَـةُ: { فمـن يعْمـلْ مِثقَـال ذرَّةٍ خَيْراً يـرهُ،ومَن يعْمـلْ مثْقَـالَ ذَرَّةٍ شَـرّاً يـرهُ } ». مُتَّفَـقٌ عليـهِ. وهذا لفظُ مُسْلِمٍ.

ومعْنَى القاعِ: المكان المستوى من الأرضِ الواسع. والقرقر: الأملس.

**1214.** Əbu Hureyradan ﷺ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Hər hansı bir qızıl və gümüş sahibi onun haqqını verməzsə, Qiyamət günü ona oddan səhifələr hazırlanar və Cəhənnəm odunda onunla yandırılar. Böyürü, beli onunla ütülər (qarsalanar). Əlli min il**

**uzunluğu olan bir gündə hər dəfə soyuduqca, yenidən buna məruz qalar. Bu, insanlar arasında hökm verilənədək belə davam edər. Sonra yolu görünər – ya Cənnətə, ya da Cəhənnəmə".**

Soruşdular: "Ey Allahın elçisi, bəs dəvə?" Dedi: **"Dəvəsi olub onun haqqını verməyənlər də buna aiddir. Onun haqqı su içdiyi vaxtda sağılmasıdır. Bunu etmədiyi təqdirdə Qiyamət günü ona geniş çöllük qədər ondan verilər. Ondan heç bir hissə itirilməz. Həmin dəvə onu ayaqlarının altına alıb tapdalayar, ağzı ilə dişləyər. Birincisi onun yanından hər dəfə keçdikdə, o birinə qaytarılar. Bu, uzunluğu əlli min il olan bir gün ərzində qulların arasında hökm verilib bitənədək davam edər. Sonra yolu görünər – ya Cənnətə, ya da Cəhənnəmə".**

Soruşdular: "Ey Allahın elçisi, bəs inək və qoyun?" Dedi: **"Qoyunu və ya inəyi olub onun haqqını verməyənlər də buna aiddir. Bunu etmədiyi təqdirdə Qiyamət günü ona geniş çöllük qədər ondan verilər. Onu ayaqları ilə tapdalayar. Birincisi onun yanından hər dəfə keçdikdə, o birinə qaytarılar. Bu, uzunluğu əlli min il olan bir gün ərzində qulların arasında hökm verilib bitənədək davam edər. Sonra yolu görünər – ya Cənnətə, ya da Cəhənnəmə".**

Soruşdular: "Ey Allahın elçisi, bəs at necə?" Dedi: **"At üç növdür: bəziləri üçün pislik, bəziləri üçün örtük, bəziləri üçün də əcrdir. Sahibi üçün pislik olan at o kəsin atıdır ki, o onu riyakarlıqla, fəxrlə və İslam əhli üzərində özünü yüksəltməklə istifadə edər. Bu onun üçün pis bir minikdir. Sahibi üçün örtük olan at ondan Allah yolunda istifadə edən, üstəlik, onu mindikdə və ya kəsdikdə Allahın haqqını unutmayandır. Bu at, sahibi üçün bir örtükdür. Sahibi üçün əcr olan at isə atını Allah yolunda İslam əhlinə verən kəsin atıdır. Həmin yolda at hər bir bağçada yemək yedikdə, sahibinə savab qazandırmış olar. Hətta onun təzəyinə və sidiyinə görə belə sahibinə savab yazılar. Yola çıxıb hər dəfə bir-iki addım atdıqca, Allah onun izlərinə və təzəklərinə görə sahibinə savab yazar. Sahibi onu çay kənarına apardıqda, o da sudan içdikdə, hətta ona su vermək məqsədi olmasa belə, Allah onun içdiyi qurtumlara görə savablar yazar".**

Soruşdular: "Ey Allahın elçisi, bəs uzunqulaq?" Dedi: **«Uzunqulaq barədə yalnız bu əzəmətli və əhatəli ayəni qeyd etmək istəyirəm: "Kim**

**zərrə qədər yaxşı iş etsə, onun əvəzini görəcək; kim də zərrə qədər pis iş görsə, onun əvəzini görəcək"[1]».**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Bu mətn Muslimin ləfzidir.

[Hədisin ərəbcəsində keçən] "əl-qa" sözü "geniş ərazi və çöllük", "əl-qarqar" isə "şümal"dır (hamardır).

**Şərh:**

Müəllifin ﷬ qeyd etdiyi bu hədis "Zəkatın vacib olmasının təkid olunması və onun fəziləti ilə bağlı məsələlər"in bəyanı fəslindədir. Hədisi Muslim ﷬ Əbu Hureyradan ﷠ uzun şəkildə nəql etmişdir. Həmin hədisdə Peyğəmbər ﷺ qızıl, gümüş, dəvə, inək, qoyun, at və uzunqulağı qeyd edir və onlardan hər birinin hökmünü deyir. O, insanlara məsələləri hər zaman əhatəli və geniş şəkildə bəyan edərdi. Allah bu dini beləcə kamil etmiş, möminlərə olan nemətini tamamlamışdır.

Peyğəmbər ﷺ demişdir: "**Hər hansı bir qızıl və gümüş sahibi onun haqqını verməzsə, Qiyamət günü ona oddan səhifələr hazırlanar və Cəhənnəm odunda onunla yandırılar. Böyürü, beli onunla qarsalanar. Əlli min il uzunluğu olan bir gündə hər dəfə soyuduqca, yenidən buna məruz qalar. Bu, insanlar arasında hökm verilənədək belə davam edər. Sonra yolu görünər – ya Cənnətə, ya da Cəhənnəmə**".

Qızılın və gümüşün zəkatının verilməsi vacibdir. Qızılı və gümüşü olan hər kəsə hər bir halda – hətta onu *sonradan* sədəqə etmək, evlənmək və ya yaşamaq üçün ev almasından ötrü, yaxud minməsi üçün minik almaq məqsədilə toplayırsa, yaxud pulunu toplayıb saxlasa, ya da hər hansı başqa bir məqsədlə cəm etsə belə, onun zəkatını verməsi vacibdir. Bütün hallarda onların zəkatı verilməlidir. Yalnız nisab məbləğinin yığılması gərəkdir ki, bu da qızılda səksən beş qram yarımdır. Gümüşün nisab miqdarı isə beş yüz doxsan beş qramdır. Bu miqdarda qızılı və ya gümüşü olanın zəkat verməsi ona vacib olur. Əgər verməzsə, Peyğəmbərin ﷺ dediyi kimi, ona Qiyamət günü oddan səhifələrlə cəza verilər. Qızıl və ya gümüşdən

[1] "əz-Zəlzələ" surəsi, 7-8.

[2] "Səhih əl-Buxari", 2648; "Səhih Muslim", 987.

deyil, məhz oddan. Allah qorusun! Adama oddan olan səhifələrlə Cəhənnəmdə əzab veriləcək. Cəhənnəm odu isə dünyadakı oddan altmış doqquz dəfə çoxdur. Cəhənnəm odu dünyadakı bütün növ odlardan, hətta qazın odundan belə altmış doqquz dəfə daha şiddətlidir. Allah bizləri və sizləri Cəhənnəm odundan qorusun! Onun böyrü, yəni sağ və sol yanları, alnı, yəni üzü, beli həmin səhifələrlə yandırılacaq. Hər dəfə də soyuduqca yenidən yandırılacaq. Hər dəfə soyuduqca da bu yenidən təkrarlanacaq. Bu, uzunluğu əlli min il miqdarında olan bir gündə baş verəcəkdir. Yəni o, bir-iki saat, bir-iki ay, bir-iki il deyil, əlli min il həmin əzaba düçar olacaq. Allah qorusun! Bu, insanlar arasında hökm verilib bitənədək davam edəcək. Sonra onun yolu (yeri) ona görsənəcək – ya Cənnətə, ya da Cəhənnəmə. Allahdan salamatlıq və afiyət diləyirəm.

Bu deyilənlərə əsasən, bu hədis Uca Allahın aşağıdakı ayəsinin təfsiridir: **"Qızıl-gümüş yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ".**[1] Burada "yığmaq" deyildikdə, səhabə, tabiin və onlardan sonra gələn elm əhlinin də dediyi kimi, zəkatını verməmək nəzərdə tutulur. Dağların başı qədər və ya yerin daxilində belə malın varsa, sən də onun zəkatını verirsənsə, bu, yığmaq sayılmır. Yığmaq, zəkatı verilməyən mala deyilir.

**"O gün bu *yığdıqları sərvətlər* Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaq və *onlara:* "Budur özünüz üçün yığdıqlarınız. Elə isə dadın yığdıqlarınızı!"– *deyiləcəkdir*".**[2] Bu bədənə verilən bir əzab ağrısıdır. Üstəlik, qəlblərinə də əzab veriləcək və onlara deyiləcək: **"Budur özünüz üçün yığdıqlarınız. Elə isə dadın yığdıqlarınızı!"** Beləcə onların həm bədənlərinə, həm də qəlblərinə bu sözlərlə əzab veriləcəkdir. Bir təsəvvür edin, birisinə: "Budur özün üçün yığdığın"– deyildikdə onun halı necə olacaq? – Qəlbi qırılacaq. Allah qorusun! Həm bədəni ağrı çəkəcək, həm də qəlbi. Qızıl və gümüş yığıb onun zəkatını verməyənlərin cəzası budur.

Qızıl və gümüşü əvəz edən pul əskinasları, *həmçinin qiymətli kağızlar* da eyni hökmdədir. Kimin qızılın və ya gümüşün nisabı[3] dəyərində pulu

[1] "Ali İmran" surəsi, 34.
[2] "Ali İmran" surəsi, 35.
[3] 85.5 qram qızıl və ya 595 qram gümüş.

varsa, onun zəkatını verməlidir. İndi çox dövlətlərdə, hətta demək olar ki, hamısında *milli və xarici* valyutadan istifadə olunur. Bizdə də rial işlənir – 1 rial, 5 rial, 10 rial, 50 rial, 100 rial, 500 rial. Bu valyutalar qızıl və gümüşü əvəz edir. İnsanlar bunları qızıl və gümüş əvəzinə işlədir. Əgər insanın deyilən çəkidə, *yəni 595 qram* gümüş məbləğində pulu varsa, gərək onun zəkatını versin. Yəni, bu çəkidə gümüşün dəyəri 56 riala bərabərdir və bu zaman zəkat verilir. Məlum məsələdir ki, gümüşün qiyməti artır və azalır. Zəkat çıxarılan vaxt onun qiymətinə baxmaq lazımdır. Əgər gümüşün nisabı 56 riala bərabər olarsa, gərək zəkat verilsin. Zəkatın miqdarı da ondabirin dörddə biri qədərdir.

Sonra Peyğəmbər ﷺ dəvəni, inəyi və qoyunu qeyd edir. Dəvənin su içən vaxtı sağılması onun haqqıdır – su içməyə getdikdə sağılır. Adətə görə, həmin vaxt onu sağıb südünü insanlara verirlər. Çünki dəvənin güvənləri var və südü bol olur. Su içməyə gəldikdə, onlar dolmağa başlayır. Dolduqda isə içərisində bol südü olur. Kasıblar gəldikdə, süd onlara paylanır. Bu onun haqqıdır.

Sonra Peyğəmbər ﷺ atı qeyd edir və bildirir ki, *əvəz baxımından* onun üç növü vardır: əcr, örtük, pislik.

Uzunqulağa gəlincə isə, Peyğəmbər ﷺ buyurmuşdur ki, bu əzəmətli və əhatəli ayədən başqa onunla bağlı heç bir şey nazil olmamışdır: **“Kim zərrə qədər yaxşı iş etsə, onun əvəzini görəcək; kim də zərrə qədər pis iş görsə, onun əvəzini görəcək”.** Yəni, uzunqulağı xeyirli işlər üçün işlətdikdə xeyir olur. Pis işlər üçün işlətdikdə isə pislik olur. Müvəffəq edən Allahdır.

# İki yüz on yeddinci fəsil

## Ramazan orucunun vacibliyi, orucun fəzilətinin bəyanı və bununla bağlı məsələlər

**Mövzu ilə əlaqəli ayələr:**

Uca Allah buyurur:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ كُتِبَ عَلَيۡكُمُ ٱلصِّيَامُ كَمَا كُتِبَ عَلَى ٱلَّذِينَ مِن قَبۡلِكُمۡ لَعَلَّكُمۡ تَتَّقُونَ *
أَيَّامٗا مَّعۡدُودَٰتٖۚ فَمَن كَانَ مِنكُم مَّرِيضًا أَوۡ عَلَىٰ سَفَرٖ فَعِدَّةٞ مِّنۡ أَيَّامٍ أُخَرَۚ وَعَلَى ٱلَّذِينَ يُطِيقُونَهُۥ فِدۡيَةٞ
طَعَامُ مِسۡكِينٖۖ فَمَن تَطَوَّعَ خَيۡرٗا فَهُوَ خَيۡرٞ لَّهُۥۚ وَأَن تَصُومُواْ خَيۡرٞ لَّكُمۡۖ إِن كُنتُمۡ تَعۡلَمُونَ * شَهۡرُ رَمَضَانَ ٱلَّذِيٓ
أُنزِلَ فِيهِ ٱلۡقُرۡءَانُ هُدٗى لِّلنَّاسِ وَبَيِّنَٰتٖ مِّنَ ٱلۡهُدَىٰ وَٱلۡفُرۡقَانِۚ فَمَن شَهِدَ مِنكُمُ ٱلشَّهۡرَ فَلۡيَصُمۡهُۖ وَمَن
كَانَ مَرِيضًا أَوۡ عَلَىٰ سَفَرٖ فَعِدَّةٞ مِّنۡ أَيَّامٍ أُخَرَۗ يُرِيدُ ٱللَّهُ بِكُمُ ٱلۡيُسۡرَ وَلَا يُرِيدُ بِكُمُ ٱلۡعُسۡرَ
وَلِتُكۡمِلُواْ ٱلۡعِدَّةَ وَلِتُكَبِّرُواْ ٱللَّهَ عَلَىٰ مَا هَدَىٰكُمۡ وَلَعَلَّكُمۡ تَشۡكُرُونَ ﴾

**"Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə *Allahdan* qorxasınız. Müəyyən sayda olan günləri *oruc tutmalısınız.* Sizlərdən xəstə və ya səfərdə olanlar başqa günlərdə eyni sayda *oruc tutmalıdırlar.* Buna taqəti olanlar isə *buraxdıqları hər günün əvəzinə* bir kasıbı yedirtməklə fidyə verməlidirlər. Kim könüllü olaraq yaxşılıq etsə, bu onun üçün daha xeyirli olar. Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir. İnsanlara doğru yolu göstərən, bu yolun və *haqqı batildən* ayırd edənin açıq-aydın dəlilləri olan Quran Ramazan ayında nazil edilmişdir. Qoy sizlərdən bu aya yetişən kəslər *həmin ayı* oruc tutsun. Xəstə və ya səfərdə olanlar isə başqa günlərdə eyni sayda *oruc tutmalıdırlar.* Allah sizin üçün çətinlik istəmir, *əksinə,* sizin üçün asanlıq istəyir. Allah *istəyir ki,* siz müddəti (buraxdığınız günlərin orucunu) tamamlayasınız və sizi doğru yola yönəltdiyinə görə Onu uca tutasınız. Bəlkə şükür edəsiniz".[1]**

---

[1] "əl-Bəqərə" surəsi, 183-185.

**Şərh:**

Müəllif ﷺ **"Ramazan orucunun vacibliyi, orucun fəzilətinin bəyanı və bununla bağlı məsələlər"** fəslini qeyd edir. O bu fəsli zəkat fəslindən sonra qeyd etmişdir. Çünki Ömər ibn əl-Xəttabdan ﷺ nəql olunan hədisdə qeyd olunan tərtib belədir. Həmin hədisdə Cəbrail ﷺ Peyğəmbərdən ﷺ islam, iman, ehsan, qiyamət saatı və onun əlamətləri barədə soruşur.

**Ramazan orucu**, Uca Allaha ibadət məqsədilə gün çıxandan gün batanadək yeməyi, içməyi və cinsi əlaqəni tərk etməyə deyilir. Oruc budur – bu deyilənləri tərk etməklə ibadət etmək. Bunu bir adət kimi və ya bədənə xeyir olsun deyə tərk etmək oruc sayılmır. Bunları məhz Allaha ibadət etmək məqsədilə tərk etmək lazımdır – gün çıxandan gün batanadək yemək, içmək, cinsi yaxınlıq və digər orucu pozan amillərdən uzaq olmaq. Bu da Ramazan hilalı görünəndən Şəvvalın hilalı görünənədək davam edir.

Ramazan orucu İslamın rüknlərindən biridir. İslam dinində onun məqamı budur. Kitab və Sünnənin dəlalət etdiyi kimi, müsəlmanların yekdil rəyinə görə oruc fərzdir.

Sonra müəllif ﷺ buna dəlalət edən ayələri qeyd edir: **"Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə *Allahdan* qorxasınız".** Allah möminlərə xitab etmişdir. Çünki Ramazan orucunu tutmaq imanın tələblərindəndir. Ramazan orucunu tutmaqla iman kamil olur, Ramazan orucunu tərk etməklə iman da naqis olur.

Alimlər tənbəllik və səhlənkarlıq səbəbindən orucu tərk edənin küfr edib-etməməsi barədə ixtilaf etmişlər. Səhih olan odur ki, bunu edən kafir olmur. Şəhadət və namaz istisna olmaqla, İslamın rüknlərindən hər hansı birini tərk edən kafir olmur.

**"Oruc tutmaq sizə vacib edildi",** yəni fərz buyuruldu.

**"Sizdən əvvəlkilərə vacib edildiyi kimi",** yəni sizdən əvvəlki ümmətlərə də fərz buyuruldu ki, bəlkə qorxasınız. Uca Allah orucun bizdən öncəkilərə fərz buyurulmasını qeyd edir. Namazda isə bunun bənzərini qeyd edir. Çünki oruc tutmaq məşəqqətli, yorucu və adət edilənі tərk etməkdir. Məlum məsələdir ki, uzun və isti günlərdə oruc tutmaq nəfslərə

ağır gəlir. Bununla belə, Uca Allah bizdən əvvəlkilərə də orucu fərz etdiyini bizlərə bildirir ki, rahatlanaq. Çünki insan bildikdə ki, bu həm ona, həm də başqalarına buyurulub, həmin iş ona asan gəlir. Uca Allah bunu da bəyan edir ki, bütün fəzilətli əməlləri bizim üçün birləşdirib. Bizdən öncəki ümmətlərə də dilədiyi qədər fəzilətləri kamilləşdirmişdir.

**"Bəlkə qorxasınız",** yəni Allahdan qorxmağınız üçün. Çünki oruc qalxandır – insanı günahlardan və Cəhənnəm odundan qoruyur. Kim Ramazanı imanla, hesabını Allahdan diləyərək tutarsa, keçmiş günahları bağışlanar. "Bəlkə qorxasınız" sözü də "təqva üçün" mənasındadır və elə orucun vacib olmasındakı hikmət də budur. Peyğəmbərin ﷺ hədisi də buna dəlildir: **"Kim yalan danışmağı və ona əməl etməyi, habelə cahilliyi tərk etməzsə, Allahın onun ac-susuz qalmasına ehtiyacı yoxdur".**[1] Çünki Uca Allah insanlara onların istədikləri şeyləri qadağan etməklə əzab vermək istəmir. O, insanların yalan danışmasını, ona əməl etməyini və cahilliyi tərk etmələrini istəyir.

Sonra Uca Allah buyurur: "**Müəyyən sayda olan günləri".** O bunu müddətin azlığını göstərmək üçün buyurur. Yəni oruc aylar və illərlə davam etmir, o sadəcə sayılı günlərdən ibarətdir və həmin vaxt uzun deyil.

**"Sizlərdən xəstə və ya səfərdə olanlar başqa günlərdə eyni sayda *oruc tutmalıdırlar*".** Bu da bir başqa asanlıqdır.

Birinci: Günlərin az və müəyyən sayda olması.

İkinci: Kim xəstəlik səbəbindən və ya səfərə görə oruc tutmaqda çətinlik çəkirsə, əvəzində başqa günlərdə oruc tutmalıdır: **"Buna taqəti olanlar isə"** səfərdə olmadıqda ***"buraxdıqları hər günün əvəzinə*** **bir kasıbı yedirtməklə fidyə verməlidirlər. Kim könüllü olaraq yaxşılıq etsə, bu onun üçün daha xeyirli olar".** Bu əvvəllər belə idi: Allah, oruca gücü çatanlara buyurmuşdu ki, bir nəfər yoxsulu yedirsinlər. Sədəqə versəniz, bu sizin üçün daha yaxşı olar, oruc tutmanız isə sizin üçün daha xeyirlidir. Deməli, Uca Allah əvvəllər insana seçim vermişdi ki, ya yoxsul birini yedirsin, ya da oruc tutsun. Bundan sonrakı ayə ilə isə oruc fərz buyuruldu.

**"Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir".** Yəni, əgər siz elmlisinizsə, anlayırsınızsa, bunu bilin.

---

[1] "Səhih əl-Buxari", 1770.

Bir çoxları üçün oruc tutmaq yoxsulu yedirməkdən daha çətindir. Daha çətin olduğu üçün də onun daha əfzəl olduğu bilinir. Çünki insan Allahın əmri ilə çətin bir əməl edərsə, onun əcri böyük olur. Buna görə də məsciddən uzaqda olanın savabı məscidə yaxın olanın savabından daha çoxdur. Çünki bu zaman daha çox iş görülür. Lakin bu o demək deyil ki, insan Allahın asanlaşdırdığı ibadətlərdə özünə çətinlik axtarmalıdır. Bu, dində xırdalığa varmaq hesab olunur. Yox, əgər Allah səni ibadətlə mükəlləf etsə, bu da sənə çətin olarsa, onun savabı daha böyük olar. Lakin özün-özünə çətinlik axtarmağın düzgün deyil. Necə ki, məsələn, bəzi cahillər qış vaxtı soyuq su ilə dəstəmaz alır və deyirlər ki, çətin vaxtlarda dəstəmaz almaq Allahın insanın dərəcələrini artırmasına və günahları silməsinə səbəblərdəndir. Biz deyirik: "Ay qardaş, Rəsulullah ﷺ bunu demək istəməyib. O demək istəyib ki, *imkan olmadıqda* qış vaxtı soyuq su ilə dəstəmaz almağın savabı daha böyükdür. Deməyib ki, get və soyuq su axtar. Əgər Allah sənə isti su nəsib edibsə, sən də onunla dəstəmaz alsan, bu daha əfzəldir".

**"Kim xəstə olarsa".** Alimlər xəstəliyi üç qismə bölmüşlər:

Birinci qisim, sağalmaz xəstəlik. Buna davamlı xəstəlik də deyilir. Beləsi oruc tutmur və hər gün bir yoxsulu yedirir. Oruc tutmağa taqəti olmayan yaşlı və aciz adam da bunun kimidir.

İkinci qisim, orucun zərər verə biləcəyi xəstəlik. Ehtiyat edilir ki, onunla həlak olar. Məsələn, bəzi şəkər xəstələri və ya buna bənzər başqa xəstəlikləri olanlara oruc tutması haramdır. Uca Allah buyurur: **"Özünüzü öldürməyin, şübhəsiz ki, Allah sizə qarşı rəhmlidir".**[1]

Üçüncü qisim, daşıyıcısına oruc tutmaq çətin olan, lakin zərərli olmayan xəstəliklər. Bu zaman daha əfzəl olan oruc tutmamaqdır. Sonradan isə bunun qəzasını tutur. Oruca təsiri olmayan yaşlılıq və ya yüngül gözdəymə kimi xəstəliklərə gəlincə isə, buna görə orucu pozmaq olmaz. Çünki rüxsətdə məqsəd məşəqqətin aradan qaldırılmasıdır. Burada isə mütləq şəkildə məşəqqət yoxdur. Əslində, orucu vaxtında tutmaq halaldır. Yalnız aydın bir dəlil olarsa ki, insan oruc tutmaya bilər, bu zaman o sonradan onun qəzasını tutmalıdır.

[1] "ən-Nisa" surəsi, 29.

Səfərə gəlincə isə, səfərlə bağlı oruc üç qisimdir:

Birinci qisim. Bu qismə oruc tutmaq zərər edir və ona səfərdə olduğu üçün oruc tutmaq çətin gəlir. Məsələn, isti və ya uzun günlərdə səfər etmiş birisi bilir ki, oruc tutsa, onun üçün çox çətin olacaq. Beləsi oruc tutarsa, asi olar. Buna dəlil bu hədisdir: "Peyğəmbərə ﷺ şikayət edirlər ki, səfərdə olarkən oruc tutmaq insanlara çətin gəlir. Peyğəmbər ﷺ də su gətirdib onu içir. İnsanlar da bu zaman ona baxırdılar". O belə etdi ki, insanlar orucu pozmaqdan ötrü sıxılmasınlar. Bu da əsr namazından sonra idi. Bununla belə, səhabələrdən bəziləri oruclarına davam etdi. Peyğəmbərə ﷺ dedilər ki, bəziləri hələ də oruc tutur. O da dedi: **"Onlar asidirlər, onlar asidirlər".** Beləcə o onları asiliklə vəsf etdi. Çünki onlar özləri üçün çətin olmasına baxmayaraq, Allahın rüxsətini qəbul etməmişdilər.

İkinci qisim. Oruc tutan üçün çətinlik var, ancaq dözmək mümkündür. Bu zaman dözmək mümkün olsa da, beləsinin oruc tutması məkruhdur, yəni onun oruc tutması məqsədəuyğun deyil. Buna dəlil bu hədisdir: "Bir dəfə Peyğəmbər ﷺ səfərdə ikən bir izdiham görür – görür ki, insanlar birinin ətrafında toplaşıblar. Ona nə olmasını soruşanda, dedilər ki, oruc tutub. O buyurdu: **"Səfərdə olarkən oruc tutmaq yaxşı iş deyil"**.[1]

Üçüncü qisim. Oruclu ikən səfərdə heç təsirlənməyən kəs. Yəni oruc tutması ona pis təsir etmir. Çünki gündüz qısa, hava isə soyuqdur. Oruc tutmaq da çətin deyil. Alimlər beləsi barədə ixtilaf etmişlər ki, onun üçün hansı daha yaxşıdır: oruc tutmaq, tutmamaq, yoxsa onların arasında seçim etmək? Səhih olan odur ki, oruc tutması daha əfzəldir. Çünki bu, Peyğəmbərin ﷺ sünnəsinə daha uyğundur. Bu həm də mükəlləf olan kəs üçün də asandır. Məlum olduğu kimi, insanlarla oruc tutmaq onu qəza etməkdən daha əfzəldir. Həmçinin boyunda olan yükün boşaldılması üçün də bu daha məqsədəuyğundur. Çünki həmin adam daha əfzəl zamanda, yəni Ramazan ayında oruc tutmuş olur. Bu dörd səbəbə görə oruc tutmaq daha əfzəldir.

Əbu Dərda demişdir: "Biz Peyğəmbərlə ﷺ birlikdə isti bir gündə səfərə çıxmışdıq. Adamlar istidən əlini başına qoyurdu. Peyğəmbər ﷺ və Abdullah ibn Ravahadan savayı aramızda oruc tutan yox idi".[2]

---

[1] "Səhih əl-Buxari", 1810; "Səhih Muslim", 644.

[2] "Səhih əl-Buxari", 1945; "Səhih Muslim", 1122.

Bu səfərdə olan orucun hökmüdür. Səfər ümumidir, istər ümrə səfəri edən olsun, istərsə də başqa məqsədlə. Davamlı səfər edən olsun, yaxud aradabir. Buna əsasən də icarə maşınları, həmçinin yük avtomobilləri ilə səfərə çıxanlar davamlı şəkildə səfərdə olsalar belə, oruclarını açırlar. Çünki onların vətəni var və onlar səfərdən sonra ora qayıdırlar. Bu vətəni tərk etdikdə isə onlar müsafir sayılırlar. Birdən kimsə desə ki, bəs daim səfərdə olanlar nə zaman oruc tutsunlar? Deyirik: "Qış günlərində oruc tutsunlar, bu onlar üçün daha asandır. Yaxud Ramazan ayında öz vətənlərinə qayıtsalar, oruc tutmalıdırlar. Çünki artıq onlar səfərdə deyillər. Müvəffəq edən Allahdır.

**Mövzu ilə əlaqəli hədislər:**

١٢١٥– وَعنْ أَبي هُريرة ﷺ، قال: قال رسُولُ اللَّهِ ﷺ: « قال الله عَزَّ وجلَّ: كُلُّ عملِ ابْنِ آدم لهُ إِلاَّ الصِّيام، فَإِنَّهُ لي وأَنَا أَجْزِي بِهِ. والصِّيام جُنَّةٌ فَإِذا كَانَ يوْمُ صوْمِ أَحدِكُمْ فلا يرْفُثْ ولا يَصْخَبْ، فَإِنْ سابَّهُ أَحدٌ أَوْ قاتلَهُ، فَلْيقُلْ: إِنِّي صَائمٌ. والَّذِي نَفْس محَمَّدٍ بِيدِهِ لَخُلُوفُ فَمِ الصَّائمِ أَطْيبُ عِنْد اللَّهِ مِنْ رِيحِ المِسْكِ.

للصَّائمِ فَرْحَتَانِ يفْرحُهما: إِذا أَفْطرَ فَرِحَ بفِطْرِهِ، وإِذَا لَقِي ربَّهُ فرِح بِصوْمِهِ » متفقٌ عليه.

وهذا لفظ روايةِ الْبُخَارِي. وفي رواية له: « يتْرُكُ طَعامَهُ، وَشَرابَهُ، وشَهْوتَهُ، مِنْ أَجْلي، الصِّيامُ لي وأَنا أَجْزِي بِهِ، والحسنَةُ بِعَشْرِ أَمْثَالِهَا ».

وفي رواية لمسلم: « كُلُّ عَملِ ابنِ آدَمَ يُضَاعفُ الحسَنَةُ بِعشْر أَمْثَالِهَا إِلى سَبْعمِائة ضِعْفٍ. قال الله تعالى: « إِلاَّ الصَّوْمَ فَإِنَّهُ لِي وأَنا أَجْزي بِهِ: يدعُ شَهْوتَهُ وَطَعامَهُ مِنْ أَجْلي. لِلصَّائم فَرْحتَانِ:فرحة عند فطره، فَرْحةٌ عِنْدَ لقَاء رَبِّهِ. ولَخُلُوفُ فيهِ أَطْيَبُ عِنْدَ اللَّهِ مِنْ رِيحِ المِسْكِ».

**1215.** Əbu Hureyradan ﷺ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: «**İzzət və cəlal sahibi Allah buyurur: "Orucdan başqa Adəm övladının hər bir əməli onundur. O Mənimdir, onun mükafatını Mən verirəm". Oruc qalxandır. Biriniz oruc tutduqda qəzəblənib özündən çıxmasın. Birisi onu söymüş olarsa, desin ki: "Mən orucam". Muhəmmədin**

**canı əlində olan Allaha and olsun ki, oruc tutanın ağzından gələn qoxu Allah yanında müşk qoxusundan daha gözəldir.**

**Oruc tutan adam iki dəfə sevinir: iftar açdıqda iftarına görə, bir də Rəbbi ilə görüşdükdə orucuna görə».**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Bu ləfz Buxariyə məxsusdur. Onun başqa bir ləfzində isə deyilir: **"O yeməyini, içməyini, şəhvətini Mənim üçün tərk edir. Oruc mənə məxsusdur və onun əvəzini Mən verirəm. Bir yaxşı iş on savaba bərabərdir"**.[2]

Muslimin rəvayəti isə belədir: «**Adəm övladının bütün əməlləri qat-qat artırılır. Yaxşılıq on savabdır və yeddi yüzə qədər artırılır. Uca Allah buyurur: "Yalnız orucdan başqa, o Mənimdir və onun mükafatını Mən verirəm. O yeməyini və şəhvətini mənə görə tərk edir". Oruc tutan iki dəfə sevinir: iftar vaxtında, bir də Rəbbi ilə görüşdükdə. Oruc tutanın ağız qoxusu Allah yanında müşk qoxusundan daha gözəldir».**[3]

**Şərh:**

Müəllifin ﷺ **"Ramazan orucunun vacibliyi..."** fəslində ayələrdən sonra gətirdiyi bu hədis Əbu Hureyradan رضي الله عنه nəql olunmuşdur.

Burada bəzi faydalar vardır:

**Birinci fayda:** Uca və Nöqsansız Allah orucu Özü üçün zikr etmiş, Adəm oğlunun orucdan başqa əməllərini isə onun üçün qeyd etmişdir. Uca Allah buyurur: **"Orucdan başqa Adəm övladının hər bir əməli onundur. O Mənimdir".**

Mənası: Uca və Nöqsansız Allah orucu digər əməllərdən fərqləndirmişdir. Çünki oruc ən ixlaslı əməllərdən biridir. Belə ki, o insanla Rəbbi arasında bir sirdir. Çünki insanın oruc tutub-tutmaması bilinmir. O, insanlarla gedib-gəlir, iş görür, lakin onun haqqında heç kim bilmir – niyyəti batində olur. Ona görə də orucda ixlas daha böyük olur. Allah da onu başqa əməllərdən xüsusiləşdirmişdir.

---

[1] "Səhih əl-Buxari", 1771; "Səhih Muslim", 1151.

[2] "Səhih əl-Buxari", 1761.

[3] "Səhih Muslim", 1945.

Bəzi alimlər belə məna vermişlər: “Qiyamət günü insanın başqalarının haqqına girmiş olduğu məlum olarsa, *hesablaşma əvəzi olaraq* insanın savablarından götürülüb haqq sahibi olan həmin adamlara veriləcək. Bu zaman yalnız oruc istisnadır – ondan heç bir şey götürülməyəcək. Çünki o, insana deyil, izzət və cəlal sahibi Allaha məxsusdur”.

Bu yaxşı açıqlamadır: insan başqasına zülm etmişdirsə, onun savablarından götürülən zaman orucdan götürülüb başqalarına verilməyəcəkdir.

**İkinci fayda:** Adəm oğlunun yaxşı əməllərinin savab əvəzi birə ondur, yəni edilən yaxşı bir əməlin savabı on savab mislindədir. Yalnız orucdan başqa – onun mükafatı saysız-hesabsız verilir, yəni qat-qat artırılır.

Elm əhli demişlər: Çünki oruc səbirin üç növünə şamil olunur. Orada həm Allaha itaətə səbir, həm Allaha qarşı günah etməməyə səbir, həm də Allahın qədərinə səbir vardır.

Allaha itaətə səbir etməyə gəlincə, insan bəzən istəmədən oruc tutmağa səbir edir. Əslində o məşəqqətinə görə onu tutmaq istəmir, ancaq ona görə yox ki, Allah onu fərz edib. Əgər insan orucu Allahın onu fərz etdiyinə görə tutmaq istəməzsə, əməlləri batil olar. O orucu sadəcə çətin olmasına görə tutmaq istəmir. Lakin buna rəğmən səbir edir. İzzət və cəlal sahibi Allah üçün yemək-içmək və nikahdan imtina edir. Uca Allah qüdsi bir hədisdə buyurur: **“Yeməyini, içməyini və şəhvətini Mənə görə tərk edir”**.

Allaha asi olmamağa səbir etmək isə oruc tutanda olur. Belə ki, o, izzət və cəlal sahibi Allaha qarşı asi olmamaq üçün səbir edir. Boş-boş danışıqdan, günahlardan, cahillikdən, yalandan və başqa haram işlərdən uzaq durur.

Allahın qədərinə səbir etməyə gəlincə, adətən insan oruclu ikən, əlǝlxüsus da yayın uzun və isti günlərində tənbəllik, halsızlıq və susuzluqla üzləşir, bundan əziyyət çəkir. Lakin Allahın razılığını qazanmaqdan ötrü bunlara səbir edir.

Səbirin bu üç növünə şamil olunduğu üçün də orucun mükafatı saysız-hesabsızdır. Uca Allah buyurur: **“Yalnız səbir edənlərə mükafatları hesabsız veriləcəkdir”.**[1]

---

[1] “əz-Zumər” surəsi, 10.

**Üçüncü fayda:** Bu hədisin şamil olunduğu daha bir fayda odur ki, oruc tutan kəs iki dəfə sevinir: biri iftar vaxtı iftar açarkən, biri də Rəbbi ilə görüşdükdə tutduğu oruca görə. İftar vaxtı iki yöndən sevinir:

Birincisi: Allahın fərzlərindən birini yerinə yetirdiyinə görə. Allah bunu ona bəxş etmişdir. Nə qədər insanlar vardır ki, məzarda bircə gün oruc tutmağı təmənna edir, lakin bunu edə bilmirlər. Bu adama isə Allah oruc tutmağa imkan verib, o da tutub. Bu isə nemətdir. Nə qədər insanlar vardır ki, oruca başlayıb, ancaq onu bitirə bilməyib. Orucu bitirib iftar açan sevinir ki, Allahın fərzlərindən birini yerinə yetirib.

İkincisi: Oruc tutan iftarda bir də ona sevinir ki, Allah ona təbiətinə uyğun olanı – yemək-içmək və şəhvəti halal edir. Bundan bir qədər öncə isə bunlar ona qadağan idi.

Xülasə, bunlar iftardakı iki sevincdir: 1) Allah ona bu fərzi bitirməyi nəsib edib; 2) Allah onun sevdiyi yemək-içməyi və şəhvəti ona halal edir.

**Dördüncü fayda:** Bu hədisin daha bir faydası orucun faydalarına və orucun fərz olunmasındakı hikmətə işarədir. Belə ki, Peyğəmbər ﷺ demişdir: **"Biriniz oruc tutduqda günah işlər görməsin və deməsin".** Yəni günah sözlər deməsin, hirslənib kobud sözlər işlətməsin. Əksinə, vüqarlı və təmkinli olsun. Əgər biri onu söyüb təhqir edərsə, ona səsini qaldırmasın. Desin ki: "Mən orucam". Bunu belə deyir ki, ona hirslənib söyməsin. Sanki deyir ki, mən də səni söyə bilərəm, lakin oruc mənə mane olur ki, sənə cavab verim. Buna görə də onu ucadan deyir.

"Mən orucam" deməklə o həm də özünü onu söyənlə qarşılaşmaqdan çəkindirir. Sanki özü-özünə deyir ki: "Mən orucam, bu söyənə cavab verməməliyəm". Bu da böyük və əzəmətli bir mənadır. Buna görə də Peyğəmbər ﷺ nəfsinin dünyadan xoşladığı bir şeyə bağlanmasından qorxduqda deyərdi: **"Mən hüzurundayam, Axirət həyatından başqa həyat yoxdur".**[1] Dünya həyatı isə müvəqqəti və fanidir.

Bunlar orucun faydalarındandır.

Bu hədisdə hədisin iki növü vardır: izzət və cəlal sahibi Allahın kəlamından hesab olunan qüdsi hədis – onu Peyğəmbər ﷺ öz Rəbbindən rəvayət edir, bir də Peyğəmbərin ﷺ öz sözləri. Daha doğrusunu Allah bilir.

---

[1] "Səhih əl-Buxari", 3511; "Səhih Muslim", 3366.

١٢١٦– وعنهُ أَنَّ رسولَ اللَّهِ ﷺ قالَ: « مَنْ أَنْفَقَ زَوْجَين في سَبِيلِ اللَّهِ نُودِيَ مِنْ أَبْواب الجَنَّةِ: يَا عَبْدَ اللَّهِ هذا خَيْرٌ، فَمَنْ كَان مِنْ أَهْلِ الصَلاةِ دُعِي من بابِ الصَّلاةِ، ومَنْ كانَ مِنْ أَهْلِ الجِهَادِ دُعِي مِنْ باب الجِهَادِ، ومَنْ كَانَ مِنْ أَهْل الصِّيامِ دُعِيَ مِنْ باب الرَّيَّانِ ومنْ كَانَ مِنْ أَهْل الصَّدقَة دُعِي مِنْ باب الصَّدقَةِ » قال أبو بكرٍ رضي الله عنه: بأَبي أَنت وأُمِّي يا رسولَ اللَّه ما عَلى مَنْ دُعِي مِنْ تِلكَ الأَبْوابِ مِنْ ضَرُورةٍ، فهلْ يُدْعى أَحدٌ مِنْ تلك الأَبْوابِ كلِّها؟ قال: « نَعَم وَأَرْجُو أَنْ تكُونَ مِنهم » متفقٌ عليه.

**1216.** Yenə Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim Allah yolunda bir cüt sərf edərsə, Cənnət qapılarından çağırılar: "Ey Allahın qulu, bu xeyirdir". Kim namaz əhlindən olarsa, Namaz qapısından çağırılar. Kim cihad əhlindən olarsa, Cihad qapısından çağırılar. Kim oruc əhlindən olarsa, ər-Rəyyan qapısından çağırılar. Kim sədəqə əhlindən olarsa, Sədəqə qapısından çağırılar".** Əbu Bəkr soruşdu: "Atam-anam sənə fəda olsun, ey Allahın elçisi, həmin qapıdan çağırılanlara zərurət yoxdur. Bəs bütün o qapılardan çağırılanlar olacaqmı?" Dedi: **"Bəli, ümid edirəm ki, sən də onlardan olacaqsan".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٢١٧– وعن سهلِ بنِ سعدٍ رضي الله عنه عن النَّبِيِّ ﷺ قال: « إنَّ فِي الجَنَّة باباً يُقَالُ لَهُ: الرَّيَّانُ، يدْخُلُ مِنْهُ الصَّائمونَ يومَ القِيامةِ، لا يدخلُ مِنه أَحدٌ غَيرهُم، يقالُ: أَينَ الصَّائمُونَ؟ فَيقومونَ لا يدخلُ مِنهُ أَحَدٌ غيرهم، فإِذا دَخَلوا أُغلِقَ فَلَم يدخلْ مِنْهُ أَحَدٌ» متفقٌ عليه.

**1217.** Səhl ibn Səddən رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Cənnətin Rəyyan adlı qapısı vardır. Qiyamət günü həmin qapıdan oruc tutanlar daxil olacaqlar. Onlardan savayı heç kim oradan daxil olmayacaq. "Oruc tutanlar haradadır?" deyiləndə onlar qalxacaq və onlardan savayı heç kim oradan daxil olmayacaq. Onlar daxil olduqdan sonra qapı bağlanacaq və başqa heç kim oradan daxil olmayacaq".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "Səhih əl-Buxari", 3511; "Səhih Muslim", 3366.
[2] "Səhih əl-Buxari", 1763; "Səhih Muslim", 1947.

١٢١٨– وعَنْ أَبي سَعيدٍ الخُدْريِّ ﷺ قال: قالَ رسولُ اللَّهِ: « مَا مِنْ عبْدٍ يصُومُ يَوماً في سبِيلِ اللَّه إِلاَّ باعَدَ اللَّه بِذلك اليَومِ وجهَهُ عَن النَّارِ سبعينَ خرِيفاً » متفقٌ عليه.

**1218.** Əbu Səid əl-Xudridən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Allah yolunda oruc tutan elə bir qul yoxdur ki, həmin günə görə Allah onun üzünü oddan yetmiş illik məsafə qədər uzaqlaşdırmış olmasın".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٢١٩– وعـنْ أَبـي هُرَيـرةَ ﷺ ، عـن النَّبِـيِّ ﷺ قـالَ: « مَـنْ صَـامَ رَمَضَـانَ إِيمَانـاً واحْتِساباً، غُفِرَ لَهُ ما تَقَدَّمَ مِنْ ذنْبِهِ » متفقٌ عليه.

**1219.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim Ramazan orucunu imanla, savabını Allahdan umaraq tutarsa, Allah onun keçmiş günahlarını bağışlayar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

**Şərh:**

Müəllifin ﷺ qeyd etdiyi bu hədislər orucun fəzilətinə dəlalət edir. Həmin hədislərdən birində Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim Allah yolunda bir cüt sərf edərsə...".**

"Kim iki cüt sərf edərsə", yəni iki növ xərcləyərsə. Məsələn, dinarla dirhəm və ya dirhəm və ləvazimat, yaxud at və dəvə və beləcə. Uca Allah buyurur: **"Siz üç dəstəyə ayrılacaqsınız".**[3] Yəni üç qrupa.

Sonra Peyğəmbər ﷺ Cənnətin qapılarını zikr edib deyir: **«Cənnət qapılarından çağırılar: "Ey Allahın qulu, bu xeyirdir"».** Yəni mələklər hər tərəfdən onu çağırıb deyəcəklər ki, bu xeyirdir, bu xeyirdir, bu xeyirdir. Yəni onunla daxil ol. Bu da Allah yolunda mal sərf etməyin və cihad etməyin fəzilətinə dəlalət edir.

---

1 "Səhih əl-Buxari", 2628; "Səhih Muslim", 1948.
2 "Səhih əl-Buxari", 2628; "Səhih Muslim", 1153.
3 "əl-Vaqiə" surəsi, 7.

Hədisdə daha sonra deyilir ki, kim namaz əhlindən olarsa, namaz qapısından çağırılar. Sədəqə əhlindən olan Sədəqə qapısından çağırılar, oruc əhlindən olanlar isə Rəyyan qapısından çağırılar. Yəni bu xüsusi bir qapıdır və o, Rəyyan adlanır. Rəyyan, yəni sulayan. Çünki oruc tutanlar, ələlxüsus da uzun və isti yay günlərində oruc tutanlar susamış olurlar. Bu qapının da Rəyyan adlanması ilə mükafatlandırılırlar.

**"Kim namaz əhlindən olarsa, Namaz qapısından çağırılar. Kim cihad əhlindən olarsa, Cihad qapısından çağırılar. Kim oruc əhlindən olarsa, ər-Rəyyan qapısından çağırılar".** Yəni, kim bu əməlləri çox edərsə. Ancaq bu o demək deyil ki, kim namaz qılmadan oruc tutarsa, bu qapıdan daxil olar. Namaz qılmayan kəs kafir olduğu üçün ümumiyyətlə Cənnətə daxil olmaz. Burada çoxlu namaz qılan müsəlmanların Namaz qapısından çağırılacaqları nəzərdə tutulur. Həmçinin çoxlu oruc tutanlar oruc qapısından, çoxlu sədəqə verənlər də Sədəqə qapısından çağırılacaqlar. Ümumən Cənnət əhli olan kəs hər hansı bir qapıdan daxil olacaq. Cənnət qapılarının sayı səkkiz, Cəhənnəm qapılarının sayı isə yeddidir. Cəhənnəmin qapılarına gəlincə, Uca Allah Quranda bu xüsusda buyurur: **"Onun yeddi qapısı var – hər qapıdan onlardan müəyyən bir dəstə girər".**[1] Cənnət qapıları barədə isə Peyğəmbərdən ﷺ səhih rəvayətlər vardır.

Peyğəmbər ﷺ bunları söylədikdə Əbu Bəkr dedi: "Atam-anam sənə fəda olsun, ey Allahın elçisi, həmin qapıdan çağırılanlara zərurət yoxdur". Yəni bir qapıdan çağırılan kəs üçün bu çətin olmaz. "Bəs bütün qapılardan çağırılan kəs olacaqmı?" Yəni hər qapıdan mələklər çağırıb desinlər ki, ey filankəs, *bu qapıdan* gəl. Dedi: **"Bəli"**. Yəni ola bilər ki, insan çoxlu namaz, oruc, sədəqə və cihadla gəlsin: **"Bəli, ümid edirəm ki, sən də onlardan olacaqsan".**

Əbu Bəkr رضي الله عنه Cənnətin səkkiz qapısının hamısından çağırılacaqdır. Çünki o, xeyirli işlərə həris birisi idi. Hər bir xeyirli işdə onun payı vardı. Hətta bir dəfə Peyğəmbər ﷺ insanları sədəqə verməyə təşviq etdiyi zaman Ömər رضي الله عنه Peyğəmbərin ﷺ yanına gəlir. O bütün xeyirli işlərdə Əbu Bəkri üstələməyə çalışırdı. Ona həsəd aparmırdı, sadəcə xeyirli işlərdə yarışırdı. Ömər həmin vaxt mal-dövlətinin yarısını sədəqə verir. Peyğəmbərin ﷺ yanına gəldiyində görür ki, Əbu Bəkr bütün malını sədəqə verib.

[1] "əl-Hicr" surəsi, 44.

Peyğəmbər ﷺ ondan soruşur ki, ailən üçün nə saxladın? O da deyir ki, onlar üçün Allah və Elçisini saxladım. Bunu görən Ömər Allaha and içir ki, bundan sonra əsla onunla yarışmayacaq. Çünki Əbu Bəkr səhabələrdən ən çox xeyirə can atan, imanı ən güclü olan, Allah və Elçisini ən çox təsdiqləyən (doğrulayan) birisi idi.

Sonra müəllif رحمه الله orucun fəzilətinə dəlalət edən başqa hədisləri də qeyd edir. Onlardan sonuncusu Əbu Hureyradan رضي الله عنه nəql olunur: **"Kim Ramazan orucunu imanla, savabını Allahdan umaraq tutarsa, Allah onun keçmiş günahlarını bağışlayar".** Əgər Allaha iman gətirib, Allahın savabını umaraq tutarsa, Uca Allah onun keçmiş günahlarını bağışlayır.

١٢٢٠ – وعنهُ رضي الله عنه ، أَنَّ رسولَ اللَّهِ ﷺ قالَ: « إِذا جَاءَ رَمَضَانُ، فُتِّحَتْ أَبْوَابُ الجنَّةِ، وغُلِّقَت أَبْوَابُ النَّارِ، وصُفِّدتِ الشياطِينُ » متفقٌ عليه.

**1220.** Əbu Hureyradan رضي الله عنه rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Ramazan gəldikdə Cənnətin qapıları açılır, Cəhənnəmin qapıları bağlanır və şeytanlar zəncirlənir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٢٢١ – وعنهُ أَنَّ رسولَ اللَّهِ ﷺ قالَ: « صُومُوا لِرُؤْيَتِهِ، وَأَفْطِرُوا لِرُؤْيَتِهِ، فإِن غمي عَليكم، فَأَكْمِلُوا عِدَّةَ شَعْبانَ ثَلاثينَ » متفقٌ عليه. وهذا لفظ البخاري.

وفي روايةِ مسلم: « فَإِن غُمَّ عَليكم فَصُوموا ثَلاثِينَ يَوْماً ».

**1221.** Yenə Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Onu gördükdə oruc tutun, onu gördükdə də orucunuzu açın. Hava buludlu olarsa, Şabanın otuzuncu gününü tamamlayın".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Bu mətn Buxarinin rəvayətidir. Muslimin rəvayəti isə belədir: **"Hava buludlu olarsa, otuz gün oruc tutun"**.[3]

---

[1] "Səhih əl-Buxari", 3035; "Səhih Muslim", 1793.

[2] "Səhih əl-Buxari", 1776; "Səhih Muslim", 1796.

[3] "Səhih Muslim", 1808.

**Şərh:**

Hafiz ən-Nəvəvi ﵀ "Ramazan orucunun vacibliyi..." fəslində Əbu Hureyradan ﵁ nəql olunan hədisi qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Ramazan gəldikdə Cənnətin qapıları açılır, Cəhənnəmin qapıları bağlanır və şeytanlar zəncirlənir".**

Ramazanda bu üç şey baş verir:

Birinci: Cənnətin qapıları açılır ki, ona rəğbət bəsləyənlər itaətlərini, namazları, sədəqəni, zikri, Quran oxumağı və digər əməlləri artırsınlar.

İkinci: Cəhənnəmin qapıları bağlanır. Bu da möminlərin günahlarının azlığı (azalması) səbəbindən olur.

Üçüncü: Şeytanlar zəncirlənir. Şeytanlar, yəni qovulanlar. Bu xüsusda başqa rəvayət də vardır.

Qovulanlar Adəm övladına qarşı ən kəskin mövqedə olanlardır. [Hədisin ərəbcəsində keçən] "tasfid" sözünün mənası "zəncir" deməkdir. Yəni onların qolları zəncirlənir ki, başqa vaxt etdiklərini edə bilməsinlər.

Peyğəmbərin ﷺ xəbər verdiyi bütün bu xəbərlər haqdır. O bunları öz ümmətinə nəsihət etmək, onları xeyirə təşviq etmək və şərdən çəkindirmək üçün xəbər vermişdir.

Əbu Hureyradan ﵁ nəql olunmuş ikinci hədisdə isə deyilir: **"Onu gördükdə oruc tutun, onu gördükdə də orucunuzu açın".** Yəni Ramazan hilalını görməsilə müsəlmanlara oruc tutmaları vacibdir. Görmədikdə isə vacib deyil. Ona görə də deyir ki: **"Hava buludlu olarsa, Şabanı otuz günə tamamlayın".** Yəni hava buludlu və ya dumanlı olarsa, Şaban ayını otuz günə tamamlayın, sonra oruc tutun. Bu Buxarinin ləfzidir.

Muslimin rəvayətindəki ləfz isə belədir: **"Otuz gün oruc tutun".** Bu Şəvvalın hilalı görünmədikdə olur. Bu hədisdə Peyğəmbər ﷺ bəyan edir ki, Şaban ayının otuzuncu gecəsi hilal görünməzsə, Şaban ayı otuz günə tamamlanır. Ramazan ayının da otuzuncu gecəsi hilal görünməzsə, ay otuzuncu gün tamamlanır. Müvəffəq edən Allahdır.

# İki yüz on səkkizinci fəsil

## Yaxşılıq, yaxşı işlər görmək; Ramazan ayında, ələlxüsus da onun son on günündə xeyirli işləri çoxaltmaq

**Mövzu ilə əlaqəli hədislər:**

١٢٢٢– وعن ابنِ عباسٍ ﭫ قالَ: كَانَ رَسُولُ اللهِ، ﷺ، أَجْوَدَ النَّاسِ، وَكَانَ أَجْوَدُ مَا يَكُونُ فِي رَمَضَانَ حِينَ يَلْقَاهُ جِبْرِيلُ، وَكَانَ جِبْرِيلُ يَلْقَاهُ فِي كُلِّ لَيْلَةٍ مِنْ رَمَضَانَ فَيُدَارِسُهُ القُرْآنَ، فَلَرَسُولُ اللهِ، ﷺ، حِينَ يَلْقَاهُ جِبْرِيلُ أَجْوَدُ بِالخَيْرِ مِنَ الرِّيحِ المُرْسَلَةِ «متفقٌ عليه.

**1222.** İbn Abbasdan ﭫ rəvayət olunur ki, Peyğəmbər ﷺ insanların ən səxavətlisi idi. Ən çox da Ramazanda – Cəbrail ﵇ onunla görüşdükdə səxavətli olurdu. Ramazanın hər gecəsində Cəbrail onunla görüşür, ona Quranı oxuyurdu. Cəbraillə görüşdükdə Peyğəmbər ﷺ əsən küləkdən daha səxavətli olurdu".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٢٢٣– وَعَنْ عَائِشَةَ ﭫ قَالَتْ: « كَانَ رَسُولُ اللهِ، ﷺ، إِذَا دَخَلَ العَشْرُ أَحْيَى اللَّيْلَ، وَأَيْقَظَ أَهْلَهُ، وَشَدَّ المِئْزَرَ » متفقٌ عليه.

**1223.** Rəvayət olunur ki, Aişə ﭫ demişdir: "Ramazan ayının son on günü daxil olduqda gecəni qalxar, ailəsini qaldırar, kəmərini də bərk bağlayardı".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

**Şərh:**

Müəllif ﬀ "**Yaxşılıq, yaxşı işlər görmək; Ramazan ayında, ələlxüsus da onun son on günündə xeyirli işləri çoxaltmaq**" fəslini qeyd edir.

Yaxşılıq, maldan və ya əməldən sevilən şeyi xərcləməyə deyilir. İnsan malının yaxşısı ilə kasıba əl tutur, varlıya hədiyyə verir, möhtaca dəstək olur. Həmçinin əməli ilə də yaxşılıq edir. Başqasına işlərində, miniyində,

---

[1] "Səhih əl-Buxari", 5; "Səhih Muslim", 4268.

[2] "Səhih əl-Buxari", 1884; "Səhih Muslim", 2008.

dükanında, evində yardım edir. Yaxşılıq, malı və ya əməli sərf etməkdir. Ola bilsin, şöhrəti bölüşmək də buna aid olsun – birinə mənfəət gətirməkdə və ya zərəri uzaqlaşdırmaqda yardım, yaxud vasitəçilik etsin.

İbn Abbasın رضي الله عنه da dediyi kimi, Peyğəmbər ﷺ insanların ən səxavətlisi idi. O, malı, bədəni, dəvəti, nəsihəti və məxluqata verilən faydaları ilə ən səxavətli insan idi. Ramazan ayında isə o daha da səxavətli olurdu. Çünki Ramazan səxavət ayıdır. Allah qullarına qarşı həmin ayda səxavətli olur. Müvəffəq olmuş bəndələr də başqalarına yaxşılıq edirlər.

Cəbrail عليه السلام hər Ramazanda Peyğəmbərin ﷺ yanına enir, ona Quranı öyrədirdi ki, qəlbində onu sabit etsin. Həmçinin öyrədirdi ki, onunla Cəbrail arasındakı tədrislə savab tam olsun. Cəbrail də bizim bilmədiyimiz bir tərzdə enirdi. Çünki o, mələklərdən biridir. Mələklər isə izzət və cəlal sahibi Allahın istəmədiyi təqdirdə görünmürlər.

Cəbrail ona Quran öyrədərkən Rəsulullah ﷺ insanların ən səxavətlisi olurdu. Sanki əsən küləyə bənzəyərdi. Yəni o, xeyirli işlərə tələsərdi, yaxşılıq edərdi. Hətta əsən küləkdən də sürətli olardı. Yəni izzət və cəlal sahibi Allahın göndərdiyi külək olduqca sürətli olur, Peyğəmbər Ramazan ayında həmin küləkdən daha sürətli olurdu.

Sonra müəllif Aişənin رضي الله عنها hədisini qeyd edir: "Ramazan ayının son on günü daxil olduqda gecəni qalxar, ailəsini qadırar, kəmərini də bərk bağlayardı".

"Gecəni qalxardı", yəni zikr edər, Quran oxuyar, namaz qılar, ibadət edərdi. "Ailəsini qaldırardı" – onları oyadardı ki, qalxıb namaz qılsınlar. "Kəmərini bərk bağlayardı", yəni özünü əmələ həsr edərdi. Çünki kəməri bərk bağlamaq iş görmək istədikdə olur. Bəzi alimlər isə burada *onun bu günlərdə* qadınlarla yaxınlıqdan çəkindiyinə işarə edildiyini demişlər. Çünki o ibadətlə məşğul idi. Hər iki məna doğrudur – Peyğəmbər ﷺ Ramazanın son on gününü ibadət edər, bütün gecəni Allaha ibadətlə keçirərdi. Bu da onun nəfsinin gözəlliyindəndir. Lakin bu, izzət və cəlal sahibi Allahın haqqı barəsində səxavət hesab olunur. Allah dilədiyi kəsə bunu nəsib edir. Səni də bir əmələ müvəffəq edibsə, minnət Ona məxsusdur. Əvvəlcə sənə əməli nəsib edir, sonra da onu qəbul etməklə minnət edir. Allah bizləri və sizi sevib razı qaldığı əməllərə müvəffəq etsin.

# İki yüz on doqquzuncu fəsil

## Şabanın ortasından sonra, Ramazandan öncə oruc tutmaq. Yalnız bundan öncə adətən oruc tutanlar istisnadır – bazar ertəsi və cümə axşamı oruc tutanlar kimi

**Mövzu ilə əlaqəli hədislər:**

١٢٢٤– عن أَبي هُريرة ﷺ ، عن النبيِّ ﷺ قال: « لا يتَقَدَّمَنَّ أَحَدُكمْ رَمَضَانَ بِصَومِ يومٍ أَوْ يومَيْنِ، إِلاَّ أَن يَكونَ رَجُلٌ كَانَ يصُومُ صَوْمَهُ، فَلْيَصُمْ ذلكَ اليوْمَ» متفقٌ عليه.

**1224.** Əbu Hureyradan ﷺ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Ramazandan bir və ya iki gün öncə oruc tutmayın. Yalnız əvvəldən oruc tutan kəs istisnadır – o həmin günü oruc tuta bilər".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٢٢٥– وعن ابنِ عباسٍ، ﷺ ، قال: قالَ رسولُ اللَّهِ ﷺ: « لا تَصُومُوا قَبْلَ رَمَضَانَ، صُومُوا لِرُؤْيتِهِ، وَأَفْطِرُوا لِرُؤْيَتِهِ، فَإِنْ حالَتْ دُونَهُ غَيَايةٌ فأَكْمِلوا ثَلاثِينَ يوماً » رواه الترمذي وقال: حديث حسنٌ صحيحٌ.

« الغَيايَة » بالغين المعجمة وبالياءِ المثناةِ من تحت المكررة، وهِي: السَّحَابةُ.

**1225.** İbn Abbasdan ﷺ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Ramazandan öncə oruc tutmayın. Ayı gördükdə oruc tutun, ayı gördükdə orucu açın. Hava buludlu olduqda isə ayı otuz günə tamamlayın".**

Hədisi Tirmizi rəvayət etmiş və: "Həsən, səhih hədisdir" demişdir.[2]

[Hədisin ərəbcəsində keçən] "əl-ğayəyə" sözü "bulud" deməkdir.

١٢٢٦– وعنْ أَبي هُريْرَةَ ﷺ قال: قالَ رسولُ اللَّهِ ﷺ: « إِذا بَقِيَ نِصْفٌ مِنْ شَعْبانَ فَلا تَصُومُوا » رواه الترمذي وقال: حديثٌ حَسَنٌ صحيحٌ.

---

[1] "Səhih əl-Buxari", 1781; "Səhih Muslim", 1812.

[2] "Sunən ət-Tirmizi", 2624; "Sunən ən-Nəsai", 2101.

**1226.** Əbu Hureyradan ؓ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **“Şabandan yarım ay qaldıqda oruc tutmayın”**.

Hədisi Tirmizi rəvayət etmiş və: “Həsən, səhih hədisdir” demişdir.[1]

١٢٢٧- وَعَنْ أَبِي اليَقظَان عمارِ بنِ يَاسِرٍ رضي الله عنهما ، قال: « مَنْ صَامَ اليَومَ الَّذِي يُشكُّ فِيهِ فَقَدْ عَصَى أَبا القَاسِمِ ﷺ » رواه أبو داود، والترمذي وقال: حديثٌ حسن صحيحٌ.

**1227.** Əbul-Yəqzan Ammar ibn Yasirdən ؓ rəvayət olunur ki, o demişdir: “Kim şəkk olunan günü oruc tutarsa, Əbul-Qasimə asi olar”.

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: “Hədis həsən, səhihdir” demişdir.[2]

**Şərh:**

Müəllif ؒ **“Şabanın ortasından sonra, Ramazandan öncə oruc tutmaq. Yalnız bundan öncə adətən oruc tutanlar istisnadır – bazar ertəsi və cümə axşamı oruc tutanlar kimi**” fəslini qeyd edir və Əbu Hureyradan ؓ nəql olunan hədisi qeyd edir.

Həmin hədisdə Peyğəmbər ﷺ Ramazan ayından bir və ya iki gün öncə oruc tutmağı qadağan etmişdir. Yalnız adətən belə edənlərdən başqa. Məsələn, birisi hər həftənin birinci və dördüncü günlərini oruc tutur. Həftənin birinci günü Ramazandan öncəki günə təsadüf edərsə, tuta bilər. Yaxud hər ayın on üç, on dörd, on beşinci günlərini oruc tutarsa və həmin günlər Ramazandan bir-iki gün öncəyə təsadüf edərsə, tuta bilər. Bu da dəlalət edir ki, burada məqsəd Ramazanın daxil olmasından ehtiyat edib oruc tutmaqdır. Belə ehtiyat yolverilməzdir. Buna görə də Peyğəmbər ﷺ demişdir: **“Ayı gördükdə oruc tutun, ayı gördükdə orucu açın. Hava buludlu olduqda isə ayı otuz günə tamamlayın”.** Yəni Şaban ayını.

Alimlər bu qadağa barəsində ixtilaf etmişlər ki, belə etmək haramdır, yoxsa məkruh?! Səhih olan odur ki, bu haramdır. Xüsusən də Ammar bin Yasir şəkk günü barəsində: “Kim şəkk olunan günü oruc tutarsa, Əbul-Qasimə asi olar”– demişdir.

---

[1] “Sunən Əbu Davud”, 1990; “Sunən ət-Tirmizi”, 669.

[2] “Sunən Əbu Davud”, 1987; “Sunən ət-Tirmizi”, 622; “Sunən ən-Nəsai”, 2159; “Sunən İbn Macə”, 1635.

Buna əsasən də belə deyirik: "İnsan Ramazandan bir və ya iki gün öncə oruc tutmamalıdır. Yalnız adətən davamlı oruc tutan adam bunu edə bilər. İnsan şəkk gününü – Şaban ayının otuzuncu gününü də oruc tutmamalıdır. Əgər həmin günün buludlu və ya dumanlı olmasından dolayı ayı görmək çətin olarsa, bu hal üçün Rəsulullah ﷺ belə demişdir: **"Ayı gördükdə oruca başlayın, ayı gördükdə ayı bitirin"**.

Şaban ayının ortasından sonra orucun qadağan olmasına gəlincə, Tirmizi həmin hədis barəsində: "həsən, səhihdir" demiş olsa belə, o zəfdir. İmam Əhməd: "Hədis şazdır" demişdir. Hədis Əbu Hureyradan nəql edilmiş hədisə müxalifdir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Ramazandan bir və ya iki gün öncə oruc tutmayın".** Bu hədisdən anlaşılır ki, Ramazandan üç-dörd və ya beş gün əvvəl oruc tutmaq olar.

Hədis hətta səhih olsa belə, bu qadağa əməlin haramlığına dəlalət etmir, sadəcə bəyənilmir. Bəzi elm əhli də bunu götürmüşlər. Yalnız adətən oruc tutan kəs istisnadır – beləsi Şabanın ortasından sonra da oruc tuta bilər. Beləliklə bu oruc üç qisimdir:

Birinci: Şabanın yarısından iyirmi səkkizinci günədək. Bu məkruhdur. Yalnız adəti üzrə oruc tutanlar istisnadır. Lakin bu rəy hədisin səhih olması ilə bağlıdır. İmam Əhməd onu səhih hesab etməmişdir. Buna görə də məkruh olmur.

İkinci: Ramazandan bir və ya iki gün əvvəl. Bu haramdır. Yalnız adətən oruc tutanlar istisnadır.

Üçüncü: Şəkk günü. Bu da mütləq şəkildə haramdır. Şəkk günü oruc tutma, çünki Peyğəmbər ﷺ bunu qadağan etmişdir.

Lakin dediyim kimi, aydın olur ki, qadağa bu [əlavə] orucu Ramazana birləşdirmək istəyənlərə aiddir. Nafilə oruc tutmaq istəyənlərə isə bu ehtiyat üçün haram olur. Yəni ehtiyat edilir ki, insanlar bu adamın oruc tutmasını görüb elə zənn edərlər ki, ehtiyat üçün oruc tutmaq lazımdır. Belə ehtiyat etmək caiz deyil: **"Ayı gördükdə oruc tutun, ayı gördükdə orucunuzu açın"**. Müvəffəq edən Allahdır.

# İki yüz iyirminci fəsil

## Hilalı gördükdə nə deyilir?

**Mövzu ilə əlaqəli hədis:**

١٢٢٨– عَنْ طَلْحَةَ بنِ عُبَيْدِ اللَّهِ ﵁، أَنَّ النَّبِيَّ ﷺ كانَ إِذا رَأَى الهِلالَ قَالَ: « اللَّهُمَّ أَهِلَّهُ علَيْنَا بِالأَمْنِ والإِيمَانِ، وَالسَّلامَةِ والإِسْلامِ، رَبِّي وربُّكَ اللَّه، هِلالُ رُشْدٍ وخَيْرٍ » رواه الترمذي وقال: حديثٌ حسنٌ.

**1228.** Talhə ibn Ubeydullahdan ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ hilalı gördükdə deyərdi: **"Allahım, onu bizlərə əmin-amanlıqla, salamatlıq və islamla yetişdir. Mənim və sənin Rəbbin Allahdır. Bu gözəllik və xeyir hilalı olsun".**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[1]

---

[1] "Sunən ət-Tirmizi", 3373.

# İki yüz iyirmi birinci fəsil

## Fəcrin girməsindən qorxmadığı müddətdə səhurun və onu gecikdirməyin fəziləti

**Mövzu ilə əlaqəli hədislər:**

١٢٢٩– عنْ أَنسٍ ﷺ قال: قال رسولُ اللَّهِ ﷺ: « تَسَحَّرُوا فَإِنَّ في السُّحُورِ بَركَةً » متفقٌ عليه.

**1229.** Ənəsdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Səhur edin, şübhəsiz ki, səhurda bərəkət vardır"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٢٣٠– وعن زيدِ بن ثابتٍ ﷺ قال: تَسحَّرْنَا مَعَ رسولِ اللَّهِ ﷺ، ثُمَّ قُمْنَا إِلى الصَّلاةِ. قِيلَ: كَمْ كانَ بَيْنَهُمَا؟ قال: قَدْرُ خَمْسونَ آيةً. متفقٌ عليه.

**1230.** Rəvayət olunur ki, Zeyd ibn Sabit ﷺ demişdir: "Bir dəfə biz Rəsulullahla ﷺ birlikdə səhur edib namaza qalxdıq". Soruşdular: "Onlar arasında nə qədər vaxt var idi?" Dedi: "Əlli ayə miqdarında".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٢٣١– وَعَنِ ابنِ عُمَرَ ﷺ، قالَ: كانَ لرسول الله ﷺ مُؤَذِّنانِ: بلالٌ وَابْنُ أُمِّ مَكْتُومٍ. فَقَالَ رسولُ اللَّهِ ﷺ: « إِنَّ بلالاً يُؤَذِّنُ بِلَيْلٍ، فَكُلُوا وَاشْرَبُوا حتَّى يُؤَذِّنَ ابْنُ أُمِّ مَكْتُومٍ » قَالَ: وَلَمْ يَكُنْ بَيْنَهُمَا إِلاَّ أَنْ يَنْزِلَ هذا وَيَرْقَى هذا، متفقٌ عليه.

**1231.** İbn Ömərin ﷺ belə dediyi rəvayət olunur ki: "Rəsulullahın ﷺ iki müəzzini vardı: Bilal və İbn Ummu Məktum. Rəsulullah ﷺ dedi: **"Bilal gecə vaxtı azan verir, İbn Ummu Məktum azan verənədək yeyib-için"**. Onlar arasındakı vaxt isə birinin enib, o birinin qalxması qədər idi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] "Səhih əl-Buxari", 1789; "Səhih Muslim", 1835.

[2] "Səhih əl-Buxari", 542; "Səhih Muslim", 1837.

[3] "Səhih əl-Buxari", 587; "Səhih Muslim", 1092.

١٢٣٢– وعَنْ عمْرو بنِ العاصِ ﷺ أَنَّ رسول اللَّهِ ﷺ قال: « فَصْلُ ما بيْنَ صِيَامِنَا وَصِيامِ أَهْلِ الكتاب أَكْلَةُ السَّحَرِ ». رواه مسلم.

**1232.** Amr ibn əl-Asdan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Bizim orucla Kitab əhlinin orucu arasındakı fərq səhur yeməkdir"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllif ﷺ "**Fəcrin girməsindən qorxmadığı müddətdə səhurun və onu gecikdirməyin fəziləti**" fəslini qeyd edir. Ona ərəbcə həm "suhur", həm də "səhur" deyilir. Bu da insanın səhər vaxtı yediyi yeməyə deyilir. "Təsəhhur" isə feildir və insanın yeməyinə deyilir.

Peyğəmbər ﷺ həm sözü, həm də əməli ilə insanları səhura təşviq etmişdir. O ﷺ demişdir: **"Səhur edin, şübhəsiz ki, səhurda bərəkət vardır"**. Bunu əmr etmiş və açıqlamışdır: əmr etmişdir ki, səhur edək, bəyan etmişdir ki, səhurda bərəkət vardır. Peyğəmbərin ﷺ əmrinə tabe olmaq da səhurun bərəkətindəndir. Peyğəmbərin əmrinə tabe olmaq hər zaman xeyir, əcr və savabdır.

Onun bərəkətindən biri də ibadətə yardım etməsidir. İnsana oruc tutmaqda yardım edir – səhur edərsə, günəş batanadək bu ona kifayət edər. Baxmayaraq ki, oruc olmayan günlərdə gündüzün əvvəlində, ortasında və sonunda çoxlu yeyir və içir. Allah səhura bərəkət nazil edir. Fəcr çıxmamışdan gün batanadək bu insana kifayət edir.

Onun bərəkətindən biri də odur ki, müsəlmanlarla qeyri-müsəlmanların orucunu fərqləndirir. Buna görə də bəyan etmişdir ki, **"Bizim orucla Kitab əhlinin orucu arasındakı fərq səhur yeməkdir"**. Çünki Kitab əhli gecənin yarısından oruc tutur, növbəti gecə yarısında da yeyirlər. Səhur vaxtı isə yemək yemirlər. Müsəlmanlar isə, Allaha həmd olsun ki, gecənin sonu, səhər vaxtı yemək yeyirlər.

Şəriətdə müsəlmanlarla kafirlərin bir-birilərindən fərqlənməsi vacibdir. Buna görə də Peyğəmbər ﷺ onlara oxşamağı qadağan etmiş və belə

---

[1] "Səhih Muslim", 1836.

demişdir: **“Məcusilərə müxalif olun – saqqalınızı uzadın, bığlarınızı isə qısaldın”.**[1] Yəni saqqal saxlayın, onu qırxıb gödəltməyin.

Peyğəmbər ﷺ həmçinin demişdir: **“Kim özünü bir qövmə bənzədərsə, o da onlardandır”.**[2]

Beləliklə, səhuru sübhdən öncəyədək gecikdirmək və tezləşdirməmək lazımdır. Çünki Peyğəmbər ﷺ demişdir: **“Ümmətim iftarı tezləşdirib, səhuru gecikdirdiyi müddətdə xeyir içərisində olacaqdır”.**[3] O ﷺ həmçinin demişdir: **“Bilal gecə vaxtı azan verir, İbn Ummu Məktum azan verənədək yeyib-için. O, sübh vaxtı azan verir”.**[4]

Müəllifin ؒ qeyd etdiyi: “Onlar arasındakı vaxt isə birinin enib, o birinin qalxması qədər idi” ifadəsinə gəlincə isə, bu şazdır və səhih deyil. Çünki Peyğəmbərin ﷺ İbn Ummu Məktumun azanınadək yeyib-içməyi buyurması ona dəlildir ki, onlar (müəzzinlər) arasında yeyib-içmək üçün yetərincə zaman vardır. Bu cümlə zəif və şazdır, ona etimad olunmur.

Zeyd ibn Sabit ؓ qeyd etmişdir ki, o Peyğəmbərlə ﷺ birlikdə səhur edib namaza qalxmışdı. Onların arasında əlli ayəlik bir vaxt var idi. Əlli ayəni aramla oxuyan onu on-on beş dəqiqəyə oxumuş olar. Bu da dəlildir ki, Peyğəmbər ﷺ səhuru olduqca gecikdirərdi. Sübh namazını isə gecikdirməzdi.

Daha sonra, səhur edən insan gərək Allah və rəsulunun əmrinə tabe olduğunu düşünsün. Kitab əhlinə müxalif olsun deyə, onların etdiklərinin əksinə, səhur etsin. Bu səhurdan bərəkət diləyərək onu etsin. Allaha itaətə yardım olsun deyə, səhur etsin ki, onun səhuru xeyir, bərəkət və itaət olsun. Müvəffəq edən Allahdır.

---

[1] Mənbə daha öncə qeyd edilmişdir.
[2] “Musnəd İmam Əhməd”, 2/50; “Sunən Əbu Davud”, 3512.
[3] “Musnəd İmam Əhməd”, 5/147.
[4] “Səhih əl-Buxari”, 1785; “Səhih Muslim”, 1829.

# İki yüz iyirmi ikinci fəsil

## İftarı tezləşdirməyin fəziləti, nə ilə iftar etmək və iftardan sonra nə deyilir

**Mövzu ilə əlaqəli hədislər:**

١٢٣٣– عَنْ سَهْلِ بنِ سَعْدٍ ﵁، أَنَّ رسُولَ اللَّهِ ﷺ قَالَ: « لا يَزالُ النَّاسُ بخَيْرٍ مَا عَجلوا الفِطْرَ » متفقٌ عليه.

**1233.** Səhl ibn Səddən ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"İnsanlar iftarı tezləşdirdikləri müddətdə xeyir içərisində olacaqlar"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٢٣٤– وعن أَبي عَطِيَّةَ قَالَ: دخَلتُ أَنَا ومسْرُوقٌ على عائشَةَ ﵂ فقَالَ لهَا مَسْرُوقٌ: رَجُلانِ منْ أَصْحَابِ مُحَمَّدٍ ﷺ كلاهُمَا لا يَأْلُو عَنِ الخَيْرِ: أَحَدُهُمَا يُعَجِّلُ المغْربَ والإِفْطَارَ، والآخَرُ يُؤَخِّرُ المغْرِبَ والإِفْطَارَ؟ فَقَالَتْ: مَنْ يُعَجِّلُ المَغْربَ وَالإِفْطَارَ؟ قالَ: عَبْدُ اللَّه يعني ابنَ مَسْعودٍ فَقَالَتْ: هكَذَا كَانَ رَسُولُ اللَّهِ ﷺ، يصْنَعُ. رواه مسلم.

قوله: « لا يَأْلُوا » أَيْ لا يُقَصِّرُ فِي الخَيْرِ.

**1234.** Əbu Atiyyə ﵁ demişdir: «Bir dəfə mən Məsruqla birlikdə Aişənin ﵂ yanına daxil olduq. Məsruq ona dedi: "Muhəmmədin səhabələrindən iki nəfər var, hər ikisi xeyir üzərindədir. Onlardan biri məğribi və iftarı tezləşdirir, digəri isə məğribi və iftarı gecikdirir". O dedi: "İftarı və məğribi tezləşdirən kimdir?" Dedi: "Abdullah – yəni ibn Məsud". Aişə ﵂ dedi: "Rəsulullah da belə edərdi".

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

[Hədisin ərəbcəsində keçən] "lə yəlu", "xeyirli işlərdən qalmırdı" mənasındadır.

---

[1] "Səhih əl-Buxari", 1821; "Səhih Muslim", 1838.

[2] "Səhih Muslim", 1840.

١٢٣٥– وَعَنْ أَبي هُرِيرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ، قَال اللَّه عَزَّ وَجَلَّ: { أَحَبُّ عِبَادِي إِلَيَّ أَعْجَلُهُمْ فِطْراً } رواه الترمذي وقال: حَديثٌ حسنٌ.

**1235.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: «**İzzət və cəlal sahibi Allah buyurur: "Qullarımdan mənə ən sevimli olanları iftarı ən tez edənlərdir"**».

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[1]

١٢٣٦– وَعنْ عُمر بنِ الخَطَّابِ ﷺ، قالَ: قال رَسولُ اللَّه ﷺ: « إِذا أَقْبَلَ اللَّيْلُ مِنْ هٰهُنَا وأَدْبَرَ النَّهَارُ مِنْ هٰهُنا، وغَرَبتِ الشَّمسُ، فَقَدْ أَفْطَرَ الصائمُ » متفقٌ عليه.

**1236.** Ömər ibn əl-Xəttab ﷺ demişdir: "Rəsulullah ﷺ demişdir: **"Gecə buradan daxil olduqda, gündüz də buradan çıxdıqda, günəş də batdıqda oruc tutan iftarını açar"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٢٣٧– وَعَنْ أَبي إِبراهيمَ عبدِ اللَّهِ بنِ أَبي أَوْفى ﷺ، قَالَ: سِرْنَا مَعَ رسولِ اللَّهِ ﷺ، وَهُوَ صائمٌ، فَلَمَّا غَربتِ الشَّمسُ، قَالَ لِبْعضِ الْقَوْمِ: « يَا فُلانُ انْزِلْ فَاجْدحْ لَنا، فَقَالَ: يا رَسُول اللَّهِ لَوْ أَمْسَيتَ؟ قالَ: « انزِلْ فَاجْدَحْ لَنَا » قالَ: إِنَّ علَيْكَ نَهاراً، قال: « انْزلْ فَاجْدَحْ لَنَا » قَالَ: فَنَزَلَ فَجَدَحَ لَهُمْ فَشَرِبَ رسُولُ اللَّه ﷺ، ثُمَّ قَالَ: « إِذا رَأَيْتُمُ اللَّيْلَ قَدْ أَقْبَلَ مِنْ هٰهُنَا، فَقَدْ أَفْطَرَ الصَائمُ » وأَشارَ بِيَدِهِ قِبَلَ المَشْرِقِ. متفقٌ عليه.

قوله: « اجْدَحْ » بجيم ثُمَّ دال ثم حاء مهملتين، أَي: اخْلِطِ السَّوِيقَ بالماءِ.

**1237.** Əbu İbrahim Abdullah ibn Əbu Əufədən ﷺ rəvayət olunur ki, o demişdir: "Bir dəfə Rəsulullah ﷺ oruclu ikən onunla gedirdik. Günəş batdıqda o bəzi insanlara dedi: "**Ey filankəs, en və bizə su ver"**. Dedi: "Ey Allahın elçisi, bəlkə bir az da gözləyək?" Dedi: "**Düş və bizə su ver"**. Dedi: "Hələ gündüzdür axı". Dedi: **"Düş və bizə su ver"**. O enib su verdi və Rəsulullah ﷺ o sudan içdi, sonra da dedi: **"Gecənin buradan düşdüyünü gördüyünüzdə, oruc tutan iftarını açmalıdır"**. O [bunu deyərkən] əli ilə məşriq tərəfə işarə etdi.

---

[1] "Musnəd İmam Əhməd", 2/237; "Sunən ət-Tirmizi", 636.

[2] "Səhih əl-Buxari", 1818; "Səhih Muslim", 1841.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

[Hədisin ərəbcəsindəki] "icdəh", "suqabına su tök" mənasındadır.

١٢٣٨– وَعَنْ سَلْمَانَ بنِ عَامر الضَّبِّيِّ الصَّحَابيِّ ﷺ، عن النَّبِيِّ ﷺ قَالَ: «إِذَا أَفْطَرَ أَحَدُكُمْ، فَلْيُفْطِرْ عَلَى تَمْرٍ، فَإِنْ لَمْ يَجِدْ، فَلْيُفْطِرْ على مَاءٍ فَإِنَّه طَهُورٌ».

رواهُ أَبو دَاودَ، والترمذي وقالَ: حديثٌ حَسَنٌ صحيحٌ.

**1238.** Salman ibn Amir əd-Dabbidən  rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Biriniz iftar açdıqda xurma ilə açsın, tapa bilməsə su ilə açsın. Şübhəsiz ki, o təmizləyicidir".**[2]

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən səhih hədisdir" demişdir.

١٢٣٩– وَعَنْ أَنَسٍ ﷺ، قالَ: كانَ رَسُولُ اللَّهِ ﷺ يُفْطِرُ قَبْلَ أَنْ يُصَلِّيَ عَلى رُطَبَاتٍ، فَإِنْ لَمْ تَكُنْ رُطَبَاتٌ فَتُمَيرَاتٌ، فإِنْ لمْ تَكُنْ تُميرَاتٌ حَسَا حَسَواتٍ مِنْ ماءٍ رواه أبو داود، والترمذي وقال: حديثٌ حسنٌ.

**1239.** Rəvayət olunur ki, Ənəs  demişdir: "Rəsulullah ﷺ namaz qılmamışdan öncə yeni xurma ilə iftar edərdi. Onu tapmadıqda *iftarını* kiçik xurmalarla, onu da tapmadıqda su ilə açardı".[3]

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir" demişdir.

**Şərh:**

Müəllif  **"İftarı tezləşdirməyin fəziləti, nə ilə iftar etmək və iftardan sonra nə deyilir"** fəslini qeyd edir.

Burada üç məsələ var:

**Birinci məsələ,** iftarı tezləşdirməkdir. Burada günəşin batması şərtdir. Müəllifin qeyd etdiyi Ömər ibn əl-Xəttabdan  nəql olunan hədisdə

---

[1] "Səhih əl-Buxari", 1819; "Səhih Muslim", 1842.

[2] "Musnəd İmam Əhməd", 4/17; "Sunən Əbu Davud", 2008; "Sunən ət-Tirmizi", 594; "Sunən İbn Macə", 1689.

[3] "Sunən Əbu Davud", 2009; "Sunən ət-Tirmizi", 632.

Peyğəmbər ﷺ demişdir: **"Gecə buradan daxil olduqda, gündüz də buradan çıxdıqda, günəş də batdıqda oruc tutan iftarını açar".**

Günəş batdıqda hava hələ işıqlıdırsa və hətta üfüqdə günəşin şəfəqi olsa belə, insan iftar etməyə tələsməlidir. Əsas odur ki, günəşin dairəsi *üfüqdən tam* itmiş olsun. Bu vaxt tez iftar etmək lazımdır. Peyğəmbərin ﷺ sözdə və feildə sünnəsi budur.

Feilə gəlincə, buna dəlil Aişədən رضي الله عنها nəql olunmuş hədisdir. Atiyyə və Məsruq Rəsulullahın ﷺ iki səhabəsindən birinin iftarı tezləşdirməsi, digərinin isə gecikdirməsi xəbərini verərək hansının doğru olması barədə soruşduqda, Aişə رضي الله عنها tezləşdirənin kim olduğunu soruşur. Dedilər ki, o İbn Məsuddur. O da dedi ki, Peyğəmbər ﷺ də belə edərdi. Yəni iftarı tezləşdirməklə məğrib namazını da tezləşdirərdi. Bu, feili sünnədir və dəlildir ki, iftarı tezləşdirmək daha əfzəldir.

Sözə gəlincə, Səhl ibn Səddən رضي الله عنه rəvayət olunur ki, o demişdir: **"İnsanlar iftarı tezləşdirdikləri müddətdə xeyir içərisində olacaqlar"**.

Nə qədər ki insanlar Sünnəyə riayət etməyə və xeyirə tələsirlər, onlar xeyir içərisində olacaqlar. Yox, əgər gecikib iftar etməsələr, bu şər əməldir. Rafizilər də Peyğəmbərin ﷺ sünnəsinə müxalif olur və iftarı gecikdirərək ulduzlar görsəndikdə iftar edirlər. Bununla onlar əcr və savabdan məhrum olurlar. İnsanların yemək-içməkdən həzz almalarına mane olur, bununla da özləri həm bu dünyada əziyyət çəkirlər, həm də axirətdə. Çünki insan susamış və ya ac ikən daha çox əziyyət çəkmiş olur. Onlar iftarı gecikdirməklə həm ağrı çəkirlər, həm Sünnəyə müxalif olurlar, həm də əcrdən məhrum olurlar.

Daha sonra müəllif رحمه الله qeyd edir ki, yaxşı olar ki, yeni xurma ilə iftar edilsin, o tapılmasa quru xurma ilə, o da tapılmasa su ilə. Çünki Peyğəmbər ﷺ iftarını az saylı yaş xurma ilə açar, çox yeməzdi. Çünki iftar vaxtı çox yemək olmaz. Bu zaman mədə boş olur və çox yeməyin sənə zərər verə bilər. İftar vaxtı aramla, az-az ye. Bəzilərinin etdiyi kimi, iftar vaxtı çox yemək doğru deyil. Çünki mədə boş olur. Sağlam olmaq üçün mədəyə az bir şey ötürmək kifayətdir. Peyğəmbər ﷺ də iftarını bir neçə yaş xurma ilə, onu tapmadıqda quru xurma və ya su ilə edərdi. Deməli, iftar üçün varsa, yaş xurma, yoxdursa, quru xurma, o da yoxdursa, su ilə iftar edilməlidir.

Allaha həmd olsun ki, yaş xurmalar günümüzdə bütün fəsillərdə mövcuddur. İnsanlar yaş xurmanı soyuducuda saxlayırlar. Bir müddət qalır. Yaş və ya quru xurma tapdıqda yaxşı olar ki, yaşla iftarı açasan, tapmadıqda quru xurma ilə, onu da tapa bilməsən su ilə.

Birdən kimsə soruşsa ki, məndə nə yaş, nə də quru xurma yoxdur, nə ilə iftarı açım? Deyirik ki, su ilə iftar et. Çünki Peyğəmbər ﷺ belə buyurmuş və demişdir: **"O, təmizləyicidir"** – mədəni və ciyəri təmizləyir. Buna görə Peyğəmbər ﷺ bizlərə əmr etmişdir ki, su ilə iftarı açaq. Yaş və ya quru xurma bədənə daha xeyirli olduğu üçün onları birinci qeyd etmişdir. Belə ki, o həm şirindir, həm də doyumlu. Tibb əhli demişlər: "İnsan bədəni xurmadakı şirinliyi bütün digər şirin məhsullardan daha tez qəbul edir və o dərhal qana işləyir". Bu da izzət və cəlal sahibi Allahın hikmətindəndir. Yaş xurma, tapmadıqda quru, tapmadıqda da su və ya tapdığın hər hansı bir qida və maye ilə – iftarı bunlarla açmalısan. Düşdüyün vəziyyətə görə onu da tapmadıqda, məsələn, çöllükdə olduqda, yanında da yeməyə heç nəyin olmadıqda iftara və orucu açmağa niyyət edirsən. Sonradan yemək-içmək tapdıqda yeyərsən. Tələb olunan budur.

Rəsulullahın ﷺ: **"Gecə buradan daxil olduqda, gündüz də buradan çıxdıqda, günəş də batdıqda oruc tutan iftarını açar"** sözü barədə.

Bəzi elm əhli demişdir: "İftarı açar", yəni iftara niyyət etməsə belə, onun orucu bitər, hökm etibarı ilə iftar edər. Bəziləri isə demişdir: "Yəni iftar ona halal olar".

Lakin şəkk yoxdur ki, iftara niyyət etdikdə – yemək-içmək tapmadıqda bu daha yaxşı və əfzəldir – bu zaman niyyətlə iftar etməyə tələsməlisən. Çünki sənin yeyib-içməyə imkanın yoxdur. Məğrib namazını tezləşdirməyə gəlincə isə burada namazın əməllərində tələsmək nəzərdə tutulmur. Burada iqaməni tezləşdirmək və gecikməmək nəzərdə tutulur. Müvəffəq edən Allahdır.

# İki yüz iyirmi üçüncü fəsil

## Oruc tutanın öz dilini və əzalarını müxalif əməllərdən, söyüşdən və buna bənzər başqa əməllərdən qoruması

**Mövzu ilə əlaqəli hədislər:**

١٢٤٠– عَنْ أَبي هُرَيرَةَ رضي الله عنه قالَ: قالَ رسولُ اللّه ﷺ: « إِذا كَانَ يَوْمُ صَوْمِ أَحدِكُمْ، فَلا يَرْفُثْ وَلا يَصْخَبْ، فَإِنْ سَابَّهُ أَحَدٌ، أَوْ قاتَلَهُ، فَلْيَقُلْ: إِنِّي صائمٌ» متفقٌ عليه.

**1240.** Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Biriniz oruc tutduqda söyüş söyüb nalayiq iş görməsin. Kimsə onu söysə və ya vursa desin ki: – Mən orucam".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٢٤١– وعنهُ قال: قال النبيُّ ﷺ: « مَنْ لَمْ يَدعْ قَوْلَ الزُّورِ والعمَلَ بِهِ فلَيْسَ للّهِ حَاجةٌ في أَنْ يَدَعَ طَعامَهُ وشَرَابهُ » رواه البخاري.

**1241.** Yenə Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim yalan sözü və ona əməl etməyi tərk etməzsə, Allahın onun yeməyi və içməyi tərk etməsinə ehtiyacı yoxdur".**

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

**Şərh:**

Müəllif رحمه الله **"Oruc tutanın öz dilini və əzalarını müxalif əməllərdən, söyüşdən və buna bənzər başqa əməllərdən qoruması"** fəslini qeyd edir.

Burada məqsəd odur ki, oruc tutan adam gərək haram sözlərdən və haram əməllərdən çəkinsin. Çünki Uca Allah orucu insanın təqvası üçün fərz buyurmuşdur. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Oruc sizdən əvvəlkilərə fərz buyurulduğu kimi, sizə də fərz buyuruldu ki, bəlkə qorxasınız".**[3]

---

[1] "Səhih əl-Buxari", 1761; "Səhih Muslim", 1944.

[2] "Səhih əl-Buxari", 1770.

[3] "əl-Bəqərə" surəsi, 183.

Yəni izzət və cəlal sahibi Allahdan qorxub Onun haramlarından çəkinəsiniz. Ona ibadət etməkdə məqsəd yeməyi, içməyi və cinsi əlaqəni tərk etməklə sizə əziyyət vermək deyil. İstəyir ki, Onun əmrinə tabe olunsun, qadağalarından çəkinilsin, bununla da oruc tutmaq haramların tərk olunması üçün bir məktəbə çevrilsin. Əgər insan bir ay müddətində öz dininə riayət edirsə, haramları tərk edirsə, vacibləri yerinə yetirirsə, bu onun həyatını dəyişmiş olacaq. Buna görə də Uca Allah bunun hikmətini təqva kimi vəsf etmişdir.

Peyğəmbər ﷺ demişdir: **"Biriniz oruc tutduqda söyüş söyüb nalayiq iş görməsin".** Haram söz söyləməsin, haram əməllər etməsin. **"Kimsə onu söysə",** yəni onu eyibləsə və ya təhqir etsə, **"yaxud vursa desin ki: – Mən orucam".** Belə deməklə cavab verməyə aciz olmadığını bildirsin. Söyüş söyənə bildirmək istəyir ki, oruclu olmasaydım sənin layiqli cavabını verərdim. Beləcə alçalmış olmur və güclü qalır. Lakin o, Uca Allaha ibadət edərək onun qarşısında əyilir, Ona itaət edir.

Peyğəmbər ﷺ həmçinin demişdir: **"Kim yalan sözü və ona əməl etməyi tərk etməzsə, Allahın onun yeməyi və içməyi tərk etməsinə ehtiyacı yoxdur".** Yəni kim haram söz deməyi və ya ona əməl etməyi, – başqa bir ləfzdə: cahilliyi – tərk etməzsə, insanlara qarşı ədavət aparmaqdan əl çəkməzsə, Allahın onun yeməyi və içməyi tərk etməsinə ehtiyacı yoxdur.

Uca Allahın bizim yeməyi və içməyi tərk etməyimizə ehtiyacı yoxdur. Çünki Uca Allah orucu daha mühüm amal üçün – insanların haramları tərk etməsi və vaciblərə riayət etməsi üçün fərz etmişdir. Müvəffəq edən Allahdır.

# İki yüz iyirmi dördüncü fəsil

## Orucla bağlı məsələlər

**Mövzu ilə əlaqəli hədislər:**

١٢٤٢– عَنْ أَبي هُريرةَ ﷺ، عَن النبيِّ ﷺ قالَ: « إِذا نَسِيَ أَحَدُكُم، فَأَكَلَ أَوْ شَرِبَ، فَلْيتِمَّ صَوْمَهُ، فَإِنَّمَا أَطْعَمَهُ اللَّه وَسَقَاهُ » متفقٌ عليه.

**1242.** Əbu Hureyradan ﷺ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **“Biriniz unudaraq yeyib içdikdə orucunu tamamlasın. Çünki onu Allah yedirib içirib”.**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٢٤٣– وعن لَقِيطِ بنِ صَبِرَةَ ﷺ، قالَ: قلتُ: يا رسول اللَّه أَخْبِرْني عَنِ الْوُضوءِ؟ قال: « أَسْبِغِ الْوضُوءَ، وَخَلِّلْ بَيْن الأَصَابِعِ، وَبَالِغْ في الاسْتِنْشَاقِ، إِلاَّ أَنْ تكُونَ صَائماً » رواه أبو داود ، والترمذي وقال: حديثٌ حسنٌ صحيحٌ.

**1243.** Ləqit ibn Sabira ﷺ demişdir: «Mən dedim: “Ey Allahın elçisi, mənə dəstəmaz haqqında xəbər ver”. Dedi: **“Dəstəmazı tam al, barmaqlarının arasını ovxala, oruc olmadığın halda burnunu yaxşı yu”.**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: “Bu, həsən səhih hədisdir”– demişdir.[2]

١٢٤٤– وعنْ عائشةَ ﷺ، قالَتْ: كانَ رسُولُ اللَّهِ ﷺ يدْرِكُهُ الفَجْرُ وَهُوَ جُنُبٌ مِنْ أَهْلِهِ، ثُمَّ يَغْتَسِلُ ويَصُومُ. متفقٌ عليه.

**1244.** Rəvayət olunur ki, Aişə ﷺ demişdir: “Rəsulullah ﷺ bəzən sübh vaxtı cunub olurdu. Bu zaman o qüsl alır, sonra oruc tuturdu”.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] “Səhih əl-Buxari”, 1797; “Səhih Muslim”, 1952.

[2] “Musnəd İmam Əhməd”, 4/33; “Sunən Əbu Davud”, 123; “Sunən ət-Tirmizi”, 718; “Sunən ən-Nəsai”, 86; “Sunən İbn Macə”, 401.

[3] “Səhih əl-Buxari”, 1795; “Səhih Muslim”, 1865.

١٢٤٥– وعنْ عائشةَ وأُمِّ سَلَمَةَ، ، قَالَتَا: كانَ رسولُ اللهِ ﷺ يُصْبِح جُنُباً مِنْ غَيْرِ حُلْمٍ، ثُمَّ يصُومُ » متفقٌ عليهِ.

**1245.** Aişə və Ummu Sələmə demişlər: "Rəsulullah ﷺ yuxuda *pollyusiya* olmadan sabaha cunublu çıxar, sonra da qalxıb oruc tutardı".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

**Şərh:**

Müəllif **"Orucla bağlı məsələlər"** fəslini qeyd edir. Yəni burada müxtəlif çeşidli məsələlərə toxunulur.

Məsələlərdən biri budur ki, insan unudaraq yeyib içərsə orucu pozulurmu?! Cavab Peyğəmbərin ﷺ sözündədir. Əbu Hureyradan nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Biriniz unudaraq yeyib içdikdə orucunu tamamlasın. Çünki onu Allah yedirib içirib".** Hətta yeyib içərək doysa belə, oruc tutduğunu unudubsa orucu pozulmur və orucunda heç bir naqislik yoxdur. Ona görə də buyurur ki: **"orucunu tamamlasın"**.

**"Çünki onu Allah yedirib içirib"** sözü isə dəlildir ki, unudanın əməli ona nisbət olunmur, Allaha nisbət olunur. Yatmış adamın da əməli özünə deyil, Allaha nisbət olunur. Uca Allah mağara əhli barəsində buyurur: **"Onları sağa və sola çevirirdi".**[2] Yatmış zaman çevrilən yatanın özüdür. Lakin onun qəsdi olmadığı üçün Allah bu feili özünə nisbət etmişdir. Həmçinin unudan adamın orucu da pozulmur. Birdən unudaraq yeyib içərsə, ona deyirik ki, orucun səhihdir. Cahil adam da belədir. Məsələn, hicamənin orucu pozduğunu bilmədən hicamə etdirən kəsin orucu səhihdir. Həmçinin yeyir, ancaq bilmir ki, artıq sübhün vaxtı daxil olub. Onun da orucu səhihdir. Yaxud yeməyə başlayır və elə bilir ki, gün artıq batıb, sonra da bəlli olur ki, gün hələ batmayıb; onun da orucu səhihdir.

Belə hallar Peyğəmbərin ﷺ zamanında da baş verirdi. Bir dəfə buludlu bir gündə insanlar oruc tutmuşdu. Onlar günün batdığını düşünərək iftar edirlər. Sonra günəş görsənir. Peyğəmbər də onlara orucu qəza ertmələrini əmr etmir. Çünki onlar bunu bilmirdilər və bunu qəsdən etməmişdilər.

---

[1] "Səhih əl-Buxari", 1791; "Səhih Muslim", 1864.

[2] "əl-Kəhf" surəsi, 18.

Lakin insan səhv etdiyini bildikdə, gərək yemək-içməyini dərhal tərk edə, hətta ağzındakı loxmanı, yaxud suyu belə gərək çıxara. Həmçinin biri əgər xəbərsiz olarsa, sonra ona xəbər verilərsə, o da yemək-içməyini gərək dayandıra. Məsələn, adam görür ki, birisi yeyib-içir. Ona deyir ki, nə edirsən, oruc deyilsənmi? O cavab verir ki, gün batıb. Adam da deyir ki, gün hələ batmayıb. Bu zaman gərək o yeyib-içməyi dayandırsın, çünki üzür onun üzərindən qalxmışdır.

Birdən kimsə desə ki, görsəm ki, oruc tutan adam yemək yeyir, mən də onun unutduğunu bilirəm, ona xatırlatmalıyammı? Deyirik, bəli, sən ona xatırlatmalısan. Çünki əgər qardaşın unutduğuna görə üzürlüdürsə, sən bunu bildiyin üçün xatırlatmalısan. Peyğəmbər ﷺ namaz barəsində demişdir: **"Mən unutduğum zaman mənə xatırladın".**[1] Belə əmr edir ki, unudan adama xatırladılsın. Sən də görsən ki, oruc tutan adam unudub yeyir və ya içir, ona xatırlat. Qibləyə səhv istiqamətlənmiş kəsi gördükdə də gərək ona xəbər verəsən.

Mühüm olan budur ki, qardaşın halal olmayan bir işlə üzləşdikdə, gərək onun yadına salasan. Çünki unutqanlıq və səhv tez-tez baş verir.

Sonra müəllif رحمه الله Ləqit ibn Sabiranın رضي الله عنه hədisini qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Dəstəmazı tam al, barmaqlarının arasını ovxala, oruc olmadığın halda burnunu yaxşı yu".**

**"Dəstəmazı tam al",** yəni kamil şəkildə dəstəmazını tamamla. [Hədisin ərəbcəsində keçən] "əl-isbağ" sözünün mənası kamilləşdirmək deməkdir. Uca Allah buyurur: **"Nemətlərini sizlərə kamilləşdirmişdir"**[2], yəni tamamlamışdır.

**"Barmaqlarının arasını ovxala"**. Ələlxüsus da ayaq barmaqlarını gərək su ilə ovxalayıb yuyasan. Çünki ayaq barmaqları bir-birinə bitişik olur və bu zaman ola bilsin ki, onların arasına su daxil olmasın.

**"Oruc olmadığın halda burnunu yaxşı yu".** [Hədisin ərəbcəsində keçən] "istinşaq" dəstəmaz alarkən burunu yumağa deyilir. **"Oruc olmadığın halda"**, çünki buruna dərindən su aldıqda su sənin mədənə gedə bilər. Bu da dəlildir ki, hər hansı bir qidanın və ya suyun burundan içəri

---

[1] "Səhih əl-Buxari", 386; "Səhih Muslim", 889.

[2] "Loğman" surəsi, 20.

daxli olması da ağızdan daxil olması kimidir və orucu batil edir. İynələrə gəlincə isə, bu, orucu batil etmir. Oruclunun əlinə, belinə, damar və ya hər hansi bir bədən nahiyəsinə vurulan iynələr orucu pozmur. Yalnız yeməyi və içməyi əvəz edən qidalandırıcı iynələr istisnadır – belə iynələr orucu pozur. Fərz orucu tutan kəs zərurət olmadan bu cür iynələrdən istifadə etməməlidir. Zərurət olduqda isə belə iynəni vurmaq, sonra başqa vaxtda bir gün oruc tutmaq lazımdır.

Sonra müəllif رحمه الله Aişə və Ummu Sələmənin رضي الله عنهما hədisini qeyd edir.

Həmin hədisə görə Rəsulullah ﷺ yuxuda *pollyusiya* səbəbi olmadan gecə cunub olar, sonra da qalxıb oruc tutardı. Qüslü isə sonra alardı. Bu da icazəlidir. Yəni cənabət halında olan kəs hətta sübhdən sonra qüsl alsa belə, sübhə qədər oruca niyyət edə bilər. Peyğəmbər ﷺ də belə edərdi.

Aişə və Ummu Sələmənin رضي الله عنهما hədisi dəlildir ki, Peyğəmbərin ﷺ etdikləri əməllər dəlildir. Bunların yalnız ona xas olmasını iddia etmək isə doğru deyil. Çünki burada əslən xüsusilik yoxdur. Peyğəmbər ﷺ bir feil etdikdə bu haqdır – ibadətdirsə ibadət, adətdirsə adətdir – haram deyil. Müvəffəq edən Allahdır.

# İki yüz iyirmi beşinci fəsil

## Məhərrəm, şaban və haram aylarda oruc tutmağın fəziləti

**Mövzu ilə əlaqəli hədislər:**

١٢٤٦– عَنْ أَبي هُرَيرَةَ ﷺ ، قَالَ: قَالَ رَسُولُ اللَّه ﷺ: « أَفْضَلُ الصِّيَامِ بعْدَ رَمضَانَ: شَهْرُ اللَّهِ المحرَّمُ، وَأَفْضَلُ الصَّلاةِ بَعْد الفَرِيضَةِ: صَلاةُ اللَّيْلِ » رواه مسلمٌ.

**1246.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Ramazandan sonra ən əfzəl oruc Allahın Məhərrəm ayıdır; fərzlərdən sonra ən əfzəl namaz isə gecə namazıdır".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٢٤٧– وعَنْ عائشَةَ ﷺ ، قالَتْ: لَمْ يَكُنِ النبيُّ ﷺ يَصُوم مِنْ شَهْرٍ أَكْثَرَ مِنْ شَعْبَانَ، فَإِنَّه كانَ يَصُوم شَعْبَانَ كلَّه.

وفي رواية: كَانَ يَصُومُ شَعْبَانَ إِلاَّ قَلِيلاً. متفقٌ عليه.

1247. Rəvayət olunur ki, Aişə ﷺ demişdir: "Rəsulullah ﷺ Şabandan çox heç bir ayda oruc tutmazdı. O, bütün Şaban ayını oruc tutardı".

Başqa bir rəvayətdə deyilir: "Az bir qismi istisna olmaqla, Şabanı oruc tutardı".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٢٤٨– وعن مجيبَةَ البَاهِلِيَّةِ عَنْ أَبِيهَا أَوْ عمِّها، أَنَّهُ أَتى رَسولَ اللَّه ﷺ، ثُمَّ انطَلَقَ فَأَتَاهُ بعدَ سَنَة، وَقَد تَغَيَّرتْ حَالهُ وَهَيْئَتُه، فَقَالَ: يا رَسُولَ اللَّهِ أَمَا تعْرِفُنِي؟ قَالَ: «وَمَنْ أَنتَ؟» قَالَ: أَنَا البَاهِلِيُّ الذي جِئتك عامَ الأَوَّلِ. قَالَ: « فَمَا غَيَّرَكَ، وقَدْ كُنتَ حَسَنَ الهَيئَةِ؟ » قَالَ: ما أَكلتُ طعاماً منذ فَارقْتُكَ إِلاَّ بلَيْلٍ. فَقَال رَسُولُ اللَّهِ ﷺ: « عَذَّبْتَ نَفسَكَ، » ثُمَّ قَالَ: « صُمْ شَهرَ الصَّبرِ، ويوماً مِنْ كلِّ شَهر » قَال: زِدْني، فإِنَّ بي قوَّةً، قَالَ: « صُمْ يَومَيْنِ » قَال: زِدْني،

---

[1] "Səhih Muslim", 1982.

[2] "Səhih əl-Buxari", 1834; "Səhih Muslim", 1957.

قال: « صُمْ ثلاثَةَ أَيَّامٍ » قالَ: زِدْني. قال: صُمْ مِنَ الحُرُمِ وَاتْرُكْ، صُمْ مِنَ الحرُم وَاترُكْ، صُمْ مِنَ الحرُمِ وَاتْرُكْ » وقالَ بِأَصَابِعِهِ الثَّلاثِ فَضَمَّهَا، ثُمَّ أَرْسَلَهَا. رواه أبو داود.

و « شهرُ الصَّبرِ »: رَمضانُ.

**1248.** Mucibə əl-Bəhiliyyə atasından və ya əmisindən rəvayət edir ki, bir dəfə o, Rəsulullahın ﷺ yanına gəldi. Bir il sonra yenə onun ﷺ yanına gəldi. Bu vaxt onun halı və görkəmi dəyişmişdi. O dedi: "Ey Allahın elçisi, məni tanımadınmı?" Dedi: **"Sən kimsən?"** Dedi: "Mən bir il qabaq sənin yanına gəlmiş bahiliyəm". Dedi: **"Səni nə dəyişib, axı sən gözəl görkəmdə idin?"** Dedi: "Səndən ayrılandan sonra gecələr istisna olmaqla, yemək yeməmişəm". Rəsulullah dedi: **"Özünə əzab vermisən".** Sonra dedi: **"Səbir ayını oruc tut, bir də hər aydan bir gün".** Dedi: "Artır, mənim gücüm var". Dedi: **"İki gün oruc tut".** Dedi: "Artır". Dedi: **"Üç gün tut".** Dedi: "Artır". Dedi: **"Haramlarda oruc tut və tərk et, haramlarda oruc tut və tərk et, haramlarda oruc tut və tərk et".** O, üç barmağını qatlayıb sonra açdı.

Hədisi Əbu Davud rəvayət etmişdir.[1]

"Səbir ayı" Ramazandır.

**Şərh:**

Bu fəsildə müəllif رحمه الله hansı günlərdə və aylarda oruc tutulmasının Sünnə olduğunu qeyd edir. Onlardan biri Şaban orucudur. Aişədən رضي الله عنها nəql olunduğu kimi, Peyğəmbər ﷺ həmin ayın ya hamısını, ya da az bir qismi istisna olmaqla, qalan bütün günlərini tutardı. Buna görə də insan gərək Şaban ayında başqalarından daha çox oruc tuta. Çünki Peyğəmbər ﷺ belə edərdi.

Elm əhli demişlər: "Buradakı hikmət ondan ibarətdir ki, fərz namazlarından öncə nafilələr olduğu kimi, Ramazandan da öncə nafilələr olsun".

Həmçinin Səfər ayı ilə Zil-hiccə ayı arasında olan Allahın Məhərrəm ayını da oruc tutmaq buna aiddir. Peyğəmbər ﷺ demişdir: **"Ramazandan sonra ən əfzəl oruc Allahın Məhərrəm ayıdır".** Xüsusən də həmin ayın onuncu gününü, yaxud doqquzuncu və onuncu günlərini, yaxud da doqquzuncu, onuncu və on birinci günlərini oruc tutmaq gərəkdir.

[1] "Sunən Əbu Davud", 2073.

Həmçinin hər ay üç gün oruc tutmaq da belədir. Necə ki, əl-Bahilinin hədisində varid olmuşdur: “Peyğəmbər ﷺ hər ayın üç gününü oruc tutar, ancaq önəm verməzdi ki, ayın əvvəlindən tutub, ortasından, yoxsa axırından”. Lakin hər ayın on üçüncü, on dördüncü və on beşinci günlərini oruc tutmaq daha əfzəldir.

Ərəfa günü oruc tutmaq da buna aiddir. Çünki Peyğəmbərdən ﷺ həmin günün orucu barədə soruşulduqda, o demişdir: “O, keçmiş və gələcək bir ilin günahlarına kəffarədir”.[1] Yəni iki ilin günahlarına kəffarədir.

əl-Bahilinin hədisində bildirilir ki, o, bütün bir ili oruc tutmuş və bu səbəbdən də görkəmi dəyişmiş, halı da zəifləmişdi. O, Peyğəmbərin ﷺ yanına gəlib: “Məni tanıdınmı?” soruşmuş, Peyğəmbər ﷺ də demişdi ki, sən kimsən? Demişdi ki, mən keçən il sənin yanına gəlmiş əl-Bahiliyəm. Sonra etdiyini ona xəbər verib deyir ki, ondan ayrılandan sonra orucu tərk etməyib. Peyğəmbər ﷺ də ona deyir ki, özünə zülm etmisən. Bu da dəlildir ki, insan taqəti çatmayan bir şeylə özünü mükəlləf etməməli və özünə əzab verməməlidir. Uca Allah buyurur: **“Şükür edib iman gətirsəniz, sizə əzab vermək Allahın nəyinə gərəkdir? Allah (itaətkar qullarına) təşəkkür edəndir, Biləndir”.**[2] Müvəffəq edən Allahdır.

[1] “Səhih Muslim”, 1977.
[2] “ən-Nisa” surəsi, 147.

# İki yüz iyirmi altıncı fəsil

## Zil-hiccə ayının on günündə və başqa günlərində oruc tutmağın fəziləti

**Mövzu ilə əlaqəli hədis:**

١٢٤٩– عن ابنِ عبَّاسٍ رضي الله عنهما، قالَ: قالَ رسُولُ اللَّهِ ﷺ: « ما مِنْ أَيامٍ العَمَلُ الصَّالحُ فِيها أَحَبُّ إِلى اللَّهِ مِنْ هذِهِ الأَيَّامِ » يعني: أَيامَ العشرِ، قالوا: يا رسول اللَّهِ وَلا الجهادُ في سبِيلِ اللَّهِ؟ قالَ: « ولا الجهادُ في سبِيلِ اللَّهِ، إِلاَّ رَجُلٌ خَرجَ بِنَفْسِهِ، وَمَالِهِ فَلَم يَرجِعْ منْ ذلك بِشَيءٍ » رواه البخاريُّ.

**1249.** İbn Abbasdan رضي الله عنهما rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Allaha bu günlərdən çox saleh əməllərin daha sevimli olduğu günlər yoxdur"**, yəni on gün. Dedilər: "Ey Allahın elçisi, hətta Allah yolunda cihad etməkdən?" Dedi: **"Hətta Allah yolunda cihad etməkdən. Yalnız nəfsi və malı ilə çıxıb heç biri ilə geri dönməyən kəs istisnadır".**

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

[1] "Səhih əl-Buxari", 916.

# İki yüz iyirmi yeddinci fəsil

## Ərəfa günü, Aşura və təsua orucunun fəziləti

**Mövzu ilə əlaqəli hədislər:**

١٢٥٠– عنْ أَبي قتَادةَ ﵁ ، قالَ: سئِل رسولُ اللَّهِ ﷺ: عَنْ صَوْمِ يومِ عَرَفَةَ؟ قال: « يكفِّرُ السَّنَةَ المَاضِيةَ وَالبَاقِيَةَ » رواه مسلمٌ.

**1250.** Rəvayət olunur ki, Əbu Qatədə ﵁ demişdir: «Rəsulullahdan ﷺ Ərəfa gününün orucu barəsində soruşdular, o da dedi: **"Keçmiş və gələcək bir ilin günahlarına kəffarədir"».**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٢٥١– وعنْ ابنِ عباسٍ ﵄ ، أَنَّ رَسول اللَّهِ ﷺ صَامَ يوْمَ عاشوراءَ، وأَمَرَ بِصِيَامِهِ. متفقٌ عليه.

**1251.** İbn Abbasdan ﵄ rəvayət olunur ki, Rəsulullah ﷺ Aşura gününü oruc tutdu və onu tutmağı əmr etdi.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٢٥٢- وعنْ أَبي قَتَادةَ ﵁ ، أَنَّ رسولَ اللَّهِ ﷺ سُئِلَ عَنْ صِيَامِ يَوْمِ عاشُوراءِ، فَقَال: « يُكَفِّرُ السَّنَةَ المَاضِيَةَ » رواه مُسْلِمٌ.

**1252.** Əbu Qatədə ﵁ demişdir: «Rəsulullahdan ﷺ Aşura gününün orucu haqqında soruşdular, o da dedi: **"Keçmiş bir ilin günahlarına kəffarədir"**».

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

---

[1] "Səhih Muslim", 1162.

[2] "Səhih əl-Buxari", 1865; "Səhih Muslim", 1911.

[3] "Səhih Muslim", 1162.

١٢٥٣– وعَـنِ ابـنِ عَبَّـاسٍ رضي الله عنهما ، قَـالَ: قـالَ رسُـول اللَّهِ ﷺ: « لَـئِنْ بَقِيـتُ إِلى قَابِـلٍ لأصُومَنَّ التَّاسِعَ » رواهُ مُسْلِمٌ.

**1253.** İbn Abbasdan رضي الله عنهما rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Gələn ilə qalsam, doqquzuncu günü də tutacağam"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[1] "Səhih Muslim", 1917.

# İki yüz iyirmi səkkizinci fəsil

## Şəvval ayının altı gününü oruc tutmağın müstəhəbliyi

**Mövzu ilə əlaqəli hədis:**

١٢٥٤– عَنْ أَبي أَيوبِ ﷺ، أَنَّ رسول اللَّهِ ﷺ قَالَ: « مَنْ صَامَ رَمَضانَ ثُمَّ أَتبَعَهُ سِتًّا مِنْ شَوَّالٍ كانَ كصِيَامِ الدَّهْرِ » رواهُ مُسْلِمٌ.

**1254.** Əbu Əyyubdan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim Ramazan ayını oruc tutar, sonra da şəvval ayının altı gününü ona əlavə edərsə, bütün ili oruc tutmuş kimi olar"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Hafiz ən-Nəvəvinin qeyd etdiyi bu üç fəsil sünnə olan oruclar barəsindədir. Onlardan, yəni sünnə sayılan oruclardan biri Zil-hiccə ayının ilk on günü oruc tutmaqdır. Peyğəmbər ﷺ demişdir: **"Allaha bu günlərdən çox saleh əməllərin daha sevimli olduğu günlər yoxdur".** Yəni on gündən.

Yaxşı əməl dedikdə namaz, sədəqə, oruc, zikr, təkbir, Quran oxumaq, valideyinə qayğı, qohumlarla əlaqə yaratmaq, insanlara yaxşılıq etmək, yaxşı qonşuluq və başqa yaxşı əməllər nəzərdə tutulur. İl ərzində görülən yaxşı əməllərdən bu on gündə edilənlərdən Allaha daha sevimli olanı yoxdur. Soruşurlar ki, ey Allahın elçisi, hətta Allah yolunda cihad etməkdən? Dedi: **"Hətta Allah yolunda cihad etməkdən. Yalnız nəfsi və malı ilə çıxıb heç biri ilə geri dönməyən kəs istisnadır"**.

Bu da Zil-hiccə ayının ilk on günündə edilən oruc və digər əməllərin fəzilətinə dəlildir. Həmçinin dəlildir ki, cihad ən fəzilətli əməllərdəndir. Buna görə də səhabələr soruşur ki, hətta Allah yolunda cihad etməkdən?! Bu da bu nadir halın fəzilətini göstərir. İnsan öz malı və bədəni ilə Allah yolunda cihada çıxır. Malı, yəni silahı və miniyi ilə çıxır və öldürülür, sonra da silahı və miniyi düşmənin əlinə keçir. Beləsi həm canını, həm də malını itirmiş olur. Bu adam ən üstün mücahidlərdəndir, bu əməli isə Zil-hiccənin

[1] "Səhih Muslim", 1984.

ilk on günündə edilən *bütün digər* ibadətlərdən daha xeyirlidir – yəni, əməl Zil-hiccənin ilk on gününə təsadüf edərsə, savabı qat-qat artmış olar.

Oruc tutulması Sünnə olan günlərdən biri də Ərəfa günü və Zil-hiccənin onuncu günüdür. Əbu Qatədə rəvayət edir ki, Peyğəmbərdən ﷺ Ərəfa gününün orucu barəsində soruşulduqda o dedi: **"Keçmiş və gələcək bir ilin günahlarına kəffarədir"**. Keçmiş, yəni ötən ilin. Çünki Ərəfa günü ilin son ayındadır, gələcək il isə növbəti ildir. Beləcə, bu oruc iki ilin günahlarına kəffarədir.

Ondan ﷺ Aşura gününün orucu barəsində soruşulduqda isə o dedi: **"Keçmiş bir ilin günahlarına kəffarədir".** Bu orucun əcri Ərəfa gününün orucundan daha azdır. Bununla belə, Aşura günü doqquzuncu günlə birlikdə oruc tutulmalıdır. Çünki Peyğəmbər ﷺ demişdir: **"Gələn ilə qalsam, doqquzuncu günü də tutacağam".** Yəni onuncu günlə birlikdə.

Peyğəmbər ﷺ Aşura gününü bir gün öncəki, yaxud bir gün sonrakı günlə birlikdə oruc tutmağı əmr etmişdir ki, yəhudilərə müxalif olunsun. Belə ki, Aşura günü, yəni Məhərrəm ayının onuncu günü Allahın Musanı və qövmünü xilas etdiyi, Fironu və qövmünü isə suya qərq etdiyi gündür. Yəhudilər də izzət və cəlal sahibi Allaha bu böyük nemətə şükür əlaməti olaraq həmin günü oruc tuturdular. Həmin gün Allah öz ordusunu xilas etmiş, şeytanın ordusunu isə məğlub etmişdi – Musa ilə qövmünü xilas etmiş, Firon və qövmünü isə suya qərq etmişdi. Bu da böyük nemətdir.

Peyğəmbər ﷺ Mədinəyə gəldikdə görür ki, yəhudilər Aşura günü oruc tuturlar. Onlardan bu barədə soruşur, onlar da deyirlər ki, bu gün Allah Musanı və qövmünü xilas etmiş, Firon və qövmünü isə həlak etmişdir. Biz də Allaha şükür olaraq həmin günü oruc tuturuq. Peyğəmbər ﷺ də deyir ki: **"Biz Musaya sizdən daha yaxınıq".** Nə üçün? – Çünki Peyğəmbər ﷺ və onunla birlikdə olanlar keçmiş peyğəmbərlərə daha yaxındırlar. Uca Allah buyurur: **"Həqiqətən, insanlardan İbrahimə ən yaxın olanı onun ardınca gedənlər, bu Peyğəmbər və *ona* iman gətirənlərdir. Allah möminlərin dostudur".**[1]

Rəsulullah ﷺ Musaya yəhudilərdən daha çox haqlıdır. Çünki yəhudilər ona, İsaya və Muhəmmədə küfr etmişdilər. Peyğəmbər ﷺ də həmin günü oruc tutdu və insanlara da oruc tutmağı buyurdu. Sadəcə o, yalnız

[1] "Ali İmran" surəsi, 68.

onuncu günü oruc tutan yəhudilərə müxalif olmağı əmr etmiş, həmin günü doqquzuncu və ya on birinci günlə birlikdə tutmağı buyurmuşdu. Hər üç günü də oruc tutmaq olar. Buna görə də bəzi alimlər, o cümlədən İbn əl-Qeyyim və başqaları qeyd etmişlər ki, Aşura orucu üç qismə bölünür:

1) Aşuranı doqquzuncu günlə birlikdə tutmaq. Bu ən əfzəl növdür.

2) Aşuranı on birinci günlə birlikdə tutmaq. Bu birincidən aşağıdır.

3) Yalnız Aşuranı tutmaq. Bəzi elm əhli bunu məkruh hesab etmişlər. Çünki Peyğəmbər ﷺ yəhudilərə müxalif olmağı buyurmuşdur. Bəzi alimlər isə bunu icazəli hesab etmişlər.

Oruc tutulması Sünnə sayılan günlərdən biri də Şəvvalın altı günüdür. Bu barədə Əbu Əyyubdan nəql olunan hədisdə deyilir ki, Peyğəmbər ﷺ demişdir: **"Kim Ramazan ayını oruc tutar, sonra da şəvval ayının altı gününü ona əlavə edərsə, bütün ili oruc tutmuş kimi olar".**

Alimlər bunu belə açıqlamışlar ki, yaxşılıq on mislinə bərabərdir. Ramazan ayı on aya, altı gün də altmış günə bərabərdir ki, bunlar da daha iki ay edir. Buna əsasən də insan Ramazan ayından sonra Şəvval ayının altı gününü də oruc tutmalıdır. Bu zaman bilmək lazımdır ki, qəzaları tutmadan Şəvvalı tutmaq olmaz. Yəni, məsələn, adamın Ramazan ayından bir gün orucu var, o isə artıq Şəvvalın altı gününün orucunu tutursa, onun əcrini qazanmış olmur. Çünki Rəsulullah ﷺ buyurur ki: **"Kim Ramazan ayını oruc tutarsa...".** Kimin boynunda Ramazandan bir gün qəza ola-ola onu tutmadan Şəvval orucunu tutarsa, onu tutmayıb. Boynunda bir gün qəzası olan Ramazanın iyirmi doqquz gününü oruc tutub, iki gün qəzası olan iyirmi səkkiz gün oruc tutub – bu adam Ramazan ayını tamamlamayıb. Rəsulullah ﷺ isə: **"Kim Ramazan ayını oruc tutarsa..."** buyurur. Ramazan orucunu tutduqdan sonra Şəvvalın altı gününü oruc tutarsansa, bütün ili oruc tutmuş sayılarsan.

Həmin orucu bayramdan dərhal sonra ardıcıl tutmaq da olar, iki-üç gün sonra tutmaq da olar, fərqli günlərdə tutmaq da. Bu, geniş məsələdir. Lakin səhlənkarlıq edərək Şəvval ayı çıxandan sonra bu orucu tutsan, həmin əcri qazanmış olmursan. Yalnız üzürlü kəslər istisnadır. Məsələn xəstə, nifas halında olan qadın və ya müsafir Şəvvalı tuta bilməyiblərsə, Zil-qədə ayında tuta bilərlər.

## İki yüz iyirmi doqquzuncu fəsil

### Birinci, dördüncü günlər oruc tutmağın müstəhəbliyi

**Mövzu ilə əlaqəli hədislər:**

١٢٥٥– عن أَبي قَتَادَةَ ﷺ، أَنَّ رسولَ اللَّهِ ﷺ سُئِلَ عَنْ صَوْمِ يَوْمِ الاثْنَيْنِ فقال: « ذلكَ يَوْمٌ وُلِدْتُ فِيهِ، وَيَوْمٌ بُعِثْتُ، أَوْ أُنزِلَ عليَّ فِيهِ » رواه مسلمٌ.

**1255.** Əbu Qatədədən ﷺ rəvayət olunur ki, Rəsulullahdan ﷺ birinci gün oruc tutmaq barədə soruşuldu, o da dedi: **"O gün mən anadan olmuşam, həmin gün peyğəmbər olmuşam"**, yaxud **"həmin gün mənə vəhy nazil olub".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٢٥٦– وعَنْ أَبي هُرَيْرَةَ ﷺ عَنْ رسولِ اللهِ ﷺ قال: « تُعْرَضُ الأَعْمَالُ يومَ الاثنَيْن والخَميسِ، فَأُحِبُّ أَنْ يُعْرَضَ عَملي وَأَنَا صَائمٌ » رَواهُ التِرْمِذِيُّ وقال: حديثٌ حَسَنٌ، ورواهُ مُسلمٌ بغيرِ ذِكرِ الصَّوْم.

**1256.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Birinci və dördüncü gün əməllər ərz olunur, mən də istəyirəm ki, əməllərim ərz olunarkən oruclu olum".**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir. Bu hədisi Muslim də "oruc" sözü olmadan rəvayət etmişdir.[2]

١٢٥٧– وَعَنْ عائشةَ ﷺ، قالَتْ: كانَ رسولُ اللَّهِ ﷺ يَتَحَرَّى صَوْمَ الاثْنَيْنِ وَالخَمِيسِ. رواه الترمذيُّ وقال: حديثٌ حسنٌ.

**1257.** Rəvayət olunur ki, Aişə ﷺ demişdir: "Rəsulullah ﷺ birinci və dördüncü günlər oruc tutardı".

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[3]

---

[1] "Səhih Muslim", 1977.

[2] "Sunən ət-Tirmizi", 678.

[3] "Musnəd İmam Əhməd", 6/16; "Sunən ət-Tirmizi", 676.

# İki yüz otuzuncu fəsil

## Hər ayın üç gününü oruc tutmağın müstəhəbliyi

Yaxşı olar ki, "əl-Bid" günlərində oruc tutulsun, o da hər ayın on üçüncü, on dördüncü və on beşinci günləridir. Bəziləri onun on ikinci, on üçüncü və on dördüncü günlər olduğunu desələr də, səhih və məşhur olan birinci rəydir.

**Mövzu ilə əlaqəli hədislər:**

١٢٥٨– وعن أَبي هُريرةَ ﷺ، قال: أَوْصَاني خلِيلي ﷺ، بثَلاثٍ: صيَامِ ثَلاثَةَ أَيَّامٍ مِن كلِّ شَهرٍ، وَرَكعَتَي الضُحى، وأَن أُوتِر قَبْلَ أَنْ أَنامَ. متفقٌ عليه.

**1258.** Rəvayət olunur ki, Əbu Hureyra ﷺ demişdir: "Dostum mənə üç şeyi tövsiyə etmişdir: hər ayın üç gününü oruc tutmaq, iki rükət duha namazı qılmaq, yatmamışdan öncə vitr namazı qılmaq".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٢٥٩– وعَنْ أَبي الدَرْدَاءِ ﷺ، قالَ: أَوْصَانِي حَبِيبي ﷺ بِثلاث لَنْ أَدَعهُنَّ ما عِشْتُ: بصِيامِ ثَلاثَة أَيَّامٍ مِن كُلِّ شَهْر، وَصَلاةِ الضحَى، وَبِأَنْ لا أَنَام حَتى أُوتِر. رواهُ مسلمٌ.

**1259.** Rəvayət olunur ki, Əbu Dərda ﷺ demişdir: "Sevgilim mənə üç şeyi tövsiyə etmişdir və mən yaşadığım müddətdə onları tərk etməyəcəyəm: hər ay üç gün oruc tutmaq, duha namazı, bir də vitr namazını qılmadan yatmamaq".

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٢٦٠– وَعَنْ عبدِ اللَّهِ بنِ عَمْرِو بنِ العاصِ ﷺ، قالَ: قالَ رسولُ اللَّهِ ﷺ: « صوْمُ ثلاثَةِ أَيَّامٍ منْ كلِّ شَهرٍ صوْمُ الدهْرِ كُلِّهُ ». متفقٌ عليه.

---

[1] "Səhih əl-Buxari", 1845; "Səhih Muslim", 1182.

[2] "Səhih Muslim", 1183.

**1260.** Rəvayət olunur ki, Abdullah ibn Amr ibn əl-As رضي الله عنه demişdir: «Rəsulullah ﷺ demişdir: **"Hər ay üç gün oruc tutmaq bütün ili oruc tutmağa bərabərdir"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٢٦١– وعنْ مُعاذةَ العَدَوِيَّةِ أَنَّها سَأَلَتْ عائشةَ رضي الله عنها: أَكانَ رَسُولُ اللهِ ﷺ يصومُ مِن كُلِّ شَهرٍ ثلاثةَ أَيَّامٍ؟ قَالَت: نَعَمْ. فَقُلْتُ: منْ أَيِّ الشَّهْرِ كَانَ يَصُومُ؟ قَالَتْ: لَمْ يَكُن يُبَالي مِنْ أَيِّ الشَّهْرِ يَصُومُ. رواهُ مسلمٌ.

**1261.** Muazə əl-Ədəviyyədən rəvayət olunur ki, o, Aişədən رضي الله عنها soruşdu: "Rəsulullah ﷺ hər ayın üç gününü oruc tuturdumu?" Dedi: "Bəli". Mən dedim: "Orucu ayın hansı hissəsində tutardı?" O dedi: "Ayın hansı hissəsində oruc tutmasına önəm verməzdi".

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٢٦٢– وعنْ أَبي ذَرٍّ رضي الله عنه، قَالَ: قالَ رسولُ اللَّهِ ﷺ: «إِذا صُمْتَ مِنَ الشَّهْرِ ثَلاثاً، فَصُمْ ثَلاثَ عَشْرَةَ، وَأَرْبعَ عَشْرَةَ، وخَمْسَ عَشْرَةَ» رواه الترمِذيُّ وقال: حديثٌ حسنٌ.

**1262.** Əbu Zərdən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Hər ay üç gün oruc tutduqda on üç, on dörd və on beşinci günləri tut".**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[3]

١٢٦٣– وعنْ قتادَةَ بن مِلحَانَ رضي الله عنه، قال: كانَ رَسولُ اللَّهِ ﷺ يأْمُرُنا بِصِيَامِ أَيَّامِ البيضِ: ثَلاثَ عشْرَةَ، وأَرْبَعَ عَشْرَةَ، وَخَمْسَ عَشْرَةَ. رواهُ أَبُو داودَ.

**1263.** Qatədə ibn Milhandan رضي الله عنه rəvayət edilir ki, "Rəsulullah ﷺ bizə hər ayın üç gününü oruc tutmağı əmr edərdi".

Hədisi Əbu Davud rəvayət etmişdir.[4]

---

[1] "Səhih əl-Buxari", 1843; "Səhih Muslim", 1967.
[2] "Səhih Muslim", 1974.
[3] "Sunən ət-Tirmizi", 692.
[4] "Musnəd İmam Əhməd", 5/28; "Sunən Əbu Davud", 2093.

١٢٦٤– وعَنْ ابنِ عبَّاسٍ رضي الله عنهما، قالَ: كانَ رسولُ اللَّهِ ﷺ لا يُفْطِرُ أَيَّامَ البِيضِ في حَضَرٍ وَلا سَفَرٍ. رواهُ النسَائي بإسنادٍ حَسنٍ.

**1264.** Rəvayət olunur ki, İbn Abbas رضي الله عنهما demişdir: "Rəsulullah ﷺ nə öz yurdunda, nə də səfərdə hər ayın üç gününü oruc tutmağı tərk etməzdi".

Hədisi Nəsai həsən isnadla nəql etmişdir.[1]

**Şərh:**

Müəllif رحمه الله "**Birinci, dördüncü günlər oruc tutmağın müstəhəbliyi**" və "**Hər ayın üç günü oruc tutmağın müstəhəbliyi**" fəsillərini qeyd edir.

Birinci günə gəlincə, Rəsulullahdan ﷺ həmin günün orucu barədə soruşulduqda o demişdir: **"O gün mən anadan olmuşam, həmin gün peyğəmbər olmuşam, yaxud həmin gün mənə vəhy nazil olub".**

Rəsulullah ﷺ elə birinci gün də vəfat etmişdir.

Peyğəmbər ﷺ birinci gün anadan olub, bəs hansı ayda? – Bəlli deyil. Rabiul-əvvəl ayında, yoxsa başqa bir ayda? Həmin ayın on ikincü günü, yoxsa başqa bir günü? Dəqiq bilinən odur ki, o birinci gün anadan olub. Birinci gün də Peyğəmbərə ﷺ vəhy nazil olub – Qurani-Kərimdən ilk ayələr ona birinci gün nazil olub.

Bu yerdə ravi şübhə edir: "nazil oldu", yoxsa "göndərildim"? Onların arasında fərq var. Çünki o, elçi göndərilməmişdən öncə ona bu ayələr nazil olmuşdu: **"Yaradan Rəbbinin adı ilə oxu! O, insanı qan laxtasından yaratdı. Oxu! Sənin Rəbbin *müqayisəsiz* səxavətə malikdir. O, qələmlə *yazmağı* öyrətdi. İnsana bilmədiklərini öyrətdi".**[2]

Bu ayələrdən sonra o peyğəmbər oldu. Sonra isə bu ayələr nazil oldu və o rəsul oldu: **"Ey *libasına* örtünmüş *peyğəmbər*! Qalx və *insanları* xəbərdar et! Təkcə Rəbbini uca tut! Geyimini təmiz saxla! Pis şeyləri tərk et!"**[3] Bunlar isə birincidən sonradır.

Hər bir halda bu gündə bir sıra böyük və şərəfli hadisələr baş vermişdir: Peyğəmbərin ﷺ anadan olması, ona vəhy nazil olması və onun rəsul göndərilməsi.

---

[1] "Sunən ən-Nəsai", 2305.

[2] "əl-Ələq" surəsi, 1-5.

[3] "əl-Muddəssir" surəsi, 1-5.

Hər ay üç gün oruc tutmaqla bağlı isə bir sıra hədislər mövcuddur. Onlardan Əbu Hureyra, Əbu Dərda və Əbu Zərin hədislərini göstərmək olar. Bu üç nəfərə Peyğəmbər ﷺ fərqli vaxtlarda eyni tövsiyəni vermişdi. O onlara hər ay üç gün oruc tutmağı tövsiyə etmiş, Abdullah ibn Amr ibn əl-Asa رضي الله عنه da demişdir ki: **"Hər ay üç gün oruc tutmaq bütün ili oruc tutmağa bərabərdir".** Yəni üç gün. Yaxşı iş də on mislinə bərabərdir. Bu otuz gün edir. Beləcə, bu orucu tutan kəs bütün ili oruc tutmuş olur.

Peyğəmbər ﷺ onlara hər ay üç gün oruc tutmağı tövsiyə edir, lakin həmin günləri müəyyənləşdirmir – demir ki, ayın on üçü, on dördü və on beşi.

Peyğəmbər ﷺ onlara iki rükət duha namazı qılmağı da tövsiyə edir.

Duha namazının iki rükətinin vaxtı günəş bir nizə uzunluğunda qalxandan günortadan on dəqiqə öncəyədəkdir. Bütün bu vaxt duha namazının iki rükətinin vaxtıdır. Onu hər gün qılmaq Sünnədir. Çünki Peyğəmbər ﷺ demişdir: **"Adəm övladı hər səhər bütün əzalarına görə sədəqə verməlidir".**[1] Hər bədən üzvünün müqabilində. İnsan bədənində isə üç yüz altmış üzv var. Ona görə gərək hər gün üç yüz altmış sədəqə verməlisən. Sədəqə isə yalnız malla olmur. Hər bir "sübhanallah" kəlməsi sədəqədir, hər bir təkbir kəlməsi sədəqədir, hər bir "la ilahə illəllah" kəlməsi sədəqədir, yaxşı işlərə dəvət etmək sədəqədir, pis işlərdən çəkindirmək sədəqədir, insana öz miniyinə minməyə yardım etmək də sədəqədir, hətta insanın öz əhli ilə yaxınlıq etməsi də sədəqədir.

Ancaq Peyğəmbər ﷺ demişdir: **"Bütün bunların əvəzinə iki rükət duha namazı qılmaq kifayətdir".** Əgər sən iki rükət duha namazı qılsan, üzərinə vacib olan sədəqələri yerinə yetirmiş olursan. Qalanları isə nafilə olar.

Üçüncü tövsiyə isə "Yatmamışdan öncə vitr namazını qılmaq"dır. Bu da o kəsə aiddir ki, gecənin sonunda durmayacağından və gecənin sonunda vitri qıla bilməyəcəyindən qorxsun. Peyğəmbərdən ﷺ nəql olunmuş sünnə belədir.

Alimlər demişlər: "Belə adamlara ona görə yatmamışdan əvvəl vitr namazını qılmağı tövsiyə etmişdir ki, onların halı buna uyğun idi". Əbu Hureyra gecənin əvvəlində Peyğəmbərin ﷺ hədislərini öyrənir, sonunda isə yatırdı.

---

[1] "Musnəd İmam Əhməd", 5/167.

Üç gün oruc tutmağa gəlincə isə bunları ilk on gündə, orta on gündə və ya son on gündə tutmaq caizdir. Yaxud hər on gündən bir tutmaq da olar, hər həftə bir gün də tutmaq olar. Bütün bunlar icazəlidir – məsələ genişdir. Buna görə də Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ ayın hansı hissəsindən oruc tutmasına önəm verməzdi", – əvvəlindən, ortasından yoxsa axırından. Lakin on üçüncü, on dördüncü və on beşinci günləri oruc tutmaq daha yaxşı və daha əfzəldir. Bunlar "əl-bid" gunləri adlanır.

Dördüncü gün oruc tutmağa gəlincə isə bu da sünnədir. Lakin birinci gün oruc tutmaqdan bir az geridədir. Onların hər ikisi fəzilətli olsa da, birinci günün orucu daha əfzəldir. Onun fəziləti də ondadır ki, Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: **"Birinci və dördüncü gün əməllər ərz olunur, mən də istəyirəm ki, əməllərim ərz olunarkən oruclu olum".**

Ən fəzilətli oruc isə Davudun orucudur – bir gün oruc tutub, o biri gün oruc tutmamaq. Bu, gücü çatan kəsə və məşəqqət hiss etməyənə və oruca görə digər yaxşı əməlləri tərk etməyənə aiddir. Bu o kəsə də aiddir ki, oruc onu elm öyrənməkdən məhrum etmir. Çünki burada başqa ibadətlər də vardır. Əgər çoxlu oruc tutmaqla həmin əməlləri tərk edəcəksənsə, o zaman çox oruc tutma. Müvəffəq edən Allahdır.

# İki yüz otuz birinci fəsil

## Oruc tutanın yanında yemək yeyilməsinin fəziləti və yeyənin yanında yeyənə dua etməsi

**Mövzu ilə əlaqəli hədislər:**

١٢٦٥– عنْ زَيدِ بنِ خالدٍ الجُهَنِيِّ ﵁ عَن النَّبِيِّ ﷺ قالَ: « مَنْ فَطَّرَ صَائماً، كانَ لَهُ مِثْلُ أَجْرِهِ غَيْرَ أَنَّهُ لا يَنْقُصُ مِنْ أجْرِ الصَّائمِ شيءٍ ». رواه الترمذي وقالَ: حديثٌ حسنٌ صحيحٌ.

**1265.** Zeyd ibn Xalid əl-Cuhənidən ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim bir orucluya iftar verərsə, onun əcrinin mislini qazanar, onun qazandığı əcr oruc tutanın əcrindən az olmaz"**.

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən səhih hədisdir".[1]

١٢٦٦– وعَنْ أُمِّ عمَارَةَ الأَنْصارِيَّةِ ﵂ ، أَنَّ النبيَّ ﷺ دخلَ عَلَيْها، فقدَّمَتْ إِلَيْهِ طَعَاماً، فَقالَ: « كُلِي » فَقالَت: إِنِّي صائمةٌ، فقالَ رسولُ اللهِ ﷺ: « إِنَّ الصَّائمَ تُصلِّي عَلَيْهِ الملائِكَةُ إِذا أُكِلَ عِنْدَهُ حتَّى يَفْرَغُوا » وَرُبَّما قالَ: « حَتَّى يَشْبَعُوا » رواهُ الترمذيُّ وقالَ: حديثٌ حسنٌ.

**1266.** Ummu İmərа əl-Ənsariyyədən ﵂ rəvayət olunur ki, bir dəfə Peyğəmbər ﷺ onun yanına daxil oldu. Qadın ona ﷺ yemək təqdim etdi, o da dedi: "Ye". Qadın dedi: "Mən orucam". Rəsulullah ﷺ dedi: **"Oruc tutan adamın yanında yeyilən yemək bitənədək mələklər onun üçün dua edirlər"**. Ola bilsin ki: **"Doyanadək"** dedi.

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[2]

١٢٦٧– وعَنْ أَنسٍ ﵁ ، أَنَّ النبيَّ ﷺ جاءَ إِلى سَعْدِ بْنِ عُبادَةَ ﵁ ، فَجاءَ بِخُبْزٍ وَزَيْتٍ، فَأَكَلَ، ثُمَّ قالَ النبيُّ ﷺ: « أَفْطَرَ عِندكُمْ الصَّائمونَ، وأَكَلَ طَعَامَكُمْ الأَبْرَارُ وَصلَّتْ عَلَيْكُمُ الملائِكَةُ ». رواهُ أبو داود بإِسنادٍ صحيحٍ.

---

[1] "Musnəd İmam Əhməd", 4/114; "Sunən ət-Tirmizi", 735.

[2] "Sunən ət-Tirmizi", 716.

**1267.** Ənəsdən ﷺ rəvayət olunur ki, bir dəfə Peyğəmbər ﷺ Səd ibn Ubədənin ﷺ yanına gəlmişdi. O çörək və yağ gətirdi, Peyğəmbər ﷺ də yedi, sonra dedi: **"Oruc tutanlar sizin yanınızda iftar etsin, yeməyinizi yaxşı adamlar yesin və mələklər sizlərə salam desin"**.

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllif ﷺ "Salehlər bağçası" əsərində orucla bağlı ən son olaraq "**Oruc tutanın yanında yemək yeyilməsinin fəziləti və yeyənin yanında yeyənə dua etməsi"** fəslini qeyd edir.

Uca və nöqsansız Allahın öz bəndələrinə verdiyi nemətlərdəndir ki, onlara yaxşı işləri və təqva üzərində əməkdaşlıq etməyi əmr etmişdir. Oruclu insanlara iftar vermək də buna aiddir. Çünki oruclu adam iftar etməli və iftarı tezləşdirməlidir. Əgər buna yardım edilərsə, bu, izzət və cəlal sahibi Allahın nemətlərindəndir. Buna görə də Peyğəmbər ﷺ demişdir: **"Kim bir orucluya iftar verərsə, onun əcrinin mislini qazanar, qazandığı əcr də oruc tutanın əcrindən az olmaz".**

Alimlər **"Kim bir orucluya iftar verərsə"** sözünün mənası barəsində ixtilaf etmişlər. Bəziləri demişlər ki, burada iftarın açılması nəzərdə tutulur ki, bu da bircə xurma ilə də mümkündür. Bəziləri isə demişlər ki, burada "iftar vermək" dedikdə onu doyurmaq nəzərdə tutulur. Çünki oruclu olana gecə boyu fayda verən budur. Lakin zahirən belədir ki, oruclu adama xurma ilə iftar verən də onun savabını qazanmış olur. Ona görə də imkan daxilində oruc tutmuş kəslərə iftar verməyə həris olmaq lazımdır. Ələlxüsus da əgər oruc tutanlar kasıbdırsa və buna ehtiyacları varsa, evlərində də ehtiyaclarını ödəyəcək qədər yemək olmadıqda bunu etmək daha yaxşıdır.

Sonra müəllif ﷺ "Etikaf" fəslini qeyd edir.

---

[1] "Musnəd İmam Əhməd", 3/138; "Sunən İbn Macə", 1737.

# İki yüz otuz ikinci fəsil

## Ramazanda etikaf etməyin fəziləti

**Mövzu ilə əlaqəli hədislər:**

١٢٦٨– عنِ ابنِ عُمَرَ رضي الله عنهما ، قالَ: كانَ رسولُ اللهِ ﷺ يَعتَكِفُ العَشْرَ الأَوَاخِرَ مِنْ رَمَضَانَ. متفقٌ عليه.

**1268.** Rəvayət olunur ki, İbn Ömər رضي الله عنهما demişdir: "Rəsulullah ﷺ Ramazanın son on gününü etikaf edərdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٢٦٩– وعنْ عائشةَ رضي الله عنها ، أَنَّ النَّبيَّ ﷺ كانَ يَعْتَكِفُ العَشْرَ الأَوَاخِرَ مِنْ رَمَضانَ، حَتَّى تَوَفَّاهُ اللَّه تعالى، ثُمَّ اعْتَكَفَ أَزواجُهُ مِنْ بعْدِهِ. متفقٌ عليه.

**1269.** Aişədən رضي الله عنها rəvayət olunur ki, Rəsulullah ﷺ, Uca Allah onun canını alanadək Ramazanın son on gününü etikaf edərdi.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٢٧٠– وعَنْ أبي هُريرةَ، رضي الله عنه ، قالَ: كانَ النبيُّ ﷺ يَعْتَكِفُ في كُلِّ رَمَضَانَ عَشَرةَ أيَّامٍ، فَلَمَّا كَانَ العَامُ الَّذِي قُبِّضَ فِيهِ اعْتَكَفَ عِشرِينَ يَوْماً. رواه البخاريُّ.

**1270.** Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ hər Ramazanda on gün etikaf edərdi. Vəfat etdiyi il isə iyirmi gün etikaf etdi.

Bu hədisi Buxari rəvayət etmişdir.[3]

**Şərh:**

**Etikaf**, izzət və cəlal sahibi Allaha itaət məqsədilə məsciddə qalmaqdır.

---

[1] "Səhih əl-Buxari", 1885; "Səhih Muslim", 2003.

[2] "Səhih əl-Buxari", 1886; "Səhih Muslim", 2006.

[3] "Səhih əl-Buxari", 1903.

Etikafı Ramazanın son on günündə etmək buyurulub. Çünki Peyğəmbər ﷺ Ramazanın son on gününü etikaf edərdi. Sonra orta on günü də etikaf etdi. O, qədr gecəsinə nail olmaq istəyirdi. Sonra ona: "O, Ramazanın son on günündədir" deyildi və o, son on gündə etikaf etməyə başladı. Bununla da bəlli oldu ki, Ramazandan qeyri vaxtda etikaf edilmir.

Bəzi alimlər demişlər ki, insan məscidə getdikdə orada olduğu müddətdə etikaf etməyi niyyət etməlidir. Buna dəlil yoxdur – Peyğəmbər ﷺ bunu öz ümmətinə nə sözü ilə, nə də əməli ilə buyurmayıb. Yəni insanlara deməyib ki, məscidə getdikdə orada olduğunuz müddətə etikafa niyyət edin, özü də bunu etməyib. O, Ramazanın son on günündə etikaf edər və qədr gecəsini ibadətdə keçirərdi. Odur ki, etikaf edən kəs yalnız namaz, Quran oxumaq, zikr etmək, elm öyrənmək və s. kimi itaətlərlə məşğul olmalıdır. Alimlər demişlər: "Etikafda olan kəs elm öyrətməklə məşğul olmamalı, xüsusi ibadətlərlə məşğul olmalıdır. Çünki bu vaxt xüsusi vaxtlar üçün nəzərdə tutulmuşdur".

Zərurət olmadıqca, etikafda olan kəs məsciddən çıxmamalıdır. Məsələn, ona yemək-içmək gətirən olmasa, çıxıb yeyib-içib gələ bilər. Yaxud ayaqyoluna getmək və ya cənabət qüslü almaq üçün məsciddən çıxa bilər. Yaxud cümə namazı qılınmayan məsciddə etikaf edirsə, gedib cümə namazını qılıb qayıda bilər. Əlqərəz, etikaf edən kəs şəri və təbii səbəblər istisna olmaqla məsciddən çıxmamalıdır.

Sonra isə... Əgər birisi gəlib onu mənasız söhbətlərlə yayındırarsa, ona deməlidir ki: "Ay qardaş, mən etikafdayam. Ya mənə itaət etməkdə yardımçı ol, ya da məndən uzaqlaş". Uca Allah haqqı söyləməkdən utanmır. Qısa müddətə etikaf edənin yanında oturub qısa söhbət etmək isə olar. Çünki Peyğəmbər ﷺ məsciddə öz xanımlarını qarşılayar, onlarla söhbət edərdi. Müvəffəq edən Allahdır.

# HƏCC KİTABI

## İki yüz otuz üçüncü fəsil

### Həccin vacibliyi və fəziləti

**Mövzu ilə əlaqəli ayə:**

Uca Allah buyurur:

﴿ وَلِلَّهِ عَلَى ٱلنَّاسِ حِجُّ ٱلْبَيْتِ مَنِ ٱسْتَطَاعَ إِلَيْهِ سَبِيلًا ﴾

**"Yoluna gücü çatan hər kəsin *müqəddəs* Evi ziyarət etməsi Allahın insanlar üzərindəki haqqıdır".**[1]

**Mövzu ilə əlaqəli hədislər:**

١٢٧١– وَعَنِ ابن عُمرَ، رضي الله عنهما، أنَّ رَسُولَ اللَّهِ ﷺ، قَال: بُنِيَ الإسْلامُ عَلَى خَمْسٍ: شَهادَةِ أَنْ لا إلـه إلا اللَّه وأَنَّ مُحَمَّداً رسولُ اللَّهِ، وإِقَامِ الصَّلاةِ وإِيتَاءِ الزَّكَاةِ، وحَجِّ البيْتِ، وصَوْمِ رَمَضَانَ » متفقٌ عليهِ.

**1271.** İbn Ömərdən رضي الله عنهما rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"İslam beş *əsas* üzərində bina edilmişdir: Allahdan başqa ibadət haqqına malik məbudun olmadığına və Muhəmmədin Onun elçisi olmasına şəhadət etmək, namaz qılmaq, zəkat vermək, Evə həcc ziyarəti etmək, Ramazan orucu tutmaq"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٢٧٢– وعنْ أبي هُرَيْرةَ، رضي الله عنه، قالَ: خَطَبَنَا رسولُ اللَّه ﷺ، فَقَالَ: «يَا أَيُّهَا النَّاسُ إنَّ اللَّه قَدْ فَرضَ عَلَيْكُمُ الحَجَّ فحُجُّوا » فقَالَ رجُلٌ: أَكُلَّ عَامٍ يا رسولَ اللَّهِ؟ فَسَكتَ، حَتَّى قَالَها ثَلاثاً. فَقَال رَسُولُ اللَّهِ ﷺ: « لَوْ قُلْتُ نَعَمْ لَوجَبت وَلَمَا اسْتَطَعْتُمْ » ثُمَّ قَال: « ذَرُوني ما

---

[1] "Ali İmran" surəsi, 97.

[2] "Səhih əl-Buxari", 7; "Səhih Muslim", 16.

تـرِكْتُكُمْ، فَإِنَّمَا هَلَكَ مِنْ كانَ قَبْلَكُمْ بكَثْرَةِ سُؤَالِهِمْ، وَاخْتِلافِهِم عَلى أَنْبِيائِهِمْ، فإذا أَمَرْتُكُمْ
بِشَيءٍ فَأْتوا مِنْهُ مَا استطَعْتُم، وَإذا نَهَيتُكُم عَن شَيءٍ فَدعُوهُ». رواهُ مسلمٌ.

**1272.** Əbu Hureyranın ﷺ belə dediyi rəvayət olunur: "Bir dəfə Peyğəmbər ﷺ bizə xütbə verib dedi: **"Ey insanlar, şübhəsiz ki, Allah sizə həcc ziyarəti etməyi buyurmuşdur. Odur ki, həcc ziyarəti edin".** Bir nəfər: "Hər ili, ey Allahın rəsulu?" deyə soruşdu, o isə susdu. Həmin adam eyni sualı üç dəfə təkrar etdi, onda Rəsulullah ﷺ dedi: **"Əgər "bəli" desəm, vacib olar. Bunu isə bacarmazsınız"**. Sonra dedi: **"Sizi tərk etdiyim müddətdə siz də məni rahat buraxın. Sizdən öncəkilər çoxlu sual verdiklərinə və peyğəmbərləri ilə ixtilaf etdiklərinə görə həlak oldular. Sizlərə bir şey əmr etdiyimdə onu bacardığınız qədər edin. Sizə bir şeyi qadağan etdiyimdə isə ondan çəkinin"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllif ﷺ "Həcc kitabı"nı **"Həccin vacibliyi və fəziləti"** fəsli ilə açır.

**Həcc**, Uca və nöqsansız Allaha ibadət etmək məqsədilə müəyyən ayinləri icra etmək üçün Məkkəyə getməkdir.

Müsəlmanların yekdil rəyinə əsasən, həcc ziyarəti İslamın ərkanlarından biridir. Onun fərz olmasına dəlil Uca Allahın bu ayəsidir: **"Yoluna gücü çatan hər kəsin *müqəddəs* Evi ziyarət etməsi Allahın insanlar üzərindəki haqqıdır".**

Bu ayə hicrətin doqquzuncu ilində nazil olmuşdur. Həmin ilə "Nümayəndələr ili" də deyilir. Həcc həmin il fərz buyurulmuşdur. "əl-Bəqərə" surəsinin *196-cı* ayəsindəki **"Allah üçün həcc və ümrə ziyarətlərini tamamlayın"** əmri ilə isə həccin özü deyil, tamamlama fərz buyurulub. İlkin fərz buyurulma hicrətin doqquzuncu ilində "Ali İmran" surəsinin *97-ci* ayəsi ilə fərz buyurulmuşdur. Davamlılıq və tamamlama fərzi isə "əl-Bəqərə" surəsindəki *196-cı* ayə ilə, hicrətin altıncı ilində buyurulmuşdur.

[1] "Səhih Muslim", 2380.

Uca Allah buyurur: **“Yoluna gücü çatan hər kəsin *müqəddəs* Evi ziyarət etməsi Allahın insanlar üzərindəki haqqıdır.”** İnsanlara, yəni hər kəsə. Biz kafir olanların onların müsəlman olmadan həcc etməsini demirik. Müsəlmanlara gəlincə isə, onlar izzət və cəlal sahibi Allahın buyurduğu “**gücü çatan hər kəsin”** şərtinə əsasən həcc etməlidirlər. Yəni kim Məkkəyə gedə bilərsə, həcc etsin. Kim də kasıb olduğu üçün gedə bilməsə, həcc ona fərz deyil.

Aciz olması səbəbindən gedə bilməyənlərin halına baxırıq: əgər həmin acizliyin aradan qalxması mümkün deyilsə, özünün də pulu varsa, başqa adama pul verib həccə göndərə bilər. Yox, əgər həcc vaxtı yaranmış müvəqqəti xəstəlik kimi bir səbəbin aradan qalxma ehtimalı varsa, o zaman Allah ona şəfa verənədək gözləyir. Sonra özü həcc edir.

Sonra müəllif ﷺ İbn Ömərin ﷺ hədisini qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **“İslam beş *əsas* üzərində bina edilmişdir...”**.

Bu barədə daha öncə söhbət açmışıq və onu təkrarlamağa ehtiyac yoxdur. Burada dəlil: **“Evə həcc ziyarəti etmək”** ifadəsidir. Həcc ziyarəti ömürdə bir dəfə vacibdir. Yalnız həcc etməyə nəzir edən kəs bunu etməlidir. Lakin nəzir etməyən üçün yalnız bir dəfə fərzdir. Çünki Peyğəmbərdən ﷺ: “Hər ili?”– deyə soruşulduqda, o belə demişdi: **“Əgər “bəli” desəm, vacib olar. Bunu isə bacarmazsınız”.**

Həcc bir dəfədir, əlavə edilərsə, nafilədir. Bu da izzət və cəlal sahibi Allahın nemətlərindəndir ki, həcci ömürdə yalnız bir dəfə fərz etmişdir. Çünki insanların çoxuna Məkkəyə getmək məşəqqətlidir. Bu da bir hikmətdir. Görürsən ki, namaz gündə beş dəfə fərz buyurulub, cümə namazı həftədə bir dəfə. Çünki cümə namazı bütün şəhərdə bir məsciddə olmalıdır. Əgər biz insanlara desək ki, bütün namazlarda eyni məsciddə olun, bunda məşəqqət ola bilər. Buna görə də cümə namazı həftədə bir dəfə fərz buyurulmuşdur.

Zəkat vermək ildə bir dəfə fərz buyurulub. Oruc tutmaq ildə bir dəfə fərz buyurulub. Bu da Uca Allahın hikmət və rəhmətindəndir ki, bu fərzləri qullarının halına görə buyurmuşdur.

Peyğəmbər ﷺ buyurur ki: **“Əgər “bəli” desəm, vacib olar. Bunu isə bacarmazsınız”.** Sonra da buyurur ki: **“Sizi tərk etdiyim müddətdə siz də məni rahat buraxın”.** Yəni mənim haqqında susduğum məsələlər barəsində soruşmayın. Çünki halal olan, yaxud vacib olmayan bir məsələni

soruşmaqla həmin şeyin haram buyurulmasına səbəbkar olanın əməli çox böyük günahdır.

Lakin Peyğəmbərin ﷺ vəfatından sonra insanlar alimlərdən dini məsələlər barəsində soruşa bilərlər. Çünki vəhy dayanıb və artıq halal-haram hökmləri dəyişə bilməz – bundan sonra heç bir şey dəyişərək vacib və ya qeyri-vacib ola bilməz. Demək: **"Sizə agah olunca, xoşunuza gəlməyəcək şeylər barəsində soruşmayın".**

Sonra Peyğəmbər ﷺ bəyan edir ki, əvvəlkilərin məhvinə səbəb çoxlu sual vermələri və peyğəmbərləri ilə ixtilaf etmələri olub. Yəni onlar soruşa-soruşa həlak olurdular. İnək əhlinin halına bir baxın:

Bir zaman Musa onlara demişdi ki, bir inək kəsin, sonra ondan bir parça götürüb ölmüş adama vurun. İki qəbilə və ya tayfa arasında bir nəfər qətlə yetirilmişdi. Qəbilələrdən biri digərini həmin şəxsi qətlə yetirməkdə ittiham edir, o biri qəbilə isə bunu inkar edirdi. Həmin adamın öldürülməsinə şahidlər isə yox idi. Onlar Musanın yanına gəlirlər, o da Allahın əmrini onlara çatdırır ki, bir inək kəssinlər. Həmin vaxt onlar hər hansı bir inəyi kəsmiş olsaydılar, dərhal məqsədə çatacaqdılar. Lakin onlar: "Onun rəngi nədir? O necə bir inəkdir?" kimi suallar verə-verə məsələni qəlizləşdirdilər, Allah da onlar üçün qəlizləşdirdi. Sonda həmin inəyi kəsdilər. Az qala heç kəsməyəcəkdilər.

Xülasə, çoxlu sual vermək və peyğəmbərlərlə ixtilaf etmək həlak olmanın səbəblərindəndir. Bütün bunlar da Peyğəmbərin ﷺ sağ olduğu və şəriətin nazil olduğu vaxta aiddir. İndi isə istədiyin qədər sual verib soruşa bilərsən və bunda heç bir qəbahət yoxdur.

Tapmaca suallara və çətinliyə səbəb olan suallara gəlincə isə, bunları vermək qadağandır. Çünki Peyğəmbər ﷺ demişdir: **"Xırdalığa varanlar həlak oldular, xırdalığa varanlar həlak oldular, xırdalığa varanlar həlak oldular".** Daha doğrusunu Allah bilir.

١٢٧٣– وَعنْهُ قال: سُئِلَ النبي ﷺ: أَيُّ العَمَلِ أَفضَلُ؟ قال: « إيمانٌ بِاللَّهِ ورَسُولِهِ» قيل: ثُمَّ ماذَا؟ قال: « الجِهَادُ في سَبِيلِ اللَّهِ » قيل: ثم ماذا؟ قَال: « حَجٌّ مَبرُورٌ » متفقٌ عليهِ.

المَبرُورُ هُوَ الَّذِي لا يَرْتَكِبُ صَاحِبُهُ فِيهِ معْصِية.

**1273.** Yenə Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbərdən ﷺ: "Hansı əməl daha əfzəldir?"– deyə soruşdular, o da: **"Allaha və Rəsuluna iman gətirmək"**– dedi. Dedilər: "Sonra hansı?" Dedi: **"Allah yolunda cihad etmək".** Dedilər: "Sonra hansı?" Dedi: **"Qəbul olunan həcc"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

"Qəbul olunan həcc", yəni "sahibi günah işlər görməyən həcc".

١٢٧٤– وَعَنْهُ قالَ: سَمِعْتُ رسُولَ اللَّهِ ﷺ يَقولُ: « منْ حجَّ فَلَم يرْفُثْ، وَلَم يفْسُقْ، رجَع كَيَومِ ولَدتْه أُمُّهُ ». متفقٌ عليه.

**1274.** Yenə ondan rəvayət olunur ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Kim günah iş görmədən və fasiqlik etmədən həcc ziyarəti edərsə, anası onu dünyaya gətirdiyi kimi geri dönər".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٢٧٥– وعَنْهُ أَنَّ رسولَ اللَّهِ ﷺ قالَ: « العُمْرَة إلى العُمْرةِ كَفَّارةٌ لما بيْنهُما، والحجُّ المَبْرُورُ لَيس لهُ جزَاءٌ إلاَّ الجَنَّةَ ». متفقٌ عليهِ.

**1275.** Yenə ondan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Bir ümrə digər ümrəyədək aralarındakı günahlara kəffarədir. Qəbul olunan həccin isə əvəzi yalnız Cənnətdir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

١٢٧٦– وَعَنْ عَائِشَةَ ﷺ قَالَتْ: قُلْتُ يا رَسُولَ الله، نَرى الجِهَادَ أَفضَلَ العملِ، أفَلا نُجاهِدُ؟ فَقَالَ: « لكِنْ أَفضَلُ الجِهَادِ: حَجٌّ مبرُورٌ » رواهُ البخاريُّ.

**1276.** Rəvayət olunur ki, Aişə ﷺ demişdir: «Mən dedim: "Ey Allahın elçisi, belə görürük ki, əməllərin ən xeyirlisi cihaddır. Biz də cihad etməyəkmi?" Dedi: **"Ancaq cihadın da ən fəzilətlisi qəbul olunan həcdir"**».

---

[1] "Səhih əl-Buxari", 25; "Səhih Muslim", 118.
[2] "Səhih əl-Buxari", 1424; "Səhih Muslim", 2404.
[3] "Səhih əl-Buxari", 1650; "Səhih Muslim", 2403.

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

١٢٧٧– وَعَنْهَا أنَّ رَسُولَ اللَّهِ ﷺ، قَالَ: « ما مِنْ يَوْمٍ أَكْثَرَ مِنْ أنْ يعْتِقَ اللَّه فِيهِ عبْداً مِنَ النَّارِ مِنْ يَوْمِ عَرَفَةَ ». رواهُ مسلمٌ.

**1277.** Yenə ondan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Ərəfa günündən daha çox Uca Allahın öz qullarını Cəhənnəmdən azad etdiyi bir gün yoxdur"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٢٧٨– وعنِ ابنِ عباسٍ رضي الله عنهما أنَّ النبي ﷺ قال: « عُمرَةٌ في رمَضَانَ تَعدِلُ عَمْرَةً أَوْ حَجَّةً مَعِي » متفقٌ عليهِ.

**1278.** İbn Abbasdan رضي الله عنهما rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Ramazanda edilən ümrə mənimlə birlikdə edilmiş həccə və ya ümrəyə bərabərdir"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

**Şərh:**

Hafiz ən-Nəvəvi رحمه الله bu hədisləri "Həccin vacibliyi və fəziləti" fəslində qeyd etmişdir. Bu da bəzi məsələlərə dəlalət edir:

Qəbul olunmuş həcc ən fəzilətli əməllərin üçüncü mərtəbəsində yer tutur. Peyğəmbərdən ﷺ: "Hansı əməl daha əfzəldir?"– deyə soruşdular, o da: **"Allaha və Rəsuluna iman gətirmək"**– dedi. Dedilər: "Sonra hansı?" Dedi: **"Allah yolunda cihad etmək".** Dedilər: "Sonra hansı?" Dedi: **"Qəbul olunan həcc"**.

Qəbul olunan həcc özündə bir neçə məsələni cəm edir:

**Birinci məsələ:** Həcc ixlasla edilməlidir – insanı həcc ziyarətinə aparan məqsəd Uca və nöqsansız Allahın razılığını qazanmaq və Ona yaxınlaşmaq istəyi olmalıdır. Riyakarlıq etmək və özünü göstərmək, insanların

---

[1] "Səhih əl-Buxari", 1423.

[2] "Səhih Muslim", 2402.

[3] "Səhih əl-Buxari", 1730; "Səhih Muslim", 2202.

onun haqqında: "Filankəs hacıdır"– demələri üçün etməməli, həcci yalnız və yalnız Allahın üzü xatirinə etməlidir.

**İkinci məsələ:** Həcc ziyarəti Peyğəmbərin ﷺ həcc etdiyi kimi olmalıdır. Yəni həcc edən kəs bacardığı qədər Rəsulullaha ﷺ tabe olmalıdır.

**Üçüncü məsələ:** Həcc haram maldan deyil, mübah maldan olmalı, sələm, saxtakarlıq, qumar və s. buna bənzər haram qazanclarla edilməməlidir. Buna görə də bəziləri deyiblər ki:

*Ey əsli qəzəbdən olan malla həccə gedən kəs!*
*Sən həcc etməmisən, sadəcə miniyin həcc edib.*

Yəni dəvən həcc edib, sən isə həcc etməmisən. Çünki malın haramdır.

**Dördüncü məsələ:** Orada qadını ilə yaxınlıq etməkdən, fasiqlik və mübahisə etməkdən çəkinməlidir. Uca Allah buyurur: **"Bu aylarda həcci yerinə yetirməyi niyyət edən kəs həcc *ziyarəti* əsnasında *qadınıyla* yaxınlıq etməməli, günah işlər görməməli və mübahisələrə qoşulmamalıdır".**[1] Yəni cinsi əlaqəyə və ona aid olan işlərə yaxın durmamalı, fasiqlikdən uzaq olmalıdır. Bu həm qeybət, söz gəzdirmək, yalan danışmaq kimi sözlə olan əməllərə, həm də qadınlara baxmaq və buna bənzər işlərə aiddir. Deməli, həcc edən cinsi əlaqədən və fasiqlikdən uzaq olmalıdır.

**Mübahisə,** insanların bir-biri ilə həcc əsnasında mübahisə və mücadilə etməsidir. Bu da həccin savabını azaldır. Yalnız haqqı sübut etmək, batili isə dəf etmək üçün olan mübahisə istisnadır – bunu etmək vacibdir. Məsələn, ehramda olan bir bidətçi gəlib birisi ilə mübahisə edərsə, o tərk edilməməli və haqq ona bəyan edilməlidir. Çünki bunu Uca Allah əmr edir: **"*İnsanları* Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et".**[2]

Lakin ciddi bir səbəb olmadan cəməratda, təvaf edərkən, yaxud başqa bir məqamda olan mübahisə səbəbindən insanlar *stress keçirir və* bir-birinə qarşı qəzəbli olur ki, bütün bunlar da həccin savabını azaldır. Qəbul olunmuş həccin mükafatı isə yalnız Cənnətdir.

---

[1] "əl-Bəqərə" surəsi, 197.
[2] "ən-Nəhl" surəsi, 125.

**“Kim günah iş görmədən və fasiqlik etmədən həcc ziyarəti edərsə, anası onu dünyaya gətirdiyi kimi geri dönər”**. Yəni anasından dünyaya gəldiyi gün günahlardan necə təmiz idisə, qəbul olunmuş həcc ilə də günahlarından o cür təmizlənmiş olar.

Aişədən رضي الله عنها nəql olunmuş hədisdə o Peyğəmbərdən ﷺ soruşur ki, biz görürük ki, ən əfzəl əməl cihaddır. O da buyurur ki: **“Ancaq cihadın da ən fəzilətlisi qəbul olunan həcdir”**.

Bu, qadınlara aiddir – qadınların cihadı həcdir. Kişilər üçün isə Allah yolunda cihad etmək həcc ziyarətindən daha əfzəldir. Çünki fərz İslamın rüknlərindən biridir.

Bu hədis dəlildir ki, əməllər onu edənə görə fərqlənir. Əbu Hureyradan رضي الله عنه nəql olunan hədisdə deyilir ki, Rəsulullahdan ﷺ hansı əməlin daha əfzəl olduğunu soruşurlar, o da buyurur ki: **“Allaha və rəsuluna iman gətirmək”**. Dedilər: “Sonra hansı?” Dedi: **“Allah yolunda cihad etmək”**. Dedilər: “Sonra hansı?” Dedi: **“Qəbul olunan həcc”.**[1]

İbn Məsuddan رضي الله عنه nəql olunan hədisdə o Peyğəmbərdən ﷺ soruşdu ki, “Allah üçün ən sevimli əməl hansıdır?” Dedi ki: **“Vaxtında qılınan namaz”.** Dedi: “Sonra hansı?” Dedi: **“Valideyinlərə yaxşılıq etmək”.** Dedi: “Sonra hansı?” Dedi: **“Allah yolunda cihad etmək”.**

Beləcə, o ﷺ hər kəsə onun halına uyğun xitab edir. Məsələn, bir kişi Peyğəmbərə ﷺ: “Mənə tövsiyə et”– dedikdə, o: **“Qəzəblənmə”** demişdi. Kişi yenə: “Mənə tövsiyə et”– deyir, o da yenə: **“Qəzəblənmə”** deyir. Kişi yenə: “Mənə tövsiyə et”– deyir, o da yenə: **“Qəzəblənmə”** deyir. O ona demir ki, sənə Allahdan qorxmağı, yaxşı işlər görməyi tövsiyə edirəm. Çünki o adamın halına uyğun idi ki, ona məhz qəzəbini boğması tövsiyə olunsun. Çünki o, çox qəzəblənən idi. Rəsulullah ﷺ da hər adamın halına görə ona xitab edirdi. O bilirdi ki, bu adam şəriətin ümumi göstərişlərinə, əməllərin mərtəbələrinin bəyanına riayət edir. Müvəffəq edən Allahdır.

١٢٧٩– وَعَنْهُ أنَّ امرَأَةً قالَتْ: يا رَسُولَ اللَّهِ، إنَّ فَرِيضَةَ اللَّهِ على عِبَادِهِ في الحجِّ، أَدْرَكَتْ أبي شَيخاً كَبِيراً، لا يَثبُتُ عَلى الرَّاحِلَةِ أَفَأْحُجُّ عَنهُ؟ قال: « نعم ». متفقٌ عليهِ.

[1] “Səhih əl-Buxari”, 26.

**1279.** Yenə İbn Abbasdan ﷺ rəvayət olunur ki, bir qadın dedi: “Ey Allahın elçisi, Allah öz qullarına həcci fərz buyurmuşdur. Atam isə miniyin üzərində otura bilməyən yaşlı bir kişidir. Mən onun əvəzinə həcc edimmi?” Dedi: **“Bəli”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٢٨٠– وعن لقيطِ بنِ عامرٍ رضي الله عنه أنَّهُ أتى النبي ﷺ، فقال: إنَّ أبي شيخٌ كبيرٌ لا يستَطِيعُ الحجَّ، ولا العُمرَةَ، ولا الظَّعَنَ، قال: « حُجَّ عَنْ أَبِيكَ واعْتمِرْ».

رواهُ أَبو داودَ، والترمذيُّ وقال: حديثٌ حسنٌ صحيح.

**1280.** Ləqit ibn Amirdən ﷺ rəvayət olunur ki, bir dəfə o, Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Atam yaşlı adamdır, həcc və ümrə edə bilmir”. Dedi: **“Atanın yerinə həcc və ümrə et”.**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: “Bu, həsən səhih hədisdir” demişdir.[2]

١٢٨١– وعَنِ السائبِ بنِ يزيدَ، رضي الله عنه، قال: حُجَّ بي مَعَ رسولِ اللَّهِ ﷺ، في حَجةِ الوَداعِ، وأَنَا ابنُ سَبعِ سِنِينَ. رواه البخاريُّ.

**1281.** Saib ibn Yəziddən ﷺ rəvayət olunur ki, o, demişdir: “Mənim yeddi yaşım olanda Vida həccində Rəsulullahla ﷺ birlikdə mənimlə həcc edilmişdi”.

Bu hədisi Buxari rəvayət etmişdir.[3]

١٢٨٢– وَعنِ ابنِ عبَّاسٍ، رضي الله عنهما، أَنَّ النبي ﷺ، لَقِيَ رَكْباً بِالرَّوْحَاءِ، فَقَالَ: « منِ القَوْمُ؟ » قَالُوا: المسلِمُونَ. قَالُوا: منْ أَنتَ؟ قَالَ: « رسولُ اللَّهِ » فَرَفَعَتِ امْرَأَةٌ صَبِياً فَقَالتْ أَلِهَذا حجٌّ؟ قَالَ: « نَعَمْ ولكِ أَجرٌ » رواهُ مُسلمٌ.

[1] “Səhih əl-Buxari”, 1417; “Səhih Muslim”, 2375.

[2] “Musnəd İmam Əhməd”, 4/11; “Sunən Əbu Davud”, 1545; “Sunən ət-Tirmizi”, 852; “Sunən ən-Nəsai”, 2574; “Sunən İbn Macə”, 2897.

[3] “Səhih əl-Buxari”, 1725.

**1282.** İbn Abbasdan ﷺ rəvayət olunur ki, bir dəfə Peyğəmbər ﷺ Rəuhada minikli bir adamla rastlaşdı və dedi: **"Hansı qövmsünüz?"** Dedilər: **"Müsəlmanlar"**. Dedilər: "Bəs sən kimsən?" Dedi: **"Allahın elçisi"**. Bu zaman bir qadın əlindəki uşağı qaldırıb soruşdu: "Bu uşağa həcc düşürmü?" Dedi: **"Bəli, sənə də əcr var"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٢٨٣– وَعَنْ أ نسٍ، رضي الله عنه، أنَّ رسول اللَّهِ ﷺ حَجَّ على رَحْلٍ، وَكَانتْ زامِلَتَهُ. رواه البخاريُّ.

**1283.** Ənəsdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ bir dəfə minik üzərində namaz qıldı, o da öz miniyi idi.

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

١٢٨٤– وَعَنِ ابنِ عبَّاسٍ، رضي الله عنهما، قَالَ: كَانَت عُكاظُ وَمِجَنَّةُ، وَذو المجَازِ أَسْواقاً في الجَاهِلِيَّةِ، فَتَأَثَّمُوا أن يَتَّجرُوا في المواسِمِ، فَنَزَلتْ: { لَيْسَ عَلَيْكُمْ جُنَاحٌ أن تَبْتَغُوا فَضلاً مِن رَبِّكُم } [البقرة: ١٩٨ ] في مَوَاسِم الحَجِّ. رواهُ البخاريُّ.

**1284.** Rəvayət olunur ki, İbn Abbas ﷺ demişdir: "Ukaz, Məcənnə və Zul-məcəz cahiliyyət dövrünün bazarları idi. Onlar mövsümlərə görə ticarət edirdilər. Sonra bu ayə nazil oldu: **"Rəbbinizin fəzilətini istəyərək alış-veriş etməniz günah deyildir".**[3] **–** həcc mövsümündə".

Bu hədisi Buxari rəvayət etmişdir.[4]

**Şərh:**

Hafiz ən-Nəvəvinin ﷺ qeyd etdiyi bu hədislər "Həccin vacibliyi və fəziləti" fəslindədir.

---

[1] "Səhih Muslim", 2377.
[2] "Səhih əl-Buxari", 1420.
[3] "əl-Bəqərə" surəsi, 198.
[4] "Səhih əl-Buxari", 4157.

Birinci və ikinci hədislər həccə getməyə aciz olanlar haqqındadır. Bu zaman başqaları onların əvəzinə gedə bilərlərmi? İbn Abbasdan rəvayət olunur ki, bir qadın Peyğəmbərə ﷺ deyir ki, atama Allahın öz qullarına fərz buyurduğu həcc barədə xəbər verilib. O isə qoca kişidir, minik üzərində otura bilmir. Onun yerinə həcc edimmi? Dedi: "Bəli".

Bu da dəlildir ki, yaşlılıq, davamlı xəstəlik kimi sağalmaz bir səbəbə görə həcc etmək iqtidarında olmayan kəsin əvəzinə həcc etmək olar.

Bu ona da dəlildir ki, qadın kişinin əvəzinə, həmçinin kişi qadının, yaxud qadın qadının əvəzinə həcc edə bilər. Bütün bunlar caizdir. Buna görə də Peyğəmbərə ﷺ yaşlı olması və minik üzərində otura bilməməsi səbəbindən həcc və ümrə edə bilməyən atası barədə xəbər verən adama Peyğəmbər ﷺ: **"Atanın yerinə həcc və ümrə et"**– demişdir.

Bu hədislər uşaqların da həcc etməsinin caizliyinə dəlildir. Saib ibn Yezidin dediyinə bir baxın: "Mənim yeddi yaşım olanda Vida həccində Rəsulullahla ﷺ birlikdə mənimlə həcc edilmişdi".

Həccə aparılmışdı. Bu da dəlildir ki, uşaqlarla həcc etmək olar. Elə İbn Abbasın رضي الله عنه da hədisində deyilir ki, bir qadın əlindəki uşağı qaldırıb: "Buna həcc vacibdirmi?"– deyə soruşur, Peyğəmbər də: **"Bəli, sənə də əcr var"**– deyir.

Bu iki hədis uşaqların həccə getmələrinin caizliyini göstərir.

Bu zaman uşaq da böyüklərin etdiyini edir. Bir şeyi edə bilmədikdə onun əvəzinə etmək olar. Əvəz etmək mümkündürsə, onun əvəzinə edilir. Hansısa ayini eyni zamanda onun da əvəzinə etmək olmazsa, qucağa götürülür. Məsələn, təvaf edə bilmirsə, onu qucağa götürmək olar. Daş ata bilmirsə, onun əvəzinə atılır. Çünki onu cəmərata aparmaq məşəqqətlidir və ola bilsin ki, buna dözməsin. Ona görə ki, əli ilə atmır. Buna görə deyirik ki, təvafda və səydə onu daşımaq olar, daşı da onun əvəzinə atmaq olar.

Sual oluna bilər ki, yaxşı, bəs təvaf və səy edən kəs uşağı da daşıyırsa, bu zaman öz yerinə də etmiş olurmi? Belə olduqda həm özü, həm də uşaq üçünmü niyyət edir?

Biz deyirik: Xeyr, burada təfsilata ehtiyac var. Əgər uşaq niyyətin nə olduğunu anlayırsa, vəlisi ona: "təvaf etməyə niyyət et, səy etməyə niyyət et" deyir və onu qucağa götürüb təvaf edir. Bu zaman o özü üçün niyyət edir, uşaq özü üçün. Yox, əgər uşaq niyyətin nə olduğunu anlamırsa, o zaman onu götürüb təvaf etmir. Əvvəlcə hər ikisi üçün niyyət edir – biri özü üçün, biri də onun üçün. Sonra birinci özü üçün təvaf edir, sonra da uşaq üçün. Çünki bir niyyətlə iki əməl edilməz. Təvaf məsələsindəki fərq bundan ibarətir.

Sonra isə... Əgər insan başqasının əvəzinə həcc edirsə, bacardığı qədər çalışmalıdır ki, həccin ərkanlarını, vaciblərini, tamamlayıcılarını tamam yerinə yetirsin. Çünki o, başqasının yerinə ziyarət edir. Başqasının əvəzinə heç bir əmələ səhlənkar yanaşmamalıdır. Özü üçün həcc etdikdə isə fərqlidir. Özü üçün həcc edən adam müstəhəb bir əməli tərk edə bilər. Başqası üçün həcc etdikdə isə çalış əlindən gələni edəsən.

Uşağın həcci İslam həccini əvəz etmir. Çünki o, mükəlləf deyil. Ona həcc həddi-büluğa çatdıqda vacib olur. Müvəffəq edən Allahdır.

# CİHAD KİTABI

## İki yüz otuz dördüncü fəsil

### Cihadın fəziləti

Müəllif Hafiz ən-Nəvəvi ﷺ "Salehlər bağçası" əsərinin bu yerində **"Cihad kitabı"**nı açır və **"Cihadın fəziləti"** fəslini qeyd edir.

**Cihad**, "cəhd etmək" sözündəndir. Mənası düşməni dəf etmək üçün cəhd etməkdir.

Cihad üç qisimdir:
***Birinci qismi*** nəfslə cihaddır.
***İkinci qismi*** münafiqlərə qarşı cihaddır.
***Üçüncü qismi*** müharibə edən kafirlərə qarşı cihaddır.

İkinci və üçüncü qisimlər birinciyə əsaslanır.

**Birinci qisim:** Nəfslə cihad.

Nəfslə cihad vacibləri yerinə yetirməyə, haramlardan çəkinməyə cəhd etməkdir. Çünki nəfsə qarşı mübarizə aparılmasına daim ehtiyac var. Belə ki, hər bir insanın iki nəfsi var: pis işlərə əmr edən nəfs, bir də xeyirli işlərə əmr edən nəfs. Bu iki nəfs hər zaman bir-biri ilə mübarizədədirlər. Pis işləri əmr edən nəfs çalışır ki, insan pis işlər görsün. O buna çox əmr etdiyi üçün mübaliğə formasında verilmişdir. Bu çoxluq mənasındadır. Onun təbiətindəndir ki, pis işləri əmr etsin. Yəni nisbi bir şeydir. Nəccar, Sənna və başqa buna bənzər sözlər də onun kimidir.

Bu iki nəfs hər zaman bir-birilə mübarizədədirlər. İnsan da yaxşı işlər əmr edən nəfsi ilə pis işləri əmr edən nəfsinə qarşı mübarizə aparır. Özünü bir yoxla: yaxşı bir iş görmək istədikdə daxilində elə bir şey hiss edirsən ki, səni pis iş görməyə sövq edir. Deyir ki, sən belə xeyirli iş etdin, ona görə belə oldu. Beləcə, sən cihad aparırsan. İnsanın özünə qarşı ən əzəmətli cihadı ibadətlərdə, davranışda, elm tələb edərkən və digər bütün hallarda ixlaslı olması ilədir.

Bəzi sələflər demişlər: "Nəfsimə qarşı ixlasdan daha çox heç bir şeylə cihad aparmadım". Çünki insanın qəlbi özünü başqalarına göstərməyə və ya axirət əməli ilə dünya mənfəəti əldə etməyə meyl edə bilər.

İxlas çətin və böyük məsələdir, çoxlu əziyyət tələb edir. İxlasla deyilən bir kəlmə sahibini Cəhənnəm odundan qurtarıb Cənnətə sala bilir. Buna görə də Peyğəmbər ﷺ demişdir: **"Qiyamət günü mənim şəfaətimə ən çox layiq olanlar səmimi qəlbdən "La ilahə illəllah" deyənlər olacaq".**[1] Peyğəmbər ﷺ həmçinin demişdir: **"Kimin son sözü "La ilahə illəllah" olarsa, Cənnətə daxil olar".**[2]

İxlasla deyilən bir kəlmə sahibini bu böyük məqama yetişdirir, Cəhənnəmdən qoruyur və Cənnətə daxil edir. Buna görə də sələflər ixlasın haqqını vermiş, onunla nəfslərinə qarşı cihad aparmış, çalışmışlar ki, bütün əməlləri izzət və cəlal sahibi Allah üçün olsun. Allaha qarşı ixlaslı olaraq insan Peyğəmbərə ﷺ də tabe olmalıdır. Çünki Allaha ixlasla çatmaq istəyən kəs Ona doğru aparan yolu tutub getməlidir. Allaha doğru aparan yeganə yol isə Muhəmmədin yoludur – bizlər ona tabe olmalıyıq. Buna görə deyirlər ki, "məqsəddə Allaha qarşı ixlaslı olmaq gərəkdir; Peyğəmbərə qarşı ixlaslı olmaq isə ona tabe olmaqdır".

Nəticə: Münafiqlərə və müharibə edən kafirlərə qarşı cihad nəfsi cihadın üzərində inşa edilir. Hətta bütün əməllər nəfsi cihadın üzərində inşa edilir. Burada bir hədisi xatırlatmaq istəyirəm. Rəvayət olunur ki, Peyğəmbər ﷺ Təbuk döyüşündən qayıdarkən demişdir: **"Kiçik cihaddan böyük cihada qayıtdıq".**[3] Yəni nəfsi cihada.

İnsanların dilində məşhurlaşmış hədislərdən olsa da, bu hədisin əsli yoxdur. Peyğəmbərin ﷺ belə dediyi səhih deyil. Bəzən insanların dilində əsli olmayan bəzi hədislər məşhurlaşır. Əslində isə onlar səhih olmurlar. Məsələn, deyirlər ki: "Vətəni sevmək imandandır". Bu səhih deyil – İslam diyarını sevmək imandandır. Vətənə gəlincə isə, ola bilsin ki, insan doğulduğu küfr diyarından İslam diyarına hicrət etsin. Bu zaman onun öz vətənini sevməsi imandan deyil. Əksinə, küfr diyarına və əhlinə nifrət edilir. İslam diyarını, vətənin olmasa belə, sevmək isə imandandır.

Bu, cihadın birinci növüdür: nəfslə cihad. Münafiqlərə və hərb edən kafirlərə qarşı cihad da bunun üzərində bina edilir.

---

[1] "Səhih əl-Buxari", 97.

[2] "Musnəd İmam Əhməd", 5/233; "Sunən Əbu Davud", 2709.

[3] "Tarix Bağdad", 13/523; "Kəşful-xafə", 1/511, 1362; "əl-Fəthus-səmavi", 2/513, 393; "Təxricul əhadisi val-əsar", 2/395, 825.

**İkinci qisim:** Münafiqlərə qarşı cihad.

Münafiqlərə qarşı cihad aparmaq da olduqca çətin bir işdir. Çünki münafiq gizli düşməndir, hətta əsl düşməndir. Bax, gör Uca Allah onlar haqqında nə buyurur: **"Onlar düşməndirlər, sən onlardan çəkin! Allah onları məhv etsin, necə də *haqdan* üz çevirirlər".**[1]

**"Onlar düşməndirlər"** sözü xəbər cümləsidir. Hər iki tərəfi müəyyən formada olduğu üçün yalnız onlara aiddir. Yəni, sanki buyurur ki, sənin münafiqlərdən başqa düşmənin yoxdur.

Münafiqlər, Allah qorusun, bizim aramızdadırlar – namaz qılır, sədəqə verir, oruc tuturlar, bizlərdən biri olduqlarını iddia edirlər. Lakin onlar aramızdakı casuslardır: **"Onlar möminlərlə rastlaşdıqda: "Biz iman gətirdik!"– deyirlər, öz şeytanları ilə xəlvətə çəkildikdə isə: "Şübhəsiz ki, biz sizinləyik. Biz *möminlərə* ancaq istehza edirik"– deyirlər".**[2]

Ola bilsin ki, biri elm tələbəsinin yanına gəlir, ona öz rəğbətini bildirir. Dostları ona deyəndə ki, sən niyə onun yanına gedirsən, deyir ki, onunla məzələnirəm. Bu, Peyğəmbərin ﷺ zamanında olduğu kimi, bizim də zamanımızda vardır. Bəs bu münafiqə qarşı necə cihad aparmalıyıq?!

Münafiqi qılıncla vurmaq olmaz. Niyə? – Çünki o, mömin olduğunu iddia edir. Ona görə də hər dəfə Peyğəmbərdən ﷺ münafiqləri qətlə yetirmək üçün izin istənildikdə o buna qarşı çıxmış və demişdir: **"İnsanlar deməsinlər ki, Muhəmməd öz əshabələrini öldürür".**[3]

Onlar zahirən müsəlmandırlar – müsəlman. Ona görə də onlara qarşı qılınc (silah) qaldırmaq olmaz. Belə isə onlara qarşı necə cihad aparaq?!

Onlarla elmi söhbətlər aparmaq lazımdır. Ümidsiz olma, demə ki, bu münafiqdir. Peyğəmbərin ﷺ zamanında bəzi münafiqlər tövbə etmişdilər. Uca Allah buyurur: **"O, sizin üzərinizə göndərməyə qadirdir".** Onlar kimdir? – Münafiqlər: **"Onlardan *nə üçün istehza etdiklərini* soruşsan, deyərlər: "Biz sadəcə boş-boş danışıb zarafatlaşırdıq". De: "Allaha, Onun ayələrinə və Onun elçisinə istehzamı edirsiniz? Üzrxahlıq etməyin! İman gətirdikdən sonra artıq kafir oldunuz". Sizlərdən bir qismini bağışlasaq da, digərlərinə günahkar olduqlarına görə əzab verərik".**[4]

---

[1] "əl-Münafiqun" surəsi, 4.

[2] "əl-Bəqərə" surəsi, 14.

[3] "Səhih əl-Buxari", 4525; "Səhih Muslim", 4682.

[4] "ət-Tövbə" surəsi, 65-66.

Bəs əfv nə zaman olur? – İman gətirdikdə və nifaqdan tövbə etdikdə. Ola bilsin ki, Allah münafiqin tövbəsini qəbul etsin. Ona görə də ümidsiz olma. Onunla elm, bəyan və nəsihətlə cihad et. Onu doğru yola çək, onu cəzadan çəkindir. Münafiqə qarşı cihad budur.

**Üçüncü qisim:** Müharibə edən kafirlərə qarşı cihad aparmaq.

Müharibə edən kafirlərə qarşı cihad aparmağa gəldikdə isə, müəllif bu fəsildə məhz bunu nəzərdə tutmuşdur. O, bu xüsusda bir sıra ayələr və hədislər qeyd etmişdir. Onların bəyanı inşəAllah gələcəkdir. Daha doğrusunu Allah bilir.

**Mövzu ilə əlaqəli ayə:**
Uca Allah buyurur:

﴿ وَقَٰتِلُواْ ٱلۡمُشۡرِكِينَ كَآفَّةٗ كَمَا يُقَٰتِلُونَكُمۡ كَآفَّةٗۚ وَٱعۡلَمُوٓاْ أَنَّ ٱللَّهَ مَعَ ٱلۡمُتَّقِينَ ﴾

**“Müşriklər hamısı bir yerdə sizinlə vuruşduqları kimi, siz də hamınız bir yerdə onlarla vuruşun və bilin ki, Allah müttəqilərlədir”.**[1]

**Şərh:**

Qeyd etdik ki, cihad üç növdür və Uca Allah dilədiyi qədər bu haqda danışdıq. Sonra müəllif bu xüsusda varid olmuş ayələrdən söhbət açmışdır. Uca Allah buyurur: **“Müşriklər hamısı bir yerdə sizinlə vuruşduqları kimi, siz də hamınız bir yerdə onlarla vuruşun və bilin ki, Allah müttəqilərlədir”.**

**“Hamısı”**, yəni ümumi şəkildə. Onlar “la ilahə illəllah” deyənədək, namaz qılıb, zəkat verib, oruc tutub, həcc edənədək onlara qarşı vuruşmalıyıq. Əks halda, zəlil halda cizyə vergisi ödəməlidirlər. Əgər onlar zəlil şəkildə cizyə vergisini ödəsələr, onlara qarşı vuruşmarıq. Uca Allah buyurur: **“Kitab verilənlərdən Allaha və Axirət gününə iman gətirməyən, Allahın və Onun elçisinin haram buyurduğunu haram saymayan və həqiqi**

---

[1] “ət-Tövbə” surəsi, 36.

**din** ***olan İslama*** **etiqad etməyənlərlə, zəlil günə qalıb öz əlləri ilə cizyə verməyə məcbur oluncaya qədər vuruşun".**[1]

Kafirlərə qarşı vuruşmaq müsəlmanlara vacibdir. Hansı ölkədən olmalarına baxmayaraq bütün kafirlərə qarşı – rus, amerikalı, fransız, filippinli və başqaları. Müsəlmanlar, onlar ya İslamı qəbul edənə, ya da zəlil vəziyyətdə cizyə ödəyənədək onlara qarşı vuruşmalıdırlar.

Birdən kimsə soruşsa ki, bugünkü gündə bu necə ola bilər? Deyirik ki, vaciblərin şərtləri vardır. Onlardan biri də bacarmaqdır. Uca Allah buyurur: **"Allahdan bacardığınız qədər qorxun".**[2] O həmçinin buyurur: **"Allah yolunda lazımınca cihad edin. O, sizi seçdi və atanız İbrahimin dinində olduğu kimi, bu dində də sizin üçün heç bir çətinlik yaratmadı".**[3]

Amma çox təəssüf ki, müsəlmanlar bu gün bir-birilərinə qarşı vuruşur, Allahın kəlməsini uca tutmaq məqsədilə vuruşmaq barədə isə düşünmürlər. Mənim onlar barəsindəki zənnim budur. Reallıq da buna şahiddir ki, müsəlmanlar, ələlxüsus da rəhbərlər mütləq şəkildə bunu istəmirlər. Buna dəlil Bosniya və Hersoqovinada müsəlmanların başına gətirilənlərdir – kişilərin başı qoyun kimi kəsilir, namuslara toxunulur, mal-dövlət qəsb olunur, İslam alçaldılır – bu isə ən önəmlisidir. Yəni müsəlmanların alçaldılması onlardan min nəfərin qətlə yetirilməsindən daha mühümdür.

Bu gün Bosniya və Hersoqovinada, Çeçenistanda və başqa yerlərdə aparılan müharibələr məhz müsəlmanları alçaltmaq üçündür. Təəssüf ki, İslam ümməti bu gün parçalanmış durumdadır. Heç kim izzət və cəlal sahibi Allahın dinini qorumaq üçün qəzəblənmir. Belə olduğu halda kafirlərə qarşı necə vuruşa bilərlər? Belə görünür ki, hazırki dövrdə bu mümkün deyil. Çünki müsəlman ölkələrinin rəhbərlərinin qəlblərini Allah zəlil etmişdir. Onlar Allah yolunda cihad barədə heç düşünmürlər.

Hətta olur ki, bəziləri dünən vuruşduqları düşmənlərinə indi yardım edir, onlara münasibətdə zəlillik və təslimçilik edirlər. Belə olduğu halda sair müsəlmanlardan necə tələb edə bilərik ki, kafirlərə qarşı vuruşsunlar?

---

[1] "ət-Tövbə" surəsi, 29.
[2] "ət-Təğabun" surəsi, 16.
[3] "əl-Həcc" surəsi, 78.

Bəli, izzət və cəlal sahibi Allah buyurur ki, vuruşun: **"Müşriklər hamısı bir yerdə sizinlə vuruşduqları kimi, siz də hamınız bir yerdə onlarla vuruşun".** O həmçinin buyurur: **"Sizinlə vuruşanlara qarşı Allah yolunda siz də vuruşun və həddi aşmayın! Həqiqətən, Allah həddi aşanları sevmir".**[1]

Lakin əfsuslar olsun ki, bütün bunlar aradan qalxıb. Biz Allahdanıq, dönüşümüz də Allahadır! Bu gün "la ilahə illəllah, Muhəmmədən rəsulullah" deyən müsəlmanların halını gördükdə adamın qəlbi qan ağlayır. Elə insanlar var ki, İslam dinini öyrənməyə hərisdirlər. Onlar uzun illər ateizm hökm sürən ölkələrdə yaşayıblar. Onlar bizə danışırlar ki, İslam dinini onlara öyrədənləri gördükdə sevinir və kişili-qadınlı buna yönəlirlər. Lakin buna rəğmən yol veririk ki, onları öldürsünlər. Bir neçə ay öncə iki yüz min müsəlman öldürüldü və onlardan iki mininin cəsədi suda qaldı. İki yüz min! Yəni bütöv bir kənd və ya şəhər. Müsəlmanlar isə – Allah onlara hidayət versin – başlarını belə qaldırmadılar. Hətta deyə bilərsən ki, onlar bunda bir qəbahət görmədilər.

Əfsuslar olsun ki, biz müsəlmanlar indi olduqca acınacaqlı və zəlil bir durumdayıq. Bunun da səbəbi odur ki, izzət və cəlal sahibi Allah bir çox müsəlmanları öz dinlərindən dönmə bəlasına düçar edib. Onlar dünya mənfəətindən, rahatlıqdan başqa bir şey istəmirlər. Onların rəğbət bəslədikləri şeylər haqqında danışmağına baxanda görürsən ki, din barəsində heç düşünmürlər.

İzzət və cəlal sahibi Allahın bu ayəsini bir daha dinləyin: **"Müşriklər hamısı bir yerdə sizinlə vuruşduqları kimi, siz də hamınız bir yerdə onlarla vuruşun".**

**"Sizinlə vuruşduqları kimi"** ifadəsində təşviq vardır. Yəni insan, fitrətinə görə müsəlman olmasa belə, ona qarşı vuruşanların hamısına qarşı vuruşmalıdır. Yəni, ən azından özünüz üçün bu dinə – İslama qarşı olan nəzərləri kəsməklə qəzəblənin. Lakin təəssüflər olsun olsun ki, indi vəziyyət bunun əksinədir.

Hətta olur ki, bəzi vətəndaşlarımız İslam düşmənlərinin müsəlmanlara qarşı döyüşməsini dəstəkləyirlər. Ölkəmizdə geniş yayılmış işçilərin

---

[1] "əl-Bəqərə" surəsi, 190.

halına baxın: onların bəlkə də səksən faizi kafir, yerdə qalanı isə müsəlmandır. Kafirlər isə müsəlman ölkələrindəki kasıb müsəlmanlara qarşı müharibə aparırlar.

Görürsən ki, vətəndaş yalnız işini bitirmək barəsində düşünür. Şeytan da ona deyir ki, kafir müsəlmandan daha yaxşı işləyir – müsəlman deyir ki, gedim namaz qılım, Ramazan ayını oruc tutum, həcc və ümrə edim, kafir isə hər zaman işləyir. Beləcə, şeytan pis əməlini onun üçün bəzəyir ki, müsəlman qardaşlarını tərk etsin və dünya mənfəəti əldə etmək üçün ətrafına kafirləri gətirsin. Belə olduğu halda qardaşlığımız necə möhkəmlənə bilər? Belə olduğu halda Allah yolunda necə vuruşa bilərik?

Bu ayələri oxuyan insan özü-özünə deyir ki, sübhanallah, görəsən bu ayələr bizlər üçün nazil olub, yoxsa başqaları üçün? Sanki onlara məhəl belə qoymuruq – elə bil bu ayələr aləmlərin Rəbbi olan Allaha məxsus deyil. Hər gün bu ayələri oxuyurlar, lakin ayələr onlara təsir etmir.

Uca Allah buyurur: **"Sizə döyüşmək fərz buyuruldu".**[1]

**"Fərz buyuruldu"** – kim fərz etdi onları? [كُتِبَ / yazıldı], yəni fərz buyuruldu. **"Sizlərə oruc fərz edildi"**[2]; **"Sizə döyüşmək fərz buyuruldu"**[3] – bütün bunlar bizlərə fərz buyurulub.

**"Döyüş xoşunuza gəlmədiyi halda, o, sizə vacib edildi".**[4] Ona nifrət edirsiniz, lakin onda xeyir var.

**"Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli..."**.[5] Əgər nifrət etdiyiniz şey xeyirlidirsə, onda necə?

Xeyir nədir? – **"Allah yolunda öldürülənləri əsla ölü sanma. Əksinə, *onlar* diridirlər; onlara Rəbbi yanında ruzi verilir. Onlar Allahın Öz lütfündən onlara verdiyi nemətə fərəhlənir, arxalarınca gəlib hələ onlara çatmamış kəslərin heç bir qorxu ilə qarşılaşmayacaqları və kədərlənməyəcəkləri müjdəsinə sevinirlər. Onlar Allahın neməti və lütfünə görə, həm də Allahın möminlərin mükafatını heçə çıxarmayacağı müjdəsinə**

---

[1] "əl-Bəqərə" surəsi, 216.

[2] "əl-Bəqərə" surəsi, 183.

[3] "əl-Bəqərə" surəsi, 216.

[4] Yenə orada.

[5] Yenə orada.

**sevinirlər".**[1] – Bu, böyük xeyirdir və üçüncü ayədə bu bir daha qeyd ediləcəkdir.

**"Şübhəsiz ki, Allah möminlərdən, Cənnət müqabilində onların canlarını və mallarını satın almışdır.** ***Çünki*** **onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər.** ***Bu, Allahın*** **Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir?! Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur".**[2] Ey müsəlman, sən vuruşub yaralansan və ya şəhid olsan elə bilirsən ki, düşmənin salamat olacaq?

**"*Kafir* qövmü təqib etməkdə zəiflik göstərməyin".**[3] Sən yaralandığın kimi, düşmənin də yaralanır – hər kəs ağrı çəkir, lakin: **"*Fəqət* siz onların ummadıqlarını Allahdan umursunuz".**[4]

Çünki kafirlərin aqibəti yalnız Cəhənnəm odudur. Sən isə Allahdan şəhidlərin məqamına çatmağı diləyirsən – siz Allahdan onların dilədiyini diləyirsiniz.

Əbu Sufyan İslamı qəbul etməmişdən öncə – Uhud günü demişdi ki, bu gün Bədr gününün əvəzidir, müharibə növbəlidir. Yəni fəxr edərək deyirdi ki, siz Bədr döyüşündə bizə qalib gəlmişdiniz, indi də biz sizə qalib gəldik. Bəs müsəlmanlar nə dedilər? Dedilər ki, eyni deyil, bizim ölülərimiz Cənnətdə, sizinkilər isə Cəhənnəm odundadırlar. Bu ikisi arasında fərq böyükdür.

Döyüşməyi biz də sevmirik, düşmənlərimiz də. Lakin bizlərdən kiminsə qətlə yetirilməsi və ya yaralanması ilə onlardan birinin ölməsi / yaralanması arasında böyük fərq vardır. Uca Allahdan diləyirik ki, cihad şüarını yenidən qaytarsın – həm nəfsi cihadı, həm də düşmənlərə qarşı cihadı. Həmçinin əmr sahiblərini həm zahirdə, həm də batində Allahın dinini uca tutmağa müvəffəq etsin, onları şərlərdən qorusun, onlara xeyir deyil, zərər verən işlərdən mühafizə etsin. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

---

[1] "Ali İmran" surəsi, 169-171.

[2] "ət-Tövbə" surəsi, 111.

[3] "ən-Nisa" surəsi, 104.

[4] Yenə orada.

Uca Allah buyurur:

﴿ كُتِبَ عَلَيْكُمُ الْقِتَالُ وَهُوَ كُرْهٌ لَّكُمْ ۖ وَعَسَىٰ أَن تَكْرَهُوا شَيْئًا وَهُوَ خَيْرٌ لَّكُمْ ۖ وَعَسَىٰ أَن تُحِبُّوا شَيْئًا
وَهُوَ شَرٌّ لَّكُمْ ۗ وَاللَّهُ يَعْلَمُ وَأَنتُمْ لَا تَعْلَمُونَ ﴾

**"Döyüş xoşunuza gəlmədiyi halda, o, sizə vacib edildi. Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə bilmirsiniz".**[1]

﴿ انفِرُوا خِفَافًا وَثِقَالًا وَجَاهِدُوا بِأَمْوَالِكُمْ وَأَنفُسِكُمْ فِي سَبِيلِ اللَّهِ ۚ ذَٰلِكُمْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ
تَعْلَمُونَ ﴾

**"*Sizə* yüngül *gəlsə də*, ağır *gəlsə də*, döyüşə çıxın, malınız və canınızla Allah yolunda cihad edin!"**[2]

﴿ إِنَّ اللَّهَ اشْتَرَىٰ مِنَ الْمُؤْمِنِينَ أَنفُسَهُمْ وَأَمْوَالَهُم بِأَنَّ لَهُمُ الْجَنَّةَ ۚ يُقَاتِلُونَ فِي سَبِيلِ اللَّهِ
فَيَقْتُلُونَ وَيُقْتَلُونَ ۖ وَعْدًا عَلَيْهِ حَقًّا فِي التَّوْرَاةِ وَالْإِنجِيلِ وَالْقُرْآنِ ۚ وَمَنْ أَوْفَىٰ بِعَهْدِهِ مِنَ اللَّهِ ۚ
فَاسْتَبْشِرُوا بِبَيْعِكُمُ الَّذِي بَايَعْتُم بِهِ ۚ وَذَٰلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ ﴾

**"Şübhəsiz ki, Allah möminlərdən, Cənnət müqabilində, onların canlarını və mallarını satın almışdır. *Çünki* onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. *Bu, Allahın* Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir?! Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu böyük uğurdur".**[3]

**Şərh:**

Müəllif ﷺ Hafiz ən-Nəvəvi cihadla bağlı bəzi ayələri qeyd etmiş, bəzilərini də qeyd edəcəkdir. Onlardan biri Uca Allahın bu ayəsidir: **"Döyüş xoşunuza gəlmədiyi halda, o, sizə vacib edildi...".**

---

[1] "əl-Bəqərə" surəsi, 216.

[2] "ət-Tövbə" surəsi, 41.

[3] "ət-Tövbə" surəsi, 111.

Daha öncə də qeyd etdiyimiz kimi, müsəlmanlar Allahın düşmənlərinə, o cümlədən yəhudilərə, nəsranilərə, müşriklərə, ateistlərə və başqalarına qarşı vuruşmalıdırlar. Müsəlmanlar müsəlman olmayan hər kəsə qarşı vuruşmalıdırlar ki, Allah kəlməsi ən uca olsun – onlar ya İslamı qəbul etməli, ya da zəlil vəziyyətdə cizyə ödəməlidirlər. Biz onları İslamı qəbul etməyə məcbur etmirik. Demirik ki, gərək İslamı qəbul edəsiniz. Deyirik ki, İslam gərək zahirdə olsun – ya İslamı qəbul edin, ya da ki, öz dininizdə qalaraq kiçilmiş vəziyyətdə cizyənizi ödəyin. Əgər onlar nə İslamı, nə də cizyə verməyi qəbul etməsələr, biz onlara qarşı vuruşmalıyıq. Lakin bunun üçün gərək lazımi şəkildə hazırlıq görək. Uca Allah buyurur: ***"Düşmənlərə* qarşı bacardığınız qədər qüvvə və döyüş atları hazırlayın".**[1]

Güc iki növdür: mənəvi güc və maddi güc.

Mənəvi güc imandır. Başqalarına qarşı cihad etməmişdən öncə Allaha iman gətirib yaxşı işlər görmək lazımdır. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Sizi ağrılı-acılı əzabdan xilas edəcək bir ticarəti sizə bildirimmi? *Bu,* Allaha və Onun rəsuluna iman gətirməyiniz, malınız və canınızla Allah yolunda cihad etməyinizdir. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir".**[2] Göründüyü kimi, iman cihaddan öncədir.

Bundan sonra isə maddi cəhətdən güclənmək lazımdır. Lakin əfsuslar olsun ki, müsəlmanlar uzun zamanlardan bəri bir-birilərilə çəkişdiklərinə görə kafirlərə qarşı güc, silah və s. toplamağı unudublar. Biz də bu qüvvətdə onlardan geri qalmışıq. İman məsələlərində də geridə qaldığımız üçün öz aramızda çəkişirik. Allah salamatlıq və afiyət versin.

Döyüş vacibdir, lakin bunun üçün də başqa vacib əməllər kimi, qüdrətin olması şərtdir. Şəkk yoxdur ki, İslam ümməti bu gün aciz durumdadır – nə mənəvi gücə malikdir, nə də ki, maddi. Qüdrət olmadığı üçün isə vaciblik də düşür. Allahdan bacardığınız qədər qorxun.

Uca Allah buyurur: **"xoşunuza gəlmədiyi halda",** yəni döyüşmək xoşunuza gəlmədiyi halda. Lakin Uca Allah buyurur: **"Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun".**[3]

---

[1] "əl-Ənfal" surəsi, 60.

[2] "əs-Saff" surəsi, 11-12.

[3] "əl-Bəqərə" surəsi, 216.

Ayənin əvvəli xüsusidir və döyüşə xasdır. Ayənin sonu isə ümumidir: **“Ola bilsin ki, sevmədiyiniz bir şey...”**. Uca Allah burada “döyüş” demir, “sevmədiyiniz bir şey” deyir. Yəni o hər bir şeyə aiddir. Ola bilsin, insan baş verən bir hadisəni sevməsin, halbuki, o onun xeyrinədir. Ola da bilər ki, insan bir şeyin baş verməsini istəyir, ancaq həmin şey onun zərərinədir. O qədər işlər var ki, baş verir, sən isə təmənna edirsən ki, kaş ki, onlar baş verməzdi. Sonda görürsən ki, xeyir elə ondadır. Uca Allahın bu ayəsi öz təsdiqini tapır: **“Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun”.**

“ən-Nisa” surəsinin 19-cu ayəsi də buna bənzəyir: **“Əgər onlar xoşunuza gəlmirsə, ola bilsin ki, xoşlamadığınız bir şeydə Allah sizə çoxlu xeyir nəsib etmiş olsun”.** O “onları xoşlamamağınızda Allah sizə çoxlu xeyir nəsib etmiş olsun” demir, buyurur ki, **“ola bilsin, xoşlamadığınız bir şeydə”**. Bu da ümumən hər bir şeyə aiddir. Ola bilsin ki, izzət və cəlal sahibi Allah öz qəzavü-qədəri, hikməti ilə sənin başına bir iş gətirsin, bu da sənin xoşuna gəlməsin, ancaq bunun sonunda sənin üçün böyük xeyirlər var. Yaxud əksinə, ola bilər ki, izzət və cəlal sahibi Allah sənə bir iş nəsib etsin, sən də onun xeyirli olduğunu düşünəsən, ancaq əslində onun aqibəti sənin üçün şər olar. Ona görə də insan hər zaman Allahdan gözəl aqibət diləməlidir.

Sonra: **“Allah bilir, siz isə bilmirsiniz”**– buyurur. Bəli, Allah bilir, biz isə bilmirik. Çünki Allahın elmi genişdir, O, hər şeyi Bilәndir. Allahın elmi genişdir və gələcəyi də əhatə edir. O, qeybi bilir, biz isə bilmirik. O, hər şeyi bilir, biz isə bilmirik. Nəfslərin ona zahir olmamışdan öncə nə vəsvəsə verdiyini bilir, biz isə bilmirik. Bu yerdə sadə bir sual meydana çıxır: İnsanlar öz ruhları barəsində nə isə bilirlərmi? O ruh ki, həyat ona bağlıdır. Cavab: Xeyr. **«Səndən ruh haqqında soruşurlar. De: “Ruh Rəbbimin əmrindəndir. Sizə yalnız az bir bilik verilmişdir”».**[1] – Bədənində yerləşən ruhun barədə heç bir şey bilmirsən.

**«De: “Ruh Rəbbimin əmrindəndir. Sizə yalnız az bir bilik verilmişdir”»** ayəsində “**Sizə yalnız az bir bilik verilmişdir”** ifadəsi sanki bir qınaqdır. Sanki buyurur ki, sizin ruh barədə heç bir elminiz yoxdur, bilmədiyiniz hələ nə qədər çox elm vardır.

Xülasə, Uca Allah: **“Allah bilir, siz bilməzsiniz”**– buyurur.

---

[1] “əl-İsra” surəsi, 85.

Uca Allah buyurur: ***“Sizə* yüngül *gəlsə də,* ağır *gəlsə də,* döyüşə çıxın”.** Hara çıxın? – Cihada.

***“Sizə* yüngül *gəlsə də,* ağır *gəlsə də,* döyüşə çıxın”.** Yəni həm çətin olanda, həm də asan olanda döyüşə çıxın.

***“Sizə* yüngül *gəlsə də,* ağır *gəlsə də,* döyüşə çıxın, malınız və canınızla Allah yolunda cihad edin! Biləsiniz ki, bu sizin üçün daha xeyirlidir”.**[1] Yəni əgər elm əhlindənsinizsə, bilin ki, bu sizin xeyrinizədir.

Uca Allah həmçinin buyurur: **“Şübhəsiz ki, Allah möminlərdən, Cənnət müqabilində onların canlarını və mallarını satın almışdır. *Çünki* onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. *Bu, Allahın* Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir?! Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur”.**[2]

Bu ticarətə diqqət edin! Bu bir ticarətdir – şərtləri, rükünləri və vəsiqələri tamdır.

Alıcı kimdir? – Uca və Nöqsansız olan Allah.

Satıcı kimdir? – Möminlər.

Möminlərin verəcəkləri nədir? – Nəfsləri və malları.

Allah bunun əvəzində nə verir? – Cənnət.

Vəsiqə nədir? – Onu izzət və cəlal sahibi Allah vəd etmişdir. Bu asanlıqla cırılıb atılan adi bir kağız deyil. Tövratda, İncildə və Quranda bildirilir ki, bu, ən etibarlı vəsiqədir. Tövrat, İncil və Quranı ona görə qeyd edir ki, onlar rəsullara endirilmiş ən etibarlı kitablardır. Onların ən şərəflisi Qurandır, sonra Tövrat, sonra da İncil. Bu ticarətin tayı-bərabəri yoxdur. Bütün şərtlər tamamdır. Ticarət isə olduqca böyükdür. Can və mal insanı əvəz edir. Əvəzini verən izzət və cəlal sahibi Allahdır. Əvəz də Cənnətdir.

Peyğəmbər ﷺ demişdir: **“Birinizin Cənnətdəki qamçı yeri dünya və onun üzərindəkilərdən daha xeyirlidir”.**[3] Qamçı yeri, yəni təxminən bir metr sahə dünya və onun üzərindəkilərdən daha xeyirlidir. Hansı dünyadan? Sənin yaşadığın dünyadanmı? – Xeyr. Ola bilsin ki, sənin dünyan çətinliklər və çatışmazlıqlarla dolu olsun, ömrün də ki, qısa. **“Dünyadan**

---

[1] “ət-Tövbə” surəsi, 41.

[2] “ət-Tövbə” surəsi, 111.

[3] “Səhih əl-Buxari”, 3011; “Səhih Muslim”, 1572.

**daha xeyirlidir"**, yəni *dünya* yaranandan Qiyamət gününədək orada olan bütün nemətlər və sevinclə birlikdə. Cənnətdə qamçı boyda yer dünya və onun üzərindəkilərdən daha xeyirlidir.

Onlardan hansı daha dəyərlidir: nəfs və mal-dövlət, yoxsa Cənnət? – Şübhəsiz ki, Cənnət. Deməк, bu ticarəti edən qazanır. Çünki o, fani olan canını və malını əbədi olan Cənnətə dəyişir. Bu ticarətə əhd edən kimdir? – İzzət və cəlal sahibi Allah. Allahdan daha çox əhdinə vəfalı olan kim ola bilər? Kim ola bilər? – Heç kim. Allahdan daha sadiq və əhdinə vəfalı heç kim ola bilməz. İzzət və cəlal sahibi Allah buyurduğuna sadiqdir. Heç kim Allahdan daha çox öz vədinə vəfalı ola bilməz.

Sonra Uca Allah: **"Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin"**– deyir. Yəni nəfsləriniz buna görə sevinsin və bir-birinizi bu barədə müşdələyin. Uca Allah buyurur: **"Allah yolunda öldürülənləri əsla ölü sanma. Əksinə, *onlar* diridirlər; onlara Rəbbi yanında ruzi verilir. Onlar Allahın Öz lütfündən onlara verdiyi nemətə fərəhlənir, arxalarınca gəlib hələ onlara çatmamış kəslərin heç bir qorxu ilə qarşılaşmayacaqları və kədərlənməyəcəkləri müjdəsinə sevinirlər".**[1] Onlar bu alış-verişə görə sevinirlər. Apardıqları bu böyük ticarətə görə belə edirlər.

**"Məhz bu, böyük uğurdur".** Bu cümlədə ayrı yazılan əvəzlik vardır. Alimlər isə demişlər ki, ayrı yazılan əvəzlikdə bu üç fayda var:

1) Xüsusilik, 2) Təkid və 3) Xəbərlə sifətin fərqliliyi.

**"Məhz bu, böyük uğurdur"** sözünün mənası budur ki, onun mislində qələbə yoxdur. Allah və rəsulu isə dediklərinə sadiqdir. Uca Allahdan diləyirik ki, bizləri və sizi onlardan etsin – o kəslərdən ki, özlərini izzət və cəlal sahibi Allaha satmışlar. Müvəffəq edən Allahdır.

Uca Allah buyurur:

﴿ لَّا يَسْتَوِي ٱلْقَٰعِدُونَ مِنَ ٱلْمُؤْمِنِينَ غَيْرُ أُو۟لِى ٱلضَّرَرِ وَٱلْمُجَٰهِدُونَ فِى سَبِيلِ ٱللَّهِ بِأَمْوَٰلِهِمْ وَأَنفُسِهِمْ ۚ فَضَّلَ ٱللَّهُ
ٱلْمُجَٰهِدِينَ بِأَمْوَٰلِهِمْ وَأَنفُسِهِمْ عَلَى ٱلْقَٰعِدِينَ دَرَجَةً ۚ وَكُلًّا وَعَدَ ٱللَّهُ ٱلْحُسْنَىٰ ۚ وَفَضَّلَ ٱللَّهُ ٱلْمُجَٰهِدِينَ عَلَى ٱلْقَٰعِدِينَ أَجْرًا عَظِيمًا *
دَرَجَٰتٍ مِّنْهُ وَمَغْفِرَةً وَرَحْمَةً ۚ وَكَانَ ٱللَّهُ غَفُورًا رَّحِيمًا ﴾

---

[1] "Ali İmran" surəsi, 169-170.

**“Möminlərdən, – üzrlü olanlar istisna olmaqla, –** ***evdə*** **oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar. Allah öz malları və canları ilə cihad edənləri** ***evdə*** **oturanlardan dərəcə etibarilə üstün etmişdir. Allah** ***onların*** **hamısına ən gözəl olanı (Cənnəti) vəd etmişdir. Allah mücahidləri** ***evdə*** **oturanlardan böyük bir mükafatla üstün etmişdir.** ***Bu,*** **Onun tərəfindən** ***möminlərə nəsib olan*** **dərəcələr, bağışlanma və mərhəmətdir. Allah bağışlayandır, rəhmlidir”.**[1]

**Şərh:**

Yəni cihada gedənlərlə getməyənlər eyni deyillər. Burada bərabərlik istisna olunur. Çünki mücahid öz canını və malını izzət və cəlal sahibi Allah üçün xərcləyir. Uca Allahın ayədə **“Zərər çəkə biləcək şəxslər”** deyə istisna etdiyi kəslər xaric, digərləri cihada getməyə qorxanlardır.

Cihada getməklə zərər çəkə biləcək kəslər üç sinifdir və növbəti ayələrdə onlar bəyan olunur.

*Birinci sinif:* **“Kora, çolağa, bir də xəstəyə günah gəlməz”.**[2]

*İkinci sinif* xərcləməyə pul tapmayanlar və ya bədəncə zəif olanlardır. Uca Allah buyurur: **“Allaha və Onun Elçisinə sadiq qalacaqları təqdirdə acizlərə, xəstələrə və** ***döyüşdə*** **vuruşmağa vəsait tapa bilməyənlərə** ***evdə qalmaqda*** **heç bir günah yoxdur. Yaxşı işlər görənləri danlamağa əsas da yoxdur. Allah Bağışlayandır, Rəhmlidir”.**[3]

Üçüncü sinif isə din üçün xərcləmək məqsədilə qalanlardır. Uca Allah buyurur: **“Möminlərin hamısı eyni vaxtda döyüşə çıxmamalıdır. Hər qəbilədən bir dəstə qalmalıdır ki, dini** ***dərindən*** **öyrənsinlər və öz camaatı döyüşdən geri qayıtdıqları zaman onları xəbərdar etsinlər. Bəlkə onlar** ***pis işlərdən*** **çəkinələr”.**[4]

Deməli, üç sinif insan bunlardır:

Birinci: Zərər çəkə biləcək şəxslər və zəiflər;

---

[1] “ən-Nisa” surəsi, 95-96.

[2] “ən-Nur” surəsi, 61.

[3] “ət-Tövbə” surəsi, 91.

[4] “ət-Tövbə” surəsi, 122.

İkinci: Pul tapa bilməyənlər;

Üçüncü: Oturub dinlərini öyrənənlər. Bunlar ya qalmaqlarında cihaddan daha çox məsləhət olduğu üçün üzrlüdürlər – onlar da dini elmlərə yiyələnmək üçün qalanlardır. Ya da ki, cihada getməyə *digər* üzrlü səbəbləri olan kəslərdir.

Uca Allah buyurur: **"Möminlərdən, – üzrlü olanlar istisna olmaqla, –** ***evdə*** **oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar".** Mücahidlər daha əfzəldirlər.

Bu ayə bütün möminlərin eyni olmadığını göstərir – möminlər eyni dərəcədə deyillər. Buna bənzər başqa bir ayədə Uca Allah buyurur: **"Sizlərdən** ***mallarını Məkkənin*** **fəthindən əvvəl xərcləyib döyüşənlər** ***başqaları ilə*** **eyni deyillər. Onların dərəcəsi** ***mallarını fəthdən*** **sonra xərcləyib döyüşənlərdən daha üstündür. Amma Allah onların hamısına ən gözəl olanı vəd etmişdir".**[1]

Əzəmətli Quranda bərabərsizlik barədə ayələr çoxdur: «**De: "Heç korla görən eyni ola bilərmi?! Yaxud zülmətlə nur eyni ola bilərmi?!"**»[2]; **"İki dəniz eyni deyil. Birinin suyu dadlı, şirin və içməyə rahat, digərininki isə həddindən artıq duzlu və acıdır".**[3] Bu barədə ayələr çoxdur.

Bu yerdə bir çoxlarının ola bilsin xeyir məqsədilə işlətdiyi bir kəlməyə münasibət bildirmək istəyirəm. Ola da bilər ki, bəziləri bunu pis məqsədlə işlətsinlər. Bəziləri deyirlər ki, İslam dini bərabərlik dinidir. Bu da İslam dininin adına yalandır. İslam dini ədalət dinidir. Bu da hər kəsə layiq olduğunu verməkdir. Hər iki adam bərabər şəkildə haqlıdırsa, bu zaman *ədalətin tələb etdiyi* bərabərlik ola bilir. Fərqli olduqda isə əsla belə deyil. İslam dininin bərabərlik dini olduğunu söyləmək yolverilməzdir. İslam ədalət dinidir. Uca Allah buyurur: **"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara** ***haqqını*** **verməyi əmr edir".**[4]

"İslam dini bərabərlik dinidir" kəlməsini ola bilsin ki, bəziləri pis məqsədlərlə işlətmiş olsun. Misal üçün, deyir ki, kişi ilə qadın arasında

---

[1] "əl-Hədid" surəsi, 10.
[2] "ər-Rəd" surəsi, 16.
[3] "Fatir" surəsi, 12.
[4] "ən-Nəhl" surəsi, 90.

fərq yoxdur, dinimiz bərabərlik dinidir. Qadınlara da kişilərə verdiyiniz kimi hüquqlar verilməlidir. Qoyun onlar da ölkələrə rəhbərlik etsinlər, avtomobil idarə etsinlər. Qoy onlar da kişilərin etdiklərini etsinlər. Nə üçün? – Çünki İslam dini bərabərlik dinidir. Sosialistlər deyirlər ki, din bərabərlik tələb edir. Ola bilməz ki, biri çox varlı olsun, o biri isə çox kasıb. Gərək varlıların pulunu alıb kasıblara verək. Çünki din bərabərlik tələb edir. Belə deməklə onlar pis məqsədlər güdürlər. Ola bilsin ki, bunda yaxşı məqsədlər də olsun, pis məqsədlər də. Buna görə də İslam dinini bu ifadə ilə vəsf etmək olmaz. Vəsf etmək olar ki, İslam ədalət dinidir. Allahın əmr etdiyi budur: **"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara *haqqını* verməyi əmr edir".** Demir ki, bərabərliyi. Biri kor, digəri görən, biri alim, digəri cahil, biri abid, digəri fasiq, biri faydalı, digəri zərərvuran olan iki adam əsla eyni ola bilməz.

Doğru olan ədalətdir: **"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara *haqqını* verməyi əmr edir".** Buna görə istədim ki, bu məsələyə diqqət çəkim. Çünki bir çox müasir yazarlar və ya qeyriləri bu sözü, mənasını dərk etmədən işlədirlər. Ancaq anlamırlar ki, İslam dininə görə, qadınla kişi bu qədər fərqlə hər şeydə bərabər ola bilməz. Əgər bu qədər fərqlə onların bərabər olmasına hökm versəydi, İslam doğru din olmazdı. Çünki aralarında bu qədər çox fərq olan iki şey bərabər ola bilməz. Yox, əgər eyni olsalar, onlara bərabər şəkildə hər şeyin verilməsi ədalətdən olar. Bununla da onlar bərabər olarlar. Yəni ədalət budur.

Hər bir halda gərək elm tələbəsi bu kəlmələrin mənasını bilsin. O həm də insanların mənasını və məqsədini bilmədən işlətdiyi bir sıra başqa sözlərin də gərək mənasını bilə. Misal üçün, bəziləri deyirlər ki: "Allahım, mən Səndən pis qədəri dəyişməyini diləmirəm, mən həmin qədərdə Səndən lütf diləyirəm". Bu böyük sözdür və onu demək olmaz. Necə yəni Səndən pis qədəri dəyişməyini diləmirəm? Peyğəmbər ﷺ demişdir ki: **"Qədəri yalnız dua dəyişə bilər"**. Ola bilsin ki, sən Lövhi-məhfuzda əzəldən sənin üçün yazılmış bir şey üçün dua edəsən və *qarşıda səni gözləyən* həmin pis şey aradan qalxa – Uca Allah sənin etdiyin duaya görə həmin şeyi aradan qaldıra. Bütün bunlar artıq yazılıb. Sən dedikdə ki, "mən Səndən pis qədəri dəyişməyini diləmirəm, mən həmin qədərdə Səndən lütf diləyirəm", sanki deyirsən ki, "önəmli deyil: istəyirsən *pis qədəri* qaldır, istəyirsən

qaldırma". Düzgün olan, insanın hər cür bəlanın aradan qaldırılmasını istəməsidir. Demə ki: "Allahım, mən Səndən pis qədəri dəyişməyini diləmirəm, mən həmin qədərdə Səndən lütf diləyirəm", de ki: "Allahım, Səndən əfv və afiyət diləyirəm! Allahım, xəstəliyimə şəfa ver, məni kasıblıqdan qurtar! Allahım, mənim borcumu ödə! Allahım, bilmədiklərimi mənə öyrət!", yaxud buna bənzər başqa dualar et. Peyğəmbər ﷺ demişdir: **"Biriniz: "Allahım, istəyirsənsə məni bağışla, istəyirsən mənə rəhm et"– deməsin. Qoy qəti şəkildə dua etsin. Uca Allahı məcbur edən yoxdur».**[1]

**"Biriniz: "Allahım, istəyirsənsə məni bağışla"– deməsin".** Bu, "Allahım, mən Səndən pis qədəri dəyişməyini diləmirəm" deməkdən daha yüngüldür.

Başqa bir rəvayətdə deyilir: **"Şübhəsiz ki, verdiyi heç bir şey Allaha böyük deyil".**[2]

Ona görə bu iki sözü – "İslam dini bərabərlik dinidir", "Allahım, mən Səndən pis qədəri dəyişməyini diləmirəm, mən həmin qədərdə Səndən lütf diləyirəm" eşitdiyinizdə diqqətli olun. Görsəniz ki, kimsə bunu deyir, ona nəsihət edin. Yaxşı işlər və təqva üzərində əməkdaşlıq edin.

Ola bilsin, bu bəzilərinizə qəribə gəlsin ki, necə ola bilər ki, bu din bərabərlik dini olmasın? Ona deyirik ki, tələsmə, düşün: korla görən eyni ola bilərmi? Alimlə cahil eyni ola bilərmi? Bəs qadınla kişi necə? Qurani-Kərimdə sadalananların çoxunun bərabər olmadıqları bildirilir. Yalnız bir neçə yerdə bərabərlikdən söhbət açılır. Məsələn, Uca Allah buyurur: **"O sizə özünüzdən bir məsəl çəkdi; sahib olduğunuz kölələr içərisində sizə verdiyimiz nemətlərdə sizinlə bərabər eyni hüquqa malik olan, özünüzdən çəkindiyiniz kimi, onlardan da çəkindiyiniz şərikləriniz varmı?"**[3]

Burada məqsəd bərabərliyin inkar olunmasıdır: **"varmı?"** sualı inkar mənasındadır. "**Sizə verdiyimiz nemətlərdə sizinlə bərabər eyni hüquqa malik olan, özünüzdən çəkindiyiniz kimi, onlardan da çəkindiyiniz şəriklərinizvarmı?"** Cavab: Xeyr. Demək, burada zahirən bərabərlik olsa belə, əslində belə deyil. Burada inkar nəzərdə tutulur. Hər bir halda nəsihətim

---

[1] "Səhih əl-Buxari", 6923; "Səhih Muslim", 4839.

[2] "Səhih Muslim", 4838.

[3] "ər-Rum" surəsi, 28.

budur ki, kiminsə belə dediyini görsəniz, deyin ki, “Xeyr, İslam bərabərlik dini deyil, ədalət dinidir. Ədalət isə hər kəsə layiq olduğu haqqı verməkdir”.

“Allahım, mən Səndən pis qədəri dəyişməyini diləmirəm” ifadəsi isə mənasızdır. Allahın sənin üzərindən xəstəliyi, cahilliyi və kasıblığı qaldırmağını istəyirsənsə belə demə, de ki: “Allahım, mənə şəfa ver! Allahım, üzərimdən bəlanı və xəstəliyi qaldır!” və ya başqa bu kimi duaları et.

Uca Allahdan diləyirəm ki, bizlərə dində elmli olmağı nəsib etsin, bizləri insanların dediklərini anlamadan təkrar edənlərdən olmaqdan qorusun. Müvəffəq edən Allahdır.

Uca Allah buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ هَلۡ أَدُلُّكُمۡ عَلَىٰ تِجَٰرَةٖ تُنجِيكُم مِّنۡ عَذَابٍ أَلِيمٖ * تُؤۡمِنُونَ بِٱللَّهِ وَرَسُولِهِۦ وَتُجَٰهِدُونَ فِي سَبِيلِ ٱللَّهِ بِأَمۡوَٰلِكُمۡ
وَأَنفُسِكُمۡۚ ذَٰلِكُمۡ خَيۡرٞ لَّكُمۡ إِن كُنتُمۡ تَعۡلَمُونَ * يَغۡفِرۡ لَكُمۡ ذُنُوبَكُمۡ وَيُدۡخِلۡكُمۡ جَنَّٰتٖ تَجۡرِي مِن تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُ وَمَسَٰكِنَ طَيِّبَةٗ فِي جَنَّٰتِ
عَدۡنٖۚ ذَٰلِكَ ٱلۡفَوۡزُ ٱلۡعَظِيمُ * وَأُخۡرَىٰ تُحِبُّونَهَاۖ نَصۡرٞ مِّنَ ٱللَّهِ وَفَتۡحٞ قَرِيبٞۗ وَبَشِّرِ ٱلۡمُؤۡمِنِينَ﴾

**“Ey iman gətirənlər, sizi ağrılı-acılı əzabdan xilas edəcək bir ticarəti sizə bildirimmi? *Bu,* Allaha və Onun rəsuluna iman gətirməyiniz, malınız və canınızla Allah yolunda cihad etməyinizdir. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir. *Belə olduğu təqdirdə* O sizin günahlarınızı bağışlayar və sizi *ağacları və qəsrləri* altından çaylar axan cənnətlərə və Ədn cənnətlərindəki gözəl məskənlərə daxil edər. Bu, böyük uğurdur. Sevdiyiniz başqa şey də vardır: Allah tərəfindən kömək və yaxın qələbə. Möminləri *bununla* müjdələ”.**[1]

Bu xüsusda ayələr olduqca çox və məşhurdur.

**Şərh:**

**“Ey iman gətirənlər”.** Uca Allah bu ayələrin əvvəlində möminlərə şərəfli bir nida ilə müraciət edir ki, onların diqqətini izzət və cəlal sahibi Allahdan eşidəcəkləri kəlamlara cəlb etsin.

---

[1] “əs-Saff” surəsi, 10-13.

**“Sizi ağrılı-acılı əzabdan xilas edəcək bir ticarəti sizə bildirimmi?”** Bu təşviqedici sualdır. Onu deyən izzət və cəlal sahibi Allahdır. Yəni izzət və cəlal sahibi Allahın buyurduğu yoldan başqa heç cür bu ticarətə nail olmaq mümkün deyil. Dəlil də Onun özüdür: **“Sizi ağrılı-acılı əzabdan xilas edəcək bir ticarəti sizə bildirimmi?”** Bu, dünyavi ticarət deyil. Çünki dünyavi ticarət ola bilsin ki, əzabdan xilas etsin, ola da bilsin ki, əzaba düçar etsin. Malının zəkatını verməyən kəsin ticarəti onun üçün əzaba çevriləcəkdir. Allah qorusun!: **“Qızıl-gümüş yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ. O gün bu** ***yığdıqları sərvətlər*** **Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaq və** ***onlara:*** **“Budur özünüz üçün yığdıqlarınız. Elə isə dadın yığdıqlarınızı!”–** ***deyiləcəkdir*****”.**[1]; **“Allahın Öz lütfündən bəxş etdiyini xərcləməyə xəsislik edən kimsələr elə güman etməsinlər ki, bu onların xeyrinədir. Əksinə, bu onların zərərinədir. Onların xəsislik etdikləri şey qiyamət günü boyunlarına dolanacaqdır. Göylərin və yerin mirası Allaha məxsusdur. Allah nə etdiklərinizdən xəbərdardır”.**[2]

Dünyavi ticarət ola bilsin ki, əzabdan xilas etsin, ola da bilsin ki, əzaba salsın. İzzət və cəlal sahibi Allahın bizlərə ərz etdiyi bu ticarət isə – Uca Allahdan diləyirəm ki, bizləri və sizi onu qəbul edənlərdən etsin – **“əzabdan xilas edəcək”,** yəni ağrıdıcı əzabdan. Belə ki, Cəhənnəm əzabından daha ağrılı-acılı bir əzab yoxdur. Allah məni və sizləri ondan qorusun.

Bəs bu nə ticarətdir belə? Buyurur: ***“Bu,*** **Allaha və Onun rəsuluna iman gətirməyiniz, malınız və canınızla Allah yolunda cihad etməyinizdir. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir”.** Bu ticarət Allaha və Onun rəsuluna iman gətirməkdir. Bu da İslamın bütün qanunlarını əhatə edir. Cihadı da xüsusi olaraq qeyd edir, çünki surə əvvəldən axıra cihad surəsidir. Uca Allah buyurur: **“Şübhəsiz ki, Allah möhkəm bir divar kimi səf-səf düzülüb Onun yolunda vuruşanları sevir”.**[3] Yəni Allah yolunda cəhdlərinizi səfərbər etməlisiniz – həm mallarınız, həm də canlarınızı: **“Bu sizin üçün daha xeyirlidir”.**

---

[1] “ət-Tövbə” surəsi, 34-35.
[2] “Ali İmran” surəsi, 180.
[3] “əs-Saff” surəsi, 4.

Sonrakı cümlə ilə birləşdirib demə: **“Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir”.** Çünki birləşdirsən, ayəni batil mənaya açıqlamış olarsan. O zaman məna belə olardı: “Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir. Bilməsəniz isə bu sizin üçün xeyirli deyil”. İzzət və cəlal sahibi Allahın muradı bu deyil. Məna belədir: Bu sizin üçün nə qədər xeyirlidir. Sonra buyurur ki: **“Əgər elm sahiblərindənsinizsə”**. Sanki deyir ki: “Əgər elm əhlindənsinizsə, bilin”.

Bu, əməldir. Bəs savabı nədir? ***“Belə olduğu təqdirdə*** **O sizin günahlarınızı bağışlayar və sizi** ***ağacları və qəsrləri*** **altından çaylar axan cənnətlərə və Ədn cənnətlərindəki gözəl məskənlərə daxil edər. Bu, böyük uğurdur”.**[1]

**Cənnət**, izzət və cəlal sahibi Allahın öz əməlisaleh qulları, ələlxüsus da mücahidlər üçün hazırladığı məkandır. **“Cənnətdə yüz dərəcə vardır. İzzət və cəlal sahibi Allah onları Onun yolunda cihad edənlər üçün hazırlamışdır”.**[2] Buna görə də Cənnət (bağlar) sözü cəm halında deyilir.

**“Altından çaylar axan”**, yəni qəsrlərinin və ağaclarının altından. O çaylar dünyadakı çaylar kimi deyil. Onlar dörd növdür: xarab olmayan sudan ibarət çaylar. Yəni dünya çaylarından fərqli olaraq dəyişmir. Dünyadakı sular isə qaldıqda dəyişir. Dadı dəyişməyən süddən olan çaylar, içənlərə ləzzət verən şərabdan çaylar, bir də saf baldan olan çaylar. Bunlar axar çaylardır. Oradakı baldan olan çaylar arılardan çıxmır. Həmçinin oradakı süd də heyvandan çıxmır. Sular da yerdən çıxmır. Həmçinin oradakı şərab da kişmişdən, xurmadan, arpadan və ya başqa bir şeydən əldə olunmayıb. Bu çayları izzət və cəlal sahibi Allah xəlq etmişdir. Onlar çay kimi hərəkətlidirlər. Hədisdə qeyd olunduğu kimi, bu çayların qazıntıya və ya səddə ehtiyacı yoxdur. Onları qazıb yönləndirmək və ya sağa-sola axmaması üçün üzərində çuxurlar qazılmasına ehtiyac yoxdur.

İbn əl-Qeyyim öz Nuniyyə əsərində demişdir:

*Onun çayları çuxursuz axar,*
*Onu daşqından saxlayan Nöqsansızdır.*

---

[1] “əs-Saff” surəsi, 12.

[2] “Səhih əl-Buxari”, 2790.

Bu çay həm də sənin ixtiyarınla hərəkət edir. İstəyirsən ki, su sağ tərəfə getsin, gedir, sola getsin, gedir, önə axsın, axır, dayansın, sənin istəyinə uyğun olaraq dayanır.

Sonra Uca Allah buyurur: **"Ədn cənnətlərindəki gözəl məskənlərə daxil edər. Bu, böyük uğurdur".**

Gözəl məskənlər: tikilisi gözəl, otaqları gözəl, mənzərəsi gözəl, məskəni gözəl – hərtərəfli gözəl. Orada sakin olanlar isə çadırlarda yaşayan gənc hurilərdir. Mirvaridən olan çadırlarda. Gözlərə gözəl görünən hündür çadırlar. Peyğəmbər ﷺ demişdir: **"Qabları və içərisindəkiləri qızıldan olan iki cənnət, bir də qabları və içərisindəkiləri gümüşdən olan iki cənnət".**[1]

Kərpicləri isə gildən və torpaqdan ibarət deyil. Onlar qızıldan və ya gümüşdəndirlər. Ona görə də Allah onu gözəl adlandırmışdır.

Sonra onun gözəlliyindəndir ki, sahibi ondan ayrılmaq istəmir. Dünyadakı məskənlər nə qədər gözəl olsa belə, başqalarının evinin sənin evindən daha gözəl olduğunu görəcəksən. Deyəcəksən ki, kaş ki, bu ev mənim olaydı.

Cənnətdə isə məskən sahibləri məskənlərindən bezməyəcək, oradan köçmək istəməyəcəklər. Hər kəs özünü Cənnət əhlindən ən çox nemət verilmiş şəxs hesab edəcəkdir ki, daha gözəlini gördükdə qəlbi sınmasın.

Cəhənnəm əhlinin halı isə fərqlidir: Cəhənnəm əhlindən olan hər kəs hətta ən yüngül əzab çəksə belə, özünün ən şiddətli əzaba düçar olduğunu düşünəcəkdir. Allah qorusun!

Bu yaxşı məskənlər Ədn cənnətlərində olacaqdır. Alimlər demişlər: Ədn, yəni qalmaq. Mədən sözü də uzun müddət orada qalındığına görə buna bənzəyir. Yəni Cənnətdə qalmaq aradan qalxmayacaq və əbədi olacaqdır. Allah bizləri və sizi onun əhlindən etsin.

**"Bu, böyük uğurdur".** Qələbə, insanın istədiyini alması və qorxduğundan nicat tapmasıdır. "Böyük / əzəmətli", yəni ondan daha əzəmətli bir şey yoxdur. Qazanc üzərinə qazanc – Allaha və rəsuluna iman gətirənlər, Onun yolunda cihad edənlər üçün əvəz üzərinə əvəz. Uca və nöqsansız

---

[1] "Səhih əl-Buxari", 4500; "Səhih Muslim", 265.

Allahdan diləyirəm ki, bizləri və sizi onlardan etsin. Bizləri pis əməllərimizə görə bundan məhrum etməsin və bizlərə əfvi ilə müamələ etsin. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

**Mövzu ilə əlaqəli hədislər:**

١٢٨٥– عَنْ أبي هُريرَةَ، رضي الله عنه ، قال: سئِلَ رسولُ اللَّهِ ﷺ: أَيُّ الأعمالِ أفْضَلُ؟ قالَ: « إيمانٌ باللَّهِ ورَسولِهِ » قيل: ثُمَّ مَاذَا؟ قَالَ: « الجهادُ في سبِيلِ اللَّهِ » قِيل: ثُمَّ ماذا؟ قال: « حَجٌّ مَبْرُورٌ » متفقٌ عليهِ.

**1285.** Rəvayət olunur ki, Əbu Hureyra رضي الله عنه demişdir: «Rəsulullahdan ﷺ soruşdular ki: "Hansı əməl daha əfzəldir?" Buyurdu ki: **"Allaha və Onun rəsuluna iman gətirmək"**. Dedilər: "Sonra hansı?" Buyurdu ki: **"Allah yolunda cihad etmək"**. Yenə soruşdular: "Sonra hansı?" Buyurdu ki: **"Qəbul olunmuş həcc"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

١٢٨٦– وعَنِ ابنِ مَسْعُودٍ، رضي الله عنه ، قَالَ: قُلْتُ يا رَسُول اللَّهِ، أيُّ العَمَل أَحَبُّ إلى اللَّهِ تَعَالى؟ قالَ: « الصَّلاةُ عَلى وَقْتِهَا » قُلْتُ: ثُمَّ أَي؟ قَالَ: « بِرُّ الوَالدَيْنِ» قُلْتُ: ثُمَّ أَيُّ؟ قَالَ « الجِهَادُ في سَبيلِ اللَّهِ ». متفقٌ عليهِ.

**1286.** Rəvayət olunur ki, İbn Məsud رضي الله عنه demişdir: «Mən dedim: "Ey Allahın elçisi, Uca Allahın ən sevdiyi əməl hansıdır?" Buyurdu ki: **"Vaxtında qılınan namaz"**. Soruşdum: "Sonra hansı?" Dedi ki: **"Valideyinlə gözəl davranmaq".** Soruşdum ki: "Sonra hansı?" Buyurdu ki: **"Allah yolunda cihad etmək"».**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

١٢٨٧– وَعنْ أبي ذَرٍّ، رضي الله عنه ، قَالَ: قُلْتُ: يا رَسُولَ اللَّهِ أَيُّ العملِ أَفْضَلُ؟ قَالَ: « الإيمَانُ بِاللَّهِ، وَالجِهَادُ في سبِيلِهِ ». مُتفقٌ عليهِ.

**1287.** Rəvayət olunur ki, Əbu Zərr ﷺ demişdir: «Mən soruşdum: "Ey Allahın elçisi, Allaha ən sevimli olan əməl hansıdır?" O dedi: **"Allaha iman və Allah yolunda cihad etmək"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

١٢٨٨– وعنْ أَنَسٍ، ﷺ، أنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « لَغَدْوَةٌ في سبِيلِ اللَّهِ، أَوْ رَوْحَةٌ، خَيْرٌ مِن الدُّنْيَا وَمَا فِيها ». متفقٌ عليهِ.

**1288.** Ənəsdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Allah yolunda hər bir gediş-gəliş dünya və onun üzərindəkilərdən daha xeyirlidir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٢٨٩– وَعَنْ أبي سَعيدٍ الخُدْرِيِّ، ﷺ قال: أَتى رَجُلٌ رسُول اللَّهِ ﷺ، فَقَالَ: أَيُّ النَّاسِ أَفْضلُ؟ قَالَ: « مُؤْمِنٌ يُجَاهِدُ بِنَفْسِهِ ومالِهِ في سبِيلِ اللَّهِ » قال: ثُمَّ مَنْ؟ قَالَ: « مُؤْمِنٌ في شِعْبٍ مِنَ الشِّعابِ يعْبُدُ اللَّه، ويَدَعُ النَّاسَ مِنْ شَرِّهِ. متفقٌ عليهِ.

**1289.** Rəvayət olunur ki, Əbu Səid əl-Xudri ﷺ demişdir: «Bir kişi Rəsulullahın ﷺ yanına gəlib dedi: "İnsanlardan hansı birisi daha fəzilətlidir?" Dedi: **"Allah yolunda canı və malı ilə cihad edən mömin".** Dedi: "Sonra kim?" Dedi: **"Bir kənara çəkilərək Allaha ibadət edən, insanları da öz şərindən uzaq edən mömin"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٢٩٠– وعنْ سهل بنِ سعْدٍ، ﷺ، أَنَّ رَسُولَ اللَّه ﷺ، قَالَ: « رِباطُ يَوْمٍ في سَبيلِ اللَّهِ خَيْرٌ مِنَ الدُّنْيا وما علَيْها، ومَوْضِعُ سَوْطِ أَحَدِكُمْ مِنَ الجنَّةِ خَيْرٌ من الدُّنْيا وما عَلَيْها، والرَّوْحةُ يرُوحُها العبْدُ في سَبيلِ اللَّهِ تَعالى، أوِ الغَدْوَةُ، خَيْرٌ مِنَ الدُّنْياَ وَما علَيْهَا ». متفقٌ عليه.

---

[1] "Səhih əl-Buxari", 2583; "Səhih Muslim", 3492.

[2] "Səhih əl-Buxari", 2578; "Səhih Muslim", 3501.

**1290.** Səhl ibn Səddən ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Allah yolunda bir gün keşik çəkmək dünya və onun üzərindəkilərdən daha xeyirlidir. Birinizin Cənnətdəki qamçı boyda yeri dünya və onun üzərindəkilərdən daha xeyirlidir. Uca Allahın yolunda hər hansı bir gediş və ya gəliş dünya və onun üzərindəkilərdən daha xeyirlidir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

**Şərh:**

Uca Allahın bu ayəsi haqda: **"Sevdiyiniz başqa şey də vardır: Allah tərəfindən kömək və yaxın qələbə. Möminləri *bununla* müjdələ".**[2]

**"Sevdiyiniz başqa şey də vardır".** Yəni sizin sevdiyiniz bir başqa şey də vardır. Sonra onu bəyan edərək buyurur: **"Allah tərəfindən kömək və yaxın qələbə. Möminləri *bununla* müjdələ".** Allah tərəfindən kömək sayəsində O sizə düşmənləriniz üzərində qələbə çalmağa yardım edəcək.

Şəkk yoxdur ki, insanın öz düşmənləri üzərində qələbə çalmasına böyük bir sevgisi var. Çünki Uca Allah onun düşməninə əzabı onun əli ilə verir. Uca Allah buyurur: **"Onlarla vuruşun ki, Allah sizin əllərinizlə onlara əzab versin, onları rüsvay etsin, sizə onların üzərində qələbə çaldırsın, mömin camaatın qəlbini sevindirsin və möminlərin qəlbindən qəzəbi silib aparsın. Allah istədiyi kəsin tövbəsini qəbul edər. Allah *hər şeyi* biləndir, hikmət sahibidir".**[3] Əgər Allah sənin düşmənini sənin əlinlə cəzalandırsa, bunda böyük faydalar vardır. Ona görə də buyurur ki: **"Allah tərəfindən kömək və yaxın qələbə".** Bu da bu ümmətə ilk dönəmlərində verilmişdi. Allah onlara böyük fəthlər nəsib etmiş, onlar da böyük qənimətlər əldə etmişdilər. Çünki onlar özlərinə vacib olana riayət edərək Allaha iman gətirmiş, izzət və cəlal sahibi Allahın yolunda cihad etmişdilər. Sonra buyurur: **"Möminləri müjdələ".** Yəni Allaha, Onun elçisinə iman gətirərək cihad edən mömin kəsləri bütün bunlarla müjdələ.

Daha sonra müəllif ﵀ cihad və Allah yolunda keşik çəkməyin fəziləti barədə hədisləri qeyd etmiş, Allah yolunda hər bir gediş-gəlişin dünya

---

[1] "Səhih əl-Buxari", 2678; "Səhih Muslim", 3493.

[2] "əs-Saff" surəsi, 13.

[3] "ət-Tövbə" surəsi, 14-15.

və onun üzərindəkilərdən daha xeyirli olduğunu bildirmişdir. Bu da böyük fəzilətdir. Bütün dünyanın əvvəlindən sonunadək hamısından, onun içindəkilərdən daha xeyirlidir.

Təkcə sənin yaşadığın dünyadan xeyirli deyil, bütün dünyadan və onun üçərisində olanlardan daha xeyirlidir. Nə zamandan bəri? – Yalnız Allahın bildiyi vaxtdan bəri. Həmçinin bilinmir ki, nə zaman bitəcək. Bütün bunlar dünya və onun içərisindəkilərdən daha xeyirlidir.

Peyğəmbər ﷺ demişdir: **"Birinizin Cənnətdəki qamçı boyda yeri dünya və onun üzərindəkilərdən daha xeyirlidir".** Birinci barədə nə deyilirsə, ikinci barədə də eynisi deyilir: Cənnətdə bir qamçının qoyulduğu yer bütün dünyadan daha əfzəldir – əvvəlindən sonunadək. Allah yolunda gediş və gəliş də onlardan – dünya və üzərindəkilərdən daha xeyirlidir. Bundan əlavə, Allah yolunda keşik çəkmək də onlardan daha xeyirlidir.

Bu hədislərdən birində Peyğəmbərdən ﷺ soruşurlar ki, hansı insan daha yaxşıdır? O da bəyan edir ki, malı və canı ilə Allah yolunda cihad edən kəs. Sonra hansı? – **"Bir kənara çəkilərək Allaha ibadət edən, insanları da öz şərindən uzaq edən mömin".** Yəni o, Allaha ibadətlə məşğul olur, insanlardan uzaq durur və istəmir ki, insanlar ondan pislik görsünlər. Bu da dəlildir ki, təkliyə çəkilmək insanlara qarışmaqdan daha əfzəldir. Lakin səhih olan budur ki, bu məsələdə təfsilat vardır: Kim insanlara qarışmaqla dini üçün qorxursa, onun təkliyə çəkilməsi daha əfzəldir. Kim qorxmursa, yaxşı olar ki, insanlara qaynayıb-qarışsın. Çünki Peyğəmbər ﷺ demişdir: **"İnsanlara qarışıb onların əziyyətlərinə dözən mömin insanlara qarışmayıb onların əziyyətlərinə dözməyən adamdan daha xeyirlidir".**[1]

Məsələn, görsən ki, insanlar pozulub və sən onlara qarışdıqda sənin halın pisləşir, onlar səni Allahdan uzaqlaşdırır, o zaman tək qal, onlardan uzaq ol. Peyğəmbər ﷺ demişdir: **"Ola bilsin ki, insanın ən xeyirli malı dağlarda, yağış yağan yerlərdə qoyun otarması olsun".**[2]

Göründüyü kimi, məsələ fərqlidir: fitnə, fəsad, qorxu və günahlar baş qaldırdığı zaman təkliyə çəkilmək insanlarla qalmaqdan daha əfzəldir. Əgər belə deyilsə, insanlarla qaynayıb-qarış. Onları yaxşı işlərə dəvət et,

[1] "Musnəd İmam Əhməd", 2/43.
[2] "Səhih əl-Buxari", 3055.

pis işlərdən çəkindir, onların əziyyətlərinə səbir et, onlarla yaxınlıq et. Ola bilsin ki, sənin vasitənlə Allahın hidayət verdiyi bir adam qırmızı dəvələrdən daha xeyirli olsun. Müvəffəq edən Allahdır.

١٢٩١– وعَنْ سَلْمَانَ، ﷺ، قال: سَمِعْتُ رَسُولَ اللَّه ﷺ يَقُولُ: «رِبَاطُ يَوْمٍ وَلَيْلَةٍ خَيرٌ مِنْ صِيامِ شَهْرٍ و قِيامِهِ، وَإِنْ ماتَ فيهِ أجري عليه عمَلُهُ الَّذي كان يَعْمَلُ، وَأُجْرِيَ عَلَيْهِ رِزقُهُ، وأمِنَ الفَتَّانَ » رواهُ مسلمٌ.

**1291.** Rəvayət olunur ki, Salman ﷺ demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Bir gün və bir gecə keşikdə durmaq bir ay oruc tutub qiyam etməkdən daha əfzəldir. Əgər həmin vaxt ölərsə, etdiyi əməlin üzərində ölmüş sayılar, ruzisi ona verilər və fitnəkardan yaxa qurtarar"**».

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٢٩٢– وعَنْ فضَالةَ بن عُبيد، ﷺ، أَنَّ رسُولَ اللَّهِ ﷺ قَالَ: « كُلُّ مَيِّتٍ يُخْتَمُ على عَمِلِهِ إلاَّ المُرابِطَ في سَبيلِ اللَّهِ، فَإِنَّهُ يُنَمَّى لهُ عَمَلُهُ إلى يوْمِ القِيامَةِ، ويُؤمَّنُ فِتْنةِ القَبرِ ». رواه أبو داودَ والترمذيُّ وقَالَ: حديثٌ حسنٌ صحيحٌ.

**1292.** Fudalə ibn Ubeyddən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Allah yolunda keşik çəkənlərdən başqa hər kəsin əməlinə xitam verilər. Onun isə əməli Qiyamət günü artırılar. Habelə o, qəbir fitnəsindən canını qurtarar".**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən səhih hədisdir" demişdir.[2]

١٢٩٣– وعَنْ عُثْمَانَ، ﷺ، قَالَ: سَمِعْتُ رَسُول اللَّهِ ﷺ يقُولُ: «رباطُ يَوْمٍ في سبيلِ اللَّه خَيْرٌ مِنْ أَلْفِ يَوْمٍ فيما سواهُ مِنَ المَنازِلِ ». رواهُ الترمذيُّ وقال: حديثٌ حسن صَحيحٌ.

---

[1] "Səhih Muslim", 3537.

[2] "Musnəd İmam Əhməd", 6/20; "Sunən Əbu Davud", 2139; "Sunən ət-Tirmizi", 1546.

**1293.** Osmandan ﷺ rəvayət olunur ki, o demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Allah yolunda bir gün keşik çəkmək başqa yerdə olan min gündən daha xeyirlidir"».**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, səhih hədisdir" demişdir.[1]

١٢٩٤– وَعَنْ أبي هُرَيرَة، ﷺ، قَال: قَالَ رسولُ اللَّهِ ﷺ: « تَضَمَّنَ اللَّه لِمَنْ خَرَجَ في سَبيلِهِ، لا يُخْرِجُهُ إلاَّ جِهَادٌ في سَبيلي، وإيمانٌ بي وَتَصْدِيقٌ برُسُلي فَهُوَ ضَامِنٌ أنْ أدْخِلَهُ الجَنَّةَ، أوْ أرْجِعَهُ إلى مَنْزِلِهِ الذي خَرَجَ مِنْهُ بما نَالَ مِنْ أجْرٍ، أوْ غَنِيمَة، وَالَّذي نَفْسُ مُحَمَّدٍ بيَدِهِ ما مِنْ كَلْمٍ يُكلَم في سبيلِ اللَّهِ إلاَّ جاءَ يوْم القِيامةِ كَهَيْئَتِهِ يوْم كُلِم، لَوْنُهُ لَوْن دَم، ورِيحُهُ رِيحُ مِسْكٍ، والَّذي نَفْسُ مُحمَّدٍ بِيدِهِ لَوْلا أنْ أَشُقَّ على المُسْلِمينَ ما قعَدْتُ خِلاف سرِيَّةٍ تَغْزُو في سَبيلِ اللَّه أبَداً، ولكِنْ لا أجِدٌ سعَة فأَحْمِلَهمْ ولا يجدُونَ سعَةً، ويشُقُّ علَيْهِمْ أن يَتَخَلفوا عنِّي، وَالذي نفْسُ مُحَمَّد بِيدِهِ، لَودِدْتُ أن أغزوَ في سبِيلِ اللَّهِ، فَأُقْتَل، ثُمَّ أغْزو، فأُقتل، ثُمَّ أغزو، فأُقتل » رواهُ مُسلمٌ وروى البخاريُّ بعْضهُ.

« الكَلْمُ »: الجرح.

**1294.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Allah, Onun yolunda yalnız cihad məqsədilə, Mənə və rəsullarıma iman gətirərək çıxana zəmanət vermişdir ki, ya onu Cənnətə daxil etsin, ya da onu əcr və qənimətlə öz mənzilinə qaytarsın. Muhəmmədin canı əlində olan Allaha and olsun ki, Allah yolunda yaralanan hər bir kəs Qiyamət günü öz görkəmində gələcək, rəngi qan rəngində, qoxusu da müşk qoxusunda. Muhəmmədin canı əlində olan Allaha and olsun ki, müsəlmanlara çətin olmasaydı, hər dəfə Allah yolunda döyüşə ordu göndərərkən özüm əsla geridə qalmazdım. Lakin nə mən buna imkan tapıram, nə də onlar. Məni qoyub getmək onlar üçün də çətindir. Muhəmmədin canı əlində olan Allaha and olsun ki, istəyirəm Allah yolunda döyüşüm və öldürülüm, yenə döyüşüm və öldürülüm, sonra yenə döyüşüm və öldürülüm"**.

Bu hədisi Muslim rəvayət etmişdir. Hədisin bir qismini də Buxari rəvayət etmişdir.[2]

---

[1] "Musnəd İmam Əhməd", 1/65; "Sunən ət-Tirmizi", 1090; "Sunən ən-Nəsai", 3118.
[2] "Səhih əl-Buxari", 5107; "Səhih Muslim", 3484.

[Hədisin ərəbcəsində keçən] "əl-kəlm" sözü "yara" mənasındadır.

**Şərh:**

Müəllif Hafiz ən-Nəvəvi ﷺ bu hədisləri Allah yolunda keşik çəkmək fəslində qeyd etmişdir. Yəni insanın sərhəddə və ya düşmən olan istiqamətdə izzət və cəlal sahibi Allah yolunda, Onun kəlməsini uca tutmaq, Onun dinini və müsəlmanları qorumaq məqsədilə keşik çəkməsi. Şübhəsiz ki, bu ən əfzəl əməllərdəndir.

Qeyd etdik ki, Peyğəmbər ﷺ demişdir: **"Allah yolunda keşik çəkmək dünya və onun üzərindəkilərdən daha xeyirlidir".** Bu hədislər dəlildir ki, Allah yolunda keşik çəkən kəs Qiyamət günü öz əməli ilə gələcək və o, qəbir fitnəsindən qurtulacaq. Yəni insanlar ölüb dəfn olunduqda onların yanına gələn iki mələyin onlardan Rəbbi, dini və peyğəmbəri barədə sorğu-sualından yalnız Allah yolunda keşik çəkənlər istisnadır – onları iki mələk sorğulamayacaq.

Peyğəmbər ﷺ bunun hikmətini də bəyan etmiş və demişdir: **"Onun başına endirilən qılıncların fitnəsi yetərlidir".**[1] Beləliklə, şəhid və Allah yolunda keşik çəkənləri qəbirdə mələklər sorğu-sual etməyəcək, onlar bundan əmin-amanlıqda olacaqlar. Bu da böyük bir fəzilət və əcdir.

Əbu Hureyradan ﷺ nəql olunan sonuncu hədis Allah yolunda vuruşmağın fəzilətinə dəlildir. Buna görə də Peyğəmbər ﷺ and içmişdir ki, əgər müsəlmanlara çətin olmasaydı, əsla döyüşlərdən qalmazdı. Lakin Peyğəmbər ﷺ bəzən özü müsəlmanların ehtiyaclarını ödəmək üçün, habelə onlara çətin olmasın deyə qalar və döyüşə getməzdi.

Peyğəmbər ﷺ and içir ki, o da Allah yolunda vuruşaraq ölmək, sonra dirilib yenə vuruşaraq ölmək, sonra dirilərək yenə vuruşub ölmək istəyir. Bunda şübhə yoxdur, çünki Quranda bu xüsusda aydın dəlillər vardır. Uca Allah buyurur: **"Allah yolunda öldürülənləri əsla ölü sanma. Əksinə, *onlar* diridirlər; özlərinin Rəbbi yanında onlara ruzi verilir. Onlar Allahın Öz lütfündən onlara verdiyi nemətə fərəhlənir, arxalarınca gəlib hələ onlara çatmamış kəslərin heç bir qorxu ilə qarşılaşmayacaqları və kədərlənməyəcəkləri müjdəsinə sevinirlər. Onlar Allahın**

[1] "Sunən ən-Nəsai", 2026.

**neməti və lütfünə görə, həm də Allahın möminlərin mükafatını heçə çıxarmayacağı müjdəsinə sevinirlər".**[1]

Bu bərzəx həyatı isə bizim həyatımız kimi deyil. Ona görə də Uca Allah buyurur: **"Allah yolunda öldürülənlərə: "Ölüdürlər"– deməyin! Əksinə, *onlar* diridirlər, lakin siz *bunu* hiss etmirsiniz".**[2] Bu həyatın necəliyini biz bilmirik. Yəni əgər məzar açılsa, sən insanın ölü olduğunu görərsən. Lakin o, diridir və Allah yanında ruzilənir – səhər-axşam Cənnətdən ruzi yeyir. Uca və Nöqsansız Allahdan diləyirik ki, bizlərə və sizə Onun yolunda şəhid olmağı nəsib etsin. Həmçinin bizi və sizi Onun yolunda, habelə öz nəfsimizə və düşmənlərimizə qarşı cihad etməyə müvəffəq etsin. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

١٢٩٥– وَعنْهُ قال: قَالَ رسُولُ اللَّهِ ﷺ: « ما مِنْ مَكلوم يُكْلَمُ في سبيل الله إلاَّ جاءَ يَوْمَ القِيامةِ، وكَلْمُهُ يَدْمِي: اللوْنُ لونُ دمٍ والريحُ رِيحُ مِسْكٍ ». متفقٌ عليهِ.

**1295.** Yenə Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Allah yolunda yaralanmış elə bir adam yoxdur ki, Qiyamət günü gəldikdə yarası qanamış olmasın. Rəngi qan rəngində, qoxusu isə müşk qoxusu verəcək".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

١٢٩٦– وعَنْ مُعاذٍ ﵁، عن النبي ﷺ، قَالَ: « منْ قاتل في سَبيلِ اللَّهِ مِنْ رَجل مُسلِمٍ فُواقَ نَاقةٍ وجبتْ له الجَنَّةُ، ومَنْ جُرِحَ جُرْحاً في سبيلِ الله أَوْ نكِب نَكبَةً، فَإِنَّهَا تجيءُ يَوْمَ القِيامة كأغزَرِ ما كَانَتْ: لَوْنُهَا الزَّعْفَرانُ، ورِيحُها كالمِسكِ». رواهُ أبو داودَ، والترمذيُّ وقال: حديثٌ حسَنٌ صحيحٌ.

**1296.** Müazdan ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Allah yolunda dəvə üzərində vuruşan hər bir müsəlman kişiyə Cənnət vacib olar. Kim Allah yolunda yaralanarsa, Qiyamət günü parlayan vəziyyətdə gələr – rəngi zəfəran rəngində, qoxusu isə müşk qoxusu kimi olar".**

[1] "Ali İmran" surəsi, 169-171.

[2] "əl-Bəqərə" surəsi, 154.

[3] "Səhih əl-Buxari", 5107.

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: “Bu, həsən səhih hədisdir” demişdir.[1]

١٢٩٧– وعنْ أبي هُريرةَ، ﷺ، قال: مَرَّ رَجُلٌ مِنْ أصْحَاب رسُولِ اللَّهِ ﷺ، بشِعْب فيهِ عُيَيْنَةٌ مِن ماءٍ عَذْبةٍ، فأعجبتهُ، فَقَالَ: لَو اعتزَلْتُ النَّاسَ فَأَقَمْتُ في هذا الشِّعْبِ، ولَنْ أفعلِ حَتى أسْتأْذنَ رسُولَ اللَّهِ ﷺ، فذكر ذلكَ لرسُولِ اللَّهِ ﷺ، فَقَالَ: « لا تفعلْ، فإنَّ مُقامَ أحدِكُمْ في سبيلِ اللَّهِ أفضَلُ مِنْ صلاتِهِ في بيتِهِ سبْعِينَ عاماً، ألا تُحبُّونَ أنْ يَغْفِر اللَّهُ لَكُمْ ويُدْخِلكَمُ الجنَّةَ؟ اغزُوا في سبيلِ اللَّهِ، منْ قَاتَلَ في سَبيلِ اللَّهِ فُوَاقَ نَاقَة وَجَبتْ له الجَنَّةُ ». رواهُ الترمذيُّ وَقال: حديثٌ حَسَنٌ.

والفُوَاقُ: مَا بَيْنَ الحَلْبتَيْنِ.

**1297.** Rəvayət olunur ki, Əbu Hureyra ﷺ demişdir: «Bir dəfə Rəsulullahın ﷺ səhabələrindən biri bulaq olan bir yerdən keçirdi. Həmin yer onun xoşuna gəldi və dedi: “Kaş ki, insanlardan uzaq olub bu yerdə qalsaydım. Ancaq Rəsulullahdan izin alanadək bunu etməyəcəyəm”. O bunu Peyğəmbərə ﷺ dedi, o da dedi: **“Belə etmə. Birinizin Allah yolundakı məqamı evində qıldığı yetmiş illik namazdan daha əfzəldir. Məgər istəmirsiniz ki, Allah sizi bağışlasın və sizi Cənnətə daxil etsin? Allah yolunda vuruşun. Kim Allah yolunda dəvəsi üzərində vuruşarsa, Cənnət ona vacib olar”».**

Hədisi Tirmizi rəvayət etmiş və: “Bu, həsən hədisdir” demişdir.[2]

[Hədisin ərəbcəsindəki] “fuvaqa” sözü “kürəyində” mənasındadır.

١٢٩٨– وعَنْهُ قَالَ قِيلَ: يا رسُولَ اللَّهِ، ما يَعْدِلُ الجِهَادَ في سَبيلِ اللَّهِ؟ قَالَ: « لا تَسْتَطيعُونَه، » فأعادوا عليه مرتين أو ثلاثاً كل ذلك يقول: « لا تستطيعون، ». ثُمَّ قال: « مثَل المجاهد في سبيل اللَّهِ كمثَل الصَّائمِ القَائمِ القَانتِ بآياتِ اللَّهِ لا يَفْتُرُ: مِنْ صلاةٍ، ولا صيامٍ، حتى يَرجِعَ المجاهدُ في سبيل اللَّهِ » متفقٌ عليهِ. وهذا لفظُ مسلِمٍ.

---

[1] “Sunən Əbu Davud”, 2179; “Sunən ət-Tirmizi”, 1581.

[2] “Sunən ət-Tirmizi”, 1574.

وفي روايةِ البخاري: أنَّ رجلا قَال: يا رسُولَ اللَّهِ دُلَّني عَلى عملٍ يَعْدِلُ الجِهَادَ؟ قال: « لا أجدهُ » ثُمَّ قال: « هل تَستَطِيعُ إذا خَرَجَ المُجاهِدُ أن تدخُلَ مَسجِدَك فتَقُومَ ولا تَفتُرَ، وتَصُومَ ولا تُفطِرَ؟ » فَقالَ: ومَنْ يستطِيعُ ذَلك؟

**1298.** Yenə Əbu Hureyradan ﷺ rəvayət olunur ki, dedilər: "Ey Allahın elçisi, Allah yolunda cihad etməyə nə bərabərdir?" Dedi: **"Onu bacarmazsınız"**. Ona iki və ya üç dəfə bunu təkrar etdilər, o da hər dəfə: **"Onu bacarmazsınız"**– dedi. Sonra dedi: **"Allah yolunda cihad edənin misalı *durmadan* oruc tutub namaz qılan, Allahın ayələrini oxuyan və Allah yolunda cihad edən kəs cihaddan qayıdanadək namazdan, orucdan usanmayan şəxs kimidir"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1] Bu mətn Muslimin ləfzidir.

Buxarinin rəvayətində isə deyilir: «Bir kişi dedi: "Ey Allahın elçisi, mənə elə bir əməl de ki, cihada bərabər olsun". Dedi: **"Tapa bilmirəm"**. Sonra dedi: **"Mücahid *cihada* çıxdıqda məscidə gedib *o qayıdanadək* usanmadan orada qala və yalnız namaz qılıb oruc tuta bilərsənmi?"** Dedi: "Bunu kim edə bilər ki?"».[2]

١٢٩٩– وعنْهُ أنَّ رسُول اللَّه ﷺ قَال: « مِنْ خَيرِ معاشِ الناس لَهُم رجُلٌ مُمسِكٌ بعنَانِ فرسِهِ في سبيل اللَّهِ، يطِيرُ على متنِهِ كُلَّما سمِع هَيعةً، أوْ فَزْعَة طَار على متنِهِ، يَبْتَغِي القتل أو المَوتَ مظَانَّهُ، أو رَجُلٌ في غُنَيْمةٍ أو شَعفَةٍ مِن هذه الشُّعفِ أو بطنِ وادٍ من هذهِ الأودِيةِ يُقيمُ الصَّلاةَ، ويُؤْتي الزَّكاةَ، ويعْبُدُ ربَّهُ حتَّى يَأْتِيَه اليَقِينُ لَيْسَ من النَّاسِ إلاَّ في خَيْرٍ » رواهُ مسلمٌ.

**1299.** Yenə Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"İnsanların ən xeyirli yaşayışı Allah yolunda atının ovsarından tutmasındadır. O, sanki quş kimi onun üzərində uçur, döyüşmək və qətlə yetirilmək istəyir. Yaxud da o kəs ki, bu yerlərdən birində, yaxud bu vadilərin birində namaz qılır, zəkat verir, ölüm gələnədək Rəbbinə ibadət edir. İnsanlardan xeyir içərisində olanlar yalnız belələridir"**.

---

[1] "Səhih əl-Buxari", 2479; "Səhih Muslim", 3490.

[2] "Səhih əl-Buxari", 2577.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٣٠٠– وعَنْهُ، أنَّ رسولَ اللَّهِ ﷺ، قالَ: « إنَّ في الجنَّةِ مائَةَ درجةٍ أعدَّهَا اللَّه للمُجَاهِدينَ في سبيلِ اللَّه ما بيْنَ الدَّرجَتَينِ كما بيْنَ السَّمَاءِ والأَرْضِ ». رواهُ البخاريُّ.

**1300.** Yenə ondan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Cənnətdə yüz dərəcə vardır. Allah onları Onun yolunda cihad edənlər üçün hazırlamışdır. İki dərəcə arasındakı məsafə yerlə göy qədərdir".**

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

١٣٠١– وعَن أبي سعيدٍ الخُدْرِيِّ، رضي الله عنه، أنَّ رسُولَ اللَّه ﷺ قَال: « مَنْ رضي بِاللَّهِ رَبًّا، وبالإسْلامِ ديناً، وَبمُحَمَّدٍ رَسُولاً، وَجبت لَهُ الجَنَّةُ » فَعَجب لهَا أبو سَعيدٍ، فَقَال أعِدْها عَلَيَّ يا رَسولَ اللَّهِ فَأَعادَهَا عَلَيْهِ، ثُمَّ قال: « وَأُخْرى يَرْفَعُ اللَّه بِها العَبْدَ مائَةَ درَجةً في الجَنَّةِ، ما بيْن كُلِّ دَرَجَتَين كَما بَين السَّماءِ والأرْضِ » قال: وما هِي يا رسول اللَّه؟ قال: « الجِهادُ في سبِيل اللَّه، الجِهادُ في سَبيلِ اللَّهِ ». رواهُ مُسلمٌ.

**1301.** Əbu Səid əl-Xudridən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim Allahdan Rəbb, İslamdan din, Muhəmməddən də elçi olaraq razı olarsa, Cənnət ona vacib olar"**. Əbu Səid buna təəccüblənib deyir: "Ey Allahın elçisi, bunu mənim üçün təkrarla". O da həmin sözləri təkrarladı, sonra dedi: **"Bundan əlavə Cənnətdə bəndə yüz dərəcə qaldırılar. İki dərəcə arasındakı məsafə yerlə göy qədərdir".** Soruşdu: "Bu hansı əmələ görədir, ey Allahın elçisi?" Dedi: **"Allah yolunda cihad, Allah yolunda cihad".**

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

**Şərh:**

Bütün bu çeşidli hədislər mücahidin fəziləti barəsindədir. Mücahidin fəzilətindən biri də budur ki, əgər o ölərsə, şəhid olar. O, Qiyamət günü yarası qanlı halda gələcək, rəngi qan rəngində, qoxusu isə müşk qoxusu

---

[1] "Səhih Muslim", 3503.
[2] "Səhih əl-Buxari", 2581.
[3] "Səhih Muslim", 3496.

kimi olacaq, bu və digər ümmətlər də buna şahidlik edəcək. Həmin müşahidə olunan gündə hətta mələklər də buna şahid olacaqlar. Bu da onun həm dünyada, həm də axirətdə yüksəlməsinə səbəb olur.

Həmçinin kim dəvəsinin üzərində döyüşərsə, Cənnət ona vacib olar. Əgər hətta bu miqdarda olsa belə, Allahın kəlməsini uca tutmaq məqsədilə cihadda səfdə durmuş olsa, bu ona Cənnəti vacib edər.

Həmçinin Allah yolunda cihad etmək üçün çıxan kəs yola çıxandan geri dönənədək *fasiləsiz* oruc tutub *davamlı* namaz qılan kəs kimi savab qazanmış olur.

Həmçinin cihada çıxan kəs yola çıxandan dönənədək *evində qalan birisi* yalnız davamlı namaz qılıb fasiləsiz oruc tutmaqla izzət və cəlal sahibi Allahın yanında onun (mücahidin) əcrinə bərabər əcr qazana bilər. Lakin bu mümkün deyil. Necə ki, Peyğəmbər ﷺ bunu dedi, səhabə də ona belə cavab verdi.

Uca Allah Onun yolunda cihad edənlər üçün Cənnətdə yüz dərəcə hazırlamışdır. İki dərəcə arasındakı məsafə göylə yer qədərdir. Allah həmin dərəcələri Onun yolunda cihad edənlər üçün hazırlamışdır.

Bu və buna bənzər hədislər olduqca çoxdur. Onlar Allah yolunda cihadın fəzilətinə dəlalət edir. Allah yolunda cihad canla da olur, malla da. Lakin canla olan cihad daha əfzəl və savabı daha böyükdür. Çünki bütün bu eşitdiyimiz hədislər canı ilə cihad aparanlara aiddir.

Malı ilə cihad edənlər də xeyir içərisindədirlər. Peyğəmbərin ﷺ belə dediyi sabitdir ki: **"Kim Allah yolunda bir döyüşçünü təchiz edərsə, döyüşmüş sayılar"**. Yəni ona döyüşənin əcri yazılar.

Həmçinin kim döyüşçünün ailəsini təmin edərsə, döyüşmüş sayılar.

Uca Allahdan diləyirəm ki, bizləri və sizi Onun Üzü xatirinə Onun yolunda cihad edənlərdən etsin. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

١٣٠٢– وعَنْ أبي بَكْرِ بن أبي مُوسى الأشْعَرِيِّ، قَالَ: سَمِعْتُ أبي، رضي الله عنه ، وَهُوَ بحَضْرَةِ العَدُوِّ، يقول: قالَ رسُولُ اللَّهِ ﷺ: « إنَّ أبْوابَ الجَنَّةِ تَحْتَ ظِلالِ السُّيُوفِ » فَقامَ رَجُلٌ رَثُّ الهَيْئَةِ فَقَالَ: يَا أبَا مُوسَى أَأَنْت سمِعْتَ رسولَ اللَّهِ ﷺ يقول هذا؟ قال: نَعم، فَرجَع إلى

أصحَابِهِ، فَقَال: « أقرأ علَيْكُمُ السَّلامَ » ثُمَّ كَسَر جفْن سَيفِهِ فألْقاه، ثمَّ مَشَى بِسيْفِهِ إلى العدُوِّ فضَرب بِهِ حتَّى قُتل ». رواهُ مسلمٌ.

**1302.** Əbu Bəkr ibn Əbu Musa əl-Əşəridən ﷺ rəvayət olunur ki, o demişdir: «Atam düşmənin önündə ikən onun belə dediyini eşitmişəm: "Rəsulullah ﷺ demişdir: **"Şübhəsiz ki, Cənnətin qapıları qılıncların kölgəsi altındadır".** Heyəti dağınıq bir kişi qalxıb dedi: "Ey Əbu Musa, Rəsulullahın ﷺ belə dediyini sən özün eşitdin?" Dedi: "Bəli". Dostlarının yanına qayıdan *həmin kişi* onlara: "Sizə salam olsun"– dedi, sonra qılıncının qınını sındırıb atdı, sonra da qılıncı ilə düşmənin üzərinə yürüdü və ölənədək döyüşdü".

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٣٠٣– وعن أبي عَبْسٍ عبدِ الرَّحمنِ بْنِ جُبَيْرٍ، رضي الله عنه قال: قَال رسُولُ اللَّهِ ﷺ: « ما اغْبَرَّتْ قدَما عَبْدٍ في سبيلِ اللَّه فتَمسَّه النَّارُ ». رواهُ البخاري.

**1303.** Əbu Əbs Abdur-Rahmən ibn Cubeyr رضي الله عنه demişdir: «Rəsulullah ﷺ demişdir: **"Allah yolunda üzərinə toz qonan ayağa Cəhənnəm odu toxunmaz"**».

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

١٣٠٤– وَعَنْ أبي هُرَيْرَةَ، رضي الله عنه ، قَالَ: قَال رَسُولُ اللَّهِ ﷺ: « لا يلجُ النَّارَ رَجُلٌ بَكَى مِنْ خَشْيةِ اللَّهِ حتَّى يعُودَ اللَّبَن في الضَّرعِ، وَلاَ يَجْتَمِعُ عَلَى عَبْدٍ غُبَارٌ في سبيل اللَّهِ ودخَان جهَنَّم »، رواه الترمذيُّ وقال: حديثٌ حسنٌ صحيحٌ.

**1304.** Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Allah qorxusundan ağlayan kəsə süd məməyə qayıtmayanadək Cəhənnəm odu toxunmaz, Allah yolunda olan qulun üzərinə qonan tozla da Cəhənnəm tüstüsü bir araya gəlməz".**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən səhih hədisdir" demişdir.[3]

---

[1] "Səhih Muslim", 3521.

[2] "Səhih əl-Buxari", 2600.

[3] "Musnəd İmam Əhməd", 2/505; "Sunən ət-Tirmizi", 1557.

١٣٠٥– وعن ابن عبَّاسٍ، ﭭ، قَالَ: سمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يقُولُ: «عيْنَانِ لا تَمسُّهُمَا النَّارُ: عيْنٌ بكَت مِنْ خَشْيةِ اللَّهِ، وعيْنٌ باتَت تحْرُسُ في سبِيلِ اللَّهِ». رواه الترمذيُّ وقال: حديثٌ حسنٌ.

**1305.** İbn Abbasdan ﭭ rəvayət olunur ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"İki gözə Cəhənnəm odu toxunmaz: Allah qorxusundan ağlayan gözə, Allah yolunda keşik çəkən gözə".**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[1]

١٣٠٦– وعن زَيدِ بنِ خَالدٍ، ﭬ، أنَّ رسُولَ اللَّهِ ﷺ قَال: « من جهَّزَ غَازياً في سبيلِ اللَّهِ فَقَدْ غَزَا، ومنْ خَلَفَ غَازياً في أَهْلِهِ بخَيْر فَقَدْ غزَا ». متفقٌ عليهِ.

**1306.** Zeyd ibn Xaliddən ﭬ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim Allah yolunda döyüşəni təchiz edərsə, döyüşmüş sayılar; kim *Allah yolunda* döyüşənin ailəsini təmin edərsə, döyüşmüş sayılar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٣٠٧– وَعَنْ أبي أُمامة، ﭬ قَالَ: قالَ رسُولُ اللَّهِ ﷺ: « أفْضَلُ الصَّدَقات ظِلُّ فُسْطَاطٍ في سبيل اللَّه ومَنِيحةُ خادمٍ في سبيل الله أو طَروقهُ فحلٍ في سبيل اللَّه» رواه الترمذي وقال: حديث حسن صحيح.

**1307.** Əbu Umamədən ﭬ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Sədəqələrin ən əfzəli Allah yolunda olan mücahidlərin kölgələndiyi çadır, Allah yolunda xidmətçiyə verilən pay və qazinin istifadəsinə verilən dəvədir".**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən səhih hədisdir" demişdir.[3]

١٣٠٨– وعنْ أنسٍ، ﭬ، أنَّ فَتىً مِن أسْلَمَ قال: يا رسول اللَّهِ إنِّي أُريد الغَزْو ولَيْس معِى ما أتَجهَّزُ بِهِ، قال: « ائتِ فُلاناً، فَإنَّه قَد كانَ تَجهَّزَ فَمَرِضَ » فأتاه فَقَال: إنَّ رسولَ اللَّهِ

---

[1] "Sunən ət-Tirmizi", 1563.

[2] "Səhih əl-Buxari", 2631; "Səhih Muslim", 3511.

[3] "Sunən ət-Tirmizi", 1552.

ﷺ يُقْرِئُكَ السَّلامَ ويقولُ: أعطِني الذي تَجهَّزتَ بِهِ، قَالَ: يا فُلانَةُ، أعْطِيهِ، الذي كُنْتُ تَجهَّزْتُ بِهِ، ولا تَحْبِسين مِنْهُ شَيْئاً، فوَاللَّهِ لا تَحْبِسي مِنْه شَيْئاً فَيُبارَكَ لَكِ فِيهِ. رواه مسلمٌ.

**1308.** Ənəsdən ﷺ rəvayət olunur ki, Əsləmdən olan bir gənc dedi: "Ey Allahın elçisi, mən döyüşmək istəyirəm, lakin təchizatım üçün heç nəyim yoxdur". Dedi: **"Filankəsin yanına get, o hazırlaşırdı, ancaq xəstələndi"**. Gənc həmin adamın yanına gedib dedi: "Allahın elçisi ﷺ səni salamlayır və deyir ki, hazırlıq gördüyün şeyləri mənə verəsən". Dedi: "Ey filankəs, hazırlıq gördüyüm şeyləri ona ver və ondan heç bir şey saxlama. Vallahi ki, əgər ondan nə isə saxlamış olsan, sənə onda bərəkət verilməz".

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٣٠٩– وعن أبي سَعيدٍ الخُدْرِيّ، ﷺ، أنَّ رَسُولَ اللَّهِ ﷺ بَعثَ إلى بَني لِحيانَ، فَقَالَ: « لِيَنْبَعِثْ مِنْ كُلِّ رجُلَيْنِ أحدَهُما، والأَجْرُ بينَهُما » رواهُ مسلمٌ.

وفي روايةٍ لهُ: « لِيخْرُجْ مِنْ كُلِّ رجلين رجُلٌ » ثُمَّ قال لِلقاعِدِ: « أَيُّكُمْ خَلَفَ الخارجَ في أَهْلِهِ ومالِهِ بخَيْرٍ كان لهُ مِثْلُ نِصْفِ أَجرِ الخارجِ ».

**1309.** Əbu Səid əl-Xudridən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ Lihyan oğullarının yanına adam göndərdi və dedi: **"Hər iki nəfərdən biri göndərilsin, əcri də onların hər ikisi qazanar"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Onun başqa rəvayətində isə deyilir: «**"Hər iki kişidən biri çıxsın"**. Sonra qalana dedi: **"Kim cihada gedənin ailəsini və malını qoruyarsa, gedənin əcrinin mislini qazanar"».**[3]

١٣١٠– وعنِ البراءِ، ﷺ، قال: أتى النبي ﷺ، رجلٌ مقنَّعٌ بِالحدِيدِ، فَقال: يا رَسُول اللَّهِ أُقَاتِلُ أوْ أُسْلِمُ؟ فقَال: « أسْلِمْ، ثُمَّ قاتِلْ » فَأَسْلَم، ثُمَّ قَاتَلَ فَقُتِلَ، فقَال رسول الله ﷺ: « عمِل قَلِيلاً وَأُجِر كَثيراً ». متفقٌ عليهِ، وهذا لفظُ البخاري.

---

[1] "Səhih Muslim", 3510.
[2] "Səhih Muslim", 3513.
[3] "Səhih Muslim", 3514.

**1310.** Rəvayət olunur ki, Bəra ﵁ demişdir: “Bir dəfə Peyğəmbərin ﷺ yanına dəmir dəbilqəli bir adam gəlib dedi: “Ey Allahın elçisi, döyüşüm, yoxsa müsəlman olum?” Dedi: **“Müsəlman ol, sonra döyüş”**. Həmin adam müsəlman oldu, sonra döyüşdü və öldü. Rəsulullah ﷺ dedi: **“Az iş gördü, çox savab qazandı”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Buradakı mətn Buxarinin ləfzidir.

١٣١١– وعَنْ أنَسٍ، ﵁، أنَّ النبي ﷺ قَالَ: « ما أَحدٌ يدْخُلُ الجنَّة يُحِبُّ أنْ يرْجِعَ إلى الدُّنْيَا ولَه ما على الأرْضِ منْ شَيءٍ إلاَّ الشَّهيدُ، يتمَنَّى أنْ يَرْجِع إلى الدُّنْيَا، فَيُقْتَلَ عشْرَ مَرَّاتٍ، لِما يرى مِنَ الكرامةِ ».

وفي روايةٍ: « لِمَا يرى مِنْ فَضْلِ الشَّهَادَةِ ». مُتفقٌ عليهِ.

**1311.** Ənəsdən ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Şəhiddən başqa heç kim öldükdən sonra yer üzərinə qayıtmaq istəməyəcək. Şəhid isə ona göstərilən ehtirama görə, on dəfə dünyaya qayıdaraq yenidən qətlə yetirilmək istəyəcək”.**[2]

Başqa bir rəvayətdə: **“Şəhidliyin fəzilətini gördüyü üçün”–** deyilir.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

١٣١٢– وعَنْ عبدِ اللَّهِ بنِ عَمرو بنِ العاص، ﵄، أنَّ رسُول اللَّه ﷺ قَالَ: « يغْفِرُ اللَّه للشَّهيدِ كُلَّ شَيْءٍ إلاَّ الدَّيْنَ » رواه مسلمٌ.

وفي روايةٍ له: « القَتْلُ في سَبِيلِ اللَّهِ يُكفِّرُ كُلَّ شَيءٍ إلاَّ الدَّيْن ».

**1312.** Abdullah ibn Amr ibn əl-Asdan ﵄ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Allah şəhidin borcdan savayı bütün günahlarını bağışlayır”.**

Bu hədisi Muslim rəvayət etmişdir.[4]

---

[1] “Səhih əl-Buxari”, 2597.

[2] “Səhih əl-Buxari”, 2606; “Səhih Muslim”, 3489.

[3] “Səhih əl-Buxari”, 2586; “Səhih Muslim”, 3488.

[4] “Səhih Muslim”, 3498.

Başqa bir rəvayətdə isə deyilir: **"Allah yolunda öldürülmək borcdan başqa bütün günahları əfv edir".**[1]

١٣١٣– وعَنْ أبي قتَادَةَ، ﷺ، أنَّ رَسُول اللَّهِ ﷺ قَامَ فيهمْ فَذَكَرَ أنَّ الجِهادَ في سبيلِ اللَّهِ، وَالإيمانَ بِاللَّهِ، أَفْضَلُ الأَعْمَال، فَقَامَ رجُلٌ، فَقَال: يا رَسُول اللَّهِ أَرأَيْتَ إنْ قُتِلْتُ في سبيلِ اللَّهِ أتُكَفَّرُ عنِّي خَطاياي؟ فَقالَ لَهُ رَسُولُ اللَّهِ ﷺ: « نعمْ إنْ قُتِلت في سبيلِ اللَّهِ وَأَنْتَ صابِرٌ، مُحْتسِبٌ مُقبلٌ غيْرُ مُدْبِرٍ » ثُمَّ قَال رسُولُ اللَّه ﷺ: «كَيْفَ قُلْتَ؟ » قال: أَرأَيْتَ إنْ قُتِلْتُ في سبيل اللَّهِ أَتُكَفَّرُ عنِّي خَطَايَايَ؟ فَقَالَ رسُولُ اللَّهِ ﷺ: « نَعمْ وأَنْتَ صابِرٌ مُحْتَسِبٌ، مُقْبلٌ غَيْرُ مُدْبرٍ، إلاَّ الدَّيْنَ، فَإنَّ جِبْرِيلَ عليه السلامُ قال لِي ذلكَ ». رواهُ مسلمٌ.

**1313.** Əbu Qatədədən ﷺ rəvayət olunur ki, bir dəfə Rəsulullah ﷺ onların arasında ikən Allah yolunda cihadın və Allaha iman gətirməyin ən fəzilətli əməl olduğunu vurğuladı. Bu zaman bir kişi qalxıb dedi: "Ey Allahın elçisi, əgər Allah yolunda öldürülsəm, günahlarım bağışlanarmı?" Rəsulullah ﷺ da ona cavab verdi ki: **"Əgər sən səbirli olsan, savabını Allahdan diləyib döyüşdən qaçmadan Allah yolunda öldürülsən, bəli".** Sonra Rəsulullah ﷺ dedi: **"Necə dedin?"** Dedi: "Ey Allahın elçisi, əgər Allah yolunda öldürülsəm, günahlarım bağışlanarmı?" Dedi: **"Əgər sən səbirli olsan, savabını Allahdan diləyib döyüşdən qaçmadan Allah yolunda öldürülsən, bəli. Yalnız borc istisnadır. Bunu mənə Cəbrail ﷺ dedi".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

**Şərh:**

Bu çeşidli hədisləri İmam Hafiz ən-Nəvəvi ﷺ "Cihad kitabı"nın "Cihadın fəziləti" fəslində qeyd etmişdir.

Burada bəzi məsələlər vardır. Onlardan biri budur ki, Peyğəmbər ﷺ səhabələri ilə tədbirli davranardı. Birisi gəlib ona deyir ki, döyüşmək istəyirəm, lakin döyüşmək üçün heç nəyim yoxdur. O da onu döyüşmək üçün hazırlaşmış, lakin xəstələnmiş bir adamın yanına göndərir. Adam onun yanına gedir, o da tədarük gördüyü ləvazimatları ona verir və zövcəsinə

---

[1] "Səhih Muslim", 3499.
[2] "Səhih Muslim", 3497.

deyir ki, ondan heç bir şey saxlamasın. Sən nə isə bir şey saxlamış olsan, onda sənə bərəkət olmaz. Beləcə həmin adam hazırlanır.

Bu hədislər ona da dəlildir ki, kim bir döyüşçü hazırlayarsa və ona döyüşməsi üçün lazım olanı verərsə, döyüşmüş kimi olar. Həmçinin kim də qazi birisinin ailəsini təmin edərsə, döyüşmüş kimi olar. Lihyan oğullarının məsələsi də buna dəlalət edir. Peyğəmbər ﷺ ona əmr edir ki, onların hər iki nəfərindən biri çıxsın, digəri qalsın və onun ailəsinə baxsın. Bununla da o, yarım əcr qazanmış olsun. Digər yarı isə döyüşənə aiddir.

Cihadın fəziləti ilə bağlı bu hədislərdə deyilir ki, Cənnətin qapıları qılıncların altındadır. Yəni kim vuruşursa, həmin vuruşma onun Cənnətə daxil olmasına səbəb olur. Peyğəmbərdən ﷺ sabit olmuşdur ki, Cənnətdə "Cihad qapısı" deyilən bir qapı vardır və oradan Allah yolunda vuruşanlar daxil olacaqlar.

Bu hədislərdə o da deyilir ki, şəhidlik borcdan başqa bütün günahların bağışlanmasına səbəb olur. Yəni yalnız Adəm övladının borcu istisnadır. Şəhidlik onun bağışlanmasına səbəb olmur. Çünki Adəm övladının borcunu ya bu dünyada, ya da ki, Axirətdə ödəmək qaçılmazdır.

Bu hədis borc məsələsinə səhlənkar yanaşmaqdan çəkindirir. Zərurət olmadan gərək insan heç bir halda borc məsələsində səhlənkarlıq etməsin. Ehtiyac olmadıqca səhlənkarlıq edilməz. Yalnız böyük bir zərurət olduqda gecikdirilə bilər. Çünki Peyğəmbər ﷺ "Məni evləndir"– deyən kişiyə icazə verməyib demişdi: **"Qadının mehrini ver"**. O da demişdi ki, mənim bu izardan savayı heç bir şeyim yoxdur. Peyğəmbər ﷺ dedi: **"Libasını ona versən, libassız qalacaqsan, verməsən, mehr vermiş olmayacaqsan. Heç olmazsa, dəmirdən bir üzük də olsa, ver".**[1] O axtarıb onu da tapa bilmədi. Peyğəmbər ﷺ dedi: **"Səni bildiyin surələrlə evləndirirəm".** Demir ki, get, insanlardan borc al. Halbuki, evlilik mühüm məsələdir. Lakin buna baxmayaraq, Peyğəmbər ﷺ onu borc almağa yönəltmədi. Çünki borc çox təhlükəli məsələdir. Sənədinin araşdırılması gərəkən bir hədisdə Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: **"Mömin nəfsin borcu ödənmədikcə, o asılı qalacaq".**[2] Demək, borc mühüm məsələdir. Onda səhlənkarlıq etmə!

---

[1] "Səhih əl-Buxari", 4642; "Səhih Muslim", 2554.

[2] "Musnəd İmam Əhməd", 2/508; "Səhih Muslim", 2404.

Borc gecələr fikir çəkmək, gündüzlər isə zəlillikdir. İnsan bacardığı qədər borcdan uzaq olmalı, mümkün qədər xərclərinə qənaət etməlidir. Bəzən görürsən ki, kasıb birisi özünə və ailəsinə varlılar kimi xərc çəkir. Gedib ondan-bundan borc alır, kredit götürür. Bu, böyük səhvdir. Gecə və gündüz bircə dəfə yemək yesən belə, çalış borc götürməyəsən. Səbir et, de ki, "Allahım, məni zəngin et!". Uca Allah buyurur: **"Əgər kasıblıqdan qorxursunuzsa,** ***bilin ki,*** **Allah istəsə, Öz lütfündən** ***bəxş etməklə*** **sizi varlandırar. Həqiqətən, Allah** ***hər şeyi*** **biləndir, hikmət sahibidir".**[1]

Bəziləri isə buna səhlənkar yanaşaraq – Allah qorusun – borc götürüb bütün evə avadanlıq alır. Bu səhvdir. Borc götürüb lüks maşın alır, halbuki iyirmi min riallıq maşın da sürə bilər. Kasıbdır, ancaq deyir yox, yüz minlik maşın istəyirəm.

Bütün bunlar dinin zəifliyi, yanlış əməllər və önəmsizlik səbəbindəndir. Çünki hətta Allah yolunda şəhid olmaq belə borcu əfv etmir. Niyə borc alırsan? Yalnız zərurət olduqda borc götür. Yəni ehtiyac anında deyil, zərurət anında. Əgər ehtiyacın varsa və əlində olanın daha yaxşısını istəyirsənsə, borc alma. Pulu əlində olmayan bir şeyi alma. Səbirli ol, Allah sənə ruzi yetirsin, sonra al. Belə bir söz var deyirlər: "Ayağını yorğanına görə uzat". Çünki ayağını daha uzun uzatsan, ayağın soyuğa və ya günəşin istisinə məruz qalar.

Beləliklə, hədis borc almaqdan çəkindirir – insan gərək borc almasın.

Bu həm almağa, həm də icarəyə aiddir. Bəzi səfeh insanların yanına qonaq gəldikdə baxmayaraq ki, kasıbdır, bəlkə də özünün borcu var, amma qoyun kəsir ki, qonağı daha yaxşı qarşılasın. Hətta bəziləri qonaq üçün qoyun kəssin deyə, zövcəsini belə boşayır. Qonaq deyir özünə əziyyət vermə, deyir yox, and da içir ki, kəsməsəm, arvadımı boşamış hesab olunaram. Fikrimcə, beləlәri maariflənməlidirlər ki, bu da dəvətçi qardaşlarımızın məsuliyyətidir. Allah onları xeyirlə mükafatlandırsın.

Burada bir məsələ də var: Bəziləri borcu ola-ola sədəqə verir və deyirlər ki, sədəqə verməyi xoşlayıram. Bu, haramdır. Sənin borcun olduğu halda necə sədəqə verə bilərsən? Birinci vacibi ödə, sonra nafiləyə keç. Çünki borc alıb sədəqə verən kəs saray alıb şəhər dağıdana bənzəyir. Sən ilk öncə

[1] "ət-Tövbə" surəsi, 28.

vacibi etməli, borcunu ödəməlisən. Necə sədəqə verirsən? Birinci borcunu ödə, sonra sədəqə ver.

Bu hədislər ona da dəlildir ki, müsəlman olmayan kəs cihad edərsə, bu ona fayda verməz. Çünki bir kişi Peyğəmbərdən ﷺ icazə istəyəndə ki: "Ey Allahın elçisi, döyüşüm, yoxsa müsəlman olum?" Dedi: **"Müsəlman ol, sonra döyüş"**. O da İslamı qəbul edib cihad etdi.

Bütün yaxşı işlərin qəbul olması üçün İslam şərtdir. Uca Allah qeyri-müsəlmandan nə sədəqə, nə həcc, nə oruc, nə də ki, başqa bir şey qəbul etmir. Məsələn, görsək ki, birisi çoxlu oruc tutur, çoxlu sədəqə verir, insanlara qarşı gülərüzdür, əxlaqı gözəldir, lakin namaz qımır, bil ki, onun etdiyi bütün əməlləri Qiyamət günü ona fayda verməyəcəkdir. Hətta namaz qılmadan tutduğu Ramazan orucu belə ona fayda verməyəcəkdir. Namaz qılmadan həcc edirsə, onun həcci qəbul olmur, – namaz qılmadan onun Məkkəyə getməsi belə haramdır. Çünki Uca Allah buyurur: **"Ey iman gətirənlər! Həqiqətən də, müşriklər murdardırlar. Odur ki, özlərinin bu ilindən sonra Məscidulharama yaxınlaşmasınlar".**[1]

Deməк, hər bir ibadət üçün İslam şərtdir – İslam olmadan heç bir ibadət qəbul olunmur, İslam olmadan heç bir ibadət səhih sayılmır. Müvəffəq edən Allahdır.

١٣١٤– وعَنْ جابرٍ رضي الله عنه ، قالَ: قالَ رَجُلٌ: أين أنَا يا رسُولَ اللَّهِ إنْ قُتِلتُ؟ قال: « في الجَنَّةِ ». فألقى تَمَرَاتٍ كُنَّ في يَدِهِ، ثُمَّ قاتَلَ حتَّى قُتِلَ، رواهُ مسلم.

**1314.** Cabirdən رضي الله عنه rəvayət olunur ki, *"Döyüş əsnasında* bir kişi dedi: "Ey Allahın elçisi, əgər mən *döyüşdə* öldürülsəm, harada olacağam?" Dedi: **"Cənnətdə"**. Həmin adam əlindəki xurmaları yerə atıb getdi və öldürülənədək vuruşdu.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٣١٥– وعنْ أنَسٍ رضي الله عنه ، قالَ انْطَلَقَ رَسُولُ اللَّهِ ﷺ وَأَصْحَابُهُ حَتَّى سَبَقُوا المشْرِكِينَ إلى بَدرٍ، وَجَاءَ المُشرِكونَ، فقالَ رسُولُ اللَّهِ ﷺ: « لا يَقْدمنَّ أحَدٌ مِنْكُمْ إلى شيءٍ حَتَّى أكُونَ أنا

[1] "ət-Tövbə" surəsi, 28.
[2] "Səhih Muslim", 3518.

دُونَهُ » فَدَنَا الْمُشرِكونَ، فقَال رسُول اللَّه ﷺ: « قُومُوا إِلى جَنَّةٍ عَرْضُهَا السَّموات وَالأَرْضُ »
قال: يَقولُ عُمَيْرُ بنُ الحُمَامِ الأنْصَارِيُّ ﵁: يا رسولَ اللَّه جَنَّةٌ عَرْضُهَا السَّمواتُ والأرضُ؟
قالَ: « نَعم » قالَ: بَخٍ بَخٍ، فقالَ رَسُولُ اللَّه ﷺ: « ما يَحْمِلُكَ على قَولِكَ بَخٍ بخٍ؟ » قالَ لا وَاللَّهِ
يا رسُول اللَّه إلاَّ رَجاءَ أن أكُونَ مِنْ أهْلِها، قال: « فَإنَّكَ مِنْ أهْلِهَا » فَأخْرج تَمَرَاتٍ مِنْ قَرَنِهِ،
فَجَعَل يَأْكُلُ منْهُنَّ، ثُمَّ قَال لَئِنْ أنَا حَييتُ حتى آكُل تَمَراتي هذِهِ إِنَّهَا لحَيَاةٌ طَويلَةٌ، فَرَمَى بمَا مَعَهُ
مَنَ التَّمْرِ. ثُمَّ قَاتَلَهُمْ حَتَّى قُتِلَ. رواهُ مسلمٌ.

« القرَنَ » بفتح القاف والراءِ: هو جُعْبَةُ النُشَّابِ.

**1315.** Rəvayət olunur ki, Ənəs ﵁ demişdir: "Rəsulullah ﷺ və səhabələri Bədrə müşriklərdən öncə çatdılar. Sonra müşriklər gəldilər. Rəsulullah ﷺ dedi: **"Mənsiz heç kim heç bir işə başlamasın"**. Müşriklər yaxınlaşdıqda Rəsulullah ﷺ dedi: **"Genişliyi göylər və yer qədər olan Cənnət üçün qalxın"**. Bu zaman Umeyr ibn əl-Huməm ﵁ əl-Ənsari dedi: "Ey Allahın elçisi, genişliyi göylər və yer qədər olan Cənnətə?" Dedi: **"Bəli"**. O dedi: "Bəh-bəh". Rəsulullah ﷺ dedi: **"Sənə bəh-bəh dedizdirən nədir?"** Dedi: "Xeyr, Allaha and olsun ki, sadəcə ümid edirəm ki, mən də onun əhlindən olaram". Dedi: **"Sən onun əhlindənsən".** Bu zaman o, çuxasından bir-neçə xurma çıxarıb yeməyə başladı. Sonra dedi: "Əgər bu xurmaları yeyəcək qədər ömrüm olacaqsa, bu uzun bir zaman olar". Sonra o, əlindəki xurmaları ataraq döyüşə atıldı və öldürüldü".

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[Hədisin ərəbcəsində keçən] "əl-qaran" sözü "çuxa" deməkdir.

١٣١٦– وعنه قال: جاءَ ناسٌ إلى النبي ﷺ أنِ ابْعث معنَا رجالاً يُعَلِّمونَا القُرآنَ
والسُّنَّةَ، فَبعثَ إِلَيْهِم سبعِينَ رجلا مِنَ الأنْصارِ يُقَالُ لهُمُ: القُرَّاءُ، فيهِم خَالي حرَامٌ، يقرؤُون
القُرآنَ، ويتَدَارسُونَهُ باللَّيْلِ يتعلَّمُونَ، وكانُوا بالنَّهار يجيئُونَ بالماءِ، فَيَضعونهُ في المسجِدِ،
ويحْتَطِبُون فَيبيعُونه، وَيَشْتَرُونَ بِهِ الطَّعام لأهلِ الصُّفَّةِ وللفُقراءِ، فبعثَهم النبي ﷺ،
فعرضوا لهم فقتلُوهُم قبل أنْ يبلُغوا المكانَ، فقَالُوا: اللَّهُمَّ بلِّغ عنَّا نَبيَّنَا أَنَّا قد لَقِينَاكَ

[1] "Səhih Muslim", 677.

فَرضِينَا عنْكَ ورضيت عَنا، وأَتى رجُلٌ حراماً خالَ أنس مِنْ خَلْفِهِ، فَطعنَهُ بِرُمحٍ حتى أنْفَذهُ، فَقَال حرامٌ: فُزْتُ وربِّ الكَعْبةِ، فقال رسولُ الله ﷺ: « إنَّ إخْوانَكم قَد قُتِلُوا وإنهم قالُوا: اللَّهُمَّ بلِّغ عنَّا نبينا أَنَّا قَد لَقِيناكَ فَرضِينَا عنكَ ورضِيتَ عَنَّا » متفقٌ عليه، وهذا لفظ مسلم.

**1316.** Yenə Ənəsdən ﷺ rəvayət olunur ki, o demişdir: "Peyğəmbərin ﷺ yanına adamlar gəlib dedilər ki, bizim yanımıza adamlar göndər ki, bizə Quran və Sünnəni öyrətsinlər. Peyğəmbər də onların yanına "qarilər" adlanan ənsardan yetmiş nəfəri göndərdi. Dayım Haram da onların arasında idi. Onlar Quran oxuyar, gecə vaxtı onu öyrənərdilər. Gündüzlər isə onlar məscidə su gətirib qoyar, odun toplayıb satar, onun puluna da Suffə əhli və yoxsullar üçün yemək alardılar. Peyğəmbər ﷺ onları göndərdi, ancaq onlar məkana çatmadan hücuma məruz qaldılar və öldürüldülər. Dedilər: "Allahım, bizim barəmizdə Peyğəmbərə çatdır. Biz Səndən razıyıq, Sən də bizdən razısan". Bir nəfər Ənəsin dayısı Harama arxadan yaxınlaşdı və ona nizə ilə ölümcül zərbə vurdu. Haram dedi: "Kəbənin Rəbbinə and olsun ki, qələbə çaldım". Rəsulullah ﷺ dedi: **"Sizin qardaşlarınız öldürülüblər. Onlar belə dedilər: "Allahım, bizim barəmizdə Peyğəmbərə çatdır. Biz Səndən razıyıq, Sən də bizdən razısan".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Buradakı mətn Muslimin ləfzidir.

١٣١٧– وعنهُ قال: غَاب عَمِّي أنسُ بنُ النضْر رضي الله عنه عنِ قِتَالِ بدرٍ، فقال: يا رسول الله غِبتُ عن أوَّلِ قِتالٍ قاتَلتَ المُشركِينَ، لئِنِ الله أشْهَدني قِتالَ المُشرِكِينَ ليَرينَّ الله ما أَصنع. فلمَّا كانَ يومُ أحُدٍ انكشفَ المُسلِمُونَ، فقال: اللَّهُمَّ إنِّي أَعتَذِرُ إلَيك مِمَّا صنع هَؤُلاءِ يعْني أصْحابهُ وَأَبْرأُ إليكَ مِمَّا صنع هَؤُلاءِ يعني المُشركِينَ ثُمَّ تقدَّم فاستَقبلهُ سعدُ بنُ مُعاذٍ فقال: يا سعدُ بنَ مُعاذٍ الجنَّةُ وربِّ النَّضْرِ، إنِّي أجِدُ رِيحَهَا مِن دونِ أُحدٍ، قال سعدٌ: فما استَطعتُ يا رسول اللَّهِ مَا صنَع، قال أنسٌ: فَوجدْنَا بِهِ بِضعاً وثَمانِينَ ضربةً بالسَّيفِ، أوْ طَعنةً برُمْحٍ أوْ رميةً بِسهمٍ، ووجدناهُ قد قُتِلَ ومثَّلَ بِهِ المُشرِكونَ، فَما عرفَهُ أحدٌ إلا أُختُهُ بِبنانِهِ. قال أنسٌ: كُنَّا

[1] "Səhih Muslim", 3522.

نَرى أَوْ نَظُنُّ أَنَّ هذِهِ الآيَةَ نَزَلَتْ فِيهِ وفي أَشبَاهِهِ: { مِنَ الْمُؤْمِنِينَ رِجَالٌ صدقُوا ما عَاهَدوا اللَّه عليْهِ فَمِنْهُمْ منْ قَضَى نَحْبَهُ } إلى آخرهَا [ الأحزاب: ٢٣ ].– متفقٌ عليه.

**1317.** Yenə ondan rəvayət olunur ki, o demişdir: "Əmim Ənəs ibn Nadr Bədr döyüşündə iştirak etməmişdi. O dedi: "Ey Allahın elçisi, müşriklərə qarşı vuruşduğun ilk döyüşdə mən iştirak etmədim. Əgər Allah bir daha müşriklərə qarşı vuruşmağı nəsib edərsə, mənim nə etdiyimi görəcək". Uhud günü müsəlmanlar məğlub olduqda, o dedi: "Allahım, bunların – yəni səhabələrin – etdiklərindən Sənə üzrxahlıq edirəm, bunların – yəni müşriklərin – etdiklərindən Sənə sığınıram". Sonra o irəli getdi və qarşısına çıxan Səd ibn Müaza dedi: "Cənnət, ey Səd ibn Müaz, *Cənnət*! Nadrın Rəbbinə and olsun ki, onun qoxusundan başqa heç nə duymuram". Səd dedi: "Ey Allahın elçisi, onun etdiklərini mən bacarmadım". Ənəs deyir ki, biz onun bədənində səksəndən çox qılınc, nizə və ox yarası saydıq. Biz onun cəsədini tapanda müşriklərin onun bədənini necə tanınmaz bir hala saldığını gördük. Heç kəs onu tanıya bilmirdi. Yalnız bacısı onu barmağından tanıdı. Ənəs dedi: "Biz düşünürdük ki, **"Möminlərin içərisində Allaha etdikləri əhdə sadiq qalan kişilər var. Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də *şəhid olmasını* gözləyir. Onlar *əhdlərini* əsla dəyişdirməyiblər"** ayəsi[1] onun və bənzərlərinin barəsində nazil olmuşdur".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٣١٨– وعنْ سمُرةَ ﵁ قالَ: قال رسُولُ اللَّهِ ﷺ: « رأَيْتُ اللَّيْلَةَ رجُلين أتَياني، فَصعِدا بي الشَّجرةَ، فَأدْخَلاني دَاراً هِي أَحْسنُ وَأَفضَل، لَمْ أَر قَطُّ أَحْسنَ منها، قالا: أَمَّا هذِهِ الدَّار فَدارُ الشهداءِ » رواه البخاري وهو بعضٌ من حديثٍ طويلٍ فيه أنواع العلم سيأتي في باب تحريمِ الكذبِ إنْ شاءَ اللَّه تعالى.

**1318.** Səmuradan ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **«Bu gecə gördüm ki, iki kişi mənim yanıma gəldi. Onlar mənimlə ağaca**

[1] "əl-Əhzab" surəsi, 23.

[2] "Səhih əl-Buxari", 2595; "Səhih Muslim", 3523.

**çıxdılar və məni çox gözəl bir evə daxil etdilər. Mən ondan daha gözəlini görməmişəm. Onlar dedilər: "Bu ev şəhidlərin evidir"**».

Hədisi Buxari rəvayət etmişdir və o, elmin növləri ilə əlaqəli uzun bir hədisin bir hissəsidir.[1] İnşəAllah, "Yalan danışmağın haramlığı" fəslində həmin hədis qeyd olunacaqdır.

١٣١٩– وعنْ أنسٍ ﷺ أنَّ أُم الرَّبيعِ بنْتَ البَرَاءِ وهي أُمُّ حارثةَ بنِ سُرَاقةَ، أتَتِ النبي ﷺ فَقَالَت: يا رَسُولَ اللهِ ألا تُحدِّثُني عَنْ حارِثَةَ، وَكانَ قُتِل يوْمَ بدْرٍ، فَإنْ كانَ في الجَنَّةِ صَبَرتُ، وَإن كانَ غَيْر ذلكَ اجْتَهَدْتُ عليْهِ في البُكَاءِ، فقال: « يا أُم حارِثَةَ إنَّها جِنانٌ في الجَنَّةِ، وَإنَّ ابْنَكَ أَصاب الفرْدوْسَ الأَعْلى ». رواه البخاري.

**1319.** Ənəsdən ﷺ rəvayət olunur ki, Ummu Harisə ibn Suraqa Ummu Rubey bint əl-Bəra Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ey Allahın elçisi, mənə Harisə barəsində danış". O, Bədr günü qətlə yetirilmişdi. "Əgər Cənnətdədirsə, səbir edərəm. Yox, əgər belə deyilsə, daha çox ağlayaram". Dedi: **"O, Cənnətdədir, ey Ummu Harisə. Sənin oğlun ən uca Firdovs Cənnətlərindədir".**

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

١٣٢٠– وعَنْ جابر بن عبدِ اللهِ ﷺ قال: جِيءَ بابي إلى النبي ﷺ قدْ مُثِّل بِهِ فَوُضعَ بَيْنَ يَديْه، فَذَهَبْتُ أَكْشِفُ عنْ وجهِهِ فَنَهاني قَوْمٌ فقال النبي ﷺ: « ما زَالَتِ الملائِكَةُ تُظِلُّهُ بِأَجْنِحَتِها ». متفقٌ عليه.

**1320.** Rəvayət olunur ki, Cabir ibn Abdullah ﷺ demişdir: "Atamın təhqir olunmuş cəsədini Peyğəmbərin ﷺ yanına gətirdilər və onun önünə qoydular. Mən gedib onun üzünü açmaq istədim, ancaq insanlar buna imkan vermədilər. Peyğəmbər ﷺ dedi: **"Mələklər hələ də qanadları ilə onu kölgələndirirlər"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] "Səhih əl-Buxari", 1297.
[2] "Səhih əl-Buxari", 2598.
[3] "Səhih əl-Buxari", 1211; "Səhih Muslim", 4517.

١٣٢١– وعَنْ سهل بن حُنَيْفٍ ﷺ أنَّ رَسُول اللَّهِ ﷺ قال: « مَنْ سأَلَ اللَّه تعالى الشَّهَادةَ بِصِدْقٍ بلَّغهُ منَازِلَ الشُّهَداءِ وإنْ ماتَ على فِراشِهِ ». رواه مسلم.

**1321.** Səhl ibn Huneyfdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim səmimi-qəlbdən Allahdan şəhidlik diləyərsə, həmin adam öz yatağında ölsə belə, *Allah* onu şəhidlik məqamına çatdırar"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Bu hədislər Allah yolunda öldürülmüş şəhidlərin fəziləti ilə bağlıdır. Bildirilir ki, onlar üçün Cənnət vardır. Uca və nöqsansız Allah buyurur: **"Şübhəsiz ki, Allah möminlərdən, Cənnət müqabilində onların canlarını və mallarını satın almışdır. *Çünki* onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. *Bu, Allahın* Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir".[2]**

Müəllifin ﷺ bu fəsildə qeyd etdiyi bir çox hədislər dəlalət edir ki, səhabələr həm öz yaşayışlarında, həm də imanlarında sadiq insanlar olublar. Peyğəmbər ﷺ onlara şəhidlər üçün nələr olacağını xəbər verir, onlar da əllərindəki yeməyi belə tərk edib Allah yolunda cihada atılırdılar. Sonra da öldürülür və izzət və cəlal sahibi Allah onlardan razı olduğu halda Onunla görüşürdülər. Onlar da Allahdan razı qalırdılar. Bu da, şəkk yox ki, səhabələrin fəzilətindəndir. Allah onlardan razı olsun! Bu məqamda heç kəs onlara çata bilməz.

Umeyr ibn əl-Huməm əl-Ənsariyə baxın. Peyğəmbər ﷺ Bədr günü dedikdə ki, kim müşriklərlə, hesabını Allahdan diləyərək üzü onlara tərəf qaçmadan vuruşarsa, genişliyi göylər və yer qədər olan Cənnət ona vacib olar, dedi: "Ey Allahın elçisi, genişliyi göylər və yer qədər olan Cənnət?" Dedi: **"Bəli"**. Bu zaman o, mücahidlərin adətən özləri ilə götürdükləri xurcundan xurma çıxarıb yeməyə başladı. Sonra isə bunun çox vaxt apardığını düşündü və dedi: "Əgər bu xurmaları yeyəcək qədər ömrüm olacaqsa, bu uzun bir zaman olar". Sonra o, döyüşə atıldı və öldü, Peyğəmbər ﷺ də onun Cənnətlik olmasına şahidlik etdi.

[1] "Səhih Muslim", 3532.

[2] "ət-Tövbə" surəsi, 111.

Ənəs ibn Nadr ﵁ də onun kimi. Uhud döyüşündə o Səd ibn Müazla ﵁ qarşılaşır və ona xəbər verir ki, o, hər kəsdən fərqli olaraq Cənnətin qoxusunu hiss edir. İbn əl-Qeyyim demişdir: “Bu, Uca Allahın dilədiyi kəsə bəxş etdiyi kəramətlərdən biridir – insan yerdə ola-ola göydə olan Cənnətin qoxusunu hiss etsin”. Lakin onun yəqinliyini sübut etməkdən ötrü həmin adam vuruşub ölür. Belə ki, o, Bədr döyüşündə iştirak etməmişdi. Çünki səhabələr Bədrə döyüşmək məqsədilə deyil, Şamdan Məkkəyə doğru gedən Əbu Sufyanın karvanını ələ keçirmək məqsədilə çıxmışdılar.

Ancaq Allah onlarla düşmənlərini vədəsiz bir araya gətirdi. O isə döyüş əmri almadığı üçün getməmişdi. Sadəcə Peyğəmbər ﷺ demişdi ki, kim istəyirsə, bizimlə çıxsın. Bəziləri çıxmış, digərləri isə çıxmamışdı. Lakin o, Bədr döyüşünə getmədiyi üçün demişdi ki, Allah bir daha mənə bir döyüş nəsib edərsə, mənim nələr etdiyimə şahidlik edər. Sonra o irəli atılır, döyüşərək qətlə yetirilir. Onun bədənində səksəndən və ya doxsandan çox yara saydılar. Bu da dəlildir ki, o *təkbaşına* müşriklərin əhatəsində qalmışdı. Heç kəs onu tanıya bilməsə də, yalnız bacısı onu barmağından tanıdı. O, döyüşə atılarkən demişdi: “Allahım, bunların, yəni Uhud döyüşündə geri çəkilən səhabələrin etdiklərindən Sənə sığınıram. Müşriklərin etdiklərindən də Sənə sığınıram”.[1]

Bu və buna bənzər qissələr aydın şəkildə göstərir ki, Allah öz Peyğəmbərinə ﷺ ən əfzəl insanları seçmişdi. Bunu da Peyğəmbərin ﷺ bu sözləri təsdiqləyir: **“İnsanların ən xeyirlisi mənim zamanımdakılar, sonra onlardan sonra gələnlər, sonra da onlardan sonra gələnlərdir”**.[2]

Uca Allahdan diləyirəm ki, bizləri və sizi şəhidlərin məqamına çatdırsın və bizləri Nəim cənnətlərində onlarla bir araya gətirsin.

١٣٢٢– وعنْ أنسٍ ﵁ قال: قال رسُولُ اللَّهِ ﷺ: « منْ طلَب الشَّهادةَ صادِقاً أُعطيها ولو لم تُصِبْهُ ». رواه مسلم.

**1322.** Ənəsdən ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Kim səmimi-qəlbdən şəhidlik istəyərsə, şəhid olmasa belə, Mən ona şəhidlik verərəm”**.

[1] “Səhih əl-Buxari”, 2806.

[2] “Səhih əl-Buxari”, 2458; “Səhih Muslim”, 4601.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٣٢٣– وعَنْ أبي هُريْرةَ ﷺ قال: قالَ رسُولُ اللَّهِ ﷺ: « ما يَجِدُ الشَّهِيدُ مِن مَسِّ القتْلِ إلاَّ كما يجِدُ أحدُكُمْ مِنْ مسِّ القَرْصَةِ » رواه الترمذي وقال: حديثٌ حسنٌ صحيحٌ.

**1323.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Şəhid olan kəs ağrını birinizin qarışqanın sancmasını hiss etdiyi kimi hiss edir"**.

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[2]

١٣٢٤– وعنْ عبْدِ اللَّهِ بن أبي أوْفَى ﷺ أنَّ رسُول اللَّهِ ﷺ في بعضَ أيَّامِهِ التي لَقِي فِيهَا العدُوَّ انتَظر حتى مَالتِ الشَّمسُ، ثُمَّ قام في النَّاس فقال: « أَيُّهَا النَّاسُ، لا تَتَمنَّوْا لِقاءَ العدُوِّ، وَسلُوا اللَّه العافِيةَ، فإذا لقِيتُمُوهُم فَاصبِرُوا، واعلَمُوا أنَّ الجَنَّةَ تَحْتَ ظِلالِ السُّيوفِ » ثم قال: « اللَّهُمَّ مُنْزِلَ الكتاب ومُجرِيَ السَّحابِ، وهَازِمَ الأَحْزَابِ اهْزِمهُم وانْصُرنَا علَيهِم » متفقٌ عليه.

**1324.** Abdullah ibn Əbu Əufədən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ düşmənlə üzləşdiyi bəzi günlərdə günortayadək gözləyər, günəş batmağa doğru meyl etdikdə insanların arasına çıxıb deyərdi: **"Ey insanlar, düşmənlə üzləşməyi təmənna etməyin, Allahdan afiyət diləyin, onlarla üzləşdikdə səbirli olun. Bilin ki, Cənnət qılıncların kölgəsi altındadır"**. Sonra deyərdi: **"Ey Kitabı nazil edən, buludları hərəkətə gətirən, orduları məğlub edən Allahım, onları məğlub et və bizim onlar üzərində qələbəmizə yardım et".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

١٣٢٥– وعن سهْلِ بنِ سعد ﷺ قال: قال رسُولُ اللَّهِ ﷺ: « ثِنَتانِ لا تُرَدَّانِ، أوْ قَلَّمَا تُردَّانِ: الدُّعَاءُ عِنْد النِّدَاءِ وعِند البأْسِ حِينَ يُلْحِمُ بَعْضُهُم بَعضاً ».

رواه أبو داود بإسناد صحيح.

---

[1] "Səhih Muslim", 3531.

[2] "Musnəd İmam Əhməd", 4/414; "Sunən Əbu Davud", 1314.

[3] "Səhih əl-Buxari", 2744; "Səhih Muslim", 3276.

**1325.** Səhl ibn Səddən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"İki dua rədd olunmaz və ya nadir hallarda onlara cavab verilməz: azan zamanı edilən dua, döyüş zamanı insanlar bir-birinin qanını tökərkən edilən dua".**

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[1]

١٣٢٦– وعَنْ أنسٍ رضي الله عنه قال: كانَ رسُولُ اللَّهِ ﷺ إذا غَزَا قال: « اللَّهُمَّ أنت عضُدِي ونَصِيري، بِك أَجُولُ، وبِك أصولُ، وبِكَ أُقاتِل » رواهُ أبو داود، والترمذيُّ وقال: حديثٌ حسنٌ.

**1326.** Ənəsdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ döyüşdükdə deyərdi: **"Allahım, mənə dəstək olan Sənsən. Sənin sayəndə düşmənin üzərinə yeriyib sabit qalıram, Sənin sayəndə vuruşuram".**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir" demişdir.[2]

١٣٢٧– وعَن أبي مُوسى، رضي الله عنه ، أنَّ النبي ﷺ كانَ إذا خَاف قوماً قال: اللَّهُمَّ إنَّا نَجعَلُكَ في نُحُورِهِم، ونَعُوذُ بِكَ مِنْ شُرورِهِم » رواه أبو داود بإسناد صحيحٍ.

**1327.** Əbu Musadan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ bir qövmdən (onun hücumundan) qorxduqda deyərdi: **"Allahım, biz Sənin onların hücumlarının qarşısını almağı diləyirik, onların şərindən Sənə sığınırıq"**.

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[3]

١٣٢٨– وعنْ ابنِ عُمَر، رضي الله عنهما ، أَنَّ رسُولَ اللَّهِ ﷺ قال: « الخَيْلُ مَعْقُودٌ في نَوَاصِيَها الخَيرُ إلى يوْمِ القِيامَةِ » متفقٌ عليه.

**1328.** İbn Ömərdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Atın kəkilində Qiyamət gününədək xeyir vardır"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[4]

---

[1] "Sunən Əbu Davud", 2540

[2] "Sunən Əbu Davud", 2632; "Sunən ət-Tirmizi", 3584.

[3] "Musnəd İmam Əhməd", 4/414; "Sunən Əbu Davud", 1314.

[4] "Səhih əl-Buxari", 2637; "Səhih Muslim", 3478.

١٣٢٩– وعنْ عُرْوَةَ البَارِقِيِّ، ﷺ، أنَّ النبي ﷺ قال: « الخَيْلُ مَعقُودٌ في نَواصِيهَا الخَيرُ إلى يوْمِ القِيامَةِ: الأَجرُ، والمغنَمُ ». متفقٌ عليه.

**1329.** Urva əl-Bariqidən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Atın kəkilində Qiyamət gününədək xeyir vardır: əcr və qənimət"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٣٣٠– وعَنْ أبي هُريْرَةَ، ﷺ، قالَ: قال رَسُولُ اللَّهِ ﷺ: « من احتَبَس فَرساً في سبيلِ اللَّهِ، إيماناً بِاللَّهِ، وتَصدِيقاً بِوعْدِهِ، فإنَّ شِبَعهُ ورَيْهُ وروْثَهُ، وبولَهُ في مِيزَانِهِ يومَ القِيامَةِ » رواه البخاريُّ.

**1330.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim Allah yolunda, Allaha iman gətirərək, Onun vədini təsdiq edərək bir at saxlayarsa, atın toxluğu, suyu, təzəyi və sidiyi Qiyamət günü onun tərəzisində olar"**.

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

١٣٣١– وعنْ أبي مسْعُودٍ، ﷺ، قال جاءَ رجُلُ إلى النبي ﷺ بِنَاقَةٍ مَخْطُومةٍ فقال: هذِهِ في سبيل اللَّهِ، فقال رسُولُ اللَّهِ ﷺ: « لكَ بِهَا يَومَ القِيامةِ سبعُمِائَةِ ناقَةٍ كُلُّها مخطُومةٌ » رواهُ مسلم.

**1331.** Əbu Məsuddan ﷺ rəvayət olunur ki, bir kişi Peyğəmbərin ﷺ yanına yəhərli bir dəvə gətirib dedi ki, bu, Allah yolundadır. Rəsulullah ﷺ dedi: **"Qiyamət günü buna görə sənə yeddi yüz yəhərli dəvə veriləcəkdir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

١٣٣٢– وعن أبي حمّادٍ ويُقال: أبو سُعاد، ويُقالُ: أبو أَسدٍ، ويقال: أبو عامِرٍ، ويقالُ: أبو عَمْرو، ويقالُ: أبو الأَسْودِ، ويقال: أبو عَبْسٍ عُقْبةُ بنِ عامِرٍ الجُهَنِيِّ، ﷺ، قال: سمِعْتُ

---

[1] "Səhih əl-Buxari", 2640; "Səhih Muslim", 3480.
[2] "Səhih əl-Buxari", 2641.
[3] "Səhih Muslim", 3508.

رسُولَ اللَّهِ ﷺ وَهُوَ عَلى المِنْبرِ، يقولُ: «وَأَعِدُّوا لهُم ما استَطَعْتُم من قُوَّةٍ، ألا إنَّ القُوَّةَ الرَّمْيُ، ألا إنَّ القُوَّةَ الرَّمْيُ، ألا إنَّ القُوَّةَ الرَّمْيُ» رواه مسلم.

**1332.** Əbu Həmmad (ona həm də Əbu Suad, Əbu Əsəd, Əbu Amir, Əbu Amr, Əbul-Əsvəd və Əbu Əbs də deyirlər) Uqbə ibn Amir əl-Cuhənidən ﵁ rəvayət olunur ki, o demişdir: "Bir dəfə mən Rəsulullahın ﷺ minbər üzərindən belə dediyini eşitdim: **"Onlara qarşı bacardığınız qədər güc toplayın, ancaq bilin ki, güc atışdadır, güc atışdadır, güc atışdadır".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllif Hafiz ən-Nəvəvi ﵀ bu çeşidli hədisləri şəhidlərin fəzilətinin bəyanı fəslində qeyd etmişdir. Bu mövzu ilə bağlı bir sıra hədislər bundan öncə qeyd olunub. Onlardan bəziləri cihadda iştirak etmə, minik və oxun fəziləti ilə bağlıdır.

Birinciyə gəlincə, Peyğəmbər ﷺ qeyd etmişdir ki, insan Allah yolunda şəhid olduqda ona üz vermiş ölüm kürəcik kimi, yəni qarışqanın və ya zərrənin, yaxud başqa bir şeyin kürəciyi kimi olur. Çünki Uca Allah ölümü də, ruhunun çıxmasını da onun üçün asanlaşdırır. Ruh izzət və cəlal sahibi Allahın razılığının və Cənnətin müjdəçisidir. Beləliklə, onun ruhu başqa ölülərdə olmadığı kimi asan çıxır.

Peyğəmbər ﷺ insanlara xütbə verərkən həm də buyurardı ki: **"Ey insanlar, düşmənlə üzləşməyi təmənna etməyin, Allahdan afiyət diləyin, onlarla üzləşdikdə səbirli olun. Bilin ki, Cənnət qılıncların kölgəsi altındadır".** Hədisdə diqqətə çatdırılan məqam **"Cənnət qılıncların kölgəsi altındadır"** ifadəsidir.

İzzət və cəlal sahibi Allah yolunda cihad etməyin fəzilətlərindən biri də budur ki, insan öz atı ilə cihada qoşulursa, buna görə də ona əcr yazılır. Belə ki, Peyğəmbər ﷺ demişdir: **"Atın kəkilində Qiyamət gününədək xeyir vardır".**

---

[1] "Səhih Muslim", 3541.

Burada “at” deyildikdə cihadda istifadə olunan at nəzərdə tutulur. Çünki o ﷺ, bu xeyiri **“əcr və qənimət”** kimi açıqlamışdır. Bunlar da yalnız cihadda istifadə olunan atda olur. Beləliklə, cihadda istifadə olunan atın kəkilində Qiyamət gününədək xeyir vardır. Ehtimal olunur ki, hədis ümumi olsun. Yəni bu deyilənlər bütün atlara – cihad atlarına və qeyrilərinə aid olsun.

Həmçinin bir dəfə bir kişi yəhərli dəvəsi ilə Peyğəmbərin ﷺ yanına gəlib deyir ki, ey Allahın elçisi, bu, Allah yolundadır. Peyğəmbər ﷺ də ona xəbər verir ki, Allah Qiyamət günü bunun əvəzində ona yeddi yüz yəhərli dəvə verəcəkdir. Çünki Uca Allah savabın əvəzini on qat verir və bunu yeddi yüzədək artırır.

Yay çəkib ox atmaq da Allah yolunda cihadın bir növüdür. Bir dəfə Peyğəmbər ﷺ xütbə verən zaman Uca Allahın **“Onlara qarşı bacardığınız qədər qüvvə toplayın”**[1] ayəsi barədə dedi: **“Bilin ki, güc atışdadır, güc atışdadır, güc atışdadır”.** Atış da zamana görə dəyişir. Rəsulullahın ﷺ zamanında atış yayla və oxla olurdu, indiki zamanda isə mərmi və raketlərlə olur. Hər bir atış insanın olduğu zamana görə dəyişir. Uca Allahdan diləyirik ki, bizləri və sizi Onun yolunda malları və canları ilə cihad edənlərdən etsin. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

١٣٣٣– وعَنْهُ قال: سمِعْتُ رَسُول اللَّهِ ﷺ يقولُ: « ستُفْتَحُ علَيكُم أَرضُونَ، ويكفِيكُم اللَّه، فَلا يعْجِزْ أَحَدُكُمْ أنْ يلْهُو بِأَسْهُمِهِ » رواه مسلم.

**1333.** Yenə Uqbə ibn Amir əl-Cuhənidən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Yer üzü sizlər üçün fəth olunacaq, Allah sizə kifayətdir. Elə isə ox atmaqda aciz olmayın”.**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٣٣٤– وعَنْهُ أَنَّهُ قال: قَال رَسُولُ اللَّهِ ﷺ: « منْ عُلِّمَ الرَّمْيَ ثُمَّ تركَهُ، فَلَيس مِنَّا، أوْ فقَدْ عَصى » رواه مسلم.

---

[1] “əl-Ənfal” surəsi, 60.
[2] “Səhih Muslim”, 3542.

**1334.** Yenə ondan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim atıcılığı öyrəndikdən sonra onu tərk edərsə, bizdən deyil"**, yaxud **"asi olmuşdur".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٣٣٥– وعنهُ ﷺ، قالَ: سمِعْتُ رسُول الله ﷺ يقولُ: « إنَّ الله يُدخِلُ بِالسهمِ ثَلاثةَ نَفَرٍ الجنَّةَ: صانِعهُ يحتسِبُ في صنْعتِهِ الخير، والرَّامي بِهِ، ومُنْبِلَهُ، وَارْمُوا وارْكبُوا، وأنْ ترمُوا أَحَبُّ إِلَيَّ مِنْ أنْ تَرْكَبُوا. ومَنْ تَرَكَ الرَّميَ بعْد ما عُلِّمهُ رغبَةً عنه. فَإِنَّهَا نِعمةٌ تَركَهَا » أَوْ قال: « كَفَرَهَا » رواهُ أبو داودَ.

**1335.** Yenə ondan nəql olunur ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Şübhəsiz ki, Allah oxla üç nəfəri Cənnətə daxil edir: onu xeyir məqsədlə düzəldəni, onu atanı və onu gətirəni. Odur ki, at minin, ox atın. Mənim üçün atmağınız minməyinizdən daha xeyirlidir. Kim öyrəndikdən sonra atmağı bilərəkdən tərk edərsə, həmin şəxs bir neməti tərk etmiş olar"**, yaxud dedi: **"Ona qarşı nankorluq edər".**

Hədisi Əbu Davud rəvayət etmişdir.[2]

١٣٣٦– وعَنْ سَلَمةَ بن الأكوعِ، ﷺ، قال: مَرَّ النبي ﷺ، على نَفَرٍ ينتَضِلُون، فقال: « ارْمُوا بَنِي إِسْماعيل فَإِنَّ أَباكم كان رَامِياً » رواه البخاري.

**1336.** Sələmə ibn əl-Əkvadan ﷺ rəvayət olunur ki, o demişdir: «Bir dəfə Rəsulullah ﷺ ox atan bir neçə nəfərin yanından keçərkən belə dedi: **"Atın, ey İsmail oğulları, sizin atanız da atıcı idi"**».

Bu hədisi Buxari rəvayət etmişdir.[3]

١٣٣٧– وعَنْ عمْرو بنِ عبسَةَ، ﷺ قال: سمِعتُ رسُول اللَّهِ ﷺ، يقولُ: « منْ رَمَى بِسهمٍ في سبيلِ اللَّه فَهُو لَهُ عِدْلُ مُحرَّرةٍ ». رواهُ أبو داود، والترمذي وقالا: حديثٌ حسنٌ صحيحٌ.

---

[1] "Səhih Muslim", 3543.
[2] "Sunən Əbu Davud", 2152; "Sunən ən-Nəsai", 3522.
[3] "Səhih əl-Buxari", 2684.

**1337.** Amr ibn Əbsədən ﷺ rəvayət olunur ki, o demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Kim Allah yolunda ox atarsa, bu onun üçün azad olunmuş kölə kimi olar"**».

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən səhih hədisdir" demişdir.[1]

١٣٣٨– وعَن أبي يحيى خُريم بن فاتِكٍ، رضي الله عنه، قال: قال رَسُولُ الله ﷺ: « مَنْ أَنْفَقَ نَفَقَةً في سبيلِ اللَّهِ كُتِبَ لَهُ سبْعُمِائِة ضِعفٍ » رواه الترمذي وقال: حديثٌ حَسَنٌ.

**1338.** Əbu Yəhya Xureym ibn Fatikdən ﷺ rəvayət olunur ki, o demişdir: «Rəsulullah ﷺ demişdir: **"Kim Allah yolunda bir şey xərcləyərsə, ona bunun yeddi yüz qat savabı yazılar"**».

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən hədisdir".[2]

١٣٣٩– وعنْ أبي سَعيدٍ، رضي الله عنه، قال: قال رسُولُ اللَّه ﷺ: « ما مِنْ عبدٍ يصومُ يوْماً في سبِيلِ اللَّهِ إلاَّ باعد اللَّه بِذلكَ اليوم وَجْهَهُ عَنِ النَّارِ سبْعِين خَرِيفاً » متفقٌ عليهِ.

**1339.** Əbu Səiddən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim Allah yolunda bir gün oruc tutarsa, Allah həmin günə görə Qiyamət günü onun üzünü yetmiş illik məsafə qədər oddan uzaqlaşdırar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

١٣٤٠– وعنْ أبي أُمامةَ، رضي الله عنه، عَنِ النبي ﷺ، قال: « مَنْ صامَ يَوْماً في سبيل اللَّهِ جَعَلَ اللَّه بينَهُ وَبيْنَ النَّارِ خَنْدَقاً كَمَا بيْن السَّماءِ والأرْضِ » رواهُ الترمذي وقال:حديثٌ حسنٌ صحيحٌ.

**1340.** Əbu Umamədən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim Allah yolunda bir gün oruc tutarsa, Allah onunla od arasında yerlə göy qədər məsafədə bir xəndək yaradar"**.

---

[1] "Musnəd İmam Əhməd", 3/26; "Sunən ət-Tirmizi", 1562.

[2] "Sunən ət-Tirmizi", 1550; "Sunən ən-Nəsai", 3135.

[3] "Səhih əl-Buxari", 2628; "Səhih Muslim", 1948.

Hədisi Tirmizi rəvayət etmiş və: “Bu, həsən səhih hədisdir” demişdir.[1]

١٣٤١– وعَنْ أبي هُريرة، ﷺ، قالَ: قال رَسُول اللَّهِ ﷺ: « مَنْ ماتَ ولَمْ يَغْزُ، وَلَمْ يُحَدِّثْ نَفْسَه بِغَزوٍ، ماتَ عَلى شُعْبَةٍ مَنَ النِّفَاقِ » رواهُ مسلمٌ.

**1341.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Kim döyüşmədən, yaxud döyüşmək niyyəti olmadan ölərsə, nifaqın bir şöbəsi üzərində ölmüş olar”.**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٣٤٢– وعَن جابرٍ، ﷺ، قالَ: كنَّا مع النبي ﷺ، في غَزَاة فقال: «إنَّ بالمدينةِ لَرِجالاً ما سِرتُمْ مَسيراً، وَلا قَطَعْتُمْ وادياً إلاَّ كانُوا معكُم، حبَسهُمُ المَرضُ».

وفي روايةٍ: « حبَسهُمُ العُذْرُ ». وفي روايةٍ: إلاَّ شَرَكُوكُمْ في الأَجرِ » رواهُ البخاري من روايةِ أَنَسٍ، ورواهُ مسلمٌ من روايةِ جابرٍ واللفظ له.

**1342.** Rəvayət olunur ki, Cabir ﷺ demişdir: «Bir dəfə biz Rəsulullahla ﷺ birlikdə döyüşdə idik. O dedi: **“Mədinədə elə kişilər var ki, siz hara getsəniz, hansı vadiyə getsəniz, onlar da sizinlə olarlar. Sadəcə xəstəlik onlara imkan verməyib”**».

Başqa bir rəvayətdə: **“Üzr onları həbs edib”,** digər bir rəvayətdə isə: **“Əcrdə sizinlə həmşərik olarlar”** sözləri keçir.

Bu hədisi Buxari Ənəsdən[3], Muslim isə Cabirdən rəvayət etmişdir[4] və bu mətn onundur.

١٣٤٣– وعنْ أبي مُوسى، ﷺ، أَنَّ أعْرَابيّاً أَتى النبي ﷺ فَقَال: يا رسول الله، الرَّجُلُ يُقَاتِلُ لِلْمَغْنَمِ، والرَّجُلُ يُقَاتِلُ ليُذْكَرَ، والرَّجُلُ يُقاتِلُ ليُرى مكانُه؟

وفي روايةٍ: يُقاتلُ شَجاعَةً ويُقَاتِلُ حَمِيَّةً.

[1] “Sunən ət-Tirmizi”, 1549.
[2] “Səhih Muslim”, 3533.
[3] “Səhih əl-Buxari”, 2627.
[4] “Səhih Muslim”, 3534.

وفي روايةٍ: ويُقاتلُ غَضَباً، فَمَنْ في سبيل اللَّهِ؟ فَقَالَ رسولُ اللهِ ﷺ: « مَنْ قَاتَلَ لتكُونَ كَلِمَةُ اللهِ هِيَ العُلْيا، فَهُوَ في سَبيلِ اللَّهِ » متفقٌ عليه.

**1343.** Əbu Musadan ؓ rəvayət olunur ki, bir dəfə bir bədəvi Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ey Allahın rəsulu, qənimət üçün vuruşan adam, şöhrət üçün vuruşan adam, məkanını göstərmək məqsədilə vuruşan adam barədə nə deyə bilərsən?"

Başqa bir rəvayətdə: "şücaət göstərib vuruşan və təəssübkeşlik edib vuruşan";

Digər bir rəvayətdə isə: "Qəzəblə vuruşan kəs. Bunlardan hansı biri Allah yolundadır?"

Rəsulullah ﷺ dedi: **"Kim Allah kəlməsini uca tutmaq məqsədilə vuruşarsa, Allah yolunda vuruşan da elə o hesab olunar"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

**Şərh:**

Bu hədislər cihadla bağlı məsələləri bəyan edir. Həmin məsələlərdən biri də atıcılıqdır. Qeyd etdiyimiz kimi, Peyğəmbər ﷺ demişdir: **"Şübhəsiz ki, güc atışdadır".** O bunu üç dəfə təkrar etmişdir.

Müəllifin ؒ bu fəsildə qeyd etdiyi hədislər atıcılığı öyrənməyə təşviq edir. Deyilir ki, hər kim Uca Allahın ona imkan verməsindən və atıcılığı öyrənməsindən sonra onu tərk edərsə, həmin nemətə qarşı nankorluq etmiş olar. Bəzi hədislərdə isə Peyğəmbərin ﷺ həmin adamdan uzaqlaşdığı bildirilir.

Bir hədisdə isə deyilir ki, **"Yer üzü sizlər üçün fəth olunacaq, Allah sizə kifayətdir. Elə isə ox atmaqda aciz olmayın".**

Bu və buna bənzər başqa hədislər atıcılığa təşviq edir. Gərək insan xəfif silahlarla olsa belə, sərrast atmağı öyrənsin. Çünki o bilmir ki, başına nə gələcək. Hətta Peyğəmbər ﷺ atıcılıq yarışmasında mükafat verməyi də icazəli etmişdir. Yəni məsələn, iki nəfər avtomat və ya başqa silahla sərrast atışda yarışır, onlardan qalib gələnə mükafat verilir. Bu caizdir və bunda bir qəbahət yoxdur, çünki bu, insanları atmağa təşviq edir.

---

[1] "Səhih əl-Buxari", 2894; "Səhih Muslim", 3524.

Bu hədislərdə Peyğəmbər ﷺ demişdir: “**At minin, ox atın. Mənim üçün atmağınız minməyinizdən daha xeyirlidir”.** Çünki atıcılıqdan insan həm atlı olduqda, həm də piyada olduqda istifadə edə bilir. Minməklə isə insan sadəcə atlı ola bilər. Buna görə də Peyğəmbər ﷺ atıcılığı daha çox sevirdi.

Bu hədislər Allah yolunda cihad zamanı oruclu olmağın da fəzilətinə dəlildir. İnsan bir gün Allah yolunda oruc tutduqda, Allah onun üzünü Cəhənnəm odundan yetmiş illik məsafə qədər uzaqlaşdırmış olur.

Bu hədislər həm də dəlildir ki, Allah üçün niyyətdə ixlaslı olmaq gərəkdir. Peyğəmbərdən ﷺ şücaətlə, təəssübkeşliklə, qəzəblənərək (yəni qövmünün qeyrətini çəkərək) vuruşan kəslərdən hansının Allah yolunda olduğu barədə soruşulanda o belə cavab vermişdi: **“Kim Allah kəlməsini uca tutmaq məqsədilə vuruşarsa, Allah yolunda vuruşan da elə o hesab olunar”.** Müvəffəq edən Allahdır.

١٣٤٤– وعنْ عبد اللَّهِ بن عمرو بنِ العاص، رضي الله عنهما، قال: قال رسُولُ الله ﷺ: « ما مِنْ غَازِيةٍ، أوْ سَرِيَّةٍ تَغْزُو، فَتَغْنمُ وتَسْلَم، إلاَّ كانُوا قَدْ تعَجَّلُوا ثُلُثَيْ أَجورِهِم، ومَا مِنْ غازِيةٍ أوْ سرِيَّةٍ تُخْفِقُ وتُصابُ إلاَّ تَمَّ لهم أُجورُهُمْ » رواهُ أبو داود.

**1344.** Abdullah ibn Amr ibn əl-Asdan رضي الله عنهما rəvayət olunur ki, o demişdir: «Rəsulullah ﷺ demişdir: **“Vuruşan hər hansı bir ordu [qalib olub] qənimət əldə edər və salamat olarsa, əcrlərinin üçdə ikisini əldə etmiş olarlar. Vuruşan hər hansı bir ordu vuruşub məğlub olar və ya yaralanarsa, onların əcrləri tamam olar”».**

Hədisi Əbu Davud rəvayət etmişdir.[1]

١٣٤٥– وعنْ أبي أُمامَةَ، رضي الله عنه، أنَّ رَجُلاً قالَ: يا رسولَ الله ائذَن لي في السِّياحةِ. فَقالَ النبي ﷺ: « إنَّ سِياحةَ أُمَّتي الجِهادُ في سبيلِ اللَّهِ، عَزَّ وجلَّ » رواهُ أبو داود بإسناد جيِّد.

**1345.** Əbu Umamədən رضي الله عنه rəvayət olunur ki, bir kişi dedi: “Ey Allahın elçisi, mənə səyahət etməyə izin ver”. Peyğəmbər ﷺ dedi: **“Ümmətimin səyahəti izzət və cəlal sahibi Allahın yolunda cihaddır”**.

Hədisi Əbu Davud yaxşı isnadla rəvayət etmişdir.[2]

[1] “Sunən Əbu Davud”, 2127.
[2] “Sunən Əbu Davud”, 2128.

١٣٤٦– وعَنْ عبدِ اللَّهِ بن عَمْرِو بن العاص، رضي الله عنهما، عنِ النبي ﷺ قال: « قَفْلَةٌ كَغزْوةٌ » رواهُ أبو داود بإسناد جيد.

« القَفلَةُ »: الرُّجُوعُ، والمراد: الرُّجوعُ مِنَ الغزْوِ بعد فراغِهِ، ومعناه: أَنه يُثابُ في رُجُوعِهِ بعد فراغِهَ مِنَ الغَزْوِ.

**1346.** Abdullah ibn Amr ibn əl-Asdan رضي الله عنهما rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Qayıtmaq da vuruşmaq kimidir"**.

Hədisi Əbu Davud yaxşı isnadla rəvayət etmişdir.[1]

[Hədisin ərəbcəsində keçən] "əl-qaflə" sözü "qayıdış" deməkdir. Yəni döyüş bitdikdən sonra qayıtmaq. Məqsəd döyüş bitdikdən sonra qayıdanın savab qazanmasını bildirməkdir.

١٣٤٧– وعن السائب بن يزيد و رضي الله عنه، قالَ: لمَّا قدِمَ النبي ﷺ مَنْ غَزوةِ تبُوكَ تَلَقَّاه النَّاسُ، فَتَلَقَّيْتُهُ مع الصِّبيانِ على ثَنيّةِ الوَداعِ. رواه أبو داود بإسناد صَحيحٍ بهذا اللفظ، وَرَواه البخاريُّ قال: ذَهَبْنَا نتلقَّى رسول الله ﷺ مَعَ الصِّبيَانِ إلى ثَنِيَّةِ الوَداعِ.

**1347.** Saib ibn Yeziddən رضي الله عنه rəvayət olunur ki, "Peyğəmbər ﷺ Təbuk döyüşündən qayıtdıqda insanlar onu qarşıladılar. Mən də onu Səniyyətilvadə adlanan yerdə uşaqlarla qarşıladım".

Hədisi Əbu Davud bu ləfzlə səhih isnadala rəvayət etmişdir.[2]

Buxari bu hədisi bu sözlərlə rəvayət etmişdir: "Biz uşaqlarla birlikdə Səniyyətul-vadə deyilən yerə onu qarşılamağa getmişdik.[3]

١٣٤٨– وعَنْ أبي أُمَامَةَ، رضي الله عنه، عَن النبي ﷺ قَالَ: « مَنْ لم يغْزُ، أَوْ يُجهِّزْ غَازياً، أَوْ يَخْلُفْ غَازياً في أَهْلِهِ بِخَيرٍ أصابَهُ الله بِقَارِعةٍ قَبْلَ يوْمِ القِيامةِ ». رواهُ أبو داود بإسناد صحيحٍ.

**1348.** Əbu Umamədən رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim döyüşməzsə, yaxud döyüşçü hazırlamazsa və ya döyüşçünün**

---

[1] "Sunən Əbu Davud", 2398.
[2] "Sunən Əbu Davud", 2142.
[3] "Səhih əl-Buxari", 2853.

**ailəsini təmin etməzsə, Allah Qiyamət günündən əvvəl onu dəhşətə məruz qoyar".**

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[1]

١٣٤٩– وعنْ أنس، ﷺ، أنَّ النبي ﷺ قال: « جاهِدُوا المُشرِكينَ بِأَموالِكُمْ وأَنْفُسِكُم وأَلسِنَتِكُم ». رواهُ أبو داود بإسناد صحيح.

**1349.** Ənəsdən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Müşriklərə qarşı malınızla, canınızla və dilinizlə cihad edin".**

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[2]

١٣٥٠– وعَنْ أبي عَمْرو. ويقالُ: أبو حكِيمٍ النُعْمَانِ بنِ مُقَرِّنٍ ﷺ قال: شَهِدْتُ رسولَ الله ﷺ إذا لَمْ يقَاتِلْ مِنْ أوَّلِ النَّهارِ أخَّر القِتالَ حَتَّى تَزُولَ الشَّمْسُ، وتَهبَّ الرِّياحُ، ويَنزِلَ النَّصْرُ. رواهُ أبو داود، والترمذي، وقال: حديثٌ حَسَنٌ صحيحٌ.

**1350.** Əbu Amr və ya Əbu Həkim Numan ibn Muqarrindən ﷺ rəvayət olunur ki, o demişdir: "Mən şahid oldum ki, Rəsulullah ﷺ gündüzün əvvəlində döyüşmədikdə döyüşü günortadan sonrayadək, külək əsənədək gecikdirərdi. Beləcə qələbə nazil olardı".

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən səhih hədisdir" demişdir.

١٣٥١– وعنْ أبي هريْرَةَ ﷺ، قالَ: قالَ رَسولُ الله ﷺ: « لا تَتَمَنَّوْا لِقَاءَ العَدُوِّ، فإذا لَقيتُمُوهم، فَاصْبِروا » متفق عليه.

**1351.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Düşmənlə üzləşməyi təmənna etməyin, Allahdan afiyət diləyin, onlarla görüşdükdə isə səbirli olun".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] "Sunən Əbu Davud", 2143; "Sunən ən-Nəsai", 3045.
[2] "Musnəd İmam Əhməd", 3/124; "Sunən Əbu Davud", 2283; "Sunən ət-Tirmizi", 1538.
[3] Bu hədisin təxrici daha öncə qeyd olunmuşdur.

١٣٥٢– وعَنْهُ وعَنْ جابرٍ، ﷺ، أنَّ النبي ﷺ قالَ: « الحرْبُ خُدْعَةٌ». متفقٌ عليهِ.

**1352.** Cabirdən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Müharibə hiylədir"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

**Şərh:**

Bu hədislər "Cihadın fəziləti" fəslindəki hədislərin davamıdır. Bu hədislər də döyüşə təşviq edir. Bildirilir ki, insan döyüşməsə və döyüşməyə niyyət etməsə, yaxud qazinin ailəsini təmin etməsə, Qiyamət günündən öncə onu dəhşət bürüyər. Ola bilsin ki, bu dəhşət başqa hədisdə qeyd olunanla açıqlansın: **"Kim döyüşmədən, yaxud döyüşmək niyyəti olmadan ölərsə, nifaqın bir şöbəsi üzərində ölmüş olar"**.

Bu hədislərdə müşriklərə qarşı mal, can və dillə vuruşmağa təşviq var:

Mal ilə – yəni insan malını sərf edərək mücahidlərə yardım etsin, onlara silah və digər ləvazımatlar alsın.

Canla – özü döyüşə gedib vuruşmaqla.

Dil ilə – yəni onlara qarşı şeir və qəsidələrlə mübarizə aparsın. Çünki müşrikləri dillə pisləmək onlara təsir edir və insanlar onları Allah dilədiyi qədər pis şəkildə xatırlamış olurlar. Məsələn, indiyə qədər bizlər Həssan ibn Sabitin və Abdullah ibn Ravahanın, həmçinin başqalarının müşriklərə qarşı dedikləri şeirləri eşidirik.

Müəllifin ﷺ qeyd etdiyi bu hədislər Allah yolunda cihad etməyin fəziləti və cihadın ən fəzilətli əməllərdən olması barəsindədir. Bu mənada bir çox hədislər qeyd olunmuş, müəllif də bu xüsusda uzun-uzadı hədislər qeyd etmişdir. Çünki cihad dinin ən mühüm sütunlarından biridir. Hətta Peyğəmbər ﷺ demişdir ki: **"İslamın güvəninin zirvəsi Allah yolunda cihaddır".** Çünki bu zaman Allahın sözünün uca tutulması, İslamın və müsəlmanların qələbəsi və sair bir çox mənfəətlər vardır. Müvəffəq edən Allahdır.

---

[1] "Səhih əl-Buxari", 2805; "Səhih Muslim", 3273.

# İki yüz otuz beşinci fəsil

## Bəzi şəhidlər axirət savabında yuyulur və onlara cənazə namazı qılınır. Kafirlərə qarşı döyüşdə öldürülənlər isə fərqlidir

**Mövzu ilə əlaqəli hədislər:**

١٣٥٣– عنْ أبي هُرَيْرَةَ، ﵁، قالَ: قالَ رَسُولُ الله ﷺ: « الشُّهَدَاءُ خَمسَةٌ: المَطعُونُ، وَالمبْطُونُ، والغَرِيقُ، وَصَاحبُ الهَدْمِ وَالشَّهيدُ في سبيل الله » متفقٌ عليهِ.

**1353.** Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Şəhidlər beşdir: taun xəstəliyindən ölənlər, qarın yatalağından ölənlər, suda batanlar, dağıntı altında ölənlər və Allah yolunda şəhid olanlar"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٣٥٤– وعنهُ قالَ: قالَ رسولُ الله ﷺ: « ما تَعُدُّونَ الشهداءَ فِيكُم؟ قالُوا: يا رسُولِ اللَّهِ من قُتِل في سبيل الله فَهُو شهيدٌ. قال: « إنَّ شُهَداءَ أُمَّتي إذاً لَقلِيلٌ، » قالُوا: فَمنْ يا رسُول الله؟ قال: « منْ قُتِل في سبيلِ الله فهُو شَهيدٌ، ومنْ ماتَ في سبيل الله فهُو شهيدٌ، ومنْ ماتَ في الطَّاعُون فهُو شَهيدٌ، ومنْ ماتَ في البطنِ فَهُو شَهيدٌ، والغَرِيقُ شَهيدٌ » رواهُ مسلمٌ.

**1354.** Yenə ondan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Aranızda kimləri şəhid sayırsınız?"** Dedilər: "Ey Allahın elçisi, kim Allah yolunda öldürülərsə, şəhiddir". Dedi: **"O zaman ümmətimdən şəhid olanlar az olar!"** Dedilər: "Bəs onlar kimlərdir, ey Allahın elçisi?" Dedi: **"Kim Allah yolunda öldürülərsə, şəhiddir. Kim qarın yatalağından ölərsə, şəhiddir. Kim taun xəstəliyindən ölərsə, şəhiddir. Kim suda batıb ölərsə, şəhiddir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

---

[1] "Səhih əl-Buxari", 2617; "Səhih Muslim", 1914.
[2] "Səhih Muslim", 1914.

**Şərh:**

Bu fəsildə müəllif ﷬ Allah yolunda öldürülməyən bəzi şəhidlərdən söhbət açır.

Allah yolunda öldürülən kəs şəhidlik növlərindən ən yüksəkdə olanıdır. Başqa şəhidlər isə müəllifin də qeyd etdiyi kimi, axirət şəhidləridir. Onlar axirət hökmündədirlər və dünya əhkamlarında onlarla şəhid kimi davranılmır. Bununla da bəlli olur ki, Allah yolunda öldürülən kəs həm dünyada, həm də axirətdə şəhiddir. Əgər öldürülərsə, dünyada onunla şəhid kimi davranılır – o yuyulmur, kəfənlənmir, cənazə namazı qılınmır, dəfn olunmur, Rəbbi, dini və peyğəmbəri haqqında soruşan mələklər onun yanına gəlmir. O yuyulmur ki, qanın izi onun üzərində qalsın. O Qiyamət günü gəldikdə onun yarasından qan axacaq – rəngi qan rəngində, qoxusu isə müşk qoxusu olacaq. Bu səbəbdən alimlər demişlər ki: "Şəhidi və onun qanını yumaq haramdır". Onu olduğu kimi saxlamaq lazımdır.

Şəhid olan kəs həm də kəfənlənmir, əynində olan libasda saxlanılır.

Onun üçün cənazə namazı da qılınmır, çünki namaz şəfaətdir. Necə ki, Peyğəmbər ﷺ cənazə namazı haqqında: **"Ölən bir müsəlmanın cənazəsində Allaha şərik qoşmayan qırx nəfər iştirak edərsə, Allah onların vasitəsilə ona şəfaət edər"**– demişdir. Allah yolunda öldürülən kəsin isə kiminsə şəfaətinə ehtiyacı yoxdur. Çünki o, öz canını Allahın adını uca tutmaq məqsədilə düşmənlərə qurban verməsi ilə şəfaət olunacaqdır.

Peyğəmbər ﷺ həm də xəbər vermişdir ki, şəhid qəbir fitnəsindən xilas olur. Bunun bənzəri də birinin ehramda ikən ölməsi halıdır. Beləsi su və sidrlə yuyulur, lakin ona ətir və ya dərman vurulmur, başı örtülmür, geyindiyi ehramdan başqa heç nə ilə kəfənlənmir. Çünki o, Qiyamət günü: "Hüzurundayam, Allahım, hüzurundayam" deyə təlbiyə edə-edə diriləcək.

Axirətə gəlincə isə Uca Allah bu xüsusda buyurur: **"Allah yolunda öldürülənləri əsla ölü sanma. Əksinə, *onlar* diridirlər; onlara Rəbbi yanında ruzi verilir. Onlar Allahın Öz lütfündən onlara verdiyi nemətə fərəhlənir, arxalarınca gəlib hələ onlara çatmamış kəslərin heç bir qorxu ilə qarşılaşmayacaqları və kədərlənməyəcəkləri müjdəsinə sevinirlər. Onlar Allahın neməti və lütfünə görə, həm də Allahın möminlərin mükafatını heçə çıxarmayacağı müjdəsinə sevinirlər".**[1]

[1] "Ali İmran" surəsi, 169-171.

Hədisdə qeyd olunan digər şəhidlər isə dünyada deyil, Axirətdə şəhid hökmündədirlər və Allah yolunda öldürülənlərlə eyni səviyyədə deyillər. Çünki onlar (öldürülənlər) həm bu dünyada, həm də axirətdə şəhiddirlər. Hər bir halda, göstərilən digər səbəblərdən ölənlər də şəhiddirlər və hər birinin əməlinə görə dərəcələri vardır. Onlar dörd növdür: taundan ölənlər, qarın yatalağından ölənlər, suda batanlar, dağıntı altında ölənlər.

Birinci: taundan, yəni taun xəstəliyi ucbatından ölənlər.

Taun öldürücü bir vəba xəstəliyidir. Allah qorusun! Yer üzərində bu xəstəlik yayıldıqda insanlar kütləvi ölür. Buna görə də Peyğəmbər ﷺ taun barədə: **"Bir yerdə bu xəstəliyin olduğunu eşitsəniz, oraya getməyin, sizin olduğunuz yerdə olarsa, olduğunuz yerdən çıxıb qaçmayın"**– demişdir.[1] Yəni izzət və cəlal sahibi Allahdan necə qaça bilərsən? Bax, gör minlərlə insan ölümdən qaçaraq öz diyarlarından necə çıxmışdı. Allah onlara "Ölün!" demişdi, onlar da ölmüşdülər. Onlar ölümdən qaçmaq istəmişdilər, ancaq Uca Allah onlara bəyan etmişdi ki, izzət və cəlal sahibi Allahdan qaçmaq mümkün deyil. Sonra Allah onları diriltməklə bəyan etmişdi ki, izzət və cəlal sahibi Allahın qədərindən qaçmaq mümkün deyil. Biz isə bizlərə əmr olunmuş səbəbləri götürməli, bizə qadağan olunmuşlara isə yaxın durmamalıyıq. Bu səbəbdən Peyğəmbər ﷺ buyurur ki, **"sizin olduğunuz yerdə olarsa, olduğunuz yerdən çıxıb qaçmayın".** Beləliklə, taun xəstəliyindən ölən kəs şəhid sayılır.

İkinci: qarın yatalağından ölən. Bu o kəsdir ki, qarınında xəstəlik yaranıb və o ölüb. Buna indi "ğaşiyə" də deyirlər. Qarnında belə bir xəstəlik yaranan kəs ölərsə, şəhid sayılar.

Üçüncü: Suda batıb ölən. Yəni leysan səbəbindən, yaxud çayda və ya dənizdə batan kəs axirətdə şəhid sayılacaq. Buna görə insan üzməyi də öyrənməlidir ki, belə hadisələr baş verdikdə bundan qoruna bilsin.

Dördüncü: Dağıntı altında ölən kəs. Yəni adamın evi və ya divarı və ya başqa bir yer dağılıb və o dağıntılar altında ölüb. Beləsi də şəhid sayılır.

Bütün bunlar öldürücü hadisələr səbəbindən vəfat edənlərdir. Bəs yol hadisəsi zamanı ölənlər necə, onlar da buna qiyas oluna bilərmi? Allah bilir. Ola bilsin ki, qiyas olunsun. Çünki deyə bilərlər ki, divarın aşması ilə maşının çevrilməsi arasında fərq yoxdur – insanın başına gələn hər bir

[1] "Səhih əl-Buxari", 5287.

hadisə səbəbindən o ölürsə, şəhid sayılır. Lakin bunu qəti şəkildə demirik. Çünki cəza və savab məsələlərində qiyas olmur.

Xülasə, Allah yolunda öldürülən kəslərdən savayı digər qrup insanlar da şəhid sayılır. Həmçinin Allah yolunda ölən, lakin öldürülməyən kəs də belələrinə aiddir – o, şəhiddir, lakin axirətdə şəhiddir. Misal üçün, biri mücahidlərlə birlikdə *döyüşə* çıxıb, lakin yolda təbii ölümlə ölür. Beləsi dünyada qüsl olunur, kəfənlənir və ona cənazə namazı qılınır, insanlarla birlikdə də dəfn olunur. Beləsi Peyğəmbərin ﷺ qeyd etdiyi, taun, qarın yatalağı, suda boğulma və dağıntı səbəbindən ölənlər kimidir. Müvəffəq edən Allahdır.

١٣٥٥– وعن عبدِ اللَّهِ بن عمْرو بن العاص، رضي الله عنهما، قال: قال رسولُ اللَّه ﷺ: « منْ قُتِل دُونَ مالِه، فَهُو شهيدٌ » متفقٌ عليه.

**1355.** Abdullah ibn Amr ibn əl-Asdan رضي الله عنهما rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim malı uğrunda ölərsə, şəhiddir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٣٥٦– وعنْ أبي الأعور سعيدِ بنِ زَيْدِ بنِ عمرو بنِ نُفَيْلٍ، أَحدِ العشَرةِ المشْهُودِ لَهمْ بالجنَّةِ، رضي الله عنه، قال: سمِعت رسُول اللَّهِ ﷺ يقولُ: « منْ قُتِل دُونَ مالِهِ فهُو شَهيدٌ، ومنْ قُتلَ دُونَ دمِهِ فهُو شهيدٌ، ومن قُتِل دُونَ دِينِهِ فَهو شهيدٌ، ومنْ قُتِل دُونَ أَهْلِهِ فهُو شهيدٌ ».

رواه أبو داود، والترمذي وقال: حديثٌ حسنٌ صحيحٌ.

**1356.** Cənnətlə müjdələnmiş on səhabədən biri Əbul-Əvar Səid ibn Zeyd ibn Amr ibn Nufeyldən رضي الله عنه rəvayət olunur ki, o demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Kim malı uğrunda ölərsə, şəhiddir; kim qanı uğrunda ölərsə, şəhiddir; kim dini uğrunda ölərsə, şəhiddir; kim ailəsi uğrunda ölərsə, şəhiddir".**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən səhih hədisdir" demişdir.[2]

---

[1] "Səhih əl-Buxari", 2300; "Səhih Muslim", 202.

[2] "Musnəd İmam Əhməd", 1/190; "Sunən Əbu Davud", 4142; "Sunən ət-Tirmizi", 1341; "Sunən ən-Nəsai", 4027.

١٣٥٧– وعنْ أبي هُريرة، ﷺ، قالَ: جاء رجُلٌ إلى رسول الله ﷺ فَقَال: يا رسول الله أَرأَيت إنْ جاءَ رَجُلٌ يُرِيدُ أَخْذَ مالي؟ قال: « فَلا تُعْطِهِ مالكَ » قال: أَرأَيْتَ إنْ قَاتلني؟ قال: « قَاتِلْهُ » قال: أَرأَيت إن قَتلَني؟ قال: « فَأَنْت شَهيدٌ » قال: أَرأَيْتَ إنْ قَتَلْتُهُ؟ قال: « هُوَ فِي النَّارِ » رواهُ مسلمٌ.

**1357.** Rəvayət olunur ki, Əbu Hureyra ﷺ demişdir: "Bir dəfə bir kişi Rəsulullahın ﷺ yanına gəlib dedi: "Ey Allahın elçisi, birdən bir kişi gəlib mənim malımı götürmək istəsə nə edim?" Dedi: **"Malını ona vermə"**. Kişi soruşdu: "Birdən o mənə qarşı vuruşsa?" Dedi: **"Ona qarşı vuruş".** Kişi yenə soruşdu: "Birdən məni öldürsə?" Dedi: **"Sən şəhid sayılırsan".** Kişi yenə soruşdu: "Birdən mən onu öldürsəm?" Dedi: **"O cəhənnəmlikdir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Bunlar şəhidlərin Axirətdə əldə edəcəkləri savabla bağlı hədislərin davamıdır. Onlardan birində Abdullah ibn Amr ibn əl-As öz atasından rəvayət etmişdir ki, Rəsulullah ﷺ demişdir: **"Kim malı uğrunda ölərsə, şəhiddir".** Yəni əgər biri sənin malını haqsız yerə almaq istəsə, sən də malını müdafiə edərək ölsən, şəhid sayılarsan.

Sonuncu hədisdə isə deyilir ki, bir dəfə bir kişi Rəsulullahdan ﷺ soruşdu: "Ey Allahın elçisi, birdən bir kişi gəlib mənim malımı götürmək istəsə nə edim?" Dedi: **"Malını ona vermə"**. Kişi soruşdu: "Birdən o mənə qarşı vuruşsa?" Dedi: **"Ona qarşı vuruş".** Kişi yenə soruşdu: "Birdən məni öldürsə?" Dedi: **"Sən şəhid sayılırsan".** Kişi yenə soruşdu: "Birdən mən onu öldürsəm?" Dedi: **"O cəhənnəmlikdir"**

Bu da dəlildir ki, birisi gəlib sənin malını *haqsız yerə* götürmək istəsə, sən öz malını müdafiə etməlisən. Əgər onu qətlə yetirmədən malını müdafiə edə bilmirsənsə, onu öldür. Qətl olmadan malını müdafiə edə bilsən, öldürmə. Yəni əgər sən ondan güclüsənsə, onu tutub əllərini və ayaqlarını bağlaya bilirsənsə, onu öldürmədən əsir götürürsən. Çünki belə olduqda

[1] "Səhih əl-Buxari", 201.

onu öldürməyə lüzum yoxdur. Yox, əgər bu mümkün olmasa, o da sənə qarşı vuruşsa, sən də onunla vuruş və onu qətlə yetir. Qorxsan ki, o səni öldürə bilər, sən onu öldür. Bu zaman döyüşməyə ehtiyac yoxdur. Yəni görsən ki, sənə qarşı müqavimət göstərir, özündə də silah var, bu zaman onu öldür. Çünki sən onu öldürməsən, o səni öldürəcəkdir. Əgər sən onu öldürsən, o Cəhənnəmlikdir, o səni öldürsə, sən şəhidsən.

Səid ibn Zeydin ﷺ hədisində də belə deyilir: **"Kim malı uğrunda ölərsə, şəhiddir; kim qanı uğrunda ölərsə, şəhiddir; kim dini uğrunda ölərsə, şəhiddir; kim ailəsi uğrunda ölərsə, şəhiddir".** Hətta əgər birisi səni dinində fitnəyə məruz qoymaq, namusuna toxunmaq istəsə, yaxud buna bənzər başqa bir iş görsə, sən də ona qarşı vuruşarkən o səni öldürsə, sən şəhidsən. Sən onu öldürsən, o, Cəhənnəmdə olacaq.

Buna görə də alimlər demişlər ki, hücum edəndən özünü qorumaq məqsədilə onu öldürməyin caizdir. Çünki o sənə hücum edibsə, deməli onun toxunulmazlığı yoxdur. Lakin onu qətlə yetirmək istəmədən müdafiə olunmağın mümkündürsə, bu zaman onu öldürmə.

Uca Allahdan diləyirik ki, bizləri gizlində və aşkarda olan fitnələrdən qorusun.

# İki yüz otuz altıncı fəsil

## Kölə azad etməyin fəziləti

**Mövzu ilə əlaqəli ayələr:**

Uca Allah buyurur:

﴿ فَلَا ٱقۡتَحَمَ ٱلۡعَقَبَةَ * وَمَآ أَدۡرَىٰكَ مَا ٱلۡعَقَبَةُ * فَكُّ رَقَبَةٍ ﴾

**“Fəqət o, sərt yoxuşu aşa bilmədi. Sən nə bilirsən ki, sərt yoxuş nədir? – O, bir kölə azad etməkdir”.**[1]

**Mövzu ilə əlaqəli hədislər:**

١٣٥٨– وعنْ أبي هُريرةَ، رضي الله عنه، قال: قال لي رَسولُ اللَّه ﷺ: « منْ أَعْتَقَ رقَبةً مُسْلِمةً أَعْتَقَ اللَّه بِكُلِّ عُضْوٍ مِنْهُ عُضْواً مِنْهُ مِنَ النَّارِ حتى فَرْجَهُ بِفرجهِ ». متفقٌ عليهِ.

**1358.** Əbu Hureyradan رضي الله عنه rəvayət olunan hədisdə Rəsulullah ﷺ demişdir: **“Kim bir müsəlman köləni azad edərsə, Allah həmin kölənin hər bir bədən üzvünə görə onun bir bədən üzvünü, hətta cinsiyyət üzvünə görə cinsiyyət üzvünü belə Cəhənnəm odundan azad edər”.**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٣٥٩– وعَنْ أبي ذَرٍّ، رضي الله عنه، قالَ: قُلْتُ يا رسُولَ اللَّه، أيُّ الأعْمالِ أفضَل؟ قَال: « الإيمانُ باللَّه، والجِهادُ في سبيلِ اللَّه » قَالَ: قُلْتُ: أيُّ الرِّقَابِ أفْضَلُ؟ قالَ: « أنْفَسُهَا عِنْد أَهْلِهَا، وَأَكْثَرُهَا ثَمَناً » متفقٌ عليه.

**1359.** Rəvayət olunur ki, Əbu Zər رضي الله عنه demişdir: «Mən dedim: “Ey Allahın elçisi, hansı əməllər daha fəzilətlidir?” Dedi: **“Allaha iman gətirmək və Allah yolunda cihad etmək”.** Dedim: “Hansı kölələri azad etmək daha əfzəldir?” Dedi: **“Ailəsi üçün ən dəyərli və ən bahalı olanı”**».

---

[1] “əl-Bələd” surəsi, 11-13.

[2] “Səhih əl-Buxari”, 6221; “Səhih Muslim”, 2776.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

**Şərh:**

Müəllif ﷺ **"Kölə azad etməyin fəziləti"** fəslini qeyd edir.

Kölə azad etmək köləni azadlığa çıxarmaqdır. Yəni kölə vəziyyətində olan birisini digəri azad edir, izzət və cəlal sahibi Allahın üzü xatirinə onu azadlığa qovuşdurur. Bu, ən əfzəl əməllərdəndir. Uca Allah buyurur: **"Fəqət o, sərt yoxuşu aşa bilmədi. Sən nə bilirsən ki, sərt yoxuş nədir? O, bir kölə azad etməkdir və ya aclıq günündə *möhtaca* yemək verməkdir – qohumluğu çatan bir yetimə, yaxud *aclıqdan* yerə uzanmış kasıba. Sonra isə iman gətirənlərdən, bir-birinə səbir tövsiyə edənlərdən və mərhəmət tövsiyə edənlərdən olmaqdır".**[2]

**"Fəqət o, sərt yoxuşu aşa bilmədi".** Yəni onu çətinliklə qalxdı. "əl-əqabə" sərt yoxuşa deyilir. Məlum məsələdir ki, sərt yoxuşu qalxmaq olduqca çətindir. Kölələri azad etmək də nəfslərə belə ağır gəlir. Çünki bu zaman mülkündə olan bir insanın öz mülkündən çıxarılması vardır ki, bu da çətin məsələdir.

**"O, bir kölə azad etməkdir".** Kölə azad etməyə düşmənin əlindən əsiri azad etməyə də şamil olunur. Bu da kölə azad etməyə aiddir. Bu ayə kölə azad etməyin fəzilətinə dəlildir.

Sonra müəllif ﷺ Peyğəmbərdən ﷺ varid olmuş hədisləri qeyd edir. Bir hədisdə vurğulanır ki, kim bir köləni azad edərsə, Allah həmin kölənin hər bir bədən üzvünə görə onun bir bədən üzvünü, hətta cinsiyyət üzvünə görə cinsiyyət üzvünü belə Cəhənnəm odundan azad edər. Yəni əgər sən bir kölə azad etsən, Uca və nöqsansız Allah öz fəziləti və ehsanı ilə sənin bütün bədənini Cəhənnəm odundan azad edəcək.

---

[1] "Səhih əl-Buxari", 2334; "Səhih Muslim", 119.

[2] "əl-Bələd" surəsi, 11-17.

# İki yüz otuz yeddinci fəsil

## Köləyə yaxşılıq etməyin fəziləti

**Mövzu ilə əlaqəli ayə:**

Uca Allah buyurur:

﴿ وَٱعْبُدُوا۟ ٱللَّهَ وَلَا تُشْرِكُوا۟ بِهِۦ شَيْـًٔا ۖ وَبِٱلْوَٰلِدَيْنِ إِحْسَـٰنًا وَبِذِى ٱلْقُرْبَىٰ وَٱلْيَتَـٰمَىٰ وَٱلْمَسَـٰكِينِ وَٱلْجَارِ ذِى ٱلْقُرْبَىٰ وَٱلْجَارِ ٱلْجُنُبِ وَٱلصَّاحِبِ بِٱلْجَنۢبِ وَٱبْنِ ٱلسَّبِيلِ وَمَا مَلَكَتْ أَيْمَـٰنُكُمْ ﴾

**"Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz *kölə və kənizlərə* yaxşılıq edin!"**[1]

**Mövzu ilə əlaqəli hədislər:**

١٣٦٠– وعن المَعْرُور بن سُوَيْدٍ قالَ: رأَيْتُ أبا ذَرٍّ، رضي الله عنه، وعليهِ حُلَّةٌ، وعَلى غُلامِهِ مِثْلُهَا، فَسَأَلْتُهُ عَنْ ذلك، فَذكر أنَّه سَابَّ رَجُلاً على عهْدِ رَسُولِ اللَّه ﷺ، فَعيَّرَهُ بأُمِّهِ، فَقَال النبي ﷺ: « إنَّك امْرُؤٌ فِيك جاهِلِيَّةٌ »: هُمْ إخْوانُكُمْ، وخَولُكُمْ، جعَلَهُمُ اللَّه تَحت أيدِيكُمْ، فَمَنْ كَانَ أَخُوهُ تَحت يَدهِ فليُطعِمهُ مِمَّا يَأْكلُ، وَلْيُلْبِسْهُ مِمَّا يلبَسُ، ولا تُكَلِّفُوهُم مَا يَغْلبُهُمْ، فإن كَلَّفتُمُوهُم فَأَعِينُوهُم »،متفقٌ عليه.

**1360.** Rəvayət olunur ki, Mərur ibn Suveyd demişdir: "Mən üzərində bəzək olan Əbu Zəri ﷺ gördüm. Onun köləsinin də üzərində oxşar bəzək var idi. Mən bu barədə ondan soruşdum, o da dedi ki, Rəsulullahın ﷺ zamanında bir nəfəri söymüş, onu anası ilə təhqir etmişdi. Peyğəmbər ﷺ də demişdi: **"Həqiqətən də səndə cahillik var. Onlar sizin qardaşlarınız, xidmətçilərinizdir. Allah onları sizin ixtiyarınıza vermişdir. Kimin qardaşı ixtiyarında olarsa, yediyindən ona da yedirsin, geyindiyindən ona**

[1] "ən-Nisa" surəsi, 36.

**da geyindirsin. Onları bacarmadıqları işlərlə yükləməsin, yüklədikdə isə ona yardım etsin”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٣٦١– وَعَنْ أبي هُريرَةَ، ﷺ، عَن النبي ﷺ: قالَ: إذا أَتى أحدَكم خَادِمُهُ بِطَعامِهِ، فَإنْ لم يُجْلِسْهُ معهُ، فَلَيُناوِلْهُ لُقمةً أوْ لُقمَتَيْنِ أوْ أُكلَةً أوْ أُكلَتَيْنِ، فَإنَّهُ ولِيَ عِلاجهُ». رواه البخاري.

« الأُكلَةُ » بضم الهمزة: هِيَ اللُّقمَةُ.

**1361.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **“Birinizin xidmətçisi yeməyi ilə yanına gələrsə, əgər yanında oturtmasa belə, ona bir və ya iki loxma yedirsin. Onun müalicəsi də ona aiddir”.**

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

[Hədisin ərəbcəsində keçən] “əl-uklə” də “loxma” mənasındadır.

**Şərh:**

Müəllif ﷺ **“Köləyə yaxşılıq etməyin fəziləti”** fəsli açır və ilk öncə Uca Allahın bu ayəsini qeyd edir: **“Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın!”**[3]

**“Allaha ibadət edin”**, yəni Allaha itaət edin. Allaha itaət etmək Onun əmrlərinə itaət etmək, qadağalarından çəkinmək isə Ona ibadət etmək anlamındadır. İnsan və cinlərin yaradılış məqsədi də budur. Uca Allah buyurur: **“Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım”.**[4]

Allah bizləri yemək-içmək, geyinmək, məskunlaşmaq və həzz almağımız üçün yaratmayıb. Xeyr, bütün bunlar bizim tələbatımızdır. Qayə isə ibadətdir: **“Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım”.** Kim Allaha ibadət etməzsə, yaxud Allahla yanaşı başqasına

---

[1] “Səhih əl-Buxari”, 929; “Səhih Muslim”, 3140.

[2] “Səhih əl-Buxari”, 2370.

[3] “ən-Nisa” surəsi, 36.

[4] “əz-Zariyat” surəsi, 56.

ibadət edərsə, həm dünyasını, həm də axirətini itirmiş olar. Çünki o, yaradılış məqsədini itirmiş olur.

**"Heç bir şeyi Ona şərik qoşmayın!".** "Heç bir şey" hər növ şirki özündə birləşdirir. Çünki o, qadağa formasında olan inkardır və ümumiliyi bildirir. Allaha ibadətdə heç bir şeyi – nə peyğəmbəri, nə Cəbraili, nə Allahın övliyalarından birini, nə siddiqi, nə də şəhidi Ona şərik qoşma. Yalnız Uca Allaha ibadət et. Kim Allaha nəyisə şərik qoşar və bu əməli böyük şirk olarsa, Uca Allah bu xüsusda buyurur: **"Kim Allaha şərik qoşarsa, heç şübhəsiz, Allah Cənnəti ona haram edər. Onun gedəcəyi yer atəşdir. Zalımların heç bir yardımçısı yoxdur".**[1]

Buna misal. Birisi gedib qəbirə səcdə edir, yaxud dua edib deyir ki, "Ey cənab, mənə yardım et! Ey cənab, mənə övlad bəxş et, mənə zövcə bəxş et, mənə pul nəsib et!" Bu, insanı müsəlman millətindən çıxaran böyük şirkdir. İnsan hətta oruc tutsa, namaz qılsa, sədəqə versə, Quran oxusa, həcc etsə belə, bu şirk üzərində qalır və Cənnətə daxil olmur. Çünki Cənnət ona haramdır. Onun gedəcəyi yer Cəhənnəmdir. Zalımların isə heç bir yardımçısı yoxdur. Çünki o, Allaha şərik qoşmuşdur.

Uca Allah buyurur: **"Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz *kölə və kənizlərə* yaxşılıq edin!"** Burada Rəsulullahın ﷺ haqqı zikr olunmur, baxmayaraq ki, onun haqqı valideyn haqqından daha böyükdür. Gərək insan özündən, övladından, valideynindən daha çox Peyğəmbəri ﷺ sevsin. Peyğəmbərin ﷺ haqqı bütün məxluqatın haqqından daha önəmlidir. Alimlər demişlər: "Çünki Peyğəmbərin ﷺ haqqı Allahın haqqındandır. Belə ki, Allaha edilən ibadət Peyğəmbərə ﷺ tabe olunmadan qəbul oluna bilməz. Odur ki, Peyğəmbərin ﷺ haqqı izzət və cəlal sahibi Allahın haqqına daxildir".

Kim səmimi-qəlbdən, ixlasla yalnız Allaha ibadət etməzsə və Peyğəmbərə ﷺ itaət etməzsə, onun ibadəti hesaba alınmaz. Bu səbəbdən Peyğəmbərin ﷺ haqqı burada qeyd olunmur. Çünki o, Allahın haqqına aiddir.

[1] "əl-Maidə" surəsi, 72.

**“Valideynlərə”** sözündə həm ata nəzərdə tutulur, həm də ana.

**“Yaxşılıq edin”**. Yəni mal ilə yaxşılıq edin, onlara pul verməklə *və ehtiyaclarını ödəməklə* yaxşılıq edin. Həmçinin onlara itaət etmək, onların xidmətində durmaq da yaxşılıq hesab olunur. Həm pulla, həm mövqeyinlə, həm də bədənlə yaxşılıq etməlisən. Ayənin ərəbcəsində işlənən “ehsan” (yaxşılıq) deyildikdə, bütün növ yaxşılıqlar nəzərdə tutulur. İnşəAllah ayə haqqında sonrakı hədislərin şərhində də söhbət açılacaq.

# İki yüz otuz səkkizinci fəsil

## Allahın və öz sahibinin haqlarını ödəyən kölənin fəziləti

**Mövzu ilə əlaqəli hədislər:**

١٣٦٢– عَن ابن عُمَرَ، ﷺ، أَنَّ رَسُولَ اللَّه ﷺ قالَ: إنَّ العَبْد إذا نَصحَ لِسيِّدِهِ، وَأَحْسَنَ عِبادةَ اللَّهِ، فَلَهُ أَجْرُهُ مرَّتيْنِ » متفقٌ عليه.

**1362.** İbn Ömərdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Əgər qul öz ağasına nəsihət edər və Allaha gözəl şəkildə ibadət edərsə, ona əcri ikiqat verilər"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٣٦٣– وعَنْ أبي هُريرَةَ، ﷺ، قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « للعبدِ المَمْلُوكِ المُصْلِحِ أَجْرَانِ »، والَّذِي نَفسُ أبي هُرَيرَة بيَدِهِ لَوْلا الجِهَادُ في سَبِيلِ اللَّهِ، والحَجُّ، وبِرُّ أُمِّي، لأحْببتُ أنْ أمُوتَ وأنَا ممْلوكٌ. متفقٌ عليهِ.

**1363.** Əbu Hureyranın ﷺ belə dediyi rəvayət olunur ki, «Rəsulullah ﷺ demişdir: **"İslah edən köləyə ikiqat əcr verilər"**. Əbu Hureyranın canı əlində olan Allaha and olsun ki, Allah yolunda cihad, həcc və anama qayğı olmasaydı, kölə olaraq ölməyi seçərdim"».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٣٦٤– وعَنْ أبي مُوسَى الأَشْعَرِيِّ، ﷺ، قال: قالَ رَسُولُ اللَّهِ ﷺ: «المَمْلُوكُ الذي يُحْسِنُ عِبَادَةَ رَبِّهِ، وَيُؤَدِّي إلى سَيِّدِهِ الذي عليهِ مِنَ الحقّ، والنَّصِيحَةِ، والطَّاعَةِ، لهُ أجْرَانِ » رواهُ البخاريُّ.

**1364.** Əbu Musa əl-Əşaridən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Rəbbinə gözəl tərzdə ibadət edən, sahibinin də haqqını ödəyən – ona nəsihət və itaət edən köləyə ikiqat əcr vardır"**.

---

[1] "Səhih əl-Buxari", 2360; "Səhih Muslim", 3143.

[2] "Səhih əl-Buxari", 2362; "Səhih Muslim", 3144.

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

١٣٦٥– وعَنْهُ قَالَ: قَالَ رسُولُ اللَّهِ ﷺ: « ثلاثَةٌ لهُمْ أَجْرانِ: رَجُلٌ مِنْ أَهْلِ الكتاب آمن بنبيِّه وآمنَ بمُحَمدٍ، والعبْدُ المَمْلُوكُ إِذا أَدَّى حقَّ اللَّهِ، وَحقَّ مَوالِيهِ، وَرَجُل كانَتْ لَهُ أَمةٌ فَأَدَّبها فَأَحْسَنَ تَأْدِيبَها، وَعلَّمها فَأَحْسَنَ تَعْلِيمَها، ثُمَّ أَعْتقَهَا فتَزَوَّجَهَا، فَلَهُ أَجْرَان » متفقٌ عَليهِ.

**1365.** Yenə ondan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Üç sinif insana ikiqat əcr verilir: Kitab əhlindən olub həm öz peyğəmbərinə, həm də Muhəmmədə iman gətirən kəs, həm Allahın, həm də sahibinin haqqını ödəyən kölə, kəniz sahibi olub ona gözəl tərbiyə verən, onu gözəl tərzdə öyrədən, daha sonra da onu azad edib onunla evlənən kəs ikiqat əcr qazanmış olur"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

**Şərh:**

Müəllifin رحمه الله qeyd etdiyi bu fəsil **"Kölə azad etməyin fəziləti"**ndən bəhs edir və bildirilir ki, hədislərə görə, kölə Allahın, sonra da sahibinin haqqını yerinə yetirərsə, ikiqat əcr qazanmış olur. Birinci əcr Allahın haqqını ödədiyinə görə, ikincisi isə sahibinin haqqını ödədiyinə görədir. Çünki Allahın onun üzərində haqqı vardır – namaz, oruc və malla bağlı olan digər ibadətlər kimi. Sahibinin onun üzərindəki haqqı isə *kölənin* ona xidmət etməsidir. Kölə bu iki haqqı ödəyərsə, ikiqat əcr qazanmış olar.

Sonuncu hədisdə isə Peyğəmbər ﷺ demişdir ki, üç sinif insana ikiqat əcr verilir:

Birinci sinif, Kitab əhlindən olana, yəni yəhudi və ya xaçpərəst olan kəsə. Əvvəl yəhudi və ya xaçpərəst olub sonradan Peyğəmbərə ﷺ iman gətirən kəs ikiqat əcr qazanmış olur – birinci savab öz peyğəmbərinə iman gətirdiyinə görə, ikincisi isə Muhəmmədə ﷺ iman gətirdiyinə görə.

Bilmək lazımdır ki, özünə Muhəmmədin ﷺ risaləsi haqqında xəbər çatdıqdan sonra ona iman gətirməyən kəsin *bütün yaxşı* əməlləri puç olur. Hətta öz dinlərinə görə yaxşı bildikləri əməllər belə batil olur və qəbul

[1] "Səhih əl-Buxari", 2365.
[2] "Səhih əl-Buxari", 95; "Səhih Muslim", 219.

olunmur. Uca Allah bu xüsusda buyurur: **"Kim İslamdan başqa bir din arayarsa,** ***bilsin ki, o din*** **ondan əsla qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar".**[1]

İkinci sinif, həm izzət və cəlal sahibi Allahın, həm də öz ağasının haqlarını ödəyən kölə.

Üçüncü sinif, kənizi olub, ona gözəl tərbiyə verən, onu gözəl şəkildə öyrədən, sonra da onu azad edib onunla evlənən kəs. Birinci savab həmin qadın kölə ikən ona etdiyi yaxşılıqlara görə, ikinci əcr isə onu azad edərək onunla evlənib onun iffətini qoruduğuna görə. Müvəffəq edən Allahdır.

[1] "Ali İmran" surəsi, 85.

# İki yüz otuz doqquzuncu fəsil

## Qarışıqlıq və fitnə zamanı ibadət

**Mövzu ilə əlaqəli hədis:**

١٣٦٦– عنْ مَعقِلِ بن يسارٍ، رضي الله عنه، قَالَ: قال رَسُولُ اللَّهِ ﷺ: « العِبَادَةُ في الهَرْجِ كهِجْرَةٍ إلَيَّ ». رواهُ مُسْلمٌ.

**1366.** Məqil ibn Yəsərdən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Çətin zamanlarda ibadət etmək mənim yanıma hicrət etmək kimidir”**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[1] “Səhih Muslim”, 5242.

# İki yüz qırxıncı fəsil

## Aliş-verişdə güzəşt etmək; götürmək və qaytarmaq; gözəl tərzdə qazilik etmək və hökm vermək; tərəzidə düz çəkmək və çəkidə aldatmamaq; imkanı olanın sıxıntıda olana möhlət və güzəşt etməsinin fəziləti

**Mövzu ilə əlaqəli ayələr:**

Uca Allah buyurur:

﴿ وَمَا تَفْعَلُوا مِنْ خَيْرٍ فَإِنَّ اللَّهَ بِهِ عَلِيمٌ ﴾

**“Siz nə yaxşılıq edirsinizsə, şübhəsiz ki, Allah onu bilir”.**[1]

﴿ وَيَا قَوْمِ أَوْفُوا الْمِكْيَالَ وَالْمِيزَانَ بِالْقِسْطِ ۖ وَلَا تَبْخَسُوا النَّاسَ أَشْيَاءَهُمْ وَلَا تَعْثَوْا فِي الْأَرْضِ مُفْسِدِينَ ﴾

**“Ey qövmüm, ölçüyə və çəkiyə ədalətlə tam riayət edin, insanların mallarını əksik verməyin və yer üzündə fəsad yaymaqla pis işlər görməyin!”**[2]

﴿ وَيْلٌ لِلْمُطَفِّفِينَ * الَّذِينَ إِذَا اكْتَالُوا عَلَى النَّاسِ يَسْتَوْفُونَ * وَإِذَا كَالُوهُمْ أَوْ وَزَنُوهُمْ يُخْسِرُونَ * أَلَا يَظُنُّ أُولَٰئِكَ أَنَّهُمْ مَبْعُوثُونَ * لِيَوْمٍ عَظِيمٍ * يَوْمَ يَقُومُ النَّاسُ لِرَبِّ الْعَالَمِينَ ﴾

**“Çəkidə və ölçüdə aldadanların vay halına! – o kəslərin ki, camaatdan *bir şey* aldıqda *onu* tam almaq istəyər, onlar üçün *bir şey* ölçdükdə və ya çəkdikdə isə *onları* ziyana salarlar. Onlar dirildiləcəkləri barədə fikirləşmirlərmi?! *Özü də* əzəmətli bir gündə. O gün ki, insanlar qalxıb aləmlərin Rəbbinin qarşısında duracaqlar”.**[3]

---

[1] “əl-Bəqərə” surəsi, 215.

[2] “Hud” surəsi, 85.

[3] “əl-Mutaffifin” surəsi, 1-6.

**Şərh:**

Müəllif ﵀ "**Aliş-verişdə güzəşt etmək; götürmək və qaytarmaq; gözəl tərzdə qazilik etmək və hökm vermək; tərəzidə düz çəkmək və çəkidə aldatmamaq; imkanı olanın sıxıntıda olana möhlət və güzəşt etməsinin fəziləti**" fəslini qeyd etmişdir.

Alış-veriş həyatın bir zərurətidir. Adəm övladı əksər hallarda onsuz keçinə bilmir. Çünki hər bir insanın başqasında olanlara ehtiyacı olur. Onu əldə etmək üçün nə etməldir? Əgər ona desə ki, bunu mənə hədiyyə et, bununla özünü alçaltmış olar. Ona istədiyini müvəqqəti versə, malından nigaran qalacaq, istədiyini ondan güclə alsa, zülm etmiş olacaq. İzzət və cəlal sahibi Allahın hikmətindəndir ki, alış-verişi buyurmuşdur. Ola bilsin ki, mənim dirhəmlərə ehtiyacım var və əlimdə olanı dirhəmlərə satıram. Sənin də məndə olan bir şeyə ehtiyacın var, gəlib onu dirhəmlə alırsan. Deməli, Adəm övladının ehtiyacları səbəbinə ticarət bir zərurətdir.

İnsanlardan elələri var ki, ədalətlə alıb-satır, ancaq elələri də var ki, zülmlə. Elə insanlar var ki, alış-veriş zamanı yaxşılıq edirlər. Bu yöndən insanlar üç cürdür:

Birincisi, ədalətlə satanlar. Yəni nə zülm edir, nə də ki, zülmə məruz qalır. Bu xüsusda Uca Allah sələm alıb-verənlər barəsində buyurur: **"Yox, əgər tövbə etsəniz, sərmayəniz sizindir. Nə siz zülm edərsiniz, nə də sizə zülm olunar".**[1]

İkincisi, zülm və haqsızlıqla alış-veriş edənlər. Yalançılar və fırıldaqçılar da bunlara aiddir.

Üçüncüsü, fəzilət və ehsanla alış-veriş edənlər. Görürsən ki, beləsi alış-veriş zamanı güzəştə gedir, satdıqda malın tam qiymətini almır, qiyməti aşağı salır, pulu ödəməyə möhlət verir, malın üstünə qiymət artırmaq barədə düşünmür, pulunu tez verir və yaxşılıq edir.

Müəllif ﵀ alış-veriş zamanı güzəşt etməyə bəzi ayələri dəlil gətirmişdir. Həmin ayələrin birində Uca Allah buyurur: **"Siz nə yaxşılıq edirsinizsə, şübhəsiz ki, Allah onu bilir".**[2] Buradakı "yaxşılıq" sözü qeyri-müəyyən şərt olduğu üçün bütün xeyirlərə şamil olunur – hansı yöndən

---

[1] "əl-Bəqərə" surəsi, 279.
[2] "əl-Bəqərə" surəsi, 215.

olursa-olsun. Ayədəki "xeyir" sözü də "min" ( مِنْ ) ədatı ilə təkidlənmişdir. Yəni hansı xeyir işi etsəniz, Allah onu bilir, heç bir əməl izzət və cəlal sahibi Allahdan gizli qalmır. O, sizin etdiyinizdən daha yaxşısı ilə sizi mükafatlandıracaqdır. Çünki Allah hər bir savabın əvəzini on qatdan yeddi yüz qatadək, yaxud daha çox verir.

Ayədə məqsəd yaxşı işlərə təşviq etməkdir. Yaxşılıq edən kəs bilməlidir ki, etdiyi əməllər əvəzsiz qalmayacaq – Allah onu bilir. İzzət və cəlal sahibi Allah onun əvəzini ən gözəl şəkildə verəcək. Həmin xeyirli işlərdən biri də alış-veriş zamanı güzəşt etməkdir. Peyğəmbər ﷺ ticarət zamanı güzəşt edənlər üçün dua etmiş və demişdir: **"Satdıqda və ya aldıqda, habelə hökm verdikdə güzəşt edən adama Allah rəhm edər".**[1]

İnsan alış-verişdə, icarəyə/kirayəyə verdikdə, girov qoyduqda/götürdükdə və başqa bu kimi məsələlərdə nə qədər güzəşt edərsə, onun üçün daha yaxşıdır. Uca Allah Şüeybin öz qövmünə belə dediyini buyurmuşdur: **"Ey qövmüm, ölçüyə və çəkiyə ədalətlə tam riayət edin, insanların mallarını əksik verməyin və yer üzündə fəsad yaymaqla pis işlər görməyin!"**[2]

Ölçüdə, yəni ölçü ilə satdıqlarınızda; tərəzidə, yəni çəki ilə satdıqlarınızda. Ona vəfa edin və ondan heç bir şey əksiltməyin. Bu da dəlildir ki, əhdlərə vəfa etmək keçmiş və gələcək şəriətlərdə buyurulmuşdur.

Uca Allah buyurur: **"Çəkidə və ölçüdə aldadanların vay halına! – o kəslərin ki, camaatdan *bir şey* aldıqda *onu* tam almaq istəyər, onlar üçün *bir şey* ölçdükdə və ya çəkdikdə isə *onları* ziyana salarlar".**[3]

**"Vay halına"**, cəza vədidir. İzzət və cəlal sahibi Allah camaatdan bir şey aldıqda onu tam alan, onlar üçün bir şey ölçdükdə və ya çəkdikdə isə çəkidə və ölçüdə aldatmaqla onları ziyana salanlara əzab vəd edir. Deməli, onlar iki yöndən zülm etmiş olurlar: özləri üçün çəkildikdə ədalət tələb edir, insanlar üçün çəkdikdə isə azaldırlar. Beləsinə "mutaffif" deyilir.

Bu ayələr çəki və ölçü barəsində nazil olsa da, başqa hallara da şamil olunur. Belə ki, məsələn, öz əmək haqqını tam olaraq tələb edən işçi və ya

---

[1] "Səhih əl-Buxari", 1934.

[2] "Hud" surəsi, 85.

[3] "əl-Mutaffifin" surəsi, 1-3.

əməkdaş davamlı olaraq işə gecikir, yaxud işdən tez gedirsə, o da Allahın cəza vəd etdiyi "mutaffif"lərdən hesab olunur. Çünki çəkidə insanları aldadan kəslə bilərəkdən işə gec gələn, yaxud bilərəkdən işdən tez gedən işçi arasında heç bir fərq yoxdur. Beləsi də mutaffifdir – o öz işində aldatmış olur. Əgər onun maaşını on min rialdan bir rial əksik versən, etiraz edər ki, nə üçün maaşımı kəsirsən. Ona görə də beləsi bu ayələrdə bildirilən mutaffiflərdən sayılır: **"Çəkidə və ölçüdə aldadanların vay halına! – o kəslərin ki, camaatdan *bir şey* aldıqda *onu* tam almaq istəyər, onlar üçün *bir şey* ölçdükdə və ya çəkdikdə isə *onları* ziyana salarlar".**

Sonra Uca Allah onların əməllərini qınayaraq buyurur: **"Onlar dirildiləcəkləri barədə fikirləşmirlərmi?! *Özü də* əzəmətli bir gündə".** Yəni onlar haqq-hesab gününün olacağını unudublarmı? Onlar yaxın zamanda baş verəcək Qiyamət gününün olacağını unudublar.

Bu dünyada insanın daha bir an belə yaşayacağına zəmanət yoxdur. İnsan hətta nahar və ya şam yeməyi yeyərkən, yaxud yatdığı yerdə, iş yerində, ehtiyacını ödəməyə getdikdə və ya oradan qayıtdıqda ölə bilər. Sonra əzəmətli gün gəlir: **"Onlar dirildiləcəkləri barədə fikirləşmirlərmi?! *Özü də* əzəmətli bir gündə".**

İzzət və cəlal sahibi Allah bunu böyük bir iş sayır və bəyan edir ki, bu əzəmətli bir gündür. Bütün insanlar aləmlərin Rəbbinin hüzuruna qalxacaq, dünyanın hər yerindəki insanların hamısı bir yerə toplanacaqlar. Çağıranlar eşidiləcək, baxanlar onu görəcək. Çünki o zaman yer üzü kürə formasında deyil ki, bir-birilərini görə bilməsinlər, düz şəkildə olacaq. Yer üzü hamar bir səth olacaq. Onlardan kimsə burada danışsa, oradakılar onu eşidəcəklər. Dünyada isə belə deyil. Bu dünyada yer kürəvi formadadır. Axirətdə isə yer üzü bir səth kimi olacaq. Uca Allah bu xüsusda buyurur: **"Yer dümdüz ediləcəyi, içindəkilərini kənara atıb boşalacağı zaman".** Dəri dartılıb uzandığı kimi, yer üzü də uzanacaq.

Bu əzəmətli gündə insanlar izzət və cəlal sahibi Allahın hüzurunda hesab verməkdən ötrü və cəzalandırılmaq üçün duracaqlar. Həmin günün müddəti isə əlli min il uzunluğundadır. Günəş həmin vaxt bir mil qədər yaxın olacaq. Kölgələnmək üçün nə bir ağac olacaq, nə də bir bina. Allahın kölgələndirdiyi kəslərdən başqa heç kim kölgələnə bilməyəcək. Allahdan diləyirəm ki, bizləri və sizi həmin kəslərdən etsin.

Bu əzəmətli gündə çəkidə və ölçüdə aldadanlar da öz cəzalarına çatacaqlar. Həmin vaxt nə övlad fayda verəcək, nə ata, nə ana, nə həyat yoldaşı, nə də heç kim – hər kəs həmin gün öz hayında olacaq. Odur ki, çəkidə və ölçüdə aldadan kəslər bundan həzər etsinlər, izzət və cəlal sahibi Allahdan qorxsunlar və haqqı tam ödəsinlər. Artıq versələr bu daha əfzəldir. Onlar da öz haqlarını tam şəkildə ala da bilərlər, bağışlaya da bilərlər ki, bu daha əfzəldir. Müvəffəq edən Allahdır.

١٣٦٧– وعَنْ أبي هُريرة، ﷺ، أَنَّ رجُلاً أتى النبي ﷺ يتَقاضاهُ فَأَغْلَظَ لَهُ، فَهَمَّ بِهِ أَصْحابُهُ، فَقَالَ رسُولُ اللَّهِ ﷺ: « دعُوهُ فَإِنَّ لِصَاحِبِ الحَقِّ مقَالاً » ثُمَّ قَالَ: « أَعْطُوه سِنًّا مِثْلَ سِنِّهِ » قالوا: يا رسولَ اللَّهِ لا نَجِدُ إلاَّ أَمْثَل مِنْ سِنِهِ، قال: « أَعْطُوهُ فَإِنَّ خَيْرَكُم أَحْسنُكُمْ قَضَاءً » متفقٌ عليه.

**1367.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, bir kişi Peyğəmbərin ﷺ yanına gəlib ondan pulunu alarkən kobudluq etdi. Səhabələr onun üzərinə hücum çəkmək istədilər, lakin Rəsulullah ﷺ dedi: **“Onu rahat buraxın, həqiqətən haqq sahibinin sözü var”**. Sonra dedi: **“Ona dişinə bənzər diş verin”**. Dedilər: “Ey Allahın rəsulu, onun dişindən daha yaxşısını tapa bilərik”. **Dedi: “Verin ona, daha gözəl şəkildə ödəyəniniz daha xeyirli olanınızdır”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٣٦٨– وعَنْ جابرٍ، ﷺ، أن رَسُولَ اللَّهِ ﷺ قَالَ: « رَحِم اللَّه رجُلا سَمْحاً إذا بَاع، وَإِذا اشْتَرى، وَإِذا اقْتَضىَ ». رواه البخاريُّ.

**1368.** Cabirdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Aldıqda və satdıqda, habelə borc qaytardıqda güzəşt edən adama Allah rəhm edər”.**

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

---

[1] “Səhih əl-Buxari”, 2215; “Səhih Muslim”, 3003.
[2] “Səhih əl-Buxari”, 1934.

١٣٦٩– وعَنْ أبي قَتَادَةَ، رضي الله عنه، قَالَ: سمِعْتُ رسُول اللَّهِ ﷺ يقُولُ: «مَنْ سَرَّهُ أَنْ يُنَجِّيَهُ اللَّه مِنْ كُرَبِ يَوْمِ القِيَامَةِ، فَلْيُنَفِّسْ عَنْ مُعْسِرٍ أَوْ يَضَعْ عَنْهُ» رواهُ مسلمٌ.

**1369.** Rəvayət olunur ki, Əbu Qatədə ﷺ demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: **"Kim istəyirsə ki, Uca Allah onu Qiyamət gününün kədərindən xilas etsin, çətinlikdə olan kəsə yardım etsin"**».

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllifin ﷺ qeyd etdiyi bu hədislər "Alış-verişdə güzəşt etmək..." fəslindəndir. Müəllifin bu fəsildə qeyd etdiyi ayələr barəsində artıq söhbət açmışıq.

Hədislərə gəlincə isə, onlardan birində Əbu Hureyradan ﷺ rəvayət olunur ki, bir dəfə bir kişi gəlib Rəsulullahdan ﷺ öz haqqını istəyir. Yəni istəyir ki, Rəsulullah ﷺ onun haqqını versin. Belə ki, Rəsulullah ondan kiçik bir dəvə icarəyə götürmüşdü. Sahibi də gəlib onu istəyir və deyir ki, dəvəmi geri ver. Bədəvilər də sərt olurlar. O, Rəsulullaha ﷺ sözünü sərt şəkildə deyir, səhabələr də ona hücum çəkmək istəyirlər. Yəni istəyirlər ki, onu vurub susdursunlar. Peyğəmbər isə buyurur ki: **"Onu rahat buraxın, həqiqətən haqq sahibinin sözü var".** Allahın ona salavatı və salamı olsun.

Nə düşünürsünüz, günümüzdə bir bədəvi gəlib bir əsgərlə kobud danışsa, həmin adam ona nə edər? – Ona qarşı kobud davranar. Yaxud əmirlərdən, qazilərdən, nazirlərdən birindən haqqını tələb etsə necə? – Yumşaq şəkildə də olsa, onun payını verərlər. Yalnız Allahın dilədiyi kəslər istisnadır. Bu isə Muhəmmədə qarşı kobudluq edir, ancaq o buyurur ki: **"Onu rahat buraxın, həqiqətən də haqq sahibinin sözü var".**

Buradan görürük ki, bir insanın başqası üzərində haqqı varsa, adam da gəlib haqqını tələb edərsə, haqq sahibi onunla sərt danışa bilər. Çünki o, haqq sahibidir. Heç şübhəsiz, Peyğəmbər ﷺ onun haqqını ödəyəcəkdi. Lakin ola bilsin, həmin vaxt onun haqqı ödəməyə imkanı yox idi. Ona görə də əmr edir ki, onun əvəzinə borcu ödənsin. İnsanlar da deyirlər ki,

---

[1] "Səhih Muslim", 2923.

biz ondan daha yaxşısını tapa bilərik. Başqa bir rəvayətdə isə onlar deyirlər ki, onlar daha yaşlı və gözəlini tapa bilərlər. Həmin dəvə qaytarılmalı olandan daha yaxşı idi. Çünki "bikr" dəvəsi kiçik olur, "rubəiyyə" isə böyük olur və yük daşıya bilir. Peyğəmbər ﷺ də həmin dəvənin ona verilməsini əmr edir və buyurur ki: "**Daha gözəl şəkildə ödəyəniniz daha xeyirli olanınızdır".** Yəni haqqını tələb edənlə ən gözəl tərzdə davrananınız borcu ən gözəl şəkildə ödəyəninizdir.

Gərək insan borc ödəmə və haqq sahibi ilə davranış məsələsində Peyğəmbəri ﷺ özünə örnək götürsün – onunla kobud rəftar etməsin, söyüş və təhqirlərə yol verməsin, onunla yumşaq davransın. Çünki o, haqq sahibidir. Götürülən borcu da daha gözəl tərzdə ödəmək lazımdır. Bu həm keyfiyyət baxımından, həm də kəmiyyət baxımından daha çox olmalıdır. Məsələn, birindən yüz rial borc götürürsən, qaytardıqda qeyd-şərtsiz yüz on rial qaytarırsan. Bunda bir qəbahət yoxdur. Bu, borcu gözəl tərzdə ödəməkdir. Yaxud əgər birindən borca bir sa miqdarında nə əla, nə də ucuz keyfiyyətli olmayan, orta keyfiyyətli yeyəcək götürsən, sonra da borcunu qaytaran zaman əla növlə qaytarmağın da borcu gözəl şəkildə qaytarmağa aiddir. İnsanların da ən xeyirlisi borclarını gözəl tərzdə qaytaranlardır.

Cabirin رضي الله عنه hədisində isə Peyğəmbər ﷺ demişdir: **"Aldıqda və satdıqda, habelə borc qaytardıqda güzəşt edən adama Allah rəhm edər".**

Peyğəmbərin ﷺ **"... güzəşt edən adama Allah rəhm edər"** sözü dua mənasında olan bir xəbərdir. Yəni Peyğəmbər ﷺ Allahın bu dörd məqamda güzəşt edənlərə rəhm etməsi üçün dua edir.

**"Satdıqda güzəşt edən"**, yəni müştəriyə güzəşt edən və onun üçün asanlaşdıran.

**"Borc qaytardıqda güzəşt edən",** yəni vaxtında borcunu ödəyən və ödənişi uzatmayan adama.

Həmçinin **"aldıqda güzəşt edən"** və **"haqqını aldıqda güzəşt edən",** yəni haqlarını aldıqda güzəşt edən.

İnsan gərək bu dörd halda güzəşt etsin ki, Rəsulullahın duasına nail olsun. Digər hədislər barəsində daha sonra söhbət açacağıq.

١٣٧٠– وعنْ أبي هُريرةَ، رضي الله عنه، أنَّ رَسُول اللَّهِ ﷺ قَالَ: « كَانَ رجلٌ يُداينُ النَّاسَ، وَكَان يَقُولُ لِفَتَاهُ: إذا أَتَيْتَ مُعْسِراً فَتَجاوزْ عَنْهُ، لَعلَّ اللَّه أنْ يَتجاوزَ عنَّا فَلَقِي اللَّه فَتَجاوَزَ عنْهُ » متفقٌ عَليهِ.

**1370.** Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Bir adam başqalarına borc verər, sonra öz xidmətçisinə deyərdi ki, görsən ki, adamın imkanı yoxdur, ona güzəşt et. Ola bilsin, Allah da bizlərə güzəşt edə. Həmin adam Allahla görüşdükdə Allah ona güzəşt etdi".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٣٧١– وعَنْ أبي مسْعُودٍ البدْرِيِّ، رضي الله عنه، قَالَ: قَالَ رَسُولُ اللَّه ﷺ: «حُوسب رَجُلٌ مِمَّنْ كَانَ قبلكم فَلَمْ يُوجدْ لَهُ مِنَ الخَيْرِ شَيْءٌ، إلاَّ أَنَّهُ كَان يُخَالِطُ النَّاس، وَكَانَ مُوسِراً، وَكَانَ يأْمُرُ غِلْمَانَه أن يَتَجَاوَزُوا عن المُعْسِر. قال اللَّه، عزَّ وجَلَّ: « نَحْنُ أحقُّ بِذَلكَ مِنْهُ، تَجاوَزُوا عَنْهُ » رواه مسلمٌ.

**1371.** Əbu Məsud əl-Bədridən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: «**Sizdən əvvəlkilərdən bir kişi hesaba çəkilir, özünün də heç bir xeyir əməli olmur. O, sadəcə insanlara qaynayıb-qarışan imkanlı birisi idi. Xidmətçisinə əmr edərdi ki, imkansız adamlara güzəşt eləsin. İzzət və cəlal sahibi Allah da buyurdu: "Biz buna ondan daha layiqik, ona güzəşt edin"».**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٣٧٢– وعنْ حُذَيْفَةَ، رضي الله عنه، قَالَ: أُتِى اللَّه تَعالى بِعَبْد من عِبَادِهِ آتاهُ اللَّه مَالاً، فَقَالَ لَهُ: ماذَا عمِلْتَ في الدُّنْيَا؟ قَالَ: وَلا يَكْتُمُونَ اللَّه حديثاً قَال: يَاربِّ آتَيْتَنِي مالَكَ فَكُنْتُ أُبايِعُ النَّاسَ، وَكانَ مِنْ خُلُقي الجوازُ، فكُنْتُ أَتيَسرُ عَلى المُوسِرِ، وأُنْظِرُ المُعْسِر. فَقَالَ اللَّه تَعَالى: « أَنَا أَحقُّ بذا مِنْكَ، تجاوزُوا عَنْ عبْدِي » فقال عُقْبَةُ بنُ عامرٍ، وأَبو مَسْعُودٍ الأنصاريُّ، رضي الله عنهما: هكذا سَمِعْنَاهُ مِنْ في رَسولِ اللَّهِ ﷺ. رواهُ مسلمٌ.

---

[1] "Səhih əl-Buxari", 3221; "Səhih Muslim", 2922.

[2] "Səhih Muslim", 2921.

**1372.** Rəvayət olunur ki, Huzeyfə ﵁ demişdir: «Uca Allahın qarşısına dövlətli birisi gətiriləcək və ondan soruşulacaq: "Dünyada ikən nə etdin?" Deyəcək (Bu zaman Allahdan heç bir sözü gizlətməyəcəklər): "Ey Rəbbim, Sən mənə mal-dövlət verdin, mən də insanlara borc verir, həm də onlara güzəşt edirdim – adətən imkanı olanlardan alar, çətinlikdə olanlara isə möhlət verərdim". Uca Allah buyuracaq: "Mən buna səndən daha çox haqlıyam, quluma güzəşt edin". Bu yerdə Uqbə ibn Amir və Əbu Məsud əl-Ənsari ﵄ dedilər: "Biz bunu Rəsulullahın ﷺ ağzından eşitmişik"».

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Bu üç hədis də alış-veriş zamanı güzəşt etmək barəsindədir. Burada insanları əfv etmək və onları bağışlamağın fəzilətindən söhbət gedir.

Əbu Hureyradan ﵁ rəvayət olunan birinci hədisdə Peyğəmbər ﷺ demişdir: **"bir nəfər insanlara borc verirdi".** Yəni insanlara borc təqdim edirdi. Borc deyildikdə, bizim zamanımızda anladığımız borc nəzərdə tutulur. Yəni malı götürüb sataraq pulundan faydalanmaq.

**Borc.** İnsanın boynuna düşən hər bir şey borcdur. Məsələn, birinə avtomobil satmısan, o isə onun pulunu sənə verməyib. Bu onun boynundakı borcdur. Yaxud kirayə ev götürmüsən, vaxtı yetişdikdə pulunu verməsən, bu sənin boynunda borc sayılır. Mühüm olan odur ki, borc insanların nağd müamələ etməsinə deyilmir. Yəni nağd olmadan alıb-satmaqdır.

Bəziləri çətinlikdə olanları əfv edir: "**sonra öz xidmətçisinə deyərdi ki, görsən ki, adamın imkanı yoxdur, ona güzəşt et. Ola bilsin, Allah da bizlərə güzəşt edə".** Xidmətçisi də bunu edirdi. Həmin adam izzət və cəlal sahibi Allahla görüşdükdə O onu insanlara verdiyi mükafatla mükafatlandırır. Yəni bu adam insanlarla müamələ etdiyi kimi, izzət və cəlal sahibi Allah da onunla elə davranır, ona güzəşt edir. Çünki: **"İnsan öz qardaşına yardım etdiyi müddətdə Allah da onun yardım edər".**[2] Çünki mükafat insanın əməlinə uyğun olur. Əbu Hureyradan nəql olunmuş bu hədis və sonrakı iki hədis çətinlikdə olanlara güzəşt etməyin fəzilətinə dəlildir.

---

[1] "Səhih Muslim", 2920.
[2] "Səhih Muslim", 4867.

Bil ki, bu güzəşt sənin malını azaltmayacaq. Çünki Peyğəmbər ﷺ: **“Sədəqə malı azaltmır”**– demişdir.[1] Əksinə, bu sənin malına bərəkət və xeyir verib onu artırar.

Çətinlikdə olana möhlət vermək vacibdir. Birinin çətinlikdə olduğunu görən kəs gərək ona möhlət versin, onu sıxışdırmasın və ondan borcu tələb etməsin. Uca Allah buyurur: **“Əgər *borclu olan kəs borcu qaytarmağa* qadir deyilsə, vəziyyəti düzələnə qədər *ona* möhlət verin”.**[2]

Borclu olanın borcunu silməklə ona möhlət vermək arasında fərq vardır. Möhlət vermək vacibdir, borcu silmək isə Sünnədir. Şəkk yoxdur ki, borcu silmək daha əfzəldir. Çünki borc silindikdə həmin adam borcdan birdəfəlik azad olur. Möhlət verildikdə isə borcu olan kəs yenə borclu qalır, sadəcə borc sahibi ondan borcunu ödəyə bilənədək borc tələb etmir.

Bəzi insanlar – Allah qorusun – kasıb adamlara borc verir, sonra da onlara əziyyət verib onlardan borcu tələb edirlər, əmr sahiblərinə onlardan şikayət edib, onları həbs etdirir, onları ailələrindən, övladlarından və mallarından uzaqlaşdırırlar. Şübhəsiz ki, bu cür əməllər yolverilməzdir.

Gərək qazilər həmin adamın kasıb durumda olduqlarını bildikdə borc verənə desinlər ki, pulu indi tələb etməyə haqqın yoxdur. Çünki hakim olan Allahdır və qulları arasında hökmü O verir. Uca Allah da buyurur ki: **“Əgər *borclu olan kəs borcu qaytarmağa* qadir deyilsə, vəziyyəti düzələnə qədər *ona* möhlət verin”.** Lakin bəzi qazilər bu məsələnin təfsilatına vararaq deyirlər ki, borc götürənlərin bəziləri insanlara hiylə gəlir – aldıqları pulu xərcləyir, sonra da çətinlikdə olduqlarını deyirlər. Ona görə də belələrinə qarşı bu cür tədbir görürlər: əgər borc alan kəs çətin vəziyyətdə olduğunu iddia edirsə, lakin əslində belə deyilsə, o zaman onu borcunu qaytarmağa məcbur etmək, həbs etmək və cəzalandırmaq olar. Yenə borcu qaytarmırsa, o zaman hakim onun mülkündən istədiyini sataraq borcu qaytarmalıdır. Yox, əgər kiminsə həqiqətən də çətin durumda olduğunu bilsək, bu zaman borc sahibi ondan borcunu tələb etməməli, ona deməməlidir ki, borcu qaytar. Ondan *bir müddət* ümumiyyətlə üz döndərməlidir: **“vəziyyəti düzələnə qədər *ona* möhlət verin”.** Müvəffəq edən Allahdır.

---

[1] “Səhih Muslim”, 4689.

[2] “əl-Bəqərə” surəsi, 280.

١٣٧٣– وعنْ أبي هُريرَةَ، رضي الله عنه، قَالَ: قَالَ رسُولُ اللَّه صلى الله عليه وسلم: « من أَنْظَر مُعْسِراً أَوْ وَضَعَ لَهُ، أظلَّهُ اللَّه يَوْمَ القِيامَةِ تَحْتَ ظِلِّ عَرْشِهِ يَوْمَ لا ظِلَّ إلاَّ ظِلُّهُ ». رواهُ الترمذيُّ وقَال: حديثٌ حسنٌ صحيحٌ.

**1373.** Əbu Hureyradan (radıyallahu anhu) nəql olunan hədisdə Peyğəmbər (sallallahu aleyhi və səlləm) demişdir: **"Kim çətinlikdə olana güzəşt edərsə və ya onu bağışlayarsa, Qiyamət günü Onun kölgəsindən başqa heç bir kölgənin olmadığı bir gündə Allah onu Ərşinin kölgəsində kölgələndirəcəkdir".**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən səhih hədisdir" demişdir.[1]

١٣٧٤– وعَنْ جابرٍ، رضي الله عنه، أنَّ النبيَّ صلى الله عليه وسلم، اشْتَرى مِنْهُ بَعِيراً، فَوَزَنَ لَهُ، فَأَرْجَحَ. متفقٌ عليه.

**1374.** Cabirdən (radıyallahu anhu) rəvayət olunur ki, "Peyğəmbər (sallallahu aleyhi və səlləm) ondan bir dəvə almış, çəkmiş və haqqını daha artığı ilə vermişdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٣٧٥– وعنْ أبي صَفْوَان سُوَيْدِ بنِ قَيْس، رضي الله عنه، قَالَ: جَلبْتُ أَنَا ومَخْرمَةُ الْعبدِيُّ بَزًّا مِنْ هَجَر، فَجاءَنَا النَّبيُّ صلى الله عليه وسلم، فَسَاومنَا بسراويلَ، وَعِنْدِي وَزَّانٌ يزنُ بالأجْرِ، فَقَالَ النبي صلى الله عليه وسلم لِلْوَزَّانِ: « زِنْ وَأَرْجِحْ » رواهُ أبو داودَ، والترمذيُّ وقال: حديثٌ حسنٌ صحيحٌ.

**1375.** Əbu Safvan Suveyd ibn Qeysdən (radıyallahu anhu) rəvayət olunur ki, o demişdir: "Bir dəfə mən Məxramə əl-Əbdini çölə aparmışdım. Bu vaxt Peyğəmbər (sallallahu aleyhi və səlləm) bizim yanımıza gəlib bizdən alış-veriş etdi. Məndə də tərəzi var idi. Peyğəmbər (sallallahu aleyhi və səlləm) dedi: **"Tərəzidə çək və artıq et"**.

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən səhih hədisdir" demişdir.[3]

---

[1] "Musnəd İmam Əhməd", 3/427; "Sunən ət-Tirmizi", 1227.

[2] "Səhih əl-Buxari", 1955; "Səhih Muslim", 3000.

[3] "Musnəd İmam Əhməd", 4/352; "Sunən Əbu Davud", 2898; "Sunən ət-Tirmizi", 1226.

**Şərh:**

Bunlar "Alış-verişdə güzəşt etməyin fəziləti" fəslində zikr olunmuş hədislərin davamıdır. Bu mövzu ilə əlaqədar daha öncə də bir çox hədislər qeyd olunmuşdur. Müəllifin qeyd etdiyi hədislər çətinlikdə olana möhlət vermək və ya onu bağışlamaqla bağlıdır.

Möhlət verəni, yaxud bağışlayanı Uca Allah heç bir kölgənin olmayacağı bir gündə öz kölgəsində yerləşdirəcək.

Möhlət vermək, borclu imkan tapana qədər onu tərk etməkdir. Bu da daha öncə deyildiyi kimi, vacibdir. Beləsini bağışlamaq daha əfzəl və daha kamildir. Çünki onun borcunu bağışlamaqla, onu boynuna düşəndən azad etmiş olursan. Möhlət verdikdə isə ondan borcu tələb etmirsən, ancaq borc yenə onun boynunda borc olaraq qalmaqdadır.

Sonra tərəzidə artıq verməklə bağlı iki hədis qeyd olunur. Cabirdən nəql olunan hədisdə Peyğəmbər ﷺ tərəzidə çəkdirərək artığını vermişdi. Belə ki, onlar əvvəllər pulu ədədlə deyil, çəki ilə çəkirdilər. Onlar ədədlə də müamələ edirdilər, lakin bir çoxları çəki ilə çəkirdilər. Hədisdə də qeyd olunur ki: **"Beş sadan az miqdara zəkat düşmür"**. Peyğəmbər ﷺ də çəkərkən layiq olduğundan artığını verədi. Gərək insan borcunu qaytardıqda belə etsin. Borcunu tam versin. Artırarsa, daha yaxşı olar. Müvəffəq edən Allahdır.

# ELM KİTABI

## İki yüz qırx birinci fəsil

### Allah üçün elm öyrənməyin və öyrətməyin fəziləti

**Mövzu ilə əlaqəli ayələr:**

Uca Allah buyurur:

﴿ وَقُل رَّبِّ زِدْنِي عِلْمًا ﴾

**«“Ey Rəbbim, elmimi artır!”– de».**[1]

﴿ قُلْ هَلْ يَسْتَوِي الَّذِينَ يَعْلَمُونَ وَالَّذِينَ لَا يَعْلَمُونَ ﴾

**«De: “Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi?!”»**[2]

﴿ يَرْفَعِ اللَّهُ الَّذِينَ آمَنُوا مِنكُمْ وَالَّذِينَ أُوتُوا الْعِلْمَ دَرَجَاتٍ وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ ﴾

**“Allah da sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaltsın”.**[3]

﴿ إِنَّمَا يَخْشَى اللَّهَ مِنْ عِبَادِهِ الْعُلَمَاءُ ﴾

**“Həqiqətən də, Allahdan qulları arasında alimlər qorxar”.**[4]

**Şərh:**

Müəllif ﵀ “Salehlər bağçası” əsərinin bu yerində **“Elm kitabı”** açır və onu **“İzzət və cəlal sahibi Allah üçün elm öyrənməyin və öyrətməyin fəziləti”** fəsli ilə başlayır.

---

[1] “Ta ha” surəsi, 114.

[2] “əz-Zumər” surəsi, 9.

[3] “əl-Mücadələ” surəsi, 11.

[4] “Fatir” surəsi, 28.

Burada "elm" deyildikdə fəzilətinə, savabına dəlillər varid olmuş elm nəzərdə tutulur. Elm əhlinin məqamı da yüksəkdir, çünki onlar peyğəmbərlərin varisləridir. Bu da həm əqidə, həm də əməl baxımından şəriət elmidir – bu elmi öyrənən, öyrədən kəs təriflənir. Riyaziyyat, həndəsə və bu kimi digər elmlər bura aid deyil.

Elm almaq cihaddır, Allah yolunda cihad etməkdir. Allahın Kitabında bunlar bərabərdir. Cihad və İslamın digər məsələləri məhz onun üzərində qurulur. Çünki elmi olmayan kəs tələb olunan şəkildə əməl edə bilməz. Uca Allah buyurur: **"Möminlərin hamısı eyni vaxtda döyüşə çıxmamalıdır. Hər qəbilədən bir dəstə qalmalıdır ki, dini *dərindən* öyrənsinlər və öz camaatı döyüşdən geri qayıtdıqları zaman onları xəbərdar etsinlər. Bəlkə, onlar *pis işlərdən* çəkinələr".**[1] Yəni, qoy cihada möminlərdən hər qəbilədən bir dəstə qatılsın, digərləri isə oturub dini elm alsınlar, öz qövmləri cihaddan qayıtdıqdan sonra xəbərdar etsinlər ki, bəlkə pis işlərdən çəkinələr. Beləcə Uca Allah dini savad almağı cihada bərabər, hətta ondan da önəmli etmişdir. Çünki elm olmadan mücahid cihad edə bilməz, namaz qılan namazını qıla bilməz, zəkat verən zəkatını verə bilməz, oruc tutan orucunu tuta bilməz, həcc edən həccini edə bilməz, ümrə edən ümrəsini edə bilməz, yemək yeyən yeməyini edə bilməz, su içən suyunu içə bilməz, yatan yata bilməz, oyanan oyana bilməz. Elm hər bir işin əsasıdır. Buna görə də Peyğəmbər ﷺ: **"Allaha kimə xeyir nəsib etmək istəyərsə, onu dində fəqih edər"**– demişdir.[2]

Ox qabından ox çıxaran mücahidlə kitabların içərisindən elmi məsələləri üzə çıxaran elm tələbəsi arasında fərq yoxdur. Onların hər ikisi Allah yolunda cihad edir, hər ikisi Allahın şəriətini Onun qullarına çatdırmağa çalışır. Buna görə də müəllif "Cihad kitabı"ndan sonra "Elm kitabı"nı qeyd edir ki, onların bənzər olduğunu bəyan etsin. Hətta bəzi alimlərin savabı cihad edənlərdən də artıqdır. Bu məsələdə təfsilat vardır: elə insanlar vardır ki, onların cihad etməsi daha əfzəldir, elə insanlar da vardır ki, onların elm tələb etməsi daha əfzəldir. Əgər adam güclü-qüvvətli və şücaətlidirsə, elmdə isə zəifdirsə, hifzi və fəhmi güclü deyilsə, elm tələb etməkdə çətinlik çəkirsə, beləsi üçün deyirik ki, onun cihad etməsi daha

---

[1] "ət-Tövbə" surəsi, 122.

[2] "Səhih əl-Buxari", 69; "Səhih Muslim", 1037.

əfzəldir. Bunun əksi olduqda isə, yəni adam güclü deyilsə, ürəyi şücaətli deyilsə, özünün isə yaxşı hafizəsi, fəhmi və çalışqanlığı varsa, beləsinin elm tələb etməsi daha əfzəldir. Əgər birisində bu iki amil bərabər olarsa, elm əhli beləsi üçün elm tələb etməyi tərcih ediblər. Çünki əsas budur bütün insanlar ondan faydalana bilir. Həm onun zamanının diriləri, həm də sonra gələnlər ondan faydalana bilərlər. Peyğəmbər ﷺ bu xüsusda demişdir: **"İnsan öldükdə üç əməldən başqa bütün əməlləri kəsilir: davamlı sədəqə, faydalı elm, dua edən əməlisaleh övladın duası".**[1]

Bütün insanlar elmə möhtacdır – həm peyğəmbərlər, həm də başqaları. Hamısının elmə ehtiyacı var. Buna görə də Allah öz peyğəmbərinə belə əmr edir: **"Onun sənə nazil etdiyi vəhy tamamlanmayınca Quranı oxumağa tələsmə və: "Ey Rəbbim, elmimi artır!"– de".**[2]

Peyğəmbərlərin də elmə və elmi artırmağa ehtiyacları vardır. Onlar izzət və cəlal sahibi Allahdan diləyirlər ki, onların elmini artırsın. Elə isə adi insanların buna daha çox ehtiyacları var. İnsan da gərək Allaha hər zaman dua etsin ki, onun elmini artırsın. Lakin Allahdan elmini artırmasını dilədikdən sonra elm almaqdan üçün lazımi səbəbləri də götürməlidir. Yalnız "Rəbbim, elmimi artır!" deyə dua etməklə səbəbləri götürməmək nə hikmətdəndir, nə də ki, doğru əməldir. Beləsi "Allahım, mənə övlad nəsib et!" deyə dua edən, ancaq evlənməyən adama bənzəyir. Bəs övlad sənə haradan gəlsin? Allahdan bir şey dilədikdə gərək onun səbəbləri üçün də çalışasan. Çünki Allah hikmət sahibidir və tələb olunanları səbəblərilə birlikdə buyurmuşdur.

**«"Ey Rəbbim, elmimi artır!"– de»** ayəsi elmin fəzilətinə dəlildir. Allah öz Peyğəmbərinə "Ey Rəbbim, mal-dövlətimi artır!" deməsini əmr etmir, buyurur ki, "Ey Rəbbim, elmimi artır!" desin. Dünya haqqında isə buyurur ki: **"*Kafirlərdən* bəzisini sınamaq üçün onlara dünya həyatının bər-bəzəyi kimi verdiyimiz şeylərə gözünü dikmə. Rəbbinin verdiyi ruzi daha xeyirli və daha sürəklidir".**[3]

Uca Allahdan diləyirəm ki, bizlərə və sizə faydalı elm, yaxşı əməl, Allahın yoluna bəsirətlə dəvət etməyimizi nəsib etsin.

---

[1] "Səhih Muslim", 3084.
[2] "Ta ha" surəsi, 114.
[3] "Ta ha" surəsi, 131.

Uca Allah buyurur: «**De: "Heç bilənlərlə bilməyənlər eyni ola bilər-mi?!"**».[1] Digər bir ayədə O buyurur: **"Allah da sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaltsın".**[2]

**Şərh:**

Müəllif ﷺ Allah üçün elm öyrənmək və öyrətməyin fəzilətini qeyd edir. Daha öncə biz elm barədə danışdıq və bildirdik ki, savabı olan yaxşı elm izzət və cəlal sahibi Allahın şəriəti ilə bağlı elmdir. Buna vasitə olan sarf, nəhv kimi başqa elmlər də buna vasitədir. Alimlər demişlər ki: "Vasitələr də məqsədlərin hökmlərini daşıyır".

Şəriət elmi iki qismə bölünür:

**1) Fərdu ayn** olan elm – hər bir insanın onu öyrənməsi vacibdir.

**2) Fərdu kifayə** olan elm – bəzi insanlar onu öyrənsələr, digərlərinə bu fərz olmur.

İkinciyə əlavə olunan üçüncü bir qisim də vardır ki, bu da Sünnədir. Bəziləri onu öyrənsələr, digərləri üçün onu öyrənmək Sünnə sayılar.

**Fərdu ayn** olan qismə gəlincə, bu, hər bir insanın dində vacib buyurulan məsələləri, o cümlədən Allahın tövhidi, ona zidd olan məsələləri, onu pozan amilləri, gizli və aşkar şirki, şirkin kiçiyini və böyüyünü öyrənməsidir. Çünki bunlar hər kəs üçün fərzdir – hər kəs Uca Allahın tövhidini bilməli, Ona xas olan məsələlərdə Onu təkləşdirməldir.

Hər kəs namazı da bilməlidir. Çünki namaz hər kəsə fərz buyurulub və ağlı başında olan heç bir adamdan bu hökm düşmür. İnsan gərək namazı və ona aid olan təharət və digər məsələləri də öyrənsin ki, Allaha lazımi şəkildə ibadət edə bilsin.

Orucu da hər kəs öyrənməlidir. İnsan orucu nə cür tutacağını, orucu pozan amilləri və buna bənzər başqa işləri öyrənməlidir. Oruc tutan hər kəs bu barədə öyrənməlidir.

Zəkatı öyrənmək isə hər kəsə vacib deyil. Kimin mal-dövləti varsa, zəkat mallarını, nisab miqdarını, vacib olan miqdarı, zəkat verilə bilən kəslər və buna bənzər başqa məsələləri öyrənməlidir. Kasıb olan kəslərə

---

[1] "əz-Zumər" surəsi, 9.

[2] "əl-Mücadələ" surəsi, 11.

isə zəkat barədə elm almaq vacib deyil. Əgər adamın malı yoxdursa, ona zəkat barədə elm almağı nə üçün vacib etməliyik ki?

Həcc barədə öyrənmək də hər kəsə vacib deyil. Həcc etməyə imkanı olanlara bu barədə öyrənmələri vacibdir ki, həcci düzgün icra edə bilsinlər.

Əfsuslar olsun ki, bir çoxları dində onlara vacib olanları öyrənmir və çətinliklərlə üzləşmiş olurlar. Xüsusən də həcc məsələləri barəsində sual verənlər çoxdur. Bəzən onlar böyük qüsurlara yol verirlər. Çünki əməl etməmişdən öncə öyrənməyiblər.

Başqa bir misal ticarətdir. Ticarətin əhkamlarını öyrənmək hər kəsə vacib deyil. Lakin ticarət, alış-veriş etmək istəyənlər öyrənməlidirlər ki, hansı ticarət növlərini etmək olar, hansı ticarət növlərini etmək olmaz. Belə etsə, o öz işini dürüst görmüş olar. Başqa məsələlər də belədir.

Bəlli oldu ki, şəriət elmləri iki qismə bölünür: birincisi fərdu ayndır, ikincisi isə fərdu kifayə.

**Fərdu kifəyə** *müəyyən əməli* kifayət qədər insanın etməsindən sonra digərlərinə fərz olmamasıdır. Bir qisim insan Allahın şəriətini öyrənməlidir ki, Allah onunla öz qullarına bunları öyrətsin, insanlar da bundan faydalansınlar.

Elmdən daha şərəfli bir iş yoxdur. Buna Uca Allahın aşağıdakı ayəsi dəlalət edir: "**Onun sənə nazil etdiyi vəhy tamamlanmayınca Quranı oxumağa tələsmə və: "Ey Rəbbim, elmimi artır!"– de".**

İzzət və cəlal sahibi Allah öz elçisinə buyurur ki: **"Ey Rəbbim, elmimi artır!"**– desin. Rəsulullah elmini artırmağa ehtiyac duyurdu. Bu da elmin fəzilətinə dəlalət edir. Çünki O, elçisinə: "ey Rəbbim, mənim var-dövlətimi artır, mənim zövcələrimi, övladlarımı artır"– deməyi demir, buyurur ki: **"*Kafirlərdən* bəzisini sınamaq üçün onlara dünya həyatının bərbəzəyi kimi verdiyimiz şeylərə gözünü dikmə. Rəbbinin verdiyi ruzi daha xeyirli və daha süräklidir".**[1]

Elmin fəzilətinə dəlil Uca və Böyük Allahın bu ayəsidir: «**De: "Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi?!"**» Söz ümumidir və bütün insanları əhatə edir: «**De: "Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi?!"**»

---

[1] "Ta ha" surəsi, 131.

Cavab aydındır: bilənlərlə bilməyənlər eyni deyillər. Bu, insanın təbiəti və fitrəti ilə ziddiyyət təşkil edir. Bilən insanla bilməyən insan eyni ola bilməzlər. Lakin Uca və nöqsansız Allah bunu sual formasında buyurur ki, bunun mümkün olmadığı bəlli olsun. Yəni mənə elə birini göstərin ki, bilənlə bilməyənin eyni olduğunu desin. Mümkün deyil, hətta dünyavi məsələlərdə belə bilənlərlə bilməyənlər eyni ola bilməzlər.

Uca Allah buyurur: **"Allah da sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaltsın".**[1] Bu ayə elmin fəzilətinə dəlildir.

**"Ey iman gətirənlər! Sizə: "Məclislərdə yer verin!"– deyildikdə yer verin ki, Allah da sizə geniş yer versin. Habelə sizə: "Qalxın!"– deyildikdə qalxın"**, yəni qalxın, **"Allah da sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaltsın".** Məclis insanlarla dolu ikən birisi içəri daxil olduqda desələr ki, sıxlaşın, insanlar sıxlaşmalıdır.

**"Allah da sizə geniş yer versin".** Yəni işlərinizi avand edər. Siz bu daxil olana yer verdiyiniz üçün, Allah da sizə yardım edər. Çünki mükafat əmələ müvafiq olur. Kim qardaşı ilə nə cür davranarsa, Uca Allah da onunla o cür davranar. Çətinlikdə olana yardım etsən, Allah da sənə yardım edər. Mömin bir kəsi çətinlikdən qurtarsan, Allah səni Qiyamət gününün çətinliklərindən qurtarar. Kiməsə yardım etsən, Allah sənə yardım edər. Adam qardaşına yardım etdiyi müddətdə Allah da onun yardımçısı olar. Ona görə Uca Allah buyurur ki: **"Allah da sizə geniş yer versin. Habelə sizə: "Qalxın!"– deyildikdə qalxın".**

**"Ayağa qalxın"** deyildikdə qalxın. Bu da dəlildir ki, insanın öz yanındakılarına "qalxın" deməsində bir qəbahət yoxdur. Deyə bilər ki, "Allah sizə bərəkət versin, çıxın, işiniz qurtarıb". Bunun üçün utanmaq lazım deyil, həm də bununla insana narahatçılıq vermiş olmursan. İnsanlar oturduqda *qalxmağa da hazır olmalı* və yalnız "qalxın!" deyildikdə qalxmamalıdır.

Gərək insan bacardığı qədər insanların arasında xəfif otursun. Yalnız bilsə ki, dostu onun qalmasından məmnundur, bu zaman qala bilər. Əks halda, gərək insanlar arasında əsla uzun-uzadı oturmayasan. Çünki ola

[1] "əl-Mücadələ" surəsi, 11.

bilsin, insanların işi var, sadəcə onlar "qalx" deməyə utanırlar. Adam hətta "qalx!" desə belə, bunda bir qəbahət olmaz. Hətta izzət və cəlal sahibi Allah yeməkdən sonra Öz peyğəmbərinin yanında oturanlara buyurmuşdu ki: **"Lakin dəvət olunduqda girin və yemək yedikdən sonra bir-birinizlə söhbətə dalmadan dağılışın. Çünki bu *hərəkətiniz* Peyğəmbəri narahat edir və o sizdən utanır. Allah isə sözün açığını *sizə bəyan etməkdən* utanmır".**[1] Yəni yeməyinizi bitirdikdə çıxın, oturmayın. Çünki bu, Peyğəmbərə əziyyət verir, o isə sizdən utanır, Allah isə haqqı deməkdən utanmır. Sizə: «**"Qalxın!" – deyildiyi zaman qalxın».**

Buna bənzər başqa bir misal. Əgər kimsə sənin evinə daxil olmaq üçün izin istəyirsə, sən də qapını açıb desən ki, "geri dön, indi oturmaq zamanı deyil", bunda bir qəbahət olmaz. Uca Allah bu xüsusda buyurur: **"Sizə: "Qayıdın!"– deyilsə, qayıdın. Bu sizin üçün daha təmizdir".**[2]

Bəzi insanları qapıdan geri qaytardıqda qəzəblənir, Allah isə buyurur ki: **"Bu sizin üçün daha təmizdir".** Yaxşı olar ki, qayıdasınız. İzzət və cəlal sahibi Allah sizi təmizə çıxarır.

Uca Allah buyurur: **"Allah da sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaltsın".** İzzət və cəlal sahibi Allah bu dərəcələrin nə olduğunu müəyyənləşdirməyib. Çünki bu insanın malik olduğu elmə və imana görə fərqli olur. İman nə qədər çox olarsa, elm də onun kimi nə qədər çox olarsa, insan da ondan həm özü faydalanar, həm də başqalarını faydalandırarsa, dərəcələri daha çox olar, belə də artmaqda davam edər. İmanını gücləndir, bacardığın qədər elm almağı çoxalt. Uca Allah buyurur: **"Allah da sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaltsın".**

Allah məni və sizləri Öz zikri ilə yüksəltsin, bizləri Ona zikr və şükür etməyə, Ona gözəl şəkildə ibadət etməyə müvəffəq etsin.

Uca Allah buyurur: **"Həqiqətən də, Allahdan qulları arasında alimlər qorxar".**[3]

---

[1] "əl-Əhzab" surəsi, 53.

[2] "ən-Nur" surəsi, 28.

[3] "Fatir" surəsi, 28.

**Mövzu ilə əlaqəli hədislər:**

١٢٧٦– وعَنْ مُعاوِيةَ، ﷺ، قال: قَال رسُولُ اللَّهِ ﷺ: « مَنْ يُرِدِ الله بِهِ خيْراً يُفَقِّهْهُ فِي الدِّينِ » متفقٌ عليه.

**1376.** Rəvayət olunur ki, Müaviyə ﷺ demişdir: «Rəsulullah demişdir: **"Allah kimə xeyir nəsib etmək istəyərsə, onu dində fəqih edər"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

**Şərh:**

Hafiz ən-Nəvəvi ﷺ izzət və cəlal sahibi Allahın kitabından elmin fəzilətinə dair bəzi ayələri qeyd edir. "Allah üçün elm öyrənməyin və öyrətməyin fəziləti" fəslində keçən üç ayə barəsində artıq söhbət açmışıq.

Dördüncüsü isə Uca Allahın: **"Həqiqətən də, qulları arasında Allahdan alimlər qorxar"** ayəsidir.

"əl-xaşyə", təzimlə birlikdə olan qorxudur. Bu, qorxudan daha xüsusidir. Hər bir xaşyə qorxudur, lakin hər bir qorxu xaşyə deyil. Ona görə də insan şirdən qorxur, lakin ona təzim edərək qorxmur. İzzət və cəlal sahibi Allahdan isə insan təzim edərək qorxur. Uca Allah buyurur: **"Onlardan qorxmayın, Məndən qorxun".**[2]

Bəs həqiqi xaşyə əhli kimlərdir? – Həqiqi xaşyə əhli alimlərdir. Allah, Onun adları, sifətləri, feilləri, əhkamları barədə alim olanlar. O kəslər ki, izzət və cəlal sahibi Allahın qədər və şəriət baxımından hikmət və sirlərini bilirlər. Bilirlər ki, Uca və nöqsansız Allah hərtərəfli kamildir və Onun feillərində, hökmlərində naqislik yoxdur. Buna görə də izzət və cəlal sahibi Allahdan qorxurlar. Bu da elmin fəzilətinə dəlildir. Dəlildir ki, elm Allah qorxusunun olmasına səbəbdir. İnsan qorxmağa müvəffəq olarsa, günahlardan uzaqlaşar, günah etdikdə istiğfar edər və izzət və cəlal sahibi Allaha tövbə edər. Çünki o, Allahdan qorxur. Yəni Uca və nöqsansız olan Allahdan qorxur və Ona təzim edir.

---

[1] "Səhih əl-Buxari", 69; "Səhih Muslim", 1719.

[2] "əl-Bəqərə" surəsi, 150.

Sonra müəllif ﷺ mövzu ilə əlaqəli gətirdiyi hədislərin əvvəlində Müaviyə ibn Əbu Sufyandan ﷺ nəql olunmuş hədisi qeyd edir. Peyğəmbər ﷺ demişdir: **"Allah kimə xeyir nəsib etmək istəyərsə, onu dində fəqih edər"**.

Uca Allah öz qullarına dilədiyi qədər xeyir və şər əta edir. Lakin Onun hər bir istəyi xeyirdir. İstənilənlərdə isə xeyir də olur, şər də. Onun hər bir hökmü xeyirdir, verilmiş hökmlərdə isə xeyir də olur, şər də.

İnsanlar qaba bənzəyirlər. Allah bəzi insanların qəlbində xeyir olduğunu görür və onu müvəffəq edir, bəzilərinin də qəlbində şər olduğunu bilir və onu alçaldır. Allaha sığınırıq. Uca Allah buyurur: **"Onlar sapdıqda, Allah da onların qəlbini sapdırdı".**[1] Onlar sapmayınca qəlbləri də sapmamışdı. Özləri birinci sapdılar, pisliyi istədilər, beləliklə də xeyirə nail ola bilmədilər.

Qəlbində xeyir olduğunu bildikdə isə Allah insanı müvəffəq edir. Allah insanın qəlbində xeyir olduğunu bildikdə onu xeyirə müvəffəq edir. Ona xeyir istədikdə isə onu dində fəqih edir. Öz şəriətindən başqa insanlardan heç birinə vermədiyini bəxş edir. Bu da dəlildir ki, insan bacardığı qədər dində elmli olmağa həris olmalıdır. Çünki Allah bir xeyiri istədikdə ilk öncə onun səbəblərini hazırlayır. Elmli olmağın da səbəblərindən biri öyrənməyin, bu əzəmətli mərtəbəyə nail olmağa həris olmağındır ki, Allah da sənə xeyir istəsin. Odur ki, Allahın dinində fəqih olmağa çalış.

Dində fəqih olmaq təkcə elmli olmaq demək deyil, həm elmdir, həm də əməl. Buna görə də sələflər qarilərin çoxluğundan, fəqihlərin isə azlığından çəkindirərdilər. Abdullah ibn Məsud ﷺ demişdir: "Qariləriniz çoxalıb fəqihləriniz azalarsa, halınız necə olacaq?"

İnsan Allahın şəriətindən bir şey bildikdə, lakin buna əməl etmədikdə fəqih sayılmaz. Hətta fiqh elmindəki ən böyük kitabı əzbər bilsə və onu anlasa belə, ona əməl etməyincə, fəqih adlandırılmaz. Beləsinə qari deyilir. Fəqih isə bildiyinə əməl edənə deyilir. Birinci bilir, ikinci isə əməl edir. Buna görə də qövmü Şüeybə demişdi ki: **"Onlar dedilər: "Ey Şueyb, dediklərinin çoxunu anlamırıq. Biz səni aramızda zəif hesab edirik. Əgər qəbilən olmasaydı, səni daşqalaq edərdik. Sən bizim üçün heç də**

---

[1] "əs-Saff" surəsi, 5.

**böyük bir adam deyilsən".**[1] Çünki onlar qəlblərindəki şərə görə Allahın elmi ilə bağlı xeyirdən məhrum olmuşdular.

Odur ki, elm almağa, ona əməl etməyə həris ol ki, Allahın xeyir dilədiyi kəslərdən olasan. Uca Allahdan diləyirəm ki, məni və sizləri Allahın dinində fəqih olanlardan, əməl edənlərdən, öyrədənlərdən, fayda alıb-fayda verənlərdən etsin.

١٣٧٧– وعنْ ابنِ مسْعُودٍ، ﵁ ، قَال: قَال رسُولُ اللَّهِ ﷺ: « لا حَسَد إلاَّ في اثْنَتَيْنِ: رَجُلٌ آتَاهُ اللَّه مَالاً فَسلَّطهُ عَلى هلَكَتِهِ في الحَقِّ، ورَجُلٌ آتاهُ اللَّه الحِكْمَةَ فهُوَ يَقْضِي بِهَا، وَيُعَلِّمُهَا » مُتَّفَقٌ عَليهِ.

والمرادُ بالحسدِ الْغِبْطَةُ، وَهُوَ أنْ يتَمنَّى مثْلَهُ.

**1377.** İbn Məsuddan ﵁ rəvayət olunan hədisdə o demişdir: «Rəsulullah ﷺ demişdir: **"İki şeydən başqasına həsəd aparılmaz: Allah birinə mal-dövlət verib, o da onu haqqı ilə sərf edir; birinə də Allah hikmət verib, o da onunla hökm verir, onu öyrədir"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Burada "həsəd" deyildikdə qibtə nəzərdə tutulur ki, bu da onun bənzərini istəməyə deyilir.

**Şərh:**

Müəllif ﵀ "Uca Allah üçün elm öyrənməyin və öyrətməyin fəziləti" fəslində elmin fəziləti ilə bağlı hədisləri qeyd edir. Müaviyədən ﵁ nəql olunan **"Allah kimə xeyir nəsib etmək istəyərsə, onu dində fəqih edər"** hədisi daha öncə qeyd olundu.

Sonra İbn Məsuddan ﵁ nəql olunmuş hədisi qeyd edir: **"İki şeydən başqasına həsəd aparılmaz..."**.

"Həsəd" deyiləndə, böyük günahlardan biri olan haram həsəd başa düşülə bilər. Bu da Allahın birinə verdiyi nemətlərə nifrət etməkdir. Məsələn, birinin mal-dövləti var, sən də nifrətlə deyirsən ki, kaş ki, Allah ona bu qədər

[1] "Hud" surəsi, 91.
[2] "Səhih əl-Buxari", 71; "Səhih Muslim", 816.

verməsəydi. Yaxud başqasının elmi var, bunu istəmirsən, təmənna edirsən ki, kaş ki, Allah ona bunu verməsəydi. Yaxud da başqa birisinin əməlisaleh övladları var, sən də buna nifrət edirsən ki, kaş ki, Allah ona övlad verməsəydi və beləcə. Bu həsəd böyük günahlardandır. Bu həm də yəhudilərin xislətlərindəndir. Uca Allah onlar barəsində buyurur: "**Yoxsa onlar Allahın Öz lütfündən insanlara verdiyi şeyə görə onlara həsəd aparırlar?!"**[1]

O onlar barəsində belə də buyurur: **"Kitab əhlindən bir çoxu həqiqət özlərinə bəlli olduqdan sonra, içlərindəki həsəd üzündən sizi imanınızdan sonra kafirliyə qaytarmaq istərlər".**[2]

Həsədin ikinci növü isə qibtədir. Yəni Allah birisinə mal, elm, övlad, şöhrət və başqa bir şey verib, sən də ona qibtə edirsən. Allahın verdiyi nemətlərə görə insanlar bir-birilərinə qibtə edir, deyirlər ki, maşAllah, Allah filankəsə belə-belə nemət verib. Ancaq yalnız iki şeyə qibtə edilər və insanın qibtə etməli olduğu həqiqi şey ikidir.

Birincisi, elmdir. Yəni faydalı elm. Hədisdə də bu nəzərdə tutulur: **"birinə də Allah hikmət verib, o da onunla hökm verir, onu öyrədir**". Bu elmdir. Allah insana elm nəsib edir, o da insanlar arasında qazi olub-olmamasından asılı olmayaraq, onunla hökm verir. Həmçinin o, özlüyündə, habelə özü üçün də hökm verir, insanları öyrədir. Bu qibtə olunandır. Çünki elm ən faydalı şeydir, maldan da faydalıdır, insana yaxşı əməllərdən daha faydalıdır. Çünki o öldükdə insanlar onun elmindən faydalanır. Bunun da Qiyamət günü ona faydası olacaq – hər dəfə hansısa insan bundan faydalandıqda, ona savab yazılacaq.

Elmi nə qədər sərf etsən, xərcləsən, daha çox artar. Elmin ən güclü sabit olma səbəblərindən biri budur. Beləcə elm yadda da qalır. Sən başqasına öyrətdikdə, Allah da səni öyrədir. Başqasına öyrətdikdə elm sənin nəfsində sabit qalır. Lakin elm əhli deyilsənsə, kimisə öyrətməyə çalışma. Elə et ki, insanlar səndən faydalansın və insanlar arasında rüsvay olmayasan. Çünki elm əhli olmadan elm öyrətməyə qalxan kəs iki cür olur: ya bilmədən batil söz deyəcək, ya da ona verilən suala cavab verməkdə aciz qalacaq.

---

[1] "ən-Nisa" surəsi, 54.

[2] "əl-Bəqərə" surəsi, 109.

Elmi nə qədər sərf etsən, bir o qədər artar. Öyrənilməsi istisna olmaqla, elm üçün yorulmaq lazım deyil. Elmin mal-dövlət kimi seyflərə, mühasiblərə, hesablamalara və əziyyətə ehtiyacı yoxdur. Onun qorunan yeri, seyfi sənin qəlbindir. Harada olsan da o səninlədir. Onun üçün təlaş etmə, qorxma ki, onu oğurlayar və ya yandırarlar. Axı o sənin qəlbindədir.

Mühüm olan budur ki, elm islam və imandan sonra Allahın insana bəxş etdiyi ən əfzəl nemətdir. Ona görə də Peyğəmbər ﷺ: **"birinə də Allah hikmət verib, o da onunla hökm verir, onu öyrədir"**– buyurur**.**

Qibtə edilən ikinci şey isə: "**Allah birinə mal-dövlət verib, o da onu haqqı ilə sərf edir**". Yəni o, mal-dövlətini izzət və cəlal sahibi Allahın razı qaldığı əməllərə sərf edir. Onu harama, mənasız işlərə sərf etmir, Allahın razı qaldığı işlərə sərf edir. Allah onu haqqı ilə sərf etməyə müvəffəq edib. Beləsinə qibtə etmək olar. Biz çoxlu pulu olan, lakin paxıl olan, insanlara fayda verməyən kəsə qibtə etmərik. Beləsinin halına acıyır və deyirik ki, bu yazıq Qiyamət günü bu var-dövlətin hesabını necə verəcək? Pulu haradan qazanıb, hara sərf etməyinə, onunla nə cür davranmağına nə deyəcək? Yox, əgər görsək ki, birinə Allah mal-dövlət verib, o da öz malını Allahın razı qaldığı işlərə sərf edir, deyirik ki, maşAllah, buna qibtə etmək olar.

Biz o adama qibtə etmirik ki, Allah ona mal-dövlət bəxş edib, o da həmin malı qəsrlərə, bər-bəzəyə, bahalı avtomobillərə sərf edir. Beləsi üçün deyirik ki, o malını sərf edərkən həddi aşıbsa, israfçıdır, Allah isə israfçıları sevmir.

Biz o adama da qibtə etmirik ki, Allah ona mal-dövlət bəxş edib, o da həmin malı insanlar üçün nə dini, nə də dünyəvi cəhətdən faydalı olmayan işlərə sərf edir. Bəzi insanlar malını nə axirətinə, nə də dünyasına heç bir faydası olmayan oyunlara, mükafatlara sərf edir. Beləsinə qibtə etmirik, çünki o, malını haqqı ilə sərf etməyib. Əsl qibtə olunan kəs malını haqqı ilə sərf edəndir.

Biz o kəsə də qibtə etmirik ki, Allah ona mal-dövlət verib, o da imkan düşən kimi evlənir, başqalarında olmayan gözəl qadınları toplayır. Beləsinə də qibtə etmirik. Yalnız əgər o haqqı ilə malını sərf edərsə, ona qibtə edərik. Əgər o, bu əməli ilə öz iffətini qorumaq, Sünnəyə riayət etmək və nəsil artırmaq istəyərsə, bu, şəri bir məqsəddir və insan buna görə qibtə oluna bilər.

Bu, elmin fəziləti fəslinə aid olan hədisdə nəzərdə tutulan iki nəfərdən biridir: Allahın hikmət, yəni elm bəxş etdiyi kəs. O da həmin elmlə hökm verir, onu öyrədir. O, qeyd olunan bu iki adamdan daha xeyirli olandır. Yəni malını haqqı ilə sərf edən kəsdən daha xeyirlidir. Allahdan diləyirik ki, bizə və sizə faydalı elm və saleh əməl nəsib etsin.

١٣٧٨– وعَنْ أبي مُوسى، ﷺ، قال: قَالَ النبي ﷺ: « مَثَلُ مَا بعثَنِي اللَّه بِهِ مِنَ الهُدى والْعِلْمِ كَمَثَل غَيْثٍ أصاب أرْضاً، فَكَانَتْ مِنْهَا طَائفَةٌ طَيِّبَةٌ قَبِلَتِ المَاءَ فَأَنْبَتَتِ الْكَلأَ، وَالْعُشْب الْكَثِيرَ، وَكَانَ مِنْهَا أجَادِبُ أمسَكَتِ المَاءَ، فَنَفَعَ اللَّه بِهَا النَّاسَ، فَشَرِبُوا مِنْهَا وَسَقَوْا وزَرَعُوا، وأَصَاب طَائفَةً مِنْهَا أُخْرى إنَّما هِي قِيعانٌ، لا تمْسِكُ مَاءً، وتُنْبِتُ كَلأً، فَذلكَ مثَلُ منْ فَقُهَ فِي دِينِ اللَّهِ، وَنَفَعَهُ ما بَعَثَنِي اللَّه بِهِ فَعلِمَ وَعلَّمَ، وَمَثَلُ منْ لَمْ يَرْفَعْ بِذلكَ رأساً، وَلَمْ يَقْبَلْ هُدَى اللَّهِ الَّذي أُرْسِلْتُ بِهِ » متفقٌ عليه.

**1378.** Rəvayət olunur ki, Əbu Musa ﷺ demişdir: «Peyğəmbər ﷺ demişdir: **"Allahın mənə bəxş etdiyi hidayət və elmin misalı yerə düşən yağışa bənzəyir. Yerin bir hissəsi münbitdir və yağışla yerdən bitki və ot çıxar. Bəzi hissəsi münbit deyil və suyu özündə saxlayar. İnsanlar da ondan faydalanar – həmin sudan içər, suvarma və əkində istifadə edərlər. Yerin bir hissəsi isə suyu saxlamaz, münbit də olmaz. Allahın dinində elmi olanlar da belədir. Allahın mənə verdiyi elm ona fayda verər – adam onu öyrənər və öyrədər. Bunun üçün başını qaldırmayanın misalı isə mənə verilən Allahın hidayətini qəbul etməyənin misalı kimidir"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

**Şərh:**

Müəllif Hafiz ən-Nəvəvinin ﷺ zikr etdiyi bu hədis Uca Allah üçün elm öyrənmək və öyrətmək fəslindədir. Əbu Musa ﷺ Peyğəmbərdən ﷺ bədii və qəribə bir bənzətməni rəvayət etmişdir. Həmin hədisdə Peyğəmbər ﷺ özünə verilmiş elm və hidayəti yağışa bənzədir. Bənzətmə də odur ki, yağış yağanda yer dirildiyi kimi, vəhy ilə də qəlblər dirilir. Buna görə də Uca və nöqsansız Allah Muhəmmədə göndəriləni ruh adlandırır. O

---

[1] "Səhih əl-Buxari", 77; "Səhih Muslim", 4232.

belə buyurur: **"Biz sənə Öz əmrimizdən olan Ruhu (Quranı) vəhy etdik. Sən kitab nədir, iman nədir bilmirdin. Lakin Biz onu qullarımızdan istədiyimizi doğru yola yönəltmək üçün bir nur etdik. Həqiqətən, sən *onları* doğru yola yönəldirsən – göylərdə və yerdə olanların sahibi Allahın yoluna. Şübhəsiz ki, bütün işlər Allaha qayıdır".**[1]

Vəhy bir yağışdır, lakin həmin yağışın düşdüyü yer üç qisimdir:

**Birinci qisim** yağışı qəbul edir, onu içir və yerdən çoxlu ot və bitki çıxarır. İnsanlar da bundan faydalanır. Çünki yer bitkilər yetişdirib.

**İkinci qisim** bitki yetişdirmir, lakin suyu da içmir, toplayıb saxlayır. Insanlar həmin sudan içir, suvarma və əkində istifadə edirlər.

**Üçüncü qisim** isə nə bitki bitirir, nə də ki, suyu saxlayır. Bunun misalı Allahın dinində elmli olub öyrənən və öyrədənin məsəlinə bənzəyir. Bunun üçün başını qaldırmayanın da misalı belədir. Birinci və ikinci məsəl haqqı qəbul edib öyrənən və öyrədənə, faydalanıb fayda verənə aiddir. Lakin haqqı qəbul edənlər də iki növdür:

*Birinci növ*, Uca Allahın elm nəsib etdiyi, onun da fiqhi və şəri əhkamları Allahın kitabından və Rəsulullahın sünnəsindən götürməsi, lakin onu öyrətməməsidir.

*İkinci növ* rəvayət edir, lakin elmi yoxdur. Yəni hədisi danışır, rəvayət edir, onu əzbərləyir, lakin onun fiqhi yoxdur. Belələri çoxdur – fəqih olmayan o qədər hədis rəvayət edənlər var ki. Onlar sadəcə əzbərləyir, insanlar da onlardan öyrənirlər. Bu suyu götürüb insanlara paylayanlar isə fəqihlərdir. Onlar da iki qisimdir:

*Birinci qismi* şəriəti əzbərləyib dərk edir, anlayır, öyrədir, ondan bir çox əhkamlar çıxarır. Onların misalı su düşdükdə suyu içib bitki və ot bitirən yerə bənzəyir.

*İkinci qismi* isə sadəcə hədisləri nəql edirlər. Bunların da misalı yağış yağdıqda suyu içməyib saxlayan, insanların da həmin sudan faydalandığı, su içdiyi yerin misalı kimidir. Çünki insanlar bu hədis ravilərindən götürür, onlardan şəriət əhkamlarını çıxarır, digər insanlar da onlardan faydalanırlar.

---

[1] "əş-Şura" surəsi, 52-53.

Üçüncü qisim *insanlar* isə yağış yağdıqda həm bitki bitirməyən, həm də suyu saxlamayan yer misalındadır. Belələrində heç bir xeyir yoxdur. Onlar Allahın vəhyindən faydalanmamış, ona tərəf baş qaldırmamış kəslərdir. Onlar vəhyi təkzib edən və təkəbbürlük göstərənlərdir. Üç qismin ən pisi budur. Allah qorusun!

Sən də bax, gör bu üç yerdən hansındasan: suyu qəbul edib bitki bitirən yerdə, ikinci yerdə, yoxsa – Allah qorusun – üçüncü yerdəsən?

Hədis həm də Peyğəmbərin necə gözəl tərzdə öyrətməsini qabardır. Belə ki, o, ağlabatan və real misallarla mənanı çatdırırdı. Çünki real misalları dərk etmək, düşünməkdən daha asandır. Quranda buna bənzər çoxlu misallar vardır: **“Mallarını Allah yolunda xərcləyənlərin misalı yeddi sünbül verən bir toxumun misalına bənzəyir ki, sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi kimsənin *mükafatını* artırar. Allahın *lütfü* genişdir, *O hər şeyi* biləndir”.**[1]

Burada sanki belə deyilir: kim Allah yolunda bir dən xərcləyərsə, ona yeddi yüz dən verilər. Misallarla verilən məna beyində daha yaxşı həkk olunur. Çünki insanların düşündüyü misallar mənanı həkk etdirir. Uca Allah buyurur: **“Biz insanlar üçün belə məsəllər çəkirik. Bunları isə ancaq *həqiqəti* dərk edən adamlar anlayarlar”.**[2] Məsəl çəkilməsi zehinə anlatmaq, həkk etdirmək, başa düşməyə yardım etməkdən ötrüdür. Ona görə səni başa düşməyən avam insanla danışdıqda, gərək ona misallar da çəkəsən. Onun başa düşə biləcəyi, anlayacağı bir şeydən misal çəkirsən ki, mənaları real misallar vasitəsilə başa düşə bilsin. Müvəffəq edən Allahdır.

١٣٧٩– وعَنْ سَهْلِ بن سعدٍ، رضي الله عنه، أنَّ النبي ﷺ قَالَ لِعَليٍّ، رضي الله عنه: « فو اللَّهِ لأَنْ يهْدِيَ اللَّه بِكَ رجُلاً واحِداً خَيْرٌ لكَ من حُمْرِ النَّعم » متفقٌ عليهِ.

**1379.** Rəvayət olunur ki, Səhl ibn Səd رضي الله عنه demişdir: «Peyğəmbər ﷺ Əliyə belə demişdir: **“Allaha and olsun ki, Allah sənin vasitənlə bir adama hidayət verərsə, bu, sənin üçün qırmızı dəvələrdən daha xeyirli olar”.**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] “əl-Bəqərə” surəsi, 261.

[2] “əl-Ənkəbut” surəsi, 43.

[3] “Səhih əl-Buxari”, 2724; “Səhih Muslim”, 4423.

١٣٨٠– وعن عبدِ اللَّه بن عمرو بن العاص، رضي الله عنهما، أنَّ النبي ﷺ قال: «بلِّغُوا عَنِّي ولَوْ آيَةً، وحَدِّثُوا عنْ بني إسْرَائيل وَلا حَرجَ، ومنْ كَذَب علَيَّ مُتَعمِّداً فَلْيتبَوَّأْ مَقْعَدهُ من النَّار» رواه البخاري.

**1380.** Abdullah ibn Amr ibn əl-Asdan (radıyallahu anhuma) rəvayət olunur ki, Peyğəmbər demişdir: **"Mənim barəmdə bir ayə olsa belə, təbliğ edin. İsrail oğulları barəsində danışın, – bunda bir qəbahət yoxdur. Kim mənim adımdan qəsdən yalan danışarsa, Cəhənnəmdəki yerini hazırlasın"**.

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllif (rahimahullah) elmin fəzilətinin bəyanı barəsində Səhl ibn Sədin hədisini qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ Xeybər günü bayrağı Əli ibn Əbu Talibə (radıyallahu anhu) verərkən ona belə demişdir: **"Yavaş-yavaş get, sonra onları İslama dəvət et. Onlara Allahın haqqı olaraq vacib olanlar barədə xəbər ver. Allaha and olsun ki, Allah sənin vasitənlə bir adama hidayət verərsə, bu sənin üçün qırmızı dəvələrdən daha xeyirli olar".**

Peyğəmbər ﷺ and içir ki, əgər Allah bir adama onun vasitəsilə hidayət verərsə, bu onun üçün qırmızı dəvələrdən daha xeyirli olar.

[Hədisin ərəbcəsindəki] "humr" sözü sükunla ( حُمْر ) yazılır və qırmızı anlamındadır. "Uzunqulaq" sözünün cəmi isə dammə ilə "humur" ( حُمُر ) kimi yazılır. Bəzi tələbələr xətaya yol verib "humurin-niəm" kimi oxuyurlar. Bu səhvdir, "humur" uzunqulaq sözünün cəmidir. Uca Allah buyurur: **"Sanki ürküdülmüş *vəhşi* uzunqulaqlardır".**[2] "Humr" sözü isə sükunla yazılır və "həmra" və "əhmər" sözlərinin cəmidir. Bu hədisdə də "həmra" sözünün cəmi olaraq qırmızı dəvələr nəzərdə tutulur. Həmin vaxt ərəblərin ən bahalı miniyi qırmızı dəvələr idi.

**"Allah sənin vasitənlə bir adama hidayət verərsə, bu sənin üçün qırmızı dəvələrdən daha xeyirli olar"**. Bu həm də elmə, təhsilə, izzət və cəlal sahibi Allahın yoluna dəvətə bir təşviqdir. Çünki bilməyən insan

[1] "Səhih əl-Buxari", 3202.

[2] "əl-Muddəssir" surəsi, 50.

Allahın yoluna dəvət edə bilməz. İnsan Allahın şəriətindən bildiyini insanlara öyrədərsə, buna dəvət edərsə, bu, elmin fəzilətinə dəlil olar.

Sonra o, Abdullah ibn Amr ibn əl-Asın ﷺ öz atasından, onun da Peyğəmbərdən ﷺ nəql etdiyi hədisi qeyd edir: "**Mənim barəmdə bir ayə olsa belə, təbliğ edin**".

**"Mənim barəmdə... təbliğ edin"**. Yəni mənim dediklərim, etdiklərim, bütün sünnələrim barədə insanlara çatdırın.

"**Mənim barəmdə bir ayə olsa belə, təbliğ edin**". Allahın kitabından da çatdırın. [Hədisin ərəbcəsindəki] "ləu" ( لَوْ ) sözü azaltma mənasındadır. Yəni insan deməməlidir ki, mən nə isə təbliğ etmək üçün böyük alim olmalıyam. Xeyr, insan bir ayə öyrənmiş olsa belə, onu təbliğ etməlidir.

Təbliğ edən demək istədiyinin Peyğəmbərin ﷺ sözü olduğunu dəqiq öyrənməlidir. Bu səbəbdən hədisin sonunda: **"Kim mənim adımdan qəsdən yalan danışarsa, Cəhənnəmdəki yerini hazırlasın"**– demişdir.

Kim bilərəkdən Rəsulullahın ﷺ adından yalan danışarsa, Cəhənnəmdəki yerini hazır bilsin. Adətən "ləm" hərfi əmr mənasında olsa da, burada xəbər mənasındadır. Yəni Cəhənnəmdəki yerini hazırlayar. Allah qorusun! Yəni o, Cəhənnəm sakinlərindən olmağa haqlı olar. Çünki Peyğəmbərin ﷺ adından yalan danışmaq başqa insanların adından yalan danışmaq kimi deyil – Peyğəmbərin ﷺ adından yalan danışmaq, izzət və cəlal sahibi Allahın adından yalan danışmaq deməkdir. Bu həm də şəriətin adından yalan danışmaqdır. Çünki Rəsulullahın ﷺ xəbər verdiyi vəhy Allahın şəriətindəndir.

Həmçinin deyilir ki, alimin də adından yalan danışmaq adi adamın adından yalan danışmaq kimi deyil. Yəni, məsələn, deyirsən ki, filankəs belə-belə deyir. Yalandan deyirsən ki, filankəs dedi ki, bu haramdır, bu halaldır, bu vacibdir, bu sünnədir. Bu da adi inanların adından yalan danışmaqdan daha şiddətlidir. Çünki alimlər peyğəmbərlərin varisləridir. Onlar peyğəmbərlərin عليهم السلام irsini davam etdirərək Allahın şəriətlərini təbliğ edirlər. Onların adından bilərəkdən yalan danışıb desən ki, filan alim belə və belə dedi, bunun günahı olduqca böyükdür. Allah qorusun!

Bəziləri başqalarının ondan əl çəkməsini istədikdə deyirlər ki, filan alim belə deyib, deyib ki, bu haramdır. Özü də bunu yalandan deyir.

Yaxud deyir ki, filankəs deyir ki, bu vacibdir. Özü isə bunu yalandan deyir. Belə yalan da adi insanların adından yalan danışmaq kimi deyil.

Xülasə, kim Rəsulullahın ﷺ adından yalan danışarsa, Cəhənnəmdəki yerini hazırlamış olar. Kim onun adından yalandan hədis danışarsa, özü də bunun yalan olduğunu bilərsə, o, yalançıların biri hesab olunar. Yəni Cəhənnəmdəki yerini hazırlamış olar.

Rəğbətləndirmə və qorxutma ilə bağlı nə qədər çox hədislər vardır ki, onlar Peyğəmbərin ﷺ adından bir yalandır. Bəzi cahillər də onları kütləvi nəşrlə yayır və deyirlər ki, bununla biz insanlara moizə veririk. Axı yalan sözlə insanlara necə moizə verə bilərsiniz? Ona görə də məscidlərdə paylanılan və qapılardan asılan buna bənzər nəşrlərdən çəkinmək lazımdır. Bunlardan həzər etmək vacibdir. Çünki ola bilsin, onlarda yalan məlumatlar olsun, onu paylayanlar da bunu bilərəkdən etmiş olsalar, Cəhənnəm odundakı yerlərini hazırlamış olsunlar.

Abdullah ibn Amrın رضي الله عنه hədisində deyilir: "**İsrail oğulları barəsində danışın, – bunda bir qəbahət yoxdur**".

İsrail oğulları yəhudi və xaşpərəstlərdir. Onlar *özləri haqqında* bir söz söylədikdə onu danışmağında bir qəbahət yoxdur. Bir şərtlə ki, həmin sözün bizim şəriətimizə müxalif olub-olmadığını biləsən. Çünki İsrail oğullarında yalanlar da var. Onlar kəlmələri yerlərindən təhrif edir və yalan danışırlar. Onlar sənə bir xəbər versələr, onu bir şərtlə danışa bilərsən ki, həmin söz Rəsulullahın gətirdiyi şəriətə müxalif olmasın. Əgər müxalif olarsa, onu danışmaq icazəli deyil. Həmin sözün batil olduğunu bəyan etmək üçün isə danışmaq olar. Daha doğrusunu Allah bilir.

١٣٨١– وعنْ أبي هُريرةَ، رضي الله عنه، أنَّ رسُول اللَّه ﷺ، قالَ: «.... ومَنْ سلَك طرِيقاً يَلْتَمِسُ فِيهِ عِلْماً، سهَّلَ اللَّه لَهُ بِهِ طَرِيقاً إلى الجَنَّةِ» رواهُ مسلمٌ.

**1381.** Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"... Kim elm öyrənmək üçün bir yola çıxarsa, Allah onun Cənnətə yolunu asanlaşdırar"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

---

[1] "Səhih Muslim", 4867.

١٣٨٢– وَعَنهُ، أيضاً، رضي الله عنه أنَّ رَسُولَ اللَّه ﷺ قَالَ: « مَنْ دعا إلى هُدىً كانَ لهُ مِنَ الأجْرِ مِثلُ أُجورِ منْ تَبِعهُ لا ينْقُصُ ذلكَ من أُجُورِهِم شَيْئاً » رواهُ مسلمٌ.

**1382.** Yenə ondan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim hidayətə dəvət edərsə, ona tabe olanların savabı qədər ona da savab yazılar. Onun qazandığı savab onlarınkından az olmaz".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Bu hədislər elmin fəzilətinin bəyanı və xoş təsirləri ilə bağlıdır. Onlardan birincisində Əbu Hureyradan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim elm öyrənmək üçün bir yola çıxarsa, Allah onun Cənnətə yolunu asanlaşdırar".**

"Yol" deyildikdə ilk mənada ayaqla yeriyərkən qət olunan yol nəzərdə tutulur. Məsələn, adam evindən çıxır və elm məclisi olan yerə gedir. Fərq etməz, bu elm məkanı məsciddir, məktəbdir, yaxud universitet və ya başqa bir yer. Elm öyrənmək məqsədilə səfər etmək də bunun bənzəridir – insan bir ölkədən başqa bir ölkəyə elm tələb etmək məqsədilə səfər edir. Bununla o, elm almaq məqsədilə yola çıxmış sayılır. Peyğəmbərin ﷺ səhabəsi Cabir ibn Abdullah əl-Ənsari رضي الله عنه bir hədis üçün səfərində dəvə ilə bir aylıq məsafə qət etmişdi. O, şəhərləri, kəndləri gəzərək Abdullah ibn Uneysdən رضي الله عنه Peyğəmbərin ﷺ bir hədisini eşitmək üçün bu yola çıxmışdı.

İkinci mənası isə mənəvi yoldur. Bu da elmi alimlərin dilindən və kitablardan öyrənməkdir. Adam kitabları araşdıraraq şəri məsələlərin hökmünü axtararsa, kürsüsündə oturmuş olsa belə, elm tələb etmək məqsədilə yola çıxmış sayılır. Kim bir şeyxin yanında oturub elm öyrənərsə, elm məqsədilə yola çıxmış sayılar. Yola çıxmaq iki növdür:

Birinci növü ayaqla gedilən yoldur. İkincisi isə elmə çatmaq üçün yola çıxmaqdır və bu, oturaq vəziyyətdə də ola bilər. Kim belə bir yola çıxarsa, Allah onun Cənnətə daxil olması üçün yolunu asanlaşdırar. Çünki şəri

[1] "Səhih Muslim", 4831.

elm vasitəsilə Allahın nazil etdiklərinin hökmü anlaşılır – Allahın şəriəti bəlli olur, Allahın əmrləri və qadağaları bəlli olur. Bununla da izzət və cəlal sahibi Allahı razı salan və Cənnətə aparan yol görsənir. Elmə çatdıran yolda nə qədər həris olsan, Cənnətə aparan yolun asanlaşmasına da bir o qədər nail olarsan. Allahdan Onun fəzilətini diləyirik.

Hər kəsə bəllidir ki, bu hədis elm tələb etməyə rəğbətləndirir. İnsan, xüsusən də tez əzbərləyə bilən, əzbərlədiyini yadında saxlaya bilən gənc də bu fürsətdən istifadə etməli, vaxtının qədrini bilməli və məşğul olmamışdan öncə elm almağa tələsməlidir.

İkinci hədis də Əbu Hureyradan ﷺ nəql olunmuşdur. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kim hidayətə dəvət edərsə, ona tabe olanların"**, yəni Qiyamət gününədək, **"savabı qədər ona da savab yazılar. Onun qazandığı savab onlarınkından az olmaz".**

**"Kim hidayətə dəvət edərsə"**, yəni insanları öyrədərsə. Çünki hidayətə dəvət edən kəs insanları öyrədən, onları haqqa və doğru yola yönəldəndir. Beləsi həmin hidayətə tabe olanlar qədər savab qazanmış olur. Məsələn, birini öyrətdin ki, gərək vitr namazı qılsın, gecəsinin sonuncu namazını vitr etsin. Bu xüsusda Peyğəmbər ﷺ əmr edərək belə demişdir: **"Gecənizin son namazını vitr edin".**[1] Birisini vitr namazını qılmağa təşviq etsən və buna rəğbətləndirsən, adam da buna riayət edib sənin sözünə əsasən vitri qılarsa, onun qazandığı savabın mislini sən də qazanmış olarsan. Başqa birisi bunu səndən və ya sənin öyrətdiyin kəsdən öyrənib əməl etsə, sənə yenə onun savabı qədər savab yazılar. Bu hətta Qiyamət gününədək *həndəsi* silsilə şəklində davam edə bilər.

Bu həm də Peyğəmbərin ﷺ savabının nə qədər çox olmasına dəlalət edir. Belə ki, öz ümmətini xeyirə o yönəltmişdir. Bu ümmətdən kim də onun hidayətinə əməl edərsə, onların savabı qədər peyğəmbərə də savab yazılır. Onun əldə etdiyi savab insanların qazandığı savabdan az olmur. Beləcə, dəvət edənlə əməl edən eyni savabı qazanır.

Bəlli olduqda ki, Peyğəmbər ﷺ, ümmətindən onun dediklərinə əməl edənlərin savabının mislini qazanır, bu zaman ibadətin savabını Peyğəmbərə hədiyyə edənlərin əməlinin səhv olduğu aydın olur. Yəni, məsələn,

---

[1] "Səhih əl-Buxari", 943; "Səhih Muslim", 1245.

bəzi insanlar öz ictihadı ilə iki rükət namaz qılır və deyir ki, Allahım, bunun savabını Rəsulullaha yaz. Yaxud Quran oxuyub deyir ki, Allahım, bunun savabını Peyğəmbərə yaz. Bu səhvdir. İlk dəfə bu, hicrətin dördüncü əsrində baş vermişdir. Yəni Rəsulullahın vəfatından üç yüz il sonra. Bəzi alimlər bunun yaxşı əməl olduğunu demiş və bildirmişdilər ki, mən necə öz atamın, anamın əvəzinə sədəqə verə, namaz qıla və zikr edə bilərəmsə, onları Rəsulullaha da hədiyyə edə bilərəm. Biz deyirik ki, bu, səhvdir. Bu, səfehlik və dində zəlalətdən başqa bir şey deyil.

Bunun səhv olduğunu ona bəyan etmək üçün ondan soruşuruq ki, sən Peyğəmbəri ﷺ Əbu Bəkrdən çoxmu sevirsən? Deyəcək ki, xeyr. Bəs Ömərdən necə, çoxmu sevirsən? Xeyr. Osmandan, Əlidən çoxmu sevirsən? Xeyr. İbn Abbasdan, İbn Məsuddan və digər səhabələrdən çoxmu sevirsən? Xeyr. Onlardan kimsə etdiyi əməlin savabını Peyğəmbərə göndəribmi? Əsla! Tabiinlər və imamlar da bunu etməyib. Allah onlara rəhmət eləsin! İmam Əhməd ibn Hənbəl, Şafii, Malik, Əbu Hənifə də belə etməyiblər. Onların etmədiyi və bilmədiyi bir işi sən necə edirsən? Kimsən sən? Bu, təsəvvürdə olan bir xətadan, dində olan bir zəlalətdən başqa bir şey deyil. Çünki etdiyin hər bir əməlin savabının mislini sən deməsən belə, Rəsulullah da qazanır. Hər bir əməldən! Məsələn, iki rükət namaz qılsan, sən də onun savab qazanırsan, Rəsulullah da. Onun qazandığı savab səninkindən az olmur. O zaman belə etməyin nə faydası var? Sənin bunu Rəsulullaha hədiyyə etməyinlə sən ona yaxınlaşmış olursan? Sən sadəcə özünü əcrdən məhrum etmiş olursan. Rəsulullah sən hədiyyə etsən də, etməsən də sənin əməlinin savabının mislini qazanır. Çünki Rəsulullah demişdir: **"Kim hidayətə dəvət edərsə, ona tabe olanların savabı qədər ona da savab yazılar. Onun qazandığı savab onlarınkından az olmaz".** Odur ki, belə etməyinə ehtiyac yoxdur.

Deməli, bu hədisdən elmin fəzilətini öyrənmiş oluruq. Çünki elmlə hidayətə dəlalət edirsən, təqvaya təşviq edirsən. Odur ki, elm mal-dövlətdən daha əfzəldir. İnsan hətta böyük məbləğdə sədəqələr versə belə, elm və elmi yaymaq bundan daha əfzəldir.

Sizə bir misal çəkim. Əbu Hureyranın zamanında xəlifələr dünyaya hakim olmuşdular. İmam Əhmədin dönəmində zənginlər böyük sərvətlərə sahib olmuş, böyük sədəqələr və vəqflər vermişdilər. Onlardan sonrakı

dövrlərdə də, məsələn, Şeyxülislam İbn Teymiyyənin və İbn Qeyyimin zamanında zəngin insanlar sədəqələr vermiş, mallarını paylamış, vəqf etmişdilər. Bəs həmin mal-dövlət indi haradadır? Onların xərclədikləri, vəqf etdikləri hara getdi? Çıxıb getdi və indi ondan heç bir əsər-əlamət yoxdur. Əbu Hureyranın hədisləri isə hər gecə-gündüz, hər gün oxunmaqdadır və ona bundan savab qazanılır. Alimlərin də elmləri və fiqhləri yayıldıqca, onlara da bundan savab yazılır. Şeyxulislam İbn Teymiyyə, İbn Qeyyim və başqa alimlərə də həmçinin – onlar çoxdan ölüblər, lakin hələ də diri kimi xatırlanırlar. Onlar qəbirdə belə hələ də insanları öyrədir, qəbirdə belə savab qazanırlar. Bu da ona dəlalət edir ki, elm mal-dövlətdən daha fəzilətli və insan üçün daha faydalıdır. Müvəffəq edən Allahdır.

١٣٨٣– وعنْهُ قال: قَالَ رسُولُ اللَّه ﷺ: « إذا ماتَ ابْنُ آدَم انْقَطَع عَملُهُ إلاَّ مِنْ ثَلاثٍ: صَدقَةٍ جارِية، أوْ عِلمٍ يُنْتَفَعُ بِهِ، أوْ وَلدٍ صالحٍ يدْعُو لَهُ » رواهُ مسلمٌ.

**1383.** Yenə Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Adəm övladı öldükdə onun üç əməli istisna olmaqla, bütün əməlləri dayanır: davamlı sədəqə, faydalı elm, onun üçün dua edən saleh övlad"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllif ﵀ "Allah üçün elm öyrənməyin və öyrətməyin fəziləti" fəslində Əbu Hureyradan ﵁ nəql olunmuş hədisi qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Adəm övladı öldükdə onun üç əməli istisna olmaqla, bütün əməlləri dayanır: davamlı sədəqə, faydalı elm, onun üçün dua edən saleh övlad"**.

Bu hədis insanı yaxşı işlər görməyi üçün tələsməyə sövq edir. Çünki o, ölümün onu nə zaman yaxalayacağından bixəbərdir. Yaxşı əməllər etmək fürsəti kəsilməmişdən öncə insan tələsməlidir ki, Uca Allahın yanında savaba nail olsun.

---

[1] "Səhih Muslim", 3084.

Məlum məsələdir ki, bizlər nə zaman öləcəyimizdən xəbərsizik, heç harada öləcəyimizi də bilmirik. Uca Allah buyurur: **“Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz”.**[1]

Belə olduğu halda ağıllı insan fürsətləri fövtə verməməli, ömrünün fürsətlərini ölüm gəlməmişdən öncə izzət və cəlal sahibi Allaha itaətə yönəltməlidir. İnsan tövbə etməyə macal tapmadan öncə ölüm gələ bilər. “Əməli dayanar” sözü insanın etdiyi bütün əməllərə şamildir. Öldükdə isə artıq əməl savabı əldə etmir. Çünki o, cəza və mükafat diyarına köçmüş olur. Əməl diyarı isə bu dünyadadır. Bundan sonrakı bütün mərhələlər cəza və mükafat mərhələləridir. Yalnız üç əməl istisnadır:

**“Davamlı sədəqə”** onların birincisidir. Yəni insan bir şey sədəqə verir və bu sədəqə davam edir. Bunun da ən üstünü məscidlərdir. Məscid inşa etdirmək davamlı sədəqədir. Çünki onu inşa etdirənin əcri davamlı olur. Həmin məscid qaldığı müddətdə gecə-gündüz ona savab gəlir. Müsəlmanlar məscidlərdə namaz qılır, Quran oxuyur, elm öyrənir, onu öyrədir və başqa xeyirli işlər görürlər.

İnsanın öz evini, bostanını və ya başqa bir mülkünü kasıblara, yoxsullara, elm tələbələrinə və Allah yolunda cihad edənlərə vəqf etməsi də davamlı sədəqədir.

Davamlı sədəqənin bir növü də insanın müsəlmanlar üçün faydalı olan kitabları nəşr etdirməsidir. O kitablar ki, onlar onu oxuyur və ondan faydalanırlar – həmin kitablar istər müasir müəlliflərin olsun, istərsə də qədim müəlliflərin. Mühüm olan odur ki, həmin kitablar faydalı olsun və müsəlmanlar ondan faydalansınlar.

Davamlı sədəqənin daha bir növü yolları düzəltməkdir. İnsan yolu düzəltdikdə, yoldakı əziyyəti aradan qaldırdıqda, insanlar ondan istifadə etdikləri müddətdə bu onun üçün davamlı sədəqə sayılır. Ümumiyyətlə, davamlı sədəqənin qaydası belədir: insan öldükdən sonra davam edən hər bir yaxşı əməl davamlı sədəqə sayılır.

**“Faydalı elm”,** davam edən əməllərdən ikincisidir. Bu daha ümumi, daha əhatəli və daha faydalı olanıdır. İnsan özündən sonra elm qoyub gedir, müsəlmanlar da ondan faydalanırlar – ondan sonrakılar bunu istər

[1] “Loğman” surəsi, 34.

şifahi yolla əldə etsinlər, istərsə də yazılı şəkildə. Kitab yazmaq, insanları öyrətmək və insanlara bu məlumatları çatdırmaq davamlı olduğu müddətdə müəllimin, *yaxud müəllifin* əcri sabit olur. Çünki insanlar onun miras qoyduğu bu elmdən faydalanırlar.

*Davam edən əməllərin* üçüncüsü **"Onun üçün dua edən əməlisaleh övlad"**dır. Övlad deyildikdə bu həm oğlana aiddir, həm də ki, qıza. Yəni həm oğluna aiddir, həm də qızına. Bu həm sənin belindən çıxan oğluna və ya qızına da aiddir, həm də oğlunun və ya qızının övladlarına və başqalarına. İnsan öldükdən sonra əməlisaleh övladı onun üçün dua edir, insan da buna görə savab qazanır.

Diqqət et, gör Rəsulullah ﷺ nə deyib: **"Onun üçün dua edən əməlisaleh övlad"**. Deməyib ki, onun üçün namaz qılan, Quran oxuyan, sədəqə verən, oruc tutan əməlisaleh övlad, xeyr, belə deməyib. Baxmayaraq ki, bunların hamısı yaxşı əməllərdir, o ﷺ: **"Onun üçün dua edən əməlisaleh övlad"**– deyib. Bu da dəlildir ki, adamın öz atası, anası, babası, nənəsi üçün dua etməsi onların yerinə sədəqə verməsindən daha əfzəldir. Bu, onların əvəzinə namaz qılmaqdan, oruc tutmaqdan da daha əfzəldir. Çünki Peyğəmbərin ﷺ öz ümmətini xeyirli olduğunu bilmədiyi bir işə istiqamətləndirməsi qeyri-mümkündür. Allahın göndərdiyi bütün peyğəmbərlər öz ümmətlərini onlar üçün xeyirli bildikləri işlərə yönəldiblər. Rəsulullah ﷺ sənin öz atanın və ya ananın yerinə sədəqə verməyinin dua etməyindən daha xeyirli bilsəydi, sədəqə verməyi buyurar, "dua edin"– deyə buyurmazdı. Əməl olaraq sədəqə, namaz, oruc, Quran oxumağı buyurmadığı üçün yəqinliklə bilirik ki, dua bunlardan daha üstündür.

Kimsə bizdən soruşsa ki, "Hansı daha əfzəldir: atamın yerinə sədəqə verim, yoxsa onun üçün dua edim?", biz deyirik: "Dua etmək daha əfzəldir, çünki Rəsulullah ﷺ bizə belə buyurub: **"Onun üçün dua edən əməlisaleh övlad".**

Qəribəsi də budur ki, avamlar və onlara bənzəyənlər elə düşünürlər ki, adam öz atasının yerinə sədəqə versə, yaxud onun yerinə bir gün oruc tutsa, və ya atasının yerinə bir qədər Quran oxusa, yaxud da başqa işlər görsə, bu, dua etməkdən daha əfzəldir. Bunun da səbəbi cahillikdir. Əgər adam dəlilləri oxuyub düşünsə, biləcək ki, dua etmək daha əfzəldir. Ona görə də Peyğəmbər ﷺ heç bir hədisdə insanın öz valideyninin əvəzinə

hansısa yaxşı əməli etməsini əmr etməyib. İmam Malik demişdir: "Müəyyən hallar olub ki, səhabə Peyğəmbərdən: "atası və ya anası öldükdən sonra onların yerinə sədəqə verə bilərmi?" deyə soruşub, o da buyurub ki: "Bəli, edə bilərsən". Ancaq o, öz ümmətini buna təşviq etməyib. Sadəcə müəyyən hallarda bu barədə soruşulduqda belə deyib. Bir dəfə Səd ibn Ubadə ؓ ondan soruşur ki, anası öldükdən sonra o, öz bostanını onun adından sədəqə verə bilərmi? Rəsulullah ﷺ da buyurur ki, bəli. Başqa bir vaxtda da bir kişi onun yanına gəlib soruşur ki, "Ey Allahın elçisi, anam qəflətən vəfat edib, mən onun yerinə sədəqə verə bilərəmmi?" O da: "Bəli"– dedi. Lakin ümmətinə ümumi bir şəriət buyurduqda demişdir ki: **"Onun üçün dua edən əməlisaleh övlad".**

Allahdan diləyirik ki, bizləri və sizi, o cümlədən valideynlərimizi və bütün müsəlmanları bağışlasın.

١٣٨٤– وَعنْهُ قَالَ : سمِعْتُ رسُول اللَّه ﷺ يَقُولُ: « الدُّنْيَا ملْعُونَةٌ، ملْعُونٌ ما فِيهَا، إلاَّ ذِكرَ اللَّه تَعَالى، وما والاَهُ، وعَالمِاً، أوْ مُتَعلِّماً » رواهُ الترمذيُّ وقال: حديثٌ حسنٌ.

قولهُ « وَمَا وَالاهُ » أي: طاعةُ اللِّه.

**1384.** Yenə Əbu Hureyradan ؓ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Dünya və onun içərisindəkilər lənətlənib. Yalnız Uca Allahı zikr etmək, buna aid işlər, elm öyrənən və öyrədən kəs istisnadır".**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişdir.[1]

"Buna aid işlər", yəni Allaha itaət.

١٣٨٥– وَعَنْ أنسٍ، ؓ قالَ: قَالَ رَسُولُ اللَّهِ، ﷺ: « مَن خرَجَ فِي طَلَبِ العِلمِ، فهو فِي سَبيلِ اللَّهِ حتى يرجِعَ » رواهُ التِرْمِذيُّ وقال: حديثٌ حَسنٌ .

**1385.** Ənəsdən ؓ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim elm tələb etmək üçün çıxarsa, qayıdanadək Allah yolunda sayılar".**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişdir.[2]

---

[1] "Sunən ət-Tirmizi", 2322.
[2] "Sunən ət-Tirmizi", 2647.

١٣٨٦– وعَنْ أبي سَعيدٍ الخدْرِيِّ، ﷺ، عَنْ رسُولِ اللَّه ﷺ قال: « لَنْ يَشبَع مُؤمِنٌ مِنْ خَيْرٍ حتى يكون مُنْتَهَاهُ الجَنَّةَ ». رواهُ الترمذيُّ، وقَالَ: حديثٌ حسنٌ.

**1386.** Əbu Səid əl-Xudridən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Mömin olan kəs Cənnətə daxil olanadək xeyirli işlərdən doymaz"**.

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişdir.[1]

١٣٨٧– وعَنْ أبي أُمَامة، ﷺ، أنَّ رَسُول اللَّه ﷺ قال: « فضْلُ الْعالِم على الْعابِدِ كَفَضْلي على أَدْنَاكُمْ » ثُمَّ قال: رسُولُ اللَّهِ ﷺ: « إنَّ اللَّه وملائِكَتَهُ وأَهْلَ السَّمواتِ والأرضِ حتَّى النَّمْلَةَ في جُحْرِهَا وحتى الحُوتَ لَيُصَلُّونَ عَلى مُعلِّمِي النَّاسِ الخَيْرْ» رواهُ الترمذي وقال: حَديثٌ حَسنٌ.

**1387.** Əbu Uməmədən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Alimin abid üzərindəki fəziləti mənim sizlərdən biriniz üzərindəki fəziləti kimidir".** Sonra Rəsulullah ﷺ dedi: **"Şübhəsiz ki, Allah, Onun mələkləri, səma və yer əhli, hətta yuvasında olan qarışqa və balıq da insanlara xeyirli işlər öyrədənlərə salam deyir"**.

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişdir.[2]

١٣٨٨– وَعَنْ أبي الدَّرْداءِ، ﷺ، قَال: سمِعْتُ رَسُول اللَّهِ ﷺ، يقولُ: « منْ سلك طَريقاً يَبْتَغِي فِيهِ علْماً سهَّل اللَّه لَه طَريقاً إلى الجنةِ، وَإنَّ الملائِكَةَ لَتَضَعُ أجْنِحَتَهَا لِطالب الْعِلْمِ رِضاً بِما يَصْنَعُ، وَإنَّ الْعالِم لَيَسْتَغْفِرُ لَهُ منْ في السَّمَواتِ ومنْ في الأرْضِ حتَّى الحِيتانُ في الماءِ، وفَضْلُ الْعَالِم على الْعابِدِ كَفَضْلِ الْقَمر عَلى سائر الْكَوَاكِبِ، وإنَّ الْعُلَماءَ وَرَثَةُ الأنْبِياءِ وإنَّ الأنْبِياءَ لَمْ يُورِّثُوا دِيناراً وَلا دِرْهَماً وإنَّما ورَّثُوا الْعِلْمَ، فَمنْ أَخَذَهُ أَخَذَ بِحظٍّ وَافِرٍ ». رواهُ أبو داود والترمذيُّ.

**1388.** Rəvayət olunur ki, Əbu Dərda ﷺ demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Kim elm almaq məqsədilə yola çıxarsa, Allah onun Cənnətə olan yolunu asanlaşdırar. Şübhəsiz ki, mələklər**

[1] "Sunən ət-Tirmizi", 2686.
[2] "Sunən ət-Tirmizi", 2685.

**onun əməlindən razı olaraq öz qanadlarını elm tələbəsi üçün sərirlər. Həqiqətən, alim üçün göydə, yerdə olan hər kəs, hətta sudakı balıqlar belə bağışlanma diləyirlər. Alimin abid üzərindəki üstünlüyü, ayın digər ulduzlar üzərindəki üstünlüyü kimidir. Şübhəsiz ki, alimlər peyğəmbərlərin varisləridir. Peyğəmbərlər isə dinar və ya dirhəm miras qoymayıblar. Onların mirası qoyduqları elmdir – onu götürənlər böyük bir xeyir əldə edərlər"**».

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmişlər.[1]

**Şərh:**

Müəllif ﷫ Uca Allah üçün elm öyrənmək və öyrətmək fəslində Əbu Dərdanın ﷜ hədisini qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kim elm almaq məqsədilə yola çıxarsa, Allah onun Cənnətə olan yolunu asanlaşdırar".**

Bu cümlənin mənasının bəyanı barədə daha öncə söhbət açmışdıq. Bu xüsusda Əbu Dərdadan nəql olunmuş başqa bir hədis də var. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Şübhəsiz ki, alimə göydə və yerdə olan hər kəs, hətta sudakı balıqlar belə bağışlanma diləyir".**

Bu, elmin fəzilətinə dəlalət edir. Alim üçün göydə və yerdə olan hər kəs, hətta sudakı balıqlar, qurudakı həşəratlar belə bağışlanma diləyir. Hər bir şey onun üçün bağışlanma diləyir. Bütün bu heyvanların izzət və cəlal sahibi Allahdan alim üçün bağışlanma diləməsinə təəccüblənmə. Uca və nöqsansız Allah Qurani-Kərimdə belə buyurur: **"Rəbbimiz hər şeyə öz xilqətini verən, sonra da *ona* doğru yolu göstərəndir!"**[2]

Heyvanlar və həşəratlar öz Rəbbini tanıyır: **"Yeddi göy, yer və onlarda olanlar Ona tariflər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız".**[3]

Hər bir şey Allaha tərif deyir. Peyğəmbər ﷺ hətta cansız daşların belə təsbehini eşitmişdir. Çünki Uca Allah hər şeyin Rəbbi və hökmdarıdır.

---

[1] "Musnəd İmam Əhməd", 5/196; "Sunən Əbu Davud", 3157; "Sunən ət-Tirmizi", 2606; "Sunən İbn Macə", 219.

[2] "Ta ha" surəsi, 50.

[3] "əl-İsra" surəsi, 44.

Uca Allah səma və yer əhli haqqında buyurur ki: **"Könüllü surətdə və ya məcburi olaraq gəlin,** ***əmrimə boyun əyin!"– buyurdu*****, onlar da: "Könüllü olaraq gəldik!"– dedilər".**[1]

O onlara əmr etdikdə ki, könüllü və ya məcburi gəlin, onlar "Könüllü olaraq gəldik!"– dedilər. Kafir insan və cinlərdən başqa hər kəs izzət və cəlal sahibi Allahın əmrlərinə itaət edir. Buna görə də izzət və cəlal sahibi Allah öz kitabında bildirir ki, insanların çoxu Allaha səcdə edir, bir çoxları da səcdə etmir və əzabı haqq edir: **"Məgər göylərdə və yerdə olanların, günəşin, ayın, ulduzların, dağların, ağacların, heyvanların və insanların xeyli hissəsinin Allaha səcdə etdiyini görmürsənmi? Onların əksəriyyəti isə əzab çəkməyə layiq olanlardır".**[2]

Buna görə də kafirlər Allahın çağırışına cavab vermirlər. Onlar Allaha həm də şəri baxımdan və ibadət olaraq səcdə etmirlər. Allaha sadəcə qədərdə olan zəlilliklə səcdə edirlər ki, bu da qaçılmazdır. Uca Allah buyurur: **"Göylərdə və yerdə olanların özləri də, onların kölgələri də səhər-axşam istər-istəməz Allaha səcdə edir".**[3] Buradakı səcdə qədəri səcdədir. Hər bir şey Allahın qədərinə tabedir. Heç bir şey izzət və cəlal sahibi Allaha qələbə çala bilməz. Bundan qaçmaq mümkün ola bilərmi? Cahiliyyət dövrünün şairi demişdir:

*Hara qaçsaq İlah qalibdir,*

*Məğlub olmuş əl-Əşram qalib deyil.*[4]

İnsanların çoxu şəri səcdə etmədiyinə görə əzaba layiq olublar. Halbuki günəş, ay, ulduzlar, dağlar, ağaclar, heyvanlar izzət və cəlal sahibi Allaha səcdə edir.

Adəm övladlarından və cinlərdən olan kafirlər qədəri səcdə istisna olmaqla, izzət və cəlal sahibi Allaha səcdə etmirlər: **"Göylərdə və yerdə olanların özləri də, onların kölgələri də səhər-axşam istər-istəməz Allaha səcdə edir".**[5]

---

[1] "Fussilət" surəsi, 11.
[2] "əl-Həcc" surəsi, 18.
[3] "ər-Rəd" surəsi, 15.
[4] Bu beyti Nufeyl ibn Həbib "Fil hadisəsi" günü demişdir. ("Təfsir İbn Kəsir", 4/551).
[5] "ər-Rəd" surəsi, 15.

Xülasə, Uca Allah elə edib ki, bu kainat alim üçün bağışlanma diləyir. Bundan daha yaxşısı mələklərin öz qanadlarını elm tələbəsi üçün onun əməlindən razı olaraq sərməsidir. Bundan daha əzəmətli bir fəzilət görmüsünüzmü? İzzət və Cəlal sahibi Allahın mələkləri elm tələbəsinin əməlindən razı olaraq qanadlarını onun üçün sərirlər. Həqiqətən, bu böyük bir fəzilətdir.

Peyğəmbər ﷺ Əbu Dərdadan رضي الله عنه nəql olunan hədisdə demişdir ki, alimlər peyğəmbərlərin varisləridir. Soruşsan ki, peyğəmbərlərin varisləri kimlərdir: gecə-gündüz Allaha rüku və səcdə edən abidlərmi? Peyğəmbərlərin ﷺ qohumlarımı? Xeyr. Peyğəmbərlərin ﷺ varisləri yalnız alimlərdir. Onlar elmi peyğəmbərlərdən miras alıblar. Peyğəmbərlərin ﷺ əməlini də miras alıblar. İzzət və cəlal sahibi Allahın yoluna dəvəti də miras alıblar. Məxluqata hidayət verməyi, onları Allahın şəriətinə yönəltməyi miras alıblar. Beləliklə, alimlər peyğəmbərlərin varisləridir. Peyğəmbərlər dinar və ya dirhəm miras qoymayıblar.

Peyğəmbər ﷺ dünyadan köçərkən qızı Fatimə, əmisi Abbas, əmisi oğulları, zövcələri sağ idi. Lakin nə qızı, nə zövcələri, nə də yaxınları ondan bir şey miras almamışdılar. Çünki peyğəmbərlər dinar və ya dirhəm miras qoymayıblar. Bu da izzət və cəlal sahibi Allahın hikmətindəndir ki, onlar miras buraxmırlar. Kimsə deməsin ki, Peyğəmbər ﷺ mal-mülk səbəbindən peyğəmbərlik iddia etmiş və belə etmişdi ki, qohumları ondan sonra mülkə sahib olsunlar. O, bu şübhəni də kəsmişdi.

Bəziləri deyirlər ki, peyğəmbərlərin övladları onlardan miras almırlar. Zəkəriyyənin عليه السلام bu sözləri nə mənasındadır? **“Mən özümdən sonra gələn qohumlarımdan *bəzisinin dinə etinasız yanaşacaqlarından* qorxuram. Zövcəm də sonsuzdur. Mənə Öz tərəfindən elə bir övlad bəxş et ki, o həm mənə, həm də Yəqub nəslinə varis olsun. Ey Rəbbim, elə et ki, o *Sənin* razılığını qazanmış olsun!”**[1] Burada mal-dövlət deyil, elm və peyğəmbərlik irsi nəzərdə tutulur. Peyğəmbərlər miras qoymurlar. Onlar dinar və ya dirhəm miras qoymurlar. Onlar yalnız bu elmi miras qoyurlar. Allahın onlara salavat və salamı olsun. Bu, ən əzəmətli mirasdır. Kim bunu əldə edərsə, böyük xeyirə nail olar. Kim bu elmə nail olarsa, böyük xeyir əldə edər. Uca Allahdan diləyirəm ki, bizləri və sizi bu elmə nail

[1] “Məryəm” surəsi, 5-6.

olanlardan etsin. Həqiqi və faydalı miras budur. Alimlər peyğəmbərlərin varisidir. Peyğəmbərlər dinar və ya dirhəm miras qoymurlar. Onlar yalnız elm miras qoyublar.

Məgər insan atasından miras qalan mal-dövlətə görə məşriqdən məğribə qədər gəzmirmi? Halbuki, bu dünya malıdır. Bəs biz nə üçün peyğəmbərlərin mirası olan elmi əldə etməyək?

Biz peyğəmbərlərdən qalmış elmi əldə etmək üçün gərək bacardığımız qədər səy göstərək. Elmin fəzilətindən təkcə bu kifayət edir ki, alim olan kəs hər dəfə izzət və cəlal sahibi Allaha ixlasla bir iş gördükdə hiss edir ki, onun rəhbəri Muhəmməddir. Çünki o, Allaha bəsirətlə ibadət edir. Dəstəmaz aldıqda Muhəmmədin onun önündə olduğunu düşünür və dəstəmaz alarkən ona tam bir şəkildə tabe olur. Namaz və digər ibadətlərdə də həmçinin. Elmin fəzilətindən təkcə bunun olması kifayət edərdi. Əbu Dərdanın ﵁ hədisindəki bu böyük fəzilət necə olsun?

Xülasə, Allahın elm bəxş etdiyi hər kəs bilməlidir ki, Allah ona mal-dövlətdən, övladlardan, zövcələrdən, qəsrlərdən və miniklərdən daha böyük bir nemət bəxş etmişdir. Odur ki, çalış Peyğəmbərin ﷺ mirasına daha çox sahib çıxasan. Çalış çoxlu dəqiqliklə elm tələb edəsən. Nə qədər çox elmə sahib çıxsan, birini tərk etdikdə başqasını edərsən.

Sonra bil ki, Peyğəmbərin ﷺ mirası ya Qurani-Kərimlə olur, ya da Peyğəmbərin sünnəsi ilə. Əgər Qurani-Kərimlə olsa, bunun isnadına baxmağa ehtiyac yoxdur. Çünki Quranın isnada ehtiyacı yoxdur. Belə ki, o ən əzəmətli mütəvatirlərdəndir. Yox, əgər Peyğəmbərin sünnəsi ilə olsa, onda gərək buna diqqət edək. İlk öncə araşdıraq ki, hədisin Peyğəmbərə olan isnadı səhihdirmi, ya yox? Əgər, bunu özün edə bilərsənsə, bu daha yaxşıdır. Edə bilməsən, dayan. Əgər bunu edə bilməsən, bunu burax və bacaranlara müraciət et.

"Elm tələb etməyə və onu araşdırmağa çalış", yəni bunun üçün enerji sərf et. Elm tələb etməkdən ötrü enerji sərf etmək olduqca mühümdür. Çünki bəziləri dəqiqləşdirmədən dəlillərin zahirini və ümumiliyini götürür. Bəs bu zahiri məna nəzərdə tutulandır, ya yox? Bu ümumi xüsusiləşəndir, ya yox? Bu mütləq qeydlidir, ya yox? Görürsən ki, Sünnəni bir-birinə qatır, lakin dəqiqləşdirmir. Çünki onun bu xüsusda elmi yoxdur, ona görə də dəqiqləşdirmir. Bu gün bu hal sünnə ilə məşğul olan bir çox

gənclərdə baş verir. Görürsən bəziləri tələsib hədisdən çıxan faydaya hökm verir, yaxud da hədisə hökm verir. Bu da böyük təhlükədir.

"Tarixi Bağdad" əsərində Əhməd ibn Abdul-Cəlilin tərcümeyi-halında deyilir: "Nə qədər çox elmə sahib çıxarsansa, birini tərk etdikdə başqasını edərsən". Bu gözəl kəlamdır. Lakin bundan daha yaxşısı belə deməyimizdir: "Nə qədər elmə çatmış olsan da izzət və cəlal sahibi Allahın bu kəlamını xatırla: **"Hər bir bilik sahibindən də üstün bir bilən vardır".** Yəni bu Qurandandır və "birini tərk etdikdə, başqasını edərsən" sözündən daha aydındır. Həmçinin Uca Allahın bu kəlamını xatırla: **"Sizə yalnız az bir bilik verilmişdir".**

Allahım, bizə faydalı elm, saleh əməl, gözəl və bol ruzi ver ki, başqalarına möhtac olmayaq. Şübhəsiz ki, Sən hər şeyə Qadirsən.

١٣٨٩– وعنِ ابن مسْعُودٍ، ﵁، قال: سمِعْتُ رسول الله ﷺ يَقُولُ: «نَضَّرَ اللَّه امْرءاً سمِع مِنا شَيْئاً، فبَلَّغَهُ كما سَمعَهُ فَرُبَّ مُبَلَّغٍ أوْعى مِنْ سَامِعٍ ». رواهُ الترمذيُّ وقال: حديثٌ حَسنٌ صَحيحٌ.

**1389.** Rəvayət olunur ki, İbn Məsud ﵁ demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Bizdən bir şey eşidib, onu eşitdiyi kimi təbliğ edən kəsi Allah nurlandırar. Ola bilsin, çatdırılan kəs eşidəndən daha yaxşı onu qavrasın"**».

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən səhih hədisdir" demişdir.[1]

١٣٩٠– وعن أبي هُريرةَ، ﵁، قال: قال رسُولُ الله ﷺ: « منْ سُئِل عنْ عِلمٍ فَكَتَمَهُ، أُلجِم يَومَ القِيامةِ بِلِجامٍ مِنْ نَارٍ ».

**1390.** Əbu Hureyradan ﵁ rəvayət olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"Kim bir elm barəsində soruşulduqda onu gizlədərsə, Qiyamət günü ona oddan damğa vurular"**.

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir" demişdir.[2]

---

[1] "Musnəd İmam Əhməd", 3175; "Sunən ət-Tirmizi", 2581.

[2] "Sunən Əbu Davud", 3658; "Sunən ət-Tirmizi", 2649.

**Şərh:**

Müəllif ﷺ "Allah üçün elm öyrənməyin və öyrətməyin fəziləti" fəslində bir sıra hədisləri qeyd etmişdir ki, onlardan da bir çoxu artıq zikr olunmuşdur. Yeni qeyd olunan hədislərdən biri də Abdullah ibn Məsuddan ﷺ nəql olunan hədisdir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Bizdən bir şey eşidib, onu eşitdiyi kimi təbliğ edən kəsi Allah nurlandırar. Ola bilsin, çatdırılan kəs eşidəndən daha yaxşı onu qavrasın".**

**"Nurlandırar",** yəni gözəlləşdirər. Çünki [ərəbcə] "nadr" sözü gözəlləşmək mənasındadır. Uca Allah bu xüsusda buyurur: **"O gün *bir çox* üzlər parlayacaq və öz Rəbbinə baxacaqdır".**[1]

**"Parlayacaq"**, yəni gözəlləşəcək. **"Rəbbinə baxacaq"**, yəni izzət və cəlal sahibi Allaha gözlə baxacaq. Allah bizi və sizi onlardan etsin.

Uca və Böyük Allah həmçinin buyurur: **"Bunun əvəzində Allah da onları həmin günün şərindən qoruyar və onlara gözəllik və sevinc nəsib edər".**[2]

**"Gözəllik və sevinc"** – üzlərə gözəllik, qəlblərə sevinc.

"**Bizdən bir şey eşidib, onu eşitdiyi kimi təbliğ edən kəsi Allah nurlandırar**". Burada məqsəd odur ki, Peyğəmbər ﷺ ondan hədis eşidib onu eşitdiyi kimi çatdıran kəs üçün dua etmişdir ki, Uca Allah onun üzünü Qiyamət günü gözəlləşdirər.

**"Ola bilsin, çatdırılan kəs eşidəndən daha yaxşı onu qavrasın"**. Çünki ola bilsin ki, insan eşitdiyi bir hədisi başqasına çatdırsın və çatdırılan adam hədisi eşidəndən daha yaxşı qavramış olsun. Yəni daha fəqih, daha fəhmli olsun və hədisə onu eşidəndən daha yaxşı əməl etsin. Bu da Peyğəmbərin ﷺ dediyi kimi, məlum məsələdir. Məsələn, olur ki, alimlərdən biri bir hədisi əzbərləyib öyrənir, sonra da rəvayət edir, lakin onun mənasını bilmir. O, hədisi başqa bir alimə nəql edir, həmin alim də onun mənasını anlayır, Rəsulullahın ﷺ hədisindən insanlar üçün faydalı olan bir çox əhkamlar çıxarır. Öncə də qeyd etmişdik ki, birincinin misalı suyu özündə saxlayan torpağın misalına bənzəyir. İnsanlar onun suyundan içir, lakin həmin torpaqda bitki bitmir. Bağçalı-bağlı torpaq isə hədisləri öyrənib onları anlayan, onlardan *düzgün* şəriət hökmləri çıxaran alimlərdir.

---

[1] "əl-Qiyamət" surəsi, 22-23.

[2] "əl-İnsan" surəsi, 11.

Əbu Hureyranın ﵁ bundan sonrakı hədisində isə Peyğəmbər ﷺ elm barədə soruşulduqda onu gizlədən kəsə Qiyamət günü oddan damğa vurulacağını xəbər verir. Yəni ağzına oddan bir parça qoyulacaq. Allah qorusun! Çünki Allahın nazil etdiyi barədə ondan soruşulduqda, o bunu gizlətmişdi.

Əgər eşitsən ki, birisi bilmək üçün səndən soruşur, gərək haqqı gizlətməyəsən. Yox, əgər bilsən ki, adam səni yoxlamaq üçün soruşur, məqsədi də öyrənmək, bilib əməl etmək deyil, bu zaman sən ixtiyar sahibisən – istəyirsən onu öyrət, istəmirsən, öyrətmə. Uca Allah buyurur: **“Əgər onlar sənin yanına gəlsələr, aralarında hökm ver və ya onlardan üz çevir. Əgər onlardan üz çevirsən, sənə heç bir şeylə zərər verə bilməzlər”.**[1]

Peyğəmbər bilirdi ki, onlar Peyğəmbərin ﷺ yanına gəlib onu yoxlayır, ancaq onun sözlərini öyrənmək istəmirlər. Yoxlamaq istəyirlər ki, görək o nə bilir.

Əgər bilsən ki, bir adam gəlib haqqı axtararaq deyil, səni imtahan etmək məqsədilə səndən soruşur, bu zaman sən ixtiyar sahibisən. İstəyirsən ona cavab ver, ona fətva ver və onu öyrət. İstəmirsənsə, ona fətva vermə, öyrətmə. Həmçinin bilsən ki, sənin bu fətvan böyük fəsadlara yol açır, onda fətvanı gecikdirə bilərsən. Bu zaman sən haqqı gizlətmirsən, sadəcə fətvanı məsləhətli bir vaxta qədər gecikdirirsən. Çünki bəzən elə ola bilər ki, verdiyin fətva şərə və fəsada səbəb olsun. Sən də fətvanın şər və fəsada səbəb olacağını görürsənsə, cavabı gecikdirməyində bir qüsur olmaz. Müvəffəq edən Allahdır.

١٣٩١– وعنه قال: قال رسولُ اللَّه ﷺ: « منْ تَعلَّمَ عِلماً مِما يُبتَغَى بِهِ وَجْهُ اللَّهِ عز وَجَلَّ لا يَتَعلَّمُهُ إلا ليصِيبَ بِهِ عرضاً مِنَ الدُّنْيا لَمْ يجِدْ عَرْفَ الجنَّةِ يوْم القِيامةِ » يعني: ريحها، رواه أبو داود بإسناد صحيح.

**1391.** Yenə Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Kim izzət və cəlal sahibi Allahın üzü xatirinə öyrənilməsi gərəkən elmi hər hansı bir dünya nemətini əldə etmək məqsədilə öyrənərsə, Qiyamət günü Cənnətin qoxusunu belə duymayacaq”.**

---

[1] “əl-Maidə” surəsi, 42.

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[1]

**Şərh:**

Allah üçün elm öyrənmək və öyrətməyin bir yolu da müəllifin ﷺ Əbu Hureyradan ﷺ nəql etdiyi hədisdə deyiləndir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **“Kim izzət və cəlal sahibi Allahın üzü xatirinə öyrənilməsi gərəkən elmi hər hansı bir dünya nemətini əldə etmək məqsədilə öyrənərsə, Qiyamət günü Cənnətin qoxusunu belə duymayacaq”**.

Öyrənilməsi elmlər iki qismdir:

Birinci qismi Allahın üzü xatirinə öyrənilən şəriət elmləri və ona dəstək verən ərəb dili elmi.

İkinci qismi isə dünyavi elmlərdir. Məsələn, həndəsə, inşaat, mexanika və buna bənzər başqa elmlər.

İkinciyə, yəni dünyavi elmlərə gəlincə, insan onu dünya malı xatirinə öyrənə bilər. Məsələn, həndəsəni öyrənir ki, mühəndis olsun və maaş əldə etsin. Mexanikliyi öyrənir ki, mexanik olsun və dünyavi məqsədini əldə etsin. Dünya malını əldə etməyə niyyət edib bu elmləri öyrənmək olar. Lakin bu elmləri öyrənməklə müsəlmanlara fayda verməyə niyyət etsə, bu, onun üçün daha faydalı olar. Bununla o, həm dinində qazanar, həm də dünyasında. Yəni əgər desə ki, məsələn, mən həndəsəni öyrənib mühəndis olmaq istəyirəm ki, bununla müsəlmanlar öz ehtiyacları üçün kafir mühəndisləri gətirməsinlər. Bu çox gözəldir. Yaxud mexanikanı öyrənirəm ki, müsəlmanların mexaniklərə olan ehtiyaclarını ödəyim. Bu xeyirlidir və buna görə də o əcr qazanır. Lakin onun yeganə məqsədi dünyavi mənfəət olarsa, bunu edə bilər. Buna görə o günah qazanmır və o, malını artırmaq üçün alış-veriş edənə bənzəyir.

Birinci qisim isə, yəni izzət və cəlal sahibi Allahın şəriətini və ona aid elmləri öyrənmək istəyənlər bunu gərək yalnız Allahın üzü xatirinə öyrənsinlər. Əgər onu öyrənməkdə məqsədi dünya mənfəəti əldə etmək olarsa, həmin adam Qiyamət günü Cənnətin qoxusunu belə duymayacaq. Allah qorusun!

---

[1] “Musnəd İmam Əhməd”, 3179; “Sunən İbn Macə”, 248.

Bu şiddətli cəza vədi ona dəlalət edir ki, insan şəriət elmini hər hansı bir dünya mənfəətini əldə etmək üçün öyrənərsə, böyük günahlardan birini etmiş olar. Onun elminə bərəkət verilməz. Yəni birisi, məsələn: "Elm almaq istəyirəm ki, insanları ətrafıma toplayım, insanlar mənə hörmət etsinlər, məni böyütsünlər" desə, yaxud: "Elm almaq istəyirəm ki, müəllim olum, maaş alım", yaxud buna bənzər başqa sözlər desə, Qiyamət günü Cənnətin qoxusunu belə duymayacaq. Bu məsələ bəzi məktəb, institut və universitetlərdə diplom almaq üçün təhsil alan adamlarda suallara səbəb olub. Onlara deyirik ki, yalnız dünyavi məqsədlə oxuma, həm dünyanı, həm də axirəti qazanmaq məqsədilə oxu.

Birdən bir tələbə desə ki, "Mən elm tələb edirəm ki, diplom alım və dərs keçə bilim, bununla da insanlara fayda verim, yaxud müdir olum və insanları xeyirlə idarə edim. Bu doğrudurmu?" Bəli, bu xeyirli niyyətdir və bunda heç bir qəbahət və ya günah yoxdur.

Çünki, əfsuslar olsun ki, günümüzdə insanların elmi bu şəhadətnamələrlə ölüçülür. Diplom əldə edən kəs onun dərəcəsinə görə iş tapıb işləyir, universitetlərdə, fakültələrdə dərs deyə bilir. Başqa birisinin isə elmi olsa belə, şəhadətnaməsi olmadığı üçün həmin özəlliklərə malik ola bilmir. Vəziyyət indi dəyişib və gördüyünüz hala çatıb. Biz deyirik: Əgər dünya əldə etmək üçün deyil, dərs demək və insanlara fayda veməkdən ötrü şəhadətnamə əldə etmək üçün elm tələb etsən, bu olar. Bu zaman dünya malı əldə etmək məqsədi daşımış olmursan, bu əzab vədi də sənə şamil olunmur. Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur. Şübhəsiz ki, əməllər niyyətlərə bağlıdır və hər kəsə niyyətinin əvəzi veriləcək – tərəzi elə budur! Sən də bax, gör qəlbində nə niyyət etmisən.

Buna əsasən də universitetdə diplom almaq üçün şəriət elmi tələb edən kəsdən soruşuruq ki, "İstədiyin nədir? Diplom almaqda məqsədin filan elmi dərəcəyə çatmaqdır ki, filan qədər maaşın olsun?" Desə ki, "bəli, mən bunu istəyirəm", deyirik: "Məqsədin dünya olduğu müddətdə uduzub xəsarətə uğradın".

Yox, əgər desə ki, "Xeyr, mən insanlara fayda vermək istəyirəm. İndiki zamanda da universitet şəhadətnaməsinə nail olmadan dərs demək mümkün deyil, mən buna çatmaq istəyirəm. Həmçinin diplomu olmadan adam müsəlmanlar arasında yüksək vəzifə əldə edə bilməz. Mənim diplom

almaqda məqsədim budur", deyirik: "Əlhəmdulilləh, bu, gözəl niyyətdir və sən səhv etmirsən".

Əməllər niyyətlərə bağlıdır və hər kəsə niyyətinin əvəzi veriləcək. Mühüm olan odur ki, hörmətli elm tələbəsi qardaşım, pis niyyətdən çəkin! Şəriət elmi müvəqqəti dünyavi məqsədlər üçün istifadə olunmaqdan daha yüksəkdə olan bir şeydir. Dünya malı səndə qalsa, ya sən ondan ayrılmalısan, ya da ki, o səndən – ya kasıblayacaqsan və pulun gedəcək, ya da ki, öləcəksən və mal-dövlətin başqasına qalacaq.

Lakin axirət işləri isə qalıcıdır. Elə isə, nə üçün ən dəyərli ibadətlərdən olan şəriət elmini dünya malı əldə etmək üçün nərdivana çevirirsən? Şəkk yoxdur ki, bu, ağılda naqisliyin və dində zəlalətin göstəricisidir.

Gərək şəriət elmini izzət və cəlal sahibi Uca və nöqsansız Allaha, Onun şəriətini qorumağa məxsus edəsən. Məqsədin özündən, müsəlman qardaşlarından cahilliyin qaldırılması, hidayətə yönəltmək olmalıdır ki, Peyğəmbərin ﷺ mirasını əldə edə biləsən. Belə ki, alimlər peyğəmbərlərin عليهم السلام varisləridir.

Allahdan diləyirəm ki, sizin və bizim niyyətimizi ixlaslı etsin, əməlimizi islah etsin. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

١٣٩٢– وعنْ عبدِ اللَّه بن عمرو بن العاص رضي الله عنهما قال: سمِعتُ رسولَ اللَّه ﷺ يقول: « إنَّ اللَّه لا يقْبِض العِلْم انْتِزَاعاً ينْتزِعُهُ مِنَ النَّاسِ، ولكِنْ يقْبِضُ العِلْمَ بِقَبْضِ العُلَماءِ حتَّى إذا لمْ يُبْقِ عالماً، اتَّخَذَ النَّاسُ رُؤوساً جُهَّالاً فَسئِلُوا، فأفْتَوْا بغَيْرِ علمٍ، فَضَلُّوا وأَضَلُّوا » متفقٌ عليه.

**1392.** Rəvayət olunur ki, Abdullah ibn Amr ibn əl-As رضي الله عنهما demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Şübhəsiz ki, Allah elmi insanlardan zorla çəkib almır, elmi alimlərin ölümü ilə alır. İş o yerə çatır ki, insanlar elmi cahillərdən alırlar, onlar da soruşulduqda elmsiz fətvalar verirlər – həm özləri azırlar, həm də başqalarını azdırırlar"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

[1] "Səhih əl-Buxari", 98; "Səhih Muslim", 4828.

**Şərh:**

Müəllif Hafiz ən-Nəvəvi رحمه الله "Allah üçün elm öyrənməyin və öyrətməyin fəziləti" fəslində Abdullah ibn Amr ibn əl-Asdan رضي الله عنهما nəql olunan hədisi qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Şübhəsiz ki, Allah elmi insanlardan zorla çəkib almır, elmi alimlərin ölümü ilə alır. İş o yerə çatır ki, insanlar elmi cahillərdən alırlar, onlar da soruşulduqda elmsiz fətvalar verirlər – həm özləri azırlar, həm də başqalarını azdırırlar"**.

Bu hədis işarədir ki, elm götürüləcək. Yer üzərində bir dənə belə alim qalamayacaq ki, insanlara Allahın dinini öyrətsin. Ümmət təlatüm yaşayacaq və azacaq. Sonra Quran onların arasından qaldırılacaq. Kökslərdən də, kitablardan da çıxarılacaq. Sünnə əhlinin də dediyi kimi: "Quran Allahın kəlamıdır, nazil olunmuşdur, məxluq deyil, Ondan başlanılıb və Ona qayıdır". "Ona qayıdır" sözünün mənası üçün dedilər ki, o izzət və cəlal sahibi Allaha qayıdacaqdır.

Axır zamanda insanlar Quranı tamamilə tərk edəcəklər, onu nə oxuyacaq, nə də öyrətməyəcəklər. Şərəfli Kəbə də onun kimidir. Əbrəhə onu böyük bir fillə və ordusu ilə dağıtmaq istədikdə izzət və cəlal sahibi Allah onu qorudu. Bu xüsusda Uca Allah bütöv bir surə də nazil etmişdir: **"Rəbbinin fil sahiblərinə nələr etdiyini görmədinmi? Məgər *Rəbbin* onların hiyləsini dolaşığa salmadımı? Onların üzərinə qatar-qatar quşlar göndərdi. *O quşlar ki,* onların üstünə *odda bişmiş* bərk gildən daşlar yağdırdı. *Allah* onları sanki yeyilmiş əkin yarpağına döndərdi".**[1]

"Əbabil quşları" izzət və cəlal sahibi Allahın göndərdiyi quşlardır. Əbabil, yəni fərqli camaatlar. Onlar dimdiklərində və ayaqlarının arasında Siccildən daşlar gətirmişdilər. Yəni sərt gildən. Bu quşlar Allahın əmri ilə həmin daşları əsgərlərin üzərinə atırdılar. Hətta daş adamın başından girib arxasından çıxırdı. Allah qorusun! Sonra Allah onları vəhşi heyvanlar tərəfindən yeyilmiş əkin yarpağına çevirmiş, onlar da bir-birilərinə qarışmışdılar.

Lakin axır zamanda insanlar bu Evə qarşı hörmətsizlik etsələr, orada çoxlu günahlar və Allahın hörmət olunması gərəkən yerlərinə hörmətsizlik

[1] "əl-Fil" surəsi, 1-5.

etdikdə, Allah alçaq boylu bir həbəşini müsəllət edəcək. O öz ordusu ilə gəlib Kəbənin daşını daş üstündə qoymayacaq. O Kəbənin daşlarını bir-bir çıxaracaq və onu döyüşçülərinə ötürəcək. Onlar da bir-birlərinə ötürərək onu dənizə atacaqlar. Bu minvalla onu son daşına qədər dağıdacaqlar.

Bax, düşün və ibrət al. İzzət və cəlal sahibi Allah onu ilk dönəmdə kafirlərdən qorumuşdu. Çünki bilirdi ki, oraya peyğəmbər göndərəcək və o da insanları zəlalətdən, zülmdən və şirkdən hidayətə, ədalətə və tövhidə yönəldəcək. Axır zamanda isə insanlar bu hörmətli məqama laqeyd qaldıqda Allah öz hikməti ilə onu dağıdacaq kəsləri üzə çıxaracaq. Heç kəs də bir söz deməyəcək, bu adama etiraz etməyəcək. İzzət və cəlal sahibi Allah ona bunu etməyə imkan verəcək.

Qurani-Kərim də insanların qəlbindən və kitablardan götürüləcək, izzət və cəlal sahibi Allaha qaldırılacaq. Çünki Quran Allahın kəlamıdır, Ondan başlayıb, Ona da dönəcək.

Elm də onun kimi. O insanların kökslərindən çıxarılmır, alimlərin ölümü ilə aradan qaldırılır. Həqiqi alimlər tədricən ölür və adamları haqqa yönəldəcək alim qalmır. İnsanlar da ondan fətva almaq üçün özlərinə yeni adamlar seçirlər. Onlar isə cahilliklərindən insanlara elmsiz fətvalar verərək həm özləri azacaqlar, həm də başqalarını azdıracaqlar. Allah qorusun! Şəriət insanlar arasında hökm verən belə cahil adamların arasında qalır, həm də necə cahillərin. Artıq o zaman Quran və Sünnə üzərində inşa edilmiş həqiqi İslam olmayacaq, çünki onun əhli artıq ölmüşdür.

Bu hədis elm tələb etməyə təşviq edir ki, Peyğəmbərin ﷺ vəsf etdiyi hala qalmayaq.

Reallıq barədə xəbər vermək onu təsdiq etmək, ondan razı olmaq anlamına gəlmir. Yəni əgər Peyğəmbər ﷺ bir şey barədə xəbər veribsə, bu o demək deyil ki, onu təsdiq edir, *yaxud ona icazə verir.* Necə ki, Peyğəmbər and içərək: **"Sizdən əvvəlkilərin yoluna tabe olacaqsınız"–** deyə xəbər verir. Yəni sizdən əvvəlkilərin yolunu tutub gedəcəksiniz. Soruşdular ki: "Yəhudi və xaçpərəstlərinmi *yolunu*?" Dedi: **"Bəli, yəhudi və xaçpərəstlərin".**[1] Bununla o xəbər vermişdir ki, bu ümmət yəhudi və xaçpərəstlərin etdiklərini edəcək. Ancaq o bu barədə xəbər verməklə ümmətini bundan

[1] "Səhih əl-Buxari", 6775.

çəkindirmiş, buna icazə verməmişdir. Buna görə də Peyğəmbərin ﷺ xəbər verdikləri arasında təsdiq etdikləri ilə çəkindirdiklərini fərqləndirmək lazımdır. Məsələn, o ﷺ xəbər vermişdir ki, alimlər öləcək. Yəni biz çalışmalıyıq ki, alimlərin öləcəyi və insanlar arasında fətva verəcək cahillərin elmsiz fətva verəcəyi həmin zamana təsadüf etməyək. Çünki onlar özləri də azacaq, başqalarını da azdıracaqlar.

Allahım, Səndən faydalı elm, saleh əməl, təmiz və bol ruzi diləyirik.

# UCA ALLAHA HƏMD VƏ ŞÜKÜR KİTABI

## İki yüz qırx ikinci fəsil

### Həmd və şükrün fəziləti

**Giriş:**

Müəllif Hafiz ən-Nəvəvi ﷺ "Salehlər bağçası" əsərində **"Uca Allaha həmd və şükür"** kitabını **"Həmd və şükrün fəziləti"** fəsli ilə açır.

"Allaha həmd", Onu gözəl şəkildə kamilliklərlə vəsf etmək və buna zidd olan işlərdən uzaq tutmaqdır. Uca və nöqsansız Allah həmdə layiqdir. Bu, gözəl ehsanlarına (əvəzsiz yaxşılıqlarına), kamil sifətlərinə görə sevgi və təzimlə olan həmddir. O, yaradılışa başlayanda Özünə həmd etmişdir: **"Həmd, göyləri və yeri yaradan, zülmətləri və nuru var edən Allaha məxsusdur!** ***Bu dəlillərdən*** **sonra kafir olanlar hələ də** ***bütləri*** **öz Rəbbinə tay tuturlar".**[1]

O, şərikinin və tayının olmaması xüsusunda da Ozünə həmd etmişdir: **"De: "Özünə heç bir övlad götürməyən, mülkündə heç bir şəriki olmayan, aciz qalmamaqdan ötrü** ***Özünə kömək edəcək*** **heç bir dosta möhtac olmayan Allaha həmd olsun!" Onu tərifləyərək uca tut".**[2]

O, *başlatdığı* yaradılışın sonunda da Özünə həmd edəcəkdir: **"Sən mələklərin, Ərşi əhatə edərək, Rəbbinə həmd ilə tariflər dediklərini görəcəksən. Onların arasında ədalətlə hökm veriləcək və: "Həmd, aləmlərin Rəbbi Allaha məxsusdur!"– deyiləcəkdir".**[3]

Uca Allah həm yaradılışa başlayanda, həm davam etdiyi vaxt, həm də sonunda həmdə layiqdir. O həm qullarına nazil etdiyi şəriətlərə görə, həm də hər bir halda həmdə layiqdir. Bu səbəbdən də Peyğəmbər ﷺ onu sevindirən bir xəbər eşitdikdə: **"Neməti ilə saleh əməllər tamamlanan Allaha həmd olsun"**– deyərdi.[4] Bunun əksi ilə üzləşdikdə isə belə deyərdi: **"Hər bir halda Allaha həmd olsun"**.[5]

---

[1] "əl-Ənam" surəsi, 1.

[2] "əl-İsra" surəsi, 111.

[3] "əz-Zumər" surəsi, 75.

[4] "Sunən İbn Macə", 3793.

[5] "Sunən Əbu Davud", 4377; "Sunən ət-Tirmizi", 2662.

İndi bəzi insanlar: "Özündən savayı pis şeyə görə həmd olunan olmayan Allaha həmd olsun!" deyirlər ki, bu da ciddi səhvdir. Çünki sənin: "Özündən savayı pis şeyə görə həmd olunan olmayan Allaha həmd olsun!" deməyin sənin öz qədərinlə razılaşmadığının göstəricisidir. Sən Peyğəmbərin ﷺ dediyi kimi de: **"Hər bir halda Allaha həmd olsun!"** Düzgün olan və Peyğəmbərdən ﷺ varid olmuş sünnə belədir.

Allah Özünə həmd etmiş və Özünə həmd olunmasını əmr etmişdir. Uca Allah buyurur: «**De: "Həmd olsun Allaha, salam olsun Onun seçdiyi qullarına!"**»[1]

Uca Allah bizlərə Ona həmd etməyi əmr edir. Hətta bizim Ona həmd etməyimizi namazın rükünlərindən biri etmişdir – o olmadan namaz tamamlanmır. Məsələn, "əl-Fatihə" surəsi **"Həmd olsun Allaha, aləmlərin Rəbbinə!"** sözləri ilə başlayır**.** Əgər bu ayəni namazda deməsən, namazın səhih olmaz. Odur ki, Uca Allaha həmd və şükür, nemətlərinə görə şükür etmək hər bir insana vacibdir. Bax, gör sənə nə qədər nemətlər bəxş edib: ağıl, bədən, mal-dövlət, ailə, təhlükəsizlik – saysız-hesabsz nemətlər: **"Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz".**[2]

Sənə olan nemətlərindən yalnız olmadıqda həyatını itirə biləcəyin canın olsa idi belə, kifayət edərdi. Ruhun bədənindən sən hiss etmədən, əziyyət çəkmədən çıxır. Bax gör nə qədər insan var ki, nəfəsi daralır, nəfəs alıb-verdikdə əziyyət çəkirlər. Bu nəfəs isə davam etməkdədir.

Nemətlər saysız-hesabsızdır: ağıl, övlad, mal-dövlət, din. Bütün bunlar böyük nemətlərdir və Uca Allah bunlara görə şükür olunmağa layiqdir.

Elm əhli demişdir: "Şükür, nemət verənə itaət etməkdir". Demək, nemət verən Allaha itaət etməyin şükürdür. Əlalxüsus da bu, nemətin cinsindən olarsa. Allah sənə mal-dövlət veribsə, qoy onun əlaməti sənin libasında, evində, miniyində, verdiyin sədəqədə, etdiyin yaxşılıqda görünsün. Bununla da Allahın sənə bəxş etdiyi nemətlər görsənmiş olur.

Yaxud elm ilə. Əgər Allah sənə elm bəxş edibsə, qoy bu elm sənin üzərində görünsün: elmi insanlar arasında yay, onu insanlara öyrət, izzət və cəlal sahibi Allahın yoluna dəvət et və beləcə.

---

[1] "ən-Nəml" surəsi, 59.

[2] "İbrahim" surəsi, 34.

Şükür də Allahın sənə bəxş etdiyi nemətin cinsindən və ya daha ümumi olur.

Deməli, kim Allaha asi olarsa, Allahın nemətinə şükür etmiş olmaz. Bu, Allahın nemətinə küfr etməkdir. Allah qorusun! Uca Allah buyurur: **"Məgər sən Allahın nemətlərini küfrə dəyişənləri və öz xalqını həlak yurduna sürükləyənləri görmürsənmi? Onlar Cəhənnəmə girəcəklər. Ora necə də pis qərar tutulacaq yerdir".**[1]

Asi olan kəs izzət və cəlal sahibi Allaha şükür etmiş sayılmaz. Asi olduğu qədər onun şükrü də naqis olar. Hətta insan Allaha asi ola-ola dili ilə "Allaha şükür" desə belə, dediyində sadiq olmaz. Şükür, nemət verənə itaət deməkdir.

Şükrün iki böyük faydası var: biri Uca Allaha Onun haqqı, fəziləti və ehsanı baxımından etiraf etməkdir, digəri isə şükür etməklə nemətin artmasıdır. Nə qədər çox şükür etsən, Allah da sənə öz nemətini bir o qədər artırar. Uca Allah buyurur: **"O zaman Rəbbiniz *belə* bildirmişdi: "Əgər şükür etsəniz, sizə *olan nemətimi* artıraram, yox əgər nankorluq etsəniz, *bilin ki,* Mənim əzabım şiddətlidir".**[2]

İnsan şükür etdikdə Allah da ona öz nemətini artırar, nankorluq etsə isə Allahın əzabını özünə vacib edər. Uca Allahın əzabı isə şiddətlidir. Uca Allah buyurur: **"Ey iman gətirənlər, sizə ruzi kimi verdiyimiz pak şeylərdən yeyin və əgər yalnız Allaha ibadət edirsinizsə, Ona şükür edin!"**[3]

Odur ki, sizlərə bəxş etdiyi bu nemətlərə, sizin həmin nemətləri çətinlik çəkmədən, asanlıqla əldə etməyinizə görə Allaha şükür edin. Uca Allah istəsə, bizi yediyimiz bu nemətlərdən məhrum edər – ya bu nemətlər yoxa çıxar, ya da onları əldə etmək çətinləşər. Uca Allah buyurur: **"Əkdiyinizi gördünüzmü?! Onu siz bitirirsiniz, yoxsa Biz?! Əgər Biz istəsəydik, onu bir saman çöpünə döndərər, siz də heyrətə gələrdiniz *və deyərdiniz*: "Biz ziyana uğradıq. Xeyr, biz *ruzidən* məhrum olduq!" İçdiyiniz suyu gördünüzmü?! Onu buluddan siz endirirsiniz, yoxsa Biz?! Əgər istəsəydik, onu acı edərdik. Bəs nə üçün şükür etmirsiniz? Yandırdığınız**

[1] "İbrahim" surəsi, 28-29.
[2] "İbrahim" surəsi, 7.
[3] "əl-Bəqərə" surəsi, 172.

**odu gördünüzmü?! Onun ağacını siz yaradırsınız, yoxsa Biz?! Biz onu *Cəhənnəmi* yada salmaq və müsafirlərin istifadəsi üçün yaratdıq".**[1]

Mühüm olan budur ki, Allahın nemətlərinə şükür etməliyik və şükür əməlin cinsinə uyğun olur. İzzət və cəlal sahibi Allahın sənə bəşx etdiyi elmə, mal-dövlətə görə sən də onlardan sərf etməlisən. Sağlamlıq da onun kimi – Allah sənə sağlamlıq və gümrahlıq veribsə, səndən yardım istəyən qardaşlarına sənin yardım etməyin Allaha şükür hesab olunur. Müvəffəq edən Allahdır.

**Mövzu ilə əlaqəli ayələr:**

Uca Allah buyurur:

﴿ فَٱذۡكُرُونِيٓ أَذۡكُرۡكُمۡ وَٱشۡكُرُواْ لِي وَلَا تَكۡفُرُونِ ﴾

**"Elə isə siz Məni yad edin ki, Mən də sizi yad edim! Mənə şükür edin, Mənə küfr etməyin!"**[2]

﴿ لَئِن شَكَرۡتُمۡ لَأَزِيدَنَّكُمۡ ﴾

**"Əgər şükür etsəniz, sizə *olan nemətimi* artıraram".**[3]

﴿ وَقُلِ ٱلۡحَمۡدُ لِلَّهِ ﴾

**"De ki: – Allaha həmd olsun!".**[4]

﴿ وَءَاخِرُ دَعۡوَىٰهُمۡ أَنِ ٱلۡحَمۡدُ لِلَّهِ رَبِّ ٱلۡعَٰلَمِينَ ﴾

**"... dualarının sonu: "Həmd, aləmlərin Rəbbi Allaha məxsusdur!" *sözləri olacaq*".**[5]

---

[1] "əl-Vaqiə" surəsi, 63-73.
[2] "əl-Bəqərə" surəsi, 152.
[3] "İbrahim" surəsi, 7.
[4] "əl-İsra" surəsi, 111.
[5] "Yunus" surəsi, 10.

**Şərh:**

Müəllif Hafiz ən-Nəvəvi ﷺ **"Həmd və şükrün fəziləti"** fəslini qeyd edir. Artıq bu barədə bir qədər söz açmışıq. Lakin zikr olunan birinci ayə barəsində danışmamışıq. Uca Allah buyurur: **"Elə isə siz Məni yad edin ki, Mən də sizi yad edim! Mənə şükür edin, Mənə küfr etməyin!"**[1]

Bil ki, izzət və cəlal sahibi Allahı xatırlamaq qəlbin zikridir. Dilin dedikləri qəlbin zikri olmadıqda naqis hesab olunur. Buna dəlil izzət və cəlal sahibi Allahın bu ayəsidir: **"Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!".**[2] Uca Allah burada "bizi zikr etməkdən susdurduğumuz" demir, O buyurur ki, **"Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz"**.

Zikrin faydalı olanı qəlbin zikridir. Qəlbin zikri isə hər anda olur – insan gəzdikdə, oturduqda, uzandıqda izzət və cəlal sahibi Allahın ayələri barəsində düşünürsə, bu, Allahı zikr etmək sayılır.

Allahı zikr etməyin bir növü də Sünnədə varid olanlardır: **"Allahdan başqa ibadət haqqına malik məbud yoxdur, O, təkdir, Onun şəriki yoxdur, mülk və həmd Ona məxsusdur. O, hər şeyə qadirdir"**, **"Sübhanallah"** və s.

Allahı zikr etməyin digər bir növü namazdır. Namaz da Allahı zikr etməkdir. Uca və Böyük Allah buyurur: **"Kitabdan sənə vəhy olunanları oxuyub namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir. Allahı yada salmaq isə *ibadətlərin* ən əzəmətlisidir".**[3]

Bəzi alimlər bu sözün mənası haqqında demişlər ki, bu, "Allahın zikri daha əzəmətlidir" deməkdir. Hər bir halda, insan Allahı dillə zikr etdikdə gərək qəlbi ilə də Onu zikr etsin. Bu zaman qəlblə dil bir-birinə uyğun olur və gözlənilən fayda əldə olunur. Belə ki, yalnız dillə zikr etmək insana fayda versə də, naqis olur. Qəlblə zikr etmək isə əsas və mühümdür. Uca Allah buyurur: **"Məni xatırlayın ki, Mən də sizi xatırlayım".**

Peyğəmbərin belə dediyi sabitdir ki; **"Kim Məni özündə zikr edərsə, Mən də onu Özümdə zikr edərəm. Kim də Məni toplum qarşısında zikr edərsə, Mən də onu daha xeyirli bir toplum qarşısında zikr edərəm".**[4]

---

[1] "əl-Bəqərə" surəsi, 152.
[2] "əl-Kəhf" surəsi, 28.
[3] "əl-Ənkəbut" surəsi, 45.
[4] "Səhih əl-Buxari", 6856; "Səhih Muslim", 3766.

Yəni insan, ətrafında heç kim yox ikən Allahı özündə xatırlayarsa, Allah da onu Özündə xatırlayar. Allahı zikr etdiyində ətrafında insanlar varsa, Allah da onu daha xeyirli bir toplumun yanında xatırlayar. Bu da zikrin fəzilətinə dəlildir – Uca Allahı təklikdə zikr edəni Allah da zikr edir, toplum yanında Allahı zikr edəni isə Allah daha xeyirli bir toplumun yanında zikr edir.

Uca Allah buyurur: “**Mənə şükür edin, Mənə küfr etməyin!”** Şükrün və küfrün mənası daha öncə qeyd olunmuşdur. Bu mövzuda söhbətin davamını isə inşəAllah bu fəslin hədislərini açıqlayanda qeyd edəcəyik.

**Mövzu ilə əlaqəli hədislər:**

١٣٩٣– وعن أبي هُرَيْرة، رضي الله عنه، أَنَّ النبي ﷺ أُتِي لَيْلةَ أُسْرِيَ بِهِ بِقَدَحَيْن مِن خَمْر ولَبن، فنظَرَ إلَيْهِما فأَخذَ اللَّبنَ، فَقَالَ جبريلُ ﷺ: « الحمْدُ للَّهِ الَّذي هَداكَ للفِطْرةِ لوْ أخَذْتَ الخَمْرَ غَوتْ أُمَّتُكَ ». رواه مسلم.

**1393.** Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, “İsra gecəsi Peyğəmbərə ﷺ birinin içərisində şərab, digərində isə süd olan iki qədəh gətirildi. O qədəhlərə baxıb südü götürdü. Cibril dedi: “Səni fitrətə yönəldən Allaha həmd olsun. Şərabı götürmüş olsaydın, ümmətin çaşardı”.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٣٩٤– وعنْهُ عنْ رسول اللَّه ﷺ قال: « كُلُّ أمْرٍ ذِي بال لا يُبْدأُ فيه بـ: الحمد للَّه فَهُوَ أقْطَع ». حديثٌ حسَنٌ، رواهُ أبو داود وغيرُهُ .

**1394.** Yenə ondan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Hər hansı bir iş Allaha həmd ilə başlamazsa, yarımçıq olar”.**

Həsən hədisdir. Hədisi Əbu Davud və başqaları rəvayət etmişlər.[2]

---

[1] “Səhih əl-Buxari”, 5148; “Səhih Muslim”, 3751.
[2] “Sunən Əbu Davud”, 3751.

١٣٩٥– وعَن أبي مُوسى الأشعريِّ رضي الله عنه ، أنَّ رسُولَ اللَّهِ ﷺ قال: « إذا ماتَ ولَدُ العبْدِ قال اللَّه تعالى لملائِكَتِهِ: قَبضْتُمْ ولَدَ عبْدِي؟ فيقولُون: نَعمْ، فَيقولُ: قبضتُم ثَمرةَ فُؤَادِهِ؟ فيقولون: نَعَمْ، فيقولُ: فَمَاذَا قال عَبْدِي؟ فيقولون: حمِدكَ واسْتَرْجَع، فَيقُولُ اللَّه تَعالى: ابْنُوا لِعَبْدِي بيْتاً في الجنَّةِ، وسَمُّوهُ بَيْتَ الحمْدِ » رواهُ الترمذي وقالَ: حديثٌ حسنٌ.

**1395.** Əbu Musa əl-Əşaridən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: «**Bəndənin övladı öldükdə Uca Allah mələklərə deyər: "Bəndəmin övladını aldınız?" Deyirlər: "Bəli". Allah deyər: "Onun qəlbinin səmərəsini aldınız?" Deyərlər: "Bəli". Deyər: "Bəs qulum nə dedi?" Deyərlər: "Sənə həmd edib istirca etdi". Uca Allah deyər: "Bəndəm üçün Cənnətdə bir ev tikin və onu "həmd evi" adlandırın"**».

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişdir.[1]

١٣٩٦– وعنْ أنَسَ رضي الله عنه قال: قال رسُولُ اللَّه ﷺ: « إنَّ اللَّه لَيرضي عنِ العبْدِ يَأْكُلُ الأكْلَةَ فَيَحْمَدُهُ عليْهَا، وَيَشْرب الشَّرْبَةَ فَيَحْمَدُهُ عَلَيْهَا » رواهُ مسلم.

**1396.** Ənəsdən رضي الله عنه rəvayət olunur ki, Allahın elçisi ﷺ demişdir: **"Allah yemək yeyib həmd edən, su içib həmd edən qulundan razı qalar".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

**Şərh:**

Müəllifin رحمه الله qeyd etdiyi bu hədislər **"Uca Allaha həmd və şükrün fəziləti"** fəslindədir.

Hər birimizə məlumdur ki, bizdə olan hər bir nemət izzət və cəlal sahibi Allah tərəfindəndir. Başımıza hər hansı bir pis iş gəlsə, Allahdan başqa sığınacağımız olmaz. İnsanın başına xoşagəlməz bir hadisə və ya ona əziyyət verən bir iş gələrsə, buna görə Allah onun günahlarını kəffarə edir. Möminin başına gələn hər bir sıxıntı, kədər, hətta ayağına batan hər bir tikana görə belə Allah onun günahlarını bağışlayır. Odur ki, Allahın

[1] "Musnəd İmam Əhməd", 4/415; "Sunən ət-Tirmizi", 1021.

[2] "Səhih Muslim", 4915.

nemətləri saysız və hesabsızdır. Buna görə də gərək Uca Allaha bəxş etdiyi nemətlərə görə həmd və şükürlər edək.

Həmdin faydalarından biri də budur ki, insan Allaha həmd ilə bir işə başladıqda Uca Allah həmin işə bərəkət verir. Məsələn, kitab yazmaq istədikdə, danışmaq istədikdə, yaxud xütbə verdikdə və ya başqa bir iş gördükdə Allaha həmd edərsə, Allah həmin işə bərəkət verər. Hər hansı bir iş Allaha həmd ilə başlamazsa, yarımçıq olar, yəni bərəkəti götürülər. Lakin ola bilsin ki, "bismilləh"də olduğu kimi, həmd sözü başqa bir sözlə əvəz olunsun. "Bismilləh"lə də Allah bir çox şeylərə bərəkət verir. Onlardan biri budur ki, insan qurban kəsdikdə "bismilləh" deyirsə, kəsdiyi qurban halal olur. "Əlhəmdulilləh" dedikdə isə halal olmur. Çünki kəsilən heyvan yalnız "bismilləh"lə halal olur. Kəsdikdə "bismilləh" əvəzinə "Allahu əkbər" desə, kəsdiyi heyvan halal olmur.

"Əlhəmdulilləh"lə başlayan hər bir işdə xeyir və bərəkət var. Lakin bəzi məqamlarda "əlhəmdulilləh"in yerinə "bismilləh" deyilir. Məsələn, yedikdə, içdikdə, dəstəmazdan əvvəl, heyvan kəsdikdə və başqa yerlərdə. Hətta həyat yoldaşı ilə yaxınlıqdan öncə də "bismilləh" deyilir: **"Bismilləh, Allahummə cənnibnəş-şeytan, va cənnibiş-şeytanə mə razəqtənə"**.[1]

Həmdin faydalarından biri də budur ki, Uca və nöqsansız Allah, bəndəsi yemək yedikdə, içdikdə Allaha həmd edirsə, ondan razı qalır. Bəs yemək nədir? Bu sözlə tam bir yemək prosesi nəzərdə tutulur, yoxsa ağıza qoyulan hər bir loxma? Belə bir hədis ehtimal olunur ki, İmam Əhməd ibn Hənbəl hər loxmanı ağzına qoyduqda "əlhəmdulilləh" deyərdi. Ona dedilər ki: "Ey Əbu Abdullah, bu nədir?" Dedi: "Yeyib həmd etmək, yeyib susmaqdan daha yaxşıdır". Sanki İmam Əhməd yeməyi loxma hesab edirdi. Buna əsasən də insan yedikdə daha çox həmd etmiş olur. Lakin əksər alimlər deyirlər ki, "yemək" deyildikdə tam bir yemək nəzərdə tutulur. Oturub yeyirsən, doyduqda isə: "Əlhəmdulilləh" deyirsən.

Həmdin hər növü xeyirdir. Bu da həmdin faydalarındandır ki, insan yeyib-içdikdən sonra həmd edərsə, izzət və cəlal sahibi Allah ondan razı qalır. Uca Allahdan diləyirik ki, bizlərdən və sizdən razı qalsın. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

---

[1] "Səhih əl-Buxari", 138; "Səhih Muslim", 2591.

Bəs sol əllə yeyib-içməyin hökmü nədir?

Sol əllə yeyib-içmək haramdır. Sol əli ilə yeyib-içən kəs şeytana bənzəyir, ona tabe olur və ər-Rəhmanın hidayətindən uzaqlaşır. Bir dəfə Peyğəmbər ﷺ sol əli ilə yeyən bir adama deyir: **“Sağ əlinlə ye!”** Dedi: “Bacarmıram”. Dedi: **“Heç bacarmayasan!”**[1] Bundan sonra həmin adam şikəst olur və həmin əlini ağzına qaldıra bilmir. Bu da dəlildir ki, insan sağ əli ilə yeyib-içməlidir. Hətta yediyi zaman su içmək istədikdə belə, onu sol əli ilə içməməlidir. İçdiyini sağ əllə iç. Bu zaman ondan içdiyin qab yeməyə bulaşarsa, onu yumaq da olar. Müvəffəq edən Allahdır.

---

[1] “Səhih Muslim”, 3766.

# RƏSULULLAHA SALAVAT KITABI

## İki yüz qırx üçüncü fəsil

### Rəsulullaha salavat deməyin fəziləti

**Mövzu ilə əlaqəli ayə:**

Uca Allah buyurur:

﴿ إِنَّ ٱللَّهَ وَمَلَٰٓئِكَتَهُۥ يُصَلُّونَ عَلَى ٱلنَّبِيِّۚ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ صَلُّواْ عَلَيۡهِ وَسَلِّمُواْ تَسۡلِيمًا ﴾

**“Həqiqətən də, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər. Ey iman gətirənlər, siz də ona xeyir-dua verib kamil ədəb-ərkanla *onu* salamlayın”.**[1]

**Şərh:**

Müəllif رحمه الله “Əhzab” surəsinin 56-cı ayəsini qeyd etmişdir. Həmin ayədə Peyğəmbərə ﷺ salavat demək əmr olunur. Əmr isə bəzən vacibliyi, bəzən də müstəhəbliyi bildirir. Vacib olanı tərk etdikdə insan asi olur, günah qazanır və cəzaya layiq olur. Müstəhəb olana gəlincə isə insan onu etdikdə savab qazanır, etmədikdə isə günah qazanmır. Həm vacib, həm də müstəhəb olan bir şeydə eynidirlər ki, o da həmin əməli edənin savab qazanmasıdır. Ancaq vacibi edənin savabı daha böyükdür. Bu xüsusda Peyğəmbər ﷺ qüdsi hədisdə demişdir: «**Uca Allah demişdir: “Qulum ona fərz etdiyim əməllərdən daha çox heç bir işlə mənə yaxınlaşa bilməz”».**[2]

Vacib ilə müstəhəb bir-birindən onda fərqlənirlər ki, vacibi tərk edən Allaha asi olur, günah qazanır və cəzaya layiq olur. Müstəhəbi tərk edən isə günah qazanmır, sadəcə xeyirli bir işi əldən verir.

Müəllif رحمه الله Peyğəmbərə ﷺ salavat deməyi ümumi şəkildə qeyd etmişdir. Alimlər ixtilaf etmişlər ki, Peyğəmbərə ﷺ salavat demək ömürdə

[1] “əl-Əhzab” surəsi, 56.

[2] “Səhih əl-Buxari”, 6021.

*heç olmasa* bir dəfə səbəblərə görə vacibdir, yoxsa vacib deyil? Səhih olan budur ki, səbəblər olduqda onu demək vacibdir. Əslən isə bu müstəhəbdir.

Yaxşı, bəs Peyğəmbərə ﷺ salavat deməyin, yəni insanın: "Allahummə salli alə Muhəmməd (Allahım, Muhəmmədə xeyir-dua ver!)" deməyinin mənası nədir?

Bir çoxları bunu desələr də, onun mənasını dərk etmirlər. Bu, səhvdir. Sən dediyin və etdiyin dualarda hər bir sözün mənasını bilməlisən ki, günah sayılan duaları deməyəsən. Sənin: "Allahummə salli alə Muhəmməd" deməyinin mənası budur ki: "Allahım, ona yüksək məqamda xeyir-dua ver!". "Xeyir-dua ver!", yəni onu gözəl şəkildə vəsf et. Yüksək məqamda olanlar isə mələklərdir. Sən: "Allahummə salli alə Muhəmməd" deməklə, sanki: "Ey Rəbbim, onu gözəl sifətlərlə vəsf et, onu mələklərin yanında xatırla ki, onu daha çox sevsinlər"– deyirsən. "Allahummə salli alə Muhəmməd"in mənası budur.

Alimlər Peyğəmbərdən ﷺ başqasına salavatın deyilib-deyilməməsi xüsusunda ixtilaf etmişlər. Yəni deyə bilərsənmi ki: Allahım, filankəsə, filan alimə, filan şeyxə, atama salavat ver, yaxud buna bənzər sözlər. Səhih olan budur ki, burada təfsilata ehtiyac var. Əgər bu söz Peyğəmbərə ﷺ deyilən salavata aiddirsə, demək olar. Buna görə də Rəsulullahdan ﷺ ona nə cür salavat deyiləcəyi haqda soruşulduqda, o belə demişdir: **"Deyin ki: – Allahummə salli alə Muhəmməd va alə ali Muhəmməd".**[1]

Onu müstəqil şəkildə də demək olar və əgər səbəb varsa, onun deyilməsi icazəlidir. Məsələn, biri öz sədəqəsini gətirib sənə versə ki, sən onu paylayasan, onun üçün de ki: "Allahım, ona xeyir-dua ver!" Qoy o, səndən bu sözləri eşitsin. Uca və Böyük Allah öz Peyğəmbərinə belə buyurur: **"Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan. Onlar üçün dua et".**[2]

Abdullah ibn Əbu Əufə demişdir: "Mən sədəqəmi gətirdim [yaxud "atam gətirdi" dedi]. Peyğəmbər ﷺ dedi: **"Allahım, Əbu Əufənin ailəsinə xeyir-dua ver!"**[3] – belə də demək olar. Həmçinin kimisə xatırladıqda

---

1 "Səhih əl-Buxari", 3119; "Səhih Muslim", 613.

2 "ət-Tövbə" surəsi, 103.

3 "Səhih əl-Buxari", 1402; "Səhih Muslim", 1791.

ona bu barədə xəbər vermədən vaxtaşırı onun üçün salavat desən olar. Yəni hətta "Allahım, Əbu Bəkrə, Ömərə, Osmana, Əliyə salavat ver" desək də olar. Lakin bunu şüara çevirmə, hər dəfə onların adları çəkildikdə bunu demə. Çünki belə etsən, onları Peyğəmbər səviyyəsinə çatdırmış olursan.

Sonra müəllif ﵀ bu fəslin əvvəlində: **"Həqiqətən də, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər. Ey iman gətirənlər, siz də ona xeyir-dua verib kamil ədəb-ərkanla *onu* salamlayın"**[1] ayəsini zikr edir.

Bu ayədəki xəbər, əmr və təkid barədə düşün: **"Həqiqətən də, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər".** Allah bu xəbəri bizə verməklə bizləri salavata təşviq edir. Allah və Onun səmalarda və yerdə olan bütün mələkləri Peyğəmbərə ﷺ salavat deyirlər.

Mələklər Allahın qeyb aləmində olan məxluqlarıdır. Onların sayını izzət və cəlal sahibi Allahdan savayı heç kim bilmir. Yeddinci səmada olan Beytul-Məmura hər gün yetmiş min mələk daxil olur, çıxır və bir daha ora qayıtmırlar. Yəni onlardan sonra başqa mələklər daxil olur. Belə olduğu halda onların sayını kim bilə bilər? Allahdan başqa heç kim onların sayını bilə bilməz. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: **"Səma səs çıxardı və buna da haqqı var".**[2]

[Hədisin ərəbcəsindəki] "əl-ətit" sözü bir heyvanın həddindən artıq ağır yükləndikdə çıxardığı səsə deyilir. Hədisin ardı isə belədir: **"Buna da haqqı var. Səmada dörd barmaq böyüklükdə elə bir yer yoxdur ki, orada bir mələk qiyamda, rukuda və səcdədə olmasın".**

Səma yer kimi deyil. Səma yerdən çox-çox böyükdür. Bax, gör yeri əhatə edən birinci səma necə böyük və genişdir. İkinci səma daha genişdir, üçüncü səma ondan da genişdir, dördüncü səma daha genişdir, beşinci səma ondan da genişdir, altıncı səma daha genişdir, yeddinci səma ondan da genişdir. Hər səmada da mələklər var. Hər dörd barmaqlıq bir məsafədə qiyamda, rukuda və ya səcdədə olan mələk vardır. Elə isə, mələklərin sayını kim bilə bilər? Mələklərin sayını bilmiriksə, Peyğəmbərə ﷺ edilən salavatın nə qədər olduğunu bilərikmi? Xeyr. Çünki mələklər Peyğəmbərə salavat deyirlər və onların Peyğəmbərə ﷺ salavatı aramsız davam edir.

---

[1] "əl-Əhzab" surəsi, 56.
[2] "Musnəd İmam Əhməd", 5/173.

Allahın geniş lütfünə bir baxın: O öz Peyğəmbərinə ﷺ heç kimin nail ola bilməyəcəyi bu əzəmətli fəziləti bəxş etmişdir.

**“Həqiqətən də, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər”.** Bizə bu xəbəri verməklə Allah bizi də buna təşviq edir. Ona görə də bundan sonra: **“Ey iman gətirənlər, siz də ona xeyir-dua verib kamil ədəb-ərkanla *onu* salamlayın”**– deyə buyurur. İmanınızla ona salavat deyin. İmanımıza görə bizlərə xitab olunur. Çünki əmrlərə tabe olmağa sövq edən imandır.

**“Ey iman gətirənlər, siz də ona xeyir-dua verib kamil ədəb-ərkanla *onu* salamlayın”.**

**“Ona xeyir-dua verin”,** yəni Allaha dua edin ki, yüksək məqamda onu tərifləsin.

**“Salamlayın”,** yəni Allaha dua edin ki, onu salamlasın: dünya həyatındakı hadisələrdən və ölümündən sonra mənəvi problemlərdən salamat etsin. Mənəvi hadisələrdən, yəni onun şəriətini hökm verənlərin hökmündən, nəsx olunmadan qorusun. Həmçinin ölümündən sonra kimsə onun cəsədinə təcavüz edə bilməsin. Məşhur bir qissədə deyilir ki, iki nəfər Mədinədə Peyğəmbərin ﷺ cəsədini qəbrindən çıxarmaq istəyirlər. Bunun üçün onlar yerin altı ilə lağım atmağa başlayırlar ki, məzara çatıb Peyğəmbərin ﷺ hörmətli cəsədini oradan çıxarsınlar. Onlar bir müddət bu minvalla davam edirlər. Həmin vaxt bir kral yuxuda görür ki, iki nəfər qazaraq Peyğəmbərin ﷺ cəsədini götürmək istəyir. O bir qədər bu barədə soraqlaşır, sonra yola çıxıb Mədinəyə səfər edir və ora çatır. Bəs həmin iki adamı o necə tapsın? Onlar barədə necə məlumat alsın? O gəlib Mədinənin əmirinə deyir ki, Mədinə əhalisinin hamısını mənim yanıma çağır. Çünki o, həmin iki adamı yuxusunda görmüşdü, onları tanıyırdı və onların vəsfi ona bildirilmişdi. Əmir adamları toplayıb onlara yemək verdi, onlar da yeyib getdilər. Lakin o, həmin iki adamı görə bilmədi. Sonra yenə dedi ki, Mədinə əhlini yenə çağır. Beləcə onları iki və ya üç dəfə çağırdı, ancaq həmin iki kişini yenə görə bilmədi. Onun gördüyü yuxu isə haqq yuxusu idi və baş verməli idi. Soruşdu ki, Mədinə əhli haradadır? Dedilər ki, məsciddə qalan iki nəfərdən savayı heç kim qalmayıb. İki nəfər məsciddə adam var, onlar da heç kimin tanımadığı dəyərsiz kimsələrdir. Dedi ki, onları da gətirin. Onlar gələndə görür ki, həmin iki adam yuxuda gördüyü şəxslərdir. Sonra

əmr edir ki, Peyğəmbərin ﷺ məzarının ətrafında xəndək qazılsın. O vaxt oralarda hələ bina inşa edilməmişdi. Sonra həmin xəndəyə mis, qurğuşun və mərmər tökdürür ki, Peyğəmbərin cəsədi qorunsun. Buna görə də Peyğəmbərin ﷺ məzarı tam bir şəkildə qorunur.[1]

Qısası, bir müsəlman: "Allahummə salli va səllim alə Muhəmməd"– dedikdə, həm də demək istəyir ki, onun həm sağ ikən, həm də öldükdən sonra bədənini qoru, onu salamat et. Onun şəriətini də qoru ki, heç kim ona hücum edə bilməsin.

Sonra da bilmək gərəkdir ki, yerin (torpağın) peyğəmbərlərin cəsədlərini yeməsi mümkün deyil. Çünki Allah peyğəmbərlərin cəsədlərini yeməyi torpağa haram buyurmuşdur. Demək, peyğəmbərlərin cəsədləri yerdən salamatdır. Bütün insanların cəsədini yeyən yer peyğəmbərlərin cəsədinə toxunmur.

Xülasə, bu hörmətli ayədə Uca Allah bizə əmr edir ki, peyğəmbəri Muhəmmədə salavat və salam deyək.

Ona salavat demək isə bəzi yerlərdə vacibdir. Məsələn, onun adı sənin yanında çəkildikdə ona salavat de. Belə ki, Cibril Peyğəmbərin ﷺ yanına gəlib demişdi: "Yanında adı çəkildikdə sənə salavat deməyən kəsin burnu yerə sürtülsün".[2]

[Hədisin ərəbcəsində keçən] "rağimə" – yəni torpağa dəyib sürtülsün. Yəni Peyğəmbərin ﷺ adını eşitsən de: "Allahım, ona salavat və salam de!". Çünki onun sənin üzərində haqqı var. Həmçinin bir çox alimlərə görə hər namazın sonuncu təşəhhüdündə salavat demək də vacibdir. Əksər alimlərə görə o, namazın rükünlərindən biridir və onsuz namaz səhih olmur. Bəzi alimlərə görə isə o, sünnə, digərlərinə görə isə vacibdir. Ehtiyat üçün gərək insan namazda onu buraxmasın. Əgər insanın edə biləcəyi bütün dualar Peyğəmbərə ﷺ salavatla müqayisə olunarsa, hədisdə deyildiyi kimi, onun kədəri aradan qalxar və günahı bağışlanar. Ubey ibn Kəb Peyğəmbərə ﷺ belə demişdi: "Ey Allahın elçisi, mən sənə çoxlu salavat deyirəm. Sənə nə qədər salavat desəm yetərlidir?" Peyğəmbər ﷺ dedi: **"İstədiyin qədər".** Soruşdu: "Dörddə bir qədər?" Dedi: **"İstədiyin qədər.**

---

[1] Bax: Səmhudin, "Tamam əl-qissə fi xulasətil-vafə biaxbari daril-Mustafa", 2/175.

[2] "Sunən ət-Tirmizi", 3467.

**Artırsan, bu sənin xeyrinə olar".** Soruşdu: "Yarısını?" Dedi: **"İstədiyin qədər. Artırsan, bu sənin xeyrinə olar".** Soruşdu: "Üçdə ikisi qədər?" Dedi: **"İstədiyin qədər. Artırsan, bu sənin xeyrinə olar"**. Dedi: "Salavatımın hamısını sənə aid edimmi?" Dedi: **"O zaman kədərin aradan qalxar, günahların da bağışlanar".**[1]

Odur ki, qardaşım, Rəsulullaha ﷺ çoxlu salavat de ki, imanın artsın, işlərin isə avand olsun.

Sonra da bil ki, Rəsulullah ﷺ insandır – o sənə nə fayda verə bilər, nə də ki, zərər. Ondan heç bir şey istəmə, demə ki, "Ey Allahın rəsulu, işlərimi asanlaşdır!". Bu haramdır, hətta böyük şirkdir. Çünki Allahdan başqasına dua etmək olmaz. Dua yalnız Allaha olmalıdır, Onun şəriki yoxdur. Uca Allah buyurur: **«Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər"».**[2]

Birdən kimsə soruşsa ki, hansının haqqı daha böyükdür: ata-ananın, yoxsa Rəsulullahın? Deyirik: "Rəsulullahın haqları məxluqatın haqqından daha böyükdür. Ona görə də onu bütün insanlardan daha çox sevməliyik. Rəsulullah sənə sənin özündən, övladından, valideynindən və bütün insanlardan daha sevimli olmalıdır.

Kimsə desə ki, "Məgər Allah valideynin haqqını öz haqqından sonra zikr etmirmi?", deyirik bəli: **"Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur".**[3] Lakin Rəsulullahın haqqı Allahın haqqına tabedir – Allaha ibadət Ona ixlas olmadan, Rəsulullaha da tabe olmadan tamamlanmır. Müvəffəq edən Allahdır.

**Mövzu ilə əlaqəli hədislər:**

١٣٩٧– وعنْ عبد الله بن عمرو بن العاص، رضي الله عنهما أنَّهُ سمِع رسُول الله ﷺ يقُولُ: « من صلَّى عليَّ صلاَةً، صلَّى الله علَيْهِ بهَا عشْراً » رواهُ مسلم.

---

[1] "Sunən ət-Tirmizi", 2457.

[2] "Ğafir" surəsi, 60.

[3] "əl-İsra" surəsi, 23.

**1397.** Abdullah ibn Amr ibn əl-Asdan ﵁ rəvayət olunur ki, o, Rəsulullahın ﷺ belə dediyini eşitmişdir: **"Kim mənə bir dəfə salavat (xeyir-dua) deyərsə, Allah ona on dəfə xeyir-dua verər"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Hafiz ən-Nəvəvi "Rəsulullaha salavat deməyin fəziləti" fəslini qeyd edir. Əmri verən isə Peyğəmbəri ﷺ göndərən izzət və cəlal sahibi Allahdır. Uca və nöqsansız Allah həm mələklərdən, həm də insanlardan elçilər seçir. İzzət və cəlal sahibi Allah istədiyini yaradır və seçir, Öz risaləsini də hara qoyacağını daha yaxşı bilir. Risalələrinin də ən xeyirlisini Muhəmmədə vermiş, onunla da peyğəmbərliyə möhür vurmuşdur. Ondan sonra peyğəmbər olmayacaq. Kim Peyğəmbərdən sonra peyğəmbər olduğunu iddia edərsə, kafirdir. Həmin adama inananlar da kafirdir. Uca Allah buyurur: **"Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyil. Lakin o, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir".**[2]

Uca Allah öz Peyğəmbərinə salavat və salam verilməsini buyurmuşdur: **"Həqiqətən də, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər. Ey iman gətirənlər! Siz də ona xeyir-dua verib kamil ədəb-ərkanla *onu* salamlayın".**[3]

Uca Allah ilk öncə Özü və mələkləri barədə xəbər verir ki, onlar Peyğəmbərə xeyir-dua verirlər. Bildiyiniz kimi, bu ayə "əl-Əhzab" surəsindədir. Həmin surədə Uca Allah öz Peyğəmbərinə ﷺ izzət və cəlal sahibi Allaha qarşı təqvalı olmasını əmr etmişdir. O həmin surədə Peyğəmbərin feili ilə bağlı ən əzəmətli ayəni də nazil etmişdir: **"Ey Peyğəmbər, Allahdan qorx, kafirlərə və münafiqlərə itaət etmə! Həqiqətən, Allah *hər şeyi* biləndir, hikmət sahibidir".**[4]

Uca Allah buyurur: **"Bir zaman Allahın nemət verdiyi və sənin özünün nemət verdiyin *Zeydə*: "Zövcəni öz yanında saxla, Allahdan qorx!"–**

---

[1] "Səhih Muslim", 577.
[2] "əl-Əhzab" surəsi, 40.
[3] "əl-Əhzab" surəsi, 56.
[4] "əl-Əhzab" surəsi, 1.

**deyirdin. Allahın aşkar edəcəyi şeyi ürəyində gizli saxlayır və insanlardan çəkinirdin. Halbuki, əslində qorxmalı olduğun məhz Allahdır".**[1]

Bütün bu böyük hadisələr Rəsulullahın başına gəldikdə Uca Allah bu ayəni nazil etdi: **"Şübhə yoxdur ki, Allaha və Onun rəsuluna əziyyət verənləri Allah həm bu dünyada, həm də Axirətdə lənətləmiş və onlara alçaldıcı bir əzab hazırlamışdır".**[2] Bununla da Rəsulullaha üz vermiş bu hadisələr aradan qalxmış oldu.

**"Mələkləri"** deyildikdə səmalarda və yerdə olan bütün mələklər nəzərdə tutulur. Onların hamısı Peyğəmbərə salavat deyir.

Allahın Peyğəmbərə ﷺ salavat deməsinin mənası onu yüksək məqamda tərifləməsidir. Allah onu yüksək məqamda – mələklərin arasında tərifləyir, onun fəzilətini qeyd edir. Mələklərin və insanların salavat deməsinin mənası isə Allahın onu tərif etməsinə dua etmələridir. Uca Allah həm Özünün, həm də mələklərin Peyğəmbərə salavat dediklərini zikr etdikdən sonra əmr edir ki, biz də ona salavat və salam deyək. Bu əmr isə mütləqdir və zamanı qeyd olunmamışdır. Lakin Sünnədə varid olmuşdur ki, müəyyən məqamlarda Peyğəmbərə salavat demək sünnədir. Məsələn, namazda təşəhhüd zamanı. Səhabələr dedilər ki, "Ey Allahın elçisi, namaz qıldığımız zaman sənə necə salavat və salam verməyi bizə öyrət". Dedi: **"Deyin ki, Allahummə salli alə Muhəmməd..."**. Onun adı çəkildikdə də ya vacib, ya da müstəhəb olaraq ona salavat deyirsən. Varid olmuşdur ki, Cibril عليه السلام Peyğəmbərə ﷺ belə demişdir: "Yanında sənin adın çəkildiyi zaman sənə salavat deməyən adamın burnu yerə sürtülsün. De ki, amin!" O da: "Amin"– dedi.

Onun adı çəkildiyi zaman salavat demək bir çox alimlərə görə vacib, əksər alimlərə görə isə müstəhəbdir.

**"Ona salavat deyin"**, yəni Allahdan ona xeyir-dua verməsini diləyin. Deyin ki, "Allahummə salli alə Muhəmməd". "Ona salam deyin", yəni Allahdan onun üçün hər bir dərddən salamatlıq diləyin. Həyatındakı bütün çətinliklərdən, həşr olunduqda hər türlü bəlalardan salamatlıq diləyin. Çünki bütün peyğəmbərlər həşr günü: "Allahım, salamat et! Allahım, salamat et! Allahım, salamat et!"– deyəcəklər.

---

[1] "əl-Əhzab" surəsi, 37.

[2] "əl-Əhzab" surəsi, 57.

Bu dua özündə həm də Peyğəmbərin ﷺ dini, şəriəti üçün də salamatlığı ehtiva edir ki, düşmənlər ona heç bir şey edə bilməsin – onu təhrif edə bilməsin, dəyişdirə bilməsin, buna cəhd etdiklərində Allah insanlara bunu bəyan edəcək şəxslər göndərsin. Bu da bir reallıqdır. Həmd Allaha məxsusdur.

Sonra müəllif bu xüsusda varid olmuş başqa hədisləri qeyd edir. Bu barədə bir qədər sonra söhbət açacağıq. Daha doğrusunu Allah bilir.

١٣٩٨– وعن ابن مسْعُودٍ رضي الله عنه أنَّ رسُول اللَّهِ ﷺ قال: « أَوْلى النَّاسِ بي يوْمَ الْقِيامةِ أَكْثَرُهُم عَليَّ صلاةً » رواه الترمذي وقال: حديثٌ حسنٌ.

**1398.** İbn Məsuddan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Qiyamət günü mənə ən yaxın olanlar mənə ən çox salavat deyənlərdir"**.

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[1]

١٣٩٩– وعن أوس بن أوس، رضي الله عنه قال: قالَ رسولُ اللَّه ﷺ: « إنَّ مِن أَفْضلِ أيَّامِكُمْ يَوْمَ الجُمُعةِ، فَأَكْثِرُوا عليَّ مِنَ الصلاةِ فيه، فإنَّ صَلاتَكُمْ معْرُوضَةٌ علَيَّ » فقالوا: يا رسول اللَّه، وكَيْفَ تُعرضُ صلاتُنَا عليْكَ وقدْ أرَمْتَ؟، يقولُ :بَلِيتَ، قالَ: « إنَّ اللَّه حَرم على الأَرْضِ أَجْساد الأَنْبِياءِ ».

رواهُ أبو داود بإسنادٍ صحيحٍ.

**1399.** Rəvayət olunur ki, Ovs ibn Ovs رضي الله عنه demişdir: «Rəsulullah ﷺ demişdir: **"Ən əfzəl günlərinizdən biri cümə günüdür. Odur ki, mənə çoxlu salavat deyin, sizin salavatınız mənə ərz olunur".** Dedilər: "Ey Allahın elçisi, sən öldükdən sonra [yaxud dedi: çürüdükdən sonra] bizim salavatımız sənə necə ərz oluna bilər?". Dedi: **"Şübhəsiz ki, izzət və cəlal sahibi Allah peyğəmbərlərin cəsədlərini yerə** (torpağa) **haram etmişdir"».**

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[2]

---

[1] "Sunən ət-Tirmizi", 446.

[2] "Musnəd İmam Əhməd", 4/8; "Sunən Əbu Davud", 1308; "Sunən ən-Nəsai", 1357; "Sunən İbn Macə", 1075.

**Şərh:**

Bu hədislər Peyğəmbərə ﷺ salavatın fəziləti ilə bağlıdır. Salavatın mənası barədə söhbət açdıq. Birinci hədisdə Abdullah ibn Amr ibn əl-Asdan rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim mənə bir dəfə salavat (xeyir-dua) deyərsə, Allah ona on dəfə xeyir-dua verər"**. Yəni desən ki, "Allahummə salli alə Muhəmməd", Allah buna görə sənə on dəfə xeyir-dua verər, həm də səni yüksək məqamda on dəfə tərif edər. Bu da Rəsulullaha ﷺ salavat deməyin fəzilətinə dəlildir. Bu, Allah yanında Peyğəmbərin ﷺ həm də necə yüksək mərtəbədə olduğuna dəlildir. Belə ki, Peyğəmbərə ﷺ salavat deyənə Allah on dəfə xeyir-dua verir.

İkinci hədisdə İbn Məsuddan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ Qiyamət günü ona ən yaxın olacaq adamların ona ən çox salavat deyənlərin olacağını xəbər verir. Qiyamət günü ona ən yaxın olanlar ona ən çox salavat deyənlərdir. Ona Allahın salavatı və salamı olsun! Bu da Peyğəmbərə ﷺ çoxlu salavat deməyə təşviq edir.

Üçüncü hədisdə isə Ovs ibn Ovs رضي الله عنه demişdir ki, Rəsulullah ﷺ cümə günü ona çoxlu salavat deməyi əmr etmişdir. Xəbər vermişdir ki, bizim salavatımız ona ərz olunur – ona deyilir ki, filankəsin oğlu filankəs sənə salavat deyir. Yaxud da ona ərz olunur ki, ümmətindən bir kişi sənə salavat dedi. Salavat deyənin müəyyən olub-olmamasını Allah bilir. Mühüm olan budur ki, o Peyğəmbərə ərz olunur. Onlar dedilər: "Ey Allahın elçisi, sən öldükdən [yaxud çürüdükdən] sonra bizim salavatımız sənə necə ərz oluna bilər?" **"Şübhəsiz ki, izzət və cəlal sahibi Allah peyğəmbərlərin cəsədlərini yerə** (torpağa) **haram etmişdir".** Deməli, peyğəmbərlər nə qədər yerdə qalsalar da yer onları yemir. Peyğəmbər olmayanların isə bədənlərini yeyir. Ola bilsin ki, bəzi adamların bədənlərinə Uca Allah hörmət qoysun və yer onu yeməsin. Lakin peyğəmbərlərdən savayı kiminsə bədəninin çürüməmədiyinə əmin deyilik.

Bu üç hədis Peyğəmbərə ﷺ çoxlu salavat deməyin fəzilətinə dəlildir. Ələlxüsus da cümə günü. Lakin hər bir vaxt ona çoxlu salavat de. Heç şübhəsiz, sən ona bir dəfə salavat desən, Allah sənə on dəfə xeyir-dua verər. Yaxşı olar ki, Peyğəmbərə ﷺ salavatla salam birlikdə verilsin. Lakin ayrıca salavat və ya salam da demək olar.

Allahım, qulun və rəsulun Muhəmmədə, onun ailəsinə və bütün səhabələrinə salavat və salam ver!

١٤٠٠– وعنْ أبي هُريْرةَ ﷺ قال: قال رسُولُ اللَّه ﷺ: « رَغِم أنْفُ رجُلٍ ذُكِرْتُ عِنْدَهُ فَلَمْ يُصَلِّ علَيَّ » رواهُ الترمذي وقالَ: حديثٌ حسنٌ.

**1400.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Yanında adım çəkildikdə mənə salavat deməyən kəsin burnu yerə sürtülsün"**.

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişdir.[1]

١٤٠١– وعنهُ ﷺ قال: قالَ رَسُولُ اللَّه ﷺ: « لا تَجْعلُوا قَبْرِي عِيداً، وَصلُّوا عَلَيَّ، فَإنَّ صَلاتَكُمْ تَبْلُغُني حيْثُ كُنْتُمْ » رواهُ أبو داود بإسناد صحيح.

**1401.** Yenə ondan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Məzarımı ziyarətgaha çevirməyin, mənə salavat deyin. Şübhəsiz ki, harada olsanız da sizin salavatınız mənə çatır"**.

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[2]

١٤٠٢– وعنهُ أنَّ رسُولَ اللَّه ﷺ قال: « ما مِنْ أحد يُسلِّمُ علَيَّ إلاَّ ردَّ اللَّه علَيَّ رُوحي حَتَّى أرُدَّ عَليهِ السَّلامَ ».

رواهُ أبو داود بإسناد صحيحٍ.

**1402.** Yenə ondan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Mənə salam deyən elə bir adam yoxdur ki, buna görə Allah ruhumu bədənimə qaytarmasın, mən də onun salamını qaytarmayım"**.

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[3]

---

[1] "Sunən ət-Tirmizi", 3545.
[2] "Sunən Əbu Davud", 1746.
[3] "Musnəd İmam Əhməd", 2/527; "Sunən Əbu Davud", 1745.

١٤٠٣– وعن عليٍّ ﵁ قال: قال رسُولُ اللهِ ﷺ: « الْبخِيلُ من ذُكِرْتُ عِنْدَهُ، فَلَم يُصَلِّ عليَّ ».

رواهُ الترمذي وقالَ: حديثٌ حسنٌ صحيحٌ.

**1403.** Əlidən ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Paxıl, yanında adım çəkildikdə mənə salavat deməyən kəsdir"**.

Hədisi rəvayət edən Tirmizi: "Bu, həsən səhih hədisdir"– demişdir.[1]

١٤٠٤– وعنْ فَضَالَةَ بنِ عُبَيْدٍ، ﵁، قال: سمِع رسولُ اللهِ ﷺ رَجُلاً يدْعُو في صلاتِهِ لَمْ يُمَجِّدِ اللَّه تَعالى، وَلَمْ يُصلِّ عَلى النبي ﷺ، فقال رسولُ اللَّه ﷺ: « عَجِلَ هذا »، ثمَّ دعَاهُ فقال لهُ أوْ لِغَيْرِهِ: إذا صلَّى أحَدُكُمْ فليبْدأْ بتَحْمِيدِ ربِّهِ سُبْحانَهُ والثَّنَاءِ عليهِ، ثُمَّ يُصلي عَلى النبي ﷺ ثُمَّ يدْعُو بَعدُ بِما شاءَ ».

رواهُ أبو داود والترمذي وقالا: حديثٌ حسن صحيحٌ.

**1404.** Rəvayət olunur ki, Fudalə ibn Ubeyd ﵁ demişdir: "Bir dəfə Allahın elçisi ﷺ namaz qılan bir kişinin Uca Allaha tərif etmədən, Peyğəmbərə də salavat demədən dua etdiyini eşidir. Rəsulullah ﷺ dedi: **"Bu adam tələsdi"**. Sonra onu çağırıb ona və başqalarına belə dedi: **"Biriniz namaz qıldıqda Uca və nöqsansız Allaha həmd-səna etməklə başlasın, sonra Peyğəmbərə salavat desin, sonra da dilədiyi duaları etsin"**.

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş və: "Bu, həsən səhih hədisdir"– demişlər.[2]

**Şərh:**

Bu dörd hədis də Peyğəmbərə ﷺ salavat və salam deməyi əmr edir və onun fəzilətindən bəhs edir. Həmin hədislərin birində Əbu Hureyradan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Məzarımı ziyarətgaha çevirməyin, mənə salavat deyin. Şübhəsiz ki, harada olsanız da sizin salavatınız mənə çatır"**.

---

[1] "Sunən ət-Tirmizi", 3469.

[2] "Sunən Əbu Davud", 1266; "Sunən ət-Tirmizi", 3399.

Yəni, məzarımı hər il bir və ya iki dəfə gəldiyiniz bir ziyarətgaha çevirməyin. Bu da dəlildir ki. Peyğəmbərin ﷺ qəbrini ziyarət etmək məqsədilə səfərə çıxmaq haramdır. Onun məscidində namaz qılmaq məqsədilə səfərə çıxmaq isə olar. Çünki Məscidul-haram istisna olmaqla, onun məscidində namaz qılmaq başqa yerlərdəki min namazdan daha xeyirlidir.

Peyğəmbər ﷺ demişdir: "**Mənə salavat deyin. Şübhəsiz ki, harada olsanız da sizin salavatınız mənə çatır"** – yerdə, göydə və ya dənizdə, yaxında və ya uzaqda olmağından asılı olmayaraq harada olursansa-ol, Peyğəmbərə ﷺ dediyin salavat ona çatır.

İkinci hədisdə deyilir ki, hər hansı bir müsəlman kəs Peyğəmbərə ﷺ salavat dedikdə Allah onun ruhunu özünə qaytarır və o salama cavab verir. Sən Peyğəmbərə ﷺ salavat desən, Allah onun ruhunu özünə qaytaracaq və o sənin salamını alacaq. Ola bilsin ki, bu, ona yaxın olan kəslərə aiddir. Məsələn, onun məzarının yaxınlığında deyir ki: "Əssəlamu aleykə əyyuhən-nəbiyyu va rahmətullahi va bərakətuh". Ola da bilsin ki, bu hər kəsə şamil olunsun. Şübhəsiz ki, Allah hər şeyə qadirdir.

Sonra müəllif رحمه الله Əli ibn Əbu Talibin رضي الله عنه və Fudalə ibn Ubeydin رضي الله عنه hədislərini qeyd edir.

Fudalənin hədisində məqsəd təşəhhüddür. Həmin adam namazında təşəhhüd etmiş, lakin Allaha həmd-səna etmədən və Peyğəmbərə salavat demədən birbaşa dua etmişdi. Məlum məsələdir ki, təşəhhüddə aşağıdakılar vardır:

Birinci: "ət-təhiyyətu lilləhi vas-salavatu vat-tayyibətu" sözündə tərif (həmd-səna);

İkinci: "əssələmu aleykə əyyuhən-nəbiyyu..." sözündə salavat,

Üçüncü: istənilən dua.

Fudalə ibn Ubeydin رضي الله عنه hədisindən anlaşılır ki, burada məqsəd namazdakı duadır. Gərək əvvəlcə Allah tərif edilsin, sonra Peyğəmbərə salavat və salam deyilsin, sonra da dua edilsin. Müvəffəq edən Allahdır.

١٤٠٥– وعن أبي محمد كَعب بن عُجرَةَ، رضي الله عنه، قال: خَرج علَيْنَا النبي ﷺ فقُلْنا: يا رسول اللَّه، قَدْ عِلِمْنَا كَيْف نُسلِّمُ عليْكَ فَكَيْفَ نُصَلِّي علَيْكَ؟ قال: « قُولُوا: اللَّهمَّ صَلِّ على

مُحمَّدٍ، وَعَلى آلِ مُحمَّد، كَمَا صَلَّيْتَ عَلى آلِ إبْرَاهِيمَ، إنَّكَ حمِيدٌ مجيدٌ. اللهُمَّ بارِكْ عَلى مُحَمَّد، وَعَلى آلِ مُحَمَّد، كَما بَارَكْتَ على آلِ إبْراهِيم، إنَّكَ حميدٌ مجيدٌ » .متفقٌ عليهِ.

**1405.** Əbu Muhəmməd Kəb ibn Ucradan ﷺ rəvayət olunur ki, bir dəfə Peyğəmbər ﷺ bizim yanımıza gəldi, biz də dedik: "Ey Allahın elçisi, bizə de, bilək ki, sənə necə salavat və salam deyək". O dedi: **"Deyin ki: Allahım, İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və onun ailəsinə də xeyir-dua ver. Şübhəsiz ki, Sən həmdə və tərifə layiqsən. Allahım, İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və onun ailəsinə də bərəkət ver. Şübhəsiz ki, Sən həmdə və tərifə layiqsən"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٤٠٦– وعنْ أبي مسْعُود الْبدْريِّ، رضي الله عنه ، قالَ: أَتاناَ رسُولُ اللَّهِ ﷺ، وَنَحْنُ في مَجْلِس سعد بنِ عُبَادَةَ رضي الله عنه ، فقالَ لهُ بَشِيرُ بْنُ سعدٍ: أمرَنَا اللَّه أنْ نُصلِّي علَيْكَ يا رسولَ اللَّهِ، فَكَيْفَ نُصَّلي علَيْكَ؟ فَسكَتَ رسولُ اللَّه ﷺ، حتى تَمنَّيْنَا أنَّه لمْ يَسْأَلْهُ، ثمَّ قال رسولُ اللَّه ﷺ ، قولُوا: اللَّهمَّ صلِّ عَلى مُحَمَّدٍ، وَعَلى آلِ مُحمَّدٍ، كما صليْتَ على آل إبْراهِيم، وَبارِكْ عَلى مُحَمَّد، وعَلى آلِ مُحمَّد، كما بَارَكْتَ عَلى آل إبْراهِيم، إنكَ حمِيدٌ مجِيدٌ، والسلام كما قد عَلِمتم » رواهُ مسلمٌ.

**1406.** Rəvayət olunur ki, Əbu Məsud əl-Bədri ﷺ demişdir: «Biz Səd ibn Ubadənin məclisində ikən Rəsulullah ﷺ bizim yanımıza gəldi. Bəşir ibn Səd ona dedi: "Ey Allahın elçisi, Allah bizə əmr edib ki, sənə salavat deyək. Bəs salavatı necə edək?" Peyğəmbər bir qədər susdu. Hətta biz o sualı verməməyimizi təmənna etdik. Sonra Rəsulullah ﷺ dedi: **"Deyin ki: "Allahım, İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və onun ailəsinə də xeyir-dua ver. Allahım, İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və onun ailəsinə də bərəkət ver. Şübhəsiz ki, Sən həmdə və tərifə layiqsən". Salam isə bildiyiniz kimidir"**».

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

---

[1] "Səhih əl-Buxari", 2119; "Səhih Muslim", 614.
[2] "Səhih Muslim", 613.

١٤٠٧– وعَنْ أبي حُمَيْدٍ السَّاعِديِّ، ﷺ، قالَ: قَالُوا يا رسول الله كَيْفَ نُصَلِّي عَلَيْكَ؟ قالَ: « قولُوا: اللَّهُمَّ صلِّ على مُحمّدٍ، وعَلى أزْواجِهِ وَذُرِّيَّتِهِ، كما صَلَّيْتَ على إبْراهِيمَ، وبارِكْ عَلى مُحَمَّدٍ، وعَلى أَزْوَاجِهِ وذُرِّيَّتِهِ، كما بارَكتَ على إبْراهِيم، إنَّكَ حمِيدٌ مجِيدٌ ». متفقٌ عليهِ.

**1407.** Əbu Humeyd əs-Saidi ﷺ demişdir: "Soruşdular ki, ey Allahın elçisi, sənə necə salavat deyək? Dedi: **"Deyin ki: "Allahım, İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə, onun zövcələrinə və zürriyyətinə də xeyir-dua ver. Allahım, İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə, onun zövcələrinə və zürriyyətinə də bərəkət ver. Şübhəsiz ki, Sən həmdə və tərifə layiqsən".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

**Şərh:**

Bu üç hədis Peyğəmbərə ﷺ necə salavat deməyi bəyan edir.

Kəb ibn Ucranın ﷺ hədisində deyilir ki, onlar Peyğəmbərdən ﷺ ona necə salavat deyəcəklərni soruşdular. Çünki o, onlara necə salam verməyi öyrətmişdi. Onlara öyrətmişdi ki: "Əssələmu aleykə əyyuhənnəbiyyu va rahmətullahi va bərakətuh"– desinlər. Salavatı öyrədəndə isə dedi: **"Deyin ki: Allahım, İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və onun ailəsinə də xeyir-dua ver".**

Daha öncə qeyd etdik ki, Allahın insana salavat deməsi onu yüksək məqamda tərifləməsi anlamındadır. "Peyğəmbərin ailəsi" deyildikdə, onun dininə bütün tabe olanlar nəzərdə tutulur. Ola bilsin, onun qohumları da nəzərdə tutulsun. Lakin dua məqamında ümumi şəkildə nəzərdə tutulmalıdır. Çünki bu daha əhatəlidir. "Va alə ali Muhəmməd" (Muhəmmədin ailəsinə də) deyildikdə bütün tabe olanlar nəzərdə tutulur. Kimsə desə ki: "Məgər "ailə" sözü tabe olanlar mənasında işlənir?", biz deyirik: "Bəli. Uca Allah buyurur: **"Onları səhər-axşam oda salırlar. *Qiyamət* saatı gələcəyi gün isə; Firon nəslini ən şiddətli əzaba salın!"**[2]

---

[1] "Səhih əl-Buxari", 3118; "Səhih Muslim", 615.

[2] "Ğafir" surəsi, 46.

Alimlər demişlər: "Mənası budur ki, ona tabe olanları şiddətli bir əzaba daxil edin". Uca Allah buyurur: **"*Firon* Qiyamət günü öz qövmünün qabağına düşüb onları Oda aparacaq. Girəcəkləri yer nə pis yerdir!".**[1]

**"İbrahimə və onun ailəsinə xeyir-dua verdiyin kimi"**. [İfadənin ərəbcəsində] buradakı "kəf" hərfi açıqlama mənasındadır. Bu da Allahın əvvəlki feilləri ilə edəcəyi feillərə təvəssülün bir növüdür. Yəni İbrahimə xeyir-dua verdiyin kimi, Muhəmmədə də xeyir-dua ver. Demək bu səbəb babındandır, bənzətmə babından deyil. Bununla da bəzi elm əhlinin gətirdiyi irad aradan qaxmış olur. Onlar deyirlər ki, Muhəmməd peyğəmbərlərin ən xeyirlisi olduğu halda ona salavat deməyi necə İbrahimin salavatına bənzəmək olar? Cavab da budur ki, buradakı "kəf" hərfi bənzətmə mənasında deyil, sadəcə səbəbi bildirir.

**"... Şübhəsiz ki, Sən həmdə və tərifə layiqsən"**. [Ərəbcədə işlənən] "həmid" (حَمِيدٌ), yəni "həmd olunan", "məcid" (مَجِيدٌ), yəni "ucalan"; "məcid", yəni həm də əzəmət, səltənət, izzət, qüdrət və s.

**"Allahım, İbrahimə, onun ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və onun ailəsinə də xeyir-dua ver. Şübhəsiz ki, Sən həmdə və tərifə layiqsən".** Həmçinin "təbrik" də belədir. Onu isə belə deyirik: "... Allahım, Muhəmmədə və onun ailəsinə də bərəkət ver". Yəni onların üzərinə bərəkət nazil et. Bərəkət çoxlu, geniş və sabit bir xeyirdir.

**"İbrahimə, onun ailəsinə xeyir-dua verdiyin kimi... Şübhəsiz ki, Sən həmdə və tərifə layiqsən".** Peyğəmbərə salavat və salam bu cürdür. Fəzilətli deyiliş forması belədir.

Bir çox alimlərin öz kitablarında etdikləri qısaltma kimi, yəni sadəcə: "Allahummə salli alə Muhəmməd" deməklə kifayətlənsən də caizdir.

Əbu Məsud əl-Bədridən (onun da adı Zeyddir) və Əbu Humeyd əs-Saididən nəql olunan hədislərin ləfzi buna yaxındır. Sadəcə Əbu Humeyd əs-Saidinin ﷺ ləfzində zövcələr və zürriyyət sözləri işlənmişdir.

Burada Peyğəmbərin ﷺ zövcələri, yəni xanımları nəzərdə tutulur. Peyğəmbər ﷺ vəfat edərkən onun doqquz zövcəsi olmuşdur. O, öz vaxtını səkkiz zövcəsi arasında bölürdü. Doqquzuncu Səudə isə öz vaxtını Aişəyə ﷺ vermişdi. Beləliklə, Peyğəmbər Aişəyə ﷺ iki gün ayırırdı: öz

[1] "Hud" surəsi, 98.

gününü, bir də Səudənin gününü. Digər zövcələrinin arasında da vaxtını ədalətlə bölər və buna əmr edərdi.

Xülasə, müəllifin qeyd etdiyi bu üç hədisdəki üç deyiliş forması bir-birinə yaxındır və Peyğəmbərə ﷺ salavat və salamın kamil formasını əhatələyir.

Ona, ailəsinə, səhabələrinə və Qiyamət gününədək ona tabe olacaq kəslərə Allahın salavatı və salamı olsun!

# ZİKRLƏR KİTABI

## İki yüz qırx dördüncü fəsil

### Zikr etməyin fəziləti və ona təşviq

**Mövzu ilə əlaqəli ayələr:**

Uca Allah buyurur:

﴿ وَلَذِكۡرُ ٱللَّهِ أَكۡبَرُ ﴾

**“Allahı zikr etmək isə daha böyükdür”.**[1]

﴿ وَٱذۡكُر رَّبَّكَ فِي نَفۡسِكَ تَضَرُّعٗا وَخِيفَةٗ وَدُونَ ٱلۡجَهۡرِ مِنَ ٱلۡقَوۡلِ بِٱلۡغُدُوِّ وَٱلۡأٓصَالِ وَلَا تَكُن مِّنَ ٱلۡغَٰفِلِينَ ﴾

**“Səhər-axşam ürəyində yalvararaq və qorxaraq, səsini qaldırmadan Rəbbini yad et və qafillərdən olma”.**[2]

﴿ وَٱذۡكُرُواْ ٱللَّهَ كَثِيرٗا لَّعَلَّكُمۡ تُفۡلِحُونَ ﴾

**“Allahı çox zikr edin ki, bəlkə nicat tapasınız”.**[3]

﴿ إِنَّ ٱلۡمُسۡلِمِينَ وَٱلۡمُسۡلِمَٰتِ وَٱلۡمُؤۡمِنِينَ وَٱلۡمُؤۡمِنَٰتِ وَٱلۡقَٰنِتِينَ وَٱلۡقَٰنِتَٰتِ وَٱلصَّٰدِقِينَ وَٱلصَّٰدِقَٰتِ وَٱلصَّٰبِرِينَ وَٱلصَّٰبِرَٰتِ وَٱلۡخَٰشِعِينَ وَٱلۡخَٰشِعَٰتِ وَٱلۡمُتَصَدِّقِينَ وَٱلۡمُتَصَدِّقَٰتِ وَٱلصَّٰٓئِمِينَ وَٱلصَّٰٓئِمَٰتِ وَٱلۡحَٰفِظِينَ فُرُوجَهُمۡ وَٱلۡحَٰفِظَٰتِ وَٱلذَّٰكِرِينَ ٱللَّهَ كَثِيرٗا وَٱلذَّٰكِرَٰتِ أَعَدَّ ٱللَّهُ لَهُم مَّغۡفِرَةٗ وَأَجۡرًا عَظِيمٗا ﴾

---

[1] “əl-Ənkəbut” surəsi, 45.
[2] “əl-Əraf” surəsi, 205.
[3] “əl-Cumuə” surəsi, 10.

**“Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, müti kişilər və müti qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, səbirli kişilər və səbirli qadınlar, *Allaha* baş əyən kişilər və baş əyən qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və *ismətlərini* qoruyan qadınlar, Allahı çox zikr edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır”.**[1]

﴿ يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ ٱذْكُرُوا۟ ٱللَّهَ ذِكْرًا كَثِيرًا * وَسَبِّحُوهُ بُكْرَةً وَأَصِيلًا ﴾

**“Ey iman gətirənlər, Allahı çox zikr edin; səhər-axşam Onun şəninə təriflər deyin!”.**[2]

Bu fəsilə aid ayələr çox və məlumdur.

**Şərh:**

Müəllif ﷺ “Salehlər bağçası” əsərinin bu yerində “Zikrlər kitabı”na başlayır.

[Ərəb dilində] “əl-əzkar” “zikr” sözünün cəmidir. Məqsəd izzət və cəlal sahibi Allahı zikr etməkdir.

Sonra o **“Zikr etməyin fəziləti və ona təşviq”** fəslində bir sıra ayələri qeyd edir.

Bilmək lazımdır ki, Uca Allahı zikr etmək qəlblə də olur, dil ilə də olur, bədən üzvləri ilə də olur. Qəlblə zikr düşünməkdir. İnsan Allahın adları, sifətləri, hökmləri, feilləri və ayələri barədə düşünür. Dil ilə zikr etməyə gəlincə, bu, bəllidir – izzət və cəlal sahibi Allaha yaxınlaşdıran hər bir sözə şamil olunur. “La ilahə illəllah”, “sübhanallah”, “Allahu Əkbər” demək, Quran oxumaq, yaxşı işlərə dəvət etmək, pis işlərdən çəkindirmək, Sünnəni oxumaq və elm almaq da buna aiddir.

Feillərə gəlincə isə burada bədən üzvləri ilə zikr etmək nəzərdə tutulur. Bu da Allaha yaxınlaşdıran hər bir əməl, o cümlədən qiyam, namaz, ruku, səcdə, oturma və başqa əməllərdir. Lakin adətən Uca Allahı zikr etməyə, “sübhanallah”, “əlhəmdulilləh”, “Allahu Əkbər”, “la ilahə illəllah”

---

[1] “əl-Əhzab” surəsi, 35.
[2] “əl-Əhzab” surəsi, 41-42.

zikrlərini etməyə də deyilir. Müəllif bu xüsusda bəzi ayələri zikr edir ki, onlardan da biri Uca Allahın bu ayəsidir: **“Ey iman gətirənlər, Allahı çox zikr edin; səhər-axşam Onun şəninə təriflər deyin!”**[1]

Uca Allah möminlərə xitab edərək onlara əmr edir ki, Allahı hər zaman, hər bir halda, hər bir məkanda çoxlu zikr etsinlər.

**“Allahı çox zikr edin; səhər-axşam Onun şəninə təriflər deyin!”** Yəni səhər və axşam – gündüzün əvvəlində və sonunda “sübhanallah” deyin. Ola bilsin ki, burada bütün gündüz və gecə boyu nəzərdə tutulsun.

Uca Allah buyurur: **“Allahı çoxlu zikr edin ki, bəlkə nicata çatasınız”.**[2] Burada hətta düşmənlə üz-üzə gəldikdə belə Allahı zikr etmək nəzərdə tutulur. Uca Allah buyurur: **“Ey iman gətirənlər! *Kafir* bir dəstə ilə üz-üzə gəldikdə möhkəm durun və Allahı çox yad edin ki, bəlkə nicat tapasınız”.**[3]

Uca Allah qeyd edir ki, sabitliyin və nicatın səbəblərindən biri zikrdir. Nicat isə ümumi bir sözdür, istəyə nail olmaq və qorxulandan xilas olmağa şamil olunur.

Uca Allah buyurur: **“Kitabdan sənə vəhy olunanları oxuyub namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir. Allahı zikr etmək *isə* daha böyükdür”.**[4] Burada **“Allahı zikr etmək daha böyükdür”** deyildiyi üçün demişlər ki, Allahı zikr etmək ümumiyyətlə daha böyük bir şeydir. Belə ki, insan namaz qıldıqda bu onun qəlbinin yaşamasına, izzət və cəlal sahibi Allahı daha yaxşı zikr etməsinə səbəb olur.

Uca Allah qullarından bir qismini zikr edərək buyurur: **“Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, müti kişilər və müti qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, səbirli kişilər və səbirli qadınlar, *Allaha* baş əyən kişilər və baş əyən qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və *ismətlərini* qoruyan qadınlar, Allahı çox zikr edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır”.**[5]

---

[1] “əl-Əhzab” surəsi, 41-42.
[2] “əl-Cumuə” surəsi, 10.
[3] “əl-Ənfal” surəsi, 45.
[4] “əl-Ənkəbut” surəsi, 45.
[5] “əl-Əhzab” surəsi, 35.

O həmçinin buyurur: **“Elə isə siz Məni yad edin ki, Mən də sizi yad edim! Mənə şükür edin, Mənə küfr etməyin!”.**[1]

Bu xüsusda ayələr olduqca çoxdur və onların hamısı zikr etməyin fəzilətinə və ona təşviqə aiddir. Uca Allah ayaq üstə olanda da, oturduqda da, uzandıqda da Allahı zikr edənləri tərif edir, onların ağıl sahibi olduğunu bildirir: **“Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər, göylərin və yerin yaradılışı haqqında düşünər** ***və deyərlər:*** **“Ey Rəbbimiz, Sən bunları əbəs yerə yaratmamısan, Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!”.**[2]

Əsas olun budur ki, davamlı olaraq Allahı: “la ilahə illəllah”, “sübhanallah”, “əlhəmdulilləh”, “Allahu əkbər” sözləri ilə zikr edək. Bunların isə, Allaha həmd olsun ki, həm deyilişi asandır, həm də əcri böyükdür. Allah bizi və sizi Onu çoxlu zikr edən kişi və qadınlardan etsin. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

**Mövzu ilə əlaqəli hədislər:**

١٤٠٨– وعَنْ أبي هُريرةَ، رضي الله عنه قالَ: قالَ رَسُولُ اللَّهِ ﷺ: « كَلِمتَانِ خَفِيفَتَانِ عَلى اللِّسانِ، ثَقِيلَتانِ في المِيزَانِ، حَبِيبَتَانِ إلى الرَّحْمنِ:سُبْحان اللَّهِ وَبِحَمْدِهِ، سُبحانَ اللَّه العظيمِ». متفقٌ عليهِ.

**1408.** Əbu Hureyradan رضي الله عنه nəql olunan hədisdə o demişdir: «Rəsulullah ﷺ demişdir: **“İki kəlmə vardır ki, onlar dildə yüngül, tərəzidə ağır, ər-Rəhmana sevimli sözlərdir: subhanallahi və bihəmdihi və sübhanallahil azim”**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

١٤٠٩– وعَنْهُ رضي الله عنه قال: قالَ رَسُولُ اللَّه ﷺ: « لأن أَقُولَ سبْحانَ اللَّهِ، وَالحَمْدُ للَّهِ، ولا إلَه إلاَّ اللَّه، وَاللَّه أكْبرُ، أَحبُّ إليَّ مِمَّا طَلَعَت عليهِ الشَّمْسُ » رواه مسلم.

---

[1] “əl-Bəqərə” surəsi, 152.
[2] “Ali İmran” surəsi, 190-191.
[3] “Səhih əl-Buxari”, 5927; “Səhih Muslim”, 4860.

**1409.** Yenə Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Mənim üçün "sübhanallah", "əlhəmdulilləh", "la ilahə illəllah", "Allahu Əkbər" deməyim günəşin üzərinə doğduğu hər bir şeydən daha sevimlidir".**

Hədisi Muslim rəvayət etmişdir.[1]

١٤١٠– وعنهُ أنَّ رسُولَ اللَّه ﷺ قالَ: « منْ قال لا إله إلاَّ اللَّه وَحْدَهُ لا شرِيكَ لَهُ، لهُ المُلكُ، وَلهُ الحَمْدُ، وَهُوَ عَلى كُلِّ شَيءٍ قَدِيرٌ، في يومٍ مِائةَ مَرَّةٍ كانَتْ لَهُ عَدْل عَشر رقَابٍ وكُتِبَتْ لَهُ مِائَةُ حَسَنةٍ، وَمُحِيت عنهُ مِائة سيِّئَةٍ، وكانت له حِرزاً مِنَ الشَّيطَانِ يومَهُ ذلكَ حتى يُمسِي، ولم يأْتِ أَحدٌ بِأَفضَل مِمَّا جاءَ بِهِ إلاَّ رجُلٌ عَمِلَ أَكثَر مِنه »، وقالَ: «من قالَ سُبْحَانَ اللَّهِ وَبحمْدِهِ، في يوْم مِائَةَ مَرَّةٍ، حُطَّتْ خَطَايَاهُ، وإنْ كَانَتْ مِثْلَ زَبَدِ البَحْر » متفقٌ عليهِ.

**1410.** Yenə ondan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim gündə yüz dəfə: "la ilahə illəllah, vahdəhu lə şərikə ləh, ləhul-mulk va ləhul-həmd, va huvə alə kulli şeyin qadir"– deyərsə, bu onun üçün on kölə azad etməsinə *bərabər olar*, ona yüz savab yazılmasına, ondan yüz günah silinməsinə səbəb olar, həm də onu axşama qədər şeytandan qoruyar. Ondan daha çoxunu edən adam istisna olmaqla, *bu işdə* heç kim ondan üstün ola bilməz".** Sonra dedi: "**Kim gün ərzində bir dəfə: "Sübhanallahi va bihəmdihi"– deyərsə, günahları dənizdəki ləpələr qədər olsa belə, silinər".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

**Şərh:**

Əbu Hureyradan ﵁ nəql olunan bu hədislərin hər üçü zikrin fəzilətinə dəlalət edir.

Onlardan birincisində Peyğəmbər ﷺ demişdir: «**İki kəlmə vardır ki, onlar dildə yüngül, tərəzidə ağır, ər-Rəhmana sevimli sözlərdir: "sübhanallahi va bihəmdihi" və "sübhanallahil-azim"**».

---

[1] "Səhih Muslim", 4861.

[2] "Səhih əl-Buxari", 5926; "Səhih Muslim", 4857.

Peyğəmbərin ﷺ dediyi kimi, bu iki kəlmə dildə çox asan, tərəzidə isə ağır gələn sözlərdir – Qiyamət günü əməllər tərəziyə qoyulduqda bu iki kəlmə də tərəziyə qoyulacaq və ağır gələcək.

**"ər-Rəhmana sevimlidir"**. Bu da ən əzəmətli iki savabdır ki, Uca Allah bu iki kəlməni sevir. Həm zikri sevir, həm də onu deyəni. Bu iki kəlmə Uca və nöqsansız Allahın insanı sevməsinə səbəblərdəndir.

**"Sübhanallahi va bihəmdihi".** Bunu deməklə sən Uca Allahı hər bir eyib və nöqsandan uzaqlaşdırır və bildirirsən ki, Uca Allah hərtərəfli kamildir. Bu zikrdə Allaha həmd də edirsən ki, bu da Onun öz qullarına qarşı kamil fəzilət və ehsanına, tam bir hikmətinə və elminə və kamilliklə bağlı başqa məsələlərə dəlalət edir.

**"Sübhanallahil-azim",** yəni əzəmət və cəlal sahibi Allahdan səltənət, böyüklük, hikmət və elm baxımından daha əzəmətli bir varlıq yoxdur. O, həm zatı, həm də sifətləri ilə ən böyükdür, izzət və cəlal sahibidir. Allah nöqsansızdır, Ona həmd olsun, əzəmətli Allah nöqsansızdır.

İnsan bu zikrləri gərək çox və davamlı şəkildə etsin. Çünki bu sözlər tərəzidə ağır gələcək, ər-Rəhmanı razı salacaq, deyilişi də dil üçün olduqca asandır: "Sübhanallahi va bihəmdihi və sübhanallahil-azim".

Sonra müəllif رحمه الله Əbu Hureyradan رضي الله عنه nəql olunan ikinci hədisi qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Mənim üçün "sübhan-allah", "əlhəmdulilləh", "la ilahə illəllah", "Allahu Əkbər" deməyim günəşin üzərinə doğduğu hər bir şeydən daha sevimlidir".** Yəni bütün dünyadan daha sevimlidir. Bunlar da asan kəlmələrdir: "sübhanallah", "əlhəmdulilləh", "la ilahə illəllah", "Allahu Əkbər".

İndi insanlar səfərə çıxıb çöllüklər, səhralar, həlakedici yerlər və uzaq məsafələri qət edirlər ki, azacıq dünya mənfəəti əldə edib ondan həzz alsınlar. Ola bilsin, həmin mənfəətləri heç əldə edə bilməsinlər də, lakin bəzən insan bunları da deməkdə aciz olur. Çünki şeytan onu tənbəlləşdirir, alçaldır və zəiflədir. Əslində isə bu sözlər Rəsulullahın ﷺ da dediyi kimi, insan üçün günəşin doğduğu hər bir şeydən daha sevimlidir. Fərz et ki, bütün dünyanın mülkü sənə məxsusdur. Sonra ölüm gəlir. Sən bundan nə fayda alırsan? Heç bir şey. Lakin "sübhanallah", "əlhəmdulilləh", "la ilahə illəllah" və "Allahu əkbər" zikrləri qalıcı saleh əməllərdir. Uca Allah buyurur: **"Var-dövlət və övladlar dünya həyatının bər-bəzəyidir. Əbədi**

**qalan yaxşı əməllər isə Rəbbinin yanında savab və ümid baxımından daha əfzəldir".**[1] Gərək bizlər də bu yaxşı işləri görməkdən ötrü fürsətləri fövtə verməyək.

Üçüncü və dördüncü hədislərə gəlincə isə onlarda deyilir ki: **"Kim gündə yüz dəfə: "la ilahə illəllah, vahdəhu lə şərikə ləh, ləhul-mulk va ləhul-həmd, va huvə alə kulli şeyin qadir"– deyərsə** bu beş şeyə nail olar:

Birinci: on kölə azad etmiş kimi olar.

İkinci: ona yüz savab yazılar.

Üçüncü: onun yüz günahı silinər.

Dördüncü: axşama qədər şeytandan qorunar.

Beşinci: Ondan daha çoxunu edən adam istisna olmaqla, *bu işdə* heç kim ondan üstün ola bilməz.

Beş fəzilət. Yüz dəfə: "la ilahə illəllah, vahdəhu lə şərikə ləh, ləhul-mulk va ləhul-həmd, va huvə alə kulli şeyin qadir" desən bunlara nail olarsan. Özü də bu zikr çox asandır. Məscidə gəlib sübh namazını gözlədiyin zaman bunu deyə bilərsən, həmçinin sübhdən sonra bunları deyib faydalana bilərsən. İnsan bu sözləri davamlı olaraq səhər vaxtı deməlidir ki, şeytandan qorunmuş olsun.

**"Sübhanallahi va bihəmdihi"** sözlərini yüz dəfə deyən kəsin isə günahları dənizdəki ləpələr qədər olsa belə, silinər. Bu sözləri axşam vaxtı deyirsən ki, günorta etdiyin günahlar silinsin.

Odur ki, əziz qardaş, fürsətdən istifadə et. Ömür gedir və qayıtmır. Ömründən gedənlər bir daha sənə qayıtmayacaq. Bu əməllərin özləri asan, savabı isə olduqca böyükdür. Allahdan diləyirəm ki, bizi və sizi Onu zikr etməyə, Ona şükür etməyə və Ona gözəl şəkildə ibadət etməyə müvəffəq etsin.

١٤١١– وعَنْ أبي أيوبَ الأنصَاريِّ رضي الله عنه عَن النبي صلى الله عليه وسلم قال: « مَنْ قالَ لا إله إلاَّ اللَّه وحْدهُ لا شَرِيكَ لهُ، لَهُ المُلْكُ، ولَهُ الحمْدُ، وَهُو على كُلِّ شَيءٍ قَدِيرٌ، عشْر مرَّاتٍ: كان كَمَنْ أَعْتَقَ أرْبعةَ أَنفُسٍ مِن وَلِد إسْماعِيلَ » متفق عليهِ.

---

[1] "əl-Kəhf" surəsi, 46.

**1411.** Əbu Əyyub əl-Ənsaridən ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim on dəfə "la ilahə illəllah, vahdəhu lə şərikə ləh, ləhul-mulk va ləhul-həmd, va huvə alə kulli şeyin qadir" deyərsə, İsmayıl övladlarından dörd nəfəri azad etmiş kimi olar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٤١٢– وعنْ أبي ذَرٍّ رضي الله عنه قالَ: قالَ لي رسولُ الله ﷺ: « ألا أُخْبِرُكَ بِأَحبِّ الكَلامِ إلى اللَّهِ؟ إنَّ أحبَّ الكَلامِ إلى اللَّه: سُبْحانَ اللَّه وبحَمْدِهِ » رواه مسلم.

**1412.** Əbu Zər ﷺ nəql edir ki, Peyğəmbər ﷺ ona dedi: **«Allaha ən sevimli olan kəlmələr barədə sənə xəbər verimmi? Həqiqətən, Allaha ən sevimli olan kəlmələr bunlardır: "sübhanallahi va bihəmdihi"».**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٤١٣– وعَنْ أبي مالكٍ الأشْعَرِيِّ رضي الله عنه قال: قال رسُولُ اللَّه ﷺ: «الطُّهُورُ شَطْرُ الإيمان، والحمدُ للَّهِ تَمْلأُ المِيْزانَ، وسُبْحَانَ اللَّهِ والحمْدُ للَّه تمْلآنِ أو تَمْلأُ ما بَيْنَ السَّمَواتِ والأرْضِ ». رواهُ مسلم.

**1413.** Əbu Malik əl-Əşaridən ﷺ rəvayət olunur ki, o demişdir: «Rəsulullah ﷺ demişdir: **"Təmizlik imanın bir hissəsidir. "əlhəmdulilləh" tərəzini doldurandır, "sübhanallah" və "əlhəmdulilləh" də** ***tərəzini*** **doldurur, yaxud səmalarla yerin arasını doldurur"**».

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

١٤١٤– وعَنْ سعْدِ بنِ أبي وقَّاصٍ رضي الله عنه قال: جاءَ أَعْرَابي إلى رسُولِ اللَّه ﷺ فقال: علِّمْني كَلاماً أَقُولُهُ. قال: « قُل لا إله إلاَّ اللهُ وحدَهُ لا شريكَ لهُ، اللَّه أَكْبَرُ كَبِيراً، والحمْدُ للَّهِ كَثيراً، وسُبْحانَ اللَّه ربِّ العالمِينَ، ولا حوْل وَلا قُوَّةَ إلاَّ باللَّهِ العَزيز الحكيمِ »، قال: فَهؤلاء لِرَبِّي، فَما لي؟ قال: « قُل: اللَّهُمَّ اغْفِرْ لي وارْحمني. واهْدِني، وارْزُقْني ». رواه مسلم.

---

[1] "Səhih əl-Buxari", 5925; "Səhih Muslim", 4859.
[2] "Səhih Muslim", 4911.
[3] "Səhih Muslim", 328.

**1414.** Rəvayət olunur ki, Səd ibn Əbu Vaqqas ﷺ demişdir: «Bir dəfə bir bədəvi Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Mənə bir söz öyrət, deyim”. Dedi: **“De ki, “la ilahə illəllahu, vahdəhu lə şərikə ləhu, Allahu əkbəru kəbira, val-həmdu lilləhi kəsira, va subhənallahi Rabbil-aləmin, va lə həulə va lə quvvatə illə billəhil-azizil həkim”**. Dedi: “Bunlar Rəbbim üçündür, bəs mənim üçün?” Dedi: **“De ki, Allahummə-ğfirli, varhəmni, vahdini, varzuqni”.**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٤١٥– وعنْ ثوبانَ رضي الله عنه قال: كان رَسُولُ اللَّهِ ﷺ: « إذا انْصَرَف مِنْ صلاتِهِ اسْتَغفَر ثَلاثاً، وقال: « اللَّهُمَّ أَنْتَ السَّلامُ، ومِنكَ السَّلامُ، تباركْتَ يَاذا الجلالِ والإكرام » قِيل للأَوْزاعي وهُوَ أَحَد رُواةِ الحديث: كيفَ الاستِغفَارُ؟ قال: تقول: أَسْتَغْفرُ اللَّه، أَسْتَغْفِرُ اللَّه. رواهُ مسلم.

**1415.** Rəvayət olunur ki, Sövban ﷺ demişdir: “Rəsulullah ﷺ namazını bitirdikdə üç dəfə istiğfar edər və deyərdi: **“Allahummə əntəs-Sələm, va minkəs-sələm, təbəraktə yə zəl-cələli val-ikram”».** Hədisin ravilərindən biri olan əl-Əuzaidən soruşdular: “İstiğfar necə olur?” Dedi: “Əstəğfirullah, əstəğfirullah”.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

**Şərh:**

Müəllifin ﷺ qeyd etdiyi bu hədislər də “Zikr etməyin fəziləti və ona təşviq” fəslindədir. Bu hədislərin bir qismi daha öncə qeyd olunub. Müəllifin ﷺ qeyd etdiyi hədislərdən birində deyilir ki, **“Kim on dəfə “la ilahə illəllah, vahdəhu lə şərikə ləh, ləhul-mulk va ləhul-həmd, va huvə alə kulli şeyin qadir” deyərsə, İsmayıl övladlarından dörd nəfəri azad etmiş kimi olar”**. Yəni nəsəb baxımından insanların ən şərəflisi olan İsmayılın övladlarından dörd nəfəri azad etmiş kimi olar.

İnsanlar arasında nəsəb baxımından ən şərəfli olanlar ərəblərdir. Əcəmlərin babaları ayrıdır. İsmayılın zürriyyəti isə ərəblərdir. Beləliklə,

---

[1] “Səhih Muslim”, 4862.
[2] “Səhih Muslim”, 931.

**“Kim on dəfə “la ilahə illəllah, vahdəhu lə şərikə ləh, ləhul-mulk va ləhul-həmd, va huvə alə kulli şeyin qadir” deyərsə, İsmayıl övladlarından dörd nəfəri azad etmiş kimi olar”**. Bu da həmin zikrin fəzilətini göstərir.

Peyğəmbər ﷺ həmçinin demişdir: «**Həqiqətən, Allaha ən sevimli olan kəlmələr bunlardır: “sübhanallahi va bihəmdihi”**».

Bir qədər öncə qeyd etdiyimiz hədisdə Peyğəmbər ﷺ demişdir: «**İki kəlmə vardır ki, onlar dildə yüngül, tərəzidə ağır, ər-Rəhmana sevimli sözlərdir: “sübhanallahi va bihəmdihi” və “sübhanallahil-azim”**».

Sövbanın رضي الله عنه hədisi də xüsusi olaraq qeyd olunur. Belə ki, Peyğəmbər ﷺ namazını bitirdikdə üç dəfə istiğfar edər və deyərdi: **“Allahummə əntəs-Sələm, va minkəs-sələm, təbəraktə yə zəl-cələli val-ikram”.**

İnsan namazını bitirdikdə namazındakı xələl və naqisliklərə görə istiğfar edərək deyir: “Allahummə əntəs-Sələm”. Yəni: “Allahım, mən Sənə bu gözəl adınla təvəssül edirəm ki, mənim namazımı qəbul edəsən. Qoy həmin namaz günahlarımın bağışlanmasına və dərəcələrimin qalxmasına səbəb olsun”. Müvəffəq edən Allahdır.

١٤١٦– وعَن المُغِيرةِ بن شُعْبةَ رضي الله عنه أنَّ رَسُول اللَّه ﷺ كَان إذا فَرغَ مِنَ الصَّلاة وسلَّم قالَ: « لا إلهَ إلاَّ اللَّه وحْدَهُ لا شَرِيكَ لَهُ، لهُ المُلْكُ ولَهُ الحَمْدُ، وهُوَ عَلى كُلِّ شَيءٍ قَديرٌ. اللَّهُمَّ لا مانِعَ لما أعْطَيْتَ، وَلا مُعْطِيَ لما مَنَعْتَ، ولا ينْفَعُ ذا الجَدِّ مِنْكَ الجدُّ ». متفقٌ عليهِ.

**1416.** Muğira ibn Şöbədən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ salam verib namazını bitirdikdən sonra deyərdi: **“La ilahə illəllahu, vahdəhu lə şərikə ləhu, ləhul-mulku va ləhul-həmdu, va huva alə kulli şeyin qadir. Allahummə lə məniə limə ətayt, va lə mutiyə limə mənət, va lə yənfəu zəl-cəddi minkəl-cəddu”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٤١٧– وعَنْ عبد اللَّه بن الزُّبَيْرِ رضي اللَّه تعالى عنْهما أَنَّهُ كان يقُول دُبُرَ كَلِّ صلاةٍ، حينَ يُسَلِّمُ: لا إلَه إلاَّ اللَّه وَحْدَهُ لا شريكَ لهُ، لهُ الملكُ ولهُ الحَمْدُ، وهُوَ عَلى كُلِّ شيءٍ قَديرٌ. لا حوْلَ وَلا قُوَّةَ إلاَّ بِاللَّه، لا إله إلاَّ اللَّه، وَلا نَعْبُدُ إلاَّ إيَّاهُ، لهُ النعمةُ، ولَهُ الفضْلُ وَلَهُ الثَّناءُ الحَسنُ، لا

[1] “Səhih əl-Buxari”, 799; “Səhih Muslim”, 933.

إله إلاَّ اللَّه مُخْلِصِينَ لَهُ الدِّينَ ولوْ كَرِه الكَافِرُون.قالَ ابْنُ الزُّبَيْر: وكَان رسولُ اللَّه ﷺ يُهَلِّلُ بِهِنَّ دُبُرَ كُلِّ صَلاةٍ مكتوبة. رواه مسلم.

**1417.** Abdullah ibn Zubeyrdən ﷺ rəvayət olunur ki, o hər namazını salamla bitirdikdən sonra belə deyərdi: "La ilahə illəllahu, vahdəhu lə şərikə ləh, ləhul mulku va ləhul həmdu, va huva alə kulli şeyin qadir. Lə həulə va lə quvvatə illə billəh, la ilahə illəllah va lə nəbudu illə iyyəhu, ləhun-nimətu va ləhul-fadlu va ləhus-sənəul həsən. La ilahə illəllahu muxlisinə ləhud-dinə va ləu kərihəl ləfirun".

İbn Zubeyr dedi: "Rəsulullah ﷺ bunları hər fərz namazından sonra deyərdi".

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Bu iki hədis müəyyən zikrlərin bəyanı ilə bağlıdır. Belə ki, zikrlər iki qismə bölünür: mütləq və qeydli zikrlər. Bəzi zikrlər dəstəmazla bağlıdır, bəziləri namazla. Muğira ibn Şöbənin və Abdullah ibn Zubeyrin bu iki hədisindəki zikrlər də namazla bağlıdır.

Muğiranın ﷺ hədisində o, xəbər vermişdir ki, Peyğəmbər ﷺ namazı bitirib salam verdikdə belə deyərdi: **"La ilahə illəllahu, vahdəhu lə şərikə ləhu, ləhul-mulku va ləhul-həmdu, va huva alə kulli şeyin qadir. Allahummə lə məniə limə ətayt, va lə mutiyə limə mənət, va lə yənfəu zəl-cəddi minkəl-cəddu".**

**"La ilahə illəllah"** (Allahdan başqa ilah yoxdur) kəlməsinin mənası budur ki, Allahdan başqa ibadət haqqına malik məbud yoxdur. Kainatda izzət və cəlal sahibi Allahdan başqa ibadət haqqına malik olan məbud yoxdur. Allahdan başqa ibadət olunan bütlərin isə ibadət olunmağa haqları yoxdur – hətta ona ibadət edənlər onları ilah adlandırsalar belə. Əslində onlar haqq ilah deyillər. Onlar Uca Allahın buyurduğu kimidirlər: **"Ondan başqa ibadət etdikləriniz sizin və atalarınızın qoyduğunuz adlardan başqa bir şey deyildir. Allah onlara dair heç bir dəlil nazil etməmişdir".**[2] Əsl məbud isə izzət və cəlal sahibi Allahdır.

---

[1] "Səhih Muslim", 935.

[2] "Yusuf" surəsi, 40.

**“Vahdəhu lə şərikə ləhu”** (O təkdir, Onun şəriki də yoxdur). Bu təkidetmə mənasındadır – izzət və cəlal sahibi Allahın vəhdaniyyətinin təkidi. Onun üluhiyyətdə şəriki yoxdur.

**“Ləhul-mulku**" (Mülk ona məxsusdur). Mütləq, ümumi, geniş və hər şeyi əhatə edən mülk Ona məxsusdur. Səmaların və yerin mülkü, insanların, heyvanların, ağacların, dənizlərin, çayların, mələklərin, günəşin və ayın mülkü izzət və cəlal sahibi Allaha məxsusdur. Bildiyimiz və bilmədiyimiz mülklər də, bir sözlə bütün mülk Ona məxsusdur. O, öz hikmətinə uyğun olaraq öz mülkündə istədiyini edir.

**“Va ləhul-həmdu, va huva alə kulli şeyin qadir”** (Həmd də Ona məxsusdur və O hər şeyə qadirdir). Yəni hər bir halda mütləq kamillik. Uca Allah hər bir halda – həm sevinc, həm də kədər anında həmd olunandır. Sevinc anında insan öz Rəbbinə həmd və şükür edir. Kədər anında da insan öz Rəbbinə hər bir halına görə şükür edir. Çünki insan üçün zərər verən işlər ola bilsin ki, əvvəlcə ona bəlli olmasın. Lakin Uca Allah daha yaxşı biləndir. Peyğəmbərə ﷺ sevindirici bir xəbər çatdıqda belə deyərdi: **“**Nəməti ilə saleh əməlləri tamamlayan Allaha həmd olsun!”. Kədərli bir xəbər eşitdikdə isə: “Hər bir halda Allaha həmd olsun”– deyərdi.[1]

**“Allahummə lə məniə limə ətayt, va lə mutiyə limə mənət”** (Allahım, Sənin verdiyinin qarşısını alan, qarşısını aldığını isə verən olmaz). Bu da Uca Allaha bir duadır ki, Onun verdiyinin qarşısını alan yoxdur. Allah bir şeyi sənə vermək istəyirsə, onun qarşısını heç kim ala bilməz, sənə qadağan etdiyini də heç kim sənə verə bilməz. Buna görə: **“qarşısını aldığını isə verən olmaz”** deyir.

Əgər biz iman gətirsək ki, Allahın vermədiyi bir şeyi verə bilən ola bilməz, o zaman biz yalnız izzət və cəlal sahibi Allahdan istəmiş olarıq. Bilərik ki, filankəs bizə bir şey verirsə, bunu təqdir edən Allahdır, onun bizə verilməsinə imkan yaradan Allahdır. Onlar isə sadəcə səbəbkardır. Lakin biz bizə yaxşılıq edənlərə təşəkkür etməyə əmr olunmuşuq. Necə ki, Peyğəmbər ﷺ demişdir: **“Sizə yaxşılıq edəni mükafatlandırın. Əgər onu mükafatlandırmağa bir şey tapmasanız, onun üçün dua edin. Bununla onu mükafatlandırmış olarsınız”**.[2] Lakin mütləq olaraq bilməliyik ki, bunu

[1] “Sunən İbn Macə”, 3803.
[2] “Sunən Əbu Davud”, 1424; “Sunən ən-Nəsai”, 2520.

bizə əta edən də, bunu bizə verəcək adama bu imkanı yaradan da izzət və cəlal sahibi Allahdır.

**“Va lə yənfəu zəl-cəddi minkəl-cəddu”** (Heç bir hörmət sahibinə də Sənin yanında hörməti fayda verməz). **“əl-cədd”**, yəni bəxt və dövlət.

Bəxti gətirmiş insan o kəsdir ki, onun pulu, övladı, zövcələri, bir sözlə, dünyadan istədiyi hər şey var. Lakin bütün bu şeylərin ona Allah yanında bir faydası olmayacaq: **“Heç bir hörmət sahibinə Sənin yanında hörməti fayda verməz”.** Yəni hörmət və pul ona Allah yanında bir fayda verməyəcək. Çünki səmalar və yerin mülkü izzət və cəlal sahibi Allaha məxsusdur. O qədər insan vardır ki, əhlinin yanında sevinc içərisindədir – pulu, övladı və dünyadan əldə edə biləcəyi hər şeyi var. Lakin bunların Allah yanında ona bir faydası olmayacaq. Ola bilsin ki, xəstələnsin və izzət və cəlal sahibi Allahdan başqa heç nə ona fayda verə bilməsin. Yaxud ola bilsin, kədər və sıxıntı içərisində olsun və çəkdiyi acıları izzət və cəlal sahibi Allahdan başqa heç kim aradan qaldıra bilməsin.

Bütün bunlar işləri Allaha həvalə etməkdir.

Deməli, insan salam verib namazı bitirdikdən sonra üç dəfə “əstəğfirullah” desin, sonra da: “Allahummə əntəs-Sələm va minkəs-sələm, təbəraktə yə zəl-cələli val-ikram” deməklə Allahı zikr etsin.

Zikrlər arasındakı tərtib (dəqiq ardıcıllıq) vacib deyil. Yəni bəzi zikrləri digərlərindən öncə etsən problem olmaz. Lakin yaxşı olar ki, əvvəlcə üç dəfə istiğfar edəsən (“əstəğfirullah” deyəsən), sonra: “Allahummə əntəs-Sələm va minkəs-sələm, təbəraktə yə zəl-cələli val-ikram” deyəsən, daha sonra da varid olmuş digər zikrlərlə Allahı zikr edəsən. Abdullah ibn Zubeyrdən nəql olunmuş hədisi şərh edərkən inşəallah bu barədə yenə söhbət açacağıq.

١٤١٨– وعنْ أبي هُريرةَ ﵁ أنَّ فُقَرَاءَ المُهاجِرِينَ أَتَوْا رَسُولَ اللَّه ﷺ فقالُوا: ذَهب أَهْلُ الدُّثُورِ بالدَّرجَاتِ العُلى، وَالنّعِيمِ المُقيمِ: يُصَلُّونَ كَما نُصلِّي، وَيصُومُونَ كما نَصُومُ، ولهمُ فَضْلٌ مِنْ أمْوالٍ: يحجُّونَ، ويَعْتَمِرُونَ، وَيُجاهِدُونَ، ويتَصَدَّقُون. فقالَ: « ألا أُعلمُكُمْ شَيْئاً تُدْرِكُونَ بِهِ مَنْ سبَقَكُمْ، وتَسبِقُونَ بِهِ من بَعْدكُمْ. ولا يَكُونُ أَحَدٌ أَفْضلَ مِنْكُمْ إلاَّ مَنْ صَنَعَ مِثلَ ما صَنَعْتُم؟ » قالُوا: بَلَى يا رسول اللَّه، قال: «تُسبِّحُونَ، وتَحْمدُونَ وتُكَبِّرُونَ، خلْفَ كُلِّ

صلاةٍ ثلاثاً وثَلاثينَ » قال أبُو صالحٍ الرَّاوي عنْ أبي هُرَيْرةَ، لمَّ سئِل عنْ كيْفِيةِ ذِكْرِهنَّ، قال: يقول: سُبْحان اللَّه، والحمْدُ للَّه، واللَّه أكْبرُ، حتَّى يكُونَ مِنْهُنَّ كُلّهنَّ ثلاثاً وثلاثين. متفقٌ عليهِ

وزاد مُسْلمٌ في روايتِهِ: فَرجع فُقَراءُ المُهَاجِرِينَ إلى رسُولِ اللَّهِ ﷺ، فقالوا: سمِع إخْوانُنا أهلُ الأمْوال بِما فعَلْنَا، ففعَلُوا مِثْلهُ. فقالَ رَسُولُ اللَّه ﷺ: « ذلكَ فَضْلُ اللَّه يُؤْتِيهِ منْ يشاءُ ».

« الدُّثُورُ » جمع دَثْرٍ « بفتحِ الدَّالِ وإسكانِ الثاء المثلَّثَةِ » وهو المالُ الكثيرُ.

**1418.** Əbu Hureyradan ؓ rəvayət olunur ki, «Bir dəfə kasıb mühacirlər Rəsulullahın ﷺ yanına gəlib dedilər: "Aramızdakı zənginlər yüksək dərəcələrə və davamlı nemətlərə nail olublar. Onlar bizim kimi namaz qılır, bizim kimi oruc tutur, lakin mal-dövlət sahibidirlər deyə, əlavə olaraq həcc və ümrə edirlər, cihad edirlər, sədəqə verirlər. O dedi: **"Sizə elə bir şey öyrədimmi ki, sizi qabaqlayanlara onunla çatasınız, özünüzdən sonrakıları da qabaqlayasınız? Sizin etdiyinizin mislini edənlərdən də başqa heç kim sizdən daha əfzəl ola bilməsin?"** Dedilər: "Bəli, ey Allahın elçisi". Dedi: **"Hər namazdan sonra otuz üç dəfə "sübhanallah, əlhəmdulilləh, Allahu əkbər deyin"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Muslimin rəvayətində belə bir əlavə də vardır: "*Bir qədər sonra* kasıb mühacirlər Peyğəmbərin ﷺ yanına qayıdıb dedilər: "İmkanlı qardaşlarımız bizim nə etdiyimizi eşidib bizim etdiyimizi etdilər". Rəsulullah ﷺ dedi: **"Bu, Allahın lütfüdür, onu dilədiyinə verir"**.

[Ərəbcə mətndə keçən] "dusur" sözü "çoxlu mal-dövlət" deməkdir.

**Şərh:**

Bu, xüsusi əməllə bağlı zikrin fəzilətinə dəlalət edən hədislərdəndir. Əbu Hureyradan nəql olunmuş hədisdə kasıb mühacirlər gəlib Peyğəmbərə ﷺ şikayət edərək deyirlər ki, aramızdakı mal-dövlət əhli bizi ötüb keçiblər. Onlar bizim kimi namaz qılır, bizim kimi oruc tutur, ancaq həm də mal-dövlətləri var. Yəni əlavə olaraq sədəqə verir, həcc, ümrə və cihad edirlər. Peyğəmbər ﷺ də onları bir işə sövq edərək buyurdu ki: **"Sizə elə**

---

[1] "Səhih əl-Buxari", 798; "Səhih Muslim", 936.

**bir şey öyrədimmi ki, sizi qabaqlayanlara onunla çatasınız, özünüzdən sonrakıları da qabaqlayasınız? Sizin etdiyinizin mislini edənlərdən də başqa heç kim sizdən daha əfzəl ola bilməsin?"** Dedilər: "Bəli, ey Allahın elçisi". Dedi: **"Hər namazdan sonra otuz üç dəfə "sübhanallah, əlhəmdulilləh, Allahu əkbər deyin"».** Yəni hər biri otuz üç dəfə olmaqla "sübhanallah", "əlhəmdulilləh", "Allahu Əkbər" deyin. Bunlar doxsan doqquz dəfə edəcək. Sonra onlar bunu edirlər. Lakin varlılar da bunu eşidir və bunu etməyə başlayırlar. Beləliklə, onlarla birlikdə bu zikrləri etmiş oldular. Kasıblar Peyğəmbərin ﷺ yanına qayıdıb dedilər: "İmkanlı qardaşlarımız bizim nə etdiyimizi eşidib bizim etdiyimizi etdilər". Sanki onlar kimsənin onlarla birlikdə bu əməlləri etməsini istəmirdilər. Rəsulullah ﷺ dedi: **"Bu Allahın lütfüdür, onu dilədiyinə verir".**[1]

Bu hədisdə bəzi faydalar vardır:

Birincisi, səhabələrin xeyirli işlərdə bir-biriləri ilə yarışmaları. Onlardan hər biri başqasını keçmək istəyir.

Başqa bir fayda, "sübhanallah, əlhəmdulilləh, Allahu əkbər" zikrlərinin namazdan sonra deyilməsi buyurulub. Başqa bir hədisdə də deyilib ki, yüzüncünü "la ilahə illəllahu, vahdəhu lə şərikə ləhu, ləhul-mulku va ləhul-həmdu, va huva alə kulli şeyin qadir" deməklə tamamlayın.

Bu, namazdan sonra zikrlərin edilmə formalarından biridir. Namazdan sonra zikr etmənin formalarından biri də hər biri iyirmi beş dəfə olmaqla: "sübhanallah", "əlhəmdulilləh", "la ilahə illəllah", "Allahu əkbər" deməkdir. Başqa bir forması isə otuz üç dəfə "sübhanallah", otuz üç dəfə "əlhəmdulilləh", otuz dörd dəfə "Allahu əkbər" deməkdir ki, bu da yüz edir.

Başqa bir forması belədir ki, on dəfə "sübhanallah", on dəfə "əlhəmdulilləh", on dəfə də "Allahu əkbər" deyirsən. Bunu da bir dəfə edirsən, çünki bütün bunlar Peyğəmbərdən ﷺ varid olub.

Hədisin faydalarından biri də Peyğəmbərin ﷺ bəhs üçün həmişə əlçatan olmasıdır. Çünki Peyğəmbər ﷺ istənilən yerdə haqq olmasını istəyir. Haqq onunladır, lakin o, insanların könlünü almaq və onlara bəyan etmək istəyir.

---

[1] "əl-Cumuə" surəsi, 4.

Hədisin faydalarından biri də budur ki, Uca və nöqsansız Allah bir kimsəyə Öz fəzilətindən əta edirsə, bu, Onun fəzilətidir və onu istədiyinə verir. Bu fəzilətlə O heç kimə zülm etmir. Kimisə varlı, kimisə kasıb edirsə, bu, Allahın lütfüdür, dilədiyinə verir. Bu zülm deyil, Onun fəzilətidir və onu dilədiyinə bəxş edir. Həmçinin Allah birinə elm verdikdə, digərinə isə vermədikdə də fəzilət izzət və cəlal sahibi Allahın əlindədir və onu dilədiyinə bəxş edir.

Hədisin faydalarından biri də budur ki, səhabələrdən varlı olanlar da kasıblar kimi xeyirli işlər görməyə, bir-biriləri ilə yarışmağa həris idilər. Ona görə də onlar kasıbların etdikləri kimi etmişdilər. Onlar da namazdan sonra otuz üç dəfə "sübhanallah, əlhəmdulilləh, Allahu əkbər" deyirdilər.

١٤١٩– وعنْهُ عنْ رَسُولِ اللَّه ﷺ قالَ: « مَنْ سَبَّحَ اللَّه فِي دُبُرِ كُلِّ صلاةٍ ثَلاثاً وثَلاثينَ، وَحمِدَ اللَّه ثَلاثاً وثَلاثين، وكَبَّرَ اللَّه ثَلاثاً وَثَلاثينَ وقال تَمامَ المِائَةِ: لا إِلهَ إِلاَّ اللَّه وحْدَه لا شَرِيك لهُ، لَهُ المُلْكُ وَلَهُ الحمْد، وهُو على كُلِّ شَيءٍ قَدِيرٌ، غُفِرتْ خطَاياهُ وإِن كَانَتْ مِثْلَ زَبدِ الْبَحْرَ » رواهُ مسلم.

**1419.** Yenə Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim hər namazdan sonra otuz üç dəfə "sübhanallah", otuz üç dəfə "əlhəmdulilləh", otuz üç dəfə "Allahu əkbər" deyər, sonra da *bu sayın* yüzüncüsünü: "la ilahə illəllahu vahdəhu lə şərikə ləhu, ləhul-mulku va ləhul həmdu va huva alə kulli şeyin qadir" deməklə tamamlayarsa, onun günahları dənizdəki köpüklər qədər olsa belə, bağışlanar".**

Bu hədisi Muslim rəvayət etmişdir.

١٤٢٠– وعنْ كعْبِ بن عُرْوَةَ رضي الله عنه عَنْ رسول اللَّه ﷺ قال: « مُعقِّبَاتٌ لا يَخِيبُ قَائِلُهُنَّ أَو فَاعِلُهُنَّ دُبُرَ كُلِّ صلاةٍ مكتُوبةٍ: ثَلاثاً وثَلاثينَ تَسْبِيحَةً، وَثَلاثاً وَثَلاثِينَ تَحْمِيدَةً، وَأَرْبَعاً وثَلاثِينَ تَكبِيرَةً » رواه مسلم.

**1420.** Kəb ibn Urvadan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ dedi: **"Hər bir fərz namazından sonra otuz üç dəfə "sübhanallah", otuz üç dəfə "əlhəmdulilləh", otuz dörd dəfə "Allahu" əkbər deyən kəs uduzmaz".**

Bu hədisi Muslim rəvayət etmişdir.

١٤٢١– وعنْ سعدِ بن أبي وقاص رضي عنْهُ أنَّ رَسُول اللَّه ﷺ كانَ يَتَعوَّذُ دُبُر الصَّلَواتِ بِهؤلاءِ الكلِمات: « اللَّهُمَّ إنِّي أَعُوذُ بِكَ مِنَ الجُبْنِ والْبُخلِ وَأَعوذُ بِكَ مِنْ أنْ أُرَدَّ إلى أرْذَل العُمُرِ وَأعُوذُ بِكَ مِنْ فِتْنَةِ الدُّنْيا، وأَعوذُ بِكَ مِنْ فِتْنَةِ القَبر ». رواه البخاري.

**1421.** Səd ibn Əbu Vaqqasdan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ namazlardan sonra bu sözlərlə Allaha sığınardı: **"Allahım, qorxaqlıqdan və paxıllıqdan Sənə sığınıram; ömrün ən rəzil çağına çatmaqdan Sənə sığınıram; dünyanın fitnəsindən Sənə sığınıram; qəbir fitnəsindən Sənə sığınıram".**

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

١٤٢٢– وعنْ معاذٍ ﷺ أَنَّ رسُول اللَّهِ ﷺ أَخَذَ بيَدِهِ وقال: « يَا مُعَاذُ، وَاللَّهِ إنِّي لأُحِبُّكَ » فقال: « أُوصِيكَ يَا معاذُ لا تَدعَنَّ في دُبُرِ كُلِّ صَلاةٍ تقُولُ: اللَّهُمَّ أعِنِّي على ذِكْرِكَ، وشُكْرِكَ، وَحُسنِ عِبادتِكَ ». رواهُ أبو داود بإسناد صحيحٍ.

**1422.** Müazdan ﷺ rəvayət olunur ki, bir dəfə Peyğəmbər ﷺ onun əlindən tutub dedi: **"Ey Müaz, Allaha and olsun ki, mən səni sevirəm".** Sonra dedi: **"Ey Müaz, sənə tövsiyəm budur ki, hər namazdan sonra bu sözləri deməyi unutmayasan: – Allahım, Səni zikr etməyə, Sənə şükür etməyə və Sənə gözəl bir tərzdə ibadət etməkdə mənə yardım et".**

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[2]

**Şərh:**

Bunlar namazdan sonra deyilən zikrlərdir. Birinci hədisdə Səd ibn Əbu Vaqqasdan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ namazlardan sonra bu sözlərlə Allaha sığınardı: **"Allahım, qorxaqlıqdan və paxıllıqdan Sənə sığınıram; ömrün ən rəzil çağına çatmaqdan Sənə sığınıram; dünyanın fitnəsindən Sənə sığınıram; qəbir fitnəsindən Sənə sığınıram".**

Müazın ﷺ hədisində isə Peyğəmbərin ﷺ hər namazdan sonra belə dediyi nəql olunur: **"Allahım, Səni zikr etməyə, Sənə şükür etməyə və Sənə gözəl bir tərzdə ibadət etməkdə mənə yardım et".**

---

[1] "Səhih əl-Buxari", 5899.

[2] "Musnəd İmam Əhməd", 5/244; "Sunən Əbu Davud", 1301; "Sunən ən-Nəsai", 1286.

“Namazdan sonra” sözünün qaydası belədir ki, zikrlər salamdan sonra, dualar isə salamdan öncə deyilir. Çünki salamdan öncə və təşəhhüddən isə sonra olan vaxt da namazdan sonra sayılır. Şeyxulislam İbn Teymiyyə demişdir: “Bir şeyin sonu onun bir hissəsi hesab olunur. Necə ki, heyvanın arxası deyildikdə, onun bir hissəsi nəzərdə tutulur”.

Buna əsasən də Səd ibn Əbu Vaqqasın və Müaz ibn Cəbəlin hədisindəki dualar salamdan öncə deyilir. Təşəhhüdü və “Allahummə, inni əuzu bikə min əzabi Cəhənnəm, va min əzabil-qabr, va min fitnətil-məhyə valməmət, va min fitnətil-məsihid-dəccal” duasını dedikdən sonra: “Allahım, qorxaqlıqdan və paxıllıqdan Sənə sığınıram; ömrün ən rəzil çağına çatmaqdan Sənə sığınıram; dünyanın fitnəsindən Sənə sığınıram; qəbir fitnəsindən Sənə sığınıram” deyir və bununla da beş şeydən Allaha sığınırsan:

Birincisi paxıllıqdır ki, bu da mal-dövlətdə xəsislik etməkdir.

İkincisi qorxaqlıqdır ki, bu da nəfsi baxımdan simiclikdir.

Paxıllıq, insanın özünə vacib olan zəkat, sədəqə, qonaqpərvərlik və başqa bu kimi işlərdə simiclik etməsidir. Qorxaqlıq isə insanın nəfsində olur – ölümdən qorxaraq cihada getmir, danışmır ki, birdən həbs olunar və sair.

Üçüncüsü: **“Ömrün ən rəzil çağına çatmaqdan Sənə sığınıram”.** “Ən rəzil”, yəni ən alçaq və naqis çağına. Bu da iki cürdür:

Birinci: İnsan ağlını itirir, bununla da ömrünün rəzil çağına düşür və uşaq kimi olur.

İkinci: yaşlılıq səbəbindən. Çünki insan böyüdükcə, qırx yaşını ötəndən sonra naqisləşməyə başlayır. Lakin insanlar fərqlidirlər. Bəziləri çox zəifləyir, bəziləri isə az. Hər bir halda naqisləşir. Qırx yaşı tamamlandıqda o kamilliyə qədəm qoyur. Kamilliyə çatan bir şey isə *yenidən* naqisləşməyə başlayır.

Bəzi insanlar isə güc və ağıl baxımından ömrün rəzil çağına düşürlər. Onların bədəni zəifləyir, kiminsə ona baxmasına, xidmət etməsinə, göstəriş verməsinə ehtiyac duyur. Ola bilsin, ağıl baxımından da problem yaşasın və sayıqlasın, danışığını bilməsin. Ömrün rəzil çağına düşmək hər ikisinə şamil olunur. Həm hadisə səbəbindən yaranan naqisliyə, həm də yaşlanmadan dolayı yaranan hala deyilir. İnsan bu hala düşdükdə – Allah bizi və sizi həmin haldan qorusun – ailəsi də ondan bezir. O ailəsi ki, ona qarşı ən şəfqətli olanlardır. Ola bilsin ki, bəziləri onu hökumətin sahib

çıxdığı bir yerə qoysunlar. Şübhəsiz ki, heç bir insan bu hala düşmək istəməz və bundan razı qalmaz. İstəməz ki, elə bir duruma düşsün ki, namaz, oruc və digər vacib əməllər ona vacib olmasın. Çünki o elə bir duruma düşüb ki, mükəlləfiyyət onun üzərindən qalxıb.

Dördüncü: **"Dünyanın fitnəsindən Sənə sığınıram"**. Dünya fitnəsi isə olduqca böyükdür. Dünyaya məftun olan insanlar nə qədər də çoxdur. Əlɘlxüsus da bizim dövrümüzdə. Bizim dövrümüz fitnələr zamanıdır. Peyğəmbər ﷺ bu xüsusda demişdir: **"Allaha and olsun ki, sizin üçün kasıblıqdan qorxmuram. Sizin üçün qorxduğum dünyanın sizin önünüzə açılmasıdır. Qorxuram ki, sizdən əvvəlkilər dünya üçün bir-biriləri ilə yarışdıqları kimi, siz də bir-birinizlə yarışasınız, dünya da onları məhv etdiyi kimi, sizi də məhv etsin".**[1]

Günümüzün reallığı budur. Dünya hər tərəfdən, hər yerdən bizim üçün açılıb. Evlərimiz padşahların qəsrinə bənzəyir, miniklərimiz kralların miniyinə. Geyimimiz, yemək-içməyimiz – hər şeydə bolluq içərisindəyik. İndi insanların fikri-zikri yalnız qarınları və cinsiyyət orqanları olub və onlar beləcə dünya fitnəsinə düşüblər. Allah qorusun!

Dünya fitnəsi olduqca böyükdür. İnsan gərək bu məsələdə diqqətli olsun. İzzət və cəlal sahibi Allah bu xüsusda buyurur: **"Ey insanlar, həqiqətən, Allahın vədi haqdır. Dünya həyatı sizi aldatmasın, tovlayan *şeytan da* sizi yoldan çıxartmasın".**[2]

**"Qəbir fitnəsindən *və ya qəbir əzabından* Sənə sığınıram".** Qəbir fitnəsi böyük fitnədir. **"Dostları, dəfn olunan meyidi tərk etdikdə o, onların ayaq səslərini eşidir. Bu zaman onun yanına iki mələk gəlir və ondan Rəbbi, dini və peyğəmbəri barədə soruşur"**. Mömin olan kəs doğru cavab verib deyir: "Rəbbim Allahdır, peyğəmbərim Muhəmməddir, dinim də İslamdır". Riyakar və ya münafiq olduqda isə – Allah bizləri və sizləri qorusun – deyəcək ki: a, a, bilmirəm. Bu zaman dəmir mərzəbə ilə vurulacaq. Peyğəmbərdən soruşurlar ki, mərzəbə nədir? Deyir ki, çəkic. Bəzi hədislərdə varid olmuşdur ki, onun ətrafına Mina əhli toplanmış olsa belə, onu (çəkici) qaldıra bilməzlər.[3] Yəni o qədər böyük olacaq. Allah qorusun!

---

[1] "Səhih əl-Buxari", 3712; "Səhih Muslim", 5261.

[2] "Fatir" surəsi, 5.

[3] Abdur-Razzaq, "əl-Musannəf", 3/582.

Bu zaman həmin adam elə bağıracaq ki, cinlərdən və insanlardan başqa hər kəs onları eşidəcək. Bu da Allahın rəhmətindəndir ki, Uca Allah qəbir əzabını bizlərə (dirilərə) eşitdirmir. Çünki biz qəbirdəki insanların necə əzab çəkdiklərini eşitsəydik, rahat yaşaya bilməzdik. Özümüz də kədər və qüssə içərisində olardıq. Həmin adam yaxınımız olsaydı, iki yöndən kədərlənər, həm yaxınımız olduğu üçün, həm də belə qorxunc səsdən narahat olardıq. Əgər yaxınımız olmasaydı belə, bu səslər yenə bizi narahat edərdi. Ümumiyyətlə, qəbir fitnəsi böyük bir fitnədir. Allah bizi və sizi ondan qorusun!

Bu beş şeydən sığınmağı Peyğəmbər ﷺ öz səhabələrinə öyrədərdi: **"Allahım, qorxaqlıqdan və paxıllıqdan Sənə sığınıram; ömrün ən rəzil çağına çatmaqdan Sənə sığınıram; dünyanın fitnəsindən Sənə sığınıram; qəbir fitnəsindən Sənə sığınıram".**

Müazın رضي الله عنه hədisində Peyğəmbər ﷺ demişdir: **"Ey Müaz, Allaha and olsun ki, mən səni sevirəm".** Bu da Müaz ibn Cəbəlin böyük məqamının göstəricisidir. Belə ki, Peyğəmbər ﷺ and içir ki, onu sevir. Sevən adam isə öz sevdiyinə yalnız xeyirli şeylər verməyə çalışır. O, bunu daha sonra söyləyəcəyi sözə hazırlaşdırmaq məqsədilə demişdi. Sonra buyurdu ki: **"Ey Müaz, sənə tövsiyəm budur ki, hər namazdan sonra bu sözləri deməyi unutmayasan: – Allahım, Səni zikr etməyə, Sənə şükür etməyə və Sənə gözəl bir tərzdə ibadət etməkdə mənə yardım et"**

**"Namazdan sonra",** yəni namazın sonunda salamdan öncə. Bu bəzi rəvayətlərdə də qeyd olunmuşdur ki, həmin dua salamdan öncə deyilir. Bu da doğru rəydir. Öncə də qeyd etdiyimiz kimi, namazdan sonra salamdan öncə dua edilir, salamdan sonra isə zikrlər edilir. Bu qaydaya dəlildə, – İbn Məsudun hədisində Rəsulullah ﷺ ona təşəhhüd barəsində demişdir ki: **"Sonra istədiyi, sevdiyi və xoşladığı duanı edə bilər"**. Zikrə gəlincə isə Uca Allah buyurur: "**Namazı bitirdikdən sonra ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı zikr edin".**[1]

**"Səni zikr etməyə",** yəni Allaha yaxınlaşdıran hər bir söz, Allaha yaxınlaşdıran hər bir əməl, Allaha yaxınlaşdıran hər bir fikir Allahı zikr etmək hesab olunur.

---

[1] "ən-Nisa" surəsi, 103.

**"Sənə şükür etməyə",** yəni verdiyin nemətlərə və bəlalardan qoruduğuna görə şükür etməyə. Allahın bizlərə bəxş etdiyi nemətlər nə qədər də çoxdur. O, bizləri həm də nə qədər çox bəlalardan qoruyur. Buna görə Allaha şükür etməliyik. Allah bizlərə bu işdə yardımçı olsun.

**"Sənə gözəl tərzdə ibadət etməyə".** Gözəl şəkildə ibadət iki şərtlə olur: İzzət və cəlal sahibi Allaha ixlasla. İxlas nə qədər güclü olarsa, bir o qədər yaxşı olar. Bir də Peyğəmbərə tabe olmaqla. Müvəffəq edən Allahdır.

١٤٢٣– عنْ أبي هُريْرة ﷺ أنَّ رسُولَ اللَّهِ ﷺ قَالَ: « إذا تَشَهَّد أَحدُكُمْ فَليسْتَعِذ بِاللَّه مِنْ أرْبَع، يقولُ: اللَّهُمَّ إنِّي أعُوذُ بِكَ مِنْ عذَابِ جهَنَّمَ، وَمِنْ عَذَابِ القَبرِ، وَمِنْ فِتْنةِ المحْيَا والمَماتِ، وَمِنْ شَرِّ فِتْنَةِ المَسِيح الدَّجَّالِ ». رواه مسلم.

**1423.** Əbu Hureyradan ﷺ nəql olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"Biriniz təşəhhüd etdikdə dörd şeydən Allaha sığınaraq desin: "Allahım, Cəhənnəm əzabından, qəbr əzabından, dirilərin və ölülərin fitnəsindən, bir də Məsih Dəccalın fitnəsindən Sənə sığınıram".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٤٢٤– وعنْ عَلِيٍّ ﷺ قال: كانَ رَسُولُ اللَّهِ إذا قام إلى الصَّلاةِ يكونُ مِنْ آخِرِ ما يقولُ بينَ التَّشَهُّدِ والتَّسْلِيم: « اللَّهمَّ اغفِرْ لِي ما قَدَّمتُ وما أَخَّرْتُ، وما أَسْرَرْتُ ومَا أعْلَنْتُ، وما أَسْرفْتُ، وما أَنتَ أَعْلمُ بِهِ مِنِّي، أنْتَ المُقَدِّمُ، وَأنْتَ المُؤَخِّرُ، لا إله إلاَّ أنْتَ » رواه مسلم.

**1424.** Rəvayət olunur ki, Əli ﷺ demişdir: «Rəsulullah namaza qalxdıqda sonda – təşəhhüdlə salamın arasında belə deyərdi: **"Allahım, etdiyim və sonraya saxladığım, gizlətdiyim və aşkara çıxardığım, Sənin məndən daha yaxşı bildiyin günahlarımı bağışla. İrəli çəkən, ertələyən Sənsən. Səndən başqa ibadətə layiq məbud yoxdur"**».

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

---

[1] "Səhih Muslim", 924.
[2] "Səhih Muslim", 1290.

**Şərh:**

Müəllif ﷺ namazda Allaha olunan zikrləri ehtiva edən bu iki hədisi qeyd etmişdir. Birincisində – Əbu Hureyradan ﷺ nəql olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"Biriniz təşəhhüd etdikdə dörd şeydən Allaha sığınaraq desin".** Digər ləfzdə **"sonuncu təşəhhüddən sonra"** deyilir. **"Allahım, Cəhənnəm əzabından, qəbr əzabından, dirilərin və ölülərin fitnəsindən, bir də Məsih Dəccalın fitnəsindən Sənə sığınıram".**

Bizlərə əmr olunub ki, təşəhhüddən sonra salamdan öncə bu dörd şeydən Allaha sığınaq:

**"Cəhənnəm əzabından".** Bu, Oddur. Onun əzabından Allaha sığınmalısan. Bu, günah etdikdə Allahdan dilədiyin bağışlanmaya da şamil olunur. Allahdan diləyirsən ki, həmin günahları bağışlasın, həm də səni etmədiyin günahlardan uzaqlaşdırsın.

**"Qəbir əzabından".** Çünki qəbirdə əzab vardır. Həmin əzab kafirlər üçün daimi, günahkarlar üçün isə müvəqqətidir. Bir dəfə Peyğəmbər ﷺ iki qəbirin yanından keçərkən dedi ki: **"Bu ikisinə əzab verilir. Halbuki onlar böyük bir şeyə görə əzab çəkmirlər. Onlardan biri sidikdən təmizlənməz, o biri isə söz gəzdirərdi".**[1]

**"Dirilərin və ölülərin fitnəsindən".** Dirilərin fitnəsi, insanın həyatı boyu üzləşdiyi fitnələrdir. Bu da iki səbəbdən olur: ya cahillik, şübhə və haqqı bilməmək səbəbindən; – bu zaman haqla batil insan üçün qarışır, bununlada o batilə düşərək həlak olur. Ya da şəhvət (istəkləri) səbəbindən. Belə ki, insan haqqı bildiyi halda onu deyil, məhz batili istəyir.

**"Ölülərin fitnəsi",** yaxud **"ölümün fitnəsi"** isə deyilənə görə qəbir fitnəsidir. Dəfn olunduqda insanın yanına iki mələk gəlir və onu Rəbbi, dini və peyğəmbəri haqda sorğulayır.

Deyilənə görə, "ölümün fitnəsi" insan öldükdə baş verən fitnədir. Belə ki, şeytan ən çox ölüm vaxtı Adəm övladını azdırmağa çalışır. Ölümündən öncə onun yanına gələrək ona vəsvəsələr verir, qəlbinə şübhələr salır, hətta ola bilsin ki, ona izzət və cəlal sahibi Allaha qarşı küfr etməyi əmr etsin. Bu da ən əzəmətli fitnələrdəndir.

**"Məsih Dəccal fitnəsi"**nə gəlincə isə izzət və cəlal sahibi Allah Məsih Dəccalı Qiyamət saatından öncə göndərəcək.

---

[1] "Səhih əl-Buxari", 211; "Səhih Muslim", 439.

O, xəbis və yalançı bir kişidir. Gözlərinin arasında kafir sözü yazılmış olacaq və yazıb-oxuya bilən və bilməyən hər bir mömin həmin sözü oxuya biləcək. Uca Allah onun vasitəsilə fitnə göstərmək üçün yer üzündə ona müəyyən imkanlar verəcək.

Dəccal yer üzərində qırx gün qalacaq. Birinci günün uzunluğu bir il qədər, ikinci gün isə bir ay qədər olacaq. Üçüncü gün bir həftə uzunluğunda, dördüncü və sonrakı günlər isə adi günlər kimi olacaq.

O, insanları Allaha küfr etməyə, Ona şərik qoşmağa dəvət edəcək və "Mən sizin rəbbinizəm"– deyəcək. Onun cənnəti və cəhənnəmi olacaq, ancaq o insanlara cənnət və cəhənnəm kimi görünəcək. Peyğəmbərdən ﷺ varid olmuş hədisdə deyildiyi kimi, insanlardan bir çoxu ona uyacaqlar.

Onun fitnəsi çox böyükdür. Peyğəmbər ﷺ demişdir: **"Yer üzündə, Adəm yaradılandan Qiyamət gününədək Məsih Dəccalın fitnəsindən daha böyük fitnə olmayacaq".**[1] Peyğəmbər ﷺ həmçinin demişdir: **"Mən sizi ondan çəkindirirəm. Hər bir peyğəmbər öz qövmünü ondan çəkindirmişdir".**[2] Belə bir əzəmətli fitnə olduğu üçün Peyğəmbər ﷺ onu dirilərin fitnəsindən ayrı vurğulamışdır. Allah bizi və sizi onun fitnəsindən qorusun!

Namaz qılan kəs sadalanan bu dörd şeyi salamdan öncə qeyd etməlidir. Alimlər bu duanın vacib yoxsa, sünnə olması barədə ixtilaf etmişlər.

Əksər alimlərə görə bu, sünnədir və adam onu tərk etdikdə namazı batil olmur. Bəzilərinə görə bu, vacibdir – onu tərk etsən, namazın batil olar və onu gərək yenidən qılasan. Böyük tabiinlərdən olan Tavus bu dörd şeyi deməyən oğluna namazı yenidən qılmasını əmr etmişdir. Odur ki, insan gərək bunu tərk etməsin. Onda çoxlu xeyir olduğu üçün və bəzi alimlərin "namazı batil sayılmasın" rəyinə görə buna həris olsun.

١٤٢٥– وعنْ عائشةَ رضي الله عنها قالَتْ: كانَ النبي ﷺ يُكْثِرُ أنْ يقولَ في رُكُوعِهِ وَسُجُودِهِ: سُبْحَانَكَ اللَّهُمَّ رَبَّنَا وَبِحَمْدك، اللَّهُمَّ اغْفِرْ لي ». متفقٌ عليهِ.

**1425.** Rəvayət olunur ki, Aişə رضي الله عنها demişdir: «Peyğəmbər ﷺ rükuda və səcdədə bu sözləri çox deyərdi: **"Allahım, Sən nöqsansızsan. Sənə həmd olsun, ey Rəbbim! Allahım, məni bağışla!"**».

---

[1] "Səhih Muslim", 5239.

[2] "Səhih əl-Buxari", 2829; "Səhih Muslim", 5215.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٤٢٦– وَعَنْهَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ كانَ يَقُولُ فِي رُكوعِهِ وسجودِهِ: « سُبُّوحٌ قدُّوسٌ ربُّ الملائِكةِ وَالرُّوحِ ». رواه مسلم.

**1426.** Yenə Aişədən رضي الله عنها rəvayət olunur ki, Rəsulullah ﷺ rükusunda və səcdəsində belə deyərdi: **"Mələklərin və ruhun Rəbbi, Sən pak və müqəddəssən!"**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٤٢٧– وعَنِ ابن عَبَّاسٍ رضي الله عنهما أَنَّ رسُول اللَّه ﷺ قال: « فَأَمَّا الرُّكوعُ فَعَظِّموا فيهِ الرَّبَّ، وأَمَّا السُّجُودُ فَاجْتَهِدُوا في الدُّعاء فَقَمِنٌ أَنْ يُسْتَجَاب لَكُمْ ». رواه مسلم.

**1427.** İbn Abbasdan رضي الله عنهما rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Ruku etdiyinizdə, orada Rəbbinizi əzəmətləşdirin. Səcdədə isə dualar etməyə çalışın, dualarınıza cavab verilər".**

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

**Şərh:**

Bunlar müəyyən hallarda edilən zikrlərdir. Müəllif رحمه الله onlardan bəzisini Aişədən رضي الله عنها nəql etmişdir. Peyğəmbər ﷺ rükuda və səcdədə bu sözləri çox deyərdi: **"Allahım, Sən nöqsansızsan. Sənə həmd olsun, ey Rəbbim! Allahım, məni bağışla!"** O, bu sözləri Uca Allah aşağıdakı ayələri nazil etdikdən sonra daha çox deyirdi: **"Allahın köməyi və qələbə gəldiyi zaman, insanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!".**[4]

Bu surə Rəsulullahın ﷺ əcəlinin yetişməyinə dəlildir. Uca Allah onu özünə səsləyir ki, Allahın köməyi və qələbə gəldiyi zaman onun əcəli yaxınlaşmış olacaq. İbn Abbas da bunu belə başa düşmüşdü.

---

[1] "Səhih əl-Buxari", 752; "Səhih Muslim", 746.
[2] "Səhih Muslim", 752.
[3] "Səhih Muslim", 738.
[4] "ən-Nasr" surəsi.

İbn Abbas hələ azyaşlı ikən bir dəfə Ömər ibn əl-Xəttab onu böyük səhabələrin məclisinə aparır. Bəziləri deyirlər ki, görəsən nə üçün Ömər başqasını deyil, məhz İbn Abbası məclisə gətirib?! Ömər də İbn Abbasın fəzilətini onlara göstərmək istəyir və onlardan soruşur ki, Uca Allahın: **"Allahın köməyi və qələbə gəldiyi zaman, insanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə, həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!"** ayələri haqqında nə deyə bilərsiniz? Bu surənin mənası nədir? Dedilər: "Mənası budur ki, fəth baş verdikdə Allaha həmd et və Ondan bağışlanma dilə". Dedi: "Ey Abbasın oğlu, sən nə deyirsən?" İbn Abbas dedi: "Bu, Rəsulullahın ﷺ əcəlinə dəlildir. Allah bir əlamət verib ki, bu da fəth və qələbədir. Fəth baş verdikdə onun əcəli yaxınlaşır". Ömər dedi: "Mən də elə sənin anladığın kimi anlamışam".

Xülasə, bu ayələrdə Allah öz Peyğəmbərinə ﷺ əmr edir ki, Rəbbini təriflәsin və Ondan bağışlanma diləsin. Peyğəmbər ﷺ də bunu edər, rükularında və səcdələrində çoxlu-çoxlu: **"Allahım, Sən nöqsansızsan. Sənə həmd olsun, ey Rəbbim! Allahım, məni bağışla!"**– deyərdi. Onun mənası budur ki, sən izzət və cəlal sahibi Allahı naqis sifətlərdən uzaqlaşdıraraq kamil sifətləri ilə tərifləyib Ondan bağışlanma diləyəsən.

İkinci hədisdə isə Peyğəmbərin ﷺ rükuda və səcdədə belə dediyi deyilir: **"Mələklərin və ruhun Rəbbi, Sən pak və müqəddəssən".** Yəni Sən pak və müqəddəssən. Bu da tərifin üstün mərtəbəsidir.

Uca Allah pak və müqəddəsdir, mələklərin Rəbbidir. Mələklər izzət və cəlal sahibi Allahın əsgərləridir. Biz onların aləmini müşahidə etmirik. Ruh isə Cəbraildir və o ən fəzilətli mələkdir. Gərək insan rükusunda və səcdəsində "Allahım, Sən nöqsansızsan. Sənə həmd olsun, ey Rəbbim! Allahım, məni bağışla!" sözlərini çoxaltsın, bununla da Peyğəmbərə ﷺ tabe olsun. Rüku və səcdədə həm də bu sözləri demək lazımdır: "Mələklərin və ruhun Rəbbi, Sən pak və müqəddəssən!"

İbn Abbasdan nəql olunan hədisdə isə o demişdir: **"Ruku etdiyinizdə, orada Rəbbinizi əzəmətləşdirin. Səcdədə isə dualar etməyə çalışın, dualarınıza cavab verilər".**

Bu, hədisin bir hissəsidir. Hədisin tam mətni belədir: **"Mənə rükuda və ya səcdədə Quran oxumaq qadağan edildi. Rüku etdiyinizdə, orada**

**Rəbbinizi əzəmətləşdirin. Səcdədə isə dualar etməyə çalışın, dualarınıza cavab verilər".** Yəni ümid edilir ki, duanıza cavab verilər.

İnsanın Allaha ən yaxın olduğu vaxt səcdədə olduğu vaxtdır. Rüku və ya səcdədə kiminsə Quran oxuması icazəli deyil, lakin Qurana müvafiq olan duaları etmək olar. Məsələn, deyə bilərsən ki: **"Ey Rəbbimiz, günahlarımızı və əməllərimizdə həddi aşmağımızı bizə bağışla, qədəmlərimizi sabit et və kafir qövmə qələbə çalmaqda bizə yardım et!"**

Rükuda və ya səcdədə olarkən Quran oxumaq haramdır.

Rükuda Allaha təzim edilir, "Əzəmətli Rəbbim nöqsansızdır" tərifi, "Sübhanəl-məlikil-quddus", yaxud da buna bənzər sözlər deyilir. Səcdədə isə: "Uca Rəbbim nöqsansızdır. Allahım, Sən Nöqsansızsan. Sənə həmd olsun, ey Rəbbim! Allahım, məni bağışla!" deyilir, çoxlu dualar edilir və bununla ümid edilir ki, onun dualarına cavab verilər. Allah bizləri və sizi sevdiyi və razı qaldığı işlərə müvəffəq etsin.

١٤٢٨– وعن أبي هريرةَ ﷺ أنَّ رسُولَ اللَّه ﷺ قال: « أقربُ ما يَكونُ العبْدُ مِن رَبِّهِ وَهَو ساجدٌ، فَأَكْثِرُوا الدُّعاءَ ». رواهُ مسلم.

**1428.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Qulun öz Rəbbinə ən yaxın olduğu vaxt səcdədə ikən olduğu vaxtdır".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٤٢٩– وعنهُ أنَّ رسُول اللَّه ﷺ كانَ يقُولُ في سُجُودِهِ اللَّهُمَّ اغفِرْ لي ذَنبي كُلَّهُ: دِقَّه وجِلَّهُ، وأَوَّله وَآخِرَهُ، وعلانيته وَسِرَّه » رواهُ مسلم.

**1429.** Yenə ondan rəvayət olunur ki, Rəsulullah ﷺ səcdədə deyərdi: **"Allahım, bütün günahlarımı bağışla – böyüyünü, kiçiyini, birincisini, sonuncusunu, gizli və ya aşkar olanını".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

[1] "Səhih Muslim", 744.
[2] "Səhih Muslim", 745.

**Şərh:**

Bu iki hədis müəllifin ﷺ "Zikr etməyin fəziləti və ona təşviq" fəslində zikr etdiyi xüsusi zikr və duaların bəyanı ilə bağlıdır. Bu hədislərdən biri Əbu Hureyradan رضي الله عنه nəql olunmuşdur. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Qulun öz Rəbbinə ən yaxın olduğu vaxt səcdədə ikən olduğu vaxtdır".** Çünki insan səcdə etdikdə ən şərəfli bədən üzvlərini ayaqların basıldığı yerə qoymuş olur. Həmçinin bədəninin ən yüksəkdə olan yerini ən aşağıda olan yerə qoyur. Belə ki, onun üzü ən yüksəkdə olan bədən nahiyəsi, ayaqları isə ən aşağıda olan bədən üzvüdür. Bu iki üzvünü eyni yerə qoymaqla izzət və cəlal sahibi Allahın qarşısında təvazökarlıq və zəlillik nümayiş etdirir. Buna görə də insanın öz Rəbbinə ən yaxın olduğu vaxt səcdə vaxtıdır.

Daha öncə qeyd etdik ki, Peyğəmbər ﷺ səcdə zamanı çoxlu dua etməyi əmr etmişdir. Bununla da qul həm bədən, həm də söz baxımından izzət və cəlal sahibi Allaha təvazökarlığını göstərmiş olur. Buna görə də adam səcdə zamanı: "Sübhanə rabbiyəl-əalə" deməklə təsdiq etmiş olur ki, Uca Allah zatında və sifətlərində ən Uca olan, insan isə Allahın əzəməti qarşısında alçaqdır.

İkinci hədisdə isə qeyd olunur ki, Peyğəmbər ﷺ namazda deyərdi: **"Allahım, bütün günahlarımı bağışla – böyüyünü, kiçiyini, birincisini, sonuncusunu, gizli və ya aşkar olanını".** Bu da duanı sadələşdirmək və daha əhatəli etməkdir. Çünki dua ibadətdir. İnsan onu nə qədər çox təkrar etsə, izzət və cəlal sahibi Allaha bir o qədər çox ibadət etmiş olar. Sonra o, bu təkrarla bütün günahlarını etiraf etmiş olur: böyüyünü, kiçiyini, birincisini, sonuncusunu, gizli və aşkar olanını. Hikmət də bundadır ki, Peyğəmbər ﷺ ümumi şəkildə qeyd etdiyini sonradan açıqlayır. Gərək insan Rəsulullahdan ﷺ varid olmuş dualara həris olsun. Çünki o, duaların ən ümumi və faydalı olanıdır. Allah bizləri və sizi xeyirli işlərə müvəffəq etsin.

١٤٣٠– وعنْ عائشةَ رضي الله عنها قالَتْ: افتَقدْتُ النبي ﷺ ذَاتَ لَيْلَةٍ، فَتَحَسَّسْتُ، فَإذَا هُو راكعٌ أوْ سَاجدٌ يقولُ: « سُبْحَانكَ وبحمدِكَ، لا إلهَ إلاَّ أنْتَ ». وفي روايةٍ: فَوقَعَت يَدِي على بَطْنِ قَدميهِ، وهُوَ في المَسْجِدِ، وهما منْصُوبتانِ، وَهُوَ يَقُولُ: « اللَّهُمَّ إنِّي أَعُوذُ بِرضَاكَ مِنْ سَخَطِكَ، وبمُعافاتِكَ مِنْ عُقوبتِكَ، وَأَعُوذُ بِك مِنْكَ، لا أُحْصِي ثَنَاءً عليكَ أَنْتَ كما أثنيتَ على نَفْسِكَ ». رواهُ مسلم.

**1430.** Rəvayət olunur ki, Aişə ﵂ demişdir: "Bir gecə Peyğəmbəri ﷺ yerində tapmadım. Baxıb gördüm ki, o, rükuda və ya səcdədə belə deyir: **"Sən Nöqsansızsan, Sənə həmd olsun, Səndən başqa ibadətə layiq məbud yoxdur".** Başqa bir rəvayətdə *isə deyilir*: "Əlim onun ayaqlarının altına toxundu. Məsciddə ayaqlarını uzatmış vəziyyətdə belə deyirdi: **"Allahım, Sənin qəzəbindən razılığına, cəzandan afiyətinə sığınıram. Səndən Sənə sığınıram. Sən özünü təriflədiyin kimi, mən də Sənə sonsuz tariflər edirəm".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٤٣١– وعنْ سعدِ بن أبي وقاصٍ ﵁ قال: كُنَّا عِنْد رسُولِ اللَّهِ ﷺ فقال: « أَيعجِزُ أَحدُكم أنْ يكْسِبَ في كلِّ يوْمٍ أَلف حَسنَة؟ » فَسَأَلَهُ سائِلٌ مِنْ جُلَسائِهِ: كيفَ يكسِبُ أَلفَ حَسنَةٍ؟ قالَ: « يُسَبِّحُ مِائةَ تَسْبِيحة، فَيُكتَبُ لهُ أَلفُ حسَنَةٍ، أوْ يُحَطُّ عنْهُ ألفُ خَطِيئَةٍ ». رواه مسلم.

**1431.** Rəvayət olunur ki, Səd ibn Əbu Vaqqas ﵁ demişdir: "Bir dəfə biz Rəsulullahın ﷺ yanında idik, o dedi: **"Sizlər gün ərzində min savab qazanmağa da acizsiniz?"** Orada oturanlardan biri soruşdu: "Min savab necə qazanılır?" Dedi: **"*Adam* yüz dəfə "sübhanallah" deyir, ona min savab yazılır və ya onun min günahı silinir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

**Şərh:**

Bu iki hədis zikr və onun fəziləti ilə bağlıdır. Birinci hədisdə Aişədən ﵂ rəvayət olunur ki, bir gecə o, Peyğəmbəri ﷺ yanında tapmır. Onu axtarmaq üçün çıxır və görür ki, o, məsciddə səcdədədir, Uca Allaha dualar edir. O dedi: "Mənim əlim onun ayaqlarının altına dəydi".

Alimlər bunu dəlil gətirərək demişlər ki, səcdədə olan kəs gərək ayaqlarını birləşdirə və ayırmaya. Çünki bir əl ayrı duran iki ayağa dəyə bilməz. İbn Xuzeymənin "Səhih" əsərində də nəql olunmuşdur ki, "Peyğəmbər ﷺ səcdə edərkən ayaqlarını bir-birinə birləşdirərdi". Dizlər isə birləşdirilmir və olduğu kimi ayrı qalır.

---

[1] "Səhih Muslim", 751.

[2] "Səhih Muslim", 4866.

Peyğəmbər ﷺ dua edib deyərdi: **“Allahım, Sənin qəzəbindən razılığına sığınıram”.** Yəni, Peyğəmbər pis əməllərdən yaxşı əməllərlə izzət və cəlal sahibi Allaha sığınırdı. Çünki pis əməllər qəzəbə, yaxşı əməllər isə razılığa səbəb olur. Hər bir şey də ona zidd olanla müalicə olunur. Qəzəbin ziddi razılıqdır. Buna görə də Onun qəzəbindən razılığına sığınır.

**“Cəzandan afiyətinə sığınıram”.** Yəni, günahların cəzasından, Sənin cəzandan Sənin günahları bağışlamağına sığınıram. Bu istək özündə həm də bağışlanma diləməyi əhatə edir.

**“Səndən Sənə sığınıram”**. Bu daha ümumi və əhatəlidir – o, izzət və cəlal sahibi Allahdan Allaha sığınır. Belə ki, Allahdan başqa nicat və xilas yeri yoxdur. Səni izzət və cəlal sahibi Allahdan başqa Onun əzabından heç kim qurtara bilməz. Buna görə də Uca və nöqsansız Allaha sığınır. Yəni Onun cəzasından və Onun qadir olduğu başqa şeylərdən Ona sığınırsan.

Burada deyilənlər dəlildir ki, ayaqlar səcdə zamanı bitişik tutulur. Həmçinin dəlildir ki, Peyğəmbər ﷺ bəzən nafilə namazlarını da məsciddə qılardı. Baxmayaraq ki, nafiləni evdə qılmaq daha əfzəldir. Rəsulullah ﷺ demişdir: **“Fərz namazları istisna olmaqla, kişinin qıldığı ən əfzəl namaz evdə qıldığı namazdır”**.[1] Lakin Peyğəmbər ﷺ nafilə namazlarını da bəzən məsciddə qılardı.

Bu həm də Aişənin ﵂ Rəsulullahı ﷺ necə çox sevdiyinə dəlildir. Burada qəribə heç nə yoxdur – Peyğəmbər ﷺ xanımlarından ən çox onu sevərdi. Xədicə istisna, heç bir qadın ona tay deyildi. Xədicə onun ilk xanımı idi, Peyğəmbər ﷺ də o vəfat edənədək heç kimlə evlənməmişdir. O, Xədicəni həmişə xatırlayardı. Aişənin ﵂ zamanında isə ən çox sevdiyi xanımı Aişə idi.

Bu hədisin faydalarından biri də budur ki, insan izzət və cəlal sahibi Allahın sifətlərinə onların ziddindən – qəzəbindən razılığına, əzabından rəhmətinə sığındığı kimi sığına bilər. Allahdan başqa heç bir yerdə sığınacaq yoxdur. Beləcə insan Uca və Böyük Allaha sığına bilər. Müvəffəq edən Allahdır.

**Vacib qeyd.** İnsan səcdədə olarkən əllərini, əllərindən birini, ayaqlarını, ayaqlarından birini qaldıra bilməz. Çünki yeddi üzv üzərində səcdə

---

[1] “Səhih əl-Buxari”, 689; “Səhih Muslim”, 1301.

etmək vacibdir: alınla burun, iki əl, iki diz və ayaqların ucları. Səcdədən qalxanadək onları qaldıranın namazı batil olur. Hansısa səbəbdən qaldırıb tez salsa isə, ümid edirəm ki, onun namazı batil olmaz.

١٤٣٢– وعنْ أبي ذَرٍّ ﵁ أَنَّ رسُولَ اللَّهِ ﷺ قال: « يُصْبِحُ عَلى كُلِّ سُلامَى مِنْ أَحدِكُمْ صَدَقةٌ: فكُلُّ تَسْبِيحةٍ صدقةٌ، وكُلُّ تَحْمِيدَةٍ صَدَقَةٌ، وَكُلُّ تَهْلِيلَةٍ صَدَقَةٌ، وكلُّ تَكْبِيرَةٍ صدقَةٌ، وَأَمْرٌ بِالمعْرُوفِ صَدقَةٌ، وَنَهْيٌ عَنِ المُنْكَرِ صدقَةٌ. وَيُجْزِيءُ مِنْ ذلكَ ركْعتَانِ يَرْكَعُهُما منَ الضُّحَى ». رواه مسلم.

**1432.** Əbu Zərdən ﵁ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Sizlərdən hər kəsin hər bir oynağına görə sədəqə vardır. Hər bir "sübhanallah" sözü sədəqədir, hər bir "əlhəmdulilləh" sözü sədəqədir, hər bir "la ilahə illəllah" sözü sədəqədir, hər bir "Allahu əkbər" sözü sədəqədir, yaxşı işlərə çağırmaq sədəqədir, pis işlərdən çəkindirmək sədəqədir. Bütün bunları iki rükət duha namazı əvəz edir"**.

Bu hədisi Muslim rəvayət etmişdir.

١٤٣٣– وعَنْ أُمِّ المؤمنينَ جُوَيْرِيَةَ بنتِ الحارثِ ﵂ أَنَّ النبي ﷺ خرجَ مِنْ عِنْدِهَا بُكرَةً حِينَ صَلَّى الصُّبْحَ وهِيَ في مسْجِدِهَا، ثُمَّ رَجع بَعْد أَنْ أَضْحى وهِي جَالِسةٌ فقال: « مازلْتِ على الحال التي فارَقْتُكَ عَلَيْهَا؟ » قالَتْ: نَعم: فَقَالَ النبي ﷺ: « لَقَدْ قُلْتُ بَعْدكِ أرْبَعَ كَلمَاتٍ ثَلاثَ مرَّاتٍ، لَوْ وُزِنَتْ بمَا قُلْتِ مُنْذُ الْيَومِ لَوَزَنَتْهُنَّ: سُبْحَانَ اللَّهِ وبحمْدِهِ عَدَدَ خَلْقِهِ، وَرِضَاءَ نَفْسِهِ، وَزِنَةَ عرْشِهِ، ومِداد كَلمَاتِه » رواه مسلم.

وفي روايةٍ لهُ: سُبْحانَ اللَّهِ عددَ خَلْقِهِ، سُبْحَانَ اللَّهِ رِضَاءَ نَفْسِهِ، سُبْحانَ اللَّهِ زِنَةَ عَرْشِهِ، سُبْحَانَ اللَّهِ مِداد كَلماتِهِ ».

وفي روايةِ الترمذي: « ألا أُعلِّمُكِ كَلماتٍ تَقُولينَهَا؟ سُبْحانَ اللَّهِ عَدَدَ خلْقِهِ، سُبْحانَ اللَّهِ عَددَ خَلْقِهِ، سُبْحانَ اللَّه عدد خَلْقِهِ، سُبْحانَ اللَّه رضا نَفْسِهِ، سُبْحان اللَّهِ رضا نَفْسِهِ، سُبْحانَ اللَّه رضا نَفْسِهِ، سُبحَانَ اللَّه زِنَةَ عرْشِهِ، سُبحَانَ اللَّه زِنَةَ عرْشِهِ، سُبحَانَ اللَّه زِنَةَ عرْشِهِ، سُبحَانَ اللَّهِ مِدادَ كَلماتِهِ، سُبحَانَ اللَّهِ مِدادَ كَلماتِهِ، سُبحَانَ اللَّهِ مِدادَ كَلماتِه ».

**1433.** Möminlərin anası Cuveyriyyə bint Harisdən ﷺ rəvayət olunur ki, "Bir səhər sübh namazını qıldıqda Peyğəmbər ﷺ onun yanından çıxdı. Bu vaxt Cuveyriyyə məsciddə idi. Rəsulullah ﷺ Duha namazını qıldıqdan sonra geri döndü. Cuveyriyyə ﷺ isə hələ də *əvvəlki yerində* oturmuşdu. O dedi: **"Hələ də səni tərk etdiyim vəziyyətdəsən?"** Dedi: "Bəli". Peyğəmbər ﷺ dedi: **"Səndən sonra üç dəfə elə dörd kəlmə dedim ki, həmin kəlmələr sənin gün boyu dediklərinlə bir tərəziyə qoyulsa, ağır gələr: sübhanallahi va bihəmdihi adədə xalqihi, va rida nəfsihi, va zinətə arşihi, va midədə kəlimətihi".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Başqa bir rəvayətdə isə demişdir: **"sübhanallahi adədə xalqihi, sübhanallahi rida nəfsihi, sübhanallahi zinətə arşihi, sübhanallahi midədə kəlimətihi"**.

Tirmizinin rəvayəti isə belədir: **"Sənə deyəcəyin sözləri öyrədimmi? – sübhanallahi adədə xalqihi, sübhanallahi adədə xalqihi, sübhanallahi adədə xalqihi, sübhanallahi rida nəfsihi, sübhanallahi rida nəfsihi, sübhanallahi rida nəfsihi, sübhanallahi zinətə arşihi, sübhanallahi zinətə arşihi, sübhanallahi zinətə arşihi, sübhanallahi midədə kəlimətihi, sübhanallahi midədə kəlimətihi, subhənəllahi midədə kəlimətihi."**[2]

**Şərh:**

Bu hədislər müəyyən növ zikrin fəzilətinin bəyanı ilə bağlı hədislərdəndir. Belə ki, möminlərin anası Cuveyriyyə bint Harisdən ﷺ rəvayət olunur ki, bir dəfə Peyğəmbər ﷺ sübh vaxtı onun yanından çıxdı və duha vaxtı onun yanına döndü. Həmin vaxt o, "sübhanallah, la ilahə illəllah" deyirdi. Peyğəmbər ﷺ ona deyir ki, ona elə sözlər öyrədəcək ki, sübhdən bəri dediklərinə bərabər olacaq. Üç dəfə "sübhanallahi va bihəmdihi adədə xalqihi", üç dəfə "sübhanallahi va bihəmdihi rida nəfsihi", üç dəfə "sübhanallahi va bihəmdihi zinətə arşihi", üç dəfə də "sübhanallahi va bihəmdihi midədə kəlimətihi".

---

[1] "Səhih Muslim", 4905.
[2] "Sunən ət-Tirmizi", 3478.

**"Sübhanallahi va bihəmdihi adədə xalqihi",** yəni "Nöqsansız Allaha yaratdıqlarının sayı qədər həmd olsun" sözünə gəlincə, mənası budur ki, sən izzət və cəlal sahibi Allaha yaratdıqlarının sayı qədər həmd etmiş olursan. İzzət və cəlal sahibi Allahın yaratdıqlarının sayını isə Özündən başqa heç kim bilə bilməz. Uca Allah buyurur: **"Sənin Rəbbinin qoşunları barədə yalnız Özü bilir".**[1]

**"Sübhanallahi va bihəmdihi zinətə arşihi",** yəni "Nöqsansız Allaha ərşi ağırlığında həmd olsun". Ərşin ağırlığını isə Uca və nöqsansız Allahdan başqa heç kim bilmir. Çünki yaradılmışlardan böyüklüyünə görə bizə məlum olanlardan ən böyüyü ərşdir. Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur ki: **"Həqiqətən də, yeddi səma və yeddi yer Kürsü ilə müqayisədə çöllüyə atılmış bir halqa (üzük) kimidir. Ərş isə Kürsü ilə müqayisədə həmin çöllüyün halqa ilə müqayisəsi kimidir".**[2] Deməli, Ərş əzəmətli bir yaradılışdır və onun ağırlığını izzət və cəlal sahibi Allahdan başqa heç kim bilmir.

**"Sübhanallahi va bihəmdihi rida nəfsihi"** (Nöqsansız Allaha Özünün razılığı qədər həmd olsun) sözünün mənası budur ki, sən izzət və cəlal sahibi Allah razı qalanadək "Nöqsansız Allaha həmd olsun" deyirsən. Allahın razı qaldığı həmd isə həmdin ən əfzəl və ən kamil olanıdır.

**"Sübhanallahi va bihəmdihi midədə kəlimətihi"** (Nöqsansız Allaha kəlmələrinin sayı qədər həmd olsun) sözünə gəlincə, "midəd" sözü "yazılan"a deyilir. Uca Allahın kəlmələri ilə isə heç bir şey müqayisə olunmur. Uca Allah buyurur: **"Əgər yer üzündəki bütün ağaclar qələm olsaydı, dəniz də *mürəkkəb olub* ardından ona yeddi dəniz də qatılsaydı, yenə də Allahın Sözləri qurtarmazdı. Həqiqətən, Allah Qüdrətlidir, Hikmət sahibidir".**[3]

O həmçinin buyurur: «**De: "Əgər Rəbbimin Sözlərini yazmaq üçün dəniz mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik belə, Rəbbimin Sözləri qurtarmadan öncə dənizin *suyu* qurtarardı"».**[4]

---

[1] "əl-Muddəssir" surəsi, 31.
[2] "Səhih İbn Hibban", 2/77.
[3] "Loğman" surəsi, 27.
[4] "əl-Kəhf" surəsi, 109.

Bəli, Uca Allahın kəlmələri sonsuzdur. Bizə də mühüm olan odur ki, biz gərək bu zikri mühafizə edək: üç dəfə “sübhanallahi va bihəmdihi adədə xalqihi”, üç dəfə “sübhanallahi va bihəmdihi rida nəfsihi”, üç dəfə “sübhanallahi va bihəmdihi zinətə arşihi”, üç dəfə də “sübhanallahi va bihəmdihi midədə kəlimətihi”.

١٤٣٤– وعنْ أبي مُوسَى الأشعريِّ، ﷺ، عن النبي ﷺ ، قال: «مَثَلُ الذي يَذكُرُ ربَّهُ وَالذي لا يذكُرُهُ، مَثَل الحيِّ والميِّتِ » رواهُ البخاري.

ورواه مسلم فقال:«مَثَلُ البَيْتِ الَّذي يُذْكَرُ اللَّه فِيهِ، وَالبَيتِ الذي لا يُذْكَرُ اللَّه فِيهِ، مَثَلُ الحَيِّ والمَيِّتِ ».

**1434.** Əbu Musa əl-Əşaridən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **“Rəbbini zikr edənlə Onu zikr etməyənin misalı diri ilə ölü-nün misalı kimidir”**.

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Muslim isə belə rəvayət etmişdir: **“İçərisində Allah zikr olunan ev ilə içərisində Allah zikr olunmayan evin misalı diri ilə ölünün misalı kimidir”.**[2]

١٤٣٥– وعنْ أبي هُريرةَ، ﷺ ، أنَّ رسُولَ اللَّه ﷺ قالَ: « يقُولُ اللَّه تَعالى: أَنَا عِنْدَ ظَنِّ عبدي بي، وأنا مَعهُ إذا ذَكَرَني، فَإن ذَكرَني في نَفْسِهِ، ذَكَرْتُهُ في نَفسي، وإنْ ذَكَرَني في ملإٍ، ذكَرتُهُ في ملإٍ خَيْرٍ منْهُمْ » متَّفقٌ عليهِ.

**1435.** Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **«Uca Allah buyurur: “Mən qulumun Mənim barəmdəki zənninin yanındayam. Məni zikr edərsə, Mən onunla olaram. Məni öz nəfsində zikr edərsə, Mən də onu öz nəfsimdə zikr edərəm. Məni bir toplumun yanında zikr edərsə, Mən də onu daha xeyirli bir toplumun yanında zikr edərəm”».**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] “Səhih əl-Buxari”, 5928.

[2] “Səhih Muslim”, 1299.

[3] “Səhih əl-Buxari”, 6856; “Səhih Muslim”, 4832.

١٤٣٦– وعَنْهُ قال: قالَ رَسُولُ اللَّه ﷺ: « سبقَ المُفَرِّدُونَ » قالوا: ومَا المُفَرِّدُونَ يا رسُول اللَّهِ؟ قال: « الذَّاكِرُونَ اللَّه كَثيراً والذَّاكِراتُ » رواه مسلم.

روي: « المُفَرِّدُونَ » بتشديد الراء وتخفيفها، والمَشْهُورُ الَّذي قَالَهُ الجمهُورُ: التَّشديدُ.

**1436.** Yenə Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Təkləşdirənlər ötüb-keçdilər"**. Soruşdular: "Ey Allahın elçisi, təkləşdirənlər kimlərdir?" Dedi: **"Allahı çox zikr edən kişilər və qadınlar"**. Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[Hədisin ərəbəsində keçən] "əl-mufərridun" sözü şəddəli də nəql olunmuşdur, şəddəsiz də. Alimlərin əksəriyyətinə görə, şəddə olmalıdır.

**Şərh:**

Birinci hədisdə Peyğəmbər ﷺ demişdir: **"Rəbbini zikr edənlə Onu zikr etməyənin misalı diri ilə ölünün misalı kimidir".**

Uca Allahı zikr edən kəsin qəlbini Allah zikrlə diriltmiş olur və onun köksünü genişlədir. Buna görə də o, diri kimi olur. Allahı zikr etməyən kəsin isə qəlbi rahat olmur. Allah qorusun! Onun qəlbi İslam üçün genişlənmir və o, ölü kimi olur. İnsan gərək bu misaldan ibrət götürsün və bilsin ki, o, hər dəfə izzət və cəlal sahibi Allahı zikr etməkdən qafil olduqca onun qəlbi sərtləşir. Allah qorusun, hətta onun qəlbi ölə də bilər.

Digər iki hədisə gəlincə, onlar da zikrin fəzilətinə dəlildir. Belə ki, insan izzət və cəlal sahibi Allahı öz nəfsində zikr edərsə, Allah da onu Özündə zikr edər. Əgər Allahı toplum qarşısında zikr edərsə, Allah da onu daha xeyirli bir toplumun qarşısında zikr edər. Əgər Rəbbini özündə zikr etsən, yəni ya gizlində dilinlə bunu desən və heç kim səni eşitməsə, ya da Onu qəlbində zikr etsən, O da səni Özündə xatırlayar. Allahı toplum qarşısında zikr etsən, yəni hər hansı bir camaatın qarşısında zikr etsən, Allah da mələklərdən ibarət bir camaat qarşısında səni xatırlamış, ucaltmış və tərifləmiş olar.

Bu da zikrin fəzilətinə dəlildir. İnsan Allahı bir toplumun qarşısında zikr edirsə, Allah da onu daha xeyirli bir toplumun qarşısında xatırlayır.

[1] "Səhih Muslim", 4834.

Yalnız özündə riyanın olmasından qorxması halı istisnadır: riya olmasından qorxursa, bunu (zikri) yüksək səslə demir. Ancaq gərək qəlbində vəsvəsələr olmasın. Yəni fikirləşməsin ki, əgər Allahı yüksək səslə zikr etsəm, bu, riya olacaq, ona görə Allahı zikr etməyəcəyəm. Belə vəsvəsələri tərk etmək lazımdır. İnsan digər insanların yanında da, özündə də Uca Allahı zikr etməlidir ki, izzət və cəlal sahibi Allah da onu zikr etsin.

Əbu Hureyradan nəql olunmuş üçüncü hədisə gəlincə, həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Təkləşdirənlər ötüb-keçdilər"**. Soruşdular: "Ey Allahın elçisi, təkləşdirənlər kimlərdir?" Dedi: **"Allahı çox zikr edən kişilər və qadınlar"**. Bu da dəlildir ki, Allahı çox zikr edənlər başqalarını ötüb keçmiş olurlar. Çünki onlar başqalarından daha çox əməl edir, bununla da xeyirli işlərdə başqalarını ötmüş olurlar. Müvəffəq edən Allahdır.

١٤٣٧– وعن جابر رضي الله عنه قالَ: سمِعْتُ رسُول اللَّه ﷺ يقولُ: « أَفْضَلُ الذِّكرِ: لا إله إلاَّ اللَّه ». رواهُ الترمِذيُّ وقال: حديثٌ حسنٌ.

**1437.** Rəvayət olunur ki, Cabir رضي الله عنه demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: **"Ən fəzilətli zikr "la ilahə illəllah" zikridir"**».

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişdir.[1]

١٤٣٨– وعنْ عبد اللَّه بن بُسْرٍ رضي الله عنه أَنَّ رَجُلاً قال: يا رسُولَ اللَّهِ، إنَّ شَرائِع الإِسْلامِ قَدْ كَثُرتْ علَيَّ، فَأَخبرْني بِشيءٍ أَتشَبَّثُ بهِ قال: « لا يَزالُ لِسَانُكَ رَطْباً مِنْ ذِكْرِ اللَّهِ » رواهُ الترمذي وقال: حديثٌ حَسَنٌ.

**1438.** Abdullah ibn Busrdan رضي الله عنه rəvayət olunur ki, bir kişi dedi: "Ey Allahın elçisi, həqiqətən də İslamın buyurduqları mənə çox gəlir. Mənə elə bir şey öyrət ki, onların əvəzinə onu edim". Peyğəmbər ﷺ dedi: **"Çalış dilin Allahı zikr etməklə islaq qalsın"**.

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişdir.[2]

---

[1] "Sunən ət-Tirmizi", 3305; "Səhih Muslim", 3790.
[2] "Musnəd İmam Əhməd", 4/188; "Sunən ət-Tirmizi", 3297; "Sunən İbn Macə", 3783.

١٤٣٩– وعنْ جابرٍ ﷺ، عَنِ النبي ﷺ قال: « منْ قال: سُبْحانَ اللَّهِ وبحَمدِهِ، غُرِستْ لهُ نَخْلَةٌ في الجَنَّةِ ». رواه الترمذي وقال: حديث حسنٌ.

**1439.** Cabirdən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim "sübhanallahi va bihəmdihi" deyərsə, Cənnətdə onun üçün ağac əkilər".**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişdir.[1]

١٤٤٠– وعن ابن مسْعُودٍ ﷺ قال: قال رسُول اللَّه ﷺ « لَقِيتُ إبراهيمَ ﷺ لَيْلَةَ أُسْرِيَ بي فقال: يا مُحمَّدُ أقرِيءْ أُمَّتَكَ مِنِّي السَّلام، وأَخبِرْهُمْ أنَّ الجنَّةَ طَيِّبةُ التُّربةِ، عذْبةُ الماءِ، وأَنَّها قِيعانٌ وأنَّ غِرَاسَها: سُبْحانَ اللَّه، والحمْدُ للَّه، ولا إله إلاَّ اللَّه واللَّه أكْبَرُ ». رواه الترمذي وقال: حديثٌ حسنٌ.

**1440.** İbn Məsuddan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"İsra gecəsi İbrahimlə görüşdüm. O dedi: "Ey Muhəmməd, ümmətinə mənim salamımı çatdır və onlara xəbər ver ki, Cənnətin torpağı gözəl, suyu saf, özü də yaşıllıq bir yerdir, ağacları isə "sübhanallah", "əlhəmdulilləh", "la ilahə illəllah" və "Allahu Əkbər" sözləridir"**.

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişdir.[2]

١٤٤١– وعنْ أَبي الدِّرداءِ، ﷺ قالَ: قالَ رسولُ اللَّهِ ﷺ: « أَلا أُنَبِّئُكُم بِخَيْرِ أَعْمَالِكُم، وأَزْكَاهَا عِند مليكِكم، وأَرْفعِها في دَرجاتِكم، وخَيْرٌ لَكُمْ مِنْ إِنْفَاق الذَّهَبِ والفضَّةِ، وخَيْرٌ لَكُمْ مِنْ أَنْ تَلْقوْا عدُوَّكم، فَتَضربُوا أَعْنَاقَهُم، ويضربِوا أَعْنَاقكُم؟» قالوا: بلَى، قال: « ذِكْر اللَّهِ تَعالى ». رواهُ الترمذي، قالَ الحاكمُ أَبو عبد اللَّهِ: إِسناده صحيح.

**1441.** Əbu Dərdadan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ dedi: **"Sizə əməllərinizin ən xeyirlisi, Rəbbiniz yanında ən yaxşısı, dərəcələrinizi ən çox qaldıran, qızıl və gümüş paylamağınızdan, düşmənlərinizlə üzləşib onların sizin, sizin də onların boyunlarını vurmağınızdan daha xeyirli bir əməl barəsində xəbər verimmi?"** Dedilər: "Bəli". Dedi: **"Uca Allahı zikr etmək".**

---

[1] "Sunən ət-Tirmizi", 3465.

[2] "Sunən ət-Tirmizi", 3384.

Hədisi Tirmizi rəvayət etmiş, Əbu Abdullah əl-Hakim də: “İsnadı səhihdir”– demişdir.[1]

**Şərh:**

Müəllifin ﷺ qeyd etdiyi bu hədislər ümumilikdə zikrin fəzilətinə dəlalət edir. Ancaq onların bəzisində zəiflik vardır.

Misal üçün, «Bir kişi dedi: “Ey Allahın elçisi, həqiqətən də İslamın buyurduqları mənə çox gəlir. Mənə elə bir şey öyrət ki, onların əvəzinə onu edim”. Peyğəmbər ﷺ dedi: “Çalış dilin Allahı zikr etməklə islaq qalsın”» – hədisi**.** Bu hədisdə zəiflik var. Əgər o səhih olsaydı, mənası belə olardı ki, bu kişiyə nafilələr ağır gəlib. Çünki fərzlərin əvəzinə heç “la ilahə illəllah” demək də kifayət etmir – fərzlər yerinə yetirilməlidir! Nafilələrin isə bəzisi insana ağır gələrsə, ola bilsin ki, zikr onu əvəz etsin.

Rəsulullah ﷺ həmçinin demişdir: **“Zikrlərin ən fəzilətlisi “la ilahə illəllah” zikridir”**.

Heç şübhəsiz, bu, əzəmətli bir kəlmədir – onun vasitəsilə insan İslam dininə daxil olur. Hədisdə də qeyd olunmuşdur ki, Cənnətin açarı “la ilahə illəllah”dır.

Həmçinin “sübhanallah”, “əlhəmdulilləh”, “la ilahə illəllah” və “Allahu Əkbər” kəlmələri Cənnətin ağaclarıdır. Yəni insan hər dəfə bu kəlmələri dedikcə, Cənnətdə onun üçün bir ağac əkilir.

Həmçinin Allahı zikr etmək izzət və cəlal sahibi Allah üçün ən fəzilətli, ən sevimli əməllərdəndir. Bu zikr həm də Allahla görüş zamanı sabit qalmanın səbəblərindəndir. Uca Allah buyurur: **“Ey iman gətirənlər, *kafir* bir dəstə ilə üz-üzə gəldikdə möhkəm durun və Allahı çox yad edin ki, bəlkə nicat tapasınız”.**[2]

Bütün bu hədislər zikrin fəzilətinə dəlalət edir. Gərək insan Allahı çox-çox zikr etsin.

---

[1] “Musnəd İmam Əhməd”, 5/195; “Sunən ət-Tirmizi”, 3299; “Sunən İbn Macə”, 3780; “Mustədrək əl-Hakim”, 1/673.

[2] “əl-Ənfal” surəsi, 45.

Daha öncə Peyğəmbərin ﷺ bu sözlərini qeyd etmişdik ki: **"İki kəlmə vardır ki, onlar dil üçün xəfif, tərəzidə ağır, ər-Rəhmana ən sevimli sözlərdir: – "sübhanallahi va bihəmdihi" və "sübhanallahil-azim"**. Müvəffəq edən Allahdır.

١٤٤٢– وعن سعْدِ بنِ أَبي وقَّاصٍ رضي الله عنه أَنَّهُ دَخَل مع رسولِ اللَّهِ ﷺ على امْرأَةٍ وبيْنَ يديْهَا نَوىً أَوْ حصىً تُسبِّحُ به فقال: « أَلا أُخْبِرُك بما هُو أَيْسرُ عَليْكِ مِنْ هذا أَوْ أَفْضَلُ » فقالَ: « سُبْحانَ اللَّهِ عددَ مَا خَلَقَ فِي السَّماءِ، وَسُبْحانَ اللَّهِ عددَ ما خَلَقَ في الأَرْضِ، سُبحانَ اللَّهِ عددَ ما بيْنَ ذلك، وسبْحانَ اللَّهِ عدد ما هُوَ خَالِقٌ. واللَّه أَكْبرُ مِثْلَ ذلكَ، والحَمْد للَّهِ مِثْل ذلك، ولا إِله إِلا اللَّه مِثْل ذلكَ، ولا حوْل ولا قُوَّةَ إِلاَّ باللَّه مِثْلَ ذلك ». رواه الترمذي وقال: حديثٌ حسنٌ.

**1442.** Səd ibn Əbu Vaqqasdan رضي الله عنه rəvayət olunur ki, bir dəfə o, Rəsulullahla ﷺ birlikdə bir qadının yanına daxil oldu. Qadının önündə xırda daşlar var idi və o, həmin daşlarla zikr edirdi. Peyğəmbər ﷺ dedi: **"Sənə bundan daha asanı və ya əfzəli barədə xəbər verimmi?"** Sonra dedi: **"Səmada yaratdıqlarının sayı qədər sübhanallah, yerdə yaratdıqlarının sayı qədər sübhanallah, bunların arasında olanlar qədər sübhanallah; Onun yaratdıqlarının sayı qədər sübhanallah, onlar qədər də Allahu əkbər, onlar qədər də əlhəmdulilləh, onlar qədər də la ilahə illəllah, onlar qədər də lə həulə va lə quvvatə illə billəh"**.

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişdir.[1]

١٤٤٣– وعنْ أَبي مُوسى رضي الله عنه قال: قالَ لِي رسُولُ اللَّهِ ﷺ: « أَلا أَدُلُّك على كَنْزٍ مِنْ كُنُوزِ الجنَّةِ؟ » فقلت: بلى يا رسول اللَّه، قال: « لا حول ولا قُوَّةَ إِلاَّ بِاللَّهِ » متفقٌ عليه.

**1443.** Rəvayət olunur ki, Əbu Musa رضي الله عنه demişdir: «Rəsulullah ﷺ mənə dedi: **"Sənə Cənnət xəzinələrindən birini göstərimmi?"** Dedim: "Bəli, ey Allahın elçisi". Dedi: **"Lə həulə va lə quvvatə illə billəh"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "Sunən ət-Tirmizi", 3491.

[2] "Səhih əl-Buxari", 3883; "Səhih Muslim", 4875.

**Şərh:**

Bu iki hədis də zikrin fəzilətinin bəyanı ilə bağlıdır. Bundan öncə də zikrin fəziləti ilə bağlı çoxlu hədislər qeyd edilmişdir.

Səd ibn Əbu Vaqqasın رضي الله عنه hədisində deyilir ki, bir dəfə o, Peyğəmbərlə ﷺ birlikdə bir qadının yanına daxil oldular. Həmin qadın da daşlarla zikr edirdi. Peyğəmbər ﷺ dedi: **“Sənə bundan daha asanı, yaxud fəzilətli olanını xəbər verimmi?”** Buradakı sual darıxdırıcı məna verir. Yəni Rəsulullah ﷺ həmin qadını deyəcəyi zikrlərə təşviq edir. Sonra ona müəyyən zikrləri və ya onlara yaxın olanları qeyd edir və deyir: **“Səmada yaratdıqlarının sayı qədər sübhanallah, yerdə yaratdıqlarının sayı qədər sübhanallah, bunların arasında olanlar qədər sübhanallah; Onun yaratdıqlarının sayı qədər sübhanallah, onlar qədər də Allahu əkbər, onlar qədər də əlhəmdulilləh, onlar qədər də la ilahə illəllah, onlar qədər də lə həulə va lə quvvatə illə billəh”**.

Əbu Musa əl-Əşarinin رضي الله عنه hədisində isə Peyğəmbər ﷺ ona demişdir: «**Sənə Cənnət xəzinələrindən birini göstərimmi?”** Dedi: “Bəli, ey Allahın elçisi”. Dedi: **”Lə həulə va lə quvvatə illə billəh”**».

**”Lə həulə va lə quvvatə illə billəh”** (Allahdan başqa güc-qüvvət Sahibi yoxdur). İnsan bu sözlərlə öz gücünə və qüvvətinə deyil, izzət və cəlal sahibi Allahın gücünə və qüvvətinə sığınır. İnsanın heç bir gücü və qüvvəti yoxdur. İzzət və cəlal sahibi Allah olmadan insan heç bir haldan digər hala düşə bilməz. Bu kəlmələr yardım kəlmələridir. Bir şey səni sıxırsa, yaxud aciz duruma düşdünsə: “Lə həulə va lə quvvatə illə billəh”– de, Uca Allah sənə yardım edəcək. Bu kəlmələr müsibət anında deyilən sözlər deyil. Bəzi adamlara deyildikdə ki, sənə filan müsibət baş verib: “Lə həulə va lə quvvatə illə billəh”– deyir. Müsibət baş verdikdə: “İnnə lilləhi va innə ileyhi raciun” (Həqiqətən, biz Allahdanıq, dönüşümüz də Onadır) deyilir. Bu kəlmə isə yardım üçündür. Əgər Allahın sənə yardım etməsini istəyirsənsə: “Lə həulə va lə quvvatə ilə billəh”– de.

Uca Allah “əl-Kəhf” surəsində iki bağ sahibinin qissəsini qeyd edir. O zaman dostu ona: **“Bağına girdiyin zaman: “Maşallah** (Allahın istədiyidir)**, Qüvvət yalnız Allaha məxsusdur!” deməli deyildinmi?”**– demişdi.[1]

[1] “əl-Kəhf” surəsi, 39.

Bu, sənin və bağının qalması üçün daha yaxşı olardı. Lakin o, oraya daxil olub dedi: **"Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm. *Qiyamət* saatının gələcəyini də zənn etmirəm".**[1] Beləcə bağında gördüyü onun xoşuna gəldi və o, Qiyamət saatını inkar etdi. Allah da onun bağına səmadan bir bəla göndərdi və o, hamar bir yerə çevrildi.

Əlqərəz, "lə həulə va lə quvvatə illə billəh" sözü Cənnət xəzinələrindən biridir. Bir şey sənə ağır gəlirsə, bir şeyi etməyə acizsənsə bu sözləri deyirsən: "lə həulə va lə quvvatə illə billəh", Allah da sənin işlərini asanlaşdırır. Müvəffəq edən Allahdır.

---

[1] "əl-Kəhf" surəsi, 35-36.

# İki yüz qırx beşinci fəsil

## Uca Allahı ayaq üstə, oturarkən, uzanarkən, hədəs vəziyyətində, cünub halında, heyzli olarkən zikr etmək. Quran istisnadır – onu cənabət və ya heyz halında olan kəs oxuya bilməz

**Mövzu ilə əlaqəli ayələr:**

Uca Allah buyurur:

﴿ إِنَّ فِي خَلْقِ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ وَٱخْتِلَٰفِ ٱلَّيْلِ وَٱلنَّهَارِ لَءَايَٰتٍ لِّأُو۟لِى ٱلْأَلْبَٰبِ * ٱلَّذِينَ يَذْكُرُونَ ٱللَّهَ قِيَٰمًا وَقُعُودًا وَعَلَىٰ جُنُوبِهِمْ وَيَتَفَكَّرُونَ فِي خَلْقِ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ رَبَّنَا مَا خَلَقْتَ هَٰذَا بَٰطِلًا سُبْحَٰنَكَ فَقِنَا عَذَابَ ٱلنَّارِ ﴾

**"Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər, göylərin və yerin yaradılışı haqqında düşünərlər".**[1]

**Mövzu ilə əlaqəli hədislər:**

١٤٤٤– وعنْ عائشة رضي الله عنها قَالَت: كانَ رسُولُ اللَّهِ ﷺ يذكُرُ اللَّه تَعالى على كُلِّ أَحيانِهِ. رواه مسلم.

**1444.** Rəvayət olunur ki, Aişə رضي الله عنها demişdir: "Rəsulullah ﷺ hər halında Uca Allahı zikr edərdi".

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٤٤٥– وعن ابن عبَّاسٍ رضي الله عنهما عن النَّبِيِّ ﷺ قال: « لو أَنَّ أَحَدكُمْ إِذا أَتَى أَهلَهُ قالَ: بِسْمِ اللَّهِ اللَّهُمَّ جَنِّبْنَا الشَّيطَانَ وَجنِّبِ الشَّيطانَ مارزَقْتَنَا، فَقُضِي بيْنَهُما ولَدٌ، م يضُرَّهُ ». متفقٌ عليه.

---

[1] "Ali İmran" surəsi, 190-191.

[2] "Səhih Muslim", 558.

**1445.** İbn Abbasdan ﷻ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Biriniz ailəsi ilə yaxınlıq etdikdə: "Allahın adı ilə. Allahım, bizi şeytandan uzaq et, şeytanı da bizə verdiyin ruzidən uzaq et" desin. Əgər onların övladı olarsa, şeytan ona zərər toxundurmaz".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

**Şərh:**

Hafiz ən-Nəvəvi ﷺ "**Uca Allahı ayaq üstə, oturarkən, uzanarkən, hədəs vəziyyətində, cünub halında, heyzli olarkən zikr etmək. Quran istisnadır – onu cənabət və ya heyz halında olan kəs oxuya bilməz**" fəslini qeyd edir. Yəni insan Uca Allahı gərək hər bir halda – ayaq üstə, oturmuş və ya uzanmış vəziyyətdə belə zikr etsin.

Sonra müəllif ﷺ Uca Allahın bu ayələrini dəlil gətirir: **"Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər, göylərin və yerin yaradılışı haqqında düşünərlər".**[2]

Yerin və göyün, yəni səmaların və yerin özünün yaradılmasında, o cümlədən orada olan Uca Allahın əcaib canlılarının xəlq olunmasında ağıl sahibləri üçün dəlillər vardır. Ağıl sahibləri Allahın ayələrindəki hikmət və sirləri dərk edirlər. Səma əlçatmaz uca və genişdir. Yer isə hamardır və məxluqat üçün yararlı yaradılmışdır. Yerdə Allahın bir sıra ayələri, o cümlədən dənizlər, çaylar, ağaclar, dağlar və başqa şeylər vardır. Bütün bunlar onları yaradanın olmasına dəlildir.

Gecə və gündüzün bir-birini əvəzləməsi, uzun və ya qısa, isti və ya soyuq olması, mülayim və sərt olması, təhlükəsiz və qorxulu olması, çətin və salamatlıqda olması və digər böyük ayələr vardır. İnsan səma bürclərinin tarixinə nəzər saldıqda, gecə ilə gündüzün bir-birini əvəz etməsinin şahidi olduqda Allahın əcaib ayələrini görmüş olur və bu da onun imanını artırır.

---

[1] "Səhih əl-Buxari", 5909; "Səhih Muslim", 2591.

[2] "Ali İmran" surəsi, 190-191.

Uca Allah buyurur: **“O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər...”.** Ayədəki dəlil budur: o kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da – hər bir hallarında Allahı yad edərlər.

Sonra müəllif رحمه الله Aişənin رضي الله عنها hədisini qeyd edir. Həmin hədisdə o demişdir ki, Rəsulullah ﷺ hər halında, yəni hər zaman Uca Allahı zikr edərdi. Peyğəmbər hətta müsəlmanın öz ailəsi ilə yaxınlıq etməmişdən öncə zikr etməli olduğunu buyurmuşdur. O demişdir: **“Biriniz ailəsi ilə yaxınlıq etdikdə: “Allahın adı ilə. Allahım, bizi şeytandan uzaq et, şeytanı da bizə verdiyin ruzidən uzaq et” desin. Əgər onların övladı olarsa, şeytan ona zərər toxundurmaz”**

Bu da dəlildir ki, sən gərək hər bir halında Allahı çoxlu zikr edəsən. Ancaq alimlər demişlər ki, yalnız murdar yerlərdə Allah zikr olunmamalıdır. Misal üçün, ayaq yolunda və ya buna bənzər yerlərdə Allah zikr olunmur. Çünki izzət və cəlal sahibi Allahı zikr etməyə hörmət əlaməti olaraq belə edilmir. Bəzi elm əhli belə demişlər. Daha doğrusunu Allah bilir.

# İki yüz qırx altıncı fəsil

## Yatmamışdan öncə və yuxudan qalxdıqda deyilənlər

**Mövzu ilə əlaqəli hədislər:**

١٤٤٦– عن حُذَيْفَةَ، وأَبي ذَرٍّ ﭬ قالا: كانَ رسولُ اللَّهِ ﷺ إِذا أَوَى إِلى فِراشِهِ قال: « بِاسمِكَ اللَّهُمَّ أَمُوتُ وأَحْيَا » وإِذا اسْتيقَظَ قال: « الحمْدُ للَّهِ الذي أَحْيَانَا بعد مَا أَماتَنَا وَإِليْهِ النُّشُورُ ». رواه البخاري.

**1446.** Huzeyfə və Əbu Zər ﭬ demişlər: «Rəsulullah ﷺ yatağına girdikdə deyərdi: **"Bismikəllahummə əmutu va əhyə"** (Allahım, Sənin adınla ölüb-dirilirəm)". Yuxudan oyandıqda isə deyərdi: **"Əlhəmdulilləhilləzi əhyənə bədə mə əmətənə va ileyhin-nuşur"** (Öldürdükdən sonra bizi dirildən Allaha həmd olsun, dönüş Onadır)».

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllif ﵀ "Yatmamışdan öncə və yuxudan qalxdıqda" deyilənlər fəslini qeyd edir.

Uca və nöqsansız Allahın nemətlərindəndir ki, bizlərə yatmamışdan öncə, yuxudan oyandıqda, yedikdə, içdikdə, bir işi başladıqda-yekunlaşdırdıqda, hətta ayaqyoluna getdikdə və ya paltar geyindikdə belə zikrlər etməyi buyurmuşdur. Bütün bunlar ona görədir ki, vaxtımız izzət və cəlal sahibi Allahı zikr etməklə keçsin. Allah bunu bizlər üçün buyurmasaydı, bu deyilənlər bidət hesab olunardı. Lakin Allah bunları bizə buyurmuşdur ki, bizə olan nemətlərini daha da artırsın.

Həmin zikrlərdən biri Huzeyfə və Əbu Zərdən nəql olunan hədisdə qeyd olunub. Həmin hədisdə deyilir ki, Peyğəmbər ﷺ yatağına girdikdə deyərdi: **"Bismikəllahummə əmutu va əhyə"** (Allahım, Sənin adınla ölüb-dirilirəm). Belə ki, dirildən də, öldürən də Allahdır. Allah Dirildəndir –

---

[1] "Səhih əl-Buxari", 5839.

istədiyini dirildir. Allah həm də Öldürəndir – istədiyini öldürür. Buna görə də sən deyirsən ki: "Bismikəllahummə əmutu va əhyə". Yəni Sənin adınla ölürəm, Sənin adınla da dirilirəm.

Bu zikr ona görə yuxudan öncə deyilir ki, yuxu ölümdür, ancaq kiçik ölümdür. Uca Allah buyurur: **"Gecələr sizi öldürən (yatızdıran), gündüzlər isə nələr etdiyinizi bilən Odur. Sonra O, sizi səhərlər oyadır ki, müəyyən olunmuş əcəliniz gəlib çatsın".**[1]

O həmçinin buyurur: **"Allah ölənlərin canını ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alır".**[2]

Ona görə də Rəsulullah ﷺ yuxudan oyandıqda deyərdi: **"Əlhəmdulilləhilləzi əhyənə bədə mə əmətənə va ileyhin-nuşur"** (Öldürdükdən sonra bizi dirildən Allaha həmd olsun, dönüş Onadır).

Bununla Allaha həmd edirsən ki, səni öldürdükdən sonra dirildir. Həm də qeyd edirsən ki, dönüş, yəni qəbirlərdən çıxma izzət və cəlal sahibi Allahadır. Beləcə həm kiçik, həm də böyük ölümlə öldükdən sonra diriləcəyini qeyd etmiş olursan. Deyirsən ki: "Əlhəmdulilləhilləzi əhyənə bədə mə əmətənə va ileyhin-nuşur". Bu da dəlildir ki, bədənin rahatlığı, daha sonra gümrahlığı üçün olan yuxunun digər bir hikməti də onun axirəti xatırlatmasıdır – yada salır ki, vaxt gələcək, insan qəbirdən qalxacaq və izzət və cəlal sahibi Allahın hüzuruna gələcək. Bu da sənin ölümdən sonra dirilməyə imanını artırır.

Ölümdən sonra dirilməyə iman mühüm işdir. İnsan iman gətirməlidir ki, o, öldükdən sonra diriləcək və etdiyi əməllərə görə mükafat və ya cəza alacaq. Buna görə də biz Quranın bir çox yerlərində axirətə iman ilə izzət və cəlal sahibi Allaha imanın yanaşı işləndiyini görürük. Uca Allah buyurur: **"Allaha və axirət gününə iman gətirənlər...".**[3] Bu xüsusda ayələr olduqca çoxdur.

Xülasə, gərək sən yatağına girdikdə: "Bismikəllahummə əmutu va əhyə" deyəsən, yuxudan oyandıqda da: "Əlhəmdulilləhilləzi əhyənə bədə mə əmətənə va ileyhin-nuşur" deyəsən. Müvəffəq edən Allahdır.

---

[1] "əl-Ənam" surəsi, 60.

[2] "əz-Zumər" surəsi, 42.

[3] "ən-Nisa" surəsi, 162.

# İki yüz qırx yeddinci fəsil

## Zikr halqaları, bunu etməyin icazəli olması, üzrsüz olaraq onu tərk etməyin qadağan olunması

**Mövzu ilə əlaqəli ayə:**

Uca Allah buyurur:

﴿ وَٱصۡبِرۡ نَفۡسَكَ مَعَ ٱلَّذِينَ يَدۡعُونَ رَبَّهُم بِٱلۡغَدَوٰةِ وَٱلۡعَشِيِّ يُرِيدُونَ وَجۡهَهُۥۖ وَلَا تَعۡدُ عَيۡنَاكَ عَنۡهُمۡ
تُرِيدُ زِينَةَ ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَاۖ وَلَا تُطِعۡ مَنۡ أَغۡفَلۡنَا قَلۡبَهُۥ عَن ذِكۡرِنَا وَٱتَّبَعَ هَوَىٰهُ وَكَانَ أَمۡرُهُۥ فُرُطٗا ﴾

**“Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar, dünyanın bər-bəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan kimsəyə də itaət etmə!”.**[1]

**Mövzu ilə əlaqəli hədislər:**

١٤٤٧– وعنْ أَبي هُريرَةَ رضي الله عنه قال: قالَ رَسُولُ اللَّهِ صلى الله عليه وسلم: « إِنَّ للَّهِ تَعالى ملائِكَةً يَطُوفُونَ في الطُّرُق يَلْتَمِسُونَ أَهْلَ الذِّكْرِ، فإِذا وَجدُوا قَوْماً يذكُرُونَ اللَّه عَزَّ وَجلَّ، تَنَادَوْا: هَلُمُّوا إِلى حاجتِكُمْ، فَيَحُفُّونَهم بِأَجْنِحَتِهِم إِلى السَّمَاء الدُّنْيَا، فَيَسأَلُهُم رَبُّهُم وَهُوَ أَعْلم : ما يقولُ عِبَادِي؟ قال: يَقُولُونَ: يُسبِّحُونَكَ وَيُكَبِّرونَكَ، ويحْمَدُونَكَ، ويُمَجِّدُونَكَ، فيقولُ: هل رأَوْني؟ فيقولون: لا واللَّهِ ما رأَوْكَ، فَيَقُولُ: كَيْفَ لو رَأَوْني؟، قال: يقُولُون لو رَأَوْكَ كانُوا أَشَدَّ لكَ عِبادَةً، وأَشَدَّ لكَ تمْجِيداً، وأَكثرَ لكَ تَسْبِيحاً. فَيَقُولُ: فماذا يَسأَلُونَ؟ قال: يَقُولونَ: يسأَلُونَكَ الجنَّةَ. قالَ: يقولُ: وَهل رَأَوْهَا؟ قالَ: يَقُولُونَ: لا وَاللَّه ياربِّ مَا رأَوْهَا. قَالَ: يَقُولُ: فَكَيْفَ لو رَأَوْهَا؟، قال: يَقُولُونَ: لو أَنَّهُم رأَوْها كَانُوا أَشَدَّ عليْهَا حِرْصاً، وَأَشَدَّ لها طَلَباً، وَأَعْظَم فِيها رغْبة. قَالَ: فَمِمَّ يَتَعَوَّذُونَ؟ قَالَ: يقولُون يَتعَوَّذُونَ مِنَ النَّارِ، قال: فَيقُولُ: وهَل رَأَوْهَا؟

[1] “əl-Kəhf” surəsi, 28.

قالَ: يقولونَ: لا واللهِ ما رأَوْهَا. فَيقُولُ: كَيْف لو رَأوْها؟، قال: يقُولُون: لو رَأَوْهَا كانوا أَشَدَّ منها فِراراً، وأَشَدَّ لها مَخَافَة. قَالَ: فيقُولُ: فَأُشْهِدُكم أَنِّي قَد غَفَرْتُ لهم، قَالَ: يقُولُ مَلَكٌ مِنَ الملائِكَةِ: فِيهم فُلانٌ لَيْس مِنهم، إِنَّمَا جاءَ لِحاجَةٍ، قال: هُمُ الجُلَسَاءُ لا يَشْقَى بِهِم جلِيسهُم » متفقٌ عليه.

وفي روايةٍ لمسلِمٍ عنْ أَبي هُريرةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قال: « إِنَّ للهِ مَلائِكَةً سَيَّارةً فُضَّلاءَ يتَتَبَّعُونَ مجالِس الذِّكرِ، فَإِذا وجدُوا مَجلِساً فِيهِ ذِكْرٌ، قَعدُوا معهُم، وحفَّ بعْضُهُم بعْضاً بِأَجْنِحَتِهِم حتَّى يَمْلأُوا ما بيْنَهُمْ وَبَيْنَ السَّماءِ الدُّنْيَا، فَإِذا تَفرَّقُوا عَرجُوا وصعِدوا إِلى السَّماءِ، فَيسْأَلُهُمُ اللَّهُ عَزَّ وجلَّ وهُوَ أَعْلَمُ : مِنْ أَيْنَ جِئْتُمْ؟ فَيَقُولُون: جِئْنَا مِنْ عِندِ عِبادٍ لَكَ في الأَرْضِ: يُسبحُونَكَ، ويُكَبِّرُونكَ، وَيُهَلِّلُونكَ، وَيحْمَدُونَكَ، وَيَسْأَلُونَكَ. قال: وماذا يسْأَلُوني؟ قَالُوا: يَسْأَلُونَكَ جنَّتَكَ. قال: وهَلْ رَأَوْا جنَّتي؟ قالُوا: لا، أَيْ ربِّ: قال: فكَيْفَ لو رأَوْا جنَّتي؟ قالُوا: ويسْتَجِيرُونَكَ قال: ومِمَّ يسْتَجِيرُوني؟ قالوا: منْ نَارِكَ يارِبِّ. قال: وَهَلْ رَأَوْا نَارِي؟ قالوا: لا، قال: فَكَيْفَ لَوْ رَأَوْا نَارِي؟، قالُوا: ويسْتَغْفِرونكَ، فيقول: قَدْ غفَرْتُ لهُمْ، وأَعطَيْتُهُمْ ما سَأَلُوا، وأَجرْتُهم مِمَّا اسْتَجارُوا. قال: فَيقُولونَ: ربِّ فيهمْ فُلانٌ عبْدٌ خَطَّاءٌ إِنَّمَا مَرَّ، فَجلَس معهُمْ، فيقول: ولهُ غفَرْتُ، هُمْ القَوْمُ لا يَشْقَى بِهِمْ جَلِيسُهُمْ ».

**1447.** Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **«Uca Allahın yollarda dolaşıb *Allahı* yad edən insanları axtaran mələkləri vardır. Onlar Allahı yad edən bir camaat gördükdə bir-birilərini səsləyib: "Axtardığınızın yanına gəlin!"– deyirlər. Sonra onlar bu camaatı öz qanadları ilə dünya səmasınadək əhatəyə alırlar. Elə bu vaxt Rəbbi mələklərdən – *hər şeyi* onlardan daha yaxşı bildiyi halda – soruşur: "Qullarım nə deyirlər?" *Mələklər:* "Onlar Sənin şəninə tariflər deyir, Səni uca tutur, Səni həmd-səna ilə təqdis edir və Səni həddən artıq təriflәyirlər"– deyə cavab verirlər. O soruşur: "Məgər onlar Məni görüblər?" Onlar: "Xeyr, vallahi ki, onlar Səni görməyiblər"– deyirlər. O soruşur: "Bəs Məni görsəydilər, necə *olardı*?" Onlar deyirlər: "Əgər Səni görsəydilər, bundan da çox Sənə ibadət edər, Səni tərifləyər, Səni həmd-səna ilə təqdis edər və Sənin şənini uca tutardılar". O soruşur: "Onlar Məndən nə istəyirlər?" *Mələklər* deyirlər: "Onlar Səndən Cənnəti istəyirlər". O soruşur: "Məgər onlar Cənnəti görüblər?" Onlar deyirlər: "Xeyr,**

**ey Rəbbimiz, vallahi ki, onlar onu görməyiblər". O soruşur: "Bəs onu görsəydilər, necə *olardı*?" Onlar deyirlər: "Əgər onu görsəydilər, daha əzmlə ona can atar, daha inadla onu diləyər və daha çox rəğbətlə onu arzulayardılar". O soruşur: "Onlar nədən *Mənə* sığınırlar?" *Mələklər:* "Cəhənnəm odundan"– deyirlər. O soruşur: "Məgər onlar Cəhənnəmi görüblər?" Onlar deyirlər: "Xeyr, ey Rəbbimiz, vallahi ki, onlar onu görməyiblər". O soruşur: "Bəs onu görsəydilər, necə *olardı*?" Onlar deyirlər: "Əgər onu görsəydilər, ondan daha uzağa qaçmağa çalışar və ondan daha çox çəkinərdilər". O buyurur: "Şahid olun ki, Mən onları bağışladım". Bu vaxt mələklərdən biri deyir: "Onların arasında olan filankəs onlarla *yoldaşlıq edən kimsələrdən* deyildir, o sadəcə öz ehtiyacı üzündən ora gəlmişdir". *Onda Allah* buyurur: "Onlar elə insanlardır ki, onlarla oturub-duran adam bədbəxt olmaz"».**[1]

Muslimin rəvayətində isə Əbu Hureyradan ﷺ belə rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **«Şübhəsiz ki, Uca Allahın səyyar mələkləri vardır. Onlar Allahı yad edən bir camaat gördükləri zaman qanadlarını açıb yerlə göyün arasını dolduranadək onları əhatə edər, məclisdəkilər dağılışdıqda isə onlar geri dönər və səmaya yüksələrlər. Bu vaxt Rəbbi mələklərdən – *hər şeyi* onlardan daha yaxşı bildiyi halda – soruşur: "Haradan gəlirsiniz?" *Mələklər* deyirlər: "Biz Sənin şəninə tariflər deyən, Səni uca tutan, Səni həmd-səna ilə təqdis edən, Səni çox-çox tərifləyən və Səndən istəyən qullarının yanından gəlirik". *Allah* soruşur: "Onlar Məndən nə istəyirlər?" *Mələklər* deyirlər: "Onlar Səndən Cənnəti istəyirlər". O soruşur: "Məgər onlar Cənnəti görüblər?" Onlar deyirlər: "Xeyr, ey Rəbbimiz, vallahi ki, *onlar onu görməyiblər*". O soruşur: "Bəs onu görsəydilər, necə *olardı*?" Onlar deyirlər: "Onlar Sənə sığınırlar". O soruşur: "Onlar nədən *Mənə* sığınırlar?" *Mələklər:* "Cəhənnəm odundan"– deyirlər. O soruşur: "Məgər onlar Cəhənnəmi görüblər?" Onlar deyirlər: "Xeyr, ey Rəbbimiz, vallahi ki, *onlar onu görməyiblər*". O soruşur: "Bəs onu görsəydilər, necə *olardı*?" *Mələklər* deyirlər: "Onlar Səndən bağışlanma diləyirlər". *Allah* buyurur: "Şahid olun ki, Mən onları bağışladım, dilədiklərini verdim, sığındıqlarından onları qorudum". *Mələklər* deyirlər: "Ey Rəbbimiz, onların arasında olan filankəs onlarla *yoldaşlıq edən***

---

[1] "Səhih əl-Buxari", 5929; "Səhih Muslim", 4854.

*kimsələrdən* **deyildir, ora sadəcə öz ehtiyacı üzündən gəlib".** *Onda Allah* **buyurur: "Onlar elə insanlardır ki, onlarla oturub-duran adam bədbəxt olmaz"».**

**Şərh:**

Müəllif ﷺ "**Zikr halqaları, bunu etməyin icazəli olması, üzrsüz olaraq onu tərk etməyin qadağan olunması**" fəslini qeyd edir.

"Zikr halqaları" zikr məclisləridir.

Sonra o bu ayəni qeyd edir: **"Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar, dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan kimsəyə də itaət etmə!".**[1]

Uca Allah öz Peyğəmbərinə ﷺ əmr edir ki, fəzilətli və hörmətli insanlarla özünü səbirli aparsın. Nəfsin səbir etməsi onun həbs olunmasıdır. Yəni sən də özünü onlarla birlikdə həbs et. Çünki bunlar sənin oturduğun *digər* adamlardan daha xeyirlidirlər.

**"Səhər və axşam çağı",** yəni gündüzün əvvəlində və sonunda. Allahın istəyi ilə sübh və əsr namazları üçün toplanmaq da buna aiddir. Çünki onlardan biri səhər, digəri isə axşam çağıdır.

**"Rəbbinə dua edənlərlə",** yəni Onun Üzünü diləyənlər. Bu da onların izzət və cəlal sahibi Allaha qarşı ixlaslı olmasına dəlildir. Onlar bir yerə toplaşıb dua etməklə təriflənmək istəmirlər. Yaxud istəmirlər ki, insanlar *onlar haqqında* desinlər ki, necə də gözəl ibadət edirlər, necə də çox ibadət edirlər, necə də buna səbir edirlər. Bütün bunları onlar istəmirlər. Onlar yalnız izzət və cəlal sahibi Allahın Üzünü diləyirlər.

**"Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan kimsəyə də itaət etmə!"** Yəni onlara güzəşt etmə, ayrılıb dünya mənfəəti üçün onlara göz yumma. Bunu digər böyük bir məsləhətdən ötrü edə bilərsən, dünya mənfəəti üçün isə əsla! Adamlar belədirlər, onlar ya dünya, ya da axirət əhlidirlər.

---

[1] "əl-Kəhf" surəsi, 28.

**“Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan kimsəyə də itaət etmə!”.** Yəni, qəlbi Allahın zikrindən qafil olan kəslərə itaət etmə. Onun işləri səmərəsizdir. O, öz nəfsi istəklərinə tabe olmuş, bununla dünyasını da itirmişdir, axirətini də.

Bu mübarək ayədə zikr və dua məqsədilə toplanmanın fəziləti qeyd olunur. Burada ixlasın da fəziləti öz əksini tapır. Hər bir iş ixlasın ətrafında dövr etməkdədir. Həmçinin hədisə əsasən gərək insan axirətlə bağlı işləri dünya işlərinə görə tərk etməsin.

Hədisə gəlincə, müəllif ﷫ Buxari və Muslimin “Səhih”lərində keçən hədisi qeyd etmişdir: **“Uca Allahın yollarda dolaşıb *Allahı* yad edən insanları axtaran mələkləri vardır”.**

Mələklər fəzilətli bir qeyb aləmidir. İzzət və cəlal sahibi Allah onları nurdan, yeməyən-içməyən olaraq yaratmışdır. Onlar yemirlər, içmirlər, onların buna ehtiyacları yoxdur, çünki onların nə mədələri, nə də bağırsaqları yoxdur. Onlar qeyb aləmidir və insanlar onları görmürlər. Ancaq bəzən olur ki, Allah onları insanlara göstərir – Cəbrail hədisində qeyd deyildiyi kimi. Belə ki, o, Peyğəmbərin yanına ağappaq libasda, qara saçlı, üzərində səfərdən əsər-əlamət olmayan, səhabələrin isə tanımadığı bir kişi şəklində gəlmişdi. O, gəlib Peyğəmbərin ﷺ yanında oturmuş, ona suallar vermişdi. Bu, bəzi hallarda baş versə də, əslində mələklər qeyb aləmidir.

Onların hamısı xeyirlidir. Onlar izzət və cəlal sahibi Allahı qəzəbləndirən məkanlara daxil olmurlar. Onlar içərisində şəkil olan evə daxil olmurlar. Zəngi olan bir şeylə birlikdə, və ya itlə birlikdə olmurlar. Yalnız saxlanılması halal olan itlər istisnadır.

Hədisin mənası belədir. İzzət və cəlal sahibi Allah *bəzi* mələklərə tapşırmışdır ki, yer üzünü gəzib dolaşsınlar. Onlar zikr məclisi gördükdə oradakılarla birlikdə oturar, qanadları ilə onları səmayadək əhatəyə alarlar. Yəni yerdən göyə qədər. Sonra Uca Allah Onu zikr edən, “sübhanallah”, “əlhəmdulilləh”, “la ilahə illəllah”, “Allahu Əkbər” deyən, dualar edən, ya da izzət və cəlal sahibi Allahın bildiyi başqa səbəbdən toplaşan həmin adamların fəzilətini bəlli etmək üçün mələklərə sual verir. Mələklərdən haradan gəldiklərini soruşur, deyirlər ki, biz Sənin yer üzərindəki qullarının yanından gəlirik. Onlar “sübhanallah”, “əlhəmdulilləh”, “la ilahə illəllah”, “Allahu Əkbər” deyirlər. Allah onların nə istədiyini soruşur, mələklər də

deyirlər ki, "Onlar Cənnəti istəyirlər". Allahım, bizləri Cənnəti istəyənlərdən və onun sakinlərindən et! Allah soruşur: "Onlar Cənnəti görüblərmi?" Deyirlər: "Xeyr". Buyurur: "Əgər görsəydilər necə olardı?" Deyirlər: "Onlar onu daha çox diləyər, ona daha çox rəğbət bəsləyərdilər". Çünki izzət və cəlal sahibi Allah buyurur: **"Mən əməlisaleh bəndələrim üçün gözlərin görmədiyi, qulaqların eşitmədiyi, heç bir insanın ağlına gəlməyən şeylər hazırlamışam".**[1]

Sonra O soruşur: "Onlar nədən xilas olmaq istəyirlər?" Mələklər deyirlər: "Onlar Cəhənnəmdən xilas olmaq istəyirlər". O buyurur: "Onlar Cəhənnəmi görüblərmi?" Deyirlər: "Xeyr". Buyurur: "Əgər görsəydilər necə olardı?" Deyirlər: "Onlar ondan daha çox qorxardılar". İzzət və Cəlal sahibi Allah deyir: "Şahid olun ki, Mən onların hamısını bağışladım". Allah bağışladığı insana həm Cənnət vacib olar, həm də o adam Cəhənnəmdən xilas olar. Mələklərdən biri deyir ki, onların arasındakı filankəs zikr etmək üçün deyil, öz ehtiyacı üçün gəlib, insanların oturduğunu görüb, onların yanında oturub. Uca Allah da buyurur ki: "Onu da bağışlayıram. Onlar elə bir camaatdır ki, onlarla birlikdə oturanlar bədbəxt olmaz".

Bu hədis əməlisaleh insanlarla oturmağın fəzilətinə dəlildir. Hətta onlarla oturan adam əməlisaleh olmasa belə, Uca və nöqsansız Allahın mərhəmətinə nail olur. Çünki Uca Allah: "Onu da bağışladım"– buyurur. Halbuki o adam zikr və dua üçün deyil, öz ehtiyacı üçün gəlmişdi. Lakin Uca Allah buyurur ki: "Onlar elə bir camaatdır ki, onlarla birlikdə oturanlar bədbəxt olmaz". Buna əsasən də zikr etmək, Quran oxumaq, "sübhanallah", "əlhəmdulilləh", "la ilahə illəllah" demək, hər kəsin özlüyündə dua etməsi, Allahdan özü üçün diləməsi, özü üçün zikr etməsi məqsədilə toplanmaq müstəhəbdir.

Bir qədər öncə qeyd etdiyim kimi, toplanmağın bir növü də müsəlmanların sübh və əsr namazına toplanmasıdır. Çünki bu da zikrdir. Burada "sübhanallah", "əlhəmdulilləh", "la ilahə illəllah" demək, Qurani-Kərim oxumaq və dua vardır. Peyğəmbərin ﷺ belə dediyi sabitdir ki, Adəm övladı üçün ayrılmış mələklər sübh və əsr namazında toplanırlar.

Allah bizləri və sizi sevib razı qaldığı əməllərə müvəffəq etsin.

---

[1] "Səhih əl-Buxari", 3005; "Səhih Muslim", 5050.

١٤٤٨– وعنهُ عنْ أَبي سعيدٍ رضي الله عنهما قالا: قَالَ رسُولُ اللَّهِ ﷺ: « لا يَقْعُدُ قَوْمٌ يذْكُرُونَ اللَّهَ إلاَّ حفَّتْهُمُ الملائِكة، وغشِيتهُمُ الرَّحْمةُ ونَزلَتْ علَيْهِمْ السَّكِينَة، وذكَرَهُم اللَّه فِيمن عِنْدَهُ ». رواه مسلم.

**1448.** Əbu Hureyradan və Əbu Səiddən رضي الله عنهما nəql olunan hədisdə onlar demişlər: «Rəsulullah ﷺ demişdir: **"Oturub izzət və cəlal sahibi Allahı zikr edən hər bir toplumu mələklər əhatəyə alar, onları rəhmət bürüyər, onlara sükunət nazil olar, Allah onları öz yanındakılarının önündə xatırlayar"**».

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٤٤٩– وعن أَبي واقِدٍ الحارثِ بن عَوْفٍ رضي الله عنه أَنَّ رسُولِ اللَّهِ ﷺ بيْنَما هُو جَالِسٌ في المسْجِدِ، والنَّاسُ معهُ، إذ أَقْبلَ ثَلاثَةُ نَفرٍ، فأَقْبَل اثْنَانِ إلى رسولِ اللَّهِ ﷺ وذَهَب واحدٌ، فَوقَفَا على رسول اللَّهِ ﷺ. فَأَمَّا أَحدُهُما فرأَى فُرْجَةً في الحلْقَةِ، فجَلَسَ فيها وأَمَّا الآخَرُ، فَجَلَس خَلْفَهُمْ، وأَمَّا الثالثُ فَأَدبر ذاهباً. فَلمَّا فَرَغَ رسُول اللَّهِ ﷺ قال: أَلا أُخبِرُكم عن النَّفَرِ الثَّلاثَةِ، أَمَّا أَحدُهم، فَأَوى إلى اللَّهِ فآواه اللَّه وأَمَّا الآخرُ فَاسْتَحْيي فاستحيي اللَّهُ مِنْهُ وَأَمَّا الآخرُ، فأَعْرضَ، فأَعْرض اللَّهُ عنْهُ » متفقٌ عليه.

**1449.** Əbu Vaqid əl-Haris ibn Əufdan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ məsciddə insanlarla birlikdə oturarkən üç nəfər gəldi. Onlardan ikisi Rəsulullaha tərəf gəldi, üçüncüsü isə çıxıb getdi. Onlar gəlib Peyğəmbərin ﷺ yanında dayandılar. Onlardan biri məclisdə ara görür və orada oturur. Digəri isə onların arxasında oturur. Üçüncü isə üzünü çevrib gedir. Rəsulullah işini bitirdikdə deyir: **"Bu üç nəfər barəsində sizə xəbər verimmi? Onlardan biri Allahdan sığınacaq istədi, Allah da ona sığınacaq verdi. İkincisi həya etdi, Allah da ondan həya etdi. Üçüncüsü isə üz çevirdi, Allah da ondan üz çevirdi".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "Səhih Muslim", 2700.
[2] "Səhih əl-Buxari", 64; "Səhih Muslim", 4042.

**Şərh:**

Müəllifin ﷺ qeyd etdiyi bu iki hədisdən birində Peyğəmbər ﷺ xəbər vermişdir ki, **"Oturub izzət və cəlal sahibi Allahı zikr edən hər bir toplumu mələklər əhatəyə alar, onları rəhmət bürüyər, onlara sükunət nazil olar, Allah onları öz yanındakılarının önündə xatırlayar".**

Bu, izzət və cəlal sahibi Allahı zikr etmək üçün oturmağın fəzilətini göstərir. Onların Allahı sinxron (birağızdan) zikr etmələri şərt deyil. Hədis ümumidir. Sələflərin bəzi sufi və qeyri təriqətlərin etdiyi zikr kimi zikr etməsi barədə dəlil yoxdur.

Həmçinin qeyd olunur ki, burada toplananlara **"sükunət nazil olar"**. Sükunət, qəlbin rahatlığı, qorxusu və Uca Allaha yönəlməsidir.

**"Onları rəhmət bürüyər"**, yəni hər tərəfdən onları əhatəyə alar və onlar izzət və cəlal sahibi Allahın rəhmətinə daha yaxın olarlar.

**"Mələklər onları əhatəyə alar"**, yəni onlara hörmət, etdiklərinə isə razılıq əlaməti olaraq ətrafında olarlar.

**"Allah onları öz yanındakılarının önündə xatırlayar"**, yəni yüksək məqamda. Daha öncə qeyd etmişdik ki, Uca Allah demişdir: **"Kim Məni özündə xatırlayarsa, Mən də onu Özümdə yad edərəm. Kim də Məni bir toplumun yanında xatırlayarsa, Mən də onu daha xeyirli bir toplumun yanında xatırlayaram"**.

İkinci hədisə gəlincə... Orada qeyd edilir ki, bir dəfə Rəsulullah ﷺ səhabələrlə birlikdə məsciddə oturmuş ikən üç nəfər gəlir. Yəni üç kişi. Onlardan biri üz çevirib gedir və məsclisə qatılmır. İkincisi məclisdə oturanlar arasında yer tapıb oturur. Üçüncüsü isə arxada oturur. Sanki o, başqalarını narahat etməkdən utanır. Peyğəmbər ﷺ işini bitirdikdən sonra deyir: **"Bu üç nəfər barəsində sizə xəbər verimmi? Onlardan biri Allahdan sığınacaq istədi, Allah da ona sığınacaq verdi".** Bu, oturan adam idi, Allah ona sığınacaq verdi. Çünki o, Peyğəmbərlə ﷺ oturmaqda səmimi niyyətli idi, Allah da onun işini asanlaşdırmışdı.

**"İkincisi həya etdi, Allah da ondan həya etdi".** İkinci adam utanmış, Allah da ondan utanmışdı. Çünki o, izdihamı yararaq önə keçməmişdi.

**"Üçüncüsü isə üz çevirdi, Allah da ondan üz çevirdi".** Üçüncü adam üz çevirdi getdi, Allah da ondan üz çevirdi və onu bu gözəl, pak insanlarla birlikdə oturmağa müvəffəq etmədi.

Bu hədis izzət və cəlal sahibi Allahın "həya" (utanmaq) sifətinə dəlildir. Lakin bu, yaradılmışların utanmağı kimi deyil, izzət və cəlal sahibi Allahın Özünə layiq şəkildədir. Peyğəmbər ﷺ demişdir: **"Şübhəsiz ki, Allah həyalı və səxavətlidir".** Uca Allah buyurur: **"Allah isə sözün açığını** ***sizə bəyan etməkdən*** **utanmır".**[1]

Beləliklə, Uca və nöqsansız Allah bu sifətlə vəsf olunur, lakin həmin vəsf yaradılmışların vəsfinə bənzəmir. Çünki Uca Allah Quranda buyurur ki: **"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir".**[2]

Uca Allahın sifətlərindən hansısa biri ləfz baxımından yaradılmışların hansısa sifətinə bənzəyirsə, mütləq olaraq bil ki, onlar məna baxımından eyni deyillər. Çünki: **"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir".** Misal üçün, Allahın Ərş üzərinə istiva etməsi ayəsi sənin qarşına çıxarsa, bil ki, Allahın Ərş üzərinə ucalması sənin atın belinə ucalmağın kimi deyil. Necə ki Uca Allah bu barədə buyurur: **"onların belinə,** ***yaxud göyərtəsinə*** **qalxıb yerləşdiyiniz zaman...".** Yaxud Uca Allahın buyurduğu: **"Onun hər iki əli açıqdır"** ayəsini[3] oxuduğunda güman etmə ki, Allahın əlləri sənin əllərin kimidir. Çünki Allahın bənzəri yoxdur, bütün sifətləri də yalnız Ona layiq və xas şəkildədir. Biz Uca və nöqsansız Allahı zatında, ibadətdə təkləşdirdiyimiz kimi, Onu sifətlərində də təkləşdiririk: **"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir".** Müvəffəq edən Allahdır.

١٤٥٠– وعن أبي سعيد الخُدْريِّ رضي الله عنه قال: خَرج معاوِيَة رضي الله عنه على حَلْقَةٍ في المسْجِدِ، فقال: ما أَجْلَسكُمْ؟ قالُوا: جلَسْنَا نَذْكُرُ اللَّه. قَالَ: آللَّهِ ما أَجْلَسكُم إِلاَّ ذَاكَ؟ قالوا: ما أَجْلَسنَا إِلاَّ ذَاكَ، قال: أَما إِنِّي لَمْ أَسْتَحْلِفْكُم تُهْمةً لَكُم وما كانَ أَحدٌ بمنْزِلَتِي مِنْ رسُولِ اللَّهِ ﷺ أقلَّ عنهُ حَدِيثاً مِنِّي: إِنَّ رسُولَ اللَّهِ ﷺ خرَج على حَلْقَةٍ مِن أَصحابِه فقال: « ما أَجْلَسكُمْ؟ » قالوا: جلَسْنَا نَذكُرُ اللَّه، ونحْمدُهُ على ماهَدَانَا لِلإِسْلامِ، ومنَّ بِهِ علَيْنا. قَالَ: « آللَّهِ ما أَجْلَسكُمْ إِلاَّ ذَاكَ؟ قالوا: واللَّه ما أَجْلَسنا إِلاَّ ذَاكَ. قالَ: « أَما إِنِّي لَمْ أَسْتَحْلِفْكُمْ تُهمةً لكُمْ، ولَكنَّهُ أَتاني جبرِيلُ فَأَخْبرني أَنَّ اللَّه يُباهِي بِكُمُ الملائكَةَ » رواهُ مسلمٌ.

[1] "əl-Əhzab" surəsi, 53.
[2] "əş-Şura" surəsi, 11.
[3] "əl-Maidə" surəsi, 64.

**1450.** Əbu Səid əl-Xudridən ﷺ rəvayət olunur ki, o demişdir: "Bir dəfə Müaviyə ﷺ məsciddə olan bir məclisə gəldi və dedi: "Burada nə üçün oturmusunuz?" Dedilər: "Oturub Allahı zikr edirik". Dedi: "Allah xatirinə deyin, yanız bunun üçünmü oturmusunuz?" Dedilər: "Yalnız bunun üçün oturmuşuq". Dedi: "Mən sizi ittiham etmək üçün bunu soruşmuram. Rəsulullahın ﷺ yanında mənim məqamımda olub məndən daha az hədis rəvayət edəni yoxdur. Bir dəfə Rəsulullah ﷺ da səhabələrinin bir məclisinə gəlib dedi: **"Siz nə üçün oturmusunuz?"** Dedilər: "Oturmuşuq ki, Allahı zikr edək. Allaha həmd edirik ki, bizləri İslama yönəldib, bizə bunu təmənna edib". Dedi: **"Allah xatirinə deyin, yalnız bunun üçünmü oturmusunuz?"** Dedilər: "Allaha and olsun ki, yalnız bunun üçün oturmuşuq". Dedi: **"Mən sizi ittiham etmək üçün sizə and içdirmirəm. Cəbrail yanıma gəldi və xəbər verdi ki, Allah sizi mələklərə fəxrlə göstərir"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Bu hədis izzət və cəlal sahibi Allahı zikr etməyin fəziləti ilə bağlı olan hədislərdəndir. Əbu Səid əl-Xudridən rəvayət olunur ki, bir dəfə Müaviyə məsciddə bir məclis görüb onlardan nə üçün toplandıqdarını soruşur, onlar da deyirlər ki, Allahı zikr edirik. Müaviyə onlara and içdirir ki, məhz bunun üçün toplanıblar, onlar da and içirlər. Sonra onlara deyir ki, mən sizi ittiham etmək üçün and içdirmirəm, mən Rəsulullahın ﷺ bir məclisə gəlib bunun mislini etdiyini gördüm.

Bu, Allahı zikr etmək üçün toplanmağın fəzilətini göstərir. Həmçinin izzət və cəlal sahibi Allah da mələklər qarşısında bununla fəxr edir. Məsələn, onlara deyir ki, bir baxın, qullarım Məni zikr etmək üçün toplanıblar. Yaxud buna bənzər başqa sözlər deyir. Burada fəxr etmə vardır. Ancaq daha öncə də dediyim kimi, bu məclisdə eyni səslə (sinxron) zikr edilməməlidir. Onlar özlərində Allahın onlara bəxş etdiyi nemətləri, o cümlədən İslam, sağlamlıq, bədən, təhlükəsizlik və digər nemətlərini xatırlayırlar.

---

[1] "Səhih Muslim", 2402.

Allahın nemətlərini zikr etmək izzət və cəlal sahibi Allahı zikr etmək hesab olunur. Bu da insanların oturub Allahın onlara bəxş etdiyi nemətləri xatırlamasının fəzilətinə dəlildir. Ona görə də bəzi sələflər qardaşlarının yanına getdikdə, yaxud qardaşları onların yanına gəldikdə deyərdilər: "Gəl bizimlə otur, bir saat iman gətirək". Yaxud "Bizimlə otur, Allahın bizə bəxş etdiyi nemətləri xatırlayaq, imanımız artsın". Bu da həmin məclisin fəzilətinə dəlildir.

# İki yüz qırx səkkizinci fəsil

## Səhər və axşam zikr etmək

**Mövzu ilə əlaqəli ayələr:**

Uca Allah buyurur:

﴿ وَٱذْكُر رَّبَّكَ فِى نَفْسِكَ تَضَرُّعًا وَخِيفَةً وَدُونَ ٱلْجَهْرِ مِنَ ٱلْقَوْلِ بِٱلْغُدُوِّ وَٱلْءَاصَالِ وَلَا تَكُن مِّنَ ٱلْغَٰفِلِينَ ﴾

**“Səhər-axşam ürəyində yalvararaq və qorxaraq, səsini qaldırmadan Rəbbini yad et və qafillərdən olma”.**[1]

Dilçi alimlər [ayənin ərəbcəsində keçən] “əl-əsal” (asil / axşam) sözünün mənası haqqında: “o, əsrlə məğribin arasıdır” demişlər.

﴿ وَمِنْ ءَانَآئِ ٱلَّيْلِ فَسَبِّحْ وَأَطْرَافَ ٱلنَّهَارِ ﴾

**“Gecənin bəzi saatlarında və gündüzün iki başında Ona təriflər de”.**[2]

﴿ وَٱسْتَغْفِرْ لِذَنۢبِكَ وَسَبِّحْ بِحَمْدِ رَبِّكَ بِٱلْعَشِىِّ وَٱلْإِبْكَٰرِ ﴾

**“Günahının bağışlanmasını dilə, axşamüstü və sübh çağı Rəbbini həmd ilə təriflə”.**[3]

Dilçi alimlər [ayənin ərəbcəsində keçən] “əl-aşiy” sözünün mənası haqqında: “günəş meyl edəndən batanadək” demişlər.

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ ٱذْكُرُوا۟ ٱللَّهَ ذِكْرًا كَثِيرًا * وَسَبِّحُوهُ بُكْرَةً وَأَصِيلًا ﴾

**“Ey iman gətirənlər, Allahı çox zikr edin, səhər-axşam Onun şəninə təriflər deyin!”.**[4]

---

[1] “əl-Əraf” surəsi, 205.

[2] “Ta ha” surəsi, 130.

[3] “Ğafir” surəsi, 55.

[4] “əl-Əhzab” surəsi, 41-42.

﴿ إِنَّا سَخَّرْنَا ٱلْجِبَالَ مَعَهُۥ يُسَبِّحْنَ بِٱلْعَشِيِّ وَٱلْإِشْرَاقِ ﴾

**"Biz dağları ona ram etmişdik. Onlar axşam çağı və səhər onunla birlikdə** ***Allahın şəninə*** **təriflər deyirdilər".**[1]

**Şərh:**

Müəllif ﷺ **"Səhər və axşam zikr etmək"** fəslini qeyd edir. Yəni səhər və axşam vaxtı zikr etməyin fəziləti.

Səhər və axşam zikrlərinin vaxtı günün əvvəlində, sonunda və gecənin əvvəlindədir. Səhər sübh namazının vaxtında daxil olur, gün qalxanadək davam edir, axşam isə əsr namazında başlayır və işa namazına və ya ona yaxın vaxtadək davam edir.

Gecə vaxtı edilən zikrlərin vaxtı isə gecədir. Məsələn, **"Kim Kürsü ayəsini gecə vaxtı oxuyarsa"**, yəni gecənin bir hissəsində oxuyarsa.

Sonra müəllif bu xüsusda bir sıra ayələr qeyd etmişdir. Onlardan biri bu ayədir: **"Səhər-axşam ürəyində yalvararaq və qorxaraq, səsini qaldırmadan Rəbbini yad et və qafillərdən olma".**[2]

**"Səhər-axşam ürəyində",** yəni öz-özlüyündə; **"yalvararaq və qorxaraq",** yəni izzət və cəlal sahibi Allahdan qorxaraq və Ona yalvararaq. "Qorxaraq", yəni Ondan qorxaraq, yaxud əməlin qəbul olmayacağından qorxaraq. Uca Allah buyurur: **"Rəbbinə qayıdacaqlar deyə, yerinə yetirməli olduqlarını qəlbləri qorxa-qorxa yerinə yetirənlər".**[3] Yəni onlara veriləndən başqalarına verirlər, qəlbləri də həmin vaxt qorxu içərisində olur. Qorxurlar ki, birdən onlardan qəbul olunmaz. Çünki Uca Allah yalnız müttəqilərdən qəbul edir.

**"Səsini qaldırmadan Rəbbini yad et",** yəni sakitçə de.

Sonra müəllif bu ayələri qeyd edir: **"Ey iman gətirənlər, Allahı çox zikr edin, səhər-axşam Onun şəninə təriflər deyin!".**[4]

---

[1] "Sad" surəsi, 18.
[2] "əl-Əraf" surəsi, 205.
[3] "əl-Muminun" surəsi. 60.
[4] "əl-Əhzab" surəsi, 41-42.

Uca Allah həmçinin buyurur: **“Biz dağları ona ram etmişdik. Onlar axşam çağı və səhər onunla birlikdə *Allahın şəninə* təriflər deyirdilər”.**[1]

Bu xüsusda ayələr çoxdur və inşəAllah hədislərin şərhində onlar haqqında danışılacaq.

**Mövzu ilə əlaqəli hədislər:**

١٤٥١– وعنْ أَبي هريرة ﷺ قال: قالَ رسولُ اللَّهِ ﷺ: « مَنْ قال حِينَ يُصْبِحُ وحِينَ يُمسِي: سُبْحانَ اللَّهِ وبحمدِهِ مِائَةَ مَرةٍ لَم يأْتِ أَحدٌ يوْم القِيامة بأَفضَلِ مِما جَاءَ بِهِ، إِلاَّ أَحدٌ قال مِثلَ مَا قال أَوْ زَادَ » رواهُ مسلم.

**1451.** Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Kim səhər və axşam vaxtı yüz dəfə “sübhanallahi va bihəmdihi” deyərsə, Qiyamət günü heç kim onun gətirdiyindən daha yaxşı əməl gətirə bilməz. Yalnız *bu sözləri* onun qədər və ondan daha artıq deyən kəs istisnadır”**.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٤٥٢– وعَنهُ قال: جاءَ رجُلٌ إِلى النَّبِيِّ ﷺ، فقال: يا رسُول اللَّهِ ما لَقِيتُ مِنْ عَقْربٍ لَدغَتني البارِحةَ، قال: « أَما لَو قُلتَ حِينَ أَمْسيت: أَعُوذُ بِكَلماتِ اللَّهِ التَّامَّاتِ منْ شَرِّ ما خَلَقَ لم تَضُرَّك ». رواه مسلم.

**1452.** Yenə ondan rəvayət olunur ki, bir kişi Rəsulullahın ﷺ yanına gəlib dedi: “Ey Allahın elçisi, dünən məni əqrəb sancdı”. Dedi: **“Axşam düşdükdə “əuzu bikəlimətilləhit-təmməti min şərri mə xaləqa” desəydin, onun sənə zərəri olmazdı”**.

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

---

[1] “Sad” surəsi, 18.
[2] “Səhih Muslim”, 4858.
[3] “Səhih Muslim”, 4883.

١٤٥٣– وعنْهُ عن النبيِّ ﷺ أَنَّه كان يقول إِذَا أَصْبَحَ: اللَّهُمَّ بِكَ أَصْبحْنَا وبِكَ أَمسَيْنَا وبِكَ نَحْيا، وبِكَ نَمُوتُ، وَإِلَيْكَ النُّشُورُ » وإِذا أَمْسى قال: « اللَّهُمَّ بِكَ أَمْسَيْنَا، وبِكَ نَحْيا، وبِك نمُوتُ وإِلَيْكَ المَصِير ». رواه أَبو داود والترمذي وقال: حديث حسن.

**1453.** Yenə ondan rəvayət olunur ki, Peyğəmbər ﷺ səhər vaxtı belə deyərdi: **"Allahım, Sənin sayəndə səhərə çıxdıq, Sənin sayəndə axşama yetişdik. Sənin sayəndə dirilir, Sənin sayəndə ölürük, dönüş Sənədir".** Axşam vaxtı isə belə deyərdi: **"Allahım, Sənin sayəndə axşama yetişdik. Sənin sayəndə dirilir, Sənin sayəndə ölürük, dönüş Sənədir".**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir" demişdir.[1]

**Şərh:**

Hafiz ən-Nəvəvinin ﵀ qeyd etdiyi bu üç hədis "Səhər və axşam zikr etmək" fəslindədir.

Birincisi, adamın yüz dəfə: "Sübhanallahi va bihəmdihi"– deməsidir: **"Kim səhər və axşam vaxtı yüz dəfə "sübhanallahi va bihəmdihi" deyərsə, Qiyamət günü heç kim onun gətirdiyindən daha yaxşı əməl gətirə bilməz. Yalnız *bu sözləri* onun qədər və ondan daha artıq deyən kəs istisnadır".**

Bu zikrin mənası budur ki, sən izzət və cəlal sahibi Allahı Ona layiq olmayan hər bir vəsfdən uzaq tutur, Onu tərifləyir və Onu "bihəmdihi" deməklə kamil sifətlərlə vəsf edirsən. Odur ki, insan səhər açıldıqda və axşam düşdükdə yüz dəfə "sübhanallahi va bihəmdihi" deməlidir ki, Peyğəmbərin ﷺ xəbər verdiyi bu fəzilətə nail ola bilsin.

İnsanın səhər və axşam vaxtı "Əuzu bikəlimətilləhit-təmməti min şərri mə xələqa" deməsi də buna aiddir. Bu da Uca və nöqsansız Allaha yaratdıqlarının şərindən sığınmaq anlamındadır – səhər və axşam vaxtı bunları üç dəfə desən, sənə onların heç bir zərəri toxunmaz. Buna görə də bir kişi Peyğəmbərə ﷺ onu əqrəb sancmasından şikayət edəndə o belə cavab verdi: **"Axşam düşdükdə "əuzu bikəlimətilləhit-təmməti min şərri mə xələqa"**

[1] "Sunən Əbu Davud", 4406; "Sunən ət-Tirmizi", 3313.

(yaratdıqlarının şərindən Allahın tam kəlmələrinə sığınıram) **desəydin, onun sənə zərəri olmazdı"**.

"Allahın tam kəlmələri" – bunlar kainatdakı kəlmələrdir. Allah bir şeyə: "Ol!" dedikdə, o olur. Əgər bundan öncə həmin sözləri desə, bununla onu qoruyur.

Səhər və axşam zikrlərindən biri də səhərə çıxdıqda: **"Allahım, Sənin sayəndə səhərə çıxdıq, Sənin sayəndə axşama yetişdik. Sənin sayəndə dirilir, Sənin sayəndə ölürük, dönüş Sənədir"**– deməkdir. Axşam vaxtı isə: **"Allahım, Sənin sayəndə axşama yetişdik. Sənin sayəndə dirilir, Sənin sayəndə ölürük, dönüş Sənədir"**– deyilir.

İnsan, Peyğəmbərdən ﷺ varid olmuş bu zikrləri davamlı olaraq etməlidir ki, Allahı çox zikr edən kişi və qadınlardan sayılsın. Müvəffəq edən Allahdır.

١٤٥٤– وعنهُ أَنَّ أَبا بَكرٍ الصِّدِّيقَ، رضي الله عنه، قال: يَا رَسُولَ اللَّهِ مُرْنِي بِكَلمَاتٍ أَقُولُهُنَّ إِذَا أَصْبَحْتُ وإِذَا أَمْسَيتُ، قال: قُلْ: « اللَّهُمَّ فَاطِرَ السَّمَواتِ والأَرضِ عَالمَ الغَيْب وَالشَّهادةِ، ربَّ كُلِّ شَيءٍ وَمَلِيكَهُ. أَشْهَدُ أَن لاَ إِله إِلاَّ أَنتَ، أَعُوذُ بكَ منْ شَرِّ نَفسي وشَرِّ الشَّيْطَانِ وَشِرْكِهِ » قال: « قُلْها إِذا أَصْبحْتَ، وَإِذا أَمْسَيْتَ، وإِذا أَخذْتَ مَضْجِعَكَ » رواه أبو داود والترمذي وقال: حديثٌ حسنٌ صحيحٌ.

**1454.** Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, bir dəfə Əbu Bəkr dedi: "Ey Allahın elçisi, səhər və axşam deyəcəyim sözləri mənə əmr et, deyim". Dedi: **«De ki, "Ey səmaları və yeri Yaradan, qeybi və aşkarı Bilən, hər şeyin Rəbbi və Hökmdarı, şəhadət verirəm ki, Səndən başqa ibadətə layiq məbud yoxdur. Nəfsimin şərindən, şeytanın şərindən və onun şirkindən Sənə sığınıram".** Dedi: **"Səhər və axşam vaxtı, habelə yerinə uzandıqda bunları de"».**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən səhih hədisdir"– demişdir.[1]

[1] "Sunən Əbu Davud", 4405; "Sunən ət-Tirmizi", 3314.

**Şərh:**

Bu zikr Peyğəmbərin ﷺ Əbu Bəkrə رضي الله عنه öyrətdiyi səhər və axşam vaxtı edilən zikrlərdəndir. Belə ki, Əbu Bəkr ona: "mənə öyrət" demiş, o da ona səhər və axşam deməsi üçün bu zikr və duanı öyrətmişdir: **"Ey səmaları və yeri Yaradan, qeybi və aşkarı Bilən, hər şeyin Rəbbi və Hökmdarı, şəhadət verirəm ki, Səndən başqa ibadətə layiq məbud yoxdur. Nəfsimin şərindən, şeytanın şərindən və onun şirkindən Sənə sığınıram".**

**"Ey səmaları və yeri Yaradan",** yəni ey səmaları və yeri yaradan Allah. Onları heç bir zaman olmayan şəkildə fərqli yaradan, yəni xəlq edən, icad edən.

**"Qeybi və aşkarı Bilən".** Qeyb, insanların görmədiyi və müşahidə edə bilmədiyi digər bütün məxluqlardır. Belə ki, Allah keçmişi, indini və gələcəyi bilir.

**"Hər şeyin Rəbbi və Hökmdarı",** yəni hər şeyin Rəbbi. Uca Allah hər bir şeyin Rəbbi və Hökmdarıdır. Bu hədisdə "Rəbb" sözü ilə "Hökmdar" sözü arasındakı fərq odur ki, Rəbb hər şeyi yaradan, Hökmdar isə yaratdıqları arasında dilədiyi kimi davranandır.

**"Şəhadət verirəm ki, Səndən başqa ibadətə layiq məbud yoxdur".** Dilim və qəlbimlə etiraf edirəm ki, Allahdan başqa ibadət haqqına malik məbud yoxdur. Allahdan başqa bütün ibadət olunanlar batildir, onların ibadət olunmağa haqqı yoxdur. İzzət və cəlal sahibi Allahdan savayı heç kimin ibadət olunmağa haqqı yoxdur.

**"Nəfsimin şərindən Sənə sığınıram".** Çünki nəfsin şərləri olur. Uca Allah bu xüsusda buyurur: **"Mən özümü təmizə çıxartmıram. Rəbbimin rəhm etdiyi kəs istisna olmaqla, nəfs *insana* pis işlər görməyi əmr edər. Həqiqətən, Rəbbim bağışlayandır, rəhmlidir".**[1] Əgər Allah səni nəfsinin şərindən qorumasa, nəfsin sənə zərər verər, səni pis işlərə sövq edər. Allah səni nəfsinin şərindən qoruduqda isə səni hər bir xeyirə müvəffəq edər.

**"Şeytanın şərindən və onun şirkindən Sənə sığınıram".** "Şirkindən" dedikdə insan Allahdan diləyir ki, onu şeytanın şərindən, bir də onun şirkinin şərindən, yəni sənə əmr etdiyi şirkdən qorusun.

---

[1] "Yusuf" surəsi, 53.

“Şərak” sözünün mənası balıq və quş kimi canlıların ovlandığı vasitədir. Şeytanın da öz toru var və onunla Adəm övladını ovlayır. Bu da ya şəhvətlərlə olur, ya da şübhələrlə.

**“Ya da nəfsimə, yaxud bir müsəlmana pislik etməyimdən”** ifadəsi bu hədisin tamamıdır, ola bilsin ki, bu nüsxədə silinib.

**“Ya da nəfsimə”,** yəni öz nəfsimə, **“yaxud bir müsəlmana”** pislik etməkdən.

Bu zikri Peyğəmbər Əbu Bəkrə öyrətmişdi ki, onu səhər və axşam vaxtı, habelə yerinə uzandıqda desin.

Uca Allahdan bizə və sizə hidayət və sevib razı qaldığı əməllərə müvəffəqiyyət verməsini diləyirəm.

١٤٥٥– وعَن ابْنِ مَسْعُودٍ ﷺ قالَ: كانَ نبيُّ اللَّهِ ﷺ إِذَا أَمسى قال: أَمْسَيْنَا وأَمْسَى المُلْكُ للَّهِ، والحمْدُ للَّهِ، لاَ إِلهَ إلاَّ اللَّه وحْدَهُ لاَ شَرِيكَ لَه » قالَ الرواي: أَرَاهُ قال فِيهِنَّ: « لهُ المُلْكُ وَلَه الحمْدُ وهُوَ عَلى كلِّ شَيءٍ قدِيرٌ، ربِّ أَسْأَلُكَ خَيْرَ مَا في هذهِ اللَّيلَةِ، وَخَيْرَ مَا بَعْدَهَا، وأَعُوذُ بِكَ منْ شَرِّ مَا في هذهِ اللَّيْلَةِ وشَرِّ ما بعْدَهَا، ربِّ أَعُوذُ بِكَ من الكَسَلِ، وَسُوءِ الكِبْرِ، أعوذُ بِكَ منْ عذَابٍ في النَّار، وَعَذَابٍ في القبر » وَإِذَا أَصْبحَ قال ذلك أَيْضاً: « أَصْبحْنَا وَأَصْبَحَ المُلْك للَّهِ ». رواه مسلم.

**1455.** Rəvayət olunur ki, İbn Məsud ﷺ demişdir: «Peyğəmbər ﷺ axşam vaxtı deyərdi: **“Axşama çıxdıq və mülk Allaha məxsusdur. Allaha həmd olsun. Allahdan başqa ibadət haqqına layiq məbud yoxdur. Onun şəriki də yoxdur”.** Ravi deyir ki, məncə bunları da dedi: **“Mülk və həmd Ona məxsusdur, O, hər şeyə Qadirdir. Ey Rəbbim, bu gecənin və ondan sonranın xeyrini Səndən diləyir, bu gecənin və ondan sonranın şərindən də Sənə sığınıram. Ey Rəbbim, tənbəllikdən, pis yaşlılıqdan Sənə sığınıram. Ey Rəbbim, Cəhənnəm əzabından və qəbr əzabından Sənə sığınıram”.** Səhər vaxtı isə belə deyərdi: **“Səhərə çıxdıq və mülk Allaha məxsusdur”**».

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[1] “Səhih Muslim”, 4901.

**Şərh:**

Bu hədis səhər və axşam zikrləri barədədir. İbn Məsuddan rəvayət olunan bu hədisdə Peyğəmbər ﷺ axşam vaxtı deyərdi: **"Axşama çıxdıq və mülk Allaha məxsusdur. Allaha həmd olsun. Allahdan başqa ibadət haqqına layiq məbud yoxdur. Onun şəriki də yoxdur".** Daha öncə bu sözlərin mənalarını açıqlamışıq.

Peyğəmbər ﷺ izzət və cəlal sahibi Allahı müxtəlif cür və çox zikr edərdi. Onlardan biri də belədir: **"Allahdan başqa ibadət haqqına layiq məbud yoxdur. Onun şəriki də yoxdur. Mülk və həmd Ona məxsusdur, O, hər şeyə Qadirdir. Ey Rəbbim, bu gecənin və ondan sonranın xeyrini Səndən diləyir, bu gecənin və ondan sonranın şərindən də Sənə sığınıram. Ey Rəbbim, tənbəllikdən, pis yaşlılıqdan Sənə sığınıram. Ey Rəbbim, Cəhənnəm əzabından və qəbr əzabından Sənə sığınıram".**

Səhər vaxtı isə belə deyərdi: **"Səhərə çıxdıq və mülk Allaha məxsusdur"**».

Kim belə zikrləri çox etmək istəyirsə, bu kitabın müəllifi Hafiz ən-Nəvəvinin رحمه الله "əl-Əzkar" kitabına, yaxud İbn əl-Qeyyimin "əl-Vabil əs-sayyib minəl-kəlimut-tayyib" əsərinə və alimlərin bu xüsusda qələmə aldıqları digər kitablara müraciət etsin. Müvəffəq edən Allahdır.

١٤٥٦– وعنْ عبدِ اللَّهِ بنِ خُبَيْب بضَمّ الْخَاءِ الْمُعْجَمَةِ رضي الله عنه قال: قال لي رَسُولُ اللَّهِ صلى الله عليه وسلم: « اقْرأْ: قُلْ هوَ اللَّه أَحَدٌ، والمعوِّذَتَيْن حِينَ تُمْسِي وَحِينَ تُصبِحُ، ثَلاثَ مَرَّاتٍ تَكْفِيكَ مِنْ كلِّ شَيْءٍ ». رواهُ أَبو داود والترمذي وقال: حديثٌ حسن صحيح.

**1456.** Abdullah ibn Xubeybdən رضي الله عنه rəvayət olunur ki, o demişdir: «Rəsulullah ﷺ mənə belə dedi: **"Axşam və səhər olduqda "əl-İxlas", "əl-Fələq" və "ən-Nəs" surələrini üç dəfə oxusan, onlar sənə hər şey üçün kifayət edər"**».

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən səhih hədisdir"– demişdir.[1]

---

[1] "Sunən Əbu Davud", 5082; "Sunən ət-Tirmizi", 3575.

١٤٥٧– وعنْ عُثْمَانَ بْنِ عَفَانَ ﷺ قالَ:قالَ رَسولُ اللَّه ﷺ:«مَا مِنْ عَبْدٍ يَقُولُ في صَبَاحِ كلِّ يَوْمٍ ومَسَاءِ كلِّ لَيْلَةٍ:بِسْمِ اللَّهِ الَّذِي لاَ يَضُرُّ مَع اسْمِهِ شيء في الأرضِ ولا في السماءِ وَهُوَ السَّمِيعُ الْعلِيمُ، ثلاثَ مَرَّاتٍ، إلاَّ لَمْ يَضُرَّهُ شَيْءٌ»رواه أبو داود، والتِّرمذي وقال:حديث حسن صحيح.

**1457.** Rəvayət olunur ki, Osman ibn Əffan ﷺ demişdir: «Rəsulullah ﷺ demişdir: **"Hər səhər və hər axşam üç dəfə: "Adı çəkildikdə yerdə və səmada heç bir şeyin zərər verə bilmədiyi Allahın adı ilə. O, Eşidəndir, Biləndir"– deyən bəndəyə heç bir zərər toxunmaz"».**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən səhih hədisdir"– demişdir.[1]

**Şərh:**

Hafiz ən-Nəvəvinin ﷺ qeyd etdiyi bu iki hədis də səhər və axşam zikrlərinin bəyanı ilə bağlıdır. Birinci hədisdə Abdullah ibn Xubeybdən rəvayət olunur ki, Rəsulullah ﷺ ona axşam və səhər olduqda üç dəfə **"De ki, O Allah Təkdir"** *ayəsi ilə başlayan "əl-İxlas"* surəsini, **"De ki, sığınıram sübhün Rəbbinə"** *ayəsi ilə başlayan "əl-Fələq"* surəsini və **"De ki, sığınıram insanların Rəbbinə"** *ayəsi ilə başlayan "ən-Nəs"* surəsini oxumağı əmr etmiş və demişdir ki, bunlar ona hər şey üçün kifayət edər.

Birinci surəyə – **"De ki, O Allah Təkdir"** (əl-İxlas) surəsinə gəlincə, Uca Allah bu surəni özünə xas etmişdir. Həmin surədə yalnız Uca və Böyük Allahın özü ilə bağlı məlumatlar yer alır. Orada təharət, namaz, ticarət və digər əhkamlar barədə heç nə yoxdur, əksinə, bütün ayələr izzət və cəlal sahibi Allaha aiddir. O surəni oxuyan Uca Allaha olan ixlasını tamamlamış olur.

Bu surə həm ixlasa yönəldəndir, həm də qurtarıcıdır. Belə ki, onu oxuyanı şirkdən qurtarır. Peyğəmbər ﷺ demişdir ki, o surə Quranın üçdəbirinə bərabərdir. Ancaq o Quranın üçdəbirini əvəz etmir. Yəni ona bərabərdir, lakin onu əvəz etmir. Ola bilər ki, bir şey o biri şeyə bərabər olsun, lakin onu əvəz etməsin. Məsələn, insan: "La ilahə illəllahu vahdəhu

[1] "Sunən Əbu Davud", 5088; "Sunən ət-Tirmizi", 3388.

lə şərikə ləhu, ləhul-mulku va ləhul-həmdu, va huva alə kulli şeyin qadir" – dedikdə İsmail övladından dörd nəfəri azad etmiş kimi olur. Lakin bu, qul azad etməyi əvəz etmir. Odur ki, əcr baxımından bərabərliklə kəffarənin birbaşa yerinə yetirilməsini fərqləndirmək lazımdır. Bu səbəbdən "De ki, o Allah Təkdir" surəsini oxuyan kəsin oxuduğu onun "əl-Fatihə" surəsini oxumasını əvəz etmir. Baxmayaraq ki, həmin surəni üç dəfə oxuyan kəs bütün Quranı oxumuş kimi olur. Çünki o surə Quranın üçdəbirinə bərabərdir.

**"De ki, sığınıram sübhün Rəbbinə"** (əl-Fələq) və **"De ki, sığınıram insanların Rəbbinə"** (ən-Nəs) surələrinə gəlincə, bunlar yaramaz yəhudi Ləbid ibn əl-Əasamın Peyğəmbərə ﷺ sehr edərkən Rəsulullaha nazil olan surələrdir. Uca Allah bu iki surəni həmin vaxt nazil etmiş, Cəbrail də ona vəhyi çatdırmışdır. Bununla da Allah sehri ondan uzaqlaşdırmışdır. Peyğəmbər ﷺ demişdir: **"Heç kim onlardan daha yaxşısı ilə sığına bilməz"**.

**"De ki, sığınıram sübhün Rəbbinə" (1)**. [Ayənin ərəbcəsində keçən] "fələq" sözü sübh deməkdir. Uca Allah həbləri və toxumu cücərdəndir.

**"Yaratdıqlarının şərindən" (2),** yəni bütün yaratdıqlarının şərindən.

**"Çökən zülmətin şərindən" (3),** yəni daxil olmaqda olan gecənin şərindən. Çünki gecə vaxtı vəhşi heyvanlar, yırtıcılar və digər şeylər çox olur. Buna görə də çökən zülmətin şərindən Allaha sığınırsan.

**"Düyünlərə üfürən *cadugər* qadınların şərindən" (4).** Yəni düyünlərə üfürən sehrbaz qadınlar. Onlar tilsimlərlə şeytanlardan yardım diləyərək, onlardan yardım alaraq düyünlərə üfürürlər. Allah qorusun!

**"Həsəd apardığı zaman paxılın şərindən" (5).** Bu da göz sahibinin gözü dəyməklə olur. Çünki sehrbaz pis təsir etdiyi kimi, pis gözü olan da pis təsir edir. Buna görə də sübhün Rəbbinə sığınmağa əmr olunmuşuq: **«De ki, sığınıram sübhün Rəbbinə! Xəlq etdiklərinin şərindən; çökən zülmətin şərindən; düyünlərə üfürən *cadugər* qadınların şərindən; və həsəd apardığı zaman paxılın şərindən"»**[1]

Bu üç ayə – birinci, ikinci və üçüncü ayələr arasındakı bağlılığa diqqət edin: **"çökən zülmətin şərindən",** yəni gecə. Çünki gecə vaxtı bəla da gizli olur, sehr də gizli olur, gözdəymə də gizli olur. Sübhün Rəbbinə sığınırıq –

[1] "əl-Fələq" surəsi, 1-5.

o sübh ki, onu çıxaran Allahdır, dəndən bitki çıxaran da Odur. Bu da bölünənlə bölgü aparılan arasındakı uyğunluqdur.

**"De ki, sığınıram insanların Rəbbinə"** (ən-Nəs) surəsi də izzət və cəlal sahibi Allaha sığınma surələrindən biridir.

**"İnsanların Hökmdarına"**. Allah mülkün Sahibi, mütləq iqtidar Sahibidir. Onun kəlmələrini heç kim dəyişdirə bilməz.

**"İnsanların İlahına!"** Yəni haqq olaraq ibadət etdikləri məbud. İzzət və cəlal sahibi Allahdan başqa ibadətə layiq məbud yoxdur.

**"Vəsvəsə verənin, *Allahın adı çəkiləndə isə hövlündən* geri çəkilən *şeytanın* şərindən. *O şeytan* ki, insanların kökslərinə vəsvəsə salır".** Bu, şeytanın Adəm övladının qəlbinə saldığı vəsvəsələrdir. Dövrümüzdə şeytanın insan qəlbinə saldığı, insanı kədərləndirdiyi böyük vəsvəsələr nə qədər də çoxdur.

Sübhanallahil-azım! "Dünya" sözünün adı ilə mahiyyəti eynidir – alçaldılmış! Bir tərəfdən tamamlandıqca digər tərəfdən naqisləşir. Dövrümüzdə bizlərə bəxş olunan nemətlərin tayı-bərabəri olmayıb. Mal-dövlət, çeşidli nemətlər, övladlar, bir sözlə hər şey. İnsan bədəni rahatlıq içərisindədir. Buna baxmayaraq, bu gün insanlar arasında onları narahat edən vəsvəsələr, nəfsi xəstəliklər və bəlalar artmaqdadır. Artır ki, dünya tamamlanmasın və insan tam şəkildə ona bağlanmasın. Çünki dünya həyatı tamamlanmış olarsa, axirətə bənzəmiş olar. Peyğəmbər ﷺ bu xüsusda belə demişdir: **"Allaha and olsun ki, sizin üçün kasıblıqdan qorxmuram, qorxduğum odur ki, dünya sizin üzünüzə açılsın, sizdən əvvəlkilər onun uğrunda yarışdıqları kimi, siz də bir-birinizlə yarışasınız, dünya da sizdən öncəkiləri məhv etdiyi kimi, sizi də məhv etsin".**[1]

İzzət və cəlal sahibi Allah bu dünyanı bir tərəfdən verdikcə digər tərəfdən də kədər gəlir. Cahiliyyə dövrü şairinin dediyi kimi:

*Bir gün lehimizədir, o biri gün əleyhimizə,*
*Qadınlar günü sevindiyimiz gündür.*

Xülasə, bu surədə vəsvəsə verən şeytandan sığınma vardır. Vəsvələr isə bəzən insana dinin əsasları, Allahın zatı, Quran və Peyğəmbər ﷺ barədə də olur. Hətta insanın danışmaq istəmədiyi məsələlərdə də şeytan

---

[1] "Sunən ət-Tirmizi", 2386.

ona vəsvəsələr verir. Olur ki, insana təharət məsələsində vəsvəsələr verir, o da vəsvəsəyə düşür – hamama daxil olur və beş dəqiqəlik dəstəmazı beş saata bitirir. Allah qorusun! Yaxud namaza giriş təkbirini iyirmi dəfə təkrar edir. "Kəf" hərfini təkrar edir və aciz duruma düşür. Hətta bəziləri deyirlər ki, mən ümumiyyətlə namaz qıla bilmirəm. Vəsvəsələr o qədər artır ki, adam namazı tərk edir.

Yaxud ailə üzvləri ilə ünsiyyət zamanı vəsvəsələr gəlir. Elə adamlar vardır ki, öz ailə üzvlərinin onun yemək-içməyinə sehr qoymasından şübhələndiyindən gedib restoranda yeyir. Elə olur ki, adam öz xanımı ilə danışıb deyir ki, ey Ummu filankəs. Sonra şeytan ona vəsvəsə verir ki, onu boşa. Beləcə onun halına təsir edir. Bəzi insanlar vardır ki, açıq Quran oxuyan zaman hər bir səhifəni çevirdikdə ona elə gəlir ki, öz zövcəsinə onu boşayacağını deyib. Buna görə də Quran oxumağı tərk edir.

Göründüyü kimi, vəsvəsələr böyük olur. Lakin onları qovmaq çox asandır. Lakonik (qısa) və əhatəli kəlamları olan Peyğəmbər ﷺ onları bizə bəyan etmişdir. Bu xüsusda ona şikayət edildiyi zaman o ﷺ belə demişdir: **"Sizlərdən hər kim belə bir halla qarşılaşarsa, Allaha sığınsın və buna son qoysun".**[1]

Diqqət edin. İkicə kəlmədir: 1) Allaha sığınaraq deyirsən ki, "əuzu billəhi minəş-şeytanir-racim" (Daşla qovulmuş şeytanın şərindən Allaha sığınıram). Lakin bu sözləri sidq və ixlasla deməli, Allaha həqiqi şəkildə yönəlməlidir. Allahdan savayı sığınılacaq başqa bir varlıq yoxdur. 2) Sonra da bu işə son qoymalıdır. Yəni həmin işdən mütləq şəkildə əl çəkməlidir. Bunu edən zaman insan bir qədər əziyyət çəkirsə də, bu hal yalnız başlanğıcda olur. Bir qədər sonra bu hal aradan qalxacaq. Çünki Peyğəmbər ﷺ havasına görə (ağlına gələni) danışmır. O buyurub ki: **"Sizlərdən hər kim belə bir halla qarşılaşarsa, Allaha sığınsın və buna son qoysun".**

**"De ki, sığınıram insanların Rəbbinə; insanların Hökmdarına; insanların İlahına!".** Bu üç ayə demək olar ki, tövhidin hər üç qismini əhatə edir: "insanların Rəbbinə"– bu, rübubiyyət tövhididir, "insanların Hökmdarına"– ad və sifətlər tövhidi. Çünki mülk ad və sifətlər olmadan Onun tam mülkü olmur. "İnsanların İlahına"– bu da ülulhiyyət tövhididir.

---

[1] "Səhih əl-Buxari", 3034; "Səhih Muslim", 191.

**“Vəsvəsə verənin,** ***Allahın adı çəkiləndə isə hövlündən*** **geri çəkilən** ***şeytanın*** **şərindən.** ***O şeytan*** **ki, insanların kökslərinə vəsvəsə salır, cinlərdən də** ***olur,*** **insanlardan da!”**

Alimlər demişlər: “əl-Xannəs, Allahı zikr edən zaman insana vəsvəsə verən şeytandır”.

Vəsvəsə mövzusuna bağlı digər bir hədisdə deyilir ki: **“Xəyallara daldıqda azana tələsin”.**[1]

[Hədisin ərəbcəsində keçən] “əl-ğilan”, insana səfər zamanı, ələlxüsus da dəvə ilə səfərə çıxdığı zaman ağlına gələn xam xəyallardır. Çünki insan təkbaşına səfərə çıxdıqda şeytanlar ona hücum çəkir, onun ağlına şir, canavar, kaftar, şeytan, cin və sairə kimi müxtəlif fikirlər salır. **“Xəyallara daldıqda azana tələsin”**, yəni “Allahu əkbər” deyin. Bu zaman həmin vəsvəsələr aradan qalxmış olacaq. Çünki izzət və cəlal sahibi Allah zikr olunduqda şeytan qaçıb gizlənir.

**“...** ***O şeytan*** **ki, insanların kökslərinə vəsvəsə salır; – cinlərdən də** ***olur,*** **insanlardan da”.** Yəni bu vəsvəsə verənlər cinlərdən də olur, insanlardan da. Burada “cinlər” deyildikdə şeytan nəzərdə tutulur. Onlar insanların qəlbinə vəsvəsə salır. İnsanlar isə Adəm övladlarıdır. Əvvəllərdə olduğu kimi, zamanımızda da şeytanlar necə çoxdursa, Qiyamətədək də eləcə çox olacaq: **“Beləcə, Biz hər peyğəmbər üçün günahkarlardan bir düşmən** ***təyin*** **etdik”.**[2]

Peyğəmbərlərin ardıcıllarından olan insanlara şeytan düşmənlər gəlib “bu belədir, bu belədir” deyə vəsvəsələr verirlər. Ola bilsin, avam insanlara batil məzhəblər və yalançı millətlərlə vəsvəsə versinlər. Buna görə də müxtəlif vəsvəsələr verən insanlardan olan şeytanlardan çəkinmək lazımdır.

Mühüm olan budur ki, insan bu üç surəni hər səhər və axşam oxumalıdır. Çünki bunu Peyğəmbər ﷺ əmr etmişdir. Müvəffəq edən Allahdır.

Sonra müəllif رحمه الله Osman ibn Əffandan رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini nəql etmişdir: **“Hər səhər və hər axşam üç dəfə: “Adı çəkildikdə yerdə və səmada heç bir şeyin zərər verə bilmədiyi Allahın adı ilə. O, Eşidəndir, Biləndir”– deyən bəndəyə heç bir zərər toxunmaz”,** yəni Uca Allah onu həmin günün şərindən qoruyar.

---

[1] “Musnəd İmam Əhməd”, 3/381.

[2] “əl-Furqan” surəsi, 31.

Bunlar asan sözlərdir, lakin faydası olduqca böyükdür: **“Adı çəkildikdə yerdə və səmada heç bir şeyin zərər verə bilmədiyi Allahın adı ilə. O, Eşidəndir, Biləndir”.** Çünki səmaların və yerin səltənəti Uca və nöqsansız Allaha məxsusdur. Adı da bir işdə, bir şeyin üzərinə çəkildikdə mübarək olur. Buna görə də yeməkdən öncə Uca Allahı zikr etmək Sünnədir – yeməmişdən öncə: “bismilləh” (Allahın adı ilə) deyirsən, içmək istədikdə: “bismilləh” (Allahın adı ilə) deyirsən, həyat yoldaşınla yaxınlıq etmək istədikdə: “bismilləh” (Allahın adı ilə) deyirsən.

“Bismilləh” demək çox yerlərdə buyurulub. Lakin daha doğru rəyə əsasən, yeməkdən və içməkdən öncə onu demək vacibdir. İnsan yeməyə başlayanda da, içmək istəyəndə də “bismilləh” deməlidir. Çünki Peyğəmbər ﷺ bunu əmr etmiş və demişdir ki, insan yeməkdən və içməkdən öncə Allahın adını çəkmirsə, şeytan həmin şəxsin yemək-içməyinə şərik olur. Odur ki, hər səhər-axşam üç dəfə bu sözləri deməyi unutma: **“Adı çəkildikdə yerdə və səmada heç bir şeyin zərər verə bilmədiyi Allahın adı ilə. O, Eşidəndir, Biləndir”.**

**“O, Eşidəndir, Biləndir”.** “Eşidən” (əs-Səmi) və “Bilən” (əl-Alim) Allahın adlarındandır. Allahın “Eşidən” adının iki mənası var:

Birinci: Bu eşitmək bütün səsləri dərk etməkdir. Uca Allaha heç bir şey gizli qalmır. Nə qədər uzaq və zəif olsa belə, Allah bütün səsləri eşidir. Uca Allah bu ayəni nazil etmişdir: **“Əri barəsində səninlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin söhbətinizi eşidir. Həqiqətən, Allah Eşidəndir, Görəndir”.**[1]

Bir qadın öz ərindən Peyğəmbərə ﷺ şikayət edir ki, əri onu zihar etmişdir. Yəni demişdir ki, sən mənim üçün anamın beli kimisən. Cahiliyyə dövründə bu söz üç dəfə boşanma kimi hesab olunurdu. Təbii ki, bu yalan və qəbuledilməz bir sözdür. Uca Allah buyurur: **“Sizlərdən öz qadınlarını *anaya bənzədərək* özlərinə haram edənlərin zövcələri onların anaları deyillər. Anaları ancaq onları doğmuş qadınlardır. Onlar yaramaz və yalan söz danışırlar”.**[2]

Qadın Peyğəmbərə ﷺ bu barədə şikayət etmiş, Uca Allah da bu ayəni nazil etmişdir: **“Əri barəsində səninlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin söhbətinizi eşidir. Həqiqətən, Allah Eşidəndir, Görəndir”.** Həmin vaxt Aişə رضي الله عنها demişdi: “Bütün

---

[1] “əl-Mücadələ” surəsi, 1.

[2] “əl-Mücadələ” surəsi, 2.

səsləri eşidən Allaha həmd olsun. Allaha and olsun ki, qadın gəlib Peyğəmbərlə danışanda mən hücrəmdə idim və onun sözlərinin bir hissəsini eşitmədim. Yeddi səmanın üzərində olan Allah isə onun sözlərini eşitdi".

Sənin səsin zəif olsa belə, Uca Allah onu eşidir: **"Yoxsa onlar elə hesab edirlər ki, Biz onların sirlərini və gizli danışıqlarını eşitmirik?! Xeyr, onların yanında *əməlləri* yazan elçilərimiz var".**[1] Məbadə izzət və cəlal sahibi Allahın xoşlamadığı bir sözü Ona eşitdirəsən. Çalış hər zaman Uca və nöqsansız Allahın razı qaldığı sözləri Ona eşitdirəsən.

İkinci: "Eşidən" adının digər mənası budur ki O, duaları eşidir. Yəni onlara cavab da verir. İbrahim peyğəmbərin buyurduğu kimi: **"Həqiqətən də Rəbbim duaları Eşidəndir".**[2] Yəni dualara cavab verəndir.

Uca Allah çətinlikdə olan adam kafir olsa belə, onun duasını eşidir. İzzət və cəlal sahibi Allah dualara cavab verir. Dənizdə fırtınaya düşən və yüksələn dalğalar qarşısında aciz qalan adam ixlasla Allaha dua edirsə, Allah onun duasına cavab verir.

Uca Allah məzlumun da duasını cavabsız qoymur. Peyğəmbər ﷺ demişdir: **"Məzlumun duasından qorx, çünki onunla Allah arasında heç bir hicab yoxdur".**[3] Uca və nöqsansız Allah Ona ibadət edən, həmd və təriflər edən kəsin də duasını qəbul edir. Namaz qılanların dediyi kimi: "Allah Ona həmd edəni eşitdi".

"Bilən" (əl-Alim) də Allahın adlarından biridir. Allahın elmi geniş və hər şeyi əhatə edəndir. Uca Allah buyurur: **"Qeybin açarları Onun yanındadır – onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru *şey* yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın".**[4]

Allah bətnlərdə olanları və aşağıdakı ayədə qeyd olunan qeybin beş açarını bilir. Uca Allah buyurur: **"Həqiqətən, *Qiyamət* saatı haqqında elm yalnız Allahdadır. Yağışı O yağdırır və bətnlərdə olanı O bilir. Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz. Allah isə, şübhəsiz ki, *hər şeyi* biləndir, *hər şeydən* xəbərdardır".**[5]

---

[1] "əz-Zuxruf" surəsi, 80.

[2] "İbrahim" surəsi, 39.

[3] "Səhih əl-Buxari", 1401; "Səhih Muslim", 27.

[4] "əl-Ənam" surəsi, 59.

[5] "Loğman" surəsi, 34.

Qeybin açarları izzət və cəlal sahibi Allaha məxsusdur. Ağacdan düşən elə bir yarpaq yoxdur ki, Onun bundan xəbəri olmasın. Uzaq yerlərdə hər hansı bir ağacdan kiçik bir yarpaq yerə düşdükdə belə, Allahın bundan xəbəri olur. Əgər əzəmətli və uca Allah bunu bilirsə, deməli xəlq etdiyi hadisələri də bilir. Allah hər bir şeyi Biləndir.

Uca Allah buyurur: **"Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz".** Məsələn, sən öz ölkəndəsən və heç bir yerə səfərə çıxmaq niyyətin yoxdur. Allah sənin başqa bir yerdə canını almaq istədikdə orada sənin üçün bir ehtiyac yaradar. Bu zaman ehtiyac duyduğun bir şeyi O həmin diyarda bərqərar edir, sən də onun üçün ora gedir və orada ölürsən.

Tanış bir adam mənə qəribə bir hadisə danışıb. Deyir ki, insanlar hələ dəvə ilə həcc etdikləri dövrdə onlar da həcc edib Məkkədən çıxmışdılar. Bir gecə onun anası yolda xəstələnir və o da anasına qulluq etməyə başlayır. Gecənin bir aləmində adamlar çıxıb gedirlər. O anasının yanında tək qalır və minik üzərində ona yataq düzəldib anasını miniyə qaldırır və yola düzəlirlər. Ancaq yolu itirirlər. Günəşin çıxması ilə hava bərk qızır. Kiçik bir daxması olan adamla rastlaşırlar. Ondan soruşurlar ki, Nəcd yolu haradadır? Həmin adam da cavab verir ki, Nəcd yolu çox uzaqdadır. Siz düşüb dincəlin, sonra sizə yolu göstərərəm. Mən də miniyimi bağlayıb anamı düşürdüm. Anamı düşürəndə o vəfat etdi. Sübhanallah! Adam öz şəhərindən çıxır və məchul bir yerdə – izzət və cəlal sahibi Allahın təqdir etdiyi yerdə vəfat edir. Uca Allah buyurur: **"Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz".**

Allahın elmi hər şeyi, hətta sənin nəfsində olanı da əhatə edir. Uca Allah buyurur: **"Biz insanı yaratdıq və nəfsinin ona vəsvəsə etdiklərini bilirik".**[1] Odur ki, Allahın bildiyi bir şeyi nəfsində gizlətmə. Məbadə Uca və Böyük Allahın razı qalmadığı bir şeyi nəfsində gizlədəsən.

Xülasə, mühüm olan odur ki, hər səhər və axşam bu duanı etmək lazımdır: **"Adı çəkildikdə yerdə və səmada heç bir şeyin zərər verə bilmədiyi Allahın adı ilə. O, Eşidəndir, Biləndir".**

[1] "Qaf" surəsi, 16.

# İki yüz qırx doqquzuncu fəsil

## Yatmamışdan öncə deyilənlər

**Mövzu ilə əlaqəli ayə:**

Uca Allah buyurur:

﴿ إِنَّ فِي خَلْقِ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ وَٱخْتِلَٰفِ ٱلَّيْلِ وَٱلنَّهَارِ لَءَايَٰتٍ لِّأُو۟لِى ٱلْأَلْبَٰبِ * ٱلَّذِينَ يَذْكُرُونَ ٱللَّهَ قِيَٰمًا وَقُعُودًا وَعَلَىٰ جُنُوبِهِمْ وَيَتَفَكَّرُونَ فِي خَلْقِ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ رَبَّنَا مَا خَلَقْتَ هَٰذَا بَٰطِلًا سُبْحَٰنَكَ فَقِنَا عَذَابَ ٱلنَّارِ ﴾

**“Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər, göylərin və yerin yaradılışı haqqında düşünər *və deyərlər:* “Ey Rəbbimiz, Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!”[1]**

**Mövzu ilə əlaqəli hədislər:**

١٤٥٨– وعنْ حُذيفةَ وأَبي ذرٍّ رضي الله عنهما أَنَّ رسُول اللَّهِ ﷺ كانَ إِذَا أَوَى إِلَى فِرَاشِهِ قالَ: « باسْمِكَ اللَّهُمَّ أَحْيَا وَأَمُوتُ ». رواه البخاري.

**1458.** Huzeyfə və Əbu Zərdən رضي الله عنهما rəvayət olunur ki, Rəsulullah ﷺ yatağına uzandıqda deyərdi: **“Allahım, Sənin adınla dirilir və ölürük”**.

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

١٤٥٩– وعَنْ عليٍّ رضي الله عنه أَنَّ رسُولَ اللَّهِ ﷺ قالَ له وَلِفَاطِمةَ رضي الله عنهما: « إِذَا أَوَيْتُمَا إِلَى فِراشِكُما، أَوْ إِذَا أَخَذْتُمَا مَضَاجِعَكُما فكَبِّرا ثَلاثاً وَثَلاثِينَ، وَسَبِّحَا ثَلاثاً وثَلاثِينَ،

---

[1] “Ali İmran” surəsi, 190-191.

[2] “Səhih əl-Buxari”, 5837.

وَاحْمَدَا ثَلاثاً وَثَلاثِين » وفي روايةٍ: « التَّسْبِيحُ أَرْبعاً وَثَلاثِينَ » وفي روايةٍ: « التَّكبيرُ أَربعاً وَثَلاثِينَ ». متفقٌ عليه.

**1459.** Əlidən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ ona və Fatiməyə ﷺ belə demişdir: **"Yatağınıza girdikdə və ya yerinizə uzandıqda otuz üç dəfə "Allahu əkbər", otuz üç dəfə "sübhanallah", otuz üç dəfə "əlhəmdulilləh" deyin".**[1]

Başqa bir rəvayətdə: **"otuz dörd dəfə "sübhanallah"**, digər bir rəvayətdə isə: **"otuz dörd dəfə "Allahu Əkbər"**– deyilir.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٤٦٠– وعن أَبي هُريرةَ ﷺ، قال: قال رسولُ اللَّهِ ﷺ: « إِذا أَوَى أَحَدُكُم إِلى فِراشِهِ، فَلْيَنْفُضْ فِراشَهُ بداخِلَةِ إِزَارِهِ فإِنَّهُ لاَ يَدْرِي مَا خَلَفَهُ عَلَيْهِ، ثُمَّ يَقُولُ: بِاسْمِكَ رَبِّي وَضَعْتُ جَنْبِي، وَبِكَ أَرْفَعُهُ، إِنْ أَمْسَكْتَ نَفْسِي فَارْحَمْها، وإِنْ أَرْسَلْتَهَا، فَاحْفَظْهَا بِمَا تَحْفَظُ بِه عِبادَكَ الصَّالِحِينَ ». متفقٌ عليه.

**1460.** Rəvayət olunur ki, Əbu Hureyra ﷺ demişdir: "Rəsulullah ﷺ dedi: **"Sizlərdən biriniz yatağına uzandıqda libasının ətəyinin içi ilə yatağını təmizləsin. Çünki o, özündən öncə orada kimin uzandığını bilmir. Sonra desin: "Ey Rəbbim, Sənin adınla böyrümü qoydum, Səninlə də onu qaldırıram. Əgər canımı saxlasan, ona rəhm et, əgər onu buraxsan, əməlisaleh bəndələrini qoruduğun kimi, onu da qoru".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

**Şərh:**

Bu hədislər yatmazdan öncə deyilməli olan zikrlərlə bağlıdır. Onlardan biri Əli ibn Əbu Talib və Fatimə binti Muhəmməd ﷺ barəsindədir.

Bir dəfə Fatimə atasına dən üyütmək üçün dəyirman daşına ehtiyacı olduğunu demiş, atasından bir xidmətçi də istəmişdi. Peyğəmbər ﷺ də

---

[1] "Səhih əl-Buxari", 5843; "Səhih Muslim", 4906.
[2] "Səhih əl-Buxari", 2881.
[3] "Səhih əl-Buxari", 5845; "Səhih Muslim", 4889.

ona belə demişdi: “Sizə xidmətçidən daha xeyirlisi barədə xəbər verimmi?” Sonra da onlara buyurmuşdu ki, onlar yataqlarına girdikdə otuz üç dəfə “sübhanallah”, otuz üç dəfə “əlhəmdulilləh” və otuz dörd dəfə “Allahu əkbər” desinlər. Sonra demişdi ki, “Bu, xidmətçidən daha xeyirlidir”.

Sünnədir ki, insan yatağına uzandıqda otuz üç dəfə “sübhanallah”, otuz üç dəfə “əlhəmdulilləh” və otuz dörd dəfə “Allahu əkbər” desin. Bu da yüz edir. Bu, insana işlərini görməkdə yardım edir. Yatdıqda bunu edən həm də izzət və cəlal sahibi Allahı zikr edərək yatmış olur.

Əbu Hureyradan ﵁ nəql olunan hədisdə də deyilir ki, insan yatağına uzanmaq istədikdə libasının ətəyinin daxili ilə yatağını üç dəfə təmizləməlidir. Sanki bunda hikmət – daha doğrusunu Allah bilir – yataqda ola biləcək bir şeylə libasın çirklənməməsidir. Sonra o belə deməlidir: **“Ey Rəbbim, Sənin adınla böyrümü qoydum, Səninlə də onu qaldırıram. Əgər canımı saxlasan, ona rəhm et, əgər onu buraxsan, əməlisaleh bəndələrini qoruduğun kimi, onu da qoru”.** Çünki insan yatdıqda Allah onun ruhunu alır. Uca Allah bu xüsusda buyurur: **“Allah ölənlərin canını ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alır. Ölümünə hökm verdiyi kəsin canını saxlayır, digərini isə müəyyən olunmuş vaxtadək buraxır”.**[1]

Yatmış insanın ruhunun alınması ölən insanın ruhunun alınması kimi olmasa da, bu da ruhun bir alınma növüdür. Bu zaman insan huşunu itirir və ətrafındakıları hiss etmir. Buna görə də Uca Allah yatmağı vəfat adlandırır. Uca Allah buyurur: **“Gecələr sizi öldürən (yatızdıran), gündüzlər isə nələr etdiyinizi bilən Odur. Sonra O, sizi səhərlər oyadır ki, müəyyən olunmuş əcəliniz gəlib çatsın”.**[2]

Yatmaq istəyən insan gərək bu zikri etsin: **“Ey Rəbbim, Sənin adınla böyrümü qoydum, Səninlə də onu qaldırıram. Əgər canımı saxlasan, ona rəhm et, əgər onu buraxsan, əməlisaleh bəndələrini qoruduğun kimi, onu da qoru”.**

Müvəffəq edən Allahdır.

---

[1] “əz-Zumər” surəsi, 42.
[2] “əl-Ənam” surəsi, 60.

١٤٦١– وعنْ عائشةَ ﵂، أَنَّ رسول اللَّهِ ﷺ كان إِذَا أَخَذَ مضْجعَهُ نَفَثَ فِي يدَيْهِ، وَقَرأَ بالْمُعَوِّذاتِ ومَسح بِهِمَا جَسَدَهُ. متفقٌ عليه.

وفي رواية لهما: أَنَّ النبيَّ ﷺ كَانَ إِذَا أَوى إِلى فِرَاشِهِ كُلَّ لَيْلَةٍ جمَع كَفَّيْهِ ثُمَّ نفَثَ فيهما فَقَرأَ فِيهما: قُلْ هُوَ اللَّه أَحَدٌ، وقُلْ أَعُوذُ بِرَبِّ الفلَقِ، وَقُلْ أَعُوذُ بِربِّ النَّاسِ، ثُمَّ مَسَحَ بِهِمَا ما اسْتطاعَ مِن جسَدِهِ، يبْدأُ بِهِما عَلَى رَأْسِهِ وَوجهِهِ، وما أَقبلَ مِنْ جَسَدِهِ، يَفْعَلُ ذلكَ ثَلاَثَ مرَّات. متفقٌ عليه.

قال أَهلُ اللُّغَةِ: « النَّفْثُ » نَفخٌ لَطِيفٌ بِلاَ رِيقٍ.

**1461.** Aişədən ﵂ rəvayət olunur ki, “Rəsulullah ﷺ yatağına gəldikdə əllərinin içərisinə üfürər, sonra “əl-Fələq” və “ən-Nəs” surələrini oxuyaraq bədəninə sürtərdi”.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Başqa rəvayətdə isə belədir: “Peyğəmbər hər gecə yatağına gəldikdə əllərini birləşdirər, sonra onlara üfürərək içərisinə “əl-İxlas”, “əl-Fələq” və “ən-Nəs” surələrini oxuyardı. Sonra bacardığı qədər bədəninə sürtərdi. Əvvəlcə başından və üzündən başlayar, sonra bədəninin qabaq hissələrinə sürtərdi. O, bunu üç dəfə təkrarlayardı”.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

[Hədisin ərəbcəsində keçən] “nəfəs” sözünün mənası haqqında dilçi alimlər demişlər ki, bu, “tüpürmədən üfürmək”dir.

١٤٦٢– وَعنِ البرَاءِ بنِ عازِبٍ، ﵄، قَالَ: قال لي رسُولُ اللَّهِ ﷺ: «إِذَا أَتَيتَ مَضْجَعَكَ فَتَوضَّأْ وضُوءَكَ لِلصَّلاَةِ، ثُمَّ اضْطَجِعْ عَلى شِقِّكَ الأَيمَنِ، وقلْ: اللَّهُمَّ أَسْلَمْتُ نفسي إِلَيكَ، وَوَجَّهْتُ وَجْهِي إِلَيْكَ. وَفَوَّضتُ أَمري إِلَيْكَ، وَأَلَجأْتُ ظَهرِي إِلَيْكَ، رغبةً ورهْبَةً إِلَيْكَ، لامَلجأَ ولا مَنجي مِنْكَ إِلاَّ إِليكَ، آمنتُ بِكِتَابِكَ الذِي أَنزَلْت، وَبِنَبِيِّكَ الذِي أَرسَلتَ، فإِنْ مِتَّ. مِتَّ على الفِطرةِ، واجْعَلهُنَّ آخِرَ ما تَقُولُ». مُتَّفقٌ عليهِ.

---

[1] “Səhih əl-Buxari”, 5844.

[2] “Səhih əl-Buxari”, 4630.

**1462.** Rəvayət olunur ki, Bəra ibn Azib ﷺ demişdir: «Rəsulullah ﷺ mənə belə dedi: **"Yatağına gəldikdə namaz üçün dəstəmaz aldığın kimi, dəstəmaz al. Sonra sağ böyrün üstə uzan və de: "Allahım, nəfsimi Sənə təslim etdim, işimi Sənə tapşırdım, kürəyimi Sənə və göndərdiyin Peyğəmbərinə arxayın etdim. Səndən qurtuluş yeri və sığınacaq ancaq Sənin özündədir. Nazil etdiyin Kitaba, göndərdiyin Peyğəmbərə iman gətirdim". Əgər ölsən, fitrət üzərində ölmüş olarsan. Çalış ən son dediklərin bunlar olsun"».**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٤٦٣– وَعَنْ أَنَسٍ ﷺ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ إذا أَوَى إِلى فِرَاشِهِ قَال: «الحمْدُ للهِ الَّذي أَطْعَمنَا وسقَانا، وكفَانَا وآوانَا، فكمْ مِمَّنْ لا كافِيَ لَهُ ولا مُؤْوِيَ ». رواهُ مسلمٌ.

**1463.** Ənəsdən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ yatağına gəldikdə deyərdi: **"Bizi yedirən, içirən, bizə kifayət olan, bizi sığındıran Allaha həmd olsun. Nə qədər insanlar var ki, onların nə bir yardımçısı var, nə də sığındıranı".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٤٦٤– وعنْ حُذيْفَةَ، ﷺ، أَنَّ رسُول اللَّهِ ﷺ كَانَ إِذا أَرَاد أَنْ يرْقُدَ، وضَع يَدهُ اليُمنَى تَحْتَ خَدِّهِ، ثُمَّ يقُولُ: « اللَّهمَّ قِني عَذَابكَ يوْمَ تَبْعثُ عِبادَكَ ». رواهُ الترمِذيُّ وقال: حديثٌ حَسنٌ. وَرَواهُ أَبو داودَ مِنْ رِوايةِ حفْصةَ، ﷺ، وَفيهِ أَنَّهُ كَانَ يقُولهُ ثَلاثَ مَرَّاتٍ.

**1464.** Hüzeyfədən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ yatmaq istədikdə sağ əlini çənəsinin altına qoyar və deyərdi: **"Allahım, bəndələrini diriltdiyin gün məni Öz əzabından qoru"**.

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişdir.[3]

Əbu Davud da bu hədisi Həfsadan ﷺ rəvayət etmişdir. Həmin rəvayətdə onun bu sözləri üç dəfə dediyi qeyd olunur.[4]

---

1 "Səhih əl-Buxari", 5838; "Səhih Muslim", 4884.
2 "Səhih Muslim", 4890.
3 "Sunən ət-Tirmizi", 3321.
4 "Sunən Əbu Davud", 4388.

**Şərh:**

Bu hədislər müəllifin ﷬ yatmaq zikrləri ilə bağlı qeyd etdiyi hədislərin davamıdır. Onlardan biri Aişədən ﷺ rəvayət olunmuşdur.

Həmin hədisdə deyilir ki, Peyğəmbər ﷺ yatağına gəldikdə əllərini birləşdirərdi. Yəni onları bir-birinə toxundurar, sonra onlara üfürərdi. Ərəbcə "nəfəs" sözü azacıq tüpürərək üfürməkdir. Sonra əllərinə "əl-İxlas", "əl-Fələq" və "ən-Nəs" surələrini oxuyar, sonra da əllərini bədəninə sürtərdi. Yəni əllərini başından başlayaraq bacardığı qədər bədəninin ön hissəsinə üç dəfə sürtərdi.

Yatağına uzanmaq istəyən kəs da gərək belə etsin: əllərini birləşdirib içərisinə "əl-İxlas", "əl-Fələq", "ən-Nəs" surələrini üç dəfə oxusun. Sonra əllərini başına, üzünə, sinəsinə, qarnına, budlarına, baldırlarına və bədənində əlinin çatdığı hər yerə sürtsün.

İkinci hədis Bəra ibn Azibin ﷺ hədisidir. Biz onu daha öncə şərh etmişik.

Ənəs ibn Malikdən ﷺ rəvayət olunan üçüncü hədisdə deyilir ki, Peyğəmbər ﷺ yatağına gəldikdə deyərdi: **"Bizi yedirən, içirən, bizə kifayət olan, bizi sığındıran Allaha həmd olsun. Nə qədər insanlar var ki, onların nə bir yardımçısı var, nə də sığındıranı".**

Bununla o izzət və cəlal sahibi Allaha həmd edir ki, ona yemək və içmək bəxş edib. Çünki izzət və cəlal sahibi Allah sənə yemək və içməyi bəxş etməsəydi, yeyib-içə bilməzdin. Uca Allah buyurur: **"Əkdiyinizi gördünüzmü?! Onu siz bitirirsiniz, yoxsa Biz?! Əgər Biz istəsəydik, onu bir saman çöpünə döndərər, siz də heyrətə gələrdiniz,** ***və deyərdiniz*****: "Biz ziyana uğradıq. Xeyr, biz** ***ruzidən*** **məhrum olduq!".**[1]

**"Bizi yedirən, içirən... Allaha həmd olsun"**. Sənə yemək və içmək verən Allaha həmd edirsən.

**"Bizə kifayət olan"** – işləri bizə asanlaşdırır, bizə nemətlər bəxş edir.

**"Bizi sığındıran"**, yəni O bizim üçün sığınacaq müəyyən etmişdir. Çünki "**Nə qədər insanlar var ki, onların nə bir yardımçısı var, nə də sığındıranı"**.

---

[1] "əl-Vaqiə" surəsi, 63-67.

Odur ki, gərək yatağına gəldikdə bu zikri edəsən.

Huzeyfə və Həfsadan nəql olunan hədislər də buna aiddir. Həmin hədisdə deyilir ki, Peyğəmbər ﷺ uzandıqda sağ əlini sağ üzünə qoyar və deyərdi: **“Allahım, bəndələrini diriltdiyin gün məni Öz əzabından qoru!”.**

Bütün bu zikrlər Peyğəmbərdən ﷺ nəql olunmuşdur. İnsan da gərək bu zikrləri davamlı, həm də Peyğəmbər ﷺ dediyi kimi desin. Müvəffəq edən Allahdır.

Bununla da Uca Allahın yardımı və müvəffəqiyyəti ilə beşinci cild də bitdi. İnşəAllah bundan sonra altıncı cild gəlir. Həmin cild “Dualar kitabı” ilə başlayır.

# Mündəricat


**Yüz səksən beşinci fəsil: Dəstəmazın fəziləti ........ 5**

1024-cü hədis ........ 8

1025-ci hədis ........ 8

1026-cı hədis ........ 9

1027-ci hədis ........ 11

1028-ci hədis ........ 12

1029-cu hədis ........ 14

1030-cu hədis ........ 18

1031-ci hədis ........ 18

1032-ci hədis ........ 19

**Yüz səksən altıncı fəsil: Azanın fəziləti ........ 24**

1033-cü hədis ........ 24

1034-cü hədis ........ 29

1035-ci hədis ........ 30

1036-cı hədis ........ 31

1037-ci hədis ........ 32

1038-ci hədis ........ 36

1039-cu hədis ........ 36

1040-cı hədis ........ 37

1041-ci hədis ........ 37

**Yüz səksən yeddinci fəsil: Namazların fəziləti ........ 41**

1042-ci hədis ........ 45

1043-cü hədis ........ 45

1044-cü hədis ........ 46

1045-ci hədis ........ 46

1046-cı hədis ........ 46

**Yüz səksən səkkizinci fəsil: Sübh və əsr namazlarının fəziləti ........ 50**

1047-ci hədis ........ 50

1048-ci hədis ........ 50

1049-cu hədis ........ 52

1050-ci hədis ............ 52
1051-ci hədis ............ 53
1052-ci hədis ............ 53
**Yüz səksən doqquzuncu fəsil: Məscidlərə yeriyərək getməyin fəziləti...... 57**
1053-cü hədis ............ 57
1054-cü hədis ............ 57
1055-ci hədis ............ 58
1056-cı hədis ............ 58
1057-ci hədis ............ 61
1058-ci hədis ............ 61
1059-cu hədis ............ 61
1060-cı hədis ............ 62
**Yüz doxsanıncı fəsil: Namazı gözləməyin fəziləti ............ 65**
1061-ci hədis ............ 65
1062-ci hədis ............ 65
1063-cü hədis ............ 65
**Yüz doxsan birinci fəsil: Camaat namazının fəziləti ............ 67**
1064-cü hədis ............ 67
1065-ci hədis ............ 67
1066-cı hədis ............ 69
1067-ci hədis ............ 70
1068-ci hədis ............ 70
1069-cu hədis ............ 72
1070-ci hədis ............ 75
**Yüz doxsan ikinci fəsil: Sübh və işa namazlarında camaat namazına gəlməyə təşviq etmək ............ 78**
1071-ci hədis ............ 78
1072-ci hədis ............ 79
1073-cü hədis ............ 79
**Yüz doxsan üçüncü fəsil: Fərz namazlarını qorumağın əmr edilməsi, onları tərk etməyin qadağan olması və buna görə şiddətli əzab vədi ............ 82**
1074-cü hədis ............ 82

1075-ci hədis ........ 85
1076-cı hədis ........ 90
1077-ci hədis ........ 92
1078-ci hədis ........ 94
1079-cu hədis ........ 95
1080-ci hədis ........ 95
1081-ci hədis ........ 98
**Yüz doxsan dördüncü fəsil: Birinci sırada durmağın fəziləti, sıraların tamamlanması əmri, düz və sıx durmaq ........ 100**
1082-ci hədis ........ 100
1083-cü hədis ........ 100
1084-cü hədis ........ 104
1085-ci hədis ........ 104
1086-cı hədis ........ 104
1087-ci hədis ........ 105
1088-ci hədis ........ 106
1089-cu hədis ........ 107
1090-cı hədis ........ 109
1091-ci hədis ........ 109
1092-ci hədis ........ 110
1093-cü hədis ........ 110
1094-cü hədis ........ 111
1095-ci hədis ........ 111
1096-cı hədis ........ 111
**Yüz doxsan beşinci fəsil: Fərzlərlə bərabər sünnə namazlarının fəziləti, onların azının, kamilinin və onların arasında olanın bəyanı ........ 113**
1097-ci hədis ........ 113
1098-ci hədis ........ 113
1099-cu hədis ........ 114
**Yüz doxsan altıncı fəsil: Sübh namazının nafilə iki rükətinə təkid ........ 117**
1100-cü hədis ........ 117
1101-ci hədis ........ 117
1102-ci hədis ........ 117

1103-cü hədis ..... 118
**Yüz doxsan yeddinci fəsil: Sübh namazının nafilə iki rükətinin qısalığı, həmin namazda oxunanlar və olanların bəyanı ..... 120**
1104-cü hədis ..... 120
1105-ci hədis ..... 120
1106-cı hədis ..... 121
1107-ci hədis ..... 121
1108-ci hədis ..... 122
1109-cu hədis ..... 122
**Yüz doxsan səkkizinci fəsil: Sübh namazından sonra sağ tərəf üzərində uzanmağın müstəhəbliyi və gecə namazını qılmış olsa belə, buna təşviq ..... 123**
1110-cu hədis ..... 123
1111-ci hədis ..... 123
1112-ci hədis ..... 124
**Yüz doxsan doqquzuncu fəsil: Zöhrün sünnəsi ..... 126**
1113-cü hədis ..... 126
1114-cü hədis ..... 126
1115-ci hədis ..... 126
1116-cı hədis ..... 127
1117-ci hədis ..... 127
1118-ci hədis ..... 127
**İki yüzüncü fəsil: Əsrin sünnəsi ..... 129**
1119-cu hədis ..... 129
1120-ci hədis ..... 129
1121-ci hədis ..... 129
**İki yüz birinci fəsil: Məğribin əvvəlki və sonrakı sünnəsi ..... 130**
1122-ci hədis ..... 130
1123-cü hədis ..... 130
1124-cü hədis ..... 130
1125-ci hədis ..... 131
**İki yüz ikinci fəsil: İşanın əvvəlki və sonrakı sünnəsi ..... 132**
**İki yüz üçüncü fəsil: Cümənin sünnəsi ..... 134**

1126-cı hədis ........ 134
1127-ci hədis ........ 134
**İki yüz dördüncü fəsil: Bütün nafilələri evdə qılmağın müstəhəbliyi, fərz namazından sonra nafilə üçün yeri dəyişmək və ya onları danışmaqla ayırmaq ........ 136**
1128-ci hədis ........ 136
1129-cu hədis ........ 136
1130-cu hədis ........ 136
1131-ci hədis ........ 138
**İki yüz beşinci fəsil: Vitr namazına təşviq və onun təkid edilən sünnə olmasının və vaxtının bəyanı ........ 140**
1132-ci hədis ........ 140
1133-cü hədis ........ 140
1134-cü hədis ........ 140
1135-ci hədis ........ 143
1136-cı hədis ........ 143
1137-ci hədis ........ 144
1138-ci hədis ........ 144
**İki yüz altıncı və iki yüz yeddinci fəsillər: Duha namazının fəziləti, onun qılındığı ən fəzilətli vaxt, onun azının, ortasının və çoxunun bəyanı, onu davamlı qılmağa təşviq ........ 146**
1139-cu hədis ........ 146
1140-cı hədis ........ 146
1141-ci hədis ........ 147
1142-ci hədis ........ 147
1143-cü hədis ........ 147
**İki yüz səkkizinci fəsil: Məscidə salam namazına təşviq, hər hansı bir vaxtda məscidə daxil olduqda iki rükət namaz qılmadan oturmağın məkruhluğu – bu, məscidə salam da ola bilər, fərz də, sünnə və ya başqa namaz da ........ 151**
1144-cü hədis ........ 151
1145-ci hədis ........ 151

**İki yüz doqquzuncu fəsil: Dəstəmazdan sonra iki rükət namaz qılmağın müstəhəbliyi ........ 152**
1146-cı hədis ........ 152
**İki yüz onuncu fəsil. Cümə gününün fəziləti, onun vacibliyi, onun üçün namaz qılmaq, ətirlənmək, ona tələsmək; cümə günü dua, Peyğəmbərə salavat demək; icabət saatı barədə; habelə cümədən sonra Allahı çoxlu zikr etmək ........ 155**
1147-ci hədis ........ 159
1148-ci hədis ........ 161
1149-cu hədis ........ 161
1150-ci hədis ........ 161
1151-ci hədis ........ 162
1152-ci hədis ........ 162
1153-cü hədis ........ 162
1154-cü hədis ........ 164
1155-ci hədis ........ 165
1156-cı hədis ........ 167
1157-ci hədis ........ 167
1158-ci hədis ........ 168
**İki yüz on birinci fəsil. Məlum bir nemət əldə etdikdə, yaxud məlum bir bəla sovuşduqda şükür səcdəsi etmək ........ 171**
1159-cu hədis ........ 171
**İki yüz on ikinci fəsil. Gecə namazının fəziləti ........ 174**
**İki yüz on ikinci fəslin davamı. Gecə namazının fəziləti** [ardı] ........ **179**
1160-cı hədis ........ 184
1161-ci hədis ........ 186
1162-ci hədis ........ 186
1163-cü hədis ........ 186
1164-cü hədis ........ 187
1165-ci hədis ........ 187
1166-cı hədis ........ 190
1167-ci hədis ........ 193
1168-ci hədis ........ 194

1169-cu hədis ............ 194
1170-ci hədis ............ 194
1171-ci hədis ............ 196
1172-ci hədis ............ 197
1173-cü hədis ............ 197
1174-cü hədis ............ 197
1175-ci hədis ............ 198
1176-cı hədis ............ 202
1177-ci hədis ............ 202
1178-ci hədis ............ 202
1179-cu hədis ............ 204
1180-ci hədis ............ 204
1181-ci hədis ............ 204
1182-ci hədis ............ 205
1183-cü hədis ............ 205
1184-cü hədis ............ 205
1185-ci hədis ............ 206
1186-cı hədis ............ 206
**İki yüz on üçüncü fəsil. Ramazan qiyamının, yəni təravih namazının müstəhəbliyi ............ 208**
1187-ci hədis ............ 208
1188-ci hədis ............ 208
**İki yüz on dördüncü fəsil. Qədr gecəsinin qiyamının fəziləti və onun əsas gecələrinin bəyanı ............ 210**
1189-cu hədis ............ 210
1190-ci hədis ............ 211
1191-ci hədis ............ 211
1192-ci hədis ............ 211
1193-cü hədis ............ 211
1194-cü hədis ............ 212
1195-ci hədis ............ 212
**İki yüz on beşinci fəsil. Misvak və fitri məsələlər ............ 215**
1196-cı hədis ............ 215

1197-ci hədis ..... 215
1198-ci hədis ..... 215
1199-cu hədis ..... 216
1200-cü hədis ..... 216
1201-ci hədis ..... 216
1202-ci hədis ..... 216
1203-cü hədis ..... 218
1204-cü hədis ..... 221
1205-ci hədis ..... 222
**İki yüz on altıncı fəsil. Zəkatın vacib olmasının təkid olunması, onun fəziləti ilə bağlı məsələlər ..... 225**
1206-cı hədis ..... 229
1207-ci hədis ..... 230
1208-ci hədis ..... 230
1209-cu hədis ..... 233
1210-cu hədis ..... 233
1211-ci hədis ..... 238
1212-ci hədis ..... 238
1213-cü hədis ..... 239
1214-cü hədis ..... 240
**İki yüz on yeddinci fəsil. Ramazan orucunun vacibliyi, orucun fəzilətinin bəyanı və bununla bağlı məsələlər ..... 246**
1215-ci hədis ..... 251
1216-cı hədis ..... 255
1217-ci hədis ..... 255
1218-ci hədis ..... 256
1219-cu hədis ..... 256
1220-ci hədis ..... 258
1221-ci hədis ..... 258
**İki yüz on səkkizinci fəsil. Yaxşılıq, yaxşı işlər görmək; Ramazan ayında, ələlxüsus da onun son on günündə xeyirli işləri çoxaltmaq ..... 260**
1222-ci hədis ..... 260

1223-cü hədis ... 260
**İki yüz on doqquzuncu fəsil. Şabanın ortasından sonra, Ramazandan öncə oruc tutmaq. Yalnız bundan öncə adətən oruc tutanlar istisnadır – bazar ertəsi və cümə axşamı oruc tutanlar kimi ... 262**
1224-cü hədis ... 262
1225-ci hədis ... 262
1226-cı hədis ... 262
1227-ci hədis ... 263
**İki yüz iyirminci fəsil. Hilalı gördükdə nə deyilir? ... 265**
1228-ci hədis ... 265
**İki yüz iyirmi birinci fəsil. Fəcrin girməsindən qorxmadığı müddətdə səhurun və onu gecikdirməyin fəziləti ... 266**
1229-cu hədis ... 266
1230-cu hədis ... 266
1231-ci hədis ... 266
1232-ci hədis ... 267
**İki yüz iyirmi ikinci fəsil. İftarı tezləşdirməyin fəziləti, nə ilə iftar etmək və iftardan sonra nə deyilir ... 269**
1233-cü hədis ... 269
1234-cü hədis ... 269
1235-ci hədis ... 270
1236-cı hədis ... 270
1237-ci hədis ... 270
1238-ci hədis ... 271
1239-cu hədis ... 271
**İki yüz iyirmi üçüncü fəsil. Oruc tutanın öz dilini və əzalarını müxalif əməllərdən, söyüşdən və buna bənzər başqa əməllərdən qoruması ... 274**
1240-cı hədis ... 274
1241-ci hədis ... 274
**İki yüz iyirmi dördüncü fəsil. Orucla bağlı məsələlər ... 276**
1242-ci hədis ... 276
1243-cü hədis ... 276

1244-cü hədis ........ 276
1245-ci hədis ........ 277
**İki yüz iyirmi beşinci fəsil. Məhərrəm, şaban və haram aylarda oruc tutmağın fəziləti ........ 280**
1246-cı hədis ........ 280
1247-ci hədis ........ 280
1248-ci hədis ........ 280
**İki yüz iyirmi altıncı fəsil. Zil-hiccə ayının on günündə və başqa günlərində oruc tutmağın fəziləti ........ 283**
1249-cu hədis ........ 283
**İki yüz iyirmi yeddinci fəsil. Ərəfa günü, Aşura və təsua orucunun fəziləti ........ 284**
1250-ci hədis ........ 284
1251-ci hədis ........ 284
1252-ci hədis ........ 284
1253-cü hədis ........ 285
**İki yüz iyirmi səkkizinci fəsil. Şəvval ayının altı gününü oruc tutmağın müstəhəbliyi ........ 286**
1254-cü hədis ........ 286
**İki yüz iyirmi doqquzuncu fəsil. Birinci, dördüncü günlər oruc tutmağın müstəhəbliyi ........ 289**
1255-ci hədis ........ 289
1256-cı hədis ........ 289
1257-ci hədis ........ 289
**İki yüz otuzuncu fəsil. Hər ayın üç gününü oruc tutmağın müstəhəbliyi ........ 290**
1258-ci hədis ........ 290
1259-cu hədis ........ 290
1260-cı hədis ........ 290
1261-ci hədis ........ 291
1262-ci hədis ........ 291
1263-cü hədis ........ 291
1264-cü hədis ........ 292

**İki yüz otuz birinci fəsil. Oruc tutanın yanında yemək yeyilməsinin fəziləti və yeyənin yanında yeyənə dua etməsi ... 295**
1265-ci hədis ... 295
1266-cı hədis ... 295
1267-ci hədis ... 295
**İki yüz otuz ikinci fəsil. Ramazanda etikaf etməyin fəziləti ... 297**
1268-ci hədis ... 297
1269-cu hədis ... 297
1270-ci hədis ... 297

**HƏCC KİTABI**
**İki yüz otuz üçüncü fəsil. Həccin vacibliyi və fəziləti ... 299**
1271-ci hədis ... 299
1272-ci hədis ... 299
1273-cü hədis ... 302
1274-cü hədis ... 303
1275-ci hədis ... 303
1276-cı hədis ... 303
1277-ci hədis ... 304
1278-ci hədis ... 304
1279-cu hədis ... 306
1280-ci hədis ... 307
1281-ci hədis ... 307
1282-ci hədis ... 307
1283-cü hədis ... 308
1284-cü hədis ... 308

**CİHAD KİTABI**
**İki yüz otuz dördüncü fəsil. Cihadın fəziləti ... 311**
1285-ci hədis ... 332
1286-cı hədis ... 332
1287-ci hədis ... 332
1288-ci hədis ... 333
1289-cu hədis ... 333

1290-cı hədis ........ 333
1291-ci hədis ........ 336
1292-ci hədis ........ 336
1293-cü hədis ........ 336
1294-cü hədis ........ 337
1295-ci hədis ........ 339
1296-cı hədis ........ 339
1297-ci hədis ........ 340
1298-ci hədis ........ 340
1299-cu hədis ........ 341
1300-cü hədis ........ 342
1301-ci hədis ........ 342
1302-ci hədis ........ 343
1303-cü hədis ........ 344
1304-cü hədis ........ 344
1305-ci hədis ........ 345
1306-cı hədis ........ 345
1307-ci hədis ........ 345
1308-ci hədis ........ 345
1309-cu hədis ........ 346
1310-cu hədis ........ 346
1311-ci hədis ........ 347
1312-ci hədis ........ 347
1313-cü hədis ........ 348
1314-cü hədis ........ 351
1315-ci hədis ........ 351
1316-cı hədis ........ 352
1317-ci hədis ........ 353
1318-ci hədis ........ 354
1319-cu hədis ........ 355
1320-ci hədis ........ 355
1321-ci hədis ........ 356
1322-ci hədis ........ 357

1323-cü hədis ........ 358
1324-cü hədis ........ 358
1325-ci hədis ........ 358
1326-cı hədis ........ 359
1327-ci hədis ........ 359
1328-ci hədis ........ 359
1329-cu hədis ........ 360
1330-cu hədis ........ 360
1331-ci hədis ........ 360
1332-ci hədis ........ 360
1333-cü hədis ........ 362
1334-cü hədis ........ 362
1335-ci hədis ........ 363
1336-cı hədis ........ 363
1337-ci hədis ........ 363
1338-ci hədis ........ 364
1339-cu hədis ........ 364
1340-ci hədis ........ 364
1341-ci hədis ........ 365
1342-ci hədis ........ 365
1343-cü hədis ........ 365
1344-cü hədis ........ 367
1345-ci hədis ........ 367
1346-cı hədis ........ 368
1347-ci hədis ........ 368
1348-ci hədis ........ 368
1349-cu hədis ........ 369
1350-cu hədis ........ 369
1351-ci hədis ........ 369
1352-ci hədis ........ 370
**İki yüz otuz beşinci fəsil. Bəzi şəhidlər axirət savabında yuyulur və onlara cənazə namazı qılınır. Kafirlərə qarşı döyüşdə öldürülənlər isə fərqlidir........ 371**

1353-cü hədis ........ 371
1354-cü hədis ........ 371
1355-ci hədis ........ 374
1356-cı hədis ........ 374
1357-ci hədis ........ 375
**İki yüz otuz altıncı fəsil. Kölə azad etməyin fəziləti ........ 377**
1358-ci hədis ........ 377
1359-cu hədis ........ 377
**İki yüz otuz yeddinci fəsil. Köləyə yaxşılıq etməyin fəziləti ........ 379**
1360-cı hədis ........ 379
1361-ci hədis ........ 380
**İki yüz otuz səkkizinci fəsil. Allahın və öz sahibinin haqlarını ödəyən kölənin fəziləti ........ 383**
1362-ci hədis ........ 383
1363-cü hədis ........ 383
1364-cü hədis ........ 383
1365-ci hədis ........ 384
**İki yüz otuz doqquzuncu fəsil. Qarışıqlıq və fitnə zamanı ibadət ........ 386**
1366-cı hədis ........ 386
**İki yüz qırxıncı fəsil. Aliş-verişdə güzəşt etmək; götürmək və qaytarmaq; gözəl tərzdə qazilik etmək və hökm vermək; tərəzidə düz çəkmək və çəkidə aldatmamaq; imkanı olanın sıxıntıda olana möhlət və güzəşt etməsinin fəziləti ........ 387**
1367-ci hədis ........ 391
1368-ci hədis ........ 391
1369-cu hədis ........ 392
1370-ci hədis ........ 394
1371-ci hədis ........ 394
1372-ci hədis ........ 394
1373-cü hədis ........ 397
1374-cü hədis ........ 397
1375-ci hədis ........ 397

**ELM KİTABI**
**İki yüz qırx birinci fəsil. Allah üçün elm öyrənməyin və öyrətməyin fəziləti ........ 399**
1376-cı hədis ........ 406
1377-ci hədis ........ 408
1378-ci hədis ........ 411
1379-cu hədis ........ 413
1380-ci hədis ........ 414
1381-ci hədis ........ 416
1382-ci hədis ........ 417
1383-cü hədis ........ 420
1384-cü hədis ........ 423
1385-ci hədis ........ 423
1386-cı hədis ........ 424
1387-ci hədis ........ 424
1388-ci hədis ........ 424
1389-cu hədis ........ 429
1390-ci hədis ........ 429
1391-ci hədis ........ 431
1392-ci hədis ........ 434

**UCA ALLAHA HƏMD VƏ ŞÜKÜR KİTABI**
**İki yüz qırx ikinci fəsil. Həmd və şükrün fəziləti ........ 438**
1393-cü hədis ........ 443
1394-cü hədis ........ 443
1395-ci hədis ........ 444
1396-cı hədis ........ 444

**RƏSULULLAHA SALAVAT KITABI**
**İki yüz qırx üçüncü fəsil. Rəsulullaha salavat deməyin fəziləti ........ 447**
1397-ci hədis ........ 452
1398-ci hədis ........ 455
1399-cu hədis ........ 455
1400-cü hədis ........ 457

1401-ci hədis ........ 457
1402-ci hədis ........ 457
1403-cü hədis ........ 458
1404-cü hədis ........ 458
1405-ci hədis ........ 459
1406-cı hədis ........ 460
1407-ci hədis ........ 461

**ZİKRLƏR KİTABI**

**İki yüz qırx dördüncü fəsil. Zikr etməyin fəziləti və ona təşviq ........ 464**

1408-ci hədis ........ 467
1409-cu hədis ........ 467
1410-cu hədis ........ 468
1411-ci hədis ........ 470
1412-ci hədis ........ 471
1413-cü hədis ........ 471
1414-cü hədis ........ 471
1415-ci hədis ........ 472
1416-cı hədis ........ 473
1417-ci hədis ........ 473
1418-ci hədis ........ 476
1419-cu hədis ........ 479
1420-ci hədis ........ 479
1421-ci hədis ........ 480
1422-ci hədis ........ 480
1423-cü hədis ........ 484
1424-cü hədis ........ 484
1425-ci hədis ........ 486
1426-cı hədis ........ 487
1427-ci hədis ........ 487
1428-ci hədis ........ 489
1429-cu hədis ........ 489
1430-cu hədis ........ 490

1431-ci hədis ... 491
1432-ci hədis ... 493
1433-cü hədis ... 493
1434-cü hədis ... 496
1435-ci hədis ... 496
1436-cı hədis ... 497
1437-ci hədis ... 498
1438-ci hədis ... 498
1439-cu hədis ... 499
1440-cı hədis ... 499
1441-ci hədis ... 499
1442-ci hədis ... 501
1443-cü hədis ... 501
**İki yüz qırx beşinci fəsil. Uca Allahı ayaq üstə, oturarkən, uzanarkən, hədəs vəziyyətində, cünub halında, heyzli olarkən zikr etmək. Quran istisnadır – onu cənabət və ya heyz halında olan kəs oxuya bilməz ... 504**
1444-cü hədis ... 504
1445-ci hədis ... 504
**İki yüz qırx altıncı fəsil. Yatmamışdan öncə və yuxudan qalxdıqda deyilənlər ... 507**
1446-cı hədis ... 507
**İki yüz qırx yeddinci fəsil. Zikr halqaları, bunu etməyin icazəli olması, üzrsüz olaraq onu tərk etməyin qadağan olunması ... 509**
1447-ci hədis ... 509
1448-ci hədis ... 515
1449-cu hədis ... 515
1450-ci hədis ... 517
**İki yüz qırx səkkizinci fəsil. Səhər və axşam zikr etmək ... 520**
1451-ci hədis ... 522
1452-ci hədis ... 522
1453-cü hədis ... 523
1454-cü hədis ... 524

1455-ci hədis ........................................................................................ 526
1456-cı hədis ........................................................................................ 527
1457-ci hədis ........................................................................................ 528
**İki yüz qırx doqquzuncu fəsil. Yatmamışdan öncə deyilənlər..............536**
1458-ci hədis ........................................................................................ 536
1459-cu hədis ........................................................................................ 536
1460-cı hədis ........................................................................................ 537
1461-ci hədis ........................................................................................ 539
1462-ci hədis ........................................................................................ 539
1463-cü hədis ........................................................................................ 540
1464-cü hədis ........................................................................................ 540